


# HEYDƏR ƏLİYEV

## MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

**KİTAB
ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN
ANADAN OLMASININ
90 İLLİYİNƏ
HƏSR OLUNUR.**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – 2013



*Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı yüksəkliklərə qaldıracaqdır.*

HEYDƏR ƏLİYEV

Azf-277693

# HEYDƏR ƏLİYEV

## MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

VII KİTAB

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

«TƏHSİL»
BAKI –2013

Tərtibçilər: **Faiq Şahbazlı**
**Təranə Hacıyeva**
**Aydın Əhmədov**
**Əsgər Quliyev**
**Pirah Əliyev**
**Şahbaz Balakişiyev**

H39 **Heydər Əliyev məktəblilərin gözü ilə.** Bakı, «Təhsil», 2013, 352 səh.

Kitaba ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş inşa müsabiqəsində yer tutmuş 90 yazı daxil edilmişdir.

**H $\frac{4702060201}{053}$ 2013**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2013**
**© «Təhsil», 2013**



## HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL QURUCULUĞU STRATEGİYASI DAVAMLI İNKİŞAF MƏRHƏLƏSİNDƏ

*«Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ağır sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir...»*

**İLHAM ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Müstəqil Azərbaycan dövləti və qədirbilən xalqımız tarixi bir hadisə – çağdaş milli dövlətçiliyimizin memarı və qurucusu, ölkəmizdə təhsil quruculuğu strategiyasının ideya müəllifi, böyük maarifçi, uşaqların, gənclərin, məktəblilərin sevimli babası ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ərəfəsindədir. Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında dövlət səviyyəsində layiqincə keçirilməsini təmin etmək məqsədilə **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən «Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında» 21 yanvar 2013-cü tarixli 2679 nömrəli Sərəncam imzalanmış, tarixi yubileylə bağlı Tədbirlər Planı təsdiq olunmuşdur**. Həmin Sərəncama uyğun olaraq Ulu Öndərin Azərbaycan təhsilinin inkişafı sahəsində misilsiz rolu və xidmətləri nəzərə alınaraq təhsil müəssisələrində bu əlamətdar tarixi yubileyi yüksək səviyyədə qeyd etmək üçün Təhsil Nazirliyinin Tədbirlər Planı hazırlanmış, cari ilin fevralından başlayaraq ardıcıl olaraq onların icrasına başlanmışdır.

Təhsil Nazirliyi tərəfindən gerçəkləşdirilən kompleks tədbirlərdən biri də «Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar təhsil müəssisələrində keçiriləcək tədbirlər haqqında» Nazirliyin 04 fevral 2013-cü il tarixli, 177 nömrəli əmri ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq ümumtəhsil məktəblərinin VII–XI sinif, eləcə də peşə liseylərinin şagirdləri arasında ulu öndər Heydər Əliyevin şərəfli həyat və zəngin dövlətçilik fəaliyyətinə həsr olunmuş inşa yazı müsabiqəsinin keçirilməsidir.

**«Ulu öndər Heydər Əliyev nəsillərə nümunə olan şəxsiyyətdir» nominasiyası üzrə 300 mindən çox ümumtəhsil məktəb və ilk peşə təhsil müəssisələri** şagirdinin qatıldığı bu möhtəşəm bilik yarışı üç mərhələdə (məktəb, rayon (şəhər), respublika) təşkil edilmiş, sonuncu respublika mərhələsinə vəsiqə almış 104 nəfər məktəblinin **«Ulu öndər Heydər Əliyev nəsillərə nümunə olan şəxsiyyətdir»** nominasiyası üzrə yekun müsabiqəsi bu il aprelin 6-da Bakıda, akademik Zərifə Əliyevanın adını daşıyan məktəb-liseyin binasında keçirilmişdir.

Təhsil Nazirliyinin xüsusi əmri ilə yaradılmış ekspert qrupu tərəfindən inşa yazılar qiymətləndirilmiş, **31 nəfər yarışın qalibi** elan olunmuş, onlardan **8 nəfər I yerə, 7 nəfər II yerə, 16 nəfər III yerə, 54 nəfər isə həvəsləndirici – IV yerə** layiq görülmüşdür. Naxçıvan Muxtar Respublikasında həmin nominasiya üzrə təşkil olunmuş müsabiqənin **5** nəfər qalibinin inşa yazıları da bu kitaba daxil edilmişdir.

Təhsil Nazirliyinin rəhbərliyi tərəfindən müsabiqənin yekun mərhələsində iştirak edən ümumtəhsil məktəblərinin VII–XI sinif, eləcə də ilk peşə təhsili müəssisələrinin şagirdlərinin ümummilli lider Heydər Əliyevin şərəfli ömür yoluna, parlaq siyasi və zəngin dövlətçilik fəaliyyətinə həsr olunmuş inşa yazılarının artıq ənənəyə çevrilmiş **«Heydər Əliyev məktəblilərin gözü ilə»** (indiyədək bu adda 6 kitab çap olunub) adı altında ayrıca kitab şəklində nəşr etdirilib qaliblərə və oxuduğu məktəblərə hədiyyə edilməsi qərara alınmışdır. Müstəqil Azərbaycanın təhsil ictimaiyyətinə təqdim olunan, nəfis tərtibat və yüksək poliqrafik keyfiyyətdə nəşr olunmuş bu kitabda toplanan materiallarla ilkin tanışlıq göstərir ki, məktəblilərimiz bütün nəsillərə örnək olan böyük tarixi şəxsiyyət, çağdaş Azərbaycan dövlətinin simvoluna çevrilmiş Ulu Öndər haqqında öz fikir və düşüncələrini yeniyetmə təbiətinə xas olan səmimi və çılğın hisslərlə, həm də bu dahi şəxsiyyətə dərin hörmət, sonsuz ehtiram duyğuları ilə ifadə etmişlər. Kitabda toplanan inşa yazıların hamısında dahi Heydər Əliyev fenomeninə, Heydər Əliyev şəxsiyyətinə hörmət və ehtiram duyğuları məni bir insan kimi duyğulandırdı, qəlbimi iftixar hissi ilə doldurdu...

Kitabda toplanan yazılardan aldığım xoş təəssürat altında mən də milli təhsil quruculuğu konsepsiyasının ideya müəllifi və misilsiz təəssübkeşi, uşaqların, gənclərin sevimli dostu, balalarımızın müdrik babası Heydər Əliyev haqqında, onun müəllifi olduğu milli təhsil quruculuğu strategiyasının müstəqil Azərbaycanın davamlı inkişaf mərhələsindəki uğurları, dövlətin təhsil siyasətinin prioritetləri və gələcək inkişaf tendensiyaları barədə öz fikir və düşüncələrimi hörmətli oxucularla bölüşmək istərdim.

Müstəqil Azərbaycan Respublikasının milli təhsil quruculuğu strategiyasının banisi Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün ölkə Prezidenti



cənab İlham Əliyev tərəfindən böyük uğurla davam və inkişaf etdirilən təhsil sisteminin bütün pillələrindən deyil,yalnız ümumi təhsil pilləsinin inkişafını əks etdirən bəzi tarixi məqamlarla təhsil ictimaiyyətini bir daha tanış etmək istərdim.

Müstəqil Azərbaycanda digər sahələrdə olduğu kimi, bu gün təhsil sferasında da əsaslı islahat prosesi artıq dönməz xarakter almış, Ümummilli liderin müəyyənləşdirdiyi strateji yolla təhsilin strukturu və idarə olunmasında, təhsilin məzmununda, milli təhsil sisteminin dünya təhsil məkanına inteqrasiyası istiqamətində müəyyən addımlar atılmış, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası prosesinə başlanmışdır.

Əlamətdar haldır ki, dövlət büdcəsindən son illərdə təhsilin inkişafına ayrılan xərclərin dinamik olaraq ilbəil artması dövlət başçısının təhsili dövlət siyasəti və quruculuğunun əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. **Prezident İlham Əliyev təhsil sistemi qarşısında duran əsas vəzifələri müəyyənləşdirərkən xüsusi vurğulayır ki, «Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır».**

Bu baxımdan BMT tərəfindən «Təhsil əsri» – «İntellekt əsri» elan edilən XXI əsrdə Azərbaycanda yüksək intellektə malik insan kapitalının formalaşdırılması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Məhz buna görə də son illərdə ölkəmizdə dövlət büdcəsində təhsil xərclərinin dinamik olaraq artmasının əsasında da möhtərəm Prezidentimizin söylədiyi həmin konseptual müddəalar dayanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər il olduğu kimi, 2012/13-cü tədris ilində də yeni tikilən, əsaslı təmir və bərpa edilən təhsil müəssisələrində olmuş, müəllimlər, şagirdlər və valideynlərlə görüşmüş, onların fikirlərini dinləmiş, təhsil işçiləri qarşısında duran mühüm vəzifələrdən danışmışdır. Dövlət başçısının təhsil sisteminə daimi diqqət və qayğısının nəticəsidir ki, təhsilin inkişafı ilə əlaqədar təkcə son bir ildə ölkə Prezidenti tərəfindən onlarla Sərəncam imzalanmışdır.

Təhsil tariximizdə ilk dəfə olaraq ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən «Ən yaxşı ümumtəhsil məktəbi» və «Ən yaxşı müəllim» mükafatlarının təsis edilməsi haqqında» 4 sentyabr 2007-ci il tarixli Sərəncam imzalanmış, 2008, 2009, 2010, 2011 və 2012-ci illərdə «Ən yaxşı ümumtəhsil məktəbi» və

«Ən yaxşı müəllim» müsabiqələri keçirilmiş, həmin illərdə «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsinin qalibi olmuş 250 məktəbin hər birinə 10.000 manat, «Ən yaxşı müəllim» müsabiqəsinin qalibi olmuş 500 müəllimin hər birinə 5 000 manat məbləğində birdəfəlik pul mükafatı verilmişdir. Bu gün də davam edən həmin müsabiqə məktəb və müəllimlər arasında sağlam rəqabəti, təhsil sistemində innovativ fəaliyyəti gücləndirməklə yanaşı, məktəb və müəllimin nüfuzunun yüksəlməsinə müsbət təsir göstərmişdir.

Azərbaycanda təhsilə, təhsil işçilərinə diqqət və qayğının parlaq təzahürüdür ki, təkcə 2003–2012-ci illərdə elm və təhsilin inkişafındakı xidmətlərinə görə 2509 nəfər təhsil işçisi yüksək dövlət təltiflərinə, fəxri adlara və Prezidentin fərdi təqaüdlərinə layiq görülmüşdür. Məhz dövlət başçısının təhsilin inkişafına yüksək önəm verməsinin nəticəsidir ki, təhsil tariximizdə ilk dəfə olaraq 1999-cu ildən başlayaraq indiyədək bütövlükdə təhsil sferası üzrə 16 inkişafyönümlü Dövlət Proqramı təsdiq olunmuş və hazırda uğurla həyata keçirilməkdədir. Bu Proqramların böyük əksəriyyəti ümumi təhsil pilləsini əhatə etmişdir.

Ölkəmizdə əsaslı islahatlara başlanıldığı 1999-cu ildən 2012-ci ilədək ötən müddətdə dövlət büdcəsi və digər mənbələr hesabına Azərbaycanda yeni tikilən, əlavə korpuslar inşa edilən, əsaslı təmir olunan ümumtəhsil məktəblərinin sayı 2380-i ötmüşdür. 384 məktəb müasir kimya və fizika laboratoriyaları ilə təmin edilmiş, 700-dən çox məktəbin istilik sistemi təmir və bərpa olunmuşdur.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun müstəsna xidmətləri olmuş, Fondun Prezidenti, UNESCO və ISESKO-nun Xoşməramlı səfiri, millət vəkili **Mehriban xanım Əliyevanın təşəbbüsü ilə «Yeniləşən Azərbaycana yeni məktəb» və «Uşaq evləri və internat məktəbləri» Proqramları** çərçivəsində 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəb binası tikilib istifadəyə verilmişdir. Həmçinin Heydər Əliyev Fondu tərəfindən xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum uşaqların təhsilinin təşkili istiqamətində məqsədyönlü işlər görülmüş, 39 uşaq evi və internat məktəb tam təmir və bərpa edilmiş, müasir avadanlıqlarla təchiz edilmişdir. Eyni zamanda, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gürcüstanda soydaşlarımızın yaşadığı bölgələrdə də xeyli məktəb əsaslı təmir və bərpa olunmuş, müasir tədris avadanlıqları və dərsliklərlə təmin edilmişdir.

Təhsil infrastrukturunun yeniləşdirilməsi üzrə işləri davam etdirməklə, bütün ümumtəhsil müəssisələrinin beşgünlük tədris həftəsinə və birnövbəli iş rejiminə keçməsinin təmin olunması, ümumi təhsil müəssisələrinin mövcud şəbəkəsinin optimallaşdırılması ilə bağlı rasionallaşdırma tədbirlərinin hazırlanıb həyata keçirilməsi, xüsusi istedada malik uşaq və gənclər üçün təhsil



müəssisələri şəbəkəsinin genişləndirilməsi sahəsində başlanan islahatın perspektivdə də davam etdirilməsi nəzərdə tutulmuşdur.Bunun nəticəsində müasir tələblərə uyğun təlim şəraitinin yaradılması məzmun islahatları üçün də əlverişli zəmin yaratmışdır.

«Təhsil Sisteminin İslahatı Layihəsi» (II layihə) çərçivəsində son illərdə Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən islahatyönümlü tədbirlərin böyük əksəriyyəti məhz ümumi təhsilin məzmununun yeniləşdirilməsinə və Azərbaycan təhsilinin qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılmasına yönəlmişdir. Bu sahədə aparılan məqsədyönlü işlərin nəticəsidir ki, 2008/09-cu tədris ilindən ümumtəhsil məktəblərinin I siniflərində tədrisə yeni fənn kurikulumları və müasir dərsliklərlə başlanmış, bu proses 2010–2012-ci illərdə I, II, III və IV sinifləri əhatə etmiş, ümumi təhsilin ibtidai sinif səviyyəsində yeni fənn kurikulumlarının tətbiqi başa çatmışdır. Yeni kurikulumların tətbiqi ilə əlaqədar həmin siniflərdə işləyən müəllimlər xüsusi proqram əsasında öyrədici təlim kurslarından keçirilmiş və nümunəvi tədris materialları ilə təmin edilmişlər. 2012–2013-cü dərs ilindən V siniflərdə yeni fənn kurikulumlarının tətbiqinə başlanmış, V siniflərdə yeni fənn proqramları ilə tədrisə başlayacaq 35 min müəllim 10 günlük öyrədici təlim kursuna cəlb olunmuş, nəticədə yeni təhsil proqramları üzrə (I–V siniflər) təlimdən keçmiş müəllimlərin sayı 80 minə çatmışdır. 2013/14-cü tədris ilində yeni təhsil proqramlarının tətbiqi ilə əlaqədar V–VI siniflərdə işləyəcək 40 minədək müəllimin öyrədici təlim kurslarından keçəcəyi gözlənilir.

Ümumi təhsil pilləsində tətbiq olunan yeni məzmun yeni nəsil dərsliklərin hazırlanmasını zəruri etmişdir. 2003–2012-ci illərdə ümumilikdə 44 milyon nüsxə dərslik çap edilərək məktəblilərin istifadəsinə verilmişdir. 2013/14-cü tədris ilində VI sinif dərslikləri də yeni kurikulum əsasında hazırlanıb nəşr ediləcəkdir. Bundan əlavə, ölkə Prezidenti cənab İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli Sərəncamına uyğun olaraq Azərbaycanın bütün məktəb kitabxanaları əlavə oxu materialları – müasir uşaq ensiklopediyaları, latın qrafikalı Azərbaycan və xarici ölkə yazıçılarının əsərləri ilə tam təmin edilmişdir. Heydər Əliyev Fondunun yaxından köməyi ilə ayrı- ayrı fənlər üzrə 140 adda 1.4 milyon nüsxə tədris-əyani vəsait hazırlanaraq məktəblərə verilmişdir. Fondun hesabına məktəblər 19 adda 351 min nüsxə tədris xəritələri ilə də tam təmin edilmişdir. Qarşıdakı illərdə 500 məktəbdə kitabxanaların modernləşdirilməsi işinin davam etdirilməsi, kitabxanaların İKT ilə təminatının yeniləşdirilməsi nəzərdə tutulmuşdur.

Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq 2010/11-ci tədris ilində ümumi təhsildə xüsusi nailiyyətlər qazanan 53 məzun, 2011/12-ci tədris ilində

isə 138 məzun qızıl və gümüş medallarla təltif olunmuşdur. İstedadlı uşaqların (gənclərin) inkişafı ilə bağlı müvafiq Dövlət Proqramına uyğun olaraq son illərdə istedadlı uşaqların təhsilinin daha səmərəli təşkili məqsədilə ölkənin 8 bölgəsində yeni liseylər, məktəb-liseylər yaradılmış, müsabiqə yolu ilə şagird və müəllimlər seçilmiş, xüsusi tədris planı əsasında tədrisə başlanılmışdır. Müstəqillik illərində istedadlı şagirdlərə dövlət qayğısı nəticəsində yeni tipli məktəblərin – lisey, məktəb-lisey və gimnaziyaların sayı 2012/13-cü tədris ilində yüzü ötmüşdür

Azərbaycan məktəbliləri son illərdə dünya və beynəlxalq fənn olimpiadalarında 18 qızıl, 38 gümüş, 78 bürünc olmaqla, ümumilikdə 134 medal qazanmışlar. Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərinin yetirmələri respublika birinciliyi, çempionat və digər yarışlarda ümumilikdə 315 qızıl, 235 gümüş, 1121 bürünc medal, eləcə də Avropa, Dünya birinciliyi və digər beynəlxalq yarışlarda ümumilikdə 62 qızıl, 47 gümüş, 92 bürünc medal qazanmışlar.

«2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi üzrə Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı şahmat məktəblərinin maddi-texniki və tədris bazası möhkəmləndirilmiş, ümumtəhsil məktəblərində şahmat fənninin tədrisinə başlanmışdır. Cari tədris ilində 379 məktəbin II sinfində, 75 məktəbin III sinfində «Şahmat» fənni tədris edilməkdədir. Bunun üçün müvafiq proqram, dərs vəsaiti, o cümlədən elektron tədris resursları hazırlanıb məktəblərə çatdırılmışdır. Bütün bunlar Azərbaycanda idmanın inkişafına, uşaq və gənclərin sağlam böyüməsinə, onların intellektual potensialının yüksəlməsinə ölkə Prezidentinin qayğısı sayəsində mümkün olmuşdur.

Son illərdə ümumi təhsil müəssisələrinin informasiyalaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, müvafiq Dövlət Proqramları çərçiəvsində ölkənin ümumtəhsil məktəbləri İKT ilə təmin edilmiş, 1200 təhsil müəssisəsi Azərbaycan Təhsil Şəbəkəsinə (İntranet) və İnternet şəbəkəsinə qoşulmuş, inzibati, pedaqoji və texniki heyət əhatə olunmaqla 76.980 nəfər müvafiq treninqlərdən keçərək İKT bacarıqlarına yiyələnmişdir. Təhsil tariximizdə ilk dəfə olaraq bir sıra ümumi təhsil fənləri üzrə elektron tədris resursları hazırlanıb məktəblərə verilmiş, 40 məktəbdə «Elektron məktəb» layihəsinin həyata keçirilməsinə başlanmışdır. Həmin məktəblər fiberoptik kabel vasitəsi ilə «Azərbaycan təhsil şəbəkəsi»nə qoşulmuşdur. Son illərdə bir şagirdə bir kompyuter konsepsiyasının reallaşdırılması məqsədilə «İntel» şirkəti ilə birlikdə 2000 şagirdə netbuklar verilmişdir.

**2013-cü il ölkə Prezidenti cənab İlham Əliyevin 16 yanvar 2013-cü il tarixli Sərəncamı ilə «İnformasiya-Kommunikasiya Texnologiyaları ili» elan edilmiş, 28 mart 2013-cü il tarixli Sərəncamı ilə «Tədbirlər Planı» təsdiq edilmişdir.** Təhsil sistemində bu Sərəncamın icrasını təmin etmək məqsədi ilə Təhsil Nazirliyinin Fəaliyyət Planı təsdiq olunmuş, onun icrasına başlanmışdır. İnanıram ki, bu il təhsil sisteminin informasiyalaşdırılması sahəsində də əsil dönüş ili olacaqdır.



Azərbaycanın ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu sahəsində beynəlxalq təcrübə nəzərə alınmaqla yeni mexanizmlər daha da təkmilləşdirilmiş, onların tətbiqinə başlanmış, Respublika üzrə müəllimlərin işə qəbulu elektron vasitələr əsasında, ikimərhələli müsabiqə mexanizmi tətbiq olunmaqla həyata keçirilmişdir. Elektron vasitələr tətbiq edilməklə həyata keçirilən müasir mexanizm əsasında elan edilmiş vakant yerlərə keçən il 16 mindən çox elektron ərizə daxil olmuş, müsabiqənin yekunlarına əsasən 2500-dən cox müəllim ölkənin ümumtəhsil məktəblərində vakant yerlərə işə qəbul edilmişdir. İşə qəbul edilən müəllimlərin 90%-dən çoxu gənc mütəxəssislər olmuşdur.

2006-cı ildən başlayaraq dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı sahəsində beynəlxalq təcrübə əsasında işlərə başlanılmış, müvafiq Dövlət Proqramı təsdiq olunmuşdur. De-institutlaşdırma Proqramına əsasən Dövlət Uşaq Müəssisələrinin Transformasiyası üzrə Baş Plan hazırlanmış və 2009-cu ilin aprelində Hökumət tərəfindən təsdiq edilmişdir. Plana əsasən 9 ümumtəhsil internat məktəbi ümumtəhsil məktəbinə çevrilmiş, 2 xüsusi internat məktəbi birləşdirilmiş, nəticədə Təhsil Nazirliyinin tabeliyində olan dövlət uşaq müəssisələrinin sayı 48-dən 38-ə enmişdir. Təhsil tariximizdə ilk dəfə olaraq Bərdə, Bakı şəhərinin Suraxanı, Xəzər və Sabunçu rayonlarında günərzi qayğı və reabilitasiya – inkişaf mərkəzləri yaradılmışdır.

Ümumi təhsilin müddəti ilə bağlı perspektivdə reallaşdırılacağı gözlənilən bir məqama da toxunmaq istərdik. **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 dekabır 2012-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan 2020: «Gələcəyə baxış» İnkişaf Konsepsiyası»na** görə, qarşıdakı illərdə 12 illik ümumi təhsil sisteminə keçid təmin ediləcək, bununla əlaqədar təhsil proqramları və dərsliklər müasir tələblər baxımından yeniləşdiriləcəkdir. Tam orta təhsil səviyyəsində təhsil təmayüllər üzrə təşkil olunacaq, istedadlı uşaqlar üçün inkişafetdirici fərdi proqramlar yaradılacaqdır. Konsepsiyada həmçinin 2013–2020-ci illərdə təhsil sahəsinə ayrılan vəsaitlərin ümumi həcminin ÜDM-dəki payının ilbəil artırılaraq inkişaf etmiş ölkələrin müvafiq göstəricisi səviyyəsinə çatdırılması nəzərdə tutulmuşdur.

Çağdaş milli dövlətcilik tarixində müstəsna yeri olan dahı Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi, tarixi uzaqgörənliyi, Azərbaycançılıq-milli məfkurəsini müstəqil dövlətçilik ideologiyası səviyyəsinə yüksəltməklə Azərbaycanı dünyanın dinamik inkişaf edən ölkələrindən birinə çevirmiş, xalqımızın elm, təhsil və mədəniyyət tarixinə də öz əbədi imzasını qoymuşdur.

**Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın sözləri ilə desək, «Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır...»**

Azərbaycanda təhsil quruculuğu konsepsiyasının ideya müəllifi ümummilli lider Heydər Əliyevin haqq dünyasına qovuşmasından bizi 10 illik bir zaman kəsiyi ayırsa da, bu dahi dövlət adamının siyasəti, ideyaları bu gün də yaşayır və qalib gəlir. Heydər Əliyev bizim qəlbimizdə, əməllərimizdə yaşayır. **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, «Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır... Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur...»**

Təhsil Nazirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi ilə kecirilən birgə layihə kimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunan bilik yarışının qaliblərinin inşa yazıları toplanan, Azərbaycan məktəblilərinin Ulu Öndərə dərin hörmət və ehtiramından, sevgi və məhəbbətindən doğan fikir və düşüncələrinin toplusu olan **«Heydər Əliyev məktəblilərin gözü ilə»** kitabının uşaq və gənclərimizin milli vətənpərvərlik, dövlətçilik və Vətənə sədaqət ruhunda tərbiyə olunmasında önəmli rol oynayacağına qəlbən inanırıq. Məktəblilərin yaradıcılıq məhsulu olan bu kitabı Böyük Öndərin əziz xatirəsinə və müqəddəs ruhuna ithaf edirik.

**MİKAYIL CABBAROV,**
**Təhsil naziri**

**Bakı şəhəri, 24 aprel 2013-cü il**





## *Bağırova İlahə Vahid qızı*

***Bakı şəhəri, akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi***

*Dahi insanlar dağa bənzəyir, yaxınlaşdıqca əzəmət və qüdrəti daha aşkar bilinir.*

**Höte**

Dahilik və dahi insan! Tez-tez eşidirəm bu sözləri. Hər dəfə də düşünürəm: nədir dahilik? İnsan dahi adını necə qazanır? Necə çatır o zirvəyə?

İstər ədəbiyyat, istər tarix, istərsə də digər fənləri öyrənərkən adını eşitdiyim, həyatda müəyyən iz qoyub getmiş şəxslərin obrazını gözümün önündə canlandırmağa çalışıram. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətayi...

Bir ad mənə daha doğma, daha əziz gəlir. Gözlərim qarşısında işıqlı, nurlu bir sima canlanır. Vətən üçün yaşayan, ömrünü xalqının yolunda çıraq kimi yandırıb gələcəyi ona göstərən, yandırdığı çırağın şöləsindən hamıya səxavətlə nur paylayan əvəzolunmaz bir sima!

Nağıl qəhrəmanı Məlikməmmədi qaranlıqdan işıqlı dünyaya çıxaran əfsanəvi Simurq quşu kimi ən çətin anda köməyə gələn, Səməndər quşu kimi canını odlara yaxan parlaq bir sima!

Heydər Əliyev... İlk baxışda sadə bir Azərbaycan vətəndaşına məxsus olan ad! Lakin bu adı daşıyan şəxsin fəaliyyətini, canı qədər sevdiyi Azərbaycanın inkişafı üçün etdiklərini öyrəndikcə fikirlər tamamən dəyişir və şübhəsiz ki, hər bir Azərbaycan vətəndaşının gözləri önündə ömrü ömürlərə bəs edəcək bir həyat yolu yaşamış Heydər Əlirza oğlu Əliyev canlanır.

Ümummilli lider haqqında inşa yazmaq məndən böyük məsuliyyət tələb edir. Ona görə ki, bu cür dahi şəxsiyyətdən yazmaq və bu dahi şəxsiyyətin

uğur və nailiyyətlərini, xalqına bəxş etdiyi xoşbəxtliyi sözlə ifadə etməkdə acizəm. Görünən günəşi təsvir etmək o qədər də asan deyil. Ancaq bu acizliyim belə mənə qüvvət verir, o qüdrətin qarşısında böyük bir cəsarət hiss edirəm.

1923-cü il may ayının onu. Naxçıvan şəhərində, sadə və zəhmətkeş Əliyevlər ailəsində bir körpə dünyaya göz açır. Adi, digərlərindən heç nə ilə seçilməyən bir körpə. Ancaq kim bilə bilərdi ki, o körpə gələcəkdə Azərbaycan Respublikasının banisi olacaq. Tarixin amansız və sərt sınaqlarından üzüağ çıxacaq. Ən çətin şəraitdə günəştək doğaraq öz parlaq şüalarını ətrafa saçacaq, hər tərəfi işıqlandıracaq, hamını öz hərarəti ilə isidəcək, böyük bir məmləkəti nura qərq edəcək. Öz doğma xalqının xilaskarı, nicatı və ümidi olacaq.

O, böyük siyasi dövlət xadimi, Azərbaycan Respublikasının bəşəriyyətə verdiyi tarixi şəxsiyyətlərdən biridir. Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmiş, heyranlıq doğuran coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır. O, bizim dahi müasirimizdir. Azərbaycan Respublikasının inkişaf prosesinə təkan verən şəxsiyyətimizdir. O şəxsiyyət ki, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını qoymuş, bütün həyatını öz xalqına, öz millətinə, öz vətəninə bəxş edərək zəngin fəaliyyəti ilə Azərbaycan xalqının tarixində dərin iz buraxmış və əsl dövlət idarəçiliyinin məktəbini yaratmışdır.

Müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir. Vaxtilə memar olmaq istəyən, ancaq müəyyən səbəblər üzündən istəyinə qovuşa bilməyən bu insan təməli möhkəm qoyulmuş Azərbaycan adlı bir binanın memarı oldu. Nələr etmədi xalqı üçün?

Onun hakimiyyətə gəlişi ilə Azərbaycan Respublikası öz çiçəklənmə dövrünü yaşadı və onun qoyduğu təməl nəticəsində indi də yaşayır, inkişaf edir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. O, öz hakimiyyət illərində dəyəri adi sözlərlə ölçülməyən, insan ömrünə sığmayan nəhəng işlər gördü. 1994-cü il oktyabr, 1995-ci il mart aylarında dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Azərbaycan Gənclər Təşkilatı Milli Şurası yaradıldı. 1996-cı il fevral ayının ikisində gənclərin birinci respublika forumu keçirildi. Böyük ümidlə dediyi: «Azərbaycanın bugünkü gənc nəsli Azərbaycanı yüksəkliklərə qaldıracaq» sözləri də gəncliyə olan inamının bariz nümunəsidir.

1994-cü ildə Füzuli rayonunun Horadiz qəsəbəsi, Cəbrayıl və Kəlbəcər rayonlarının bir sıra yaşayış məntəqələri azad edildi. 1995-ci il on iki noyabrda ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi. Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşdü.



Azərbaycan dilinin inkişafında və tətbiqi işinin təkmilləşdirilməsində, Milli Ordunun möhkəmləndirilməsində də Heydər Əliyevin əvəzsiz xidmətləri olmuş, təhsilin, mədəniyyətin inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Eyni zamanda iqtisadiyyatın inkişafına böyük önəm verən «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir», – deyən Ümummilli lider bu sahədə planlarını məqsədyönlü şəkildə həyata keçirmişdir.

Heydər Əliyev polad kimi möhkəm iradəyə, natiqlik bacarığına, dərin məntiqə, zəngin həyat təcrübəsinə, məhsuldar iş qabiliyyətinə malik heyrətamiz insan, dəqiq rəhbər, uzaqgörən dövlət xadimi, əsl siyasətçi, 1993-2003-cü illəri əhatə edən bir dövrdə Azərbaycan Respublikasının Prezidenti, milli təhsil quruculuğu işinin banisi, xalqımızın danılmaz tarixini və keçmişini yaşadan, gələcəyini təmin edən, Ümummilli Lider kimi hər kəsə nəsib olmayan bir adı qazanan şəxsiyyətdir.

Bir sözlə, bəşəriyyət üçün əsl möcüzə idi o. Körpə uşaqdan tutmuş qocaya qədər hamının dostu idi. Hər uşağın babası idi o. O baba ki, kiçik bir təbəssümüilə dünyaları bəxş edərdi öz nəvələrinə.

O, çox xoşbəxt insandır. Ona görə ki, bu qədər insan onu sevir. Xalqının ona olan sonsuz məhəbbəti, ehtiramı maneələri dəf etməkdə ilham mənbəyi idi bu el oğlunun. Bu sevgi qarşılıqlı idi. O da xalqını böyük məhəbbətlə sevirdi. Daxilində danışdığı o böyük ürəyi xalqı ilə döyünürdü, nəbzi xalqının nəbzinə uyğun olaraq vururdu və bütün bunları «Mən ömrümün qalan hissəsini də xalqıma həsr edəcəyəm» sözləri ilə bir daha sübut edirdi.

Heydər Əliyev öyrəndikcə, oxuduqca bitib-tükənməyən bir kitabdır. Elə bir kitabdır ki, vərəqlədikcə kitabın dərin məna kəsb edən səhifələri səni öz ağuşuna alıb irəliyə aparır. Yaratmaq, qurmaq istəyirsən. Sənə əmanətə verilən bu torpağın daha da çiçəklənməsi üçün əlindən gələni etmək istəyirsən.

Yəqin ki, elə budur dahilik və dahi. Fəth etdiyi zirvələri özündən sonrakı nəsillərə ərməğan edəndir dahi! Əməlləri özündən sonra da yaşayan, həyatı hamıya nümunə ola biləcək bir insandır dahi!

Nağılları oxuduqca çox vaxt təəccüblənirdim: qəhrəman hər çətinliyə qalib gəlir, düşdüyü uğursuz vəziyyətdən ağlı, bacarığı sayəsində özü də xilas olur, başqalarını da xilas edir. Hər şey nikbin sonluqla bitir! Xeyir şərə qalib gəlir!

İnanmırdım! Ancaq sən demə, nağıllar da həqiqət olurmuş. Nağılı reallığa çevirənlər varmış. Yəqin ki, nağılı reallığa çevirəndir dahi! Və bu reallıq içərisində əbədiyyətə qovuşandır dahi!

2003-cü il dekabr ayının on ikisi. Soyuq qış günü. Ancaq bu qış digərlərindən fərqlənirdi. Çünki bu gün bir hüzn, bir matəm gətirdi Azərbaycan xalqına. İsti bir yaz günündə dünyaya göz açıb öz isti nəfəsi ilə bizi isidən Günəş amansız qış günü dünyadan köçərək hamını üşütdü. Kim qəmgin deyildi ki həmin gün? Sanki cansız əşyalar belə dil açıb bu kədəri büruzə vermək istəyirdi.

*Pis günündə arxa idin xalqına,*
*Heyran idik dərrakənə, ağlına*
*Tarixdə də yer ayrılıb adına,*
*Ölüm sözü sənə yaraşmır, baba!*
*Ümid idin açılacaq sabaha...*

Ancaq mən bu inşamı nikbin sonluqla bitirmək istəyirəm. Çünki günəş heç zaman sönmür, itmir. Gecənin qaranlığın yararaq öz əbədi parlaq şüaları ilə yenə də cahana işıq saçır.

Sən ölmədin, Heydər baba! Sən vətən eşqi ilə əbədiliyə qarışdın! Əbədi olaraq bizim qəlbimizə köçdün, yaddaşımıza həkk oldun! Sən hər bir Azərbaycan vətəndaşının qürur və iftixar mənbəyi oldun!

Ulu Öndər! Sənin qoyduğun təməl üzərində Azərbaycan Respublikası inkişaf edir. Bizim hər bir uğurumuz, nailiyyətimiz, inkişafımız sənin adınla bağlıdır. Sənə borcluyuq bu günümüzü və sabahımızı! Cismən aramızda olmasan da, sanki Azərbaycan səmasından bizə baxır, çox fəxr etdiyin və dəyər verdiyin gənclərin uğuruna sevinir, yenə də öz müdrik tövsiyələrini verirsən.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər: «Xalqım» – deyəcək,*
*Xalq: «Heydər» – söyləyəcək.*





***Babayeva Leyla Ehtiram qızı***
***Şuşa rayonu, Quşçular kənd tam orta məktəbin IX sinif şagirdi***

Bir məktəbli üçün əfsanəvi, uzaqgörən və parlaq bir günəş olaraq daim Odlar Yurdu Azərbaycana işıq saçan bir şəxsiyyət haqqında fikir bildirmək çox böyük və gözəl şans olsa da, asan deyil.

Mən vətənpərvər ruhda böyüyən bir məktəbliyəm və müdrik rəhbər haqqında fikir bildirmək şansı əldə etdiyim üçün özümü xoşbəxt hiss edirəm.

Ey Uca Allahım, mənə səbir, qələmimə isə güc ver. Həyəcanlanıram, ürəyim möhkəm döyünür, əllərim titrəyir. Çünki dahi insana olan dərin məhəbbətimi ifadə edirəm. Doğma Azərbaycanımın taleyində mühüm yeri olan, dünyanın hər yerində böyük hörmətlə yanaşılan, vətənini, xalqını dərin məhəbbətlə sevən Heydər Əlirza oğlu Əliyev haqqında fikir bildirmək mənə necə də gözəl hislər yaşadır.

Onun adı çəkiləndə hər bir azərbaycanlıda olduğu kimi, mənim də gözlərimdə sevinc qığılcımları parlayır. Çünki O, bu gün azad, müstəqil və xoşbəxt yaşayan gözəl Azərbaycanımın qurucusudur.

Həqiqətən də, kiçik yaşlarımdan bu dahi insan haqqında maraqlanıram və illər ötdükcə ona olan ulvi məhəbbətim, hüdudsuz sevgilərim daha da alovlanır. Məni bir sual daha çox düşündürür. Peyğəmbər xasiyyətli Heydər Əliyev nə üçün vətəninə bu qədər bağlı idi? Bu sualın cavabını həm müəllimlərimdə, həm də valideynlərimdə axtarmışam. Özüm isə yaxşı bilirəm ki, Uca Allahımın bu dünyaya bəxş etdiyi saf və xeyirxah insanlar hər zaman öz vətənlərinin qədrini bilir, öz xalqlarını, millətlərini həyatlarında hər şeydən üstün tuturlar. Heydər Əliyev də məhz belə insanlardan biri idi. Şirin bir həqiqətdir ki, Tanrı Azərbaycan xalqına Ulu öndər Heydər Əliyev kimi unudulmaz şəxsiyyət bəxş edib.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

*Vətənə eşq, məhəbbəti,*
*Xalqa sevgi, sədaqəti,*
*Milli birliyi, vəhdəti*
*Ondan öyrəndi millətim.*

Vaxtilə Ulu Öndərimiz belə söyləmişdi: «Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.» Bu sözləri parlaq bir dühanın dilindən eşitmək necə də xoşdur. Azərbaycan xalqı da Heydər Əliyevlə fəxr edir. Çünki O idi çiçəklənən vətənimi yüksəklərə qaldırmağa çalışan. O idi millətini, xalqını gündən-günə qüdrətləndirməyə çalışan Heydər Əliyevin xalqımızın qəlbində rəğbət hissi oyadan yaxşı əməllərini unutmaq böyük günah olardı.

Ümummilli lider Heydər Əliyev düz 20 il bundan əvvəl, yəni 1993-cü ildə ilk dəfə Azərbaycanın prezidenti seçilmişdi. Həmin zamanlarda xalqımızın başına gələn 20 Yanvar faciəsi, Xocalı faciəsi, cənnət diyarım Qarabağın gözəl guşələrinin işğalı hamı kimi müdrik rəhbərimizi də sarsıtmışdı. Ancaq o, ailəsinə və özünə qarşı edilən hədə-qorxulara məhəl qoymayaraq bacardığı qədər vətəndaşlarımızın hüquqlarını müdafiə etməyə çalışırdı. Bu səbəbdən də onun prezident seçilməyi qədirbilən Azərbaycan xalqını sevinc dünyasına qərq etmişdi. Heydər Əliyevin prezidentliyi dövründə ölkəmiz gündən-günə çiçəklənir və dünyada tanınmağa başlayırdı.

*Çiçəklənən ölkəmiz,*
*Gülüstana bənzəyir.*
*Özün olmasan belə,*
*Əməllərin yaşayır.*

Hər bir azərbaycanlı kimi mənim də qəlbimdə Heydər Əliyev sevgisi aşıb-daşır. Onun parlaq əməlləri bu gün də nəsillərin yaddaşına həkk olunmaqdadır. Yaxşı əməlləri və pak niyyətləri ilə seçilən dahi şəxsiyyət mənim yaddaşımda qurucu və xilaskar adı ilə qalıb. Mən Ulu Öndərimizin çıxışlarını çox tez-tez dinləyirəm. Çünki dinlədikcə qəlbimdə vətənimə olan sevgim daha da artır.

Mötəbər tədbirlərin birində müdrik rəhbər Heydər Əliyev görkəmli şairimiz Səməd Vurğunun «Azərbaycan» şeirinin bir bəndini söyləyərkən kövrəldi. Bu, Heydər Əliyevin mənim üçün ən təsirli çıxışı idi. Kaş ki mən də həmin zaman onu ürəkdən alqışlayan insanların içərisində olaydım. Məncə, «Azərbaycan» şeirinin ən gözəl oxucusu məhz Heydər Əliyevdir. Mən bu şeiri söyləyərkən onun səsi beynimdə canlanır. Əminəm ki, dahi şəxsiyyətimiz Heydər Əliyev hər zaman könüllərdə yaşayacaq və onun adı heç vaxt unudulmayacaq.



*Könüllər yaşadır gur-nəfəsini,*
*Sənsiz hər bir anın öz həsrəti var.*
*Müqəddəs səsinin xatirəsini,*
*Anlada bilərmi çağlayan çaylar?*

«Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır.» Bu fikrin müəllifi adını tarixə qızıl hərflərlə yazdırmış ümummilli lider Heydər Əliyevdir. Gənc nəslin bir üzvü olaraq bu sözlərin qarşısında özümü borclu hesab edirəm.

Bir dövləti müstəqil etmək, həmin dövlətin ərazisində yaşayan insanların qəlbini sevindirmək hər kəsin işi deyil və bizim hər birimizdən yüksəkdə duran Uca Allah bu xoşbəxtliyi hər kəsə nəsib etmir. XX əsrin ikinci (əsri) yarısında özünün xoş əməlləri ilə zirvələri fəth etmiş Ulu Öndər Heydər Əliyev bu xoşbəxtliyi əldə etdi.

O, ən sadə ailələri belə kimlərdənsə fərqləndirmir, hər zaman uşaqların, qocaların qəlbinə öz gözəl sözləri ilə yol tapırdı. Bu səbəbdən də xalq öz dahi oğluna sonsuz məhəbbət bəsləyirdi.

Əgər bu gün Heydər Əliyev yaşasaydı və mənim onunla söhbət etmək imkanım olsaydı, onda ona ilk öncə belə deyərdim: Çiçəklənən vətənimin sevimli lideri, xalq Sizə «Ata Heydər», – deyir. Mən də hal-hazırda Sizi öz doğma babam hesab edirəm. Əziz babam, Siz hər zaman saf əməllərinizlə xalqımızın qəlbində yaşayacaqsınız və öz nurunuzla daim qələbədən-qələbəyə qovuşan Odlar Yurdu Azərbaycanıma işıq saçacaqsınız. Bunu bilin ki, Sizin şərəfli yolunuz daim bizlər üçün örnək olacaq. Məncə, biz bu gün dünyanın ən xoşbəxt insanlarıyıq, çünki Ata Heydərin işıqlandırdığı nurlu bir yolla irəliləyirik.

*Nurunu gözümdə saxlayım necə?*
*Möcüzə yaratmaq gəlmir əlimdən.*
*Parçalan ey zülmət, çəkil, ey gecə!*
*Günəşə qovuşmaq istəyirəm mən!*

Əbəs yerə demirlər ki, qürbət eldə olsan belə heç vaxt öz vətənini unutma. Dahi liderimiz də harada olmağından asılı olmayaraq hər zaman öz xalqını düşünürdü. O, 2003-cü ildə Amerikanın Klivlend şəhərində müalicə olunarkən televiziya proqramlarının biri ilə telefon bağlantısı yaratmış və

oz gözəl səsi ilə bildirmişdi ki, heç kəs onun üçün narahat olmasın. Valideynlərim televiziyada bu bağlantını izləyərkən onların dilindən bu sözləri eşitdim. «Allah ömrünü uzun etsin və səni Azərbaycan xalqının üzərindən əskik etməsin.»

Bəzən düşünürəm ki, nadir və təkrarsız şəxsiyyət olan Heydər Əliyev haqqında fikir bildirməyə, onu hər bir oxucuya mənim sevimli rəhbərim kimi çatdırmağa qələmimin gücü çatarmı? Mən onun haqqında yalnız qəlbimdən gələn səmimi hislərimi yazıram, ancaq bu kifayət edərmi onu ömrümün sonuna qədər qəlbimdə yaşatmağa? Təbii ki, yox! Söz vermişəm ki, harada olmağımdan asılı olmayaraq hər zaman Ümummilli Liderimizin fədakarlığını ətrafımdakılara çatdıracam və daim özümdən kiçiklərə nümunə olaraq ötürəcəm. Gələcəyin peşəkar jurnalistlərindən olmaq və tamaşaçılarıma dahi şəxsiyyət Heydər Əliyevin pak niyyətlərini anlatmaq ən böyük məqsədimdir. Çünki vətənimin dahi oğlu mənə ən böyük örnəkdir.

*Dahi Heydər öz xalqının*
*Nəfəsi, qanı, canıdır.*
*Şərqi, qərbi, həm güneyi*
*Bütöv Azərbaycanındır.*

Ümummilli lider Heydər Əliyev hər bir Azərbaycan vətəndaşının dahi müasiridir və bu faktın özü bizim üçün qürur və iftixar mənbəyidir. Mən bir şagird olaraq bildirmək istəyirəm ki, xalqımızın dahi oğlu Heydər Əliyev neçə illər dövlətimizin yolunda duran bütün maneələri yalnız öz gücü hesabına dəf etdi və bunun nəticəsində də bu gün hər kəs ona «Müstəqil Azərbaycan dövlətinin memarı» adını verir.

Valideynlərim Heydər Əliyev haqqında danışarkən bir faktı mənə xüsusi ilə çatdırırlar. Xalqımız hər il 15 iyun gününü, Milli Qurtuluş Günü kimi qeyd edir. Çünki həmin gün Ümummilli Liderimiz ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycanın dövlət müstəqilliyini əbədiləşdirən bir yolun başlanğıcını qoydu. Mən bütün qəlbimlə öz həmyaşıdlarım adından və özümün adından Ulu Öndərin ruhu qarşısında baş əyirəm.

*Bulud karvanına qoşulum, yenə.*
*Gəzim asimanı, hardasan görüm.*
*Çatıb ucalığa, yetişim sənə.*
*Əlimi əlindən yapışan görüm.*

I Napaleon məşhur bir aforizm söyləmişdi: «Uğur – böyük adamları meydana gətirən, bax, budur.» Fikrimcə, bu mənalı və dəyərli bir kəlamdır.



Ulu öndər Heydər Əliyev illər boyu xalqımız yolunda əvəzsiz xidmətlər göstərib və sonda böyük uğur qazanaraq müstəqil Azərbaycan dövlətini yaratmağa nail olub.

Müdrik rəhbərimizin zəngin təcrübəsi və müdrik zəkası dövlətimizin qarşısında duran ən ağır çətinliyə baxmayaraq, dövlətimizi və xalqımızı zamanın ən ağır sınaqlarından üzüağ çıxara bildi.

Heydər Əliyevin dövlətçiliyimiz tarixində xüsusi yeri var. Onun bu yerini yalnız özü qədər güvəndiyi oğlu İlham Əliyev qoruyub saxlaya bilərdi. Hər bir Azərbaycan vətəndaşının ən yaralı yeri Qarabağ məsələsi idi. Çox heyifslənirəm ki, bütün çətinlikləri dəf etməyə qadir olan bir şəxs – Heydər Əliyev bu məsələni həll edə bilmədi. Ömür vəfa etmədi ki, müdrik rəhbərimiz gözəl Qarabağımız və Azərbaycanımın ən müqəddəs guşəsi olan Şuşamı sülh yolu ilə həmyerlilərimə geri qaytarsın. Hər zaman bu yadıma düşəndə göz yaşlarımı saxlaya bilmirəm, çünki əminəm ki, O, sağ olsaydı bu məsələni sülh yolu ilə həll edərdi. Ancaq o, özü qədər güvəndiyi möhtərəm prezidentimiz İlham Əliyevə inanırdı. Bütün xalqın məhəbbətini qazanaraq Azərbaycanımızı gündən-günə abadlaşdıran cənab prezident İlham Əliyev öz atasının əsasını qoyduğu ənənələri layiqincə qoruyub saxlayır. Bu gün prezidentimizə ən böyük dəstək isə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Onların hər ikisi xalqımızın xoşbəxt gələcəyi naminə əllərindən gələni edir və biz gənclərin üzərindən diqqət və qayğılarını əsirgəmirlər. Şəxsən özümün adından Heydər Əliyevin layiqli davamçılarına minnətdaram.

*Xalqını çıxartdın ağ günə demək,*
*Bəhərin dadmağa qoymadı fələk.*
*Xalqına, dövlətə İlhamdır gərək!*
*Onun timsalında axtarır səni!*
*Ey Ulu Öndər!*

Gün gələcək, möhtərəm prezidentimiz İlham Əliyevin düzgün və ədalətli siyasəti nəticəsində gözəl Qarabağımız işğaldan azad olacaq. Qarabağımın gözü olan igidlər oylağı Şuşamda isə möhtəşəm «Heydər Əliyev» muzeyinin açılışı olacaq və biz şuşalı məktəblilər bu açılışda sevinclə iştirak edəcəyik. Mən buna bütün varlığımla inanıram, çünki bu, mənim həyatda ən böyük arzumdur.

Bu il gözəl bir yaz günündə bütün dünya azərbaycanlıları ulu öndər Heydər Əliyevin 90 illiyini qeyd edəcəkdir. Bəlkə də, onun həyatda olmadığına görə gözlərdən qəmli yağışlar yağacaq, ancaq onun əməlləri yaşadığı

üçün hər kəs sevinc dünyasına qərq olacaq. Mən də onun gözəlləşdirdiyi bir ölkənin övladı olaraq onun müqəddəs məzarını ziyarət edəcəm və bu sözləri deyəcəm. «Doğum günün mübarək! Allahım səni əbədi dünyada cənnətlə qovuşdursun, əziz babam. Ruhun şad olsun, narahat olma, tezliklə mən heç vaxt görmədiyim Qarabağ torpağına ayaq basacam və prezidentimizin dediyi kimi, üçrəngli bayrağımı Şuşada, Xankəndində dalğalandıracam. Bu zaman ilk yadıma düşən insan Sən olacaqsan.»

Mən Heydər Əliyevi heç vaxt daha yaxından görə bilmədim, ancaq inanıram ki, o, hər zaman ürəklərdə yaşayacaq. Ölümü ilə ölməzliyi qazanan müdrik rəhbərimiz heç bir vaxt unudulmayacaq.

Axı heç nə unudulmur, heç nə yaddan çıxmır.

*Sən elə bir qüvvəsən.*
*Xalqın səninlə yaşar.*
*Sən elə bir baharsan.*
*Çiçəklər sənlə yaşar.*

Zirvələri fəth etmiş bir şəxsiyyət haqqında fikir bildirməyə nə vərəqlər bəs edər, nə də sözlər. Ancaq həyatda hər şey bir sonluqla bitir. Əbədi yaşayan isə yalnız məhəbbətdir. Heydər Əliyev məhəbbəti də əbədi yaşayacaq.

Varlığı, duyğuları və yanğıları ilə özünün əsl azərbaycanlı olduğunu sübut edən Heydər Əliyev haqqında fikirlərimi elə onun öz gözəl sözləri ilə bitirirəm. «Mənim üçün hər şeydən əziz mənim vətənimdir, mənim torpağımdır, mənim xalqımdır.» Hər bir Azərbaycan vətəndaşına Heydər Əliyev kimi təmiz ad qazanmağı və şərəfli ömür sürməyi arzu edirəm.





**_Xəlili Vüqar Nemət oğlu_**
**_Sumqayıt şəhəri, 24 nömrəli tam orta məktəbin IX sinif şagirdi_**

Özümüzü dərk edən gündən doğmalarımı, atamı, babamı, anamı tanımışam. Bir də onların dilindən düşməyən, üzünü görmədiyim, ancaq haqqında yalnız xoş sözlər eşitdiyim – Heydər babamı tanımışam. Onun barəsində heç nə bilmirdim. Amma ailəmizdə olan söhbətlərdən hiss edirdim ki, bizə yaxın doğma olan bir insan var – Heydər baba.

İllər keçdi, böyüdüm, məktəbə getdim. Dərs kitablarımın ilk səhifəsində nurani, xoşsimalı bir şəkil gördüm – Heydər babamın şəklini. Məktəb illərini pillə-pillə qalxdıqca onun haqqında hər gün yeni-yeni məlumatlar aldım. Müəllimlərdən, televiziya ekranlarından, oxuduğum kitablardan öyrəndim ki, Heydər baba mənim kimi minlərin, milyonların babasıdır. O, xalqın xilaskarı, müstəqil Azərbaycan Respublikasının qurucusu, memarıdır. Biz bu gün gözəl bir ölkədə azad, xoşbəxt, qayğısız bir həyat yaşayır, təhsil alırıqsa, ilk növbədə ulu öndər, ümummilli lider Heydər Əliyevə borcluyuq.

Dördüncü sinifdə oxuyarkən «Gənc heydərçilər» sırasına daxil oldum, təntənəli surətdə and içdim. Bununla qürur hissi duydum. Bildim ki, məndən yaxşı oxumağım, həmişə hər yerdə nümunəvi olmağım tələb olunur və məsuliyyətimi artırır.

Hazırda doqquzuncu sinifdə oxuyuram. Bir neçə dəfə Heydər Əliyevlə bağlı müsabiqələrdə iştirak etmiş, qalib olmuşam. Müsabiqələr də, oxuduğum kitablar da, eşitdiklərim də məlumatımı xeyli artırmışdır. Ancaq yenə də hiss edirəm ki, dəryadan bir damla götürə bilmişəm. Gəldiyim qənaət, yeniyetmə kimi duyduqlarım məndə belə bir cəsarətli fikir söyləməyə imkan verir: Heydər Əliyevin şəxsiyyəti, Heydər Əliyevin irsi zəngin bir məktəbdir – qəhrəmanlıq, vətənpərvərlik, dövlətçilik və ümumbəşərilik

məktəbi. Bu məktəbdən, bu ümmandan hər bir kəs bəhrələnməlidir – vətənini, torpağını, tarixini, dilini, dinini, öz əxlaqi keyfiyyətlərini sevmək, öz ömrünü, öz həyatını xalqına, vətəninə həsr etmək üçün.

Heydər Əliyev şəxsiyyətini, Heydər Əliyev fenomenini başa düşmək, dərk etmək üçün böyükləri, aqilləri dinləmək, Azərbaycanın son 50 illik tarixini öyrənmək, yüzlərlə elmi,siyasi, tarixi, publisistik əsərləri oxumaq lazımdır. Yaşlı nəsil ulu öndərin – Heydər Əliyevin ölçüyəgəlməz xidmətləri ilə tanışdır. Bugünkü və gələcək nəsillər bu böyük düha sahibinin xalqı, vətəni üçün gördüyü işləri, xalq, vətən qarşısındakı xidmətlərini bilməlidir. Biz bilməli və fəxr etməliyik ki, Heydər Əliyev bütün dünyanı suallar qarşısında qoyan, təəccüb və heyranlıq doğuran bir dühanın şəxsiyyətidir.

Öz aktuallığı ilə diqqəti cəlb edən «Heydər Əliyev» mövzusu həm bu günümüzün, həm də gələcəyin mövzusu, problemidir. Çünki o, əsrin siyasət nəhəngi, tarixə möhtəşəm qədəmləri ilə daxil olmuş nadir şəxsiyyət, müdrik insan, ümummilli liderdir. Belə bir insan ömrü üçün yazmaq, fikir söyləmək həm şərəfli, həm də çox çətin və məsuliyyətli bir işdir. Acizəm yazmaqda. Bilmirəm, onun gördüyü hansı işdən, hansı sahədən yazım? Görkəmli ictimai və siayasi dövlət xadimliyindənmi? Xalqın gələcəyinə inamın qarantı olduğundanmı? General, hərb qurucusu, diplomat, sülh carçısı, elm və mədəniyyət xadimi, demokratiyanın, müstəqilliyin təşkilatçısı olduğundanmı?

Hansı sahəyə nəzər salsaq, ulu öndərlə, Heydər Əliyevlə, onun ağılasığmaz fəaliyyəti ilə rastlaşarıq.

Bəli, Heydər Əliyev xalqın nur umduğu göz idi. Kainata sığmayan günəş, gecəsini gündüzünə qata-qata polad iradəsi ilə dəmir sərhədləri keçərək xalqını sabaha aparan öndər, minlərin, milyonların səcdəgahı, güvənc yeri. Çiçəklənən Azərbaycanın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev zəkasının, Heydər Əliyev əməyinin izi olmasın. Biz şagirdlər bu dahi, ululardan ulu insanın ruhu qarşısında baş əyir, and içirik ki, xalqımızın rifahı naminə, torpaqlarımızın azadlığı naminə mübariz olacaq, onun tövsiyə və arzularını yerinə yetirəcəyik. Bu, mənim kimi minlərin, milyonların arzusu, ürək sözləridir.

Mən əminəm ki, nəsillər bir-birini əvəz edəcək, Ulu Öndərə olan sevgi-məhəbbət hissi, onun irsindən bəhrələnmək arzusu daha genişlənəcək, ürəklərdə əbədiləşəcək, həmişəlik tarixə həkk olunacaqdır. Bu, mənim kimi yeniyetmələrin, şagirdlərin fantastik təxəyyülünün ifadəsi yox, bir həqiqətdir.

Tarixi şəxsiyyətlər nəsillərin yaddaşında yaratdıqları və qoyub getdikləri tarixi abidələrlə əbədiləşdirilir. Hazırda Ulu Öndərin bütün rayon və



şəhərlərdə minlərlə insanın ziyarətgahına çevrilmiş abidələri bunun parlaq təzahürüdür.

Bəli, Heydər Əliyev tarixə qızıl hərflərlə yazıldı, beyinlərdə həkk olundu. Onun qurduğu dövlətin üçrəngli bayrağı hər yerdə dalğalanır. Bu miras bizə puldan, qızıldan, ad-sandan daha da dəyərlidir. Həmin miras Azərbaycan torpağıdır. Ruhun şad olsun, baba! Cənnətin qucağında rahat uyu. Sükan etibarlı əllərdə – hamının ilhamına çevrilmiş sənin tərbiyəni, sənin məktəbini keçmiş möhtərəm prezidentimiz İlham Əliyevin əlindədir. Biz onun ətrafında sıx birləşəcək, sənin yarımçıq qalmış arzularını həyata keçirəcəyik.

Tarix səni bizdən uzaqlaşdırdıqca sən bizə daha da yaxınlaşırsan, daha çox anılırsan. Qədirbilən xalqımız səni həmişə özünün xilaskarı bilmiş, sevmiş, ürəklərdə əbədiləşdirmişdir. Yanımızda olmasan da, sənin hər il yubileyin əsl bayram, el şənliyi kimi qeyd olunur. Bu sevgi, bu hörmət, bu ehtiram səni bizə daha da yaxınlaşdırır. Həyatın eniş-yoxuşunu görməyən, çətinliklərlə üzləşməyən mənim – bu günün məktəblisinin sənin 90 illik yubileyin münasibəti ilə yazdığı hər cür süniliklərdən kənar şagird qəlbindən süzülüb gələn sözlərin səmimi ifadəsi olan bu inşa sənə olan tükənməz sevgimdən irəli gəlir. 90 illik yubileyin mübarək, əziz babam.



**_Quluzadə Fəridə Bəhruz qızı_**
**_Şirvan şəhəri, Tahir Bağırov adına_**
**_11 nömrəli tam orta məktəbin_**
**_XI sinif şagirdi_**

Dahi şəxsiyyət uca bir dağa bənzəyir. Ondan uzaqlaşdıqca onun əzəmətli və qüdrəti daha aydın görünür. Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti də belədir. Hər gün, hər ötən illər onun qüdrətinin nə qədər böyük olduğunu sübut edir.

Ulu Öndərin gəncliyində bir arzusu olmuşdu. Onun arzusu memar olmaq idi. Lakin o, peşəkar memar yox, siyasi memar oldu. Onun «şah əsəri» isə müstəqil Azərbaycan oldu. Qüdrətli Azərbaycan.

Ulu rəhbər Vətənini, doğma xalqını canından artıq sevərdi. O, həmişə deyərdi:

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!»

Bəlkə də, uşaqlıq dünyası o qədər də zəngin olmayıb. Uşaqlıq xəyallarında görmək istədiklərini ilahinin ona qismət etdiyi alın yazısında Azərbaycanın körpə övladları üçün yaratdığı bütün şəraiti ürəyinin hökmü ilə müsbət tərəflərə yüklədi.

Mən ilk dəfə məktəbə qədəm qoyanda məni evdən babam yola salmadı, amma mən məktəbdə Heydər Əliyevə həsr olunmuş fotoetüdlərlə qarşılaşdım. Dünya boyda bir sevinc içimə doldu. Doğma babam bu həyatda olmasa da, Heydər Əliyev əzəmətini, böyüklüyünü, qayğısını, gülərüz, simasını öz üzərimdə hiss etdim. Onun dərin məna kəsb edən gözlərində özüm üçün həyatda böyük uğurlar qazanmağı Vətənimə, millətimə layiqli övlad olmağı və hələ anlaya bilmədiyim bir çox şeyləri oxudum.

Kaş ki onun gözlərinə dola biləydim. Heydər babanın ala gözləri ilə Azərbaycan babalarının təbəssümünü görəydim.

«Uşaqlar bizim gələcəyimizdir», – deyərdi həmişə. Gələcəyi gozəl görmək ümidi ilə körpələr evinin daim işıqlı olmasına çalışardı. Bu gün bu



missiyanı Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva davam etdirir.

Mənim Heydər babam!!!

*Durnaların yollarını itirdi*
*Babəklərin qollarını itirdi,*
*Koroğlular Qıratını itirdi*
*Azərbaycan!!! Səni Heydər yaşatdı!!!*

Yaşanan günlərimizin daha da gözəl, mənalı, dəyərli, düşündürücü, əvəzolunmaz olması üçün Heydər Əliyev ənənələrinə sadiq qalmalıyıq. Bilirik ki, bu ənənələrdə gələcəyimizin davamı olan gəncliyimiz üçün milli dəyərlər öz əksini tapır.

Körpələr böyüyür, gənclik saflaşır, böyük, ağbirçək, ağsaqqal məsləhətinə ehtiyac olur. Bizim üçün Heydər Əliyev yolu ağsaqqal məsləhətidir, doğru yol göstərənimizdir. Bu gün biz Qərblə Şərqi birləşdirən gəncliyi təmsil edirik. Çox arzulardım ki, Heydər Əliyevin qəlbində qalıb həyata keçirə bilmədiyi arzuları bugünkü nəsil ləyaqətlə yerinə yetirə bilsin.

Tarixi şəxsiyyət, dünya şöhrətli siyasətçi, dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin banisi, memarı, qurucusu, dövlətçiliyimizin möhkəmlənməsində misilsiz xidmətləri olan kamil insan, dahi rəhbər ümummilli lider Heydər Əliyev XX yüzillikdə Ulu tanrının bizə, millətimizə, xalqımıza göndərdiyi nur idi. O, nur qaranlıqları nurlandırır, xalqımızı daha parlaq gələcəyə aparırdı.

Hələ əsrimizin əvvəllərində Böyük Mustafa Kamal Atatürk demişdir ki, millətə əfəndilik etmək yoxdur, xidmət etmək vardır. Bu millətə xidmət edən onun əfəndisi olur.

Bu gün Azərbaycan xalqının böyük oğlu, torpağımızın ləyaqətli övladı Heydər Əliyev təkcə bir millətin deyil, bütün bəşəriyyətin, dünya xalqlarının əfəndisidir. Əsrimizin tarixində əvəzsiz lider, dünyanın ən görkəmli və nüfuzlu siyasətçisi kimi öz layiqli yerini tutmuş Heydər Əliyev xalqımız üçün misilsiz və təkrarolunmaz bir varlıqdır.

Mənə yer kürəsində torpaqlarının iyirmi faizi düşmən tapdağında qalmış elə bir ölkə göstərin ki, orada Azərbaycandakı qədər möhkəm sabitlik, dinclik və əmin-amanlıq olsun. Elə bir ölkə göstərin ki, milli bayrağı yer kürəsinin bütün bayraqları ilə çiyin-çiyinə dalğalansın. Səsi dünyanın ən nəhəng ölkələrinin ən ali məclisindən eşidilsin. Dünyanın ən qüdrətli şirkətlərini özünə doğru qanadlandırsın. Bu, Heydər Əliyev nəhəngliyinin, Heydər Əliyev zəkasının təntənəsidir.

O, öz müdrikliyi ilə yüz yetmiş dörd il bundan əvvəl xan babalarımızın günahı üzündən sinəsində Araz boyda nəhəng bir şırım açıb iki yerə parçalanmış Azərbaycanımızı əlləriylə parçalanmaq faciəsindən xilas etdi. Qardaş qırğınlarının qarşısına polad sədd çəkdi. Erməni lobbilərinin meydan suladığı ən nəhəng dövlətlərin belə qəlbindən Ermənistan adlı iblisi çıxarıb gedər-gəlməzə tulladı və onun yerində Azərbaycan sevgisi, Azərbaycan məhəbbəti yaratdı. Dünyanın ən nəhəng ölkələri ilə Azərbaycan arasında heç bir tufanın sarsıda bilməyəcəyi sədaqət və məhəbbət ünvanlı polad körpülər yaratdı. Belə bir şəxsiyyətə arxalanan xalq ən keçilməz yollardan belə keçməyə, ən aşılmaz zirvələri belə aşmağa qadirdir. O, halalik heç bir alpinist qalxa bilmədiyi bir zirvədir: Ağıl zirvəsi.

Əgər dünyanın ən böyük mütəfəkkirlərini bir yerə toplayıb, nəhəng bir müdriklər ordusu yaratmaq mümkün olsaydı, şübhəsiz ki, bu nəhəng orduya sərkərdəlik etmək qüdrətinə malik şəxsiyyətlərdən biri, bəlkə də birincisi Heydər Əliyev olardı.

Bəşəriyyət zamanın sürətini üstələyə biləcək fövqəlsürət axtarışındadır. Vaxtı biz seçmirik, vaxtın püşkü özü bizi seçir. Vaxt axarında minlərlə, milyonlara insanı əridib itirir. Yalnız tək-tək, qeyri-adi insanlar varlıqları ilə yaşadıqları zamana da, müasirlərinə də təsir göstərir, beləliklə, içərisində olduqları vaxtın hüdudlarından qırağa adlayırlar. Bəzən hansısa tarixi şəxsiyyət barədə düşünürkən təəssüflənirsən ki, o, həqiqətən, yaşamış olduğu dövrdə deyil, başqa zaman kəsiyində düşsəydi, daha çox faydalar verərdi, daha parlaq iz qoyardı, amma bunun əksi olan bir məntiq də var ki, tale ilahi qüdrət hər kəsi məhz öz yaşamalı olduğu, öz sözünü deməli olduğu zamana ezam edir.

Heydər Əliyev Yer kürəsində həqiqətləri yayan bir günəşdir. Yer kürəsi Günəş ətrafında fırlandığı kimi, Azərbaycan da Heydər Əliyevin şəxsiyyətində dünyanı gəzirdi və tanınırdı. Bu gün heç kəsə sirr deyil ki, o, ilk dəfə qısa bir zaman ərzində Azərbaycan adlı gəmini onu təhdid edən «sualtı qayalıq»lar arasından məharətlə keçirib, təhlükəsiz limana çatdırmışdır.

Hərdən fikirləşirəm ki, Heydər Əliyev kimi qətiyyətli, cəsarətli, yenilikçi, qəlblərə sığmayan bir insanın ömrünün böyük hissəsi çox cəhətdən çərçivəli, davranışın, danışığın dar hüdudlar arasında mövcud olduğu sovet dövrünə deyil, başqa zaman kəsiyinə düşsəydi, özünüifadəyə daha münbit meydan tapardı, tarix səhnəsində yeni-yeni ləyaqətləri ilə, çalarları ilə görünərdi.

Əsrimizin tarixində əvəzsiz lider, dünyanın ən görkəmli və nüfuzlu siyasətçisi kimi öz layiqli yerini tutmuş Heydər Əliyev xalqımız üçün misilsiz və təkrarolunmaz bir varlıq, tarixi şəxsiyyətdir. Belə insanlar əsrdə bir dəfə dünyaya gəlir. Hər ana da tarixə tarixi şəxsiyyətlər bəxş edə bilmir.



Yer üzündə yeddi möcüzə var. Belə möcüzələri insanlar yaradıb. Onlar öz yaratdıqlarına heyrətlərini, heyranlıqlarını bildirmək üçün möcüzə deyiblər. Heydər Əliyev tanrının Yer üzündə yaratdığı möcüzədir. Onun xalqımız üçün həyatdakı əvəzsiz xidmətlərini xatırladıqca qəlbim qürur hissi ilə, sevinclə dolur, söz köksümdə pərvazlanır, qanadlanır, kükrəyir, coşur.

Bilirəm ki, dünyada ən uca zirvə Everest zirvəsidir.

Heydər Əliyev zəkası, ziyası, dühası Everest zirvəsini üstələyərək deyərdim ki, dünyada əlçatmaz bir zirvə, bir nöqtə olmuşdur. Günəş işığı arxasınca, dağ zirvəsində olan təmiz qarın işığına doğru gedən dühanı heç kim üstələyə bilməz. Bu məqamda bir misra yadıma düşür:

*Günəş dolandırır başına yeri,*
*Günəş ol yola ver can-ciyərləri*

Biz günəş işığı qədər parlaq olan Heydər Əliyev zəkasından bəhrələnmək istərdik.

Ümumimilli lider Heydər Əliyev zəkası, şəxsiyyəti müstəqil Azərbaycan məmləkətinin işığıdır. Heydər Əliyev işığı Azərbaycanın dünəninin, bu gününün və sabahının nurudur.

Yaşadığı mənalı ömür, keçdiyi şərəfli həyat yolu yüzlərə, milyonlara örnəkdir.

Azərbaycan dövlətinin bugünkü siyasəti Heydər Əliyev yadigarının tutduğu mövqe ilə ölçülür. Mən İlham Əliyevi çox istəyirəm, amma dövlətçiliyimizin azadlıq mübarizəsində öz sözünü deməyi bacaran, Koroğlu, Babək qeyrətinə, namusuna söykənən Ramil Səfərovun əfvi ilə bağlı verdiyi sərəncamla Prezidentimiz mənim gözlərimdə əzəmətli, qocaman, əyilməz bir dağ silsiləsinə çevrildi.

Yaşasın Azərbaycan!!! Yaşasın Odlar Yurdu!!!



***Hüseynzadə Bətulə Sabir qızı***
***Cəlilabad şəhəri, akademik Zərifə Əliyeva adına 7 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

Mən bu kiçik inşa-essemi ad gününüzdə Sizin heç vaxt ölməyən ruhunuza müraciətlə yazıram. Bu, mənim Sizə yazdığım nə əvvəlki, nə də sonuncu məktubumdur. Varlığından xəbərsiz olduğunuz və heç vaxt Sizə çatmayacaq məktublarımı keçmiş günlərin, ayların, illərin tarixi salnaməsi kimi həmişə qoruyub saxlayacağam.

1990-cı il 20 Yanvar gecəsi. O dəhşətli Yanvar gecəsindən 23 illik zaman məsafəsindəyik. Faciələrlə dolu gecənin şahidi olmasam da, bilirəm ki, məhz o dəhşətli günlərdə qəhrəman oğullarımız imperiya tankları altında xın-xıncım əziləndə millətin Allahdan belə üz döndərdiyi məqamda azad bir məmləkətdən kədərli səsiniz eşidildi və bu səs evbəev, küçəbəküçə bütün Azərbaycanı dolandı. İmperiyanın və eləcə də imperiyanın sadiq nökərlərinin ciddi cəhdlərinə baxmayaraq doğma Vətəndə yasaq olmuş adınız Azərbaycan xalqının təsəllisi kimi qəlblərdə ümid yuvasına, dodaqlarda həzin pıçıltıya çevrildi.

Azərbaycana on dörd illik rəhbərliyiniz müddətində xalqın əldə etdiyi nailiyyət bütün sahələrdəki kosmik inkişaf, təhsilə, mədəniyyətə göstərdiyiniz qayğı bir kino lenti kimi insanların gözləri önündə canlandı. Tariximizə respublikanın «qızıl dövrü» kimi daxil olmuş xoşbəxt on dörd il ürəklərdə nisgilli duyğular oyatdı. Hamı: uşaq da, böyük də Sizi səsləməyə, Sizi haraylamağa başladı.

Məhz xalqımızın qan yaddaşına çevrilmiş qanlı Yanvar gecəsində Siz xalqın sönməyəcək parlaq və işıqlı Günəşi olduğunuzu bir daha təsdiq etdiniz. Təəssüf ki, Azərbaycan şəhərlərinin birində Günəştək yenidən parlayanda Vətən torpaqlarının 20%-i düşmən tapdağı altına düşmüş, respublikamızda bir milyondan artıq qaçqın ordusu yaranmış, ölkəmiz vətəndaş



müharibəsi təhlükəsi ilə üz-üzə dayanmışdı. Bu zaman ölkəmizdə «xanlıqlara» parçalanma prosesi başlamışdı. Parçalanmış və dövlət idarəçiliyindən çıxmış ölkə «bostan» və «qəssab» qanunları ilə idarə olunurdu. Dövlətə məxsus atributlar ayaqlar altına salınmışdı. Xalq öz xilaskarını, millətə xoşbəxtlik, əmin-amanlıq bəxş edəcək Tanrı Nurunu gözləyirdi. Belə bir çətin, dar məqamda Azərbaycan xalqı yenidən Sizi xatırladı. Bu andan etibarən Siz Azərbaycanın əbədi və sönməz Günəşinə çevrildiniz. Başınızı kəsməyə, qanınızı içməyə hazır olan xalq və dövlət düşmənlərinin təhdid, hədyan və böhtanlarına baxmayaraq Siz qayıtdınız. Qayıtdınız ki, vətən torpaqlarını hərraca qoyub satanlar, millət qanına susayanları yerində oturdasınız. Qayıtdınız ki, verdiyiniz çörəyi xalqın əlindən zorla almış nankorlardan həmin o müqəddəs çörəyi yenidən geri alasınız və əsl sahiblərinə qaytarasınız. Və bu günümüz dünənimizdən, sabahımız bu günümüzdən əlamətdar firavan gəldi.

Sizin dühа və zəkanız sayəsində Surətlərin, Rövşənlərin, Əlikramların silahlı dövlət çevrilişi cəhdləri, millətimizə qarşı hazırlanmış neçə-neçə təxribat və terrorların qabağı alındı. Azərbaycan millətinin dili və mənəviyyatı, adət-ənənələri özlərinə qaytarıldı. Dövlətimiz demokratiya yolunda uğurlu addımlarla irəliləməyi, müstəqilliyə qovuşmağa can atdı.

Xalqımıza acı göz yaşı bəxş etmiş müharibə dəhşətlərinə atəşkəsə nail olmaqla son qoyuldu. Dünyanın inkişaf etmiş və qüdrətli dövlətlərinin iştirakı ilə «Əsrin müqaviləsi» imzalandı. Səhiyyə, təhsil, mədəniyyət, incəsənət işçilərinin əhalinin aztəminatlı hissəsinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün ədalətli qərarlar qəbul olundu.

Xarici siyasət meydanında yeritdiyiniz «qrossmeystr» dəqiqliyi ilə heyrətamiz gedişlər düşmənlərimizi və düşmən dəyirmanına su tökənləri «mat» qoydu. Və nəhayət, ATƏT-in Lissabon zirvə toplantısındakı siyasi mövqeyiniz, təkrarsız siyasi kombinasiya və gedişləriniz dühanızın zirvəsi oldu.

Əllidən artıq dövlətin hökumət və dövlət başçıları kiçik bir dövlətin əzəmətli və qüdrətli rəhbərinin dəmir iradəsinin, siyasi mövqeyinin və gedişlərinin sayəsində dövlətimizin mövqeyini dəstəklədi.

Çox təəssüf ki, hələ də Sizin sayənizdə əldə etdiyimiz qələbələrimizi heç etməyə – Əliyev – Xalq birliyini pozmağa çalışan daxili və xarici düşmənlərimiz var. Ancaq onlar unudurlar ki, məhz uduzmağa adət etmiş xalqımız Sizin müqəddəs qayıdışınızla əzəmətli qələbələrin və nailiyyətlərin şahidi oldu. Siz bu dövlətə və millətə baş ucalığı, məğrurluq gətirdiniz. Oğullar yenidən atalarını düşməndən güclü hesab etməyə başladılar.

Əsgərlərin qələbə əzmi, döyüş ruhu özünə qayıtdı. Uşaqdan böyüyə hamı Heydərləşdi. Heydərləşməklə – kişiləşdi.

Siz bu ölkənin təkcə prezidenti deyil, atalarımıza ata, mənim kimi uşaqlara Baba oldunuz. Yəqin elə buna görədir ki, bütün dünya xalqlarının həsəd apardığı, bənzərsiz, arzuladığı tayı-bərabəri olmayan rəhbər idiniz. Dövlətimizə və millətimizə təmənnasız xidmət və qayğılarınız deməyə əsas verir ki, Sizin qədər dövlətini və millətini sevə biləcək şəxsiyyət nə bu dünyaya gəlib, nə də bundan sonra gələcək.

Nizamini, Füzulini, Cavidi, Dədə Qorqudu bütün dünyaya tanıtdırdınız. Doğma dilimizin dövlət dili səviyyəsinə qalxmasını isə ancaq Sizin adınızla bağlamaq olar. Tariximizi bizə öyrədən, onu daim uca tutmağa sövq edən Siz oldunuz.

Naqisləri, haqsızları ifşa etmək səriştəniz neçə-neçə qitə keçib, dağ aşıbdır. Müdrikliyin qapısını döyə-döyə siyasi bir təlatümdən baş çıxardıb, həqiqətə yol açdınız. Məğrur səsiniz gah Ağ evin, gah Pekinin, gah Londonun, gah da Parisin möhtəşəm saraylarından eşidildi. Köçkünlərin, yurdsuzların, evsizlərin səsinə haray verdiniz.

Şimşək qədər sürətli, dəryalar qədər dərin ağlınız, zəkanız qarşısında diz çökdü daxili və xarici düşmənlərimiz.

Siz bu millətə tükənməz nemət bəxş etdiniz. Bu gün də hamı o nemətdən dadır, Sizə dualar oxuyur.

Siz bu dövlətə və millətə İlham Əliyev kimi fərasətli və bacarıqlı oğul bəxş etdiniz. Bu oğul dövlət müstəqilliyimizin və verdiyiniz çörəyin təminatıdır. Azərbaycanın ən yeni tarixi onun adı ilə bağlıdır. Siz Qadir Allahın xalqımıza və türk dünyasına bəxş etdiyi xoşbəxtlik Günəşisiniz. Yaşadığınız XX–XXI əsrlərdə heç bir bəşər övladı millətini və dövlətini Sizin qədər xoşbəxt etməyi bacarmayıb. Çünki siz xoşbəxtliyin özüsünüz. Bu xoşbəxtliyin zərrəcikləri bütün dünyanı xoşbəxt etməyə bəs edər.





***Nağıyeva Aydan Aydın qızı***
***Bakı şəhəri, Nazim İsmayılov adına 80 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Düz doxsan il əvvəl Azərbaycan adlı bir məmləkətdə bir ulduz doğdu. Əvvəl bu ulduzu öz qayğılarına bürüyən ailə üzvləri getdikcə onun istisinə qızınmağa, işığından hərarət almağa başladılar. Amma onun getdikcə nəhəng bir Günəşə çevriləcəyini, böyük bir məmləkətin bu Günəşin sayəsində var olacağını, yəqin ki, Tanrıdan başqa, hələ heç kim bilmirdi.

Bu ulduz Ulu Tanrının sönməz nurunun, Yer kürəsini bürüyən hərarətinin, yaratdığı bəndələrə qayğısının, məhəbbətinin vəhdətindən yoğrularaq göylərdən yerə endi. Gəldi ki, qüdrətli rəhbərə ehtiyacı olan, əsrlərlə, illərlə düşmənləri tərəfindən incidilən bir xalqın, yadellilərin tapdağı altında qalan bir məmləkətin pənahı olsun.

Gəldi ki, zaman-zaman ən qiymətli torpaqları yağılar tərəfindən zəbt edilən, insanları incidilən azad nəfəs ala bilməyən bir yurdun arxa-dayağı olsun.

Gəldi ki, illərlə rus imperiyasının əsarəti altında qalaraq səs hüququnu tamam itirmiş bir milləti zülmdən qurtarsın, haqqını bərpa etsin.

*Böyük bir alimdir, dahi şəxsiyyət,*
*Dəryadır, ümmandır Heydər Əliyev.*
*Xalqının dərdinə çarələr tapan*
*Ən böyük loğmandır Heydər Əliyev.*

Heydər Əliyev insanlığın Yer üzünə bəxş etdiyi ən böyük şəxsiyyətdir desək, əlbəttə, yanılmarıq. Yer kürəsində tarix yaradan, bir ölkənin, bir xalqın, bir millətin taleyini dəyişən şəxsiyyətlər az olmayıb. Ancaq XX əsrin peyğəmbərinə çevrilmiş Heydər Əliyev şəxsiyyəti hər kəsdən və hər şeydən yüksəkdə dayanır. Vətəninin, xalqının taleyinə biganə qalmayanlar,

azadlığa, müstəqilliyə can atanlar tarixin burulğanlarında tək olmamışlar, hər böyük şəxsiyyətin yanında onu dəstəkləyən, ona arxa olan silahdaşları olub.

Heydər Əliyev isə ona görə bütün əsrlər və bütün nəsillər üçün ən nəhəng şəxsiyyətdir ki, parçalanmaqda, məhv olmaqda olan Azərbaycanı öz qüdrətli əlləri ilə təkbaşına xarabalıqlar üzərindən qaldırıb.

Heydər Əliyev gəncliyində memar olmaq istəyib. Amma amansız müharibə onun peşəkar memar olmaq arzusunu yarımçıq qoyub.

Həyatın çox sərt üzləri ilə qarşı-qarşıya duran Heydər Əliyev heç zaman heç nədən qorxmayıb, çəkilməyib, heç bir çətinlik qarşısında sınmayıb, əyilməyib:

Akademik Əziz Əliyevə şübhə ilə baxan «KQB» quduzları Zərifə Əliyeva ilə görüşləri qadağan etmək istəyərkən sevdiyi qızla münasibətini kəsməyəndə də...

Təhlükəsizlik orqanlarında işləyərkən beş mindən çox soydaşını KQB-nin caynağından gizlicə qurtaranda da...

Rus imperiyası müsəlman respublikalarını əzərək, bütün milli dəyərlərini məhv etmək istəyərkən, Azərbaycanda ədəbiyyatın, milli mədəniyyətin, incəsənətin çiçəklənməsi üçün əlindən gələni edəndə də...

M.S.Qorbaçov dövründə səs-səsə verən imperiya bayquşlarının qarşısında yenilməz dağ kimi sinəsini gərərək dayananda da...

1990-cı ilin 20 Yanvarında azəri övladlarının qanına qəltan edildiyi bir dövrdə haqq səsini heç kəsdən çəkinmədən bütün dünyaya çatdıranda da...

Nəhayət, uğrunda hər dəqiqə canından keçə biləcəyi Azərbaycanın vətəndaş müharibəsi ilə üz-üzə dayandığı bir vaxtda əsl xilaskar olaraq xalqın köməyinə çatanda da...

Həyatımızın elə bir sahəsi yoxdur ki, ora Ulu Öndərin nəfəsi dəyməmiş olsun.

Heydər Əliyev bütün əcnəbiləri valeh edən neçə-neçə zavodun, fabrikin, təhsil ocaqlarının, möhtəşəm binaların qurucusu, ədəbiyyatımızın, musiqimizin, incəsənətimizin banisi, tariximizin yaradıcısı idi. Neçənci ildə, hansı zamanda olmağımızdan asılı olmayaraq. Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq olmaz. O yaşayıb, yaşayır və yaşayacaq. İndi və daim Azərbaycanda Heydər Əliyev adlı canlı tarix var və var olaraq qalacaqdır.

Xalq bu tarixi sevir və sevə-sevə də pərəstiş edir. Bu sevginin sirri nədir?

– Heydər Əliyevin xalqına, vətəninə təmənnasız məhəbbətimi?

– Bütün yaş dövrlərində əsl el ağsaqqalına məxsus müdrikliyində təmkinimi?



– Ən çarəsiz məqamlarda vəziyyətdən çıxış yolu tapa bilməsimi?

– Cəmiyyətin, az qala hər bir üzvünə fərdi yanaşması, hərəni öz dili ilə dindirməsimi?

– Bütövlükdə bütün Azərbaycana öz övladı, öz yetirməsi kimi baxaraq xalqa əsl atalıq qayğısı göstərməsimi?

– Bütün ömrünü Azərbaycana, Azərbaycan üçün sərf edərək, elə Azərbaycanın özü boyda şah əsər yaratmasımı?

Bütün bu səbəblər ayrı-ayrılıqda və bütövlükdə bir yerdə hər birimizin qəlbində Heydər Əliyev adlı əbədi heykəl ucaldır.

Bu gün Azərbaycan öz uğurları ilə Yer kürəsinə səs salan, dünyanın ən mötəbər məclislərində, forumlarında öz sözünü deyə bilən müstəqil bir dövlətdir. Bu dövlətin təməlini Heydər Əliyev neçə-neçə sınaqdan sonra qoymuşdur. Dahi şəxsiyyət qiymətli kəlamlarından birini də dövlət haqqında demişdir:

«Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda, günahsıza cəza veriləndə».

Doqquzuncu sinifdə oxuyuram. Heydər Əliyevin həyatı, xalqımız, vətənimiz üçün etdikləri uşaqlıqdan məni vəcdə gətirib.

Bu böyük dahiyə məhəbbət mənə böyüklərimdən keçib. Evimizin ən yüksək yerindən Heydər Əliyevin şəkli asılıb. Babam böyük vətən müharibəsi veteranı olduğu üçün veteranlarla müxtəlif görüşlərə dəvət edilirdi. Hər dəfə belə görüşlərdən sonra Heydər Əliyevi gördüyündən ağızdolusu, böyük fərəhlə danışardı. Böyüdükcə bu dahi şəxsiyyəti daha yaxından tanıdım. Tanıdıqca öyrəndim ki, Tanrı hər xalqı belə xoşbəxt yaratmır və hər xalqın taleyinə belə rəhbərin adı yazılmır. Ona görə də bir azərbaycanlı kimi Ulu Öndərin adına, işıqlı əməllərinə layiq olmağa çalışmaq hər birimizin borcudur.

Gələcəkdə hüquqşünas olmaq arzusundayam. Yalnız ona görə ki, dövlətimizin dayaqlarını sarsılmağa qoymayım. Yəni əsasını Heydər Əliyevin qoyduğu bir dövlətdə nə günahsıza cəza verilsin, nə də günahkar cəzasız qalsın.

Düz doxsan il əvvəl Azərbaycan adlı məmləkətdə bir ulduz doğdu. Bu ulduz böyüdükcə nəhəng bir Günəşə çevrildi. Bu Günəşin sönməz hərarəti nəinki bütün Azərbaycana, Yer kürəsinə səpələnmiş bütün azərbaycanlıları isidir, onlara həyat verir, hər birini həyata bağlayır.

Yubiley ərəfəsində yazdığım inşadakı sözlərə Ümummilli liderimizə olan sevgimi də qataraq hərarət və səmimiyyət dolu yazı yazmaq istərdim.

Düzdür, haqqında çox yazılıb. Uzun və macəralarla zəngin, bənzərsiz ömür yolu hekayəsini isə olduğu kimi hazırlamaq heç kəsə nəsib olmayıb. Çünki şərəfli keçmişi ilə əlçatmaz zirvəyə çevrilmiş Heydər Əliyevin fövqəlbəşər fəaliyyətinin bilinməyən çox məqamları vardır.

Aydın olan odur ki, Azərbaycan bir qollu-budaqlı ağacdırsa, Heydər Əliyev onu öz istisi ilə isidən, ona həyat verən işıq, nur mənbəyidir və nə qədər ki, Yer kürəsi, Yer kürəsində Azərbaycan adlı bir məmləkət var, həmin Nurun işığı xalqımızın başı üstündən əskik olmayacaq.





## *Səmədov Nicat Natiq oğlu*

***Bakı şəhəri, Abil Səfərov adına***
***114 nömrəli tam orta***
***məktəbin VIII sinif şagirdi***

Mən öz inşa yazıma ümummilli lider Heydər Əliyevin sözləri ilə başlamaq istərdim:

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam».

XX əsrin ortalarında Azərbaycanın işıqlı səmasında bir ulduz parladı. Bu, Heydər Əlirza oğlu Əliyev idi.

O, Azərbaycanın Lideri, görkəmli Şəxsiyyəti, Ulu Öndəridir.

Heydər Əliyev daim xalqının xoşbəxt gələcəyini düşünürdü.

«Azərbaycan mənim ürəyimdir, nəfəsimdir, həyatımdır», – deyən bu dahi şəxsiyyəti xalqsız, xalqı isə onsuz təsəvvür etmək mümkün deyildir:

*Nə qədər bu millət var,*
*Nə qədər Azərbaycan,*
*«Heydər, xalqım» – deyəcək*
*«Xalq, Heydər» – söyləyəcək.*

Heydər Əliyev dahi bir şəxsiyyət kimi dünyaya gəlmişdir. Bahar fəslinin ən işıqlı ayında doğma Naxçıvan şəhərində böyüyüb boya-başa çatmışdır.

Tanrı ona hər şey: məğrur səs, odlu nəfəs, düz qamət, iti baxış, fenomen yaddaş vermişdir. Dünyaşöhrətli Ümummilli Liderimizin fəaliyyəti zəngin bir həyat məktəbidir. Məhz bu məktəbdən ardıcıl və sistemli istifadə etmək hər bir Azərbaycan vətəndaşı üçün müqəddəs bir borcdur.

Məlumdur ki, Heydər Əliyev gənclərin təlim-tərbiyəsinə xüsusi önəm verirdi. Uşaqların sağlam böyüməsi, milli-mənəvi kökə sadiqlik ruhunda təhsil alması üçün əlindən gələni edirdi.

Məktəbdə müəllimlərimdən, evdə isə valideynlərimdən eşitdiyimə görə, hələ 1970-ci illərdə Azərbaycanda I katib olduğu dövrlərdə dərsliklərin paylanması ideyasını məhz Heydər Əliyev irəli sürmüş və təbliğ etmişdir. Amma 1992-ci ildən bu təklif ləğv edilmişdir. Nəhayət, xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər 1995-ci ildən bu ideyanı bir daha irəli sürdü və bu, indiyədək davam edir.

2003/04-cü tədris ilindən «Bilik Günü» məktəbə təzəcə qədəm qoyan birincilərin pulsuz çanta və dərs ləvazimatları ilə təmin olunması Ulu Öndərin uşaqlara göstərdiyi qayğıdan xəbər verir.

Hər il yeni il ərəfəsində valideyn himayəsindən məhrum olan uşaqlarla görüşlərin təşkil olunması, hədiyyələrin paylanması, ali məktəblərə yüksək balla daxil olan tələbələrə «Prezident Təqaüdü»nün təsis edilməsi məhz Heydər Əliyev ideyalarının davamıdır. Heydər Əliyev «Təhsil millətin gələcəyidir», – şüarını söyləməklə, demək olar ki, millətin gələcəyini qabaqcadan görür və nə etmək lazım olduğunu çox yaxşı bilirdi.

Eşitdiyimə görə, Ulu Öndər hər il «Bilik günü»ndə müəllim, valideyn və şagirdlərlə görüşüb öz dəyərli məsləhətlərini onlara bildirirdi. Məhz belə bir xoşbəxrlik bizim rayonun da payına düşmüşdür.

2002/03-cü tədris ilində Heydər Əliyev rayonumuzda yerləşən 275№-li tam orta məktəbdə olmuşdur. Xoşbəxtəm ki, dünyaya gələn gündən Ulu Öndərin sevgisi ilə əhatə olunmuşam. Bütün uşaqlar kimi mən də ona «baba» söyləmişəm. Məktəbimizdə onun adı ilə bağlı olan şeirləri həvəslə əzbərləmişəm:

*Bu dövlətin qüdrətində,*
*Bu millətin hörmətində*
*Yaşayır Heydər babamız.*
*Əməli zəfər babamız!*

İllər gəlib keçsə də, Ulu Öndərimizin təhsilə göstərdiyi qayğı unudulmayacaq. Təhsilin bütün sahələrində Heydər Əliyev irsindən istifadə ediləcəkdir.

O, təhsilin himayədarı, millət atasıdır.

Ömrünün çox hissəsini siyasətə, qurub-yaratmağa həsr etmişdir bu əvəzolunmaz şəxsiyyət. O, elə bir şəxsiyyət olub ki, istər ölkə daxilində, istərsə də ondan uzaqlarda xalqına daima başıucalıq və hörmət gətirib. Elə bu nüfuza görədir ki, canından artıq sevdiyi Azərbaycan xalqını, onun mədəniyyətini bütün dünyaya tanıtmışdır. Heydər Əliyev Azərbaycanın qurucusu, memarıdır. «Müstəqil Azərbaycan» Heydər Əliyevin şah əsəridir.



«Müstəqilliyimiz əbədidir, sarsılmazdır, dönməzdir», – deməklə güclü bir dövlət yaratdığını hamıya göstərdi. Əməlləri ilə lider olduğunu bir daha sübut etdi.

Xalqın rifahı üçün onun xidmətləri əvəzsizdir.

Yaxın günlərdə Ümummilli liderin 90-cı ildönümü böyük təntənə ilə qeyd ediləcək.

İndi Ulu Öndərin yolunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir.

İftixarla deyə bilərik ki, Heydər Əliyev Azərbaycanı bir dövlət kimi yer üzündən silinmək bəlasından qurtarmışdısa, İlham Əliyev dirçəlməkdə olan Azərbaycanı ayaqları üstə qaldırıb, bütün dünyaya tanıtmağa müvəffəq oldu.

İlham Əliyev Dahi Şəxsiyyətin əsl davamçısı olduğunu hər gün sübut etməyə çalışır.

Biz İlham Əliyevin sayəsində torpaqlarımızın geri qaytarılmasına qəlbən inanırıq.

Sonda bu sözləri fəxarət hissi ilə deyirəm: Ulu Öndər, Siz nəsillərə nümunə olan Dahi Şəxsiyyətsiniz.

*Biz sizinlə fəxr edirik,*
*Biz sizinlə öyünürük.*
*Çünki Heydər nəfəsliyik,*
*Biz Heydərin nəvəsiyik!*



## *Əfəndizadə Nərmin Davud qızı*

***Bakı şəhəri, «Tərəqqi» teniki-humanitar liseyin IX sinif şagirdi***

*«Milli ruhun dirçəlişi üçün milli azadlıq, milli canlanma, ədalət lazımdır».*

**Heydər Əliyev**

Dünyada azadlıq qədər ikinci şirin bir nemət yoxdur. Bu azadlığı bizə Heydər Əliyev bəxş etdi. Bu dahi şəxsiyyət olmasa idi, Azərbaycanın gələcəyi haqqında düşünmək belə ağır olardı.

Təsəllim odur ki, mən bu dahi şəxsiyyətlə 4–5 il eyni dövrdə yaşamışam, eyni havanı udmuşam, eyni sudan içmişəm. Ulu Öndərimiz vəfat edəndə hələ çox kiçik idim, onu tanımaq imkanım olmamışdı. Böyüdükdən sonra ətrafımdakıların onun haqqında danışdıqları məndə ona qarşı böyük bir maraq oyatdı. İndi bu dahi şəxsiyyətin həyatı haqqında daha çox öyrənməyə can atıram. Fikir verdinizsə, şəxsiyyət adlandırdım onu. Çünki onun haqqında eşitdiklərim mənə belə deməyə əsas verir. Əvvəl tarix şəxsiyyəti yetişdirir, sonra şəxsiyyət tarix yaradır. Burada M.Şəhriyarın sözləri yadıma düşür: «Anam məni yaratmış, mən aləm yaratmışam».

Mən Heydər babanı çox sevirəm. Onun haqqında daha çox öyrənmək, onu bu zirvəyə gətirib çıxardan həyat yolundan ibrət olmaq istəmişəm. Öyrənmişəm ki, onun uşaqlığı da çox yaddaqalan olub. Heydər Əliyev uşaqlıqda kəskin zəkası, səmimiliyi, düzgünlüyü, hazırcavablığı və eyni zamanda prinsipiallığı ilə də həmyaşıdlarından fərqlənib.

Bəzən göydəki günəşə bənzədirəm onu: hamıya işıq dolu nur ələyirdi. Bəzən dənizdəki mayaka bənzədirəm: çətin vəziyyətə düşmüşlərə yardım edər, yolunu azmışlara yol göstərirdi. Şux yerişini, inamını dağlara bənzədirəm: vüqarlı və əyilməz idi. Heydər Əliyev Azərbaycan Sənaye İnstitutunun



memarlıq fakültəsinə daxil olmuş, orada təhsil almağa başlamışdı. Lakin müharibə hər şeyi yarımçıq qoydu. Bir daha memarlıqla məşğul olmasa da, azad Azərbaycan dövlətinin baş memarı oldu. Heydər Əliyev 1964-cü ildə DTK-nın sədr müavini, 1967-ci ildə isə DTK-nın sədri seçilmişdir. 1969-cu il isə Azərbaycan xalqı üçün ən uğurlu illərdən birinə çevrildi. Yüksək vəzifəsinə görə o, hər dəfə başqa millətlərin nümayəndələri, xüsusilə ermənilərlə üz-üzə gəlməli olurdu. Lakin fitri istedadı, əzmi, qətiyyəti ilə hər kəsi özünə heyran buraxırdı. Heydər Əliyevin xalqı üçün gördüyü ən önəmli işlərdən biri də gənclərimizi ali təhsil almaq üçün oxumağa göndərməsi oldu. Müstəqilliyimizi əldə etdikdə heç də əliboş deyildik. Bu gənclər yurdumuza hava, su kimi lazım idi. Bu da liderimizin uzaqgörənliyi, siyasəti nəticəsində gerçəkləşdirilmişdi. Heydər Əliyev milli rifahımızın yaxşılaşdırılmasına, iqtisadi-sosial əlaqələrimizin gücləndirilməsinə böyük səylə çalışırdı. O, magistral yolların çəkilməsinə, yeni şəhərlərin salınmasına məhz özü rəhbərlik edirdi. Heydər Əliyev Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Ərzurum qaz kəmərinin çəkilməsinə nail oldu, Azərbaycanı Avropa Şurasının tərkibinə daxil etməyi bacardı, onun Azərbaycanın İpək yolunun çəkilməsində böyük rolu oldu, Azərbaycan NATO dövlətləri ilə əməkdaşlıq edə bildi.

*Demə ki, bu millətin sahibi, yiyəsi yox,*
*Demə, kəsmir qılıncım, sapı var, tiyəsi yox,*
*Bu dövlətin başında başçı da var , baş da var*
*Millətə sahib olan əsl vətəndaş da var!*

Xalqımızın sevimlisi olan Heydər Əliyevin belə uğurlar əldə etməsinə dözə bilməyən qara qüvvələr türkləri sevməyən, erməniпərəst Mixail Qorbaçovu hakimiyyətə gətirdikdən sonra istəklərinə çatdılar, Heydər Əliyevi Kremldən uzaqlaşdıra bildilər. Lakin onun iradəsini qıra bilmədilər.

1990-cı il 20 Yanvar hadisələrinə bütün dövlət adamları göz yumarkən Heydər Əliyev sərt bəyanatlarla çıxış etdi, hadisəni törədənləri kəskin surətdə ittiham etdi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxdı. Ən əsası hər an vətəndaş müharibəsi başlaya biləcəyi bir dövrdə gəmini tufanlardan çıxaracaq ağıllı bir kapitana ehtiyac duydu. Sözsüz ki, o, bir Xızır kimi xalqının köməyinə yetişdi. Heydər Əliyev sözün əsl mənasında əsrarəngiz və əvəzolunmaz bir şəxsiyyət idi. Xalqına, vətəninə çox bağlı idi, dilini, millətini hər şeydən çox sevərdi. O, bir neçə dəfə qəti addımlar ataraq nəinki özünü, hətta öz ailəsini belə təhlükəyə atardı.

İnsanlar necə dara düşdükləri zaman tanrıya sığınıb, onu köməyə çağırırdılarsa, xalqımız da «hərcayılarla» üzləşəndə Tanrının bizə göndərmiş olduğu bu dahi insanı köməyə çağırardı.

Bu gün Azərbaycanın bu cür inkişaf etmiş dövlətlərlə bir sırada dayanması, dilimizin dünyanın ən mötəbər kürsülərindən eşidilməsi də məhz Heydər babamızın əməyi ilə bağlıdır.

Heydər Əliyev nə qədər ciddi, qətiyyətli, prinsipal insan idisə, bir o qədər də səmimi, gülərüz, şən bir insan idi. O, xalqının hər bir vətəndaşına xüsusi bir qayğı, istək ilə yanaşırdı. Dövlətini ata nəvazişi ilə qollarına almışdı sanki. Heydər Əliyev hər kəsin əməyini layiqincə qiymətləndirərdi, xalqının vəziyyətinin yaxşılaşdırılması üçün əlindən gələni eləyərdi. Onu tez-tez adi zavodlarda, fabriklərdə, sexlərdə, teatrlarda, tamaşalarda, xalqın içində görmək olardı. «Şən və hazırcavablar» klubunun onu necə parodiya eləməsini izləyən Heydər Əliyevin ürəkdən gülüşü, hətta gözlərinin yaşarması onun mənəvi aləminin zənginliyindən söz açır. Heydər Əliyev uşaqları çox sevərdi. Onlara çox böyük qayğı ilə yanaşar, yaxşı təhsil almaları üçün çalışardı. Heydər Əliyev haqqında danışdıqca daha çox qürur duyuram və nakam şairimiz M.Hadiyə göz aydınlığı vermək istəyirəm. Sevin, şair, Vətəninin imzası var imzalar içində!

Əziz babamız! Biz sənin 90 illiyini sənsiz qeyd etmək məcburiyyətindəyik. Sən özündən sonra bu qədər gözəl bir nəsil, bu qədər böyük irs, çiçəklənən dövlət qoyub getmisəm!

Heydər baba haqqında saatlarla, günlərlə danışmaq, yazmaq olar. Buna nə dəftərimin vərəqləri, nə də qələmimin mürəkkəbi çatar. Heydər Əliyev fenomeni keçmişin, bu günün deyil, gələcəyin də öyrəniləcək, tədqiq ediləcək insanıdır. Onun haqqında neçə-neçə inşalar, kitablar, şeirlər yazılmışdır və yazılacaqdır. Heydər Əliyev özündən sonra layiqli bir davamçısını qoyub getdi. Bəli, hörmətli preidentimiz İlham Əliyev Azərbaycanın sivil, inkişaf etmiş dövlət olması üçün gecə-gündüz çalışır. Son illərdə vətənimizdə keçirilən tədbirlər, Avrovizion musiqi yarışması da buna sübutdur və bizim xalqımızın necə qonaqpərvər, müasir, istedadlı olduğunu da hamıya bir daha sübut edir. Bu gün dövlətimizin adının dünyanın ən öndə gedən lider dövlətləri ilə bir sırada çəkilməsi İlham Əliyevin əzmi, apardığı danışıqlar, sözünün keçməsi, ən əsası, xalqın ona hörmət və böyük bir sevgi ilə yanaşmasının nəticəsidir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun rəhbəri, messenatlıq işləri ilə məşğul olan Mehriban Əliyeva da Azərbaycanın inkişafı üçün əlindən gələni eləyir və prezidentimizə dəstək olur.



Bu gün biz müstəqil, çiçəklənən, milli orduya və ən son avadanlıqlara sahib olan, dünya təhsil ocaqlarının qapılarını üzümüzə taybatay açmağı bacarmış Azərbaycan Respublikasında yaşayırıq.

Keçmiş nəsillər üçün yalnız arzu və xəyal olan şeylər bizim üçün gerçəkləşdirilmişdir. Bu gün mən Heydər babamın 90 illiyi üçün keçirilən inşa müsabiqəsində iştirak edirəm. Və əgər mən öz dilimdən azad yaza və danışa bilirəmsə, heç bir təsirə məruz qalmadan demokratik ölkədə özümü azad düşüncə tərzinə malik olan gənc adlandıra bilirəmsə, bunların hamısına görə dahi Öndərə və onun davamçısına borcluyam. Biz gənclərə isə yalnız bir iş qalır: «Oxumaq, Azərbaycanın inkişafı üçün çalışan mütəxəssis olmaq, vətənimizin qeyrətini, şərəfini qorumaq!»



***Abdullazadə Rəhilə Taleh qızı***
***Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksinin XI sinif şagirdi***

*Когда ж, испытав*
*Всех превратностей*
*Бег, ушёл, – то прославлен*
*Остался навек.*

**Низами Гянджеви**

На Кавказе любят людей с быстрым и острым умом, но не любят поспешных решений. На Кавказе почитают власть, но не терпят диктата. Чтобы это понять, нужно быть сыном своего народа.

Азербайджан нуждался именно в лидере, могучем, как столетни платан, и судьба послала его.

Высокий, стройный, красивый, интеллигентный азербайджанец с твёрдым характером, сильной волей и незаурядной мудростью.

Он пришёл в большую политику, возглавляя так называемые силовые структуры.

Алиев руководил республиканским Комитетом государственной безопасности. В июле 1969 г. он впервые стал руководителем нашей Республики. Возглавив Азербайджан, он смог наладить отношения, добиться согласия и мира между людьми разных национальностей.

Другие не выстояли, сломались. Гейдар Алиев выдержал. Именно он начал в Азербайджане «петровские преобразования». Но, как часто бывает в подобных случаях, некоторые преобразования имели и свою негативную сторону. Так, детям юристов Алиев запретил поступать на юридический факультет, отлично зная, что в республике уже действует несколько родственных кланов, прочно пустивших корни в право-



охранительной системе. Партийным работникам запретили приобретать дорогие автомобили и дачи.

За все годы его правления ни один из писателей не подвергся репрессиям, ни одно произведение не было запрещено, никто из деятелей культуры не был обделен вниманием.

В этом мудром политике и тонком дипломате жила огромная любовь к искусству. Благодаря его участию был спасен музей Низами в г. Гяндже, возвращен прах Гусейн Джавида, установлен памятник Натаван, открыты музеи У.Гаджибекова и Бюль-Бюля.

Третьего октября 1993 г. большинством голосов Гейдар Алиев был избран Президентом Азербайджана. Началась новая эпоха в истории страны. Мудрый и опытный политик понимал, что только мирным путём можно затушить «пожар войны». В 1994 г. было заключено перемирие, которое длится вот уже много лет. Он сделал то, что не смог сделать до него никто другой. Он остановил войну и потоки людской крови, возвратил людям чувство собственного достоинства, национального самоуважения.

Он всегда приходил на помощь другим. Трудно было с мазутом на Украине – помог братскому народу; не хватало электроэнергии Грузии – поддержал соседей; случилось сильное землетрясение в Армении, несмотря на сложность отношений, туда были отправлены техника, медикаменты, стройматериалы.

В 1994 г. Азербайджан подписал свой первый контракт – «Контракт века». Великий шелковый путь получил второе рождение.

Даже в средневековой истории не так много правителей, выдержавших столь долгий срок. Уже перешагнувший семидесятилетний рубеж, Г.Алиев понимал, как важно остаться именно в истории, а не размениться на популярность, и поэтому приказал снести собственный бюст, установленный на родине.

Дорогу осилит идущий, если он знает, куда идти.

Он прошёл по жизни победителем. И этому учил своих граждан. Президент России В.Путин сказал о своём старшем коллеге Г.Алиеве: «Он был человеком большего масштаба, чем сам Азербайджан».

«Отец за свою жизнь должен посадить дерево, построить дом и вырастить сына» – гласит народная мудрость. Г.Алиев осуществил всё это! Он на протяжении своей жизни заложил сад под названием «цветущий Азербайджан». Построил дом, называемый «независимый

Азербайджан». Воспитал сына, продолжающего сегодня его почетное и ответственное дело.

Он ушёл от нас декабрьским утром 2003 года. Ушёл, чтобы остаться в наших сердцах навсегда. Лидер, политик, друг.

*Не плачь, Ана-Вэтэн, не утопай в слезах,*
*Ты видишь, плачет твой седой Хазар.*
*Ты слышишь, эхо пронеслось в горах:*
*– Ушёл из жизни славный сын Гейдар…*
*Весь мир скорбит с тобой, Азербайджан.*
*Исполнит тар прощальный баяты:*
*– Мужайся и крепись, Нахчывань,*
*Такого сына потеряла ты!*

Мы никогда не забудем нашего гениального учителя.






## Əhmədli Səbinə Rövşən qızı

***Ağcabədi şəhəri, 9 nömrəli tam orta məktəbin XI sinif şagirdi***


Hər bir xalq öz layiqli övladı ilə fəxr edir. Sədaqətli, iradəli, mətin və dözümlü insanlar xalqa daha yaxın olur və heç bir zaman xatirələrdən silinmir. O insanlar ki, bütün həyatını xalqa xidmət etməyi, bir vətəndaş kimi umumxalq mənafeyini qorumağı bacarır, belə insanlar heç bir zaman unudulmur.

Ümummilli liderimiz Heydər Əliyevin həyatına və fəaliyyətinə nəzər saldıqda görürük ki, O, ömrünün bircə anını belə doğma xalqımızı düşünmədən yaşamamışdır. Bu böyük şəxsiyyət vətəndən uzaqlarda olanda da həmişə öz xalqını düşünmüşdür. Onun ömrü xalqımızın işıqlı gələcəyi yolunda zərrə-zərrə ərimiş və bir məşələ dönərək şöləsini üzərimizə salmışdır.

Hər il olduğu kimi, bu il də Heydər Əliyevin anadan olması ilə əlaqədar yarışlar, müsabiqələr keçirilir. Ulu Öndərimizin anadan olmasının 90 illiyi 10 may 2013-cü ildə tamam olacaq. Bununla əlaqədar, təşkil olunmuş inşa müsabiqəsində iştirak etməyi özümə borc bildim. İstədim ki, Ümummilli Liderimiz – hamımızın güvən yeri olan Heydər Əliyev haqqında mən də öz ürək sözlərimi deyim.

Mən deyərdim ki, bu Dahi Şəxsiyyətin həyatı heç kəsin həyatına bənzəmir. Onun zəkası heç kəsdə olmamışdır. O, elə bir ömür yölu keçmişdir ki, bu yolla getsək işıqlı gələcəyimiz, aydın sabahımız bizimlə olacaq. Heydər Əliyev daim bizimlədir. Hazırda dillər əzbəri olan bir mahnımızda deyildiyi kimi:

*Sən elə bir zirvəsən,*
*Küləklər neyləyəcək?!*
*Dünənim, bu günümsən,*
*Səninlədir gələcək.*

*Nə qədər Azərbaycan*
*Nə qədər bu millət var.*
*Heydər: «xalqım» deyəcək.*
*Xalq: «Heydər» söyləyəcək.*

Bəli, doğrudan da, bütün dünya azərbaycanlıları bu Dahi Şəxsiyyətin dühasına sığınır. Ondan bəhrələnir və Azərbaycanın sabahına inanır. Azərbaycan xalqı öz nicat yolunu yalnız ulu öndər Heydər Əliyevin göstərdiyi yolda tapmışdır.

Heydər Əliyev şəxsiyyəti onun xalqımıza göstərdiyi xidmətlər haqqında deyiləcək sözlər bitib tükənməzdir. Lakin mən bu kiçik yazımda Heydər Əliyev haqqında ürək sözlərimi deyəcəyəm. Deyəcəyəm ki, xalq onun simasında əsl xilaskarını tapdı. Deyəcəyəm ki, o haqqın elçisi idi. Haqq isə incələr, amma üzülməz.

Mən tarixi faktlar yazmayacağam, mən söyləyəcəyəm ki, o, bütöv bir xalqın yükünü öz çiyinlərində çəkdi. O, xalqımızın ən ağır məqamlarında öndə dayandı. O, əsl xilaskar olduğunu nümayiş etdirə bildi.

Zaman-zaman Azərbaycanın ağıllı, zəkalı, qüdrətli dövlət başçıları olmuşdur. Hələ XVI əsrdə Ş.İ.Xətai ana dilimizi dövlət dili kimi yüksəklərə qaldırmışdır. Heydər Əliyev tariximizi, milli mənəvi dəyərlərimizi qiymətləndirmiş və xalqımızı dünyanın inkişaf etmiş xalqları ilə müqayisə etməyi bacarmışdır. Ulu Öndər xalqımızın inkişafı naminə əlindən gələni etmişdir. İdmana, gənclərin mənəvi tərbiyəsinə daim önəm vermişdir. Uşaqları, gəncləri xalqımızın gələcəyi hesab edən Ulu Öndər xalqımızı daim zirvələrdə görmək arzusu ilə yaşamışdır.

Heydər Əliyevin təhsilə, səhiyyəyə göstərdiyi qayğı bu gün də öz bəhrəsini göstərir. Ölkəmizin hər yerində bir-birindən gözəl, müasir avadanlıqlarla təchiz olunmuş təhsil və səhiyyə ocaqları tikilmişdir.

İndi Azərbaycan gəncləri dünyanın ən dəyərli təhsil ocaqlarında oxuyurlar. Onlar əsl vətəndaş mövqeyindən çıxış edərək Azərbaycan həqiqətlərini gündəmə gətirirlər.

Dahilər çox az doğulur. Heydər Əliyev isə əvəzi olmayan bir dahidir. Onun fikirləri bütöv bir xalqa nicat vermişdir. Bəzən onu fövqəlbəşər adlandırırlar. Bu, doğrudan da, belədir. Onun istəkləri bütün azadlıqsevər, sülhsevər bəşəriyyətin, dünyanın ən tərəqqipərvər insanlarının arzusu və istəkləri ilə üst-üstə düşür.

Ümummilli Liderimizi müstəqil Azərbaycanın «memarı» adlandıranlar heç də yanılmırlar. Müstəqilliyi əldə etmək çətindirsə, onu qoruyub saxlamaq inkişaf etdirmək ondan da çətindir. Lakin biz qurbanlar bahasına əldə etdiyimiz müstəqilliyimizi, azadlığımızı əldən verməyəcəyik. Bu baxımdan ulu öndərimiz Heydər Əliyevin dediyi aşağıdakı sözlər bizim inamımızı daha da artırır. «Azərbaycan dövləti bundan sonra başına nə gəlirsə gəlsin, heç bir zaman müstəqilliyini itirməyəcək, hər hansı bir dövlətin tərkibinə düşməyəcək, heç bir dövlətdən asılı olmayacaq». Bu sözlər bizim inamımızı daha da artırır, bizə güc, qüvvət verir. Biz inanırıq ki, müstəqilliyimiz əbədi olacaq.



Müstəqilliyimizin memarı olan Ulu Öndərimiz tayı-bərabəri olmayan bir siyasətçi olmuşdur. Onun ad günü xalqımız üçün əsl toy-bayramdır. Mən də bayrama öz ürəyimdən keçənləri deməklə qoşuluram. Deyirəm ki, anam Azərbaycan, nə yaxşı sənin Heydər kimi oğlun vardır. Biz onunla fəxr edirik, biz onunla qürur duyuruq. Onun qoyduğu mənəvi irs bizə kompas kimi yol göstərir. Biz bu yolla gündən-günə irəli gedəcəyik.

Ölkəmizin sükanı etibarlı əllərdədir. Azərbaycanda sürətli inkişaf gedir. Ölkə rəhbəri Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev poliqlot bir rəhbərdir. Lakin ana dilimizi bütün dillərdən üstün tutur. Dövlətçiliyimizə, müstəqilliyimizə sədaqətlidir. İnanıram ki, Heydər Əliyevin arzuları daim çin olacaqdır.

Biz isə bu dahi şəxsiyyətin ad gününə uğurlarımızla töhfə verəcəyik. Azərbaycan ancaq irəli gedəcək. Müstəqilliyimizə əngəl olanlar isə xalqın gözündən düşəcək və Ulu Tanrı tərfindən layiqli cəzalarını alacaqlar.

Mən isə bu günün şagirdi olaraq inanıram ki, sabahın tələbəsi kimi Heydər Əliyevin açdığı yolla gedəcək və onun ruhuna sədaqətimi öz əməli işimlə bildirəcəyəm. Bu yolda bütün qüvvə və bacarığımı əsirgəməyəcəyəm.



## *Məhərrəmli Aytən Saleh qızı*

***Oğuz şəhəri, Həbib Babayev adına I nömrəli tam orta məktəbin X sinif şagirdi***

Bu gün müstəqil dövlət kimi dünyada nüfuz və söz sahibi olan Azərbaycanın çox zəngin və şərəfli tarixi vardır. Bu tarix öz yaddaşında xalqın taleyinin müəyyən olunmasında aparıcı rol oynamış nadir şəxsiyyətləri əbədi yaşadır. Təkcə Azərbaycanda deyil, bəşəriyyətin taleyinə təsir göstərən dünya şöhrətli siyasətçilər və dövlət xadimləri arasında Ümummilli Lider öz dühası və müdrikliyi ilə mühüm yer tutur. Əbədiyaşar lider Heydər Əliyevin həyatı və bənzərsiz fəaliyyəti vətənə və xalqa xidmətin misilsiz nümunəsidir. Onun həyat yolu ibrət məktəbidir.

Heydər Əliyevin dövlətçiliyimizin möhkəmləndirilməsi və Azərbaycan xalqının özünə güvəninin, gələcəyə inamının artırılması yönündəki müstəsna xidmətləri ilə bağlı gördüyü işləri bir yazıya sığdırmaq faktiki mümkün deyil. Amma sadəcə, Heydər Əliyevi xatırlamaq yetərlidir. Bu, elə Azərbaycan deməkdir! Azərbaycanın böyüklüyü, bütövlüyü deməkdir və bunu düşünəndə adam özünü güclü hiss edir və fəxr edirsən ki, nə yaxşı azərbaycanlısan. Azərbaycanın bütün uğurları Heydər Əliyevlə bağlıdır. Bu şanlı, şərəf dolu bir tarixdir! İllər, əsrlər keçəcək, böyük liderin şah əsəri olan Azərbaycanda o anılacaq, xatırlanacaq, ruhuna dualar oxunacaq və həmişə seviləcək. Bunu o, özü qazanıb! Azərbaycanı parçalanmalardan qorumaqla, uğursuzluq zolağından çıxarmaqla və əzmlə irəliyə – uğurlara aparmaqla! Əminliklə demək olar ki, hazırda Azərbaycanın mövcudluğu, inkişafı və tərəqqisi bu dövlətin Heydər Əliyevi tərəfindən qoyulmuş özülünün kifayət qədər möhkəmliyi ilə əlaqədardır. Bu siyasi xadimin yaratdığı fundamental baza üzərində qurulan Azərbaycan həyatın bütün sahələrində böyük uğurlar əldə edir. Buna görə də Heydər Əliyevin fəaliyyətindən danışarkən onun keçirdiyi islahatları və əldə etdiyi nailiyyətləri də



qeyd etməliyik. Azərbaycan cəmiyyəti bu gün əldə etdikləri uğurların əksəriyyətinə görə məhz Heydər Əliyev siyasətinə özünü borclu bilir. Böyük Öndər müstəqil Azərbaycan dövlətini qurub, müasir Azərbaycan cəmiyyətini formalaşdırıb, cəmiyyətimizin əsas dəyərlərini müəyyənləşdirib və həmin dəyərlər bu gün müasir cəmiyyətimizin inkişafının əsas təməl prinsipləri kimi öz missiyasını yerinə yetirir.

Heydər Əliyev hakimiyyətdə olduğu birinci dönəmində Azərbaycanı aqrar ölkədən inkişaf etmiş sənaye ölkəsinə çevirə bildi. Onun müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yarandı. Onun həyata keçirdikləri insanda yalnız və yalnız heyrət doğurur. Heydər Əliyevin həyata keçirdiyi böyük layihələr nəticəsində Azərbaycan İttifaqın özünü idarə etmək iqtidarında olan iki respublikasından birinə çevrildi.

Azərbaycanın müstəqilliyini istəməyən imperiyapərəst qüvvələr ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə cəhd etdilər. Torpaqlarımız işğal olunurdu, belə bir vəziyyətdə xalqın tələbi ilə hakimiyyət başına gələn böyük siyasi xadim dövlətimizi belə ağır və fəlakətli vəziyyətdən çıxara bildi. Məhz 1993-cü il bu görkəmli şəxsiyyətin böyük siyasətə möhtəşəm dönüşü, üzərinə götürdüyü xilaskarlıq missiyası Azərbaycanı bir dövlət kimi yaşatdı və müstəqilliyinin dönməzliyini təmin etdi... Heydər Əliyev xalqının əsrlər boyu uğrunda vuruşduğu ən ümdə haqqını reallığa çevirdi. Bizləri ən yüksək məqama – müstəqilliyə qovuşdurdu. Böyük öndər Heydər Əliyev xəyalları belə çin etmək qüdrətinə yiyələndiyini dəfələrlə ortaya qoydu. İnsanın vətənin timsalına çevrilməsi dünyada nadir hadisələrdəndir. Məhz Azərbaycan xalqının Ümummilli Lideri statusunu qazanmış Heydər Əliyev planetin bu əlçatmaz mərtəbəyə yüksələn tək-tək şəxsiyyətlərindən biri oldu.

1993–2003-cü illərdə Heydər Əliyevin dünyanın nadir şəxsiyyətlərindən, siyasi və ictimai xadimlərindən biri olduğunu növbəti dəfə sübuta yetirdi. Onun ideya və idarəçilik məktəbi sayəsində Azərbaycan keçid dövrünün mürəkkəb labirintlərindən uğurla çıxdı. 1996-cı ildə ölkəmiz yeni dirçəliş mərhələsinə qədəm qoydu. 1996–2003-cü illərdə makroiqtisadi göstəricilər iki-üç dəfə artdı, bütün sahələrdə geniş islahatlar vüsət götürdü, respublikamızın beynəlxalq nüfuzu daha da gücləndi. Heydər Əliyevin müdrik siyasəti sayəsində düşünənlərin ara verməyən məkrinə, min bir hiyləsinə baxmayaraq, Azərbaycanda vətəndaş qarşıdurmasının qarşısı alındı.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu müstəqil dövlətimizin inkişafı üçün başlanan siyasətin davamlı olması idi. Məhz bu ali məqsədin reallaşması naminə, Böyük Öndər çətinliklə qurduğu dövlətə, misilsiz fədakarlıqlar hesabına yaşatdığı xalqına rəhbərlik etmək üçün yeganə namizəd İlham Əliyevi görürdü. Prezident İlham Əliyev xalqın qarşısında verdiyi sözləri gerçəkləşdirmək yolunda mühüm addımlar atdı və sözlə əməlin üzvi vəhdətinə söykənən lider imici ilə həm də gələcək nəsillərə mükəmməl nümunə yaratdı.

Bütün bu əsaslar üzərində ölkə prezidentinin aparmış olduğu siyasətlə Azərbaycan regionun lider dövlətinə çevrildi. Azərbaycan nə qədər varsa, Heydər Əliyev ruhu da var! Azərbaycanın bu günü də, gələcəyi də Heydər Əliyev siyasi irsi ilə birbaşa bağlıdır və bu siyasi irs durduqca ölkəmiz daha yeni-yeni uğurlara imza atacaqdır.

Ümummilli lider Heydər Əliyevin dünya miqyasında dövlət və siyasi xadim kimi birmənalı şəkildə qəbul edilməsini şərtləndirən əsas amillər onun Azərbaycana, ölkənin timsalında regiona, nəticə etibarilə dünyaya sülh, sabitlik, daimi inkişaf və harmoniya gətirmək yolunda atdığı mühüm addımlardır.

2003-cü ildən bəri ötən zaman kəsiyi Heydər Əliyevin idarəçilik məktəbinin əbədiyaşarlığının növbəti sübutu oldu. Onun layiqli davamçısı prezident İlham Əliyev bir millətin təmsilçisi, sərkərdəsi kimi Heydər Əliyev ucalığının təcəssümüdür. Məhz Heydər Əliyev siyasi kursuna əsaslanan, zamanın nəbzinə uyğun yeni keyfiyyətlərə söykənən dövlət siyasəti hesabına dünyanın sükanından möhkəm-möhkəm yapışan, dünən bizə yarıkönül münasibət bəsləyən xalqlar indi strateji dostluğa can atırlar.

Hal-hazırda doğma Azərbaycanımız XXI əsrin nur qapısıdır. Ölkəmiz zəngin iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, tükənməz mədəniyyəti ilə bütün dünyanın diqqət mərkəzindədir.

Bu gün Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına üzv olması, ölkəmizin «Evrovision–2012»-yə ev sahibliyi etməsi, 2013-cü ildə ilk dəfə olaraq telekommunikasiya peykimizin orbitə buraxılması, 2015-ci ildə I Avrora Olimpiya Oyunlarının Bakıda keçirilməsi qərarı prezidentimiz İlham Əliyevin rəhbərliyi altında iqtisadi, siyasi demokratik inkişaf yolu ilə dünya birliyinə inteqrasiyanın bariz nümunəsidir.

Prezident İlham Əliyevin siyasəti çoxşahəli və hərtərəflidir. Artıq xalqımız əmindir ki, onun gələcəkdə də nəzərdə tutduğu, dövlət quruculuğunun ən müxtəlif sahələrinə yönələn islahatların keçirilməsi Azərbaycanın zəngin və qüdrətli dövlətə çevrilməsi, əhalinin rifahının yaxşılaşdırılması, ərazi bütövlüyünün təmin olunması deməkdir. Azərbaycanı qələbələrə daşıyan daxili və xarici siyasət ümummilli lider Heydər Əliyevin ideya və arzularının reallığa çevrilməsi, gerçəkləşməsidir. Bu reallığın və işıqlı gələcəyin yeganə qarantı prezident İlham Əliyevdir.



Ata-oğul! Azərbaycan adınızla yüksələcəkdir.

*Gələcək bizimdir, tarix sizindir.*
*Oxuyub adınızın salnaməsini,*
*Bütün türk dünyası baş əyəcəkdir.*



## Salayev Anar Ələddin oğlu
**Sumqayıt şəhəri, 11 nömrəli tam orta məktəbin IX sinif şagirdi**

*«Mən bütün həyatımı xalqıma xidmət etməyə həsr etmişəm. Bundan sonra da bu yolla gedəcəyəm. Başqa yolum yoxdur. Vətənə, xalqıma, millətimə, Müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənası, məzmunudur».*

**Heydər Əliyev**

Sənin haqqında yazmaq nə qədər şərəfli və məsuliyyətlidir, əziz babam! Bilmirəm, sənin hansı məziyyətlərindən yazım? Dövlət başçısı kimi uzaqgörənliyindənmi, Ali Baş Komandan kimi təcrübəndənmi, bütün dünyada bizə qarşı olan laqeydlik buzunu əridən siyasətindənmi, ömrünü şama döndərib xalqının yolunda əridən bir övlad, bir vətəndaş kimi fədakarlığındanmı?

Dünyanın hər yerindən günəşə baxdıqda eyni görünür: işıqlı, hərarətli. Eynilə sənin kimi!

Azərbaycan xalqının bütöv bir tarixi dövrü sənin adınla bağlıdır. İki dəfə bu respublikaya rəhbərlik etmisən və hər bir fərmanın, hər bir sərəncamın xalqın mənafeyinə xidmət edib. Sən tarix yazmamısan, xalqın bir qərinəlik tarixini yaratmısan. Arzun xalqını müstəqil, dövlətini sarsılmaz görmək idi. Bu arzun həyata keçdi. Azərbaycan müstəqillik qazandı. İndi inamla, böyük fəxrlə yurddaşların bu müstəqilliyin əbədi və dönməz ləzzətini yaşayır.

Xalqımızın qeyd etdiyi bayramlar arasında bir bayramın, bir tarixi məqamın xüsusi yeri var: Qurtuluş Günü. İdarəetmədə hərc-mərclik, iqtisadiyyatda böhran, siyasətdə səriştəsizlik, respublikada qarşıdurma hökm sürdüyü bir vaxtda xalq ümid dolu gözlərini sənin yoluna dikdi. Sənə inandığını, hər zaman səninlə olacağını bildirdi. Sən də bu çətin günlərdə xalqın arzusuna «yox» demədin. Nə qədər ağır və məsuliyyətli işi öhdənə götürdüyünü bilsən də, geri durmadın. Dura bilməzdin. Bu məqamda belə bir kəlam yadıma düşdü: «Min qəddi əyən yük, bir çiyinə düşəndə dahilik yaranır». Sən yeni Azərbaycan yaratdın! Müstəqil Azərbaycan, üçrəngli bayrağı dünyanın məşhur ölkələrinin bayrağı ilə yanaşı dalğalanan, sözünü yüksək tribunalardan deyə bilən Azərbaycan! «Əsrin müqaviləsi» adlanan neft kontraktlarının bağlanması ilə neçə-neçə ölkəyə Azərbaycanı tanıtdın. Onları Azərbaycanla razılaşmağa, onun haqq səsini eşitməyə məcbur etdin.



İqtisadiyyatımız inkişaf edib möhkəmləndi. Dünyanı bürüyən siyasi böhran sənin sayəndə bizdən yan ötdü. Mədəniyyətimiz çiçəkləndi. Çünki sənin kimi hamisi vardı. Təhsilimiz bütün dünyada inteqrasiya olundu, çünki sən uşaqları çox sevirdin. Onları savadlı, hər sahədə məlumatlı görmək istəyirdin. Ana dili dövlət dili elan olundu, çünki Vətəni, doğma ananı sevdiyin qədər, onun ana dilini də sevir və dəyərləndirirdin. Yeni Konstitusiyamız qəbul olundu. Müharibədə uzunmüddətli atəşkəsə nail olduq.

Tökülən qanların qarşısını almaq, dövlətçiliyimizi və torpaqlarımızı qorumaq üçün güclü orduya nail olmalı idik. Sən buna da nail oldun, əziz babam! Saydıqlarım sənin hərtərəfli fəaliyyətinin bir hissəsidir. Mən fəxr edirəm ki, sənin mənəvi nəvələrin arasında mən də varam. Sənin adınla bütün Azərbaycan fəxr edir.

Vaxtilə Böyük Britaniyanın Baş Naziri Toni Bleyr yazırdı: «Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irslə fəxr edə bilər»

Sənin nurlu çöhrən gözlərim önündədir, Heydər Baba. Sən uşaqları çox sevirdin. Hər dəfə uşaq evlərinə gedəndə uşaqlarla görüşər, onların qayğıları ilə maraqlanar, onlara kimsəsizliklərini unutdurardın. Bu zaman gözlərində elə bir məhəbbət olardı ki, bu məhəbbətdən hər bir uşağa pay düşərdi.

Heydər Baba! Mən səni hər dəfə televiziya ekranlarında izləyəndə, sanki yeni bir dünya kəşf edirdim. Hər şeyi diqqətlə izləyən gözlərinin mənalı baxışları ətrafındakılara çox söz deyirdi. Keçirdiyin müşavirələrdə yaxşı işləri qiymətləndirəndə gözlərində fərəh, qürur olurdusa, nöqsanlardan danışanda bu baxışlar qılınc kimi kəsirdi. Sənət adamları ilə görüşəndə isə bu baxışlar həm tələbkar, həm də mülayim olurdu. Mən elə fikir-

ləşirdim ki, sənin kimi güclü şəxsiyyət heç zaman kədərlənməz, nurlu gözlərində yaş damlaları görünməz. Ancaq bir dəfə Fəxri Xiyabanda görkəmli oftolmoloq, yüzlərlə gözə nur verən Zərifə ananın önündə səni kövrəlmiş, gözləri yaşarmış gördüm. Uşaq olsam da, qəlbim ağrıdı. İndi başa düşdüm ki, sənin bir müsahibəndə dediyin kimi, niyə məhz bu mahnını sevirsənmiş.

*Gözəlim, sənsən,*
*Gözümün nuru,*
*Başımın tacı,*
*Dərdim əlacı.*

Mən sənə bir insan kimi vuruldum. Sən mənim həyat idealım oldun. And içdim ki, vətəni, insanları sənin kimi sevəcəyəm.

Sən xalqını sevdiyin qədər onun ədəbiyyatını, incəsənətini də sevirdin. Sənət adamlarına xüsusi qayğı ilə yanaşır, onların yubileylərinin keçirilməsi barədə sərəncam verir, özün də vaxt tapıb bu tədbirlərdə iştirak edirdin. «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi qeyd ediləndə sən bütün türk dünyasını bir yerə yığa bildin. Məqsədin dövlətçiliyimizi,, türkçülüyümüzü daha da möhkəmləndirmək idi.

Xarici ölkələrdə səfərdə olarkən oradakı azərbaycanlılarla görüşər, onların təşkilatlanması, Azərbaycanın mənafeyini təmsil etməsi barədə göstərişlər verərdin. Bunun nəticəsində Azərbaycan diasporu formalaşdı. İndi inkişaf etmiş ölkələrin hər birində Azərbaycan diasporu fəaliyyət göstərir, həqiqətlərimizi dünyaya yayır. Torpaqlarımızın bir hissəsinin düşmən əsarətində olduğu çətin bir anda diasporumuzun belə fəaliyyəti sülh yolunda irəliyə atılmış addımdır.

Sən dünyanı dəyişəndə bütün Azərbaycan məzarını ziyarətə gəldi. Xalqın sənə qarşı olan məhəbbəti unudulmadı. Axı xalqımız qədirbilən xalqdır. Təsəllimiz o oldu ki, sənin siyasi kursunun davamçısı, çox inandığın İlham Əliyev prezidentimiz seçildi. Təməlini qoyduğun işlərin yönü uğura, qələbəyə doğru idi.

Belə də oldu. Azərbaycan Respublikası İlham Əliyevin çoxşaxəli fəaliyyəti nəticəsində daha da inkişaf etdi. Bakı Avropanın tanınmış ölkələri ilə yarışa biləcək səviyyədə gözəlləşdi. Yeni-yeni tikintilər meydanına çevrildi. Hər bayramda hesabat verirmiş kimi sənin abidənin önünə yığışan xalq xeyir-duanla uğurlara doğru inamla addımlayır.

Keçən il dünyanın baxışları Bakıya yönəlmişdi. Bu musiqimizin qələbəsi idi. Avroviziya müsabiqəsinin respublikamızda keçirilmə qələbəsini



qazandıq. Yüksək səviyyədə keçirilən müsabiqədə Vətənimizi dünyaya bir daha tanıtdıq.

Heydər Baba, sənin adını daşıyan Heydər Əliyev Fondu, onun prezidenti Mehriban Əliyevanın qayğı və diqqəti nəticəsində muğamımız, sazımız dünya səhnəsinə çıxarıldı.

Məşhur şərqşünas alim Aidə İmamquliyevanın, görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin ziyalı mühitində tərbiyə almış, Heydər Əliyev ocağında fəaliyyət göstərən Mehriban xanım incəsənətimizin hamisidir.

Sənin Leyla balan (Leyla Əliyeva) Azərbaycanın həqiqətlərini dünyaya yaymaq üçün əlindən gələni edir. «Xocalıya dəstək!» kompaniyasına onun təşəbbüsü ilə bütün dünya azərbaycan lıları qoşuldu. Hətta digər xalqların nümayəndələri də bu hərəkata qoşulub Azərbaycanla olacağını bildirdilər.

Sənin 90 illik yubileyinə az qalıb. Sənin yubileyin xalqımız üçün təntənəli bayram olacaq.

Mən də çalışacağam ki, yaxşı oxuyub Sənin adına layiq övlad olum. Qoyub getdiyin dövlətçilik ənənələrinə sadiq bir vətəndaş olum.

Əbədiyaşar Babam! Sənin adına layiq bu sözləri həyat idealıma çevirmişik: «Dünyanı gözəlləşdirmək üçün kimsə qurban getməli, kimsə başqasının yolunda öz ömrünü yandırmalı və bu yanğının işığında qaranlıqlar yarılmalıdır»...



## Hümbətova Zərifə İslam qızı

**Göyçay şəhəri, Rəsul Rza adına**
**1 nömrəli tam orta məktəbin**
**X sinif şagirdi**

*Vətənçün yaşayan, vətənçün ölən*
*Səmimi bir insan nə bəxtiyardır.*

**M.Müşfiq**

Füsunkar Azərbaycanın ucsuz-bucaqsız bölgələrini gəzmək, yurdumun əsrarəngiz gözəlliklərini seyr etmək, tarixi yaddaşımızı vərəqləmək mənə torpaq qoxusunun, yer havasının, yurd bağlılığının, gül-çiçək ətrinin canıma, qanıma hopmuş ləzzətini yaşatmış olur. Bir möcüzə, bir nağıllar aləmi gözləyirmiş kimi gözlərimi açıram və ömrümdə görmədiyim dağlara baxıram – qırmızı dağlara. Anlayıram ki, bu qırmızı dağların insanı ovsunlamaq gücü sonsuzdur.

Qırmızı Naxçıvan dağları insan oğlunun uşaqlığı haqqında, insan mənəviyyatının yaddaşı haqqında boylardır.

Bu dağlara bax-baxa istər-istəməz Bestujev-Marlinskinin sözlərini xatırlayıram: «Mən sizdən soruşuram: Bu qoca Qafqazın sakinləri necə olmalı idi? Əgər Skandinaviyanın daşlı-kəsəkli çölləri millətlər yığnağı adlandırılırsa, onda niyə Qafqaz bəşəriyyətin beşiyi adlandırılmasın? Bu dağların qoynunda dünyanın ilk insanları gəzmişlər. Onlar bu dağlardan mağaralardan yaylaqlara enib, orada məskən salmışlar».

Bəli, insan təxəyyülünün sonsuz hüdudları ilə biz qədim Naxçıvana yol aldıq. Qədim diyarımız, dədəm Qorqud qəhrəmanlarının at oynatdığı, yağıların gözünə bıçaq kimi saplanan bu diyar dahilər yetişdirdi. Şəxsiyyətləri ilə bütün dünyanı heyran qoydu.

Əgər söhbət dahilərdən düşdüsə, möhtəşəmlikdən söz getdisə, ulu, qədim torpaqlardan danışdıqsa, gözümüzün qarşısında bir diyar, bir də dahilər



dahisi adlanan insan canlanır. Azərbaycanın fəxri oğlu, yaddaşların əbədi qəhrəmanı Heydər Əlirza oğlu Əliyev!

Azərbaycanın dünyaya bəxş etdiyi dahi haqqında çox gözəl deyilib: «Min qəddi əyən mənəvi yük bir çiyinə düşəndə dahilik yaranır». Dahilik səviyyəsinə yüksəlmiş insanlar əslində tanrının seçilmiş bəndələridir.

İndi yazacaqlarım adi bir xronoloji ardıcıllıq deyil, bütün həyatını bir xalqın, bir millətin mənafeyinə həsr etmiş insanın şərəfli həyatının çox qısa tarixçəsidir.

O, 1923-cü il may ayının 10-da sadə bir ailədə – Əliyevlər ailəsində dünyaya göz açdı. Məhz bu gün sevinən ailələrdən biri də Əliyevlər ailəsi idi. Əlirza bəy və xanımı sevinirdi. Onların sevinci adi sevinc deyildi. Çünki körpələri yenicə dünyaya gözlərini açmış, təbiətin nurlu işığını görmüşdü. Tanrının xoş anında, xoş saatında yaranmışdı bu körpə. Qədim bir rəvayətdə çox gözəl deyilir: «İnsan öz tanrısından 3 şey diləyir: güc, səbr, bir də müdriklik». Ulu Tanrı bunların hamısını ona bəxş etmişdi.

1941-ci ildən Naxçıvan MSSR Daxili İşlər Komissarlığında şöbə müdiri kimi fəaliyyətə başlayan Heydər Əliyev SSRİ-də məsul vəzifələrdə çalışaraq ilk azərbaycanlı DTK generalı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Sovetinin Sədrinin birinci müavini vəzifəsinə qədər yüksəlmişdir.

Heydər Əliyev 1987-ci il oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun Baş katibi Mixayil Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifədən istefa vermişdir.

1990-cı ildə tarixə qanlı «20 Yanvar» faciəsi kimi həkk olunan hadisədə Heydər Əliyev qətiyyətli addım atmış, bu hadisənin törədilməsində Moskvanı günahlandıraraq partiyadan çıxmışdır. Bu addım bir daha sübut etmişdir ki, Ulu Öndər xalqının, millətinin mənafeyini hər şeydən üstün tutur və hər hansı halda qəddar sovet rejiminə qarşı öz qəti etirazını bildirməkdən çəkinmir.

Sanki tarix öz inkişafını, hadisələrini özünün yaratdığı şəxsiyyətin öhdəsinə buraxırmış kimi bu xalqı yeni sınaqlara çəkirdi.

1990-cı illərin ən müdhiş çağları idi. Qarabağımız əldən gedir, hər gün neçə-neçə ailəyə ardı-arası kəsilməyən şəhid xəbərləri gəlirdi. Bakıda isə vəzifə davası gedirdi. Bu acınacaqlı vəziyyətə dözməyən xalq xilaskarını «Heydər baba, bizi bu bəladan xilas et», – deyə səsləyirdi. Belə ağır məqamlarda Heydər Əliyev 1993-cü il iyunun 15-i Azərbaycan Respublikası Parlamentinin sədri, bir neçə aydan sonra isə Azərbaycan Respublikasının

Prezidenti seçildi. Ona görə bu gün tariximizə «Qurtuluş Günü» kimi daxil oldu.

Heydər Əliyevin bu gəlişi Azərbaycan xalqına, onun tarixinə, dövlətçiliyinə inanılmaz töhfələr bəxş etdi.

Müstəqil, suveren dövlət – Azərbaycan Respublikası daha da möhkəmləndi.

Ölkəmizin müdafiəsini, sərhədlərini qoruyan yenilməz ordu yarandı.

İlk dəfə olaraq suveren dövlətimizin Konstitusiyası qəbul olundu.

Azərbaycan neftini dünyaya tanıdan «Əsrin müqaviləsi» kimi müqavilə imzalandı.

Dəfələrlə əlifbası dəyişmiş dilimizin taleyi müsbət mənada birdəfəlik həll olundu. Bütün dünya mədəniyyətinin qəbul etdiyi latın qrafikalı əlifbaya keçid tədricən başa çatdı... və s.

Ulu Öndərin bu xidmətlərinin siyahısını daha da uzatmaq olar. Buna nə ağ vərəq, nə qələm yetər, nə də bir ömür.

Yenilməz sərkərdəmizin ən böyük arzusu yarımçıq qaldı. Bu, Qarabağ problemi idi. Ulu Öndərin ən böyük məqsədi qaçqın və köçkünləri doğma torpaqlarına qaytarmaq idi. Qarabağın parlayan qaşı olan Şuşada üç rəngli bayrağımızın dalğalanmasını görmək dahi rəhbərin ən böyük amallarından biri idi. Amansız ölüm Ulu Öndərin bu arzusunu yerinə yetirməyə qoymadı.

Heydər Əliyev bu gün cismən aramızda yoxdur. Və bu gün Ulu Öndərin təməlini qoyduğu bu siyasəti Heydər Əliyev soyunun daşıyıcısı möhtərəm prezident cənab İlham Əliyev uğurla davam etdirir. Hal-hazırda 21 yaşlı gənc, müstəqil Azərbaycanımız tərəqqisinin inanılmaz sürəti ilə heç də inkişaf etmiş ölkələrdən geri qalmır.

Bu gün hamı kimi məni də sevindirən odur ki, ölkəmiz dünyada nüfuzlu, hörmətlə qarşılanan bir ölkəyə çevrilib. Artıq dünya bizə etibar edir.

Bir məktəbli olaraq iftixar hissi keçirirəm ki, 2011-ci il 16 noyabr tarixində keçirilən Azərbaycan Respublikası Uşaqların II Forumunda iştirak etmək xoşbəxtliyi mənə də qismət oldu. Bu Forum ümummilli lider Heydər Əliyevin nəsillərə nümunə olan prinsiplərinin nəticəsi olaraq ölkəmizdə keçirilən ən önəmli tədbirlərdən biri idi. Mən və yaşıdlarım bir daha əmin olduq ki, uşaq hüquqlarının yüksək səviyyədə təmin olunması ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bu tədbirin keçirilməsi bir daha sübut etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başda olmaqla, Ümummilli Liderin yaratdığı demokratik və humanist dəyərlərdən bəhrələnən dövlətimiz quruculuq işlərini dayanmadan inkişaf etdirməkdədir.



Əsl vətəndaşlıq hislərini , vətəni və torpağı sevməyi, xalqa xidmət etməyi məhz Ulu Öndərdən öyrəndik.

Heydər Əliyevin qəlbindən vətən sevgisi, xalq məhəbbəti bir an belə ayrılmadı.Bütün həyatını, ömrünü xalqın gələcək inkişafı, tərəqqisi yoluna sərf etdi və hər zaman böyük rəhbər olduğunu bütün dünyaya sübut etdi. Öz həyatı ilə tarixin şərəfli səhifəsini yaratdı. O, insanlığın, vətənpərvərliyin ən uca nöqtəsini fəth etdi. O, indiki gəncliyin, gələcək nəslin hər zaman qürur duyacağı bir liderə çevrildi. O, yalnız Azərbaycanı deyil, bütün dünyanı valeh edən əvəzolunmaz fenomenə çevrildi.

*Zirvələr ad aldı sənin adından,*
*Ocaqlar köz tutdu sənin odundan*
*Adın çıxmaz tarixlərin yadından,*
*Haqq elçisi, haqqın görən gözüsən,*
*Sən vətənsən, Azərbaycan özüsən.*

Ürəyimdə qalan o nisgil – hamımızı göynədən Dağlıq Qarabağ yarası da tezliklə sağalacaq. Biz bu gün onun açdığı yolla irəliləyirik. Hər işimizdə, əməlimizdə o böyük şəxsiyyəti görürük. Biz gənclər sıx birləşərək səmamızı bürüyən «qara buludları» dağıdacağıq. Axı onun arzusu idi ki, səmamız aydın və günəşli, torpağımız azad və bərəkətli olsun.

Bütün düşüncələri ilə, qəlbi ilə, yaşadığı şərəfli ömrü ilə Heydər Əliyev gənclər üçün müqəddəslik rəmzinə çevrilmiş bir varlıqdır. Biz vətəni sevməyi, torpaq uğrunda döyüşməyi, xalq üçün necə yaşayıb, ona necə xidmət etməyi Ulu Öndərdən öyrəndik.

*Xalqın dar günündə sən sinə gərdin,*
*Ömrünü, gününü xalqına verdin,*
*İgidlər igidi meydana girdin,*
*Ulu Öndərimiz – Heydər Əliyev!*

Böyük oğullar böyük ataların yolunu layiqincə davam etdirəndə, milli-mənəvi mühit saflaşır, cəmiyyət inkişaf səviyyəsinə yüksəlir. O xalqın, dövlətin, o məmləkətin bəxtinə gün doğur.

Biz çox xoşbəxt xalqıq.Çünki tariximizdə Heydər Əliyev kimi siyasətçinin həyat təcrübəsinin izləri var. O, əvəzedilməz şəxsiyyətdir.

Gözəl may günlərinin biri idi. Zəngin həyat keçmiş, əvəzolunmaz şəxsiyyət – Heydər Əliyevin doğum günü xalqımız tərəfindən qeyd olunurdu. Televiziyada bu əzəmətli insanın öz xalqı üçün bitib-tükənməyən fəaliyyətini əks etdirən veriliş nümayiş olunurdu. Birdən Ulu Öndərin səsi eşidildi:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən*
*Anam, doğma vətənimsən.*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan!*

**(S.Vurğun)**

Sonuncu iki misrada xalqın rəhbərinin titrək, qəhər dolu səsi bütün salona yayıldı. Bu insan ruhunun, qəlbinin öz xalqına, torpağına bəslədiyi vətən sevgisinin, övlad məhəbbətinin tərənnümü idi. Bu an Heydər Əliyevin bir ömür boyu yaşadığı, məşələ çevirdiyi həyatının ən kövrək anları idi. Bütün gəncliyini, sağlamlığını, bir sözlə, bütün həyatını xalqının inkişafı yoluna,tərəqqisinə qoyduğu insanın duya biləcəyi bir hiss idi.

Bu an içimdən bir azərbaycanlı olaraq məsuliyyət, hesabat, cavabdehlik hissi ilə onun ölməz ruhu qarşısında baş əymək keçdi.

Biz Azərbaycan övladları Ulu Öndərin yaratdığı prinsipləri daim qorumalı, onu müqəddəs tutmalı, bu yolda canımızı, qanımızı belə əsirgəməməliyik. Çünki bu, böyük dühanın bizə və gələcək nəslə qoyduğu dəyərlərin ən müqəddəsidir.





## Hüseynova Mahirə Araz qızı

**Lənkəran şəhəri, 10 nömrəli tam orta məktəbin IX sinif şagirdi**

Çağdaş tariximizdə Azərbaycan dövlətinə ən çox rəhbərlik etmiş Heydər Əlirza oğlu Əliyev özünə elə bir şöhrət çələngi hörmüşdür ki, bunun üçün ona nə dəbdəbəli mülklər, nə cah-cəlallı ziyafətlər, nə də çox bahalı libaslar lazım olmuşdur. Daim işgüzar qiyafətdə, sadə geyimdə xalq, kütlə qarşısına çıxan rəhbəri insanların nəzərində yüksəldən, ucaldan da məhz bu sadəlik olmuşdur.

Erkən gənclik çağları ağır müharibə illərinə və müharibədən sonrakı bərpa dövrünə təsadüf edən Heydər Əliyev öz zəmanəsinin övladıdır. O dövrün bütün gəncləri kimi o da mövcud quruluşun ideyalarına hədsiz sədaqət ruhunda tərbiyə olunmuş, mətin, iradəli, qətiyyətli, qanunsevər insan kimi formalaşmışdır. Sonralar olduqca ciddi dövlət orqanlarındakı fəaliyyəti, bu orqanlarda hökm sürən müstəsna dərəcədə sərt qayda-qanunlar, hərbi intizam onun xarakterində elə cizgilər yaratmışdı ki, bunlarsız dövlət sükanının arxasında durmaq və onu idarə etmək qeyri-mümkün idi.

Tarix Heydər Əliyev kimi nadir şəxsiyyətlərin əməlləri, fəaliyyəti ilə yaranmışdır. Onun kəşməkəşli həyatı, zəngin bioqrafiyası isə bütöv bir epoxanın canlı salnaməsidir.

Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, hətta Kremldə yüksək dövlət vəzifəsi tutduğu dövrlərdə belə öz proqram məramına xilaf çıxmamışdır. Bütün bacarığını, bilik və təcrübəsini ona sərf etdi ki, qoynunda doğulub boy atdığı, suyu, havası, çörəyi ilə ərsəyə çatdığı Azərbaycanı dünyaya tanıtsın. Və tanıtdı da.

Bu da bir xoşbəxtlikdir ki, xalqımızın müstəqillik və dirçəliş yolunda ilk inamlı addımları da ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında atılmışdır.

Azərbaycanın Heydər Əliyev dövrü tariximizin ən şanlı, ən şərəfli səhifəsi hesab edilməyə layiqdir. Ona görə tarixi ədalətsizlik üzündən parça-parça bölünmüş, milli dövlətçiliyindən ayrı düşmüş Azərbaycan xalqı məhz bu illərdə sürətli sosial-iqtisadi və mənəvi tərəqqi yoluna qədəm qoymuşdur. Tam qətiyyətlə demək olar ki, 70-ci illərin intibahı, milli oyanışı olması idi, 80-ci illərin sonu – 90-cı illərin əvvəllərinin milli azadlıq mücadiləsinin ölkəni bürümüş vüsəti də mümkün olmazdı.

Azərbaycan xalqının SSRİ-ni lərzəyə salan, onu sarsıdan milli azadlıq hərəkatı ona görə qüdrətli idi ki, onun Heydər Əliyev müdrikliyi və uzaqgörənliyi ilə əsası qoyulmuş milli özünəqayıdış bünövrəsi var idi.

Sovet hakimiyyəti illərində, xüsusilə 1970–1985-ci illərdə Azərbaycanın maddi və mədəni potensialı xeyli artmış, xalqın intellektual səviyyəsi yüksəlmişdi. Sənaye və kənd təsərrüfatı istehsalı elə bir həddə çatmışdı ki, bu da əhalinin maddi rifah halının durmadan artmasını təmin edirdi.

Heydər Əliyev xarakter etibarilə qurucu, yaradıcı insan idi. Azərbaycanın elə bir guşəsi, elə bir bölgəsi yoxdur ki, orada onun qadir əllərinin izi olmasın. O illərin kinoxronikalarına baxanda istər-istəməz belə bir sual yaranır: «Görəsən, heç bir ölçüyə sığmayan, gərgin səy və əmək tələb edən bu nəhənglikdə işləri görməyə hansı fövqəladə qüvvə təkan verirmiş?» İlk baxışda çətin görünən bu sualın olduqca asan bir cavabı var: «Heydər Əliyevə enerji, qüvvə, ilham verən yeganə mənbə onun mənsub olduğu millətə, xalqa, doğma yurda, elə, obaya olan tükənməz məhəbbəti, eşqidir».

1991–1993-cü illər tariximizin, bəlkə də, ən ağrılı, ən ziddiyyətli dövrlərindən biridir. Bir yandan 1988-ci ildən davam edən Qarabağ müharibəsindəki uğursuzluqlar, digər tərəfdən isə dövlət strukturlarının iflic vəziyyəti ictimai həyata öz mənfi təsirini göstərirdi. Əhalidə gələcəyə inamsızlıq yaranmışdı. Azərbaycanı düçar olduğu bu bəlalardan xilas etmək lazım idi. Belə bir məsuliyyətli məqamda xalq öz qəti sözünü dedi: «Azərbaycanı düçar olduğu bu bəlalardan yalnız ulu öndərimiz Heydər Əliyev xilas edə bilər». Bu hökmün, qətiyyətin arxasında ağır sınaqlardan çıxmış inam dururdu. Bununla da Azərbaycan tarixinin yeni bir mərhələsi başlandı.

Heydər Əliyev Bakıya qədəm qoyduğu gündən hadisələr müsbət istiqamətdə cərəyan etməyə başladı. Vətəndaş müharibəsi təhlükəsi aradan qalxdı. Xalqın sabaha olan inam hissi bərpa edildi.

Ölkəmiz üçün həyati əhəmiyyət daşıyan müqavilələrlə gənc və müstəqil Azərbaycan Respublikası dünya birliyində çox güclü siyasi və iqtisadi tərəfdaşlar qazandı. Heydər Əliyevin gərgin və çoxşahəli səyləri sayəsində Azərbaycanda bərqərar olmuş ictimai-siyasi sabitlik xarici sərmayəçilərin



ölkəmizə axıb gəlməsi və iqtisadiyyatın ən müxtəlif sahələrinə yatırım qoyması üçün stimul olmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin yorulmaz və ardıcıl səyləri, tükənməz dühası və enerjisi sayəsində keçid dövrünün problem və çətinliklərinə baxmayaraq, təhsilimizin inkişafına nəinki dövlət təminatı verilmiş, hətta inkişafımızın öncül istiqaməti kimi səciyyələndirilmişdir.

O zaman böyük tarixi şəxsiyyət Heydər Əliyev uzaqgörən və müdrik siyasəti sayəsində güclü kadr potensialı yaratmaqla milli təhsil quruculuğu istiqamətində sonrakı uğurların bünövrəsini qoymuşdur. O, özünün bütün şüurlu həyatı boyu istər əməli, istərsə də şəxsi nümunəsi ilə sübut etməyə çalışmışdır ki, maarif və mədəniyyətimizin, elm və təhsilimizin yorulmaz fədaisi, təəssübkeş himayəçisidir.

Heydər Əliyevin təşəbbüsü ilə hər il yüzlərlə gənc ali təhsil almaq üçün SSRİ-nin ən nüfuzlu, ən mötəbər universitetlərinə göndəriş alırdı. Bir sözlə, təhsilin səviyyəsinə, savadsızlığın ləğv edilməsinə görə Azərbaycan nəinki bütün başqa müsəlman ölkələrini, hətta bir neçə Avropa dövlətlərini xeyli qabaqlamışdı.

Böyük tarixi şəxsiyyət, öz dövrünün canlı tarixi və aynası olan Ümummilli Lider Heydər Əliyevin bütün həyatı və ictimai-siyasi fəaliyyəti əsl tərbiyə məktəbidir. Milli tərbiyənin əsas komponenti, ayrılmaz tərkib hissəsi kimi vətənpərvərlik anlayışını ilk dəfə olaraq leksikonumuza gətirən Heydər Əliyev bununla da milli ideologiyanın, yəni azərbaycançılıq ideologiyasının istiqamətini, məzmununu müəyyənləşdirmişdir. O, Dünya azərbaycanlılarının I qurultayında demişdir: «Biz azərbaycanlıyıq. Hamımızın vətəni Azərbaycandır. Bizi bir xalq, bir millət, bir insan olaraq bu torpaq ərsəyə gətirmişdir.

Buna görə də bizim hər birimizin canında azərbaycançılıq ruhu yaşayır. Bizi bir-birimizə bağlayan və daha sıx birləşməyə sövq edən də azərbaycançılıq ruhu, azərbaycançılıq ideyası olmalıdır. Hər bir xalqın milli ideologiyası olur. Müstəqil Azərbaycan Respublikasının milli ideologiyası da azərbaycançılıq ideologiyasıdır.»

Heydər Əliyevin əsas qayəsi, ideyası gənc nəslin mənəvi dünyasını söz və fikir dühaları olan babalarımızın yaratdıqları və miras qoyduqları zəngin əxlaqi dəyərlər əsasında formalaşdırmaq idi. Bu torpaqda ana dilində yaranmış söz sənəti ilə qanımıza, canımıza elə duyğular hopmuşdur ki, biz məhz həmin duyğularla vətəni, onun təbiətini, insanlarını sevmişik və bu sevgini yer üzündə yaşayan bütün insanlara çatdıra bilmişik. Rəhbər haqlı olaraq göstərmişdir ki, milli məhdudiyyət çərçivəsində yaşamaq olmaz. Xalqı-

mızın ulu və dahi şəxsiyyətləri də sənət zirvəsinə qalxmaq üçün bəşəri dəyərlərdən faydalanmışlar. Əsl vətənpərvər insanın – öz xalqını, millətini dərin məhəbbətlə sevən, ziyalı vətəndaş olan Heydər Əliyevin irsi o qədər zəngin, o qədər əhatəli və hərtərəflidir ki, onu tam öyrənib mənimsəmək üçün ayrıca universitet yaradılmalıdır.

Bəşəriyyət tarixində təzadlı və ziddiyyətli dövr olan XX əsr imperiyaların çökməsi, əsarət və zülm altında qalan xalqların, ölkələrin azadlığa çıxması ilə səciyyələnir. Bir vaxtlar düzlük, ədalət mücəssəməsi sayılan Mərkəzi Komitə və digər rəhbər təşkilatlar əyrilik, rüşvətxorluq, ədalətsizlik rəmzinə çevrildilər. Xalq onları «partokrat» deyə pisləyir, lənətləyirdi.

Azərbaycanda bu proses daha ağrılı keçirdi. Ölkəni labüd parçalanma qarşısında qoymuş Qorbaçov komandasının dağıdıcı siyasətinə etiraz əlaməti olaraq Heydər Əliyev 1987-ci il oktyabrın 21-də siyasi büro üzvlüyündən istefa vermişdir. Mixail Qorbaçov və onun ətrafı Heydər Əliyevin təcrid olunmasından istifadə edib, Qarabağ məsələsinin həllini fəlakət həddinə çatdırdılar. Əslində bu vəziyyət SSRİ-nin iflic vəziyyətinə düşməsinin real əlaməti idi. Artıq Azərbaycan xalqı imperiya rəhbərlərinin məkrli niyyətlərini başa düşmüşdü və buna etiraz əlaməti olaraq kütləvi mitinqlər başlamışdı. Bu, böyük xalq hərəkatının başlanğıcı idi.

Xalq üçün, ölkə üçün ən ağır məqamda dünya şöhrətli siyasətçi Heydər Əliyevin öz xilaskarlıq missiyasını yerinə yetirərək böyük siyasətə qayıdışı, yenidən ölkə rəhbərliyinə gəlişi ilə artıq əldən getməkdə olan dövlət müstəqilliyimiz, milli azadlığımız qorunub saxlandı. Ümumxalq sevgisi, inamı və dəstəyi ilə, qanuni demokratik yolla hakimiyyətə gələn Heydər Əliyevin sayəsində Azərbaycanda daxili ictimai-siyasi sabitliyin yaradılması, tarazlı və uğurlu şəkildə xarici siyasətin yeridilməsi son dövr tariximizin ən şərəfli səhifələrindəndir.

İnsan misilsiz qüvvəyə malikdir. O, bu və ya digər təbii proseslərin qarşısında bəzən aciz qalır. Nədir bu düşündürən, mütləq qüvvə kimi idrakı zor qarşısında qoyan güc? Həqiqət! Zaman-zaman çox hökmdarların adına, ünvanına böhtanlar, gileylər söyləyiblər. Yaşaya-yaşaya özünə əbədilik qazanan, xalqımızın tərəqqisi uğrunda can yandırmasına baxmayaraq, Heydər Əliyevin də müqəddəs əməllərinin üstünə qara boya çəkənlər tapılıb. Ancaq ixtiyar təbiətin əzəli və əbədi qanununu pozmağa, dəyişməyə kimsənin hünəri çatmayıb. Bəzən unuduruq ki, həqiqətin bir üzü var. Doğruluq qüdrətli şəxsiyyətlərin əməlində, simasında rəmzə, simvola çevrilir. Onu dəyişmək qeyri-mümkündür. Cənab Heydər Əliyev bənzəri olmayan bir şəxsiyyətdir. Onun yaşadığı ömür, keçdiyi şərəfli həyat yolu yüzlərə, minlərə örnəkdir.



Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı, prezidentimiz İlham Əliyev bu gün də atasının yolunu davam etdirir. O, bir çox xüsusiyyətlərinə görə atasına çox oxşayır.

Gənc siyasətçi İlham Əliyev Azərbaycan xalqının firavanlığı, xoşbəxt gələcəyi üçün ömrünün yarıdan çoxunu sərf etmiş, mənalı, eyni zamanda kəşməkəşli həyat yolu keçmiş dünya şöhrətli siyasətçi Heydər Əliyev məktəbinin yetirməsi, həm də layiqli davamçısıdır. Özünün rasional düşüncə tərzi, fəaliyyətinin dinamikliyi, siyasi proseslərə münasibəti, habelə səmimiliyi və firavanlığı ilə fərqlənən İlham Əliyev artıq siyasət meydanında özünü təsdiq etmiş, özünə bacarıqlı, səriştəli dövlət xadimi və ictimai xadim imici qazandıra bilmişdir.

Heydər Əliyevin həyatı hamıya məlumdur. Onun ömür kitabının sevindirici, parlaq səhifələri də, ağır məşəqqətli, çətin, qorxulu, təhlükəli səhifələri də. Lakin o, özünə qarşı təzyiqlərdən heç vaxt sarsılmamış, əksinə, daha mübariz, daha yenilməz olmuş və öz missiyasını ləyaqətlə yerinə yetirmişdir. Elə İlham Əliyev də gənc olmasına baxmayaraq, həyatda çox haqsızlıq görüb. Bunlar hamısı onun xaraktercə daha mətin, daha vicdanlı olmasında stimul rolu oynamışdır.

Ulu Yaradandan təmənnamız budur ki, bütün arzularımız, planlarımız həyata keçsin. Qoy bizi istəyənlər, dostlar sevinsin. Bizi istəməyənlər, düşmənlər isə xar olub paxıllıqdan çatlasınlar. İnanırıq ki, zəmanəmizin müdrik siyasətçisi, xalqın sınanmış lideri İlham Əliyev sayəsində ölkəmiz daha da çiçəklənəcək, tərəqqi edəcək və bütün müsəlman aləmində öz aparıcı rolunu qoruyub saxlayacaqdır. Azərbaycan etibarlı əllərdədir!



**_Məmmədova Aysel İlham qızı_**
**_Balakən şəhəri, Nizami Gəncəvi adına 1 nömrəli tam orta məktəbin X sinif şagirdi_**

*«Bu gün tariximizin sükançısı Cavanşir tədbirli, Şeyx Səfi imanlı, Uzun Həsən cəsarətli, Şah İsmayıl Xətai təpərli, Məhəmməd Əmin Rəsulzadə amallı Heydər Əlirza oğlu Əliyevdir».*

**Süleyman Dəmirəl**

*Əbədi rəhbərsən Azərbaycana*
*Ona həyat verdin, sən həyat oldun.*
*Ölkəmi tanıtdım bütün cahana*
*Onu sən yaratdın, onu sən qurdun.*

Azərbaycan qədim və zəngin məmləkətdir. Yaşı bilinməyən, sərvətləri hesaba gəlməyən bir diyardır Azərbaycan! Vüqarı buludları dələn uca dağ, laləli bağ, dostlara vəfa, düşmənlərə cəfa verən ulu məmləkət!

Mən bu torpağın sərvətlərindən yox, yetişdirdiyi oğullarından danışmaq istəyirəm. Öz əzəməti, vüqarı ilə seçilən sadə, səmimi insandan, qayğıkeş atadan, böyük sərkərdədən, fəxrə layiq ömür yaşayan bir şəxsiyyətdən da - nışmaq istəyirəm. Bu insanı zəmanənin özü yaratdı, millətə arxa, dayaq etdi. Xalqımız öz canını Vətən yolunda fəda etməkdən əsla çəkinməyən qəhrəman oğulları ilə əsrlər boyu fəxr etmişdir. Xalqımız azadlıq uğrunda şəhid düşmüş balalarını, öz canını Vətənin çiçəklənməsinə həsr etmiş övladlarını heç vaxt unutmamışdır.

Belə şəxsiyyətlərdən biri də Azərbaycan xalqının görkəmli dövlət xadimi, dahi oğlu, ümumxalq məhəbbəti qazanmış Heydər Əlirza oğlu Əliyevdir.



Bəli, adı müasir tariximizə qızıl hərflərlə daxil olan Heydər Əliyevi yalnız yeri-göyü nura qərq edən, qaranlıqları aydınlaşdıran Günəşlə, bir də qartal məskənli, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək olar.

*Aslan ürəklisən, qartal baxışlı*
*Dünyaya sığmayan, şan-şöhrətin var.*
*Xalqını aparan xoş gələcəyə,*
*Daxili, xarici siyasətin var.*

Hər kəsin dəyəri yaşadığı zaman xalqına göstərdiyi xidmətləri ilə ölçülür. Bu mənada Heydər Əliyev haqqında belə demək olar ki, o, Tanrının Azərbaycan xalqına sevərək göndərdiyi əsl fədakarlıq simvolu idi.

Heydər Əliyev Azərbaycan xalqının parlaq Günəşidir. Əgər bu Günəş 9 milyonluq xalqı öz şüaları ilə isidə bilməsə idi, yəqin ki, bir xalq kimi məhv olardıq. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, Heydər Əliyev kimi dahi şəxsiyyət yetişdirib. Ulu Tanrı Heydər Əliyevi və onun canı qədər sevdiyi xalqını bütün bəlalardan hifz etdi.

*Başın göyə dayaqdır, ayağın yerə,*
*Gərib gen sinəni sərt zərbələrə*
*Çiyinlər üstdə Vətən Torpağı,*
*Torpaqdan güc aldın Aktey sayağı.*
*Qoymadın tökülsün sən qardaş qanı*
*Qurtardın bölümdən Azərbaycanı.*

Tarixi şəxsiyyətə çevrilmək, ürəklərdə yaşamağı bacarmaq hər insana nəsib olmur. Heydər Əliyev qəlbləri fəth edən, ürəklərə çökməyi bacaran, müstəqillik, əbədilik hüququ qazanan bir insandır. Müasir Azərbaycanımızın banisi olan Ümummilli lider tarixi şəxsiyyətdir.

Yaşadığımız həyatda yollar çoxdur. Bu yollar içərisində ömür yolu adlanan bir yol vardır. Bu yol insanın həyatının günlərini, aylarını, insan mənəviyyatının dəyərlərini özündə birləşdirir. Heydər Əliyev bənzəri olmayan bir ömür yolu yaşadı və sabaha başlanan bir yol yaratdı. Bu yol onun bizlərə bəxş etdiyi gözəl və aydın yoldur. O, bu yolu öz işi, əməyi ilə, azadlıq ideyaları və sülh məramlı niyyətləri ilə yaratdı. O, xalqın şəxsi güvənc yeri oldu.

İşıqlı əməlləri ilə vaxtın fırtınalarından adlayıb zamansızlığa, ölümsüzlüyə ucalan böyük insan oğlu! Bu inşanı Sizin vaxtı üstələyən istedadınıza və ən çətin anlarda belə sönməyən dözüm və inamınıza həsr edirəm.

*Nur olub xalqının qəlbinə doldu*
*Zülmətdən işığa aparan yoldu*
*Heydər ideyası, Heydər zəkası.*

Heydər Əliyev xalqın çağırışı ilə 1993-cü ilin iyun ayında qarışıqlıq bir dövrdə hakimiyyət başına gəldi və müstəqilliyimizi süquta uğramaqdan xilas etdi. 15 iyun Qurtuluş Günü tarixə əbədi həkk olunmuş bir həqiqətdir. Heydər Əliyev andiçmə nitqində Azərbaycan xalqına müraciətlə demişdi: «Belə yüksək və məsuliyyətli işi öz üzərimə götürərkən ilk öncə Azərbaycan xalqının müdrikliyinə, qüdrətinə arxalanır, güvənirəm. Əmin etmək istəyirəm ki, mən bəslənən ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəm».

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən xilas etmiş, cəmiyyətin məqsədini, qayəsini öz varlığında, güclü şəxsiyyətində təzahür etdirərək, xalqı vahid bir məfkurə ətrafında toplayıb onun qəlbində sabaha inam hissi oyatmışdı.

Heydər Əliyev həqiqətən də əsrin rəhbəri idi. O, o qədər hərtərəfli bir insan idi ki, hər şeyə vaxt tapırdı. Hər məsələyə özünün şəxsi münasibəti var ii. Onun fəaliyyəti o qədər geniş və çox şaxəli, zəngin və ibratamiz idi ki, Ulu Öndərdən danışmaq hünər və cəsarət tələb edir.

Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyerin sözləri ilə desək: «Heydər Əliyev, həqiqətən, Azərbaycanın böyük lideridir. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycanın Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı».

Mən də Ümumilli Liderimizin xalqın səadəti, əmin-amanlığı üçün apardığı siyasi görüşlərdəki harmoniyanı yalnız poeziya ilə müqayisə edə bilərəm. Bu mənada Heydər Əliyevi böyük siyasətin, böyük diplomatiyanın Füzulisi adlandırıram. «Qızıl qələm» mükafatı lauriyatı Şərafət Dağıstanlının sözləri ilə desək:

*Xalq içində xalqı üçün çalışıb.*
*Qaranlıqda şimşək təki alışıb.*
*Sülh uğrunda ulduz təki sayrışıb*
*O, bu əsrin sərkərdəsi, rəhbəri,*
*Bütün dünya çox sevirdi Heydəri.*

Heydər Əliyev xalqın xilasını hərbi gücdə, silahda deyil, yalnız bu torpaqda yaradılmış qədim və zəngin mədəniyyətin xalqa qaytarılmasında, xalqın milli ruhunun dirçəldilməsində görürdü. Heydər Əliyev öz görkəmli dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və Azərbaycan xalqının taleyində silinməz izlər qoymuşdu. Xalqımız da böyük oğlunu dahi rəhbər kimi daim qəlbində ucaldır.



Azərbaycan dili – Heydər Əliyev dili, xalqımın dili, işıqdan doğulan adamların müqəddəs dili, bayrağının işığına dünyanı toplayanların dilidir. «Dədə Qorqud» boylarındakı dağlarımızın gözəlliyi kimi, gül-çiçək kimi min rənglidir ana dilim! Bu dili qorumaq, yaşatmaq və gələcək nəsilə ötürmək Heydər Əliyevin xalqına, millətinə və bayrağına, Vətəninə olan məhəbbətidir.

Heydər Əliyev Azərbayanımızı dünyaya tanıdacaq, onun nailiyyətləri ilə fəxr duyacaq bir Tanrı payı idi. Bu Tanrı payı nəinki Azərbaycanın, bütün Türk dünyasının böyük lideri idi. Onun Azərbaycan və Türk dünyasındakı mövqeyini Mustafa Kamal Atatürkün mövqeyi ilə müqayisə etmək olar. Əsrimizin əvvəllərində Mustafa Kamal Atatürk Türkiyəni böhranlı vəziyyətdən xilas etdiyi kimi, Heydər Əliyev də qlobal məhvolma, siyasi-sosial iflas girdabına sürüklənən Azərbaycanı xilas etdi və onu müstəqillik, tərəqqi yoluna çıxartdı. Ümummilli lider qan tökülməsinin qarşısını almaqla dahilik zirvəsinə ucaldı. Əgər bir insan yaralı qəlbləri sağaldırsa, kimlərəsə əvəzsiz, təmənnasız yaxşılıq edirsə, o onsan xoşbəxtdir. Müqəddəs «Qurani-Kərim» kitabında da xeyirxahlığın savab iş olduğu göstərilir. Heydər Əliyevin də xalqı üçün gördüyü işlər bunun ən bariz təsdiqidir.

Xalq Heydər Əliyevə öz xilaskarı kimi baxır.

*Çalışdın, vuruşdun gələcək üçün,*
*Sevdin Vətənini xoş dilək üçün.*
*Yön tutdun millətə sən kömək üçün*
*Yaşar ürəklərdə Heydər babamız.*

Deyirlər, ölkələr də insanlar kimidir. Tale onları bəzən sevinc və sədaqətdən məhrum edir. Dövlət məhvedici parçalanmaya məruz qalır, xalqlar təhqir edilir, tapdalanır. Xalq hansı səmtə gedəcəyini bilmir. Belə bir vaxtda sözünün arxasında durdu Heydər babamız! «Mən öz həyatımı, fəaliyyətimi Azərbaycanın inkişafına sərf edəcəyəm», – deyən Heydər Əliyev öz sözünə sadiq qaldı. Sən nəfəsinədək xalqına inandı, xalqına bağlandı.

*Yüz əlləşin, yüz vuruşun*
*Tapa bilməz xəta Türkü*
*Onu min il yaşadacaq*
*Azərbaycan torpağının*
*Heydər adlı Atatürkü.*

Heydər Əliyev ölməmişdir. Xalqı üçün doğulanlar heç vaxt ölmürlər. Onlar öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar. Nə qədər biz varıq, Ulu Öndər bizim canımızda, qanımızda, ruhumuzda yaşayacaqdır.

*Məhəbbəti, eşqi dastan*
*Kim deyir ki, bu gün yoxsan?!*
*Yaşadıqca Azərbaycan,*
*Sən həmişə olacaqsan!*

Heydər Əliyev əbədi məşəldir. Nə qədər Azərbaycan var, nə qədər ki, Vətən var, bu məşəl yolumuza işıq salacaqdır. Xalqımızı qələbədən-qələbəyə, daha uğurlu gələcəyə aparacaqdır. Heydər Əliyev ölümsüz bir heykəlin abidəsini ucaldıb Azərbaycanda. Bizə müstəqil əmanət qoyub gedib. Ulu Öndərimiz!

Bizə Azərbaycanı əmanət qoyub gedən Heydər Əliyevin müqəddəs ideyaları bu gün də yaşayır və min il də yaşayacaqdır. Biz gənclər də mənəvi dəyərlərimizi qoruyub yaşatmağı Ulu Öndərimizdən öyrənəcəyik və onun ideyaları təbliğində səylə çalışacağıq.

*Qoy sevinməsin ölüm!.. Ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər*
*Şirin bir xatirətək qalacaqlar dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

İllər ötəcək, zaman keçəcək Heydər Əliyevin Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə keçən ömrünün hər səhifəsinə, hər məqamına yeni-yeni əsərlər həsr olunacaqdır. Ümummilli Lider, Siz bizdən cismən ayrılsanız da, əməllərinizi yaşadan xalqınızla birlikdəsiniz.

O kəslər xoşbəxtdir ki, özündən sonra bir davamçı, bir yadigar qoyurlar. Heydər Əliyev də özündən sonra elə bir davamçı qoyub getmişdir ki, xalq onu özünə arxa, dayaq bildi. Ona inandı və onunla birlikdə addımlamağa başladı. Heydər Əliyev sağlığında xalqının əmin əllərdə olduğuna inanmışdı. Çünki bu şəxsiyyəti Heydər Əliyev yetişdirmiş, onu öz siyasəti ilə, keçdiyi ağır yolların sınağı ilə bərkitmişdi.

Heydər Əliyev adlı əbədiyyət günəşi qurub etsə də, o, xalqının bəxtinin simasında elə ulduza çevrilmişdi ki, milyon-milyon insanların qəlbində sabaha inamın sönməz alovlarını şölələndirir. Bu gün Heydər Əliyev siyasətini onun layiqli davamçısı, hamının sevimlisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir. Xalqımız onun siyasətini bəyənir və onun həyata keçirilməsində fəal iştirak edir. İlham Əliyev və onun xanımı



YUNESKO-nun xoş məramlı səfiri, Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyeva ilə əl-ələ verərək Azərbaycanın intibahını, müstəqilliyimizin inkişafını təmin edirlər. Heydər Əliyev buna varlığı ilə inanmışdır və inanmışdır ki, xalq onun qoyduğu davamçını sevəcək və onun əlini elə bərk sıxacaq ki, heç bir qüvvə 9 milyonluq xalqı tərpədə bilməsin. Heydər Əliyev özü bu haqda demişdir: «Mənim başa çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyinizlə başa çatdıra biləcəkdir və mən buna özüm qədər inanıram və onun gələcəyinə böyük inam bəsləyirəm.»

*Ata, oğul! Azərbaycan adınızla yüksələcəkdir.*
*Gələcək bizimdir, tarix sizindir.*
*Oxuyub adınızın salnaməsini*
*Bütün türk dünyası baş əyəcəkdir.*

Bu gün Heydər Əliyevin davamçısı İlham Əliyevlə ölkəmiz öz yüksəliş dövrünə qədəm qoymuşdur. İqtisadiyyatımız durmadan yüksəlir. Bu illər ərzində hər kəsə aydın oldu ki, xalqımız İlham Əliyevlə sabaha doğru inamla addımlayır.

Sözü ilə silahları durdurmağı, qoşunların qarşısını almağı, həmlələri dəf etməyi bacaran Ulu Öndərimiz tarix yaradıb. İlham Əliyevin dediyi kimi: «Müstəqil Azərbaycan adlı şah əsəri bizə əmanət qoyub».

*Xalqını dünyaya tanıtmaq üçün,*
*Səsi qanadlandı altı qitədə*
*Bu gün diqqəti var bütün dünyanın*
*Azərbaycan adlı bir xəritədə.*

Bəli, bu gün biz Ümummilli Liderimizin 90 ilik yubileyini qeyd etməyə hazırlaşırıq. Kaş tanrı onu bizə çox görməyə idi!..

*Qara torpaq, sevinməyə haqqın var*
*Qoynunda atamız Heydər yatıbdır.*

Heydər Əliyev Azərbaycanın bu günü, sabahı, dünənidir. Müstəqilliyimiz yaşadıqca, üçrəngli bayrağımız dalğalandıqca Heydər Əliyevin yaratdığı yeni Azərbaycan Partiyası da yaşayacaqdır.

Bu gün Ümummilli Liderimizin ən layiqli davamçısı, gənc, lakin kifayət qədər beynəlxalq aləmdə özünü təsdiqləyən, Heydər Əliyevin böyük həyat məktəbini keçən İlham Əliyev Heydər Əliyev siyasətini davam etdirir. Heydər Əliyevin siyasi varisi olan İlham Əliyev Azərbaycan sükanının arxasında ləyaqətlə dayanaraq onu sivil ölkələrdən birinə çevirmişdir.

Musiqi və incəsənət sahəsindəki uğurların miqyası fərəh hissi doğurur. «Avrovizion–2011» musiqi yarışmasındakı qalibiyyətimiz, sözün həqiqi mənasında, bir çox sivil ölkələri təəcübləndirdi. Bu möhtəşəm forumun Azərbaycanda keçirilməsi bütün azərbaycanlıların qılbini fərəh hissi ilə doldurdu, coşdurdu. Yay olimpia oyunlarındakı qazandığımıəz qələbələr də Azərbaycanın idman sahəsindəki irəliləyişlərindən xəbər verir. Bu gün Azərbaycan Heydər Əliyevin ideyaları ilə iri addımlarla əzmlə irəliləyir.

*Azərbaycan Odlar yurdudur.*
*Heydər Əliyev onun od oğludur.*

Heydər Əliyev Azərbaycan üfüqlərində parlayan Günəş, odu sönməyən ocaqdır. Bu günəş Azərbaycanı, xalqımızı isidəcək, ocaq isə daim közərəcək, şölələnəcəkdir.









## *Allahverənova Nərmin Azər qızı*

***Bakı şəhəri, Arif Vəliyev adına 258 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Ulduzlar... Bəzisi solğun, bəzisi parlaq... İnsanlar da ulduzlar kimidir. Kimi az ömür sürür, böyük işlər görür, kimi çox yaşayır, yalnız ailəsi və özü üçün çalışır. Xalqının mənafeyini öz mənafeyindən üstün tutan vətəndaşlar da az deyil! Belə insanlar ömrünü, həyatını vətən, xalq naminə şam kimi əridir... Böyük yazıçımız Mirzə İbrahimov isə yazırdı: «Xoşbəxt o şəxsdir ki, ömrünü, həyatını vətənimə, xalqıma həsr etdim! – deyə bilsin.»

Bayaq ulduzlardan danışdım. İnsanları ulduza bənzətdim... Fəqət, ulduzlar içində ən böyük, ən parlaq bir ulduz var: Günəş! Mən Ulu Öndərimiz Heydər Əliyevi yalnız Günəşlə müqayisə edə bilərəm. Günəş hər səhər Azərbaycan üfüqlərindən boylananda, onun şəfəqlərini, parıltısını Öndərimizin təbəssümünə, hərarətini isti nəfəsinə bənzədirəm. Hər səhər ulu öndərimiz Heydər Əliyev sanki Azərbaycanımızı salamlayır, azadlığını, müstəqilliyini və durmadan inkişaf edən tərəqqisini alqışlayır...

Heydər Əliyev – Azərbaycanın gələcəyə uzanan uğurlu yoluna işıq saçan Günəşimiz! Böyük dühа!

Keçən əsrin əvvəllərində Naxçıvanda, fəhlə ailəsinə anadan olan bir uşağın gələcəkdə cəmiyyət qayğısı çəkəcəyinə, adının dünyanın ən böyük şəxsiyyətləri ilə bir sırada çəkiləcəyinə kim inanardı?! Heydər Əliyev hələ uşaq yaşlarından bütün elmləri dərindən öyrənməyə çalışırdı. Öz fenomen zəkası ilə müəllimlərin diqqətini çəkən Heydər Əliyev istər tələbəlik illərində, istərsə də hakimiyyətdə olan dövrlərə daima ətrafdakıları qısqandırmış, öz xalqının isə qürur mənbəyi olmuşdur.

Unutmaq olmaz ki, yalnız dövlətinə, vətəninə yardım edib, onu dünyaya tanıtdıran şəxsiyyətlər həmişə yaddaşlarda qalır. Heydər Əliyev də elə

şəxsiyyətlərdəndir ki, Azərbaycanımız var oluğu müddətdə Ulu Öndərimizin adı tarixdə qalacaq.

Keçən əsrin 60-cı illərində Heydər Əliyev Azərbaycanı ittifaqın ən böyük dövlətlərindən birinə çevirmək istədi. Lakin o zaman ittifaqda ikili hakimiyyət hökm sürürdü. Öndərimiz isə fenomen zəkası ilə xalqı bu məngənədən çıxardı.

O, xalqının dərdini, qəmini, sevincini öz kədəri, qəmi, xoşbəxtliyi bilib, xalqı ilə kədərlənib, xalqı ilə gülürdü...

«Dünyada çox peşələr var, eləcə də Azərbaycanda. Amma bu peşələrdən xalq, millət üçün ən ucası, ən dəyərlisi vətəni qorumaq peşəsi–hərbi peşədir!» – deyirdi Öndərimiz. Çünki o, xalqını çox sevir, fəxr edirdi. Heydər Əliyev hərbi təhsil sahəsinə böyük dəyər verirdi. Onun nümunəsi olaraq hal-hazırda Azərbaycan ordusunu Naxçıvanski adına hərbi liseysiz təsəvvür etmək olmaz. Hərb sahəsinə bəxş olunan bu böyük abidənin təşəbbüskarı və qurucusu Heydər Əliyevdir...

Birinci hakimiyyəti dövründə o, Azərbaycan iqtisadiyyatında böyük dəyişikliklər etdi. Neçə-neçə sənaye müəssisələrinin tikintisi, iş yerlərinin açılmasını o dövrdə müşahidə etmək olardı.

Böyük dövlət xadimi yalnız Azərbaycanda deyil, bütün dünyada tanınırdı. Bunun nümunəsi olaraq, Heydər Əliyev ilə eyni dövrdə Gürcüstanda hakimiyyətdə olan Gürcüstan Prezidentinin nitqindən bir parça: «Mən həmişə demişəm, Azərbaycan millətinin bəxti çox, olduqca çox gətirib ki, onlara nəinki Azərbaycanda, bütün Zaqafqaziyada tanınmış Heydər Əliyev başçılıq edir!»

Azərbaycanın bu şansı düşməni daha da qəzəbləndirirdi. Düşmən 1990-cı ildə 20 Yanvar hadisəsində xalqımızdan acıq çıxmağa çalışdı. 20 Yanvar hadisəsində şəhidlərin – neçə-neçə azadlıq mücahidinin qanı ilə suvarıldı Vətən torpağı. Bundan kifayətlənməyən düşmən öz ordusunu silah-sursatla, canlı qüvvə ilə təmin edib Xocalıya yolladı. Nəticədə Daşaltı, Xocalı qətliam baş verdi... Ömrünün ahıl, xəstə çağlarına baxmayaraq, Öndərimizin ürəyində azadlıq, müstəqillik alovları hələ də sönməmişdi. O, bu hadisəni elə imperiyanın ürəyində – Moskvada dünyaya tanıtdırdı.

Xalq «sapı özümüzdən olan» düşmənləri cəzalandırdı. Heydər Əliyev isə bir tərəfdən düşmənləri torpağımızdan uzaqlaşdırır, bir ətrəfdən də Vətənin inkişafı üçün əlindən gələni əsirgəmirdi, bir çox planlar, ideyalar gerçəkləşdirirdi. Bir sözlə, həmin dövrdə Heydər Əliyev sanki bir Xızır idi və bizim üçün göndərilmişdi. Rus imperiyasının «xam xəyal» adlandırdığı Bakı–Tbilisi–Ceyhan Neft Kəməri utopiyası da, gerçəyə çevrildi o dövrdə...



Indi isə Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevdir. İlham Əliyev də Vətənimizin inkişafı üçün əlindən gələni edir, istədiyinə də nail olur. Prezidentimiz çox yaxşı bilir ki, güclü iqtisadiyyatı olmayan dövlətin, güclü siyasəti də ola bilməz. Bunun üçün Azərbaycanımıza savadlı iqtisadçılar və siyasətçilər lazımdır. Hər peşənin başlanğıc savadının məktəbdə mənimsədildiyi də şübhəsizdir. Bunun üçün – böyük zirvəyə çatmaq üçün hər il yeni məktəblər, təhsil müəssisələri, kompleksləri tikilir, ən müasir maddi – texniki avadanlıqlarla təchiz olunur. Cəmiyyətimiz inkişaf etdiyi kimi, təhsilimiz də durmadan inkişaf edir.

Heydər Əliyev Azərbaycanı dağılmaz qala etdi. Bizlərin borcu da bu qalanı ucaltmaqdır.

Vətənimiz... Vətən bu günümüz, uzaq və qəhrəman keçmişimiz, gələcəyimizdir! Uzaq və qəhrəman keçmişimiz sal qayalarda həkk olunan izimizdir, Tomris mərdliyidir, Cavanşir qəhrəmanlığıdır, Nizami poeziyasıdır... Və sonda qeyd etmək istəyirəm ki, biz azərbaycanlılar həmişə fəxr etmişik və bu gün də fəxr edirik ki, biz azərbaycanlıyıq və bizim Heydər Əliyev kimi ulu öndərimiz var! O Heydər Əliyev ki, Azərbaycan xalqını, azərbaycançılığımızı bütün dünyaya tanıtdı!



***Bünyətzadə Fidan Bünyət qızı***
***Hacıqabul şəhəri, 8 nömrəli humanitar təmayüllü tam orta məktəbin X sinif şagirdi***

Cəmiyyət yarandığı gündən tarixdə şəxsiyyətlərin rolunu aydınlaşdırmağa çalışmış mütəfəkkirlər, filosoflar, alimlər bu problemi dəfələrlə həll etməyə cəhd etmişlər. Bu mövzuda fikir müxtəlifliyinin genişliyinə baxmayaraq, belə nəticəyə gəlmək olar ki, tarixi şəxsiyyətlər birbaşa olaraq tarixin gedişinə güclü təsir göstərirlər.Hər hansı ölkəni, dövləti dünyaya tanıdan onun dahi mütəfəkkirləri, alimləri, siyasətçiləri və başqaları ilə bərabər onun nüfuzlu tarixi şəxsiyyətləridir. Siyasət elmi digər elmlərdən qat-qat qəliz və mürəkkəb olduğu üçün dövlətin şəxsiyyətləri, siyasətçiləri uzaqgörən, müdrik, daxili və xarici siyasəti dərindən bilən olmalıdır.

Dahilik səviyyəsinə çatmış insanlar əslində Tanrının seçilmiş və mükafatlandırılmış bəndələridir.

Tarix öz işini görür. Zaman keçdikcə bu tarix səhifələrində yüzlərlə istedadlar, şəxsiyyətlər yetişir. Azərbaycan hətta totalitar sovet rejimində belə bir vaxtlar heç yerdə tanınmayan bu dövləti nəinki Sovet məkanında, hətta ən qabaqcıl dünya dövlətləri arasında tanınmasına, bu ölkələr içində layiqli yer tutmasına nail olan Heydər Əliyev kimi dahi yetişdirmişdir. Kim deyərdi ki, fəhlə ailəsində doğulmuş bu azərbaycanlı oğlu dünyaya qapalı Azərbaycanı yenidən quracaq, yaradacaq və onu dünyaya tanıdacaq?

Taleyin hökmü ilə iki dəfə hakimiyyətdə olan Heydər Əliyev hər dəfə xalqın müqəddəratı ilə maraqlanmış, xalqın çətin anlarında, dar məqamlarında yanında olmuş, zamanın məngənəsindən xilas etmişdir.

1993-cü il 15 iyunda Heydər Əliyevin ikinci rəhbərliyi dövründə o sübut etdi ki, doğrudan da, xalqının, dövlətinin yanındadır və xalqın rəhbəridir. Heydər Əliyev özünəuyğun siyasətini tətbiq edərək xalqı dirçəltməyə çalışırdı. Amma Azərbaycana göz dikən nadanlar sakitliyi pozurdu. Bədnam qonşularımız 1987–1988-ci illərədək Dağlıq Qarabağdakı sistemlərini tətbiq etmirdilər. Çünki Heydər Əliyevdən çəkinirdilər. Nə vaxt ki, Heydər Əliyev Sovet İttifaqı KP MK-nin siyasi bürosundan istefa verdi, həmin an onlar hərəkətə keçərək Dağlıq Qarabağdakı seperatçılıq siyasətlərini tətbiq etdilər. Bu da daxili stabilliyin pozulmasına gətirib çıxardı. Azərbaycanı çəkişmələr bürümüşdü. Belə narahatlıqların baş verdiyi, daxili vəziyyətin pozulduğu, dövlətin daxili parçalanmaya məruz qaldığı bu dövrdə hakimiyyətdə olan insanlar dərk etdilər ki, hakimiyyətə uzaqgörən, ağıllı və dəqiq siyasəti ilə yalnız Heydər Əliyev gəlməlidir. Xalq və müxtəlif təşkilatlar da artıq yekdil bir fikirlə çıxış edirdilər ki, dövlət ancaq bu görkəmli siyasətçinin səyi nəticəsində xilas ola bilər.



Heydər Əliyev çox çalışdı, gecə-gündüz demədən sırf dövləti ayağa qaldırmaq üçün. Səbir etdi və istəyinə nail oldu. Tanrının məhz səbir edənlərin yanında olması fikri də heç təsadüfi deyil. Heydər Əliyev çox gərgin fəaliyyət dövrü keçirirdi. Yəqin hamı razılaşar ki, Heydər Əliyev yorğunluğa və müalicəsinin davam etməsinə baxmayaraq, böyük həvəs və ehtirasla çalışırdı. Heydər Əliyevin rəhbərliyi dövrü tarixin dolğun salnaməsi sayıla bilər. Heydər babamızın bu qəhrəmanlıqları tarixin hər bir səhifəsində əks olunmuşdur. O, bunlarla kifayətlənmədi. Yeni-yeni işlərə imza atdı. İşsizlik problemi aradan qaldırıldı. Əhalinin çox hissəsi işlə təmin olundu. Yeni strukturlara malik sənaye sahələri, zavod və fabriklər istifadəyə verildi. Məhkumları əfvetmə haqqında fərmanlar qəbul etdi. Bir zamanlar tətbiq olunan ölüm hökmü ləğv olundu. Bütün bunlar Heydər Əliyevin xalqına göstərdiyi qayğı və nəvazişin təzahürüdür. Təbii ki, bu nailiyyətlər sayəsində Azərbaycanın dünyada nüfuzu artır və o, qüdrətli dövlətə çevrilirdi.

Heydər Əliyev digər dahilərdən fərqlənirdi. İti məntiqi, dərin düşüncəsi, çətin və ağır situasiyalarda qərar vermək qabiliyyəti, sabaha analitik baxışı, xalqın mənəvi, siyasi tarazlığını qorumaq bacarığı onu digərlərindən fərqləndirirdi. Bəlkə də, onun siyasətinin sirrini bunlar təşkil edirdi. Kim bilir?!

Heydər Əliyev gələcək üçün bir dahilik məktəbidir. Bəlkə də, onun kimi bir «möcüzə» dünyaya gəlməyəcək. Amma əminəm ki, gələcək nəsillər bu məktəbdən yetərli qədər faydalanacaqlar. Heydər Əliyev nəinki bu günümüz üçün, hətta sabahımız üçün də bir xəzinədir. Bu xəzinə xalqımız üçün böyük nikbinliklər yaradır.

Heydər Əliyevin təkrarsız siyasəti özünü büruzə verirdi. Lakin bir az əvvələ nəzər salsaq, kənd təsərrüfatının, sənayenin və iqtisadiyyatın nə qədər zəif və inkişafsız olduğunu aydın görərik. Azərbaycan 60-cı illərdə

geri qalırdı. Yeni tərəqqinin texnologiyaları istehsala, demək olar ki, tətbiq olunmurdu, xüsusilə təsərrüfatının bu qədər geri qalması məhsulun artım surətinə, keyfiyyətinə, həcminə mənfi təsir göstərirdi. Təbii ki, Heydər Əliyev bunları görürdü. Onun əvəzolunmaz siyasəti burada da işə yarayırdı. Yeni-yeni texnologiyalar kənd təsərrüfatına tətbiq olunmağa başlandı. Tədricən təsərrüfat, iqtisadiyyat inkişaf etdi. Azərbaycan pambıqçılıq və üzümçülük diyarına çevrildi. Bundan başqa, mədəniyyət, elm, təhsil sahələrinə də diqqət ayrılırdı. Bu sahələrin işçilərinin maaşlarının artırılması da həyata keçirilirdi. Yeni məktəblər, xəstəxanalar, zavodlar və fabriklər istifadəyə verildi. Uşaqlara və gənclərə xüsusi qayğı göstərilir və onların yaxşı təhsilləri üçün hər cür şərait yaradılırdı. Heydər Əliyevin bu yenilməz mübarizəsi nəticəsində dövlətimiz dirçəldi. Onun rəhbərliyi dövründə sanki Azərbaycan çiçəklənmə, intibah dövrü keçirirdi.

Doğrudur, bu gün o, bizim aramızda deyil. Amma unutmayaq ki, bu gün rahat-rahat torpağına ayaq basdığımız, suyunu içib, çörəyini yediyimiz bu şanlı vətənin memarı məhz Heydər Əliyevdir. İnşamı Heydər Əliyevin – babamın bu dünyadan necə köçdüyünü yazmaqla bitirməyəcəm. Çünki mənim aləmimdə Heydər babam ölməyib. O, həmişə mənim qəlbimdədir və belə də olacaq.

Heydər Əliyevin memarı olduğu bu vətən etibarlı əllərdədir. Bir zamanlar həyata keçirilən Heydər Əliyev kursu indi İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Xalqım Heydər Əliyevə inandığı kimi İlham Əliyevə də inanır və güvənir. Bu da Azərbaycan xalqında vətənpərvərlik ruhunu artırır.





**_Bəhramlı İradə Fəxri qızı_**
**_Xocalı şəhəri, 4 nömrəli tam orta məktəbin VIII sinif şagirdi_**

Tarix şəxsiyyətlər yetişdirir. Şəxsiyyətlər isə milləti, xalqı yaşatmaq üçün ömürlərini şam kimi əridir, sözün əsl mənasında, ömürlərinin qalan hissəsini də xalqına bağışlayırlar.

İllər keçir, tarixin şanlı səhifələri yazılır və xalqın qüdrətli oğulları öz xeyirxah əməlləri, mətin, yenilməz, məğlubedilməz simaları ilə adlarını bu səhifələrə yazırlar.

«Ən böyük şəxsiyyətlər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır». Türk dünyasının tarixi simalarından biri olan Mustafa Kamal Atatürk öz adını tarixin şanlı səhifələrinə qızıl hərflərlə yazacaq böyük türk oğlunun yenidən doğulacağını sanki öncədən görmüşdü. Tarixlərdə və yaddaşlarda qalacaq, əsrlərlə qəlblərdə yaşayacaq, nurdan yaranan və günəştək parlayan belə bir şəxsiyyət Ulu Tanrının məhz Azərbaycan xalqına hədiyyəsi oldu. Bu dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevdir.

Belə bir fenomen Lider haqqında nə yazacağımı düşünərkən onun mehriban, güləruz siması gözlərim önündə canlandı. Sanki daxili bir rahatlıq tapdım. Lap kiçik yaşlarımdan bu insanı Heydər baba kimi tanımış, hətta bioloji babam olduğuna inanmışam. Ancaq böyüyəndən sonra tək mənim deyil, bütöv bir millətin atası, babası olduğunu anladım.

Məşhur kəlamlardan birində deyilir ki, əbədi xoşbəxt olmaq istəyən kəs ömürünü xalqına həsr edər. Heydər Əliyev kimi bir dühа da ömrünü bir nəslə, bir obaya deyil, bütöv bir millətə həsr edərək hər kəsin «Heydər baba»sı olmağı bacardı.

Mən atamı itirərkən çox kiçikdim. Ata qayğısının, ata nəvazişinin nə olduğunu bilmirəm. Ancaq bu nəvazişi, qayğını hər an dahi şəxsiyyətin qurucusu olduğu Azərbaycan dövlətindən görürəm.

Onun xeyirxah əməllərini saymaqla bitib-tükənməz. Ancaq mən bir Xocalı sakini kimi ötən əsrin 90-cı illərində xalqımızın istəmədən düçar olduğu fəlakətləri yada salmaq istəyirəm. Bu, elə bir dəhşətli dövr idi ki, fəsadlarından hələ də qurtulmaq mümkün olmayıb.

Əsrlər boyu xalqımız əzilmiş, təqiblərə, təhqirlərə məruz qalmışdır. Bu əsarətdən qurtulmaq üçün haqq səsini ucaldanda isə xalqımızın başına 20 Yanvar müsibəti gətirildi. Xalqının ağır günlərində faciənin səbəbkarı olan M.Qorbaçov tərəfindən qərəzli şəkildə ali hakimiyyət orqanlarından uzaqlaşdırılan, təqiblərə məruz qalan Heydər Əliyev öz ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək dünyanın informasiya agentlikləri qarşısında çıxış etdi və dünya ictimaiyyətinə rus imperiyasının Azərbaycanda törətdiyi vəhşilikləri qəti şəkildə pislədi, Azərbaycan xalqına çətin məqamda mənəvi dayaq oldu.

1991–1993-cü illər xalqımızın tarixinin ən ağrılı-acılı, çətin dövrlərindən biri idi. Bir tərəfdən mənfur erməni daşnakları Azərbaycanımızın gözəl guşələrindən biri olan Qarabağı ələ keçirmək üçün hər cür vasitəyə əl atır, digər tərəfdən isə naşı rəhbərlərin səriştəsizliyi, satqınlığı nəticəsində daxili hərc-mərclik baş alıb gedirdi. Azərbaycan xarici düşmənlərin fitvası ilə parçalanmaq həddinə gəlib çıxmışdı. Erməni qaniçənləri rus havadarlarının köməyi ilə qədim yaşayış məskənlərimizdən biri olan Xocalı şəhərini işğal etdi, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yüzlərlə günahsız insan: qoca, qadın, uşaq, gənc vəhşicəsinə öldürüldü. Bir yurd viran edildi. Bu faciə hər bir Xocalı sakini kimi bizim ailədən də yan keçmədi.

Faciənin ən böyük nəticəsi isə xalqın gələcəyə olan inamının itməsi oldu. Bunun nəticəsində də 20% torpağımız mənfur düşmənlərimizin əlinə keçdi. Belə bir vaxtda xalqı bəlalardan xilas etmək, qələbəyə olan inamı bərpa etmək və yenidən ruh yüksəkliyi yaratmaq üçün zəkalı və güclü bir rəhbərə ehtiyac vardı.

Ulu Tanrı xalqın ən çətin günlərində bəlalardan xilas olmaq üçün öz seçilmişlərini göndərir. Bizim xalqımızı da bu bəla fırtınalarından xilas etmək üçün Uca Yaradan Heydər Əliyev kimi şəxsiyyəti, dahini xalqımıza xilaskar olaraq bəxş etdi. Onun zəkasının nuru fırtınalı və tufanlı dənizdə azmış gəmini xatırladan Azərbaycan xalqına mayak oldu, milyonlar onun hakimiyyətə gəlməsini tələb etdi. Vətəni uçurumdan xilas etmək və onu zülmətdən işığa çıxarmaq üçün Heydər Əliyev milyonların imdad dolu hayqırtısı və qətiyyətli tələbi ilə 1993-cü il 15 iyun tarixində siyasi arenaya qayıtdı. Təsadüfi deyil ki, öz xilaskarına qovuşan xalqımız sonralar bu günü «Qurtuluş Günü» kimi qeyd etməyə başladı.



*O bir günəş, o bir aydır,*
*O, kükrəyn coşqun çaydır.*
*O, taledən bizə paydır*
*Müdrik, aqil Heydər Babam!*

Xalq öz seçimində yanılmadı. Hakimiyyətə gəldiyi ilk gündən etibarən öz xilaskarlıq missiyasını yerinə yetirməyə başlayan Ulu Öndər, ilk növbədə, qardaş qırğınına son qoydu. Cəbhədə bir sıra uğurlar əldə edildi, atəşkəsə nail oldu. Hər gün cəbhədən gələn tabut karvanına son qoyuldu. Xalqın sabaha inamı artdı.

*Döndü məqamında, çatdı haraya,*
*Döndü payızıyla, döndü qışıyla.*
*Keçdi Azərbaycan yeni eraya,*
*Heydər Əliyevin qayıdışıyla.*

Gəncliyində memar olmaq istəyirdi Dahi Şəxsiyyət. Bəli, O, memar oldu – müstəqil Azərbaycanın memarı. Onun şah əsəri «Müstəqil Azər-baycan» adlı güclü bir dövlət oldu.

Hakimiyyətə qayıtdığı ilk gündən ölkəmizin tərəqqisi uğrunda gecəligündüzlü mübarizəyə başladı. Azərbaycanın adını yüksəklərə qaldırmağa çalışdı. Bunun üçün də «qara qızıl» adlandırılan sərvətimizdən böyük müdrikliklə istifadə etdi. Hakimiyyətdə olduğu dövr ərzində dünyanın 15 ölkəsinin 33 şirkəti ilə 21 neft sazişi imzaladı.

1994-cü ildə tarixə «Əsrin müqaviləsi» kimi daxil olmuş neft müqavilələrinin imzalanması, neftimizin dünya bazarına çıxması üçün yaşıl işıq yandırdı. Memarı olduğu Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Qars–Ərzurum qaz kəmərinin istifadəyə verilməsi siyasətimizdə dönüş nöqtəsi oldu.

Neftimizdən gələn gəliri xalqın maddi-mənəvi rifahının yüksəlməsinə yönəldən uzaqgörən siyasətçi bununla kifayətlənməyərək digər sektorların da inkişafına sərmayə qoydu.

Heydər Əliyev gənc nəslə göstərdiyi xüsusi qayğı və diqqəti ilə də həmişə fərqlənmişdir. Buna görə də «xalqın atası» adlandırılmışdır. Milli savadlı kadrların ölkəmiz üçün hava, su kimi lazım olduğunu anlayan Dahi Rəhbər gənclərin təhsil alaraq vətən lazımlı şəxsiyyətlərtək yetişməsinə hər cür şərait yaradır, onların dünya təhsil sisteminə inteqrasiya etməsindən ötrü önəmli qərarlar imzalayırdı. Bütün bunların sayəsində millətimiz sürətlə savadlandı. Azərbaycanın bayrağı dünyanın inkişaf etmiş dövlətlərinin bayraqları ilə bir cərgədə dalğalandı. Avropa Şurasına üzv seçildik. Azad

biznes sahəsi yaradıldı, ölkəmizə qoyulan xarici kapitalın miqdarı günü-gündən artdı. Bütün bu inkişafa görə biz xalqımızın ümummilli liderinə – Heydər Əliyevə minnətdar olmalıyıq.

O, həmişə qürur hissi ilə bu sözləri deyərdi: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam!». Qəlbi vətənə məhəbbət hissi ilə dolu olan dahi şəxsiyyətin bu sözləri hər bir vicdanlı azərbaycanlı üçün həyat devizinə çevrilib.

Öz ömrünü Azərbaycanın müstəqilliyi və inkişafı yolunda şam kimi əridən Ulu Öndərin qəlbi bu çətinliklərə çox dözmədi və soyuq bir qış günü – 12 dekabr 2003-cü ildə qəflətən dayandı. Bu acı xəbərdən xalqımız çox sarsıldı. Heydər Əliyev kimi bir dühanı itirmək tək Azərbaycan üçün deyil, bütün türk dünyası üçün ağır itki oldu. Ancaq xalq 1993-cü ildə olduğu kimi yenidən birləşərək xalqı bəlalara düçar olmaqdan xilas etmək üçün ulu öndər Heydər Əliyev siyasi kursunun davamçısı olan İlham Əliyevi hakimiyyətə gətirdi.

Prezidentimiz İlham Əliyev dahi şəxsiyyətin layiqli davamçısı olduğunu öz əməlləri ilə dəfələrlə sübut edib. Onun Azərbaycanın inkişafı və çiçəklənməsi yolundakı fəaliyyətini görməmək üçün ən azından kor olmaq lazımdır. Çünki başqa ölkələrin illər ərzində əldə etdiyi nailiyyətləri onun hakimiyyəti dövründə çox az müddətdə əldə etmişik. Ulu Öndərin memarı olduğu layihələri bu gün məhz İlham Əliyev uğurla həyata keçirir. Azərbaycan dünyanın və Avropanın ən qabaqcıl ölkələri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz nəzərə alınaraq həll edilir. İqtisadiyyatımız o qədər yüksək səviyyədə inkişaf edib ki, təkcə hərbi büdcəmizə ayrılan vəsait mənfur düşmənimiz olan Ermənistanın dövlət büdcəsindən artıqdır. Ordumuzun daha müasir səviyyədə silahlandırılması üçün ən müasir silahlarla təmin olunması ilə yanaşı, ölkəmizin özündə də silah sursatların istehsalına başlanmışdır. Bir çox ölkələr bu gün bizimlə hesablaşmağa məcburdurlar.

Heydər Əliyevin ailəsindən danışarkən Zərifə Əliyevanı yaddan çıxarmaq mümkün deyil. O, göz həkimi kimi bir çox insanların gözünə şəfa vermiş, gözlərinin nurunu özünə qaytarmışdır.

Heydər Əliyev ocağının daha bir qığılcımı, onun yolunu layiqincə davam etdirənlərdən biri, ölkəmizin birinci xanımı, Ulu Öndərin adını daşıyan fondun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva da Azərbaycanın bütün dünyada tanınması üçün çox mühüm işlər görmüş, mədəniyyətimizi dünyada tanıtmışdır. Onun sayəsində milli-mədəni sərvətimiz olan muğam dünya musiqi inciləri sırasına daxil olmuşdur.



Heydər Əliyev nəslinin daha bir üzvü olan Leyla Əliyeva babasının yolunu lyiqincə davam etdirir. O, gənc olmasına baxmayaraq, siyasətdə öz sözünü deməyi bacarır. Heydər Əliyev Fondunun vitse-prezidenti olan Leyla Əliyeva Xocalı faciəsinin dünyada tanınması üçün uğurlu addımlar atmışdır. Dünən Azərbaycanın adını belə tanımayan bir çox ölkələr bu gün erməni faşistlərinin Xocalıda törətdiyi qətliama hüquqi siyasi qiymət verərək soyqırım kimi tanıyır.

Bu il may ayının 10-da xalqımız xoş əməlləri ilə nəsillərin yaddaşına həkk olan, cismən aramızda olmasa da, ruhən nurlu əməlləri ilə qəlblərdə özünə taxt-tac qurmuş fenomen şəxsiyyətin, dünyaşöhrətli şəxsiyyət Heydər Əliyevin 90 illik yubileyini qeyd etməyə hazırlaşır. Bu yubiley dünyanın bir çox ölkələrində də təntənə ilə qeyd olunacaq. Çünki nə qədər ki, Azərbaycan yaşayır, Heydər Əliyev də olacaq!

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var.*
*Heydər: «Xalqım», – deyəcək,*
*Xalq: «Heydər», – söyləyəcək.*

Rahat yat məzarında, Heydər Babam! Nə qədər ki, sənin yurdunun layiqli davamçıları var, Azərbaycan daima çiçəklənəcək, inkişaf edəcək. İnanırıq ki, Sizi hər an narahat edən «Qarabağ düyünü» tezliklə çözüləcək, «çirkin siyasət» məğlub olacaq, Sizin və müqəddəs şəhidlərimizin ruhu işğaldan azad olan torpaqlarımızda rahatlıq tapacaq. Bütün qəlbimlə və ruhumla inanıram ki, bu xoşbəxt gələcək uzaqda deyil və biz də o yerləri ziyarət edə biləcəyik.




## *Rəhimli Fidan Mehman qızı*

***Bakı şəhəri, Heydər Əliyev adına liseyin IX sinif şagirdi***


*Ən böyük şəxslər özündən çox mənsub olduğu milləti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır.*

**Atatürk**

Heydər Əliyev haqqında – Azərbaycan xalqının ən çətin günlərində onu girdablardan qurtaran bir rəhbər haqqında yazıya hazırlaşarkən çox kitablara baxdım. Gördüm ki, bu böyük İNSAN haqqında ən böyük alimlərin siyasət adamlarının, yazıçı və jurnalistlərin ərsəyə gətirdiyi xeyli kitab var. Bu kitabların çoxuna internet portallarında baxdım. Amma mənim alim babamın da böyük kitabxanası var və o böyük kitabxananın bir bölümü Heydər Əliyevə həsr olunmuş kitablardan ibarətdir. Bu çoxsaylı kitablardan biri belə adlanır. «Lider. Dövlət.Cəmiyyət». Mən Türkiyənin və türk xalqının xilaskarı Atatürkün yazısını epiqraf seçdiyim fikirlərini o kitabdan aldım. Həm Atatürkün, həm də mənim Heydər babamın fikirlərinin bir-birini necə tamamladığı məndə qəribə bir heyrət yaratdı. Sanki mənim Heydər babam Atatürkün böyük şəxsiyyət haqqında neçə-neçə illər bundan əvvəl dediyi müdrik fikri hələ lap gənc vaxtlarından yalnız ona məxsus bir müdrikliklə həyat amalı seçmiş və on illərdən sonra yalnız xalq üçün, millət üçün, onun xoşbəxtliyi üçün yaşadığını dilə gətirmişdir. Lap gənc yaşlarında xalqa, vətənə, millətə xidmət inamı ilə yaşayan Heydər Əliyevin həyat yoluna nəzər salan ən böyük dünya siyasətçiləri onun haqqında bu sözləri demişlər: «Bu gün Azərbaycanı idarə edə biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir» (Z.Bjerinski); «Azərbaycanda nə varsa, hamısı



Heydər Əliyevin xidməti sayəsindədir.» (Süleyman Dəmirəl); «Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan firavan gələcəyin bünövrəsini qoymaqdadır.» (Bill Klinton); «Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir.» (Çingiz Aytmatov); «Ulu Tanrı Azərbaycan xalqının taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə biləcək, bütün düyünləri açmağa qadir olan böyük şəxsiyyət qismət edib.» (M.Rastrapoviç). Dünyanın böyük elm, sənət, siyasət xadimlərinin Heydər Əliyev haqqında yüzlərlə belə fikirləri var. Bu fikirlər böyük rəhbərin xalqa xidmət yolunda göstərdiyi şücaətlərdən doğmuşdur.

Tale elə gətirib ki, mən xalqımızın bir səslə «Ulu Öndər», «Ümummilli Lider», «Böyük İNSAN» və s. epitetlərlə qiymətləndirdiyi bu şəxsiyyətin unudulmaz adını özündə daşıyan bir məktəbdə – Heydər Əliyev adına liseydə oxuyuram. Hər səhər məktəbimizin həyətinə ayaq basanda onun lövhədəki adı qarşısında dayanıb düşünməmək olmur. Belə anlarda Ulu Öndərin birbaşa bizə – lap elə sanki bu məktəbin şagirdlərinə ünvanladığı sözləri xatırlamamaq olmur: «Milli vətənpərvərlik prinsipi, gərək, körpəlikdən hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun». Ümummilli Liderimizin bu fikrini bizə Azərbaycan tarixinin yaxın keçmişdəki acı günlərindən, xalqımızı imperiya qüvvələrindən, erməni hücumlarından xilas edərək bugünkü xoşbəxt çağa yetirən Heydər Əliyevin xidmətlərindən danışan tarix müəlliməmiz dəftərimizə yazdırıb.

Liseyimizin Heydər Əliyevin adını daşıması bizim üzərimizə böyük vəzifələr qoyur. Biz onun yolunu tutmaq, onun tövsiyələrinə əməl etmək üçün, bəlkə, onu hamıdan artıq öyrənməli, ona bənzəməyə çalışmalıyıq. Bəxtimiz onda gətirib ki, bizim məktəbimizin tez-tez çox maraqlı qonaqları olur. Elə bu tədris ilinin başlanğıcında Təhsil naziri Misir Mərdanov qonağımız oldu. Məktəbimizin yığıncaq salonunda o, bizə çox şeylər dedi. Onun fikirlərindən birini olduğu kimi yadımda saxlamışam. Nazir bugünkü uğurlardan danışdı və bu uğurların ən böyük ünvanı olaraq Ulu Öndərin xidmətlərini yada saldı. Nitqinin sonunda dedi: «Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var. Bu mənada biz dünyanın xoşbəxt xalqlarındanıq. Çünki bizim Heydər Əliyev kimi ümummilli liderimiz var».

Hələ aşağı sinifdə oxuyanda bu «Ümummilli Lider» ifadəsini yaxşı başa düşmürdüm. Yuxarı siniflərə keçdikcə, Azərbaycanın azadlıq, inkişaf yolu barədə müəllimlərimizin dərsdəki fikirlərini dinlədikcə, elmi kitablara bələd olduqca anladım ki, Ümummilli Lider bütün xalqın, millətin və bütün vətən övladlarının özünə rəhbər bildiyi, pənah gətirdiyi, ölkənin yaralarına məlhəm qoyub onu sağaldan, Azərbaycanı dünya miqyasına çıxaran bir

şəxsiyyətə verilən ən etibarlı addır. Heydər Əliyev bu şərəfli adı qazanmış bir insandır. «Ümummilli Lider» adını bu böyük şəxsiyyətə xalq verib. O xalq ki, Heydər Əliyev ömrünün bütün şüurlu illərini onun xoşbəxtliyinə həsr edib. Azərbaycanın keşməkeşli tarixini yaxşı bilən alim babamın sözündən-söhbətindən, çoxsaylı kitablardan öyrənmişəm ki, Heydər Əliyev Azərbaycanın müstəqilliyinə hələ sovet dövründə inanan, onu uzaqgörənliklə hissi edən bir rəhbər kimi ölkənin iqtisadi, mədəni, milli inkişafına xüsusi diqqət yetirib. İmperiyaya qarşı xalqımızın ölüm-dirim mübarizəsində Moskvada dünyanı odlara qalayan Qorbaçov siyasətinə qarşı üsyan etmiş, tutduğu böyük vəzifədən istefa verib ən çətin günlərdə xalqının yanında olmuşdur. Xalqımız onun siyasi təcrübəsini, vətənə, millətə olan sonsuz sevgisini nəzərə alaraq Azərbaycanda xaosun hökm sürdüyü günlərdə onu rəhbərliyə dəvət etmiş və axıradək ona kömək olmuşdur.

Heydər Əliyev xalqımızı çətin sınaqlardan – xaos və hakimiyyət davalarından, arxasındakı güclü dövlətin silahına güvənən Ermənistanın hücumlarından, ölkəni parçalanmaya sürükləyən daxili qüvvələrdən, aclıqdan və səfalətdən çıxarıb müasir, xoşbəxt günlərə gətirmiş bir rəhbərdir. Onun haqqında qiymətli fikirlər söyləyən xarici siyasətçilər və dövlət xadimləri məhz bu xidmətləri nəzərdə tuturlar.

Heydər Əliyevi həm də müasir Azərbaycanın memarı adlandırırlar. Bu da təbiidir, çünki Qazaxıstan prezidenti N.Nazarbayevin dediyi kimi «Heydər Əliyevin coşqun fəaliyyəti sayəsində bu gün dünyada tanınan, qəbul edilən bir Azərbaycan vardır.» Onun sayəsində Azərbaycan əbədi müstəqillik qazanmış, dünya dövlətləri içində layiqli yer tutmuş, Birləşmiş Millətlər Təşkilatının nəinki üzvü olmuş, hətta onun ən nüfuzlu Təhlükəsizlik Təşkilatına sədr seçilmişdir. Azərbaycan indi ən nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının üzvüdür. Deməli, tamamilə yeni bir Azərbaycan yaranmışdır və ona görə də Heydər Əliyev bu yeni Azərbaycanın memarıdır.

Heydər Əliyev özündən sonra böyük bir irs qoyub getmişdir. İndi bu irsi qoruyan və onu davam etdirən qiymətli bir varis – Azərbaycanın Prezidenti İlham Əliyev Azərbaycanı daha uca zirvələrə aparır. Azərbaycanın inkişafı xarici dövlətləri də heyrətləndirir. «Avrovizion» mahnı müsabiqəsinin, Avropa Olimpiya oyunlarının Azərbaycanda keçirilməsi ölkənin yeni inkişafının göstəricisidir. Bütün bu inkişaf və uğurlar Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycanın tükənməyən dövlətçilik, idarəçilik, ideya sərvətidir. Onun qoyub getdiyi bu mənəvi sərvətlər Azərbaycanın müstəqilliyinin və inkişafının əbədi qarantıdır. Onun ən böyük mükafatı isə xalq sevgisi, ümumxalq məhəbbətidir. Bu fikri Ümummilli Liderimiz özü daha yaxşı ifadə etmişdir: «Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim ölkədə mən özüm üçün başqa bir mükafat görmürəm.»



İndi Azərbaycan xalqı, habelə dünya azərbaycanlıları ulu öndər Heydər Əliyevin 90 illik yubiley ərəfəsini yaşayır. Bu da bir tale, bu da bir xoşbəxtlikdir ki, Ümummilli Liderimizin 90 illik yubileyi bizim dövrümüzə düşüb. Müstəqil dövlətimizin banisi, dövlət bayrağımızı uca göylərdə dalğalandıran, millətlər içində millətimizin imzasını yazan bu böyük İNSANIN keçdiyi həyat yolu bizim üçün Vətəni sevmək, xalqa səmimi xidmət etmək nümunəsidir.

Tarix müəlliməmiz bizə belə bir fikir söylədi:

– «Tarixdə iz qoymaq hər adama nəsib olmur. Amma ən böyük şəxsiyyətlər tarix yaradanlardır.»

Müəlliməmiz bunu deyərkən qarşımızda kövrəldi. Yəqin ona görə ki, tarix yaratmış Heydər Əliyev indi həyatda yoxdur.

Mayın 10-da xalqımız Heydər Əliyevin 90 illiyini qeyd etmək üçün Fəxri xiyabana – onun məzarını ziyarətə gedəcək. Bu ziyarətdə iştirak edən minlərin və milyonların biri də mən olacağam. Mütləq mən olacağam...



## Şahmuradova Əivanə Əfqan qızı

*Laçın rayonu, Güləbird kənd*
*tam orta məktəbin*
*IX sinif şagirdi*

Xalqın formalaşmasında, müəyyən uğurlar əldə etməsində tarixi şəxsiyyətlərin əvəzsiz rolu olub. Azərbaycan xalqı da bu baxımdan çox zəngin tarixi keçmişi olan bir xalqdır. Müxtəlif əsrlərdə xalqımızı öz ətrafında birləşdirən tanınmış dövlət adamları olub. Bunların içərisində xalqa daha yaxın və bağlı olan, iyirminci əsrin ən tanınmış siyasi dövlət xadimlərindən biri, ümummilli liderimiz Heydər Əliyevdir.

Tanınmış siyasi liderlərdən biri, Ukrayna Prezidenti Kuçma Heydər Əliyev haqqında demişdir: «Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi prezidenti var». Tanınmış şəxsiyyətlərin fikirləri dahi rəhbərimizə beynəlxalq səviyyədə inamın çox yüksək olduğunu bir daha sübut edirdi. Onu dünaynın ən uzaqgörən siyasətçisi kimi qəbul edirdilər.

Heydər Əliyev ilk dəfə ictimai-siyasi fəaliyyətə dünyaya göz açdığı Naxçıvan şəhərində başlamışdır. Qırxıncı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında Daxili İşlər Komissarlığında şöbə müdiri kimi fəaliyyətə başlamışdır. Min doqquz yüz qırx dördüncü ildən etibarən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Təhlükəsizlik Orqanlarında öz fəaliyyətini daha da təkmilləşdirmişdir. Vəzifə borcunu layiqincə yerinə yetirməsi, dövlətə sədaqəti Sovet rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək, min doqquz yüz altmış yeddinci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə irəli çəkilmişdir. Min doqquz yüz altmış doqquzuncu, ildə isə Azərbaycanın rəhbəri kimi daha böyük məsuliyyətli iş ona həvalə olunmuşdu.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda yeni quruculuq dövrünün əsasını qoyur. Heydər Əliyev hakimiyyətə gələrkən qarşısına belə bir məqsəd qoymuşdur». Öz xalqının yüksək inkişafını təmin etmək, Azərbaycanı dünyaya tanıtmaq».



Şair Zahir Abbasın Heydər Əliyev haqqında yazdığı şeirdən bir parça yadıma düşür:

*Sən yurduma bəzəksən, Günəşimsən, Ayımsan,*
*Baharımsan, yazımsan, payızımsan, yayımsan,*
*Havam, suyum, dənizim, dağlar aşan çayımsan*
*Sənə dönük çıxanlar öz odunda yanası,*
*Yurdumu xilas etdin, var ol, ay El atası!*

Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyev Azərbaycan dilinin inkişafına xüsusi fikir vermiş, yetmişinci illərdə Azərbaycan Konstitusiyasında dilimizin dövlət dili kimi işlənməsi ilk dəfə olaraq öz əksini tapmışdır. Eyni zamanda, Heydər Əliyevin səyi ilə Sovetlər birliyində ən böyük müəssisələrdən olan Bakı Kondisionerləri zavodu Azərbaycanda inşa edilmişdir. Bu müəssisənin məhsulları dünyanın qırxdan artıq ölkəsinə ixrac olunurdu. Həmin dövrdə Azərbaycanın iqtisadi inkişafına xüsusi fikir verilmiş, respublikamız on il ardıcıl olaraq Sovet Sosialist Respublikaları İttifaqının ən böyük – «Keçici Qırmızı bayraq» mükafatına layiq görülmüşdür. Bu uğurların əldə olunması Heydər Əliyevin dövlətimiz qarşısında göstərdiyi xidmətlərdən idi.

Heydər Əliyevin əldə etdiyi uğurlar Sovet rəhbərliyi tərəfindən qiymətləndirilərək Sovet Sosialist Respublikaları İttifaqı rəhbərliyinə irəli çəkilməsinə səbəb oldu. Heydər Əliyev beş il sovet rəhbərlərindən biri kimi dünya siyasətinin müəyyənləşməsində mühüm rol oynamışdı.

Nəriman Nərimanovdan sonra ikinci azərbaycanlı idi ki, belə böyük vəzifəyə irəli çəkilirdi.

Heydər Əliyev hansı vəzifədə çalışırsa, çalışsın öz xalqının mənafeyini qorumağı hər şeydən üstün tutmuşdur. Hakimiyyətdə olduğu dövrdə ölkəmizin inkişafına verdiyi töhfələr yüksək qiymətləndirilmiş, iki dəfə «Sosialist Əməyi Qəhrəmanı» adına layiq görülmüşdür.

Səksəninci illərdə ölkəmizdə siyasi vəziyyət kökündən dəyişmişdir. Sovet rəhbəri, ermənipərəst Mixail Qorbaçov yenidənqurma və aşkarlıq siyasi kursunu qəbul etməklə Azərbaycana qarşı təzyiqləri gücləndirmişdir. Özü üçün əsas maneə saydığı Heydər Əliyevi min doqquz yüz səksən yeddinci ildə istefaya göndərmişdir. Bundan istifadə edən tarixi düşmənlərimiz-ermənilər Dağlıq Qarabağda münaqişə ocağının əsasını qoydular. Azərbaycana qarşı təzyiqlər bundan sonra daha da gücləndirildi. Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılması Azərbaycana edilən haqsızlıqların artmasına səbəb oldu. Hakimiyyətdən təcrid olunsa da xalqının taleyini hər şeydən üs-

tün tutan siyasi xadim hakimiyyətin özbaşınalığına çəkinmədən cavab verirdi.

Heydər Əliyev min doqquz yüz doxsanıncı ilə qədər Moskvada çətin şəraitdə olsa da, özünü qoruya bilmişdi.

Ümummilli lider Heydər Əliyev üçün ən böyük ağrı xalqın, Vətənin ağrısı idi. Məmləkətin ayağına dəyən daş onun qəlbinə dəyirdi. Bu sözləri yazarkən min doqquz yüz doxsanıncı ilin qanlı İyirmi Yanvar faciəsi yadıma düşür. Azərbaycanın üstünə qoşun yeridiləndə, günahsız soydaşlarımız qətlə yetiriləndə Heydər Əliyev xalqımıza qarşı törədilən bu ağır cinayətə sakit yanaşa bilmədi. O, Moskvadakı daimi nümayəndəliyə gələrək İttifaq rəhbərliyinin vəhşi hərəkətlərinə qəti etirazını bildirdi. Həmin dövrdə qapalı həyat tərzi keçirməyə məcbur edilən insan üçün belə bir addımı atmaq, sözün əsl mənasında, qəhrəmanlığa bərabər idi.

Azərbaycan – Odlar diyarı odu sönməyə doğru gedəndə, başı üstünü qara buludlar alanda, öz doğma oğlunu – Böyük Heydərini səslədi, harayladı. Həmin çətin dönəmlərdə hər bir kəsin qəlbində yalnız bir inam vardı:

«Başımıza gələn bu dəhşətli fəlakətdən bizi yalnız Heydər Əliyev qurtara bilər!». O dövrdə belə bir şeir çox məşhur olmuşdur:

*Heydər ata, Tanrı sənə yar olsun,*
*Yollarında nə tufan, nə qar olsun!*
*Görən gözün, vuran qolun var olsun!*
*Bir əncam qıl Ana yurdun halına.*
*Bəlkə, bir gün zəfər himni çalına.*

Bəli, dünyada Heydər Əliyev kimi şəxsiyyətlər çox az-az tapılar ki, ölkənin və millətin ən acınacaqlı vaxtında hakimiyyətə gələ, həlli düyünə düşən taleyüklü məsələləri qısa müddətə yoluna qoya bilə. Bizim xoşbəxtliyimiz ondadır ki, Liderimiz fövqəladə qüvvəyə malik idi. Siyasətdə cəsarət, cəsarətdə siyasət yalnız o böyük insana – Heydər Əliyevə xas idi.

Heydər Əliyevin xalq arasında deyimə çevrilən «Mən bütün həyatımı xalqıma xidmət etməyə həsr etmişəm, bundan sonra da bu yolla gedəcəyəm, başqa yolum yoxdur. Vətənə, xalqıma, millətimə, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur», – fikri Vətənə olan sonsuz sevgisindən xəbər verir.

Doğrudan da, bu cür əqidəyə sahib insan yalnız müstəqil Azərbaycanın yaradıcısı ola bilərdi.

Çıxışlarından birində isə: «Gərək gənc kadrlarımız üzə çıxsın və iyirmi birinci əsrdə onlar bizim gördüyümüz işlərin, yaratdığımız bünövrənin, təməlin üzərində qalxan, ucalan və böyük bir dövlətə çevrilən Azərbaycanı irəliyə aparsın», – deyərdi. Bu məqsədlə Heydər Əliyev yaratdığı dövlətdə gənclərin təhsilinə də xüsusi diqqət yetirirdi. O: «Təhsil millətin gələcəyidir», – söyləməklə orta təhsilin daim yenilənməsinin tərəfdarı kimi istedadlı uşaqların təhsilinə geniş imkanlar yaradırdı.



Onu yaxından tanıyanların xatirələrinə görə, rəhbərimiz fenomen iş qabiliyyəti, enerjisi, həddən artıq məsuliyyətli və tələbkar olması ilə seçilirmiş. Gəlin bu fikirlə razılaşaq ki, Heydər Əliyev Tanrının Azərbaycana bəxş etdiyi əvəzsiz bir varlıq idi. O, ilahi qüvvəyə malik olmasaydı, bu qədər hərtərəfli bir fəaliyyətin sahibi ola bilməzdi. Həyatımızın bütün sahələrində Heydər Əliyevin silinməz izləri qalmışdır. Əlbəttə, Heydər Əliyevin xarici siyasəti Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqla məhdudlaşmır. Möhkəm iradəyə, güclü təfəkkürə, fenomen yaddaşa malik olan bu dahi şəxsiyyətin həyatının hər anı xalqımızın taleyi ilə bağlıdır. Onun mənalı həyat yolunu vərəqlədikcə «Heydər – xalq, xalq – Heydər» birliyinin şahidi oluruq.

*Sən elə bir zirvəsən, küləklər neyləyəcək,*
*Dünənim, bu günümsən, səninlədir gələcək.*
*Nə qədər Azərbaycan, nə qədər bu millət var,*
*Heydər: «xalqım!», – deyəcək, xalq: «Heydər!» – söyləyəcək!*

Azərbaycanın çoxəsrlik tarixində hələ elə bir dövlət xadimi olmamışdır ki, Heydər Əliyev qədər xalqımızın dərdi, sevinci ilə yaşasın, ömrünü vətənin qüdrətinə həsr etsin.

Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına, çiçəklənməsinə, nəhəng ölkələr arasında tanınmasına həsr etmişdir.

Xalqımız bu il ümummilli liderimiz Heydər Əliyevin doxsan illik yubileyini dövlət səviyyəsində qeyd edəcək. Bu, böyük Öndərə göstərilən ümumxalq məhəbbətinin əyani təcəssümüdür.

Nə qədər ki, Azərbaycan dövləti var, xalqımız yaşayır Heydər Əliyev də həmişə yaddaşlarda yaşayacaq.

Biz fəxr edirik ki, bu gün Heydər Əliyevin dövlətçilik irsini şərəflə davam etdirən, Azərbaycanı demokratik bir dövlət olaraq dünyaya tanıtdıran İlham Əliyev kimi dövlət başçımız var.



## *Nağıyeva Leyla Rəfail qızı*

***Bakı şəhəri, Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın X sinif şagirdi***

Allah Azərbaycan xalqını həmişə mükafatlandırıb. Allahdan mükafat aldığımız illəri saysaq, bizə nağıllarda deyildiyi kimi, üç gün, üç gecə vaxt lazımdır. Bunlardan birini mütləq deməliyik. Bu, xalqımıza 1923-cü il mayın 10-da verilmişdir. Qızmar günəşin yandırdığı, sərt qışın dondurduğu bir torpaq bu mükafatı – tanrı payını ərsəyə yetirdi və onu xalqına ərmağan etdi. «Çox şükürlər olsun!» – deyən xalq çətin günlərinin, ağır zamanlarının xilaskarı olan Heydər Əlirza oğlu Əliyevin ətrafında böyük rəhbərlə əl-ələ birləşməyi həmişə bacardı, ona inandı, ardınca getdi və yanılmadı da.

Xalqın taleyinin ən ağrılı illəri...

XX əsrin 90-cı illəri... Xaos... Anarxiya... Bu vəziyyətdə xalqı yenidən boyunduruq altına salmaq, zəlil etmək və ya möhkəm bir əlin köməyilə xilas etmək də olardı.

Biz, azərbaycanlılar bəxti gətirən xalqıq. Həmin vaxt bizim köməyimizə Heydər Əliyev gəldi, millətin başı üstündə durdu, həm bizi xilas etdi, həm də özünün dahiliyini, son dərəcə qabiliyyətli diplomat olmasını və böyük təşkilatçılığını sübut etdi.

Çətin, ağır günlərin intizarı uzun çəkmədi.

Millətin atası olan rəhbərimiz (hər rəhbərə millət atası deyilməz) xalqın başı üstündə günəş kimi parladı, şimşək kimi çaxdı, göy kimi guruldadı, bulud kimi yağdı, axır ki, xalqın bir yerə topladı, dağılmış, tökülmüş ölkəni birləşdirdi – bizi də öz ardınca aparmağı bacardı və dünyaya sübut etdi ki, Bill Klinton demiş: Yalnız Azərbaycana deyil, bütün dünyaya «rəhbərlik etməyə qadir diplomat»dır.



Artıq xalqın iradəsi ilə Heydər Əliyev ikinci dəfə hakimiyyət başına keçdi. Gənc dövləti tam bərqərar etmək üçün vacib, ağır, məsuliyyətli işlərə başladı.

Azərbaycan bir çox xarici ölkələrlə siyasi və iqtisadi əlaqələrin möhkəmlətdi, həm daxildə, həm də xaricdə diplomatik korpuslar yaratdı. «Bakı –Tbilisi–Ceyhan» layihəsi ilə ölkəsinin üstünə nəzərləri cəlb etdi, «bizlə hesablaşın» nidasını ucaltdı.

Bir milləti millət kimi şərtləndirən din, dil, ordu, sərhəd və s. məsələləri də unutmayan Ulu Öndər bu sahədə də məqsədyönlü işlər görməyə başladı.

Dilin inkişafı üçün verilən fərmanlar, məscidlərin tikilməsinə aid qanunlar, ordu quruculuğuna yenidən başlanılması, sərhəd və onun mühafizəsinin yaradılması Heydər Əliyev fenomenindən dünyanı xəbərdar etdi.

Tamam nüfuzunu itirmiş dil və mədəniyyət sahəsində də islahatlar keçirtməyi unutmayan Ulu Önədər bu sahələri də dirçəltdi. Bu sahələrdə çalışan insanlara verilən təqaüdlər, fəxri adlar, göstərilən dövlət qayğıları onları bir daha vahid dövlət ətrafında birləşdirdi.

*Bu illərdə düşməni dost etməyi bacardı bizim babamız*
*Bəzi düşmənləri diz çökdürməyi bacaran babamız.*

«Dünya beş günlükdür, hər gələn baxıb gedir», – demədi. Ulu Öndər baxıb gedənlərdən yox, qurub-yaradıb, onu nizamlayıb gedənlərdən oldu. İki əjdahanın, bir neçə çaqqalın əhatəsində gülüstan saxlayan, onu qoruyan, inkişafını təmin edən, Heydər babamız, zəhmətiniz itmədi. «Xalq – Heydər, Heydər – xalq», – deyəndən sonra bu zəhmət heç itərmi?

– Əlbəttə, yox.

Vətənimizin ərazisi əlverişli, yeraltı və yürüstü sərvətləri zəngin, nemətləri bol olduğu üçün həmişə üstündə böyük savaşlar olub. Bilirik ki, müharibələrdə xalqlar hər şeylərini itirə bilərlər. Tarixdən, torpaqdan əlavə dillərini, dinlərini itirən xalqlar da tanıyırıq. Əsas insan resursunu saxlamaqdır. İnsan və onun dili. Çox şükürlər olsun ki, xalqımız torpaqlarını bir hissəsini, dilini, dinini, müdrik insanlarını qoruyub saxlamağa qadir oldu. Əvəzində xalq bu nəğməni daim oxudu:

*Biz sənə işıq dedik,*
*Biz sənə Ulu Öndər dedik,*
*Biz sənə memar dedik,*
*Biz sənə quran, yaradan, dirçəldən dedik.*

Biz sənə böyük təşkilatçı, Ulu Öndər, yenilməz rəhbər, dahi insan dedik.

Siz də bizimlə fəxr etdiniz. Bizi göylərə yüksəltdiniz. Böyük hökmdarlara xas olan xüsusiyyətlərə məxsus bütün cəhətləri ərz edərək bizi qaldırdınız.

Böyük şairimiz Məmməd Araz bir misrasında deyib:

«Vətən mənə oğul desə, nə dərdim...»

Vətən Sizə oğul dedi. Bu kəlməni Siz öz işinizlə, öz əməlinizlə qazandınız. Biz də bu kəlməni «baba» sözü ilə əvəz edərək Sizə olan böyük məhəbbətimizi izah etməyə çalışdıq.

Azərbaycan və azərbaycançılıq.

Fikir köhnə və genişdir. Bu fikri birbaşa əməli hərəkata çevirən də Siz oldunuz, bizim babamız.

Sizə məxsus olan «Fəxr edirəm ki, azərbaycanlıyam», «Ömrümün qalan hissəsini xalqıma bağışlayacağam» kəlamları hər bir vətən övladının qəlbini qızdırdı.

Təntənəli, gurultulu, müdrik sözlər çox deyilib. Onları deyənlər çox olub, istifadə edənlər də. Öz sözünü kəskin şəkildə deyən, dediyə kimi yerinə yetirən, əməli nümunə göstərən bizim Ulu Öndərimiz kimi olar. Bunun üçün əvvəl Azərbaycanın adına layiqli səviyyəyə qaldırdı, yaratdığı Azərbaycana yenidən vüqarla baxdı, qürurlandı və bu sözlər ürəyindən keçib, beynindən süzülüb, dilindən izhar oldu: «Mən fəxr edirəm ki, azərbaycanlıyam.» Milyonlar bu sözün arxasınca getdi. Milyonlarda Vətən, millət sevgisi yenidən alovlandı. Məncə, əsl rəhbər belə olmalıdır. Bir sözündən minlər, milyonlar onun ardınca getməlidir. Getdi və yeni, müstəqil, azad, suveren Azərbaycan yarandı. Heydər Əliyev zaman etibari ilə bizdən çox əvvəl doğulub, mənəvi cəhətdən isə xalqın sonsuza qədər atasıdır.

Deyirlər, insan gücü, qüvvəsi sonsuzdur. Bu deyimi əsl reallığa çevrilən tək-tək insanlar ola bilər.

İkinci dəfə hakimiyyətə gəlməklə, millətinin imzasını millətlər içində təsdiq etməklə, həm də öz adını bu adlar içərisinə yazdıran Ümummilli liderimiz belə nadir şəxslərdən olub.

İllər keçib, Azərbaycanı dünya tanıyır, onunla hesablaşır. Biz də bununla fəxr edirik. Ancaq düşünəndə ki, bu, xalqın və Heydər Əliyevin gərgin əməyi nəticəsində başa gəlib, fəxarət hissim daha da artır. Başa düşürəm ki, tarixi şəxsiyyət yaratdığı kimi, şəxsiyyəti də tarix yaradır, onun üstünə öz imzasını qoyur.

Ümummilli liderimizin bir amalı da var idi: «Hər kəs öz ardıcılını yetişdirməlidir». Bu da onun müəllimliyi, ustalığındandır. Heydər Əliyev qurduğu, memarı olduğu Azərbaycanı gələcəkdə də istədiyi kimi görmək üçün öz ardıcıllarını yetişdirdi, tərbiyələndirdi. Bunların ən istedadlısı isə indiki Prezidentimiz İlham Əliyev oldu.



Bu gün müstəqil dövlətimizin bütün sahələrində o böyük şəxsiyyətin izi, nəfəsi, zəhməti görünür. Məhz Prezidentimiz İlham Əliyev də o yolu davam edir, Azərbaycan gündən-günə çiçəklənir, gözəlləşir, inkişafın zirvəsini fəth edir.

Mən adi şagirdəm. Lakin anlayıram ki, böyük siyasəti davam etdirən dövlət başçımız bizi bir daha həmin bataqlığa yuvarlanmağa qoymaz.

Nəticədə hər bir vətəndaş Sizin yaratdığınız Azərbaycanı Sizin kimi qorumalı, gələcək nəsillərə ötürməlidir.



## Cabbarova Aytən Nazim qızı

*Siyəzən şəhəri, Cəfər Cabbarlı adına tam orta məktəbin IX sinif şagirdi*

Qədim, çox qədim bir əfsanə var. Deyirlər, Səməndər adlı quş daima odlara qalanıb yanır, ancaq heç bir zaman ölmür, əbədiyyətə qovuşur. Dahilərin də ömrü nağıla, əfsanəyə bənzəyir. Mayası həqiqətdən yoğrulan, qayəsi nura söykənən, bir dünya ağlı, zəkanı özündə daşıyan bir həyat hekayətinə başlamaq istəyirəm. Bu hekayət fövqəlbəşər insan, türk dünyasının böyük oğlu, Azərbaycan xalqının milli iftixarı dahi Heydər Əlirza oğlu Əliyev haqqındadır.

Həyəcanlıyam. Ürək döyüntülərimi hiss edirəm. Öz fikirlərimi, hisslərimi, böyük rəhbərə olan sonsuz məhəbbətimi, yuxularımda daim mənə yol göstərən, mənə dayaq olan insanı necə canlandıracam? Bacaracağammı? Nə yazım, necə yazım ki, bu parlaq simanın, işıqlı insanın həyat yolunun azacıq bir zirvəsinə toxuna bilim.

Məhəbbətimi köməyə çağırıram.

Coşub-çağlayan düşüncələrimin fikir burulğanından saysız-hesabsız suallar doğur:

– Sən kimsən? Ey insan adının əsl mənasını bəşəriyyətə açan insan! Zamanın fövqündə dayanmağı, beş hərfdən ibarət bu kəlmənin dəqiq düsturunu verən dahi!

İnsan bilməyərəkdən dünyaya gəlir, istəmədən dünyadan köçür. Sənə bəxş olunan, ixtiyarında olan ömür payı isə sənin əlindədir. Necə yaşamalı, necə yaratmalı, necə ömür sürməlisən ki, yaddaşlarda iz buraxasan, daima xatırlanasan, axtarılasan, sənə ehtiyac duyulsun. Sən öyrətdin bunları insanlığa. Keçdiyin həyat yolunla.

İnsanın uşaqlığı necə olmalıdır, yeniyetməliyi necə olmalıdır, gəncliyi necə olmalıdır? Ahıl olmaq nə deməkdir? Sənin yaratdığın insanlıq düsturu bundan ibarət idi. Öz ömür yolunla bunları insanlığa açdın.



Bəli, mən sənin yaşadığın sirli-sehirli ömrün mənasını hələ də tam aça bilməyən insan selinə qoşularaq deyirəm ki, bu ömrün yaşam sehrinə hələ bundan sonra da çox nəsillər düşəcək və çoxları «belə bir ömür yaşamaq mümkündürmü?» sualını verəcək, həyati cavablar tapmağa, xalqının tarixi ilə bir yazılan ömrün sirlərini açmağa çalışacaqdır.

Tarixlər yadigarı Naxçıvan torpağında dünyaya gəldi Heydər Əliyev. Baharda doğulmuşdu. 1923-cü il mayın 10-u. Onun dünyaya gəlişi adi gəliş deyildi. Onu bizə Ulu Tanrı göndərmişdi, xalq, millət olaraq bizə əbədilik fəxarət duyğusu yaşatmaq üçün, bütün dünyaya türk oğlu türkün hakimlik etmək bacarığını nümayiş etdirmək üçün.

Sən doğuluşundan özünlə insanlığın bütün kriteriyalarını: ölçüsü olmayan məhəbbət, sədaqət, mərhəmət, xeyirxahlıq, dözüm, iradə, bacarıq, təşəbbüskarlıq gətirdin və bir ömür payında hamıya bərabər payladın. Bu paydan elə bir nəsil formalaşdırdın ki, onun parlaq nəticələrindən bütün dövrlərə pay düşdü. Elə bir nəsil ki, hələ cox əsrlərin arxasından boylanaraq deyəcəklər: – «Biz Heydər Əliyev nəslinin davamçılarıyıq, Heydər Əliyev irsinin tədqiqatçılarıyıq». Bəli! Sən təkcə öz zamanının övladlarını yox, bütün zamanların övladlarını tərbiyə etdin. Öz şəxsi nümunənlə, örnək olası həyat yolunla.

Belə deyirlər ki, bəzən dahilər də səhv edir, ancaq sənin həyatın səhvsiz idi. Sanki zərrə-zərrə, qram-qram ölçülüb-biçilmişdi həyat yolun.

Təhsil illərinə dönürəm. Əvvəlcə Naxçıvan Pedoqoji Texnikumu, daha sonra Azərbaycan Sənaye İnstitutu, Universitet illəri. Dərin elm, güclü hafizə, iti yaddaş təhsil illərindən qaynaqlanırdı.

İlk müəllimlərindən fəxrlə, qürurla danışardın. Əziz rəhbərim, mən bu gün səni həyata hazırlayan, Azərbaycan xalqına Heydər Əliyev kimi oğul bəxş edən müəllimlərinin ruhları qarşısında baş əyirəm.

18 yaşlı yeniyetmə bir gəncin 1941-ci ildən Naxçıvan MSSR Daxili İşlər Komissarlığında şöbə müdiri, 1944-cü ilin mayında isə Naxçıvanda vilayət partiya Komitəsi tərəfindən Dövlət təhlükəsizliyi orqanlarına işə götürülməsi və burada 1969-cu ilə qədər məsul vəzifələrdə çalışması Heydər Əliyevin şəxsində bizə təəccüblü görünmür. Çünki o, bu etimadı öz iradi keyfiyyətləri ilə artıq doğrultmuşdu. Bunun nəticəsidir ki, O, 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında dövlət Təhlükəsizliyi Komitəsi Sədrinin müavini, 1967-ci ildə isə Sədri vəzifəsinə irəli çəkilmişdir.

Nəhayət, 1969-cu il, iyul pleniumu və Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçildiyi il, ömrünü bütövlükdə xalqının taleyi ilə bağladığı il. Düzgün seçim uğurlu yolun başlanğıcı, Azərbaycan xalqının xoşbəxt gələcəyi idi. Öz xalqının psixologiyasına dərindən

bələd olan müdrik rəhbər Azərbaycanı qarış-qarış gəzərək böyük bir ordu yaratdı. Hamı hər yerdə bu sadə rəhbərin mehribanlığından, işgüzarlığından danışırdı.

Gəncliyi daima irəlidə görmək bu böyük insanın arzusu idi. Ona görə də vətənimizin balalarının xaricdə təhsil almasına xüsusi önəm verirdi. Təhsilə göndərilən gənclərin bu günün qurucuları olduğu hamıya məlumdur.

1969–1982-ci illər. Xalqımızın böyük oğlu, əfsanəvi insan Heydər Əliyevin yaratdığı Azərbaycan göz qabağında idi. Geridə qalan, heç yerdə tanınmayan, beynəlxalq arenada adı çəkilməyən Azərbaycan artıq cənnətə dönmüşdü. SSRİ deyilən Ümumittifaq miqyasında 15 respublika içərisində öndə gedirdi. Çiçəklənən Azərbaycanın yaratdığı xariqələr İttifaq rəhbərliyini Heydər Əliyev dühasından bəhrələnməyə, onun iş təcrübəsindən faydalanmağa sövq edirdi. Heydər Əliyev Moskvaya məsul vəzifəyə dəvət alır. Canı qədər sevdiyi, ürəyinin bir parçası olan doğma vətənini xalqına əmanət edib Moskvaya yollandı. Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsini icra etdi.

1982–1987-ci illər Heydər Əliyevin həyatının ən coşqun, məhsuldar, ən məsuliyyətli dövrüdür. Bu yorulmaz insan öz ağlı, zəkası, biliyi ilə İttifaqda da hamıdan seçilirdi. Saatlarla rus dilində söylədiyi çıxışlar rus natiqlərinin özlərini belə mat qoyurdu. Bu insanın heyrətamiz yaddaşına, iti ağlına, düşüncəsinə məəttəl qalırdılar. Xalqımız isə öz övladının məsul vəzifə tutması ilə öyünür, fəxr edirdi. Xalqının həyat tarixçəsini yazan şəxsiyyətin Azərbaycana 2-ci qayıdışı ilə bağlı ömür səhifələrini vərəqlədikcə ömrünün son 10 ilini şam kimi əridərək Azərbaycana sədaqətlə xidmət edən bu cəfakeş insanın, Ulu Öndərin böyüklüyü qarşısında səcdəyə gəlirsən.

1990-cı il yanvar ayının 20-də Azərbaycan torpağı göz yaşına bələndi. Təpədən-dırnağadək silahlanmış üzdəniraq «sülh ordusu» Bakıya girərkən dinc əhalini, əliyalın insanları gülləbaran etdi. Bakı qərənfil yağışına bələndi. O zaman hələ Moskvada yaşayan Ümummilli Liderimiz Azərbaycan nümayəndəliyinə gedərək etiraz səsini ucaltdı, bəyanat verdi. O həm də Azərbaycan xalqının müstəqilliyinin qazanılması uğrunda mübarizənin başlandığını anlayırdı. Bu yolun necə çətin, keşməkeşli olduğunu bildirdi.

Ulu Öndər 1993-cü ilin iyun ayında 2-ci dəfə xalqın tələbi ilə rəhbərliyə gələndə Azərbaycanda vəziyyət olduqca ağır idi. Ayrı-ayrı qüvvələr, «sapı özümüzdən olan baltalar», nadan siyasətçilər Azərbaycanı vətəndaş qarşıdurmasına sürükləyirdilər. Müstəqilliyimizin əldən getməsi, ölkəmizin parçalanması təhlükəsi yaranmışdı. Belə ağır vəziyyətdə xalq öz böyük oğluna üz tutdu, ölkəni bəladan qurtarmağa çağırdı. Xalqın səsinə səs verən bu



müdrik insan vaxtında vəziyyəti qiymətləndirməyi bacardı və özünəməxsus tərzdə bu xaosun qarşısını aldı. O, insan qəlbinin sərrafı idi. Ona görə də onun gələcəyi görə bilmək qabiliyyəti başqalarına nisbətən daha güclü idi.

Hərdən düşünürəm ki, səni kimə bənzədim? Sənin gördüyün əməlləri nə ilə müqayisə edim? Yoxdur elə bir varlıq! Yoxdur elə bir qüvvə! Tanıdın mənə elə bir insanı ki, sənin qədər iti ağla, parlaq zəkaya, bəşəri dünyagörüşə malik olsun. Verin mənə o müdriki ki, sənin qədər müdrik olsun. Göstərin mənə o lideri ki, onun kimi düzgün qərar qəbul edib, xalqını fəlakət burulğanından çıxara bilsin.Yoxdur elə lider! Yoxdur elə müdrik! Yoxdur elə insan! Sən müdriklərin müdrikisən. Sən sönməyən bir ulduzsan ki, işığından hamı bəhrələnir.

Sən mənim sevimli idealım, düşüncələrimin əzəli, əbədi qəhrəmanısan.

Saatlarla, əziz babam, sənə həsr olunan televiziya verilişlərinə, kinofilmlərə baxmaqdan yorulmuram. Haradan gəlir bu tükənməz enerji. Odlu-alovlu çıxışlarının bir cümləsini belə buraxmıram. Duruşunda, baxışlarında olan o qətiyyət, o mətanət məni əfsunlayır və bir daha əmin oluram ki, belə bir şəxsiyyət, belə bir oğul Allah tərəfindən, bəlkə də, neçə əsrdə bir dəfə göndərilir. Göndərilir ki, yer üzünün əşrəfi olan insan, insan olduğu ilə bir daha öyünsün, insan yarandığına görə fəxr etsin.

Sən sadiq idin xalqının dilinə, dininə, mədəniyyətinə, incəsənətinin qorunmasına, inkişafının təminatına.

Heydər Əliyev böyüklüyü ilk növbədə onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənəsinə bağlılığında, vətənpərvərliyində idi. O, əsl azərbaycanlı idi. Tez-tez təkrar etməyi xoşlayırdı: «Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam».

Bir azərbaycanlı olaraq Heydər Əliyev xalqının əmin-amanlığını düşünür və bu fonda ölkənin dinamik inkişafına çalışırdı. Ona görə də ilk növbədə 1994-cü ilin mayında torpaqlarımızın erməni işğalçıları tərəfindən işğal olunduğu bir dövrdə atəşkəsə nail oldu.

1993-cü il noyabr ayının 2-də müasir ordu quruculuğunun əsası qoyuldu.

1994-cü il 20 sentyabr. Neft hasilatı ilə bağlı «əsrin müqaviləsi»nin imzalandı.

1995-ci il 12 noyabr. Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi.

2002-ci il 30 sentyabr. Azərbaycan Respublikasının Dövlət dili haqqında qanun qəbul olundu.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin inşasının əsası qoyuldu.

Bunlar Heydər Əliyev uzaqgörənliyinin, dühasının nəticələri idi.

Uğur uğur gətirdi. Kadrları öz yerində görə bilmək bacarığı, xalqının hər bir övladına olan sonsuz inam, etibar bu uğurların təminatçısı idi.

Ey böyük şəxsiyyət, nadir insan, sən cənnətmisal Azərbaycan arzulayırdın ki, bu gün arzuların çin olur. Canından artıq sevdiyin Azərbaycanın taleyini, gələcəyini öz qanından, canından olan, sənin genefondunu daşıyan, Heydər Əliyev məktəbi keçən, xalqının taleyükünü çiyinlərində apara bilən İlham Heydər oğlu Əliyevə tapşırdın. «Mən ona özüm kimi inanıram» – ifadəsi vətənin taleyi ilə bağlı nigaran baxışları əritdi. Heydər Əliyev qarantı oldu. İnam özünü doğrultdu.

Bu gün İlham Əliyev, onun ömür-gün yoldaşı Mehriban Əliyeva qurucusu olduğun Müstəqil Azərbaycanı inamla irəli aparır. Hesaba gəlməyən qələbələrimiz var. Azərbaycan möhkəm dayaqlar üzərində dayanıb, daima yeniləşməyə, müasirləşməyə can atır.

Böyük iqtisadi və siyasi güc qazanan Azərbaycanla beynəlxalq aləmdə hesablaşırlar. Saysız-hesabsız körpülər salınır, kəndlər, şəhərlər abadlaşır, əzəmətli binalar ucaldılır.

Vətənimiz dünya miqyaslı qələbələrə imza atır. Ölkəmiz xarici qonaqlara öz qoynunu açır, dünya səviyyəsində mahnı müsabiqələri keçirir, süni peykini orbitə göndərir, olimpiya oyunlarını Azərbaycana gətirir.

Arxayın ol, mənim müdrik babam. Azərbaycanımız etibarlı əllərdədir.

Hər dəfə Bakıya yolum düşəndə sənin ziyarətinə gəlirəm. Mənim əvəzolunmaz liderim. Ürəyim doludur. Sənə saatlarla Azərbaycanımızın cahcəlalından, firavan həyatımızdan, xoş günlərimizdən danışmaq istəyirəm.

Bu il sənin 90 yaşın tamam olur. Yenə gələcəyəm sənin səcdəgahına. Ad gününü təbrik edəcəyəm. Uğurlarımızdan danışacağam, nağılabənzər həqiqətlərimizdən söhbət açacağam sənə. Deyəcəyəm ki, əziz lider biz sənin qoyduğun yolla gedirik. Bu yolun başlanğıcı Heydər Əliyev, bu günü Heydər Əliyev, gələcəyi Heydər Əliyev yoludur.

Ey xalqımın xilaskar oğlu! Azərbaycan adlı əmanətini göz bəbəyitək qoruyacaq, onun üstündən kiçik bir yel əsməsinə belə yol verməyəcəyik.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var*
*Heydər: «Xalqım», – deyəcək,*
*Xalq: «Heydər», – söyləyəcək!*









**_Hacızadə Aytac Mirzəbala qızı_**
**_Bakı şəhəri, Əfqan Əliyev adına_**
**_125 nömrəli tam orta məktəbin_**
**_VIII sinif şagirdi_**

*Göylər üçün yaranıbdı üfüqlərin şahini.*
*Analardı yetirən yenilməzi, dahini.*
*Özünə dost elədi Tanrını, İlahini,*
*Tanrılara qovuşan, fələklərə yetəndi.*
*Nə qədər zirvələr var, hamısını ötəndi*
*Ömrün Heydər zirvəsi!*

**Z.Yaqub**

Bəşər tarixi boyunca hər bir xalqın həyatında elə dəyərli, dahi şəxsiyyətlər olmuşdur ki, o, daim xatırlanmış, zaman-zaman xalqın ictimai-siyasi şüurunda dərin, silinməz izlər salmışdır. Azərbaycan xalqının həyatında belə bir şəxsiyyət məhz ulu öndərimiz Heydər Əliyev olmuşdur. Əsrlər boyu xalqımızın azadlıq və istiqlaliyyətini qorumağı bacaran, onun maraqlarını düşünən liderə ehtiyacı, arzusu Heydər Əliyev simasında reallığa çevrilmiş, ömrümüzün Heydər zirvəsinə dönmüşdür.

Tarix sübut etmişdi ki, ölkəmizin müstəqilliyi və bütövlüyü dəfələrlə daxili və xarici düşmənlərin təcavüzünə məruz qalmışdır. Belə həlledici məqamda çıxış yolu tapılmışdır: Dünyanın təcrübəli siyasətçisi, Azərbaycan SSRİ tərkibində olduğu çətin bir dövrdə xalqı üçün böyük işlər görmüş müdrik insan Heydər Əliyev xalqın tələbi ilə dövlət başçısı seçilmişdir. Müstəqillik tarixindən danışanda bu dahi şəxsiyyətin xalqı üçün gördüyü işlər inkaredilməzdir.

Tariximizin şanlı səhifəsi – müstəqilliyimizin möhkəmlənməsi və çiçəklənməsi Heydər Əliyevin adı ilə bağlıdır. Hakimiyyətin qurucusu və özülü sayılan, xalqın tələblərini daima duyan, düşünən öndərimiz Heydər Əliyev

qətiyyətlə demişdir: «Azərbaycan xalqının müstəqilliyini heç bir qüvvə onun əlindən ala bilməz. Azərbaycanın müstəqilliyi dönməz və əbədidir...»

Heydər Əliyevin xalqı və dövləti üçün etdiyi xidmətləri: «Əsrin müqaviləsi», «Böyük ipək yolu», «atəşkəs» rejimi respublikanın ictimai-siyasi, mədəni sahədə yüksək inkişafı və neçə-neçə xalqın rifahına yönəlmiş mütərəqqi addımlar, xalqımızın qələbəsi, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Ulu tanrının bizə qiymətsiz hədiyyəsi olan bu insanın nurlu siması, aydın düşüncəsi, qətiyyətli hərəkətləri onu xalqın gözündə daim ucaltmışdır. Məqsədi, amalı xalqın rifahına, səadətinə yönəlmiş ömür yolunda: «Mən xalqıma arxalanıram! Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» kəlmələrini fəxr, səmimiyyətlə söyləyən elin müdrik oğlu öz işi, əməlləri ilə bir daha təsdiq etmişdir ki, o hətta dünyasını dəyişəndən sonra belə müqəddəs ruhu ilə xalqın ilham mənbəyidir, el atasıdır. Çünki onun işıqlı ideyaları daim, əbədiyyən yaşayacaq, fikirləri bizim qəlbimizin davamlı zəfər zirvəsi olacaqdır.

Heydər Əliyevin Azərbaycan xalqı üçün atdığı uğurlu addımlar saysız-hesabsızdır. Gərgin işdən yorulmaq bilməyən, öz ömrünü fədakarcasına xalqına bağışlayan, əsl vətəndaş kimi hərəkət edən Ulu Öndərimiz xalqı bir çox çətin vəziyyətlərdən xilas etmişdir. Daxili və xarici çəkişmələrə idrakı, ağıllı siyasəti ilə son qoyan, ölkədə əmin-amanlığın, demokratiyanın təminatçısı olan Heydər Əliyev «Dünyada ilin adamı» fəxri adının ləyaqətli sahibidir.

Heydər Əliyev dahilərin dahisi, memarların memarı, dilçilərin dilçisi, natiqlərin natiqi, musiqiçilərin musiqiçisi, əsl insanlıq mücəssiməsi idi.

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Əbədiyaşar Hüseyn Cavidi doğma torpağımıza qovuşduran xeyirxahımız, Heydər Əliyev!

Sanki bu dürr süzülən kəlmələri böyük şairimiz uzaqgörənliklə Sizə ünvanlamışdı.

Bəli, Heydər Əliyev siyasəti nəticəsində ölkəmizdə sülh bərqərar olmuşdur. Anaların göz yaşına, şəhidləri uyuyan torpağın hayqırtısına laqeyd yanaşa bilməyən dahi rəhbərimiz ölkədə sülhün, sakitliyin, dinc quruculuğun yaranması üçün gərgin əmək sərf edərək yorulmadan çalışmışdır.

Heydər Əliyev ali tribunalardan dünyaya Azərbaycan həqiqətlərini élan etmiş, düşmən, xain namərdləri sərt baxışı ilə susdurmuşdur.

«El bilir ki, sən mənimsən...» – deyə Azərbaycanı tərənnüm edən, qəlblərdə qürur hissi doğuran, həmçinin kövrək, titrək səslə «Azərbaycan! Azərbaycan!» kəlmələrini söyləyərkən Heydər Əliyevin nurlu simasında sönməz şəfəqi təsvir etməkdə qələm acizlik çəkir. Heydər Əliyevin işıqlı portreti onun mavi gözlərindən süzülüb gələn təmizlik, paklıq, insanlıq tamamlayır. Tanrı tərəfindən məharətlə işlənmiş bu portretini hər bir Azərbaycan vətəndaşının gözü önündə Azərbaycan rəmzi kimi əbədi əks olunacaqdır. Çünki bütün dünyada Azərbaycan dedikdə Heydər Əliyev siması canlanır:



*O kəsmişdir millətin fəryadını, ahını,*
*İşığa qərq etmişdir vətənin sabahını.*

Bu dahi şəxsiyyət hər bir sahədə bizim ilham mənbəyimizdir. Hal-hazırda ürəklərdə döyünən, qəlblərdə yaşayan Heydər Əliyev gələcək qələbəmizin rəmzidir. Azərbaycan, xalq rəmzi kimi əbədidir.

*Vətən mənim bu günüm,*
*Sabahkı toy-düyünüm,*
*Haqqım var ki öyünüm,*
*Azərbaycan deyəndə!*
*Ürəklərdə döyünüm,*
*Azərbaycan deyəndə!*

Biz inanırıq ki, Heydər Əliyevin əmanəti olan Azərbaycan xalqı tezliklə Qarabağ torpağını mənfur düşmənlərdən azad edəcək. Biz bu qələbəni Heydər Əliyev qələbələrinin zəfər zirvəsi adlandıracağıq.

Heydər Əliyev yolunu inamla, layiqli davam etdirən, xalqımızın ilhamverici oğlu, bizi yeni-yeni qələbələrə səsləyən Prezidentimiz İlham Əliyev xalqı, dövlətimizi qətiyyətlə idarə edir. Xalqın tərəqqisini düşünən prezidentimiz Azərbaycanın gələcəyini məhz bu cür xarakterizə edir: «Müdrik Heydər Əliyevin əsəri olan müasir Azərbaycan bundan sonra da güclənəcək, zənginləşəcək, hərtərəfli inkişaf edəcəkdir». Xalqın etibarını qazanmış, ürəklə, ədalətlə, sabaha böyük inamla hərəkət edən Prezidentimiz müstəqilliyimizin əbədiliyi, torpaqlarımızın bütövlüyü üçün çalışır və xalqına sadiqliyini nümayiş etdirir. Eli, yurdu olan Azərbaycanla fəxr edən bu insan xalqı ilə birdir, həmfikirdir. Vətənə olan sonsuz məhəbbətini daima hərəkətləri ilə sübuta yetirir.

Mən bir azərbaycanlı kimi əminəm ki, müdrik xalqımız resublikamızın tarixi üçün son dərəcə əhəmiyyətli olan qarşıdakı prezident seçkilərində düzgün seçimini edəcək, onu qəlblərə, xoş sabahlara aparan, doğma Qarabağımızı, iyirmi faiz işğal altında olan torpaqlarımızı mənfur düşməndən

azad etməyə çalışan və Aərbaycanı möhtəşəm musiqi, idman, iqtisadi və siyasi layihələrlə dünyaya daha da tanıtdıran bir şəxsə-hörmətli Prezidentimiz İlham Əliyev cənablarına səs verəcəkdir.

Bu gün gündən-günə inkişaf edən, daha da müasirləşən, sivil dünyanın qabaqcıl ölkələri sırasında addımlamağı qarşısına başlıca məqsəd qoyan ulu vətənimiz – doğma Azərbaycanımız – Heydər Əliyevin ən böyük şah əsəri olan müasir Azərbaycan Ulu Öndərin yadigarı, əmanətidir. Əmanətə isə xəyanət olmaz. Qədirbilən xalqımız bu əmanəti göz bəbəyi kimi qoruyur və onun sahibinin adını əziz, müqəddəs tutur. Buna görədir ki, torpağımızdakı ziyarətgahlar sırasına bir ünvan da qoşulmuşdur. Bu, ulu Heydər Əliyev ziyarətgahıdır. Başımızın tacı olan, qəlbimizə nur bəxş edən, yolumuzu işıqlandıran bir ziyarətgah, bir ocaq:

*Baxıram ellərə, yenə*
*sel-sel, axın-axındı.*
*Bu yerdə Haqq evinə*
*insan daha yaxındı.*
*Şair, sən də qəlbini*
*yandır indi, yax indi.*
*Dərdinə əlac oldu,*
*Heydər ziyarətgahı.*
*Başımıza tac oldu*
*Heydər ziyarətgahı.*

**(Z.Yaqub)**

Bu ziyarətgahdan başlanan yol bizi Azərbaycan adlı ulu məmləkəti böyük, xoşbəxt bir gələcəyə aparır, yeni-yeni qələbələrə səsləyir.





## *Mehdiyeva Vəsilə Vüqar qızı*

***Bakı şəhəri, 6 nömrəli məktəb-liseyin IX sinif şagirdi***

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan?*
*Azərbaycan! Azərbaycan!*

Mövzuya başlamamışdan öncə gözümün önünə bir anlıq göz yaşları ilə Səməd Vurğunun «Azərbaycan» şerini deyən qürurlu, vətənpərvər insan gəldi. Könül candan ayrılmadı, Ulu Öndər. Həyat Sizi bizdən cismən ayırdı.

Milyonların sevgisini qazanmaq hər rəhbərə qismət olmur. Heydər Əliyev şam kimi xalq yolunda yana-yana daş qəlbləri yandırdı, alovlan-dırdı. Heydər Əliyev insanlara vətəni sevməyi, ona sədaqətli olmağı öyrətdi.

*Bir oğul yetirmiş Vətən torpağı,*
*Millətin yolunda əsgərə bənzər.*
*İdrakı, ilhamı, qəddi-qaməti*
*Qürbətə, torpağa, məhvərə bənzər.*

Heydər Əliyev deyərdi: «Mən həmişə üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə, bir də xalqıma». Bu amala sadiq qalan vətənpərvər, şərəfli insan daim xalqı müdafiə etmiş, Vətən oğlu kimi xalqı düşmən bəlalarından qəhrəmancasına xilas etmişdi.

*Xalqının düşdüyü ağır günlərdə,*
*Yaradan yetirdi, sizi köməyə.*
*İnam eşidildi hər bir sözündə,*
*Qoymadı nahaqdan qan tökülməyə.*

Xalq Heydəri sevirdi, çünki Heydər də xalqını sevirdi.

Mən hələ IX sinifdə oxuyuram. Bəlkə də, hal-hazırda kifayət qədər həyat təcrübəm yoxdur. Amma əlimə bir kağız, bir qələm verib, desələr ki, Heydər Əliyevi təsvir et, məncə, nəinki bir kağız, bir ömür belə buna yetməz. Müsabiqəyə qatılarkən çox düşündüm. Axı mən bu dahi insanın etdiklərinin hansından söz açım? Bilmirəm ona ata deyim, baba deyim, xilaskar deyim, lider deyim... Onu bilirəm ki, xalq üçün yaşayan, xalqını sevən Dahi Şəxsiyyətdir. Atamı necə sevirəmsə, Heydər babanı da o cür sevirəm. Çünki atam məni necə qoruyursa, Heydər baba da Azərbaycanı elə qoruyurdu. Bu yerdə Azərbaycanın məşhur şairi Mirvarid Dilbazinin şeiri yerinə düşür:

*Bir xalqın başında, aqil, mötəbər,*
*Tədbirli bir başçı durmasa əgər,*
*O xalqı qurd nədir, canavar yeyər.*

Məşhur alim J.Dalamber belə demişdir: «Əsl namuslu adam ailəsini özündən, vətənini ailəsindən üstün tutan adamdır». Deməli, ailəsini sevən şəxs vətən üçün şam ömrü yaşayandır.

Heydər Əliyev uzaqgörən, ədalətli prezident olmaqla yanaşı, sədaqətli həyat yoldaşı, nümunəvi ata idi. O, həyat yoldaşı Zərifə Əliyeva ilə uzun ömür yaşamış, ata kimi isə övladlarını vətənpərvərlik ruhunda tərbiyə etmişdir. Məhz bunun bəhrəsidir ki, indi İlham Əliyev atasının yolunu məharətlə davam etdirir.

Yadımdadır beş yaşım var idi. Ailəm çox kədərli idi. Əlbəttə, o vaxt hələ körpə olduğuma görə heç nə bilmirdim. Yaxınlaşıb atamdan bunun səbəbini soruşdum. Atam mənə kədərli baxışlarla baxıb cavab verdi: «Qızım, bu gün, tarixə adını iri hərflərlə yazmış dahi şəxsiyyət Heydər Əliyevin son mənzilə yola salındığını gündür. Sən indi heç nə başa düşmürsən, ancaq vaxt gələcək sən hər şeyi başa düşəcəksən».

O günlərdə xalq, qanadı qırılmış quş kimi çarəsiz idi. Sanki ümid işığı sönmüşdü. Əlbəttə bu böyük bir itki idi. Xalq öz xilaskarını itirmişdir. Ancaq birdən-birə hər şeyə dəyişdi. İlham Əliyev ümid işığı kimi sanki xalqı oyatdı. O, atası kimi ədalətli siyasət yürütdü, yürüdür və yürüdəcək də.

*Bir oğul böyütdü-oğul deyirəm,*
*İşıqlı sabahın açarı onda.*
*Bir ev sevinmədi, bir el sevindi,*
*Heydər davamçısı, İlham olanda.*

Deyirlər, insanın ürəyi yumruğu boyda olur. Ancaq bu fikirlə razı deyiləm. Çünki Heydər Əliyevin gördüyü işləri, etdiyi yaxşılıqları, xeyirxahlıqları bir araya toplasaq, bir dünya boyda ovuc alınar. Deməli, ürək bir ovuca sığa biləcək dünya imiş. Əgər əlimə bir sehrli çubuq verib desələr ki, sadəcə bir insanı geri qaytara bilərsən, mən əlbəttə ki, Heydər Əliyevi seçərdim. Çünki mən onun qarşısında diz çöküb sadəcə bir şey demək istəyirəm: «Nə yaxşı ki, varsınız! Sağ olun ki, qarşınıza bu qədər çətinliklərin çıxmasına baxmayaraq, igidcəsinə vuruşdunuz və xalqı müdafiə etdiniz. Biz sizinlə fəxr edirik. Amma çox təəssüf ki, bu, bir xəyaldır. Ancaq Heydər Əliyev daima mənim ürəyimdə əvəzolunmaz, dahi bir insan kimi ölənə qədər qalacaq. Mən hərdən özümə sual verirəm: «Görəsən, mən Vətənimi Heydər Əliyev kimi sevə bilərəmmi». Xeyr. Əlbəttə ki, sevirəm, amma, onun kimi sevə bilmərəm. Heydər Əliyev xalqı üçün canından da keçməyə hazır idi. O deyirdi: «Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram».



*Xalq ilə titrəyən, xalq ilə gülən,*
*Səmimi bir insan, nə bəxtiyardır...*
*Vətənçün yaşayan, vətənçün ölən,*
*Səmimi bir insan, nə bəxtiyardır...*

Atalar yaxşı deyib: «Güc birlikdədir». Heydər Əliyev daim xalqı bir olmağa, həmrəy olmağa çağırırdı. O düşünürdü ki, əgər xalq bir olsa, bütün çətinlikləri dəf edə bilər. Məhz buna görə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü onun təşəbbüsü ilə qeyd olunur.

Heydər Əliyev daim xalqı düşünürdü. Bəzən də xalqın istəyi ilə qərarını verirdi. Məhz buna görə dünya siyasətçiləri Heydər Əliyevə qibtə edirdilər, hələ də edirlər. Ukraynanın sabiq prezidenti Leonid Kuçma belə demişdir: «Sizə, həqiqətən, qibtə edirəm Heydər Əliyeviç! Siz Azərbaycan xalqı tərəfindən qəbul edilmiş lidersiniz!

*Həmişə qartala qibtə etmişəm,*
*Öz zəfər himnini çalır zirvədə.*
*Nə qədər düşsə də ucalığından,*
*Enəndə yenə də qalır zirvədə.*

Mən fəxr edirəm ki, bizim qibtə olunan, cəsur, qorxmaz, vətənpərvər Liderimiz olub. Heydər Əliyev gələcək nəsillərə örnək ola biləcək ömür salnaməsi yaratdı. Bu dahi şəxsiyyət ulduz kimi parıldayaraq dünyaya işıq saçdı və zaman keçdikcə bu ulduzun parıltısı daha da şöləmənərək bizim mayakımız olacaq. İndi Azərbaycanın hər yerində Heydər Əliyevin əzəmətli abidəsi ucaldılır. Mən əminəm ki, vaxt gələcək bu dahi şəxsiyyətin abidəsi Şuşada, Qarabağda ucaldılacaq. Altından iri hərflərlə bu sözlər yazılacaq: «Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən Azərbaycanlıyam».



## *Cəbrayılova Leyla Eynulla qızı*

***Kürdəmir şəhəri, Tofiq İsmayılov adına 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

Bu gün mənim şagirdlik həyatımın ən möhtəşəm günüdür. Ona görə ki, həyatım boyu sevdiyim, hörmət etdiyim, bütün həyat və fəaliyyətini dərindən öyrəndiyim, ən əsası, mənim qəlbimin və Azərbaycan xalqının əbədi qəhrəmanı, ölməz sərkərdəsi – Heydər Əliyev haqqında inşa yazacağam. Qəlbim sevincdən çırpınır, üzümdə səbəbini bilmədiyim təbəssüm oyanır, əllərim sözümə baxmayıb titrəyir. Düşünürəm, görəsən, necə yaza bilərəm? Hansı sözlər Heydər Əliyev şəxsiyyətinin ucalığını, nail olduğu uğurların mahiyyətini, Azərbaycan xalqını qovuşdurduğu işıqlı dünyanı əks etdirə bilər? Bu suallara cavab tapmaq üçün fikirləşəndə Heydər Əliyevə olan məhəbbətimin necə başladığını xatırladım.

Birinci sinifdə ilk dərs günü idi. İlk dəfə məktəbə gəlmişdim. Anamın əlindən bərk-bərk yapışmışdım. Anam qorxduğumu hiss eləyib tez-tez deyirdi: «Qorxma, qızım, bura sənin ikinci evindir». Məktəbin dəhlizində bir az gəzindikdən sonra təhsil alacağım sinfə daxil olduq. Sinifdəki bütün uşaqlar mənə baxırdılar, mən isə anama. Ön sırada əyləşib ətrafa göz gəzdirməyə başladım. Bir azdan müəllim sinfə daxil olub, salamlaşdıqdan sonra bizimlə tanış olmağa başladı. Növbə mənə çatanda ayağa qalxdım. Bir az həyəcanlı idim. Özümü təqdim etmək istəyəndə lövhənin qarşısındakı portreti görüb: «Heydər baba», – dedim. Hər şeyi ilə mənə çox yad olan bu məktəbdə tanıdığım, mənə yaxın olan tək şey bu oldu – Heydər Əliyevin portreti. Hələ də o an necə sevindiyim yadımdadır. Müəllim məndən Heydər Əliyevi hardan tanıdığımı soruşdu. Mən də ona Heydər Əliyevin babamız, xilaskarımız, Azərbaycanımızın qoruyucusu, qəlbimin taxt-tacının sahibi olduğunu dedim. Bunları mənə anam öyrətmişdi, Heydər Əliyev sevgisini mənə anam aşılamışdı. Müəllim və sinifdəki uşaqlar mənə təəccüblə baxırdılar. Mən isə Heydər babamın da mənimlə olduğunu bilib, daha qorxmurdum. Birdən bir neçə ay əvvəl anamın mənə öyrətdiyi şeir yadıma düşdü və mən bütün sinfin qarşısında ucadan və böyük bir iftixar hissi ilə bu şeiri səsləndirdim:



*Sən elə bir zirvəsən,*
*Küləklər neyləyəcək?*
*Dünənim, bu günümsən.*
*Səninlədir gələcək!*

O gündən 9 il keçməsinə baxmayaraq, mənim Heydər Əliyevə olan sonsuz sevgim, ehtiramım zərrə qədər azalmamış, qəlbimdə onun həyatına, gördüyü işlərə, sahib olduğu zirvəyə qibtə hissi ilə alovlanan məşəl heç vaxt sönməmişdir. Bu heç mümkün də deyil! Hələ altı yaşımdan kiçik bir qızın qəlbinə toxuna bilən, mənim uşaqlıq aləmimin, mənəvi dünyamın yeganə tanışı olmuş bu insanı yada salmamaq, onu unutmaq mümkün ola bilərmi? Əsla! Bu səbəbdəndir ki, bu gün əlimə qələm-dəftər götürüb qəhrəmanımın, getdiyi hər yeri işıqlandıran, aldığı hər nəfəsdə xalqını gələcəyə, yaşamağa, azadlığa bir addım da yaxınlaşdıran varlığı ilə bizə düzgün insan olmağı, yaşadığımız vətəni sevməyi, onu qorumağa borclu olduğumuzu göstərən bu dühanın mənə və xalqıma öyrətdiklərindən, biz gənclər və bizdən sonrakı nəsillər üçün nümunə olacaq bir ömür yolundan söhbət açmaq istəyirəm.

Heydər Əlirza oğlu Əliyev. Azərbaycanın mərhum prezidenti. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Azərbaycan xalqının dahi oğlu. Üçrəngli bayrağımızla birlikdə hər zaman zirvələrdə dalğalanacaq bir lider...

*Qızınırıq nəfəsinin istisinə,*
*İnanırıq bizlər sənin haqq səsinə.*
*Vüqarınla, qüdrətinlə dağ çək düşmən sinəsinə*
*Sənsən bizim ümidimiz, pənahımız, Heydər baba!*

Bəzən insan belə anları özündə də müşahidə edə bilir. Çox çarəsiz, yorğun olduğunuz bir vaxtda özünüzü çox tənha hiss edirsiniz. Əlinizdən tutacaq, sizi düşdüyünüz qaranlıqdan çıxaracaq kimsənin olmadığına inanırsınız. O an bir nəfər belə gəlsə, təkcə bir insan əlinizdən tutsa, «Mən səni tək buraxmaram» – desə, sanki bütün dünyanı yanınızda hiss edəcəksiniz. O insan isə sizin qəhrəmanınız olacaq. Bilirsiniz, Heydər Əliyev də Azərbaycan xalqını düşdüyü boşluqdan çıxaran yeganə qəhrəman oldu. Xalqının həm yadelli düşmənlər, həm də «Sapı özümüzdən olan baltalar»

tərəfindən boğulan, məhv olan səsinə səs verdi. Vətənimizin dar günündə köməyinə çatan müdafiəçimiz 1993-cü il oktyabrın 3-də ikinci dəfə hakimiyyətə gəldi. O gündən etibarən, sözün əsl mənasında, öz qüvvəsini itirmiş, aciz, başsız qalmış Azərbaycanın yaralarını sağaltmaq, onu ayağa qaldırmaq üçün əsrlər boyu yaddaşlardan silinməyəcək xidmətlərinə başladı. İlk növbədə, xalqımız üçün böyük utanc və bədbəxtçilik olan qardaş qırğınına son qoydu. 1994-cü ildə atəşkəsə nail olmaqla xalqın yaralarına məlhəm oldu. Elə həmin ildə tarixə «Əsrin müqaviləsi» adı ilə daxil olan neft müqaviləsi imzalandı. Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsinin gerçəkləşdirilməsi, 1998-ci il Böyük İpək Yolunun bərpası tədbirləri Azərbaycanın iqtisadi və siyasi qüvvəsini qazanması yolunda atılan addımlar idi. Dahi öndərimiz Heydər Əliyevin gördüyü işlər, həyata keçirdiyi saysız-hesabsız nailiyyətlərdən sadəcə bir neçəsini sadaladım. Onun bütün həyat fəaliyyətini danışmaq istəsəm, əvvəlcə qələmimi tükənməz mürəkkəbli qələmlə dəyişdirməli, dəftərimin vərəqlərini yazdıqca artırmalıyam. Çünki ömrünü xalqının azad, müstəqil yaşaması uğrunda mübarizəyə həsr edən bir dühadan yazmaq saatlara, günlərə, həftələrə sığmaz.

Bütün bir ömrünü xalqına həsr etmək. Vətənini yer üzündəki hər şeydən uca tutmaq. Sanki hər dünyaya gələn övlad, hər adı Heydər olan insan bunu bacara bilir? Xeyr! Bu yalnız Heydər Əliyevə aid bir zirvədir. Bunu hər kəs bacara bilməz. Onun kimilər dünyaya yüz ildə bir dəfə gəlir və cismi ilə birlikdə köçüb getmir. Bu nəyin nəticəsidir? – Bilirsinizmi? Bu dediklərim nə pul ilə alına bilər, nə də ki, zorakılıqla əldə edilər. Bu insanın ən müqəddəs, toxunulmaz hissləridir. İnsanların birləşib xalq olması, xalqın vahid əqidəyə itaət etməsinin nəticəsidir. Bu bizim xalqımızın böyüklüyü, kimliyidir.

*Sənin kimi tarixlərdə yer əvəzi, göy əvəzi tanımıram.*
*Mənim uca tariximdə zirvələrin zirvəsisən.*
*Hər il, hər ay, hər gün – tarix boyu meydandasan.*
*Millətimin ürəyində nəsil-nəsil göyərən ilk məhəbbətsən.*
*Sən nağıla, əfsanəyə çevrilmiş bir həqiqətsən.*

Heydər babam, mənim əvəzsiz qəhrəmanım! Sənə minnətdaram! Mənə, xalqıma, millətimə azad bir vətən, yaşamaq üçün müstəqil bir torpaq qoyub getdiyin üçün Sənə sonsuz təşəkkür edir, qarşında baş əyirəm! Xalqımızın savadlı, elmli olması üçün savadsızlığın, cahilliyin kilid vurduğu beyinləri aydınladıb, bizi zəncirlərimizdən azad etdiyin, təhsilin inkişafına böyük bir cığır açdığın üçün də təşəkkürlər! Ən əsası, yoxluğunun Azərbaycan xalqının sinəsinə çəkilmiş bir yara kimi qalmasına icazə verməyərək özün kimi



layiqli bir davamçı qoyub getdiyin üçün sənə özüm və bu gün mənim yerimdə olmaq istəyən milyonlarla Heydər Əliyev davamçısı adından bir daha təşəkkür edirəm!

Bizim xalqımız qədirbilən xalqdır. Buna heç kimin şübhəsi ola bilməz. Ümummilli liderimiz, Heydər babımız bu gün bizimlə deyil, lakin bu, o demək deyil ki, o yaşamır. Bəli, Heydər Əliyev bizimlədir. O, bizim qəlbimizdə yaşayır. Gəzdiyimiz hər qarış vətən torpağında, nəfəsimizə çəkdiyimiz havada yaşayır. Bu gün bizdən qoparılmış, qəddarca vətənin bağrından ayrılmış torpaqlarımızda – Ağdamda, Şuşada, Kəlbəcərdə, Laçında, Qarabağda yaşayır.

Mən bu gün IX sinifdə oxuyuram. Gələcəyə aid ümidlərim, əldə etmək istədiyim hədəflərim var. Əlbəttə, zirvələrə qalxmaq hər kəsin arzusudur, lakin həyat mübarizə aparanda mənalı olur, arzularla yaşayanda yox! Sözsüz ki, mən Heydər Əliyevin fəth etdiyi zirvələrə çata bilmərəm, amma mübarizə aparmaq daim insanı öyrədir. Mən inandığım, uğrunda mübarizə aparmağa dəyən heç nədən əl çəkmirəm. İnanıram ki, bir gün əzəmətli, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq. Mənim Liderim də baxıb xilaskarı olduğu bu millətin nələrə qadir olduğunu görəcək. Bunun uğrunda mübarizə aparacağıma söz verirəm! Heydər baba demişkən: «Mən fəxr edirəm ki, Azərbaycanlıyam!»



## *Tanrıverdiyeva Gülçin Elçin qızı*

***Ağstafa şəhəri, Asif Abdullayev adına 2 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

Vurğunu olduğum Azərbaycan nağıllarındakı qəhrəmanlarımın güclü və dəhşətli varlıqlarla – divlərlə vuruşması, mübarizəsi, sondakı qutuluşu məni həmişə sevindirmiş, sanki bir boy da ucalmışam. O zamanlardan mənə tanış olan «qurtulmaq» kəlməsi mənim söz aləmimdə «sağ qalmaq», «xilas olmaq», «yaşamaq», «davam etmək» anlamında başa düşülür.

İllər ötdü, 15 iyun – Qurtuluş Günü kimi qeyd olunanda uzun müddət «nədən qurtulduq?» sualı məni düşündürdü və nəhayət, nağıllardakı qəhrəmanlarımın qurtuluş anlamını bu tarixlə müqayisə etdim: həmin gün mənim məmləkətim – Azərbaycan qurtuldu, yəni var oldu.

*Yüz-yüz itən ol,*
*Min-min də bitən var*
*Şükür eləyəlim ki,*
*Bizlərdən həm əvvəl,*
*Həm sonra Vətən var.*

... və mən bu yazımda bu Qurtuluşu bizə bəxş edən kəsdən – xilaskarımızdan danışacam.

Mən VIII sinifdə oxuyuram. Sinfimizdə ulu öndərimiz Heydər Əliyevin oğlu ilə – prezidentimiz İlham Əliyevlə üzbəüz portreti asılıb. Hər dəfə o şəklə baxanda qəribə hislər keçirirəm. Ulu Öndərimizin anadan olması, uşaqlıq illəri məktəbə getməsi, uşaqlarla münasibəti, onun bizim yaşda olarkən keçdiyi həyat tərzi...

Və xəyalımda yaşatdığım bu insanın vətən sevgisindən başlanan istəyindən, şəxsiyyət səviyyəsinə yüksəlməyindən, özünün vətənləşib amala çevrilməsindən, vətən timsalına dönməsindən danışmaq istəyirəm...

İnsan var ki, 80 il, 100 il yaşayır, amma nə yaxşı ad qazanır, nə də yaxşı iz qoyur. İnsan da var ki, yaşadıqca özünün şəxsi istəyi, şəxsi arzusu, milyonların şəxsi istək və arzularında əriyir, yoxa çıxır, şəxsiyyət səviyyəsinə yüksəlir.



*Bir böyük amala vurulan zaman*
*Özünü yenidən yaradır insan.*
*O böyük amalın çağırış səsində*
*Qayğılar əriyir, məqsəd doğulur*
*Özünü yaratma mərtəbəsində*
*İnsan kamilləşir, şəxsiyyət olur.*

İstər institutda oxuduğu illərdə, istər Naxçıvanda Daxili İşlər Komissarlığında işə qəbul ediləndə, istərsə də Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyətə başladığı illərdə diqqəti cəlb etmişdi. Nəyi ilə? İlk növbədə, işgüzarlığı, yorulmaq bilməyən inadı, qüsursuz nitqi və ən ümdəsi inamı ilə.

Məhz bunun nəticəsidir ki, 1969-cu ildə Azərbaycan Mərkəzi Komitəsinin I katibi seçildi. O zamanlar Heydər Əliyev həm quruculuq işlərində, həm də mədəniyyət sahəsində böyük uğurlar qazandı.

Heydər Əliyev yaxşı bilirdi ki, dünyada mövcud olan 13 iqlim tipinin 9-u bizim vətənimizdədir. Həmçinin Azərbaycan nefti, pambığı, üzümü və s. maddi nemətləri ilə zəngin bir dövlətdir. Azərbaycanın bu zənginliyini dünyada nümayiş etdirmək, dünyanın diqqətini Azərbaycana yönəltmək Heydər Əliyevin üzərinə düşdü.

1982-ci ildə Sov.İKP MK-nın siyasi büro üzvü seçiləndə də, Nazirlər soveti sədrinin I müavini təyin olunanda da Azərbaycanı düşünmüş, qayğısını əsirgəməmişdir. Sanki tələsmiş, görəcəyi işlər üçün ömrünün çatmayacağını hiss etmişdi.

*Vaxt var ikən dünyaya bax!*
*Baxıb doymasan belə,*
*Bir divara daş qoy,*
*Çiçək iylə....*
*..... Vaxt var ikən.....*

1990-cı ilin 20 Yanvarı... Qanlı qırğınlar, qərənfil yağışı, çarəsiz insanlar... Ürəklər onu istəyir, gözlər onu axtarırdı. Bu zaman Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə bəyanat göndərdi. Dediklərinin arxasında durduğunu sübut etmək üçün Sovet İKP sıralarını tərk etdi.

Azərbaycanda baş verən qarışıqlıqdan istifadə edən erməni qəsbkarları daha da quduzlaşırdı. Qızıl torpaqlarımızı ələ keçirir, yağmalayırdılar, hər gün evlərə yas xəbərləri gəlirdi.

...Və o qayıtdı! Çünki Vətənin sönmüş ocağını alovlandırmaq, sahibinə – millətin özünə qaytarmaq lazım idi. Qaranlığı qovmaq, zülməti onun öz dili ilə boğmaq lazım idi. Elə bu məqsədlə Heydər Əliyev Azərbaycanı yenidən ucaltmaq üçün ağır və əzablı mübarizəyə atıldı.

*Çıraq ol! Nurunu artır günbəgün*
*Hər yerdə həyatın boğ zülmətini.*
*Məncə, çıraq olub başqalarıyçün,*
*Yananlar tapıbdır səadətini.*

Naxçıvanda Ali Məclisin sədri vəzifəsində çalışdığı müddətdə Naxçıvanı erməni işğalından qorudu, oranı blokadadan çıxarmağa çalışdı. Həmin vaxt Türkiyə ilə əlaqə yaratdı və yeni körpü inşa etdirdi «Ümid körpüsü» . Daha sonra İranla münasibətləri düzəltdi, «Şahtaxtı – Podəşt» adlı körpü tikdirdi.

*Əzizim, Ordubada,*
*Yol gedir Ordubada*
*Sərkərdə igid olsa,*
*Verməz ordunu bada.*

1990-cı il Heydər Əliyevin həyatının ən gərgin dövrü idi. Ulu Öndərimiz Azərbaycanda baş verən hadisələrlə bağlı olaraq SSRİ rəhbərliyini ittiham edir, hadisələri Qorbaçovun adı ilə bağlayırdı və bu hadisələrə siyasi-hüquqi qiymət verilməsini tələb edirdi.

1993-cü il... Azərbaycan coşmağa hazırlaşan bir dənizi xatırladırdı. Əgər bu dəniz coşsaydı çox şey olardı... Bu dalğaların qarşısında qaya kimi sərt, möhkəm qüvvə, güc tələb olunurdu. Bu gücə, qüvvəyə xalq bələd idi. Bu gücün qarşısında aciz qalan rəhbərlərimiz onu Bakıya dəvət etdilər.

Ulu Öndərimizin özünün də dediyi kimi, O, həyatının qalan hissəsini də xalqına həsr etdi.

Heydər Əliyevin həyat yolunu vərəqlədikcə ona daha da heyran oluram. Bilirsiz niyə? Çünki o, vətənə gərəkli olduğunu bilirdi. Bildiyi üçün də gecəsi gündüz, qışı yaz oldu, yaşadı və yaşatdı.

Heydər Əliyev danışdıqca sanki görmədiyim Şuşanı,Qarabağı, Kəlbəcəri görürəm. Daşaltı çayının şırıltısını, Şuşa bülbüllərinin səsini eşidirəm, sanki bir boy da ucalıram.

Eşq olsun əməli, ürəyi ilə xalqı yaşadıqca yaşayan Vətən oğullarına!

Heydər ömrü hər yeni nəsillə doğulacaq, ömrü xalqın ömrünə qarışacaq. Heydər Əliyev Azərbaycanın özünə ucaltdığı ən böyük abidədir.

Mənim oxuduğum VIII^ sinfi rayonda vətənpərvərliyi ilə şöhrət qazanmışdır. Elə bizim sinfin şagirdləri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə tədbirə hazırlaşır. Tədbirimizin adı belə olacaq: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam».





## Eyvazov Süleyman Vilayət oğlu

**Bakı şəhəri, Tahir Həsənov adına**
**23 nömrəli tam orta məktəbin**
**X sinif şagirdi**

*Elə şəxsiyyətlər var ki, bütöv bir millətin həyatında silinməz izlər qoyaraq, öz xalqına başçı olmaq üçün doğulmuşdur. Yəni fövqəlbəşər insanlar, fenomen şəxsiyyətlər elə dahi kimi də doğulurlar.*

**Jak Lokan**

Zəhmətkeş, ağıllı, bacarıqlı, səbirli insanlar yüksək mənəviyyata mənsub olduqda zaman və məkan daxilində də dahilik zirvəsinə yüksəlirlər. Bəşəriyyətin yetirdiyi belə dahilərdən biri də Heydər Əliyevdir.

Düzü, mən Heydər Əliyev haqqında yazmağa başlayanda bir anlıq çətinlik çəkdim. Düşündüm ki, bu dahi şəxsiyyətin islahatları, tədbirləri haqda çox yazılıb və danışılıb. Ona görə də bu dahi şəxsiyyətlə olan səmimi münasibətimdən, onun həyati faktlarından yazmağı daha məqsədyönlü bildim.

Türk dünyasının bütün yaşamı və tarixi boyu yetirdiyi ən cəsarətli, ən bacarıqlı, ən yaddaqalan şəxsiyyətdir Heydər Əliyev. Siyasət aləminə bahar günəşi kimi gəlmişdi. Bahar günəşi yatmış torpağa can verən kimi, Heydər Əliyev də öz xalqını oyatdı, ona can verdi, azadlıq, müstəqillik bəxş etdi, üçrəngli bayrağımızı Avropanın köksünə sancdı. Azərbaycanı dünyaya tanıtdı.

Heydər Əliyev çıxışlarının birində demişdi: «Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir».

O, şərəfli həyat yolunu seçmişdi. Bu həm də Ulu Tanrının onun üçün seçdiyi yol idi. Həyatda tarixi missiyasını yaxşı başa düşən Heydər Əliyev yaşamağın mənasını yalnız öz xalqına ləyaqətlə xidmətdə görə bilərdi. Bu çox uzun və əziyyətli bir yol idi. Bu yolda sevinc də vardı, kədər də, qələbə də vardı, məhrumiyyət də, eniş də vardı, yoxuş da, məhəbbət də vardı, xəyanət də.

Sovet imperiyasının ən qüdrətli liderlərindən biri olduğu vaxtda da, göz dustağı kimi yaşadığı dönəmdə də, yenidən hakimiyyətə qayıtdığı zamanda da heç dəyişmədi Heydər Əliyev. Elə əvvəlki məğrur və qətiyyətli, iradəli və inadkar, hər şeyə qane olan, pisliklə heç vaxt barışmayan bir şəxsiyyət kimi qaldı Heydər Əliyev.

Hamının tanıdığı, amma heç kəsin tanımadığı bir möcüzə idi Heydər Əliyev. Bu möcüzənin sirri-sehri nədə idi? Heydər Əliyev gücü, qüdrəti bitib-tükənməyən enerjini haradan alırdı? Kimliyindən, şəxsiyyətindən asılı olmayaraq qarşısındakını öz iradəsinə necə tabe edirdi? Heydər Əliyev fenomeni hələ dünyanın yeddi möcüzəsi kimi çox ürəkləri fəth edəcək, amma sirri heç vaxt açılmayacaq.

Bu qoca dünyamız çox dahi şəxsiyyətlər görüb. Onların arasında türk oğlu Heydər Əliyevin həmişə sayılıb seçilən, çox uca məqamı olacaq. Çünki Heydər Əliyev özü bu dünyaya bir dərs verib getdi. Diplomatiya dərsi, natiqlik dərsi, bacarıq dərsi, yaşamaq dərsi. Heydər Əliyev ən böyük müəllimdir. Ən böyük tarixçi, ən böyük iqtisadçı, ən böyük memardır.

Heydər Əliyev tarixi yazmırdı. Onu öz qüdrətli çiyinlərində irəli aparırdı. O, memarlıqdan mühazirə oxumurdu. Memarlığın ən gözəl nümunələrini yaradıb öz xalqının gələcək nəslinə ərmağan edirdi.

Heydər Əliyev tarixi yaradırdı. Yaxşı bilirdi ki, tarix adlanan salnamədə sonradan heç bir dəyişiklik etmək olmaz, ona görə də bu salnamənin səhifələri gərək təmiz yazılsın, heç bir ləkəyə yol verilməsin.

Heydər Əliyev Azərbaycanın üzünə Avropanın qapılarını açdı. Azərbaycanı sivil dünyaya qovuşdurdu.

Bəli, adı müasir tariximizdə qızıl hərflərlə yazılan Heydər Əliyevi yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran günəşlə, bir də qartal məskəni olan, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək olar.

Doğrudan da, Heydər Əliyev çox dramatizmlə dolu bir həyat yaşayıb. Onun həyatı tarixin əks qütblərinin üz-üzə gəldiyi bir dövrə təsadüf edir. Bəzən sarsıntılar keçirsə də, bəzən tənha qalsa da, mübarizələrdən çəkinməyib. Çünki aydın görünürdü ki, o, haraya üz tutursa, oraya işıq salır.



Heydər Əliyev ömürlük bir həyat məktəbi, həyat dərsliyidir. Bu məktəb əyilməzlik, cəsarət məktəbidir. Bu məktəb, bu dərslik bizə öyrədir ki, həyatı sev, onun mübarizə dolu yollarında bəzən büdrəsən də, bəzən çətinliklərlə üzləşsən də, inamını itirmə və unutma ki, həyat, əlbəttə ki, bu böyük və mənalı həyat yalnız təmiz insanları sevir, səadət də onlarındır, gələcək də.

Böyük ideyalar necə qalib gəlir? Fədakarlıq olmayan yerdə, həqiqi qəhrəmanlıqdan tökülən qanın iz salmadığı yerdə böyük ideyaların qələbəsindən danışmaq olmaz.

Ümummilli liderimiz dəfələrlə həyatını təhlükəyə ataraq, ölümün gözünə dik baxdı. Bununla da özündən sonra gələn nəslə qəhrəmanlıq simvolu oldu. Heydər Əliyev fədakarlıq simvolu kimi bütün xalqın yaddaşında əbədi yaşayacaq.



## *Cavadova Gülnar Şahin qızı*

***Yevlax şəhəri, Qəmbər Məmmədov adına 4 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Azərbaycan! Odlar yurdum! Şairlərimizin ilham mənbəyi, igidlərimizin uğrunda ölümə belə hazır olduğu müqəddəs Vətən! Tarixdə izi qalan, sözü qalan, «qoca Şərqin qapısı», ana torpaq, sən nə qədər müqəddəssən, ülvisən, doğmasan. Ta qədimdən naxələf, nankor düşmənlərin hədəfinə çevrilmisən. Lakin heç vaxt yağılara boyun əyməmisən. Çünki bu torpağın qopuzu ilə oğuz igidlərini qəhrəmanlığa çağıran Dədə Qorqud kimi müdrik el ağsaqqalı, 40 il qul kimi yaşamaqdansa, bir gün azad yaşamağı üstün tutan Babək kimi azadlıq aşiqi, öz sözü və qılıncı ilə Vətənini birləşdirən Şah İsmayıl Xətayi kimi igid, cəsur sərkərdəsi, nərəsi ilə düşmənin bağrını yaran Koroğlu kimi igidi olub. Xalq həmişə ən ağrılı günlərində ağıllı, cəsarətli oğullarına arxalanıb.

XX yüzilliyin sonlarında ölkəmiz ağır günlər yaşayanda, qanımız bahasına əldə etdiyimiz müstəqilliyimiz təhlükə altında olanda Azərbaycan öz oğlunu harayladı.

Azərbaycan çox bəlalar görüb. 20 Yanvar faciəsini yaşadıq, torpaqlarımızın 20%-ni itirdik. Saysız-hesabsız şəhid verdik, vətəndaş müharibəsi ilə qarşılaşdıq. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan öz müstəqilliyini qoruyub saxladı, iqtisadi dirçəlişə, inkişafa nail oldu. Onun qayıdışı ilə xalqımızın başı üzərindən qara buludlar çəkildi, sülh, amin – amanlıq bərpa olundu. Əbəs yerə deyilmir ki, Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu, banisi, memarıdır.

Tariximizə «böyük qurucu» və «böyük xilaskar» kimi daxil olmaqla ölkə həyatının bütün sahələrində əldə olunmuş misilsiz nailiyyətlərin əsasını qoyan Heydər Əliyev dövlətin hər bir vətəndaşı üçün mübarizliyin, xalqa təmənnasız xidmətin və dövlətçiliyin simvoluna çevrilmişdir.



Heydər Əliyev elmi, təhsili, incəsənəti sevir, bu sahələrə «həmişə diqqətlə yanaşırdı. O, gənclərə böyük qayğı ilə yanaşır, onları həmişə diqqət mərkəzində saxlayırdı.

Ulu öndər Heydər Əliyev azərbaycanlı olduğu üçün özünü xoşbəxt sayırdı. Azərbaycan xalqı da bütün dünyanın qibtə edəcəyi Heydər Əliyev kimi lideri olduğu üçün xoşbəxt idi.

1923-cü il may ayının onunda Naxçıvanda anadan olan, elə orada ilk təhsilini alıb, ali məktəblər bitirən, sonra müxtəlif idarələrdə çalışan Heydər Əliyev 1969-cu ildə Azərbaycan KP MK-ya I katib seçildi. Özünün bacarığı və istedadı ilə tez bir zamanda diqqəti cəlb etdi. Onun hakimiyyəti dövründə uzun müddət davam edən gerilik aradan qaldırılmış, dövlət planları ardıcıl olaraq həyata keçirilmişdir.

Heydər Əliyev ikinci dəfə – 1993-cü il 15 iyunda hakimiyyətə gəlməsə idi, bu günkü müstəqil Azərbaycan da olmazdı.

Tanrı böyük şəxsiyyətləri böyük işlər üçün yaradır. Hər bir xalqın tarixində belə şəxsiyyətlər çox olub.

Bütün ömrünü doğma xalqının yolunda əridib, damla-damla yanaraq şöləsi ilə xalqın qaranlıq yolunu işıqlandıran şəxsiyyətin adı pozulmaz hərflərlə tarixin daş səhifəsinə yazılır. 90 il bundan öncə qədim Naxçıvan torpağında dünyaya göz açanda yalnız iki nəfəri – anasını və atasını sevindirmiş, sonradan böyük bir xalqın sevgisini qazanmış Heydər Əliyevin adı Azərbaycan xalqının tarixi salnaməsinə qızıl hərflərlə həkk olunmuşdur.

Tanrı ondan heç nəyi əsirgəməmişdi. Kamil insan üçün nə lazımsa, hər şeyi böyük səxavətlə vermişdi ona. O, siyasət üçün yaranmışdı. Siyasət aləminin sərkərdəsi idi Heydər Əliyev.

Müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbulu, «Əsrin müqaviləsi» sayəsində Azərbaycan neftinin dünya bazarına çıxarılması, «Bakı–Tbilisi–Ceyhan» neft kəmərinin tikintisi – bu nəhəng işlər Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir.

«Öz ana dilini bilməyən insanlar şikəst insanlardır», – deyən və Azərbaycan dilini sevən Heydər Əliyev bir-birinin ardınca sərəncam və fərmanlar imzaladı, Azərbaycan dilinin inkişafı haqqında qanunlar hazırlandı, tətbiq olundu.

Heydər Əliyev xalq üçün, vətən üçün o qədər işlər görüb ki, onu kiçik bir inşada sadalamaq çox çətindir. Görünən dağa bələdçi lazım deyil. Heydər Əliyevin gördüyü işlər bu gün göz önündədir.

Heydər Əliyev hər birimizin mehriban, qayğıkeş babası idi. O, bizim arxamız, dayağımız, gücümüz, qüvvətimiz, bir sözlə, mənəvi atamız idi. Ona olan sevgim ümmanlara sığmayacaq dərəcədə böyükdür.

O insanlar sevilir ki, onlar sevməyi bacarır, o insanlara heykəl qoyulur ki, onlar yüzlərlə heykəl ucaldır. O insanlar yaşayır ki, onlar milyonları yaşadır. Heydər baba məhz belələrindən idi.

Azərbaycanı beynəlxalq nüfuza çatdıran, müstəqilliyimizi əbədi, dönməz və sarsılmaz edən, ölkəmizin gücünün, qüvvətinin yüksəlməsinə nail olan bu böyük insan bu gün aramızda yoxdur. Amma Heydər Əliyev bu dünyadan köç edəndə qədirbilən xalqımızın qəlbini özünə əbədi məskən seçmişdir. Bu əvəzolunmaz insanın unudulmaz xatirəsi Azərbaycan xalqı yaşadıqca yaşayacaqdır. Qarşıdan Ulu Öndərimizin 90 illik yubileyi gəlir. Hər il olduğu kimi xalqımız onun doğum tarixini bayram təntənəsi ilə qeyd etməyə hazırlaşır. Mən bu inşamda bu böyük dahi haqqında az da olsa öz ürək sözlərim ifadə etmək fürsəti qazandığım üçün özümü xoşbəxt sayıram. Mən bu müsabiqədə qalib olsam da, olmasam da, özümü indi mənən çox rahat hiss edirəm, çünki neçə vaxtdan bəri ürəyimə yığılıb qalmış bu sözləri bu gün burada – bu gözəl məkanda – Azərbaycanın gözəl xanımlarından biri olan Zərifə xanım Əliyevanın adını daşıyan bu liseydə sətirlərə çevirdim.

Əziz babam, Sizin adınıza açılmış fondun tikdirdiyi bu əzəmətli liseydə inşa yazmağın ayrı həyəcanı var.

Yeri gəlmişkən, bu günlərdə gözəl alim, mehriban ana və sədaqətli ömür-gün yoldaşı olmuş Zərifə xanım Əliyevanın doğum günü xalqımız tərəfindən böyük sevgi ilə qeyd olunur. Zərifə xanım həm istedadlı həkim, həm görkəmli alim, həm də xoşbəxt ana idi.

*Ana var – qəlbinin odu, atəşi,*
*Sevgisin paylasan çatar cahana,*
*Belə vətəndaşdı, belə anaydı,*
*İlhamı dünyaya bəxş edən ana.*

Heydər Əliyevin – unudulmaz liderimizin vəfatı bizi nə qədər sarsıtsa da, onun yolunu davam edən layiqli bir şəxsin olması bizdə gələcəyə böyük inam hissi yaradır. İlham Əliyev andiçmə mərasimində atası Heydər Əliyevə müraciət edərək dedi: «Əziz prezident, əsərin olan Azərbaycanın müstəqilliyini qoruyacağıq, möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik. Sizin siyasətinizlə böyük qələbələrə doğru gedəcəyik».

Qarşıdan prezident seçkiləri gəlir. İnanırıq ki, seçicilər ən layiqli namizədə, Heydər Əliyev ideyalarının davamçısı, ölkə prezidenti İlham Əliyevə səs verəcəklər. Çünki o, əməlləri ilə xalqımızın lideri olduğunu sübut etmişdir.

Heydər Əliyev... O bir günəş idi. O günəş ki, çiskinli havada peyda oldu və bütün ölkəni nura qərq etdi. Bu nurdan hər bitkiyə, hər kola və hər



canlıya pay düşdü. İnsanlar bu günəşin yüksəklərə qalxmasından qürrələndi, fərəhləndi. Zaman ötdükcə ölkə daha gözəl, səma daha aydın oldu.

O dahi, sevimli insan həmişə bizimlədir. Onun əlini daima çiynimizdə hiss edirik. Bu da bizə mübarizə və mübarizlik əzmi bəxş edir.

Mən bu yazımı atamın Ulu Öndərimiz haqqında yazdığı şeirdən bir bəndlə tamamlamaq istəyirəm:

*Azadlıq yolunda tökülsün qanım,*
*Əsiri olmayım haqsız zamanın,*
*Açsın doğma yurdum Azərbaycanın*
*Köksündə gül-çiçək, təzə-tər, babam,*
*Mənim Heydər babam – peyğəmbər babam!*



## *Fərmanlı Gülqədəm Bəhram qızı*

*İsmayıllı rayonu, Cülyan kənd*
*tam orta məktəbin*
*XI sinif şagirdi*

*«Heydər Əliyev Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük hədiyyədir».*

**Mehriban Əliyeva**

Həmişə olduğu kimi məktəbə getdim. Birinci dərsimiz ədəbiyyat dərsi idi. Sinif rəhbərimiz mənə inşa yazacağım söylədi. Mən mövzunun Heydər Əliyevə aid olduğunu biləndə çox həyəcanlandım. Mən özümə söz verdim ki, qəlbimin sevgisini ortaya qoyaraq, bütün fikirlərimi səfərbər edib bu inşanı yazacağam. Qəlbimdə olan fikirlərimi sözə çevirmək imkanım olduğu üçün çox sevindim.

Mən bu müsabiqədə iştirak etdiyimə görə fəxr hissi duyuram. Dahi insan haqda öz şagird fikirlərimi həmyaşıdlarımla, onu sevənlərlə bölüşə bildiyim üçün çox sevinirəm.

Adınız çəkiləndə Azərbaycan, tam mənada, öz varlığını hiss edir. Xalqımızı yaşadan Siz, Sizi yaşadansa xalqımız oldu. Tam bir əsr tarixi dövlətçilik ənənələri Sizin adınızla bağlıdır. Bu dövr ərzində Siz idiniz sükan arxasına keçib bu dövləti idarə edən. Hakimiyyətə gəldiyiniz vaxtdan etibarən əlinizdə olan səlahiyyətlərdən yalnız və yalnız xalqımızın rifahı naminə istifadə etdiniz. Tarixi xronologiyaya nəzər salsaq Heydər Əliyevin 1967–1969-cu illərdə DTK-də işlədiyini, 1969–1982-ci illərdə isə Azərbaycanda birinci dəfə rəhbər vəzifəsində çalışdığını görərik. Bu illərdəki hakimiyyəti dövründə bir çox zavod və fabriklər tikdirmiş, incəsənətə, mədəniyyətə çox böyük önəm vermişdir. Kəlbəcər və bunun kimi bəzi torpaqlarımızı min hiylə ilə ələ keçirməyə çalışan daşnaqlara öz layiqli cavablarını qaytarmağı bacarmışdır.



İkinci dəfə hakimiyyətə gəlişini Azərbaycan xalqı Qurtuluş günü kimi qeyd edir.

Bir sözlə, Azərbaycan səmasında parlayan günəş, daim öz nəfəsi ilə bizi isidən bir insan, xalqının xilaskarı oldu, bu insan, dahi Rəhbər, Ulu Öndər!

Dövlətimizin inkişafı naminə atılmış bəzi addımlar məhz Heydər babamın adı ilə bağlıdır. Azərbaycanı müstəqil bir dövlət kimi məhz Heydər Əliyev dünyaya tanıtdı.

Heydər Əliyev rəhbər vəzifələrdə işləməkdən əlavə, çox gözəl natiq, qayğıkeş ailə başçısı idi. Ömür-gün yoldaşı Zərifə xanım ona daim mənəvi dayaq durardı.

Heydər babam təhsilə çox önəm verərdi. Əsasını qoydugu təhsil strategiyası bu gün də ugurla davam etdirilir.

Əlimizdə çıraq dövlətimizin tarixini araşdırsaq, bu tarixin ən şanlı səhifəsi Heydər Əliyevin hakimiyyət dövrü olacaq. Hətta yadımdadır, tarix dərsində Böyük Britaniya mövzusunu keçəndə orada «Qızıl dövr» adlandırılan dövrü öyrənmişdik. Bu adın orada kimə aid olduğu yadımdan çıxsa belə, öz tariximizdə bu ad heç vaxt yadımdan çıxmaz. Çünki Azərbaycan tarixində bu dövrü Heydər Əliyevə aid etmək olar.

Lakin 2003-cü ilin 12 dekabr tarixində ölüm Azərbaycanın xilaskarını, xalqın dayağını əlimizdən aldı. Nurlu çöhrəsini, Xəzər kimi dərin, mənalı gözlərini bir daha görməyək deyə onu əlimizdən alıb Allahın dərgahına götürdü.

*Canlı həyat, canlı söz,*
*Şanlı tarix itirdik.*
*Heydər kimi bir aləm,*
*Bir kainat itirdik.*

Çox ağır olsa belə xalq onu son mənzilə yola saldı. Ruhun şad olsun, Heydər babam!

Lakin onun yolunu davam etdirə biləcək bir insan vardı, İlham Əliyev!

Bu gün biz qətiyyətlə deyə bilərik ki, dövlətimiz əmin əllərdədir. Təkcə onu demək kifayətdir ki, bu il Azərbaycan müstəqil bir dövlət kimi öz raketini səmaya buraxmağa nail oldu. Hətta Avropa olimpiya oyunlarının Azərbaycanda keçirilməsi bir daha onu sübut edir ki, dövlətimiz artıq dünya dövlətləri arasında böyük bir nüfuza malikdir. Bir sözlə, İlham Əliyev Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövlətinin şah beytidir.

Bu il mən bu müsabiqəyə gəlməzdən öncə, özümə söz verdim ki, ora gedəndə ilk əvvəl Fəxri xiyabana gedəcəyəm. O vaxt yetişdi və mən atamla

Fəxri xiyabana gəldim. Kəndimizdən yığdığım tər bənövşələri də digər güllərlə bərabər onun məzarı önünə qoydum. Bir anlıq fikrə getdim: «Deyirlər mənəvi yaşam hamıya nəsib olmur. Amma Ulu Öndərimiz xalqımızın qəlbində özünə çox böyük yer qazanmışdı. Qədirbilən xalqımız bu günü – Sənin doğum gününü çox böyük sevinclə qarşılayır.

Doğum günün mübarək, Heydər babam!





**_Səfərova Leyla Firdovsi qızı_**
**_Samux şəhəri, Mirzə Ələkbər Sabir adına_**
**_1 nömrəli məktəb-liseyin_**
**_X sinif şagirdi_**

Heydər Əliyev öz ömrünü Azərbaycan xalqının milli iftixarı, əvəzolunmaz siyasətçısı kimi yaşadı. Xalqını sevən bu insan xalqı üçün öz ürəyini bir məşələ çevirdi. Qaranlıqlar içindən var elədi, çəkib çıxartdı öz xalqını...

Heydər Əliyev 1923-cü ildə dünyaya gəldi. O da hamı kimi ailə sevgisi ilə böyüdü:

*Ata-ana ad qoyub*
*adına «Heydər», – dedi.*
*Bu həyatın barını*
*dərdikcə «hey dər», – dedi.*

Onun həyatı heç də asan olmadı. O, siyasi döyüşlərdə bərkidi, pillə-pillə qalxdı, çətinliklər gördü. Hər anla, hər saatla, hər fəsillə böyüdü. Damar-damar bərkidi, pillə-pillə böyüdü. Lakin gördüyü çətinliklər onu qorxutmadı, daha da mətinləşdirdi.

Tarixdə elə şəxsiyyətlər olur ki, onlar öz xalqlarının taleyüklü məsələlərinin həllində mühüm rol oynayırlar. Heydər Əliyev də məhz belə şəxsiyyətlərdən oldu.

Heydər Əliyevdə milli liderliklə siyasi liderlik birləşmişdi. O, xalqımızın mənəvi, ictimai, siyasi həyatında, dövlət quruculuğunda misilsiz işlər görmüşdür. Heydər Əliyev xalqın güvənc yeri, milli lideri, qürur duyduğu, arxa bildiyi böyük «Azərbaycanlı» idi.

«Mən azərbaycanlı olmağımla fəxr edirəm», – deyirdi Heydər Əliyev. Azərbaycanlılar da onunla fəxr edirdi. O, hər bir çətin vəziyyətdən ustalıqla çıxırdı. Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün Qərb dünyasında

öz sözünü keçirə bilən dahi şəxsiyyət idi. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət quruculuğunun və siyasət elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə eləyən nadir şəxsyyətlərdən biri idi.

Heydər Əliyev kütləni arxasınca aparmağı bacarırdı. Azərbaycanda dövlət çevrilişinə cəhd edilən zaman o, xalqın köməyinə gəldi. Onu bu burulğandan çıxardı. 1993-cü il iyun ayının 15-də xalqın təkidi və tələbi ilə o, yenidən hakimiyyətə qayıtdı. Səriştəsiz dövlət başçılarının maymaqlığı nəticəsində iqtisadiyyatı tamam dağılmış, ictimai-siyasi tarazlığı pozulmuş bir ölkəyə rəhbərliyi öz üzərinə götürdü. Qanunsuz silahlı dəstələrin özbaşınalıqlarının, dövləti parçalama cəhdlərinin qarşısını aldı. Ölkəni xaosdan çıxardı. Erməni təcavüzkarları ilə atəşkəsə nail olundu. Ölkədə dinc quruculuq işləri başlandı. İqtisadiyyatın inkişaf etdirilməsi üçün islahatlar proqramı hazırlandı. «Əsrin müqaviləsi» imzalandı. «Böyük İpək yolu»nun bərpasına başlandı. İqtisadiyyatda silsilə tədbirlər həyata keçirildi. Bir sözlə, Heydər Əliyevin hakimiyyətə qayıtması ilə Azərbaycanın məhv olmaq təhlükəsi aradan qalxdı. Dövlət müstəqilliyimiz qorunub saxlandı. Dövlətimizin qorunması isə azadlığımızın qorunub saxlanması deməkdir. Qurtuluş deməkdir! Buna görə də xalqımız hər il 15 iyunu Qurtuluş Günü kimi bayram edir.

Heydər Əliyev Azərbaycan Respublikasının zəngin təbii sərvətlərindən xalqın rifahı naminə istifadə etməyi dövlət siyasətinin əsas prioritetinə çevirdi. Onun ən böyük xidmətlərindən biri də məhz neft siyasətinin düzgün qurulması, onun inkişaf etdirilməsi və bu sahəni xalqın maraqlarına cavab verən amilə çevirməsi oldu. Ötən illərdə 15 ölkənin 30 şirkəti ilə 22 müqavilə imzalanmışdır. Ölkəmizdə qoyulan xarici investisiyanın həcmi 17 milyard dolları keçmişdir. Bu, Heydər Əliyevin neft strategiyasının təntənəsi deməkdir.

Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu, müstəqil Azərbaycan isə onun şah əsəridir. Onun sayəsində kiçik bir ölkə bütün dünyada tanındı. Dünyanın böyük dövlətlərinin Azərbaycana olan maraqları artdı. «Bakı–Tbilisi–Ceyhan» neft, «Bakı–Tbilisi–Ərzurum» qaz kəmərlərinin çəkilməsi bu dahi insanın qətiyyətli mövqeyinin uzaqgörənliyi nəticəsi kimi reallığa çevrildi.

Belə bir faktı qeyd etmək istəyirəm. Oxuduğuma görə, Braziliyanın «Planetin səsi» adlı qəzeti doqquz ölkənin jurnalistlərinə «dünyanın hansı üç super siyasətçisinin adını çəkə bilərsiniz?» sualını verib. Altı dövlətin jurnalistləri ilk olaraq Heydər Əliyevin adını çəkmişlər.



Heydər Əliyevin rəhbərliyi dövründə, həqiqətən də, Azərbaycanda görünməmiş yüksəlişlər baş verdi. Bu gün bir çox ölkələrin paytaxtlarında – Moskvada, Londonda, Parisdə, Ankarada, İslamabadda, Qahirədə, Berlində, Vaşinqtonda, həmçinin Birləşmiş Millətlər Təşkilatının Avropa Şurasının binaları qarşısında Azərbaycan Respublikasının üçrəngli bayrağı əzəmətlə dalğalanır. Bu, Heydər Əliyevin uğurlu siyasətinin nəticəsidir.

Heydər Əliyev daxili və xarici siyasətlə çox ehtiyatla davranırdı. Hamı ilə «sülh dili» ilə danışırdı. Bu istiqamətdə apardığı işlərə görə Heydər Əliyev «Atatürk sülh Mükafatı» na layiq görülmüşdür.

Mən Heydər Əliyevi televiziya verilişləri vasitəsi ilə görmüşəm. Onun yorulmaz insan, gözəl natiq olduğunun şahidi olmuşam. O, gözəl nitqi, rəvan danışığı ilə xalqını valeh edirdi. Onun haqqında böyüklərdən, ağsaqqallardan bu sözləri eşidirəm: «Əsl prezident belə olardı...»

Heydər Əliyev çox böyük bilik və təcrübəyə malik idi. O, kənd təsərrüfatı sahəsindən danışarkən bu sahənin bilicisi, təhsil haqqında danışarkən isə bu sahənin bilicisi kimi danışırdı.

Musiqini, seiri sevirdi. Sənətə və sənətkara yüksək qiymət verirdi. Hələ körpələri demirəm. Uşaqların arasında Heydər baba daha mülayim olurdu. Onları öpür, sığallayır, əsl ata-baba qayğısı göstərirdi.

Heydər Əliyev elə bir insan idi ki, bir sözü ilə milyonları ayağa qaldırırdı. O, elə bir sərkərdə idi ki, onun bayrağının altında ayrı-ayrı xalqlar qardaş kimi yaşayırdı. Heydər Əliyev ölkəmizdə yaşayan milli azlıqları daim diqqət mərkəzində saxlayırdı.

Mən elə bir rəhbər tanımıram ki, dünyanı dəyişsin. Amma Heydər Əliyev bunu etdi, Azərbaycanı yeniləşdirdi.

Çox şeyi söyləmək, çox şeyi demək, çox şeyi öyrənmək olar. Nə qədər öyrənsək də, bu böyük okeandan bir damla götürmüş olarıq. Bu gün dünya siyasi liderləri Heydər Əliyevin siyasət okeanından damlalar götürür və ondan öyrənirlər.

Heydər Əliyev bu gün aramızda yoxdur. Bu çox acıdır, amma onun siyasi kursu yenə də davam edir.

Yadımdadır, Heydər Əliyevin ölüm xəbəri necə də dəhşətli bir xəbər kimi yayıldı. Xalq onun üçün göz yaşı tökdü. Mən onda kiçik idim. Mən də ağlayırdım:

*Bircə damla göz yaşı*
*buludlardan ağırdı.*
*O gün yağış göydən yox,*
*gözlərimdən yağırdı.*

Mən ağlayırdım. Əziz bir insanı itirmiş kimi ağlayırdım. Elə bilirdim ki, dünyanın sonudur. Onda ata-anam məni ovundurdu: «Qızım, insanlar özləri bu dünyadan köçsələr də, onların ruhu bizimlədir. Heydər baba da bizimlədir. Çünki o, insanların qəlbində özünə məskən salıb, məhəbbət qazanıb.»

Mən indi 10-cu sinif şagirdiyəm. O günləri xatirladıqca mən bir şeyə sevinirəm ki, nə yaxşı ki, dahi liderimizin siyasi kursunu layiqincə davam etdirən İlham Əliyev kimi prezidentimiz var. Mən inanıram ki, ölkəmiz daha gözəl, daha surətli inkişaf yolundadır və etibarlı əllərdədir. İlham Əliyevin ağlı və bacarığı nəticəsində Azərbaycan Respublikasının beynəlxalq aləmdə rolu və nüfuzu artır. Mən inannıram ki, ümummilli liderimiz Heydər Əliyevin ən böyük arzusuna – Azərbaycanın işğal olunmuş torpaqlarının geri qaytarılmasına İlham Əliyev siyasi kursu ilə nail olacağıq. Onda Ümummilli Liderimizin də ruhu şad olacaq. Allah o günü xalqımıza qismət eləsin!





## Süleymanova Sevinc Həzrətqulu qızı

***Xaçmaz şəhəri, Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Mən onuncu sinifdə oxuyuram. Xalqımızın böyük oğlu, dünya siyasətçiləri arasında xüsusi yer tutan Azərbaycanımızı dünyaya tanıdan, ermənilər tərəfindən zəbt olunmuş torpaqlarımızın qaytarılmasına çalışan, Azərbaycan ilə nəfəs alan, azərbaycanlı olması ilə fəxr edən ümummilli liderimiz Heydər Əliyev haqqında inşa yazmaq o qədər də asan deyil. Ona görə ki, bizim yaşımız, dünyagörüşümüz hələ lazımi səviyyədə deyil. Lakin buna baxmayaraq, valideynlərimizin, müəllimlərimizin söylədiyi fikirlər və xatirələr əsasında öz ürək sözlərimi bildirəcəyəm.

Heydər Əliyev haqqında çox yazılıb. «Heydər Əliyev və Azərbaycan» mövzusu ətrafında siyasətçilər, tarixçilər fikir söyləyiblər. Mən Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışı haqqında oxuduqlarımı, eşitdiklərimi və düşüncələrimi bölüşmək fikrindəyəm.

15 iyun 1993-cü ildən bizi düz 20 il ayırır. 20 il bundan öncə doğma Azərbaycanımızı gözlərimiz önündə canlandırsaq, bir daha o acı, kəşməkəşli, ağır günlər yada düşək.

Bir il hakimiyyətdə olan AXC-Müsavat hakimiyyətinin dövləti və xalqı hansı ağır vəziyyətə salmasını yaşlı nəsil, yəqin ki, yaddan çıxartmayıb.

Hər yerdə hərc-mərclik, ağsaqqala, uşağa, qadına hörmətsizlik, səriştəsiz adamların böyük vəzifələrdə at oynatması, ziyalıya diqqətsizlik və s. bu gün unudula bilməz.

Dörd iyun Gəncə hadisələri, Respublikanın vətəndaş müharibəsi həddinə çatdırılması, çörək qıtlığı, iqtisadiyyatın kortəbii şəkildə dağıdılması artıq xalqı təbindən çıxardır, vəziyyət gündən-günə ağırlaşırdı.

Bu elə bir dövr, elə bir an idi ki, uşaq da, böyük də, alim də, şair də Allaha üz tutur, yalvarır, dua edirdi ki, kaş bu xalqa bir kömək edən tapılaydı.

Bir şair yazırdı ki, Allahım, mənə bir ağsaqqal yetir, mənim ağsaqqala ehtiyacım var.

Allah eşitdi bu yalvarışları. Bu ağsaqqal 70 yaşlı, əsrin böyük siyasətçisi, qəlbi daim Azərbaycanla döyünən, Tanrı tərəfindən qorunub saxlanılan Heydər Əliyev idi.

O günlər unudulmur. Xalq Naxçıvandan Bakıya təkidlə gələn böyük oğlunu səbirsizliklə gözləyirdi. Ona görə ki, Heydər Əliyev xalqın ümidi, arzusu, təsəllisi və xilaskarı idi.

Bu ümid, bu arzu saatbasaat, günbəgün xalqın yaşamaq, yaratmaq ümidini artırırdı.

Xalq azad olacağı, səriştəsiz adamlardan yaxa qurtaracağı günü gözləyirdi.

Bu günə lap az qalırdı. 15 iyun 1993-cü il Azərbaycan tarixinə Qurtuluş Günü kimi daxil oldu.Bu qurtuluşu isə öz doğma xalqına bu gün xalqın xilaskarı kimi tanınan ümummilli liderimiz Heydər Əliyev verdi.

Bu qayıdış Heydər Əliyevin hakimiyyətə sadəcə qayıdışı deyildi. Bu qayıdış xalqın xofdan çıxması, demokratiyanın qorunub saxlanılması, ölkədə sabitliyin bərpası, iqtisadiyyatın dirçəlməsi, nizami ordunun yaradılması, sənət adamlarına, müharibə veteranlarına, ağsaqqala, gəncliyə, məktəbliyə, fəhləyə, kəndliyə qayğı idi.

Bu qayıdış demokratiyanın söz azadlığının təntənəsi, islahatların təməli idi.

Bu qayıdış xalqın zülmdən, düçar olduğu bəlalarda qurtulması demək idi. Bu qayıdış ana-bacılarımızın göz yaşlarının qurudulması demək idi.

Xalqın yekdilliyi ilə prezident seçildi, dahi rəhbər 98% səs toplamışdı. Bu hal bəlkə də dünya təcrübəsində də olmamışdı. «Xalq–Heydər, Heydər–xalq», – deyə hayqıran Azərbaycan vətəndaşları bir daha öz böyük oğlunu müdafiə etdi. Vətən qarşısında böyük xidməti vardı Heydər Əliyevin 1993–1995-ci illər yaddaşımıza və Azərbaycan tarixinə qara hərflərlə yazıldı. 1993-cü il 4 oktyabr, 1995-ci il mart hadisələrində xalqımız böyük bəlalarla üz-üzə qaldı. Lakin Heydər Əliyev zəkası, Heydər Əliyev dühası xalqı bu böyük bəlalardan qurtardı. 1993-cü il oktyabr gecəsində Heydər Əliyev öz xalqına səsləndi. Qucağında körpəsini tutub meydana axışan qadınlar, rayonlardan Bakıya axışan milyonlarla insanlar bir daha öz böyük oğlunu dəstəklədi.

1995-ci il mart hadisələrində də xalqın sevgisi özünü göstərdi.

Bax bu idi xalq sevgisi, xalq istəyi.

Bu qayıdış demokratiyanın möhkəmlənməsi, iqtisadiyyatın dirçəlməsi demək idi.



Saatlarla tribunalarda dayanıb xalqın düçar olduğu bəlalardan söz açırdı dahi rəhbər.

Dörd-beş il ərzində onunla – dahi rəhbər Heydər Əliyevlə bir çox dövlətlər hesablaşmalı oldular. Kimlərə bənzətmədilər onu. Heç vaxt qürrələnmədi, «mən-mən» demədi. Danışığı ilə, duruşu ilə sanki hər kəsi mat qoyurdu dahi rəhbər Heydər Əliyev. Ölümü ilə də mat qoydu hər kəsi. Heç kəs inanmadı ölümünə. Milyonlar gəldi onun ziyarətinə. Böyük, kiçik – hər kəs böyük oğlu ilə vidalaşırdı. Rayonlarda 40 gün yas saxlandı, ehsanlar verildi dahi rəhbər üçün. 40 gün toy-düyün olmadı. Qədirbilən insanlar uzun müddət yas saxladı, göz yaşı tökdü Heydər Əliyev üçün.

Bu il 90 yaşı tamam olur ümummilli liderimiz Heydər Əliyevin.

Ölümündən 10 il ötür dahi rəhbərin. Buna inansaq da, inanmasaq da belədir.

Allah sənə rəhmət etsin, dahi rəhbər. Allah ruhunu daima şad etsin.

Heydər Əliyev, həqiqətən də, nəsillərə nümunə olacaq dahi şəxsiyyətdir.

Hər gün Heydər Əliyevi düşünərkən hiss edirəm ki, o ölməyib. Çünki dahilər ölmürlər, dahilər əbədiyyətə qovuşurlar. Sabah yenidən qayıtmaq üçün.

Mən dahi rəhbər, ümummilli liderimiz Heydər Əliyevdən nümunə götürərək ümid edirəm ki, gələcəkdə cəmiyyətimizə faydalı bir vətəndaş olacağam.



## *İsmayılova Arzu Xeyrulla qızı*

***Ordubad şəhəri, 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi***

*Yarıb günəştək qaranlıqları,*
*Elimə, xalqıma bir dayaq oldun*
*Xilaskar oğlusan Azərbaycanın,*
*Onun sabahına bir çıraq oldun.*

Günəş kimi qaranlıqları yarıb xalqa dayaq olan XX əsrin sonlarında Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas edən, Vətənin sabahına nurlu çıraq kimi şəfəq saçan o dahi şəxsiyyət kimdir? Böyük iftixar və qürur hissi ilə bu gün hər bir Azərbaycan vətəndaşı tam qətiyyətlə deyə bilər: Bu qüdrətli şəxsiyyət siyasət korifeyləri sırasında öz dəst-xətti və imzası ilə seçilən ümummilli liderimiz Heydər Əliyevdir. Heydər Əliyev elə parlaq siyasət günəşidir ki, onun şüaları hələ min illər boyu da gur şəfər saçacaq, xalqımızın azadlıq və istiqlaliyyət yoluna nur çiləyəcəkdir. Heydər Əliyev Azərbaycan tarixinin elə nadir və əvəzsiz şəxsiyyətlərindən biridir ki, onun siyasi və dövlətçilik fəaliyyəti hələ yüz illər boyu öyrəniləcək, şərəfli və mənalı ömür yolu gələcək nəsillərə nümunə göstəriləcəkdir.

Dahi Öndər hamı kimi doğulsa da, hamı kimi yaşamadı. Öz ürəyini məşələ çevirib xalqın, millətin yolunda şam kimi əritdi. Bütün çətinliklərə mərdliklə dözdü, öz zəkası, parlaq istedadı ilə ucaldı, zirvələri fəth etdi. Daim xalqın yanında oldu. Xalq isə öz sevimli rəhbərinə inandı, ona etibar etdi.

Hələ Sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi on üç il ərzində Azərbaycanı inkişaf etmiş çiçəklənən bir diyara çevirdi. Onun siyasi uzaqgörənliyi və idarəçilik məharəti Azərbaycana İttifaq miqyasında böyük şöhrət qazandırdı. Heydər Əliyevin gərgin fəaliyyəti onu bir siyasi xadim kimi zirvələrə qaldırdı. 80-ci illərin əvvəlində Sovet rəhbərliyinə irəli çəkilən Heydər Əliyev Siyasi Büroya üzv seçilən ilk azərbaycanlı oldu. Xalqımız onunla fəxr edir, qürur hissi keçirirdi. Lakin bu uzun sürmədi. Ermənipərəst sovet rəhbərliyi öz çirkin məqsədlərinə çatmaq üçün onu vəzifəsindən istefa verməyə məcbur etdi.



Xalqın böyük oğlunun ürəyi isə xalqla birlikdə idi. Qapalı şəraitdə yaşamasına baxmayaraq, o, bu müddətdə də Azərbaycanla əlaqə saxlayır, xalqın vəziyyəti ilə maraqlanırdı.

Xalqımızın başına qanlı müsibət gətiriləndə Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldi. Bu qanlı faciəyə öz kəskin etirazını bildirərək, sovet rəhbərliyini cəsarətlə ittiham etdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Heydər Əliyev fenomeni nəyə qadir olduğunu göstərdi. Azərbaycan Sovetlər Birliyinin süqut etməsi, xalqın azadlıq mübarizəsi sayəsində öz müstəqilliyinə qovuşdu. Lakin hakimiyyət başında duranların səriştəsizliyi xalqımıza yeni fəlakətlər gətirdi. Azərbaycanın o vaxtkı naşı rəhbərləri böyük siyasi Lideri Bakıya dəvət etmək əvəzinə, onun yoluna sədd çəkdilər. Lakin Heydər Əliyev bütün təzyiqlərə sinə gərərək Naxçıvana gəldi. Qədim Naxçıvan öz böyük oğlunu bağrına basdı. Üç il Naxçıvan MR Ali Milli məclisinə rəhbərlik edən böyük insan blokadada yaşayan doğma diyarını düşmən hücumlarından və hiylələrindən mühafizə edə bildi. Xalqla birlikdə özü də bütün çətinliklərə sinə gərdi.

Azərbaycanda vəziyyət gündən-günə mürəkkəbləşirdi. Bir tərəfdən erməni işğalçıları ilə ölüm-dirim savaşı gedir, digər tərəfdən ölkədə xaos, hərc-mərclik baş alıb gedirdi. Belə bir qarışıq tarixi dövrdə Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. Təcrübəli siyasətçi qısa müddətdə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Bir neçə dəfə dövlət çevrilişi cəhdlərinin qarşısını aldı. Böyük humanist, bəşəri ideyalar nəğməkarı H.Cavidin «Kəssə hər kəs tökülən qan izini, Qurtaran dahi odur yer üzünü» misralarını həqiqətə çevirdi. Cəbhədə atəşkəs elan olunmasına nail oldu. Anaların, bacıların göz yaşını qurutdu.

Böyük Öndər ölkədə sabitliyi tam bərpa edəndən sonra nəhəng quruculuq işlərinə başladı. Həyata keçirilən iqtisadi islahatlar öz bəhrəsini verdi. 1994-cü ildə imzalanan Beynəlxalq Neft Kontraktları indi də öz bəhrəsini verməkdədir.

Heydər Əliyev müstəqil Azərbaycanın ilk konstitusiyasının memarı kimi tarixə daxil oldu.

On il Azərbaycana rəhbərlik etdiyi müddətdə vətənimiz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində böyük inkişaf yolu keçmişdir, onun parlaq dühası nəticəsində Azərbaycan inkişaf və tərəqqi yoluna gəlib çıxdı. Ölkədə həyata keçirilən islahatlar xalqın rifahı və güzəranının yaxşılaşmasına səbəb oldu. Ölkəmizin beynəlxaq nüfuzu daha da möhkəmləndi.

Bu gün Azərbaycan Əliyev yolu ilə işıqlı gələcəyə doğru addımlayır. Dövlətimizin sükanı etibarlı əllərdədir. Heydər Əliyev ideyalarına sadiq olan, onun siyasi xəttini uğurla davam etdirən prezidentimiz İlham Əliyev artıq bütün dünyada öz dəst-xətti olan siyasi xadim kimi tanınmışdır. Onun rəhbərliyi ilə xalqımız yeni iqtisadi uğurlar qazanır, vətənin hər bir guşəsi çiçəklənir, abad diyara çevrilir. Bütün bunlar Heydər Əliyev ideyalarının təntənəsi, Heydər Əliyev əməllərinin həyata keçirilməsi sayəsində mümkün olmuşdur. Biz yaşamağı, işləməyi, mübarizə aparmağı, vətəni necə sevməyi Heydər Əliyevdən öyrənmişik. Heydər Əliyev daim bizimlədir. Onun hər zəfərinin sədası qəlbimizdədir.

*Salonları titrədər yenə də alqış səsi,*
*Bu alqış məmləkətə, bu alqış rəhbərədir.*
*Milləti millət kimi dünyalara tanıdan,*
*Xalqın xilaskarına, möhtərəm Heydərədir.*

Heydər Əliyev sevgisinin böyüklüyünü ümmanlara bənzədirlər. O, doğulduğu, boya-başa çatdığı torpağını ürəkdən sevirdi. Heydər Əliyev sevgisi tam başqa sevgi idi. Onun sevgisi adi hislərdən ibarət deyildi. O, Azərbaycanı təkcə sevmirdi, bu qədim torpağın heyranı idi. Onu canından artıq qoruyur, əzizləyirdi. Dəfələrlə Azərbaycan uğrunda, onun işıqlı gələcəyi uğrunda ölümün ağuşuna atılmışdı. O, çətinliklərdən qorxmur, usanmırdı. Bütün bunlardan ləzzət, güc alırdı. Tanrı onu həmişə mübarizələrdən, döyüşlərdən zəfərlə çıxarırdı. Heydər Əliyev həmişə qalib oldu. Qələbə, zəfər onun alın yazısıydı. Azərbaycanın gələcəyinə, istiqlalına inanırdı. O bilir və hiss edirdi ki, daha heç kim, heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməyəcəkdir. Bu yolda, bu müqəddəs səfərdə ömrünü şam kimi əridirdi.

Heydər Əliyev «Azərbaycan» adlı gəminin kaptanı idi. Hər dəfə bu gəmi sahilə sağ-salamat qayıdırdı. Çünki onun kapitanı mübariz, vətənpərvər, hər çətinliyə sinə gərməyi bacaran Heydər Əliyev idi.

Bu gün hər bir vətən övladı Azərbaycanın gələcəyi üçün çarpışır. Vətəni dünya dövlətləri sırasında bir günəş kimi parlatmaq Heydər Əliyevin



ən böyük arzusu idi. Bu arzunu bu gün hər bir Azərbaycan vətəndaşı Heydər Əliyevə tükənməz sevgi ilə həyata keçirməyə çalışır.

*Yollarında min tufan, min külək əssə belə,*
*Yağılar yolun üstə silahlar düzsə belə,*
*Şirin qara əlləri yolunu kəssə belə,*
*Onu Tanrı qoruyur, o zülməti boğacaq*
*Azərbaycan dünyada günəş kimi doğacaq.*

Azərbaycanın sabahkı zəfərində Heydər Əliyevin adı, imzası olacaq. O səhər artıq doğulur. O səhərdən Azərbaycanın azadlığı, müstəqilliyi daha əsrarəngiz, müstəqilliyi daha möhtəşəm görünəcəkdir. Çünki Azərbaycanın Heydər Əliyev kimi memarı, Heydər Əliyev kimi zirvəsi var.

Qəlbimizdə Dahi Öndərə tükənməz sevgi, məhəbbət var. Onun kimi yaşamaq, onun kimi mübarizə aparmaq, vətəni onun kimi sevmək həyat ideyalarımızdır. Bu ideyalar bizi Heydər Əliyev yolu ilə Azərbaycanın işıqlə gələcəyinə doğru aparır. O gələcəyə ki, Azərbaycan artıq itirilmiş torpaqlarına sahib olacaq, Azərbaycan ordusu üçrəngli bayrağımızı Xankəndində, Şuşada qaldıracaqdır. O zaman Heydər Əliyev siyasətinin təntənəsi bütün dünyaya yayılacaqdır.



## *Məmmədli Əfsanə Sahib qızı*

*Şahbuz şəhəri, 2 nömrəli*
*tam orta məktəbin X sinif şagirdi*

*«Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq öncə şəxsiyyət ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında düşünməyə başlayır».*

**Bismark**

Tarixdə elə şəxsiyyətlər olub ki, onların həyat yolundan danışmaq üçün bütöv bir xalqın, bütöv bir ölkənin tarixindən danışmaq lazımdır. Ümummilli liderimiz Heydər Əliyev belə şəxsiyyətlərdəndir Onun mənalı həyat yolu müstəqil Azərbaycanın siyasi bioqrafiyasına çevrilmişdir. Azərbaycanın otuz beş ilə yaxın bir dövrünü əhatə edən tarixi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş vermiş dirçəliş, inkişaf və tərəqqi Ulu Öndərimizin adı ilə bağlıdır. Ulu Öndərimiz xalqımızın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali ideyaların gerçəkləşməsinə nail olmuş, bununla da əbədiyaşarlıq hüququ qazanmışdır.

Ümummilli Liderimizin həyatını göz önünə gətirsək, keçdiyi mənalı ömür yolunu nəzərdən keçirsək, böyük ömrün yalnız bir məqsədə həsr edildiyinin şahidi olarıq: bu, Azərbaycandır. Ulu Öndərimiz bütöv, müstəqil Azərbaycan və azərbaycançılıq uğrunda çalışmış, mübarizə aparmış və qalib gəlmişdir. Xalqımızın böyük oğlu bütün varlığı ilə Azərbaycana bağlı şəxsiyyət olmuşdur. «Azərbaycan» kəlməsini qürurla səsləndirən, azərbaycanlı olması ilə fəxr edən Ulu Öndər dünyanın qapılarını azərbaycanlıların üzünə açmış, Vətəninin, millətinin adını hər yerdə uca tutmuş, doğma respublikasını inkişaf etdirmək üçün bütün imkanlardan istifadə etmişdir.



Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan müstəqilliyə qovuşmuş, Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsasları və müstəqillik konsepsiyası hazırlanmışdır. Ona görə də 1969-cu ilin 14 iyulunda Ulu Öndərimizin Azərbaycana rəhbər seçilməsi ölkəmizin müstəqillik tarixinin parlaq, işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir.

1969-cu ildə respublika rəhbərliyinə gələn ümummilli liderimiz sosial-iqtisadi böhran keçirən, iqtisadi cəhətdən geridə qalan Azərbaycanı qısa zaman ərzində keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirdi. Həmin dövrdə tarixi yaddaşın bərpası ilə yanaşı, ölkəmizin iqtisadi, sosial-siyasi və mədəni həyatında inqilabi dəyişikliklər baş vermiş, on dörd il ərzində Azərbaycan geridə qalmış regiondan mərkəzi hakimiyyətin yardımı olmadan öz-özünü maliyyələşdirən lider respublikaya çevrilmişdi. Şübhəsiz ki, bunlar gələcək müstəqillik dövrünə hazırlıq xarakteri daşıyırdı və bütün bunlar həyata keçirilməsəydi, ölkəmiz müstəqil dövlətçilik şəraitində özünü qoruyub saxlaya və inkişaf edə bilməzdi. O dövrdə Azərbaycanın iqtisadi və sosial inkişafının təmin edilməsi, milli-mədəni inkişaf istiqamətində görülən işlər bütövlükdə müstəqillik amilinin praktik baxımdan bərqərar olunmasına gətirib çıxarmışdır.

Müdriklər deyiblər: «Hər bir xalqın tarixi müəyyən mənada ona rəhbərlik etmiş böyük siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində öz təcəssümünü tapır». Ümummilli liderimiz Heydər Əliyev özünün çoxşaxəli fəaliyyəti və möhkəm iradəsi ilə Azərbaycanın müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etmişdir.

Azərbaycanda 1969-cu ildə əsası qoyulan dirçəliş və inkişaf strategiyası nəticəsində yaranmış iqtisadi potensial XX əsrin 80-ci illərinin sonlarından başlayaraq dağıdılıb bərbad hala salınmışdı. 1991-ci ildə müstəqillik qazanmış və səriştəsiz rəhbərlərin günahı ucbatından məhvə sürüklənmiş bir ölkənin parçalanmaqdan qorunması, vətəndaş müharibəsinin dayandırılması, hüquqi-demokratik dövlətin qurulması, siyasi-iqtisadi islahatların aparılması kimi mürəkkəb, taleyüklü məsələlərin həllinə yalnız Ulu Öndərimiz nail ola bilərdi. 1993-cü ilin iyununda əldən getməkdə olan dövlət müstəqilliyini Azərbaycana dahi şəxsiyyət Heydər Əliyev qaytarmışdır. Dağılıb məhv olma təhlükəsi ilə üz-üzə qalan ölkəmizi məhz Ümummilli liderimiz təlatümlər burulğanından xilas etmiş, möhkəm ictimai-siyasi sabitlik yaratmış, Azərbaycanı ötən əsrin 70-ci illərindən başlanan quruculuq xəttinə qaytararaq hərtərəfli inkişaf yoluna çıxarmışdır. Əgər Azərbaycan xalqı bu böyük oğlunu hakimiyyətə dəvət etməsəydi və Ümummilli Liderimiz

xilaskarlıq missiyasını həyata keçirməsəydi, ölkəmiz qeyd-şərtsiz müstəqilliyini itirəcəkdi, müstəqil, qüdrətli, qürur duyduğumuz Azərbaycan dövlətində yaşamaq biz gənc nəslə qismət olmayacaqdı.

Ümummilli Liderimiz 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə ölkədəki tənəzzül prosesinin qarşısını almış, Azərbaycanı lider respublikaya çevirmişdisə, 1993-cü ildə hakimiyyətə qayıdışı ilə müstəqilliyini itirmək təhlükəsi yaşayan Azərbaycanı fəlakətlərdən qurtarmış, regionda əsl müstəqil dövlətə çevirmişdir.

Ulu öndərimiz Heydər Əliyev nəinki müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirmiş, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim-azərbaycançılıq ideologiyasını da yaratmışdır.

Dahi rəhbərin ölkəmizə rəhbərlik etdiyi illər tariximizə milli intibah, milli tərəqqi, milli oyanış, müstəqil dövlət quruculuğu dövrü kimi daxil olmuşdur. Xalqımızın böyük oğlunun ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Ümummilli liderimizin siyasi kursu Azərbaycan Prezidenti tərəfindən daha da zənginləşdirilərək XXI əsrin mükəmməl dövlətçilik fəlsəfəsinə çevrilmişdir.

Heydər Əliyev yolundan kənarda inkişafın və müstəqil dövlət quruculuğunun mümkün olmadığını bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: «Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çeviriləcəkdir. Bütün bunları etmək Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir... Mən bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev irsini davam etdirəcəyəm».

Bu gün böyük dövlət xadimi Heydər Əliyevin işi və əməlləri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində görünür. Heydər Əliyev yolu ilə gedərək gündən-günə inkişafa, tərəqqiyə qovuşan Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əldə olunan bütün nailiyyətlərdə Ümummilli Liderimizin ideyaları yaşayır. Ümummilli Liderimizin ideyalarının tükənməzliyi və yaradıcı gücü xalqımızın nurlu gələcəyi üçün sönməz məşəldir.





## *Məmmədova Gülnar Qasım qızı*

***Naxçıvan Qızlar Liseyinin***
***X sinif şagirdi***

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır.*

**Heydər Əliyev**

Bir insan ömründən, bu ömrün xalqına bəxş etdiyi əvəzsiz işlərdən, miras qoyduğu xoş əməllərdən söz açmaq istəyirəm. O insandan ki, öz işi və əməlləri ilə hamını heyran etdi, canı qədər sevdiyi doğma Azərbaycanın müstəqilliyinin təməlini qoydu.

Həyatı dünyadan, onun təzadlı aləmini hiss edəndən varlığına ən çox inandığım, əbədiliyinə həsrət apardığım Günəş ömrü olubdur. Mavi səmadan öz qızılı şəfəqlərini yer üzünə səpən, hamını , hər yanı öz nuruna eyni dərəcədə qərq edən Günəş planetimizin yaşayışı üçün ilahi bir qüvvədir. Ulu Tanrı tərəfindən bəşəriyyətə bəxş edilən bu əvəzsiz nemətin qarşısına heç bir qara bulud indiyə kimi sədd çəkə bilməyib və bilməyəcək də. Əsrlər boyu elinə, obasına, xalqına, vətəninə səadət gətirən, onu qara qüvvələrdən qoruyan böyük şəxsiyyətlərin yaşadığı ömrü də Günəş ömrünə bənzədirlər. Müqəddəs Günəş ömrü yaşayanlardan biri də Azərbaycanımızın dünənini dünyaya tanıdan, bu gününü böyük bəlalardan xilas edən, sabahını ölməz ideyaları ilə xoşbəxt və səadətli günlərə aparan ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevdir.

Bu da bir həqiqətdir ki, bir gün yaranan bir gün də bu dünyadan köç edir. Amma həyatın və cəmiyyətin öz qanunları var. Xalqın taleyində xüsusi rolu olan insanlar əbədiyaşarlıq hüququ qazanır, onların adları tarixin yaddaşına həmişəlik həkk olunur. Bunu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə göstərilən sonsuz ehtiram əyani surətdə təsdiqləyir.

Təsadüfi deyil ki, onu tarix yaradan şəxsiyyət adlandırırlar. Ümummilli Lider statusu qazanmış, siyasət olimpinin ən yüksək zirvələrini fəth etmiş bu insan xalqını, Vətənini tükənməz məhəbbətlə sevirdi.

Tarix təsdiq edir ki, insan cəmiyyəti şəxsiyyətlərin zəkası və dühası sayəsində inkişaf edir, müasir sivil formaya gəlib çatır. Xalqların və dövlətlərin tarixinin ən mühüm mərhələləri şəxsiyyətlərin fəaliyyətinin nəticələri kimi meydana çıxır. Dahi insanların ideyaları və həmin ideyaların həyata keçirilməsi tarix adlandırdığımız sistemli hadisələr xronologiyasını yaradır. Məhz Heydər Əliyev ideyaları kimi.

Ümummilli Liderimiz, xalqımızın dahi rəhbəri Heydər Əliyevin mübarək adı və imzası çağdaş Azərbaycan tarixində yarıməsrlik ictimai- siyasi fəaliyyəti nəticəsində gördüyü misilsiz işlərlə yaddaşlara yazıldı. Tanrı və tale yazısı kimi.

Hakimiyyətə gəlişi ilə bütövlükdə millətimizin ictimai həyatında böyük bir mədəni mərhələ başlandı. Bu başlanğıcın təməlini hazırlayan, əsasını müəyyənləşdirən Heydər Əliyev oldu. Milli tariximizə ən aydın və parlaq səhifələr yazdı. Müasir dövrün mürəkkəb siyasi şəraitində Tanrıdan verilmiş fitri istedadı və qeyri-adi qüdrəti ilə bütün proseslərin fövqündə dayandı, qaranlığı işıqlandırdı, zəkasının nuru ilə gələcəyə gedən yolu tam aydınlığı ilə göstərdi. O yol Tanrının, haqqın yoludur. O yolla gedən yorulmaz, xeyir və bərəkət tapar, azadlığa və rifaha qovuşar.

Bizim mifoloji əcdadımız Oğuz Xan öz zamanında el yaratdı, dövlət qurdu, xalqını qorudu, dünyaya tanıtdı, onun qəhrəmanlıq tarixinin əsasını qoydu. El sənətkarları onun adına sənət əsərləri yaratdı , elm adamları ona ictimai-tarixi məzmun qazandırdı. Oğuz sülaləsi Oğuznamə silsiləsində layiq olduğu ədəbi-mədəni mövqeyini tutdu. Xalq heç zaman öz qəhrəmanına laqeyd qalmır, onun xatirəsini bütün mümkün vasitələrlə əbədiləşdirir.

Çağdaş Azərbaycan dövlətini Heydər Əliyev yaratdı. Bu, Ümummilli Liderimizin siyasi irsidir. Yəni toplumun təşkili, siyasi sistem halına gətirilməsi və bütün səviyyələrdə təkmilləşdirilməsi Böyük Öndərin fəaliyyətinin nəticəsidir.

Ümummilli Liderimiz Azərbaycana rəhbərlik edənə qədər respublikamız geridə qalmış aqrar bir ölkə kimi tanınırdı. Ancaq Heydər Əliyev respublikanı inkişaf etdirmək üçün SSRİ rəhbərliyi qarşısında yeni layihələr irəli sürür, məntiqlə onları inandırırdı. Odur ki, böyük öndərin 13 illik rəhbərliyi dövründə (1969–1982 ci illər) Azərbaycan sənaye ölkəsinə çevrildi, kənd təsərrüfatı böyük sürətlə inkişaf etdi.



Sövet dövründə Azərbaycanda geniş və irimiqyaslı inkişaf yalnız Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə olub. Ona görə də 1970–1980-ci illər Azərbyacanda iqtisadiyyatın və mədəniyyətin çiçəkləndiyi bir dövr olub. Böyük siyasi xadim ölkəni müstəqillik üçün məhz o dövrdə hazırlayıb. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan keçmiş ittifaq miqyasnda həmişə öndə gedib.

Sovetlər Birliyi qapalı bir sistem idi, onun xaricə çıxışı, beynəlxalq əlaqələri yalnız mərkəzi hakimiyyət tərəfindən müəyyənləşdirilirdi. O zaman Heydər Əliyev elm və mədəniyyət xətti ilə Azərbaycanın xaricdə tanınması üçün misilsiz xidmətlər göstərib minimum imkanlardan maksimum istifadə etməklə Azərbaycanı dünyaya tanıtdı. Ölkə içində görülmüş işlər isə irihəcmli statistik göstərici tərtib ediləcək dərəcədə zəngin idi. O, hər şeyi şəraitə uyğun olaraq həll edə bilir, öklənin və millətin inkişafı üçün lazım olan hər addımı böyük cəsarət və qətiyyətlə atırdı.

Təhlükəsizlik orqanlarında çalışanda millətimizin təhlükəsizliyini təmin edib. Bu Böyük Şəxsiyyətin rəhbərliyi dövründə ziyalılarımız repressiyaya məruz qalmayıb. Milli süurun dirçəlişi başlanıb, ictimai-siyasi düşüncə tərrəqi edib. Ədəbiyyatımızda milli məzmunlu əsərlər yaranıb, mədəniyyətimiz milli təmayülünü gücləndirib Respublikaya rəhbərlik edəndə ölkə başdan-başa abadlaşıb, tikilib, qurulub, elmdə, təhsildə və mədəniyyətdə intibah başlanıb. İqtisadiyyatda nəhəng işlər görülüb.

Hakmiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə dövlət dili statusu qazandırmağa yonəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il konstitusiyasında Azərbaycan dili dövlət dili statusunda təsbit olundu. Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, klassiklərin, ittifaq miqyasında yubileylərinin keçirilməsi Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasında ön mövqelərə çıxması, elm, ədəbiyyat mədəniyyət abidələrinin planlı şəkildə tətbiqi və nəşri – bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçilik ideyasının təməlində siyasətin əməli nəticələridir.

Mərkəzi hakimiyyətdə çalışanda da diqqətini Azərbaycandan əskiltməyib. Onun inkişafı və gələcəyi üçün mühüm işlər görüb.

Müstəqillik dönəmində Naxçıvanı işğaldan, Azərbaycanı vətəndaş müharibəsindən qoruyub, xilas edib. Bu mənada Böyük Öndər üçün xilaskar

epiteti uğurlu bir seçimdir. Xalqın və bəşərin tarixində ən müqəddəs missiya da budur. Xalqı qandan, qadadan qurtarmaq, sülh və əmin-amanlıq yaratmaq, ictimai sabitliyi təmin etmək və həm də bunları mürəkkəb siyasi şəraitdə gerçəkləşdirə bilmək yalnız dahi şəxsiyyətlərə nəsib olur. Heydər Əliyev belə bir şəxsiyyət idi.

Milli ideologiyanın strategiyası kimi Azərbaycançılığın mərkəzi mövqeyə gətirilməsi də Böyük Öndərin siyasi uzaqgörənliyinin nəticəsidir. Azadlıq mücadiləsindən sonra Vətənimizin bütovlüyü uğrunda mubarizə, Avropaya inteqrasiya kimi məsələlər Heydər Əliyevin müəyyənləşdirdiyi xətt üzrə uğurla davam etməkdədir. Prezidentimiz cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu eyni uğurla həyata keçirməkdədir. Dövlət başçısı İlham Əliyevin uzaqgörən siyasətçi kimi yetişməsi də Böyük Öndərin xalqımıza verdiyi töhfədir.

Ümummilli lider Heydər Əliyevin nurlu, işiqlı əməlləri müstəqil Azərbaycanın yoluna işıq saçacaq və Azərbaycan xalq yaşadıqca yaşayacaqdır.

*Sən yurdumun nadir, inci barısan,*
*Vətənimin günəşisən, ayısan*
*Bizlərə Tanrının sevinc payısan. –*
*Əbədi and yerim, ulu Rəhbərim,*
*Vətən fədaisi nurlu Heydərim.*





## *Nəcəfova Sevinc Rafiq qızı*

***Babək rayonu, Babək qəsəbə***
***tam orta məktəbin X sinif şagirdi***

Hər bir dahi xalqının tarixinə öz əməli, işi ilə düşür. Dahilərin böyüklüyü ondadır ki, öz xalqının psixologiyasını, mentalitetini çox gözəl bilir. Dünyanın nəhəng dövlət başçıları və siyasətçilərinin gəldiyi qənaət də belədir ki, ulu öndərimiz Heydər Əliyev nadir siyasətçi, öz xalqını, torpağını sevən dövlət başçısı idi. O çalışırdı ki, hər dövrün, hər sistemin öz tələbinə uyğun, lakin son nəticədə Azərbaycan xalqının tərəqqisi və inkişafı naminə siyasət yeritsin.

Müdrüklərimiz çox gözəl deyiblər: «Zaman ən ədalətli hakimdir». Otuz ildən yuxarı Azərbaycana rəhbərlik etmiş təkrarsız şəxsiyyət, misilsiz lider Heydər Əliyevin xalqımızın həyatındakı mütərəqqi dəyişiklikləri zamanın hökmüylə təsdiqlənmiş faktdır.

Bu gün Azərbaycan dövləti müstəqillik yolunda, demokratiyanın inkişafı istiqamətində inamla addımlayır. Milli intibahımıza, xalqımızın gələcəyinə yönəlmiş bu tədbirlərin əsası 1969-cu ildən qoyulmuşdur. O vaxt Heydər Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilməsi xəbəri birmənalı qarşılanmamışdır. Çünki Heydər Əliyev tutduğu vəzifə ilə bağlı ictimaiyyət arasında geniş tanınmamışdı. Ancaq şəxsi keyfiyyətləri, qeyri-adi idarəçilik qabiliyyəti ilə O, çox qısa müddətdə xalq arasında nüfuz və məhəbbət qazandı.

Heydər Əliyev daima xalqının gələcəyini düçünürdü. Hələ 1969–82-ci illərdə Azərbaycana rəhbərlik etmiş Ulu Öndərin şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda təhsil almış on beş mindən artıq ali təhsilli gənc hazırda ölkəmizdə və vətənimizin hüdudlarından kənarda çalışmaqdadır. Heydər Əliyev bu ixtisaslı mütəxəssisləri Azərbaycan yetirmələri, Azərbaycanın milli sərvəti kimi dəyərləndirirdi. Respublikadan kənarda

yüksək ixtisaslı mülki və hərbi mütəxəssis kadrların sistemli şəkildə hazırlanması sahəsində apardığı məqsədyönlü işlərini təhlil edən Rusiya analitikləri belə bir nəticəyə gəlmişdilər ki, Heydər Əliyev hələ o illərdə SSRİ-nin tezliklə dağılacağını əvvəlcədən görürmüş.

O, mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına nisbətən daha güclü idi. Siyasətçilər bu dahi insanı «liderin lideri» adlandırırlar.

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə, siyasi və dövlətçilik fəaliyyətinə çox böyük hörmətlə yanaşılan Heydər Əliyev haqqında söz demək, fikir söyləmək o qədər də asan deyil.

Biz qürur duyuruq ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən Ümummilli Lideri olmuşdur. Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır.

Azərbaycanın çağdaş tarixində Heydər Əliyev həqiqətlərinin təntənəsi, qələbəsi, milli təhsil tariximizin qızıl hərflərlə yazılmış şanlı səhifələridir.

Bu gün əvəzolunmaz liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti və vətənpərvərlik niyyəti sayəsində Azərbaycan yüksək səviyyəyə çataraq dünyanın qabaqcıl ölkələrindən birinə çevrilmişdir.

O, cismən aramızda olmasa da, daima qəlbimizdə yaşayır.

Heydər Əliyevin yarımçıq qalan işlərini oğlu – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları həyata keçirir.





**_Novruzova Gültən Hicran qızı_**
**_Naxçıvan şəhəri, M.T.Sidqi adına_**
**_4 nömrəli tam orta məktəbin_**
**_VIII sinif şagirdi_**

Qəlbimdə bir sevgi bəsləyirəm. Bu, Heydər Əliyev sevgisidir. Bütün sevgilərin ən alisi, ən ucasıdır. Heydər Əliyevə olan ülvi məhəbbətim hüdudsuzdur. Axı adi bir məktəbli üçün ürəyin dərinliklərində coşub-çağlayan duyğulardan söz açmaq o qədər də asan deyil.

Hələ uşaq idim. Bu dahi şəxsiyyəti görən zaman valideynlərim mənə belə təqdim etmişdi: «Torpağımızın xilaskarıdır», «El ağsaqqalıdır».

Ulu Öndərimizə ilk sevgini beləcə valideynlərimdən öyrəndim. Daha sonra bağçaya, məktəbə getdim. Müəllimlərimdən də belə eşitdim. Ədəbiyyat müəlliməm yazdırdığı inşalarda, esselərdə, öyrətdiyi şeirlərdə böyük şəxsiyyətimizi bizə sevdirdi. Öyrəndim ki, Heydər Əliyev şərəfli həyat fəaliyyəti ilə tarixi min illərlə hesablanan dünyanın zəfər salnaməsinə şanlı səhifələr yazmış, qədim bir xalqın simvolu səviyyəsinə yüksəlmişdir. «Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir» – bu fikirlərin danılmaz həyat həqiqəti olduğunu dərk etdim.

*Xalqı zirvələrə qaldırmaq üçün,*
*Sevgi şahlığının taxtına çıxdın,*
*Oğul xalq üçündür, zirvə dağ üçün,*
*Nə yaxşı bu xalqın bəxtinə çıxdın.*

Bəli, bu, şirin həqiqətdir. Heydər Əliyev Azərbaycan xalqının mənəvi sərvəti, bəxtinə düşmüş Tanrı payıdır.

Mən Heydər Əliyevi özümə tərbiyə məktəbi hesab edirəm. Çünki vətənə, xalqa, ana dilimə məhəbbəti Ulu Öndərimdən öyrəndim.

Ulu Öndərimizin S.Vurğunun möhtəşəm «Azərbaycan» şeirindən bir neçə misranı söyləyən zaman hıçqırtı ilə ağlaması hələ də qulaqlarımdadır.

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən!*

*Ayrılarmı könül candan?*
*Azərbaycan! Azərbaycan!*

Bax, bu misralar göz yaşı ilə söylənilmişdi. Bu göz yaşı vətənə olan sevgidən doğurdu. Dahi şəxsiyyətimizin söylədiyi bu şeir məndə vətənimə məhəbbəti daha da gücləndirdi. Heydər Əliyev vətən məhəbbətini gələcək nəsillərə aşılayan dəyərli bir varlıq idi.

Ümummilli Liderimiz üçrəngli bayrağımızın önündə diz çökdü və öpüb alnına qoydu. Bununla Vətənimi bütün dünyaya tanıdan bayrağıma sevgini Ulu Öndərimdən öyrəndim.

Siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur olan Heydər Əliyev xarici ölkələrə səfər edən zaman ana dilimizdə danışmağı özünə fəxr bildi və gələcək nəsillərə milli dəyərimiz olan dilimizi sevdirdi.

Döyüş səngərlərində əsgərlərlə Heydər Əliyevi çiyin-çiyinə gördüm. Bu zaman bir həqiqəti də dərk etdim. «Vətən sərhəddən başlanır».

Beləcə mən Heydər Əliyev məktəbini keçərək əsl vətəndaş kimi formalaşır, bununla qürur duyuram.

Əziz həmvətənlərim! Heydər Əliyev tarixi yaradan idi, tarixin özü idi. Tarix isə böyük dühaların parlaq əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünyanın tarix kitabına Babəkin, Cavanşirin, Şəmsəddin Eldənizin, Şah İsmayıl Xətainin adını qızıl hərflərlə yazmışdır.

XX yüzillikdə xalqın daha bir dahisi yetişdi – Heydər Əliyev! Atatürk, Vaşinqton, Nehru kimi Heydər Əliyev də dünyanın nadir simaları arasında layiqli yer tutdu. O, dünya tarixinin azərbaycanlı Dahisi oldu. Amma bir həqiqəti də danmaq olmaz ki, mənim Dahim dahilərin Dahisidir.

Aqillərin biri demişdi: «Elə yaşa ki, öləndən sonra da ölməyəsən». Ölməzlik, həmişəyaşarlıq isə ancaq dahilərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev də məhz belə xoşbəxtlərdəndir. Bənövşə ətirli bir bahar günündə dünyaya göz açan bu bahar oğlu xalqına əbədi bahar gətirmiş dahi şəxsiyyətdir. Hətta əynində gəzdirdiyi sovet dövlətinin general mundiri belə qəlbində daşıdığı vətən, millət sevgisinə kölgə sala bilməmişdi.

Ulu Öndər bir dağ idi. Arazın o tayında və bu tayında yaşayan soydaşlarımız iki dağa ən böyük dayaq, nicat rəmzi, səadət nişanəsi kimi baxırlar. Cənubi Azərbaycan Heydərbaba dağına, Şimali Azərbaycan Heydər Əliyev dağına.



Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilən, düzgün istiqamətə yönəldən bir siyasət idi. Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiyməti idi. O, bütün dünyanın rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də nəinki «sülh dili» ilə danışmağı bacarırdı, onlara da bunu aşılaya bilirdi. Ulu Öndərimizin ən ali insani keyfiyyətləri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi. Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi.

Ulu öndərimiz Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində Azərbaycanı geridə qalmış bir ölkədən dünyanın inkişaf etmiş ən mütərəqqi ölkələri sırasına qaldırmağa müvəffəq olmuşdur. Belə ki, ən böyük uğura – «Əsrin müqaviləsi»nin imzalanmasına nail olmuşdu. Bu isə siyasi qələbədir.

Heydər Əliyevin təşəbbüsü ilə Cənubi Azərbaycanın ustad şairi Şəhriyarın çapına qadağa qoyulan saysız-hesabsız əsərləri çap olundu. 1970-ci illərdə tarixi mənəvi-psixoloji filmlər çəkilməyə başlandı. Hansı ki, bu filmlər xalqda milli mənəviyyatın oyanmasında mühüm rol oynadı. Hüseyn Cavidin Sibirin meşələrində uyuyan cəsədinin tapılıb Azərbaycana gətiriləçrək öz vətənində dəfn edilməsi onun necə vətənpərvər bir oğul, öz mədəniyyətinə qiymət verən böyük şəxsiyyət olmasına bir daha sübutdur.

Torpaqlarımızı işğal edən ermənilərin vəhşi iç üzünü açıb bütün dünya ictimaiyyətinə göstərə bilən Heydər Əliyev böyük və qüdrətli bir vətənpərvər idi. Heydər Əliyev hesab edirdi ki, hər bir kəs öz ana dilini mükəmməl bilməlidir. Lakin Azərbaycan gəncləri Şekspiri ingilis dilində, Puşkini rus dilində, Höteni alman dilində oxusa, bizim fəxrimizdir. Bu gün bunlar vacibdir. Vaxtilə xalq şairi S.Vurğun da göstərirdi ki, millilik ümumbəşərilikdən keçir.

Heydər Əliyevin müstəqillik siyasətində hərbi vətənpərvərlik, milli ordunun yaradılması, onun işinin təkmilləşdirilməsi mühüm yer tuturdu: «Bu gün ən başlıca vəzifə hər bir gənci orduya xidmətə hazırlamaqdan ibarət olmalıdır» – deyərdi Ulu Öndərimiz.

Heydər Əliyev hələ çox əvvəllərdən bu günü görürdü, doğma vətənini bu gün üçün hazırlayırdı. Böyük dühə sahibi yeni Azərbaycanı, bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı.

Əziz babamız bir zamanlar söyləyirdi ki, mən azərbaycanlı olduğumla fəxr edirəm. Bu gün isə biz Sizin kimi dahi şəxsiyyətimiz olduğu üçün qürur duyuruq. Heç bir lider xalqını Sizin kimi sevməyib. Sizdən bizə çox

yadigar qalıb. Ən dəyərlisi isə «Yol»–dur, böyük Heydər Əliyev yolu. Bu yolun yolçuları vətənə, xalqa sədaqəti məhz Sizdən öyrənirlər.

Lakin həyatın acı qanunları da varmış. Əcəl bu fenomenal şəxsiyyəti bizdən aldı. Yeni Azərbaycanın qurucusunu, millətin taleyində baş rolu oynayan böyük insanı itirdik. Ancaq ümidimizi, inamımızı itirməmişik. Çünki Heydər Əliyev ocağının qılınc kimi kəsərli sözü, əməli olan İlham Əliyev, Sara xatun siyasətli Mehriban Əliyeva kimi varisləri var. Bu böyük insanlar da daim xalqımızın taleyini düşünür, biz gənclərin xoşbəxt gələcəyi, torpaqlarımızın azad edilməsi üçün əllərindən gələni əsirgəmirlər.

Əziz oxucu dostlarım! Dahi rəhbər vaxtilə demişdi: «Nə qədər ki, Azərbaycan var, mən də varam! Mən isə Azərbaycanda həmişə olacağam».

*Əməli hər kəsə əyandır, əyan*
*Hörmətlə yaşayır qəlblərdə hər an*
*İllər ötsə belə, keçsə də zaman*
*Bir Heydər qalacaq, bir Azərbaycan.*

Ulu Öndərimiz, doğrudan da, həmişə bizimlə olacaq. Nağıllarda, dastanlarda, şeirlərdə, nəğmələrdə və müstəqil vətənimizin hər guşəsində ucalan abidəsi ilə. Dahi şəxsiyyətin ən böyük abidəsi isə xalqın ürəyindədir.





**Ağayev Səxavət Adıgözəl oğlu**
**Astara Pedaqoji Kollecinin**
**IV kurs tələbəsi**

Bəşər tarixində xalqların, millətlərin müstəqillik yolunda fədakarlıq göstərən şəxsiyyətlər olmuşdur. Azərbaycan xalqı zəngin və qədim tarixə malikdir.

Zaman keçdikcə Azərbaycan ərazisi zəbt olunmuş, digər imperiyaların əsarəti altına düşmüşdür.

Doğma Azərbaycanımız rus və İran imperiyaları arasında böyük fəlakətlər bahasına bölündü.

Vətənimiz yadellilərə qarşı həmişə mübarizə aparırdı.

Xalqımız nə qədər əsarət altında olsa da, müstəqillik duyğusunu itirmədi. Bu böyük həyati istəyi ona qazandıran Azərbaycanın dilbər guşələrindən biri olan Naxçıvanda 1923-cü ilin 10 may tarixində dünyaya göz açmış ulu öndərimiz Heydər Əliyev qazandırdı.

Ulu öndər hələ SSRİ Nazirlər Sovetinin birinci müavini işləyərkən Azərbaycan xalqının taleyüklü məsələlərin həll olunmasında, onların həyat şəraitlərinin, milli dəyərlərin qayğısına böyük fədakarlıqla qalmışdır.

Ulu öndərin gördüyü işlər əsrlər boyu xaricilərin təsirinə məruz qalan xalqı müstəmləkə əsarətindən xilas etdi. Bu yolda gördüyü işlərə nəzər salsaq onun məqsədyönlü siyasət yeridərək neft strategiyalarına, böyük layihələrə imza atdığını görərik.

Azərbaycan, Odlar yurdu artıq tərəqqi dövrünü yaşayırdı. Bu dövrdə xalqın istər mədəni, istərsə də siyasi cəhətdən irəliləyişləri olmuşdu.

Bu irəliləyişlərə SSRİ qısqanclıqla baxırdı. SSRİ ermənipərəst mövqeyindən çıxış edənlərin hakimiyyəti altında idi. Ermənilərin Dağlıq Qarabağa, o cümlədən ölkəmizin digər bölgələrinə ərazi iddialarını irəli sürürdülər.

Təcavüzkar əməllərindən əl çəkməyən ermənilər Azərbaycan Respublikasının olmasını istəmir, ərazisini zəbt etməyə çalışırdılar.

Heydər Əliyev cənabları dəfələrlə öz iradını mötəbər konfranslarda bildirmiş, erməni işğalçılığını tənqid etmişdi.

Parlayan işığımız Heydər Əliyev bu xalqa, millətə azadlıq lazımdır düşünərək, özünü ölüm təhlükəsi qarşısında qoymasına baxmayaraq, cəsarətlə fəaliyyətə başlamışdır. Heydər Əliyev Moskvada, öz tutduğu vəzifəsindən istefa verərək doğma vətəninə qayıtdı. NMR quruculuq işində böyük fəaliyyət göstərdi. NMK SSRİ tərkibindən çıxdığını elan etdi.

Azərbaycanın bir çox rayonu məhz onun sayəsində Sovet müstəmləkəsindən qurtuldu. Qarabağda hələ çox işlər vardı. Azərbaycan ərazisi bölünmək təhlükəsi qarşısındaydı. Rus meyilli hakimiyyət nümayəndələri, müxalifət Heydər Əliyev cənablarının uğurlarını görmək istəmirdilər. Ona qarşı təxribarçı planlar həyata keçirirdilər. Azərbaycan xalqı yaxşını pisdən seçən bir xalqdır. Son anda düzgün qərar verərək Ulu öndəri Vətənə dəvət etdilər. Ulu öndərin fəaliyyətə başlaması, xalqın arzu-istəklərinin yerinə yetməsi demək idi. Heydər Əliyev Ali Sovetin sədri seçildi. Sonra isə 1993-ci ildə Azərbaycan Respublikasının prezidenti seçildi. Təcavüzkar qüvvələr fəaliyyətdə idi. Azərbaycan xalqının doğma yurdu bölünmək təhlükəsi qarsısında idi. Tədbirli və uzaqgörən Heydər Əliyev bunun qarşısını mərdliklə, xalqın köməyi ilə aldı. Rusiyanınköməkliyi ilə Dağlıq Qarabağda atəşkəs elan olundu. Bu siyasi cəhətdən düzgün bir taktika idi.

Bundan istifadə edən Ulu öndər ordu quruculuğu işində böyük nailiyyətlərə nail oldu. Ordu yenidən quruldu, təcavüzkar qüvvələrin orduya müdaxilə etməsinin qarşısı alındı. Sonradan yeni qurulmuş ordunun sayəsində işğal altında olan bir sıra qəsəbə və kəndlər düşmən tapdağı altından xilas oldu.

Ulu öndərin gördüyü işlər Azərbaycan xalqına, millətinə, göstərdiyi xidmətlər xalqın qəlbində yenilməz zirvə olan Heydər Əliyev böyük yer tutdu.

Məhz bunun bariz nümunəsidir ki, Heydər Əliyev ikinci dəfə dövlət başçısı seçildi. Hələ 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ölkəyə öz bəhrəsini verməkdə idi.

Azərbaycan Respublikasının neftinin dünya bazarına çıxarılması bu uğurlu müqavilələrin sayəsində idi.

Qonşu ölkələrlə, eləcə də digər ölkələrlə dostluq, diplomatiya əlaqələrinin qurulması, Heydər Əliyevin uğurlarından xəbər verir.



Azərbaycan Respublikasının mötəbər təşkilatlara – NATO-ya, ATƏT-ə yaxınlaşması. ABŞ və digər dünyanı idarə edən güclərlə mehriban münasibəti Azərbaycan xalqının tarixində əvəzedilməz rol oynadı. Azərbaycana qarşı yönəlmiş 907-ci düzəlişin ləğv olunması Heydər Əliyevin sayəsində oldu. Dünyanın görkəmli siyasi xadimlərinin Heydər Əliyev haqqındakı fikirləri sübut edir ki, bu parlaq şəxsiyyət təkcə Azərbaycan Respublikasında deyil, digər xarici ölkələrdə də sevilir və hörmətlə qarşılanır.

Ulu öndərin qurduğu sivill demokratik ölkə dünyada müasir dövrümüzdə öz yerini tutmaqdadır. Heydər Əliyev bu dövləti qurdu. Onun xalqı üçün gördüyü böyük «fədakarlıq heç vaxt unudulmaz. Biz gənclərin qayğısına qalmandan ötrü müasir tələblərə cavab verən təhsil mərkəzləri, idman kompleksləri gənclər evləri və s. istifadəyə verildi.

Ulu öndər Azərbaycan gənclərinin təhsildəki uğurlarının səbəbkarıdır. Xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin həyat şəraitinin yaxşılaşdırılmasına, ölkədə gənc kadrların işlə təmin olmasına böyük qayğı və diqqət göstərirdi.

Azərbaycan gənci bu yaxşılıqları heç vaxt unutmayacaq. Bu gözəl və savab işləri görən Heydər Əliyevi ürəklərində yaşadacaqlar. Gənclər onu həmişə nümunə görəcək, xalqın həyatında gördüyü işlərdə, onun əzmkar yolunun davamçısı olmaq istəyəcəklər. Azərbaycan gənci fəxr edir, qürurla öyünə bilər ki, Heydər Əliyev kimi bir dahi şəxsiyyət, yaratdığı fədakarlıq, parlaq məktəbinin davamçısı olacaqlar.

Mərhum Prehidentimizin sevə-sevə dilə gətirdiyi bir kəlmə:

«Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən Azərbaycanlıyam». Bu şüar hər bir azərbaycanlı gəncin həyat və fəaliyyətinə böyük örnəkdir.

Xalqın ürəyindəki sevgi və duaları Heydər Əliyevi daima qorudu. Hakimiyyətdə olduğu illər Azərbaycan tarixinə qızıl hərflərlə yazılmağa layiq olan bir dahi şanlı müstəqillik tariximizi yazdı.

Ümummilli liderimiz xalqını heç vaxt unutmurdu və sevirdi.

Nitqindəki kəlmələrdə qeyd edirdi ki, mən həyatımı bu xalqa sərf etməyə hazıram, nə qədər ömrüm var bu millətin problemlərini həll etməyə çalışacağam.

Fələk son anda Azərbaycan xalqına qıydı, onun yenilməz oğlunu 2003-cü ildə onun əlindən aldı. Heydər Əliyevin özü aramızda olmasa da, onun yolunu layiqlə davam etdirən cənab prezidentimiz İlham Əliyev uğurlarıyla, dəyərli ağlı və biliyilə ölkəni idarə edir. Xalq Ümummilli liderin nümunəsi olan İlham Əliyevə böyük sevgi və rəğbət bəsləyir. İnanırıq

ki, gənclərimiz bu gənc liderimizin bütün tapşırıq və göstərişlərini müvəffəqiyyətlə yerinə yetirəcəklər.

İlham Əliyevin uğurlu siyasəti nəticəsində Dağlıq Qarabağ problemi öz həllini tapacaqdır. 2003-cü ildə hakimiyyətə gələn gənc lider İlham Əliyev mərhum prezidentimiz Heydər Əliyevin ənənələrinə sadiq qalaraq Azərbaycan xalqının həyatında uğurlu işlər gördü. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində böyük işlərin sahibi olan İlham Əliyev, dünyadakı sorğu keçirilən mətbuat orqanları tərəfindən «İlin adamı» seçilmişdir.

Azərbaycan xalqını xaricdə təmsil edərkən xalqımızın sülh tərəfdarı olduğunu qeyd edərək müharibəni pisləmişdir.

Gənclər İlham Əliyevin ideyalarını bəyənir, onu özünə dəyərli nümunə sayaraq ətrafında sıx birləşirlər.

Ulu öndər əbədiyyətə qovuşduqdan sonra da xalq onu sevir və sevəcək. Hər bir Azərbaycan Respublikasının vətəndaşı, onu özünə dəyərli bir nümunə bilir. Onun bariz nümunəsidir ki, hər il Heydər Əldiyevin məzarı müqəddəs ziyarətgaha çevrilir. Uşaqdan böyüyəcən hamı onu ziyarət edir.





## *Abbasova Əfsanə Əli qızı*

***İmişli şəhəri, Nəriman Nərimanov adına 1 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Tarix şəxsiyyətlər yaradır, şəxsiyyətlər isə tarixi. Belə dahi, böyük şəxsiyyətlər millətin taleyinə yüz ildən, bəlkə də, min ildən bir düşür. Bu baxımdan Azərbaycan xalqı nə qədər xoşbəxtdir ki, onun əsrin hər dövründə başını uca edəcək şəxsiyyətləri var. Zaman-zaman bizi beynəlxalq aləmdə qaniçən, qəddar bir millət kimi tanıdan mənfur ermənilərə hər zaman sübut etmişik ki, biz dünyanın sivil, ziyalı və mədəni xalqlarından biriyik. Nəinki ermənilər, indi bütün dünya bilir ki, biz – Azərbaycan xalqı mədəni, inkişaf etmiş bir xalqıq. Bütün bunlara görə isə biz həmişə dövlətimizi, xalqımızı ucaldan dahi insanlara, dühalara borcluyuq. XX əsrin 90-cı illərində Azərbaycan xalqı daha bir dühа verdi dünya tarixinə. Belə ki, xalqımızın çətin, ağır günündə millətimin xilaskar oğlu – Heydər Əlirza oğlu Əliyev öz müdrik siyasəti ilə xalqımızı xilas etdi.

Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə Naxçıvan MR-də doğulub. Təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda, bütün dünyada dahi şəxsiyyətə çevrilən Heydər Əliyev gələcək həyatını siyasətə bağladı. Hələ Sovet hakimiyyəti dövründə Heydər Əliyev Azərbaycanın inkişafına, irəliləməsinə çalışırdı. Respublikamızın ən uğurlu inkişafı da ulu öndər Heydər Əliyevin birinci hakimiyyəti dövrünə, yəni 1969–1982-ci illərə təsadüf edir.

Sonrakı dövrlərdə hər zaman Azərbaycana qarşı ərazi iddialarında olan Ermənistan Respublikasının torpaqlarımıza təcavüzü daha da genişləndi. Bu işdə onlara o vaxtkı sovet rəhbərliyi də yaxından kömək edirdi. Bir-birinin ardınca baş verən «20 Yanvar» faciəsi, «Daşaltı» əməliyyatı, «Qarakənd» faciəsi və ən nəhayət, əsrin ən dəhşətli faciəsi olan «Xocalı soyqırımı» bir daha göstərdi ki, sovet hakimiyyəti bizim müstəqillik arzularımızı həzm edə bilmir. Xalqı qorxutmaq yolu ilə azadlıq arzularımızı boğmaq

istəyir. Qəhrəman xalqımızın isə yalnız bir istəyi vardır – müstəqil Azərbaycan olsun. Başımızın üstündə müqəddəs üçrəngli bayraq dalğalansın. Bu istək, vətən məhəbbəti o qədər güclü idi ki, heç bir qüvvə ona qalib gələ bilməzdi, heç o vaxtkı sovet imperiyasının göndərdiyi müasir hərbi texnika da. Cəbhədə Ermənistanla elan olunmamış müharibə gedirdi. Əli silah tutan qəhrəman oğullarımız əllərinə silah alıb, vətən uğrunda döyüşə gedirdilər. Hər gün cəbhədən ağır xəbərlər gəlirdi. Belə çətin bir vaxtda ölkə daxilində hakimiyyət uğrunda mübarizə gedirdi. Digər tərəfdən də vətəndaş müharibəsi başladı. Azərbaycanlı azərbaycanlını qırırdı. Vəziyyət və şərait olduqca mürəkkəb idi. Qəhrəman və qədirbilən xalqımızın mübarizə əzmi qırılmadı. Qədirbilən xalqımız yaxşı başa düşürdü ki, belə gərgin siyasi vəziyyətdən dövlətimizi yalnız və yalnız Heydər Əliyev çıxara bilər. Hər zaman xalqını, onun taleyini düşünən müdrik siyasətçi Heydər Əliyev bu dəfə də xalqın yalqız qoymadı, ona sahib çıxdı. 1993-cü ildə xalqın təkidi ilə Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikasında ikinci dəfə hakimiyyətə gəldi. Uzaqgörən siyasətçi Heydər Əliyev qısa zamanda siyasi danışıqlar yolu ilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini nizama saldı. 1994-cü ildə Ermənistanla atəşkəsə nail oldu. Artıq siyasi yolla,iqtisadiyyatın inkişafı ilə hələ 1991-ci il 18 oktyabrda müstəqilliyini elan etmiş bir ölkəni-müstəqil Azərbaycan Respublikasını inkişaf etdirmək lazım idi. Ümummilli lider Heydər Əliyev yaxşı bilirdi ki, ölkədə inkişafa gedən yol iqtisadiyyatdan keçir. Buna görə də 1994-cü ildə Heydər Əliyevin yaxından iştirakı ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri istifadəyə verildi. Üç dövləti – Azərbaycan, Türkiyə və Gürcüstanı özündə birləşdirən və əhəmiyyətinə, böyüklüyünə görə «Əsrin müqaviləsi» adını alan bu nəhəng layihə gələcək uğurlara hesablanmışdı. Artıq beynəlxalq aləmdə dövlətimizin nüfuzu artır, Bakı nefti Avropaya, dünya bazarlarına çıxarılırdı. Xarici dövlətlərdə səfirlik açılır, lobbilər yaradılırdı. Bütün bunlar Heydər Əliyevin gərgin siyasi fəaliyyətinin əməli nəticələri idi. O həm xarici səviyyədə, həm də ölkə daxilində dövlətin yüksəlməsinə çalışırdı. Ölkədə qayda-qanun yaratmaq üçün 1995-ci il noyabr ayının 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Burada insan və vətəndaşın hüquq və vəzifələri öz əksini tapmışdır, yerli (özünüidarəetmə) bələdiyyələr haqqında, onların vəzifələri haqqında geniş məlumat verilib. Daha sonra respublikamızda senzura ləğv edildi. Bu da öz növbəsində qəzetlərin, jurnalların, kütləvi informasiya vasitələrinin inkişafına təkan verdi. Humanist, insanpərvər bir şəxsiyyət olan Heydər Əliyev 1998-ci ildə ölkədə ölüm hökmünü ləğv etdi. Həm dini nöqteyi-nəzərdən, həm də insan hüquqları nöqteyi-nəzərdən bu böyük və



uğurlu addım idi. Bütün siyasi, iqtisadi və mədəni uğurlar günü-gündən ölkəmizi daha uca zirvələrə aprırdı. Xalq firavan yaşayır, hakimiyyətə, onun başçısı Heydər Əliyevə inanır, müstəqil respublikamızda azad yaşayırdı. Artıq 1998-ci ilin prezident seçkilərində xalq onu sevən, rifahını yaxşılaşdıran müdrik siyasətçiyə səs verdi. Heydər Əliyev yenidən prezident seçildi. O, xarici ölkələrə siyasi səfərlərə gedir, ölkəmizin inkişafı üçün müzakirələr aparırdı.

Həmişə xalqını, millətini düşünən, ona bütün qəlbi ilə bağlı olan prezident Heydər Əliyevin sayəsində 70 il əsarətdə qalan xalq cəmi 10 ilin içində – 1993–2003-cü illərdə o qədər yüksəldi ki, beynəlxalq təşkilatlara – ATƏT-ə, BMT-yə, İKT-yə üzv olduq. Bayrağımız ucalarda dalğalandı. Bilikli tələbələrimizin, gücü idmançılarımızın səsi ucalardan gəldi. Bütün inkişaf isə müstəqil ölkənin sağlam rəqabətlə, düzgün siyasətlə inkişaf etməsindən asılı idi. Heydər Əliyev elə bir dövlət yaratmışdı ki, bu dövlətdə atılan hər bir addım sonradan böyük uğurlara çevrilirdi.

Zaman imkan vermədi, imkan vermədi ki, Heydər Əliyev daha uzun zaman yaşasın, xalqının uğurlarını, inkişafını görsün. Uzun sürən ağır xəstəlikdən sonra o, 2003-cü ildə vəfat etdi. Xalqımız igid, müdrik siyasətçisini, vətənpərvər oğlunu son mənzilə layiqincə yola saldı.

Deyirlər, əvəzolunmaz insan yoxdur. Heydər Əliyev ölümü ilə sübut etdi ki, əvəzolunmaz insanlar var, olub və olacaq. O, əsl şəxsiyyət idi. Vətənini sevən, onu qoruyan, uca tutan əsl şəxsiyyət idi. Ömrünün yarısını xalqına, onun rifahına həsr etmişdi. Bu gün Ulu Öndər elə bir zirvədə dayanıb ki, buradan şimallı-cənublu bütün Azərbaycan görünür. Onun istəyi də bu idi. Azad, bütöv müstəqil Azərbaycan qurmaq. O, əsrin hər dövründə nəsillərə nümunə olacaq əsl dühadır. Azərbaycan xalqının bəşəriyyətə baxan gözləridir. Bu gözlər nurunu heç vaxt itirməyəcək. Bir cüt məşəl kimi xalqının zirvələrə, qalibiyyətə gedən yolunu işıqlandıracaq. Bu xalq, bu millət də ümummilli liderini unutmayacaq, onun xatirəsini həmişə əziz tutacaq.

Bu gün müasir Azərbaycan dünyanın ehtiyacı olan mədəni, inkişaf etməkdə olan bir dövlətidir. Dahi şəxsiyyət Heydər Əliyevin siyasi ideyalarını İlham Heydər oğlu Əliyev layiqincə davam və inkişaf etdirir. Onun rəhbərliyi ilə Respublikamız möhtəbər siyasi tədbirlərə, idman yarışlarına ev sahibliyi edir. Günü-gündən inkişaf edən ölkəmizin qüdrətini bütün dünya anlayır. Tezliklə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ problemi dövlətimizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaq. Dövlətimizin gücü daha da artacaq.

Nə qədər ki, nəsillərə nümunə olacaq dahi şəxsiyyət Heydər Əliyevin ideyaları yaşayır, onun siyasi kursunu layiqincə davam etdirən prezident İlham Əliyev var, o qədər də ölkəmiz uğurlu sabahlara, qalibiyyətli günlərə addımlayacaq. Onların zəkasının nuru xalqımızın yolunu işıqlandıracaq. Müstəqil Azərbaycanın qurucusu bu dahi şəxsiyyət – Heydər Əliyevdir. Onun qüdrəti ilə varıq, olmuşuq və olacağıq.









## *Abbasova Aytac Hüseyn qızı*
***Zəngilan rayonu, 26 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Azərbaycan qədim zamanlardan yadellilərin, qəsbkarların, vətənimizin gözəlliyinə, saysız-hesabsız təbii sərvətlərinə, yeraltı və yerüstü dəyərlərinə, ucsuz-bucaqsız təbiətinə heyran olan və susayan «vəhşilər»in diqqət mərkəzində və hədəfində olmuşdur. Ana yurdumuz bugünkü azadlığı, müstəqilliyi, demokratiyanı əldə edənə qədərə çox çətin, ağır sınaqlardan keçmişdir. Dövlətimizi bu sınaqlardan üzüağ çıxaran, indiki vəziyyətə gətirən onun vətənpərvər, qeyrətli oğulları olmuşdur. Onların ən bariz nümunəsi isə adı çəkiləndə Azərbaycan yada düşən ümummilli liderimiz Heydər Əliyevdir.

Biz bu gün demokratik, hər kəsin öz fikrini sərbəst şəkildə ifadə etdiyi, bütün insanların bərabər hüquqda olduğu bir dövlətdə yaşadığımız üçün ona borcluyuq. Heydər Əliyev ölkəmizin müstəqillik əldə etməsi, inkişafı, beynəlxalq aləmdə özünü tanıtması üçün saysız-hesabsız işlər görmüşdür. Ulu Öndərimiz bütün siyasi fəaliyyəti ərzində bir dəfə də olsun vətənə xəyanət etməmiş, onu dar ayaqda tək buraxmamışdır. Özünün dediyi kimi, o, vətəni anası kimi sevmişdir. «Mən anamı cəmi Azərbaycana bənzədirəm: Ana qibləgahdır. Mənim Azərbaycanım həm qibləgah, həm də ziyarətgahdır».

Heydər Əliyev müstəqiliyimizin, dirçəlişimizin banisi, hər birimizə nümunə olan iradəli, cəsur, humanist, uzaqgörən bir tarixi şəxsiyyətdir. O, hər bir vətəndaşın fikrinə, probleminə diqqət göstərən, daima xalqın arasında olan, yalnız ölkəmizin gələcəyi barədə düşünən, gəncləri Azərbaycanın gələcəyi adlandıran bir dövlət başçısı olmuşdur. Məhz bu xidmətlərinə görə də xalq onu daima qəlbində yaşadır, Ulu Öndərin xatirəsini əziz tutur.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Atası Əlirza dəmirçilik sənəti ilə məşğul olaraq

ailəsini dolandırırdı. Çətin bir dövrdə təhsil alan Heydər Əliyev 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə qəbul olunur. Lakin o, müharibəyə görə təhsilini başa vura bilmir və təhlükəsizlik orqanlarında işləməyə başlayır. Heydər Əliyev 1941-ci ildə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə təhlükəsizlik orqanlarına işə göndərilmişdir. Həmin ildən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsində sədr müavini, 1967-ci ildən isə həmin komitənin sədri vəzifəsində çalışmış və general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində xüsusi ali təhsil almış, 1957-ci ildə isə Bakı Dövlət Universitetinin tarix fakultəsini bitirmişdir.

Heydər Əliyev Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək ölkənin rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Ümummilli Liderimiz SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. O, iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı olmuşdur.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək xalqımıza qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranan münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev bir müddət Bakıda, sonra isə Naxçıvanda yaşamış və həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

1993-cü ilin may, iyun aylarında ölkədə müstəqilliyin itirilməsi, eləcə də vətəndaş müharibəsinin baş vermə təhlükəsi yarandıqda xalq Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinə sədr seçildi. Bu gün tarixə «Milli Qurtuluş günü» kimi daxil oldu. İyulun 24-də isə o, Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun qətiyyəti, əzmkarlığı, uzaqgörənliyi sayəsində 1994-cü il may ayının 12-də Ermənistanla atəşkəs haqqında razılaşma əldə olundu, beş ildən artıq davam edən hərbi əməliyyatlar dayandırıldı. Xalqın sakit, normal həyatı üçün vacib olan siyasi sabitlik əldə olundu. Bu sahədəki işlərin vüsəti xeyli artdı. Məsələnin sülh yolu ilə aradan qaldırılmasının tərfdarı olduğunu bildirən Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində intensiv sülh danışıqları aparıldı.



Nəsillərə nümunə olan dahi şəxsiyyət Heydər Əliyevin ölkəmiz üçün gördüyü işləri saymaqla qurtarmaz.

O, daima gənclərin dostu olmuşdur. Ölkənin ictimai-siyasi həyatında, dövlət idarəetmə strukturlarında azərbaycanlı gənclərin fəal iştirakı üçün şərait yaratmağa çalışmış bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir. Böyük Rəhbərin şəxsi təşəbbüsü ilə minlərlə gənc respublikamızdan kənarda yüksək səviyyəli ali təhsil ocaqlarında təhsil almışdır.

Həmçinin hüquqi dövlət quruculuğu prosesi bilavasitə Ulu Öndərin adı və fəaliyyəti ilə bağlıdır. Hakimiyyətə gəldiyi ilk zamanlardan ölkədə baş alıb gedən hərc-mərcliyə son qoydu, bütün qanunsuz, silahlı dəstələri ləğv etdi, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə aldı. Ölkəmiz Ulu Öndərin rəhbərliyi altında hüquqi dövlətə doğru ilk addımlarını atmağa başladı.

Heydər Əliyevin müəllifi olduğu konstitusiyamızın qəbul edilməsi ilə hüquqi dövlət quruculuğu üçün zəmin yaradıldı. Konstitusiyamızda insan hüquq və azadlıqlarının qorunmasına geniş yer verilib.

Bunlardan əlavə, Heydər Əliyev ölkədə fəaliyyət göstərən bütün iş adamları və sahibkarların himayədarı idi. Ölkədə iqtisadi islahatların aparılması, bazar iqtisadiyyatının inkişafı üçün normativ-hüquqi bazanın yaradılması, sahibkarlara dövlət qayğı və himayəsi, bu sahəyə investisiyaların cəlb edilməsi Heydər Əliyevin səmərəli və gərgin əməyinin bəhrəsidir. Tarixə «Əsrin müqaviləsi» adı ilə daxil olan neft sazişinin imzalanması ilə ölkəyə xarici sərmayə axınının əsasını qoydu.

Öz fitri istedadı, uzaqgörənliyi, müdrikliyi ilə dünyaya pəncərə açan Heydər Əliyev müstəqilliyimizin müəllifi, yeni Azərbaycan cəmiyyətinin memarıdır. Xalqımız hələ yüz illər sonra da onun ideyalarından bəhrələnəcək, bütün tərəqqipərvər bəşəriyyət böyük düha sahibinin öz ölkəsinə bəxş etdiklərinə yenə də alqış deyəcək. Onun bu sözü isə hər zaman dillər əzbəri olacaq:

«Mən fəxr edirəm ki, azərbaycanlıyam!»



## *Abdullayeva Cəmilə Namiq qızı*

***Bakı şəhəri, 210 nömrəli tam orta məktəbin X sinif şagirdi***

*Görüşünə gəlib güllə, çiçəklə,*
*Bütün Azərbaycan, ey Ulu Rəhbər!*
*Səksən il ömr etdin, hər dəqiqəsi*
*Bir ilə bərabər, ömrə bərabər!*

Bu sözləri birmənalı olaraq dahi şəxsiyyət, əfsanəvi insan olan Heydər Əlirza oğlu Əliyev haqqında demək olar.

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin tarixi yaradıcısıdır. Qarşılaşdığı bütün dramatik şəraitlərdən, çıxılmaz və ağır anlardan o yalnız qalib kimi çıxmışdır.

Heydər Əliyev totalitarizm labirintlərindən Azərbaycanı məharətlə çıxarmışdır. SSRİ dağıldıqdan sonra isə Azərbaycan siyasi Liderin təcrübəsindən bir daha yararlandı. O nəinki Azərbaycanın stabilliyini bərqərar etdi, həmçinin Azərbaycanı dünya arenasında sayılıb-seçilən ölkələr içərisinə çıxartdı.

Heydər Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra isə Azərbaycan Sənaye İnstitutunun, indiki Azərbaycan Dövlət Neft Akademiyasının memarlıq fakultəsində təhsil almağa başlamışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1944-cü ildən başlayaraq Azərbaycan Respublikasının Təhlükəsizlik komitəsinin rəhbəri, Azərbaycan Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini vəzifələrinə qədər yüksəlmişdir.

Heydər Əliyev 1993-cü ilin oktyabrında səsvermə yolu ilə Azərbaycan Respublikasının sayca üçüncü prezidenti seçilmişdir.



Həqiqətən də, bu, Azərbaycan tarixinin böyük bir dövrüdür. Avtoritet şəxsiyyət Heydər Əliyev 34 il məmləkətimizə rəhbərlik etmişdir.

Heydər Əliyev ağlasığmaz dərəcədə zəhmətkeşliyə, işgüzarlığa malik idi. Onun iş saatı 11–12 saat davam edirdi. O, gözəl natiq idi və heç bir çətinlik çəkmədən, qabaqcadan hazırlaşmadan hər hansı mövzu haqqında saatlarla danışa bilərdi. Heydər Əliyev polad əsəblərə malik bir şəxsiyyət idi. 1985–1987-ci illər onun üçün ağır illər idi. Sovet rəhbəri Mixail Qorbaçov Heydər Əliyevi heç sevmirdi və onu işdən uzaqlaşdırmaq üçün onda hər hansı səhv axtarırdı. Heydər Əliyev isə öz işində məharətlə çalışır və rəqiblərinin onda hər hansı səhv tapmağına imkan vermirdi.

Heydər Əliyev Azərbaycan müstəqilliyi üçün bir çox işlər gördü. Vətən müharibəsinə sürüklənmiş ölkəni xilas edən Heydər Əliyev Azərbaycan xalqının tarixinə perspektivlər bəxş etdi. 1993-cü ildə ölkəni siyasi böhran bürümüşdü. Ölkəni bu çətinlikdən çıxaran bir şəxs tapılmadı. Bu işin öhdəsindən yalnız Heydər Əliyev gələ bilərdi və gəldi də. O, ölkəni bu siyasi böhrandan qurtardı. Məhz buna görə də, Heydər Əliyevi XX əsrin ikinci yarısında yaşamış dünyanın ən böyük siyasi lideri seçmişdilər. 1993-cü il oktyabrın 15-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın prezidenti seçilmişdi. 2003-cü ildə keçirilən prezident seçkilərində namizədliyini irəli sürsə də səhhətində yaranmış problemlə əlaqədar iştirak etməmişdir. 2003-cü il dekabrın 12-də isə vəfat etmişdir.

Heydər Əliyev bir sıra medallar, ordenlər və fəxri adlarla təltif olunmuşdur. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüyünə görə anadan olduğu Naxçıvan şəhərində büstü qoyulmuşdur.

Heydər Əliyevin həyatında həyat yoldaşı Zərifə xanım Əliyevanın böyük rolu olmuşdur. Görkəmli şəxsiyyət, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru Zərifə xanım Əliyeva haqqında onun tanışlarının, yaxınlarının, dostlarının dedikləri ağlasığmazdır. Əziz Əliyevin qızı, Heydər Əliyevin həyat yoldaşı Zərifə xanım Əliyeva öz təvazökarlığı, gözəlliyi, incəliyi və zəkası ilə həmişə seçilmişdir. Həyatının son günlərində belə özünü işinə və ailəsinə həsr etmişdir. Zərifə xanım Əliyeva Heydər Əliyevin həyat yoldaşı, uşaqlarının anası olmaqla, həm də layiqli dostu, silahdaşı idi.

Heydər Əliyev ömrünün xoş və mənalı anlarını vətənimiz doğma Azərbaycanın müstəqilliyinə və xalqının rifahına həsr etmişdir. O, Azərbaycanın çiçəklənməsi üçün bir çox işlər görmüşdür.

Heydər Əliyev Azərbaycana görkəmli şəxiyyətlər bəxş etmişdir. Gənclərin gələcəyi, onların həyatının parlaq olması üçün əlindən gələni əsirgə-

məmişdir. Gəncləri yüksək səviyyədə təhsil almağa yönəltmişdir. Onun gənclərə ünvanladığı: «Bu gün sizin başlıca vəzifəniz oxumaqdan, müstəqil işləmək vərdişləri əldə etməkdən, həqiqəti axtarmaqdan və ona nail olmaq bacarığına yiyələnməkdən, yəni kamil mütəxəssis olmaq, cəmiyyətimizə daha çox fayda vermək üçün zəhmətlə, səylə, əzmlə bilik, mədəniyyət, ictimai vərdiş ehtiyatı toplamaqdan ibarətdir», – sözləri hər bir gəncin devizinə çevrilmişdir. Biz gələcəyə addımlayarkən ulu öndərimiz Heydər Əliyevin bu dəyərli sözlərinə əməl etməliyik.

Heydər Əliyevin dönə-dönə söylədiyi: «Mən fəxr edirəm ki, azərbaycanlıyam», ifadəsini bu gun qurur hissi ilə deyirik, çünki Heydər Əliyevin uğurlu siyasəti sayəsində bütün dünyada öz sözünü deməyi bacaran müstəqil Azərbaycanda doğulmuşam. Bu gün də Azərbaycan vətəndaşı oldugum üçün, Azərbaycan dilində danışdığım üçün fəxr edirəm.

*İngilisi, rusu mən bilsəm də lap dərindən,*
*Yenə ləzzət alıram Azərbaycan dilindən.*
*Bu dillə tanımışam mən Vətəni, anamı,*
*Bu dillə öyrənmişəm kainatı, dünyanı.*





**_Ağayeva Ayşən Müslüm qızı_**
**_Quba şəhəri, 7 nömrəli tam orta məktəbin XI sinif şagirdi_**

Azərbaycanın müasir tarixi müstəqilliyinin yaradıcısı olan dahi şəxsiyyət Heydər Əliyevin həyat və yaradıcılığı nəsillərə nümunə olan idarəçilik məktəbidir. Heç şübhəsiz, Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətinin yaradıcısı olduğu kimi, Heydər Əliyev də müstəqil Azərbaycanın qurucusudur. Onun adı bu gün də uzaqgörən, dahi siyasətçilər sırasında çəkilməkdədir.

Heydər Əlirza oğlu Əliyev Naxçıvanda sadə bir fəhlə ailəsində dünyaya göz açmışdır. O, öz istedadı, ağlı və dərrakəsi ilə elə uşaqlığından diqqəti özünə çəkə bilmişdir. O, bəlkə də, bilməzdi ki, gələcəkdə Azərbaycanın tarixini dəyişdirən bir qəhrəman olacaqdı. O, təhsilini başa vurduqdan sonra XX əsrin 40-cı illərindən təhlükəsizlik orqanlarında çalışmışdı. Heydər Əliyev bu vəzifələrdə çalışarkən də daima xalqını düşünmüş, onun mənafeyini hər şeydən üstün tutmuşdur. Heydər Əliyevin böyüklüyü də elə bunda idi. O, daim milli köklərə bağlı olmuşdur. Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Azərbaycanda siyasi dağınıqlıq hökm sürürdü. Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi var idi. Ölkənin daxili və xarici düşmənləri onu yağlı bir tikə kimi parçalamaq qərarına gəlmişdilər. Məhz belə bir tarixi şəraitdə Dahi Rəhbər hakimiyyətə gəldi. Azərbaycanı parçalanmaq təhlükəsindən qurtardı. Onun daxili və xarici siyasəti nəticəsində Azərbaycan get-gedə çiçəkləndi. Azərbaycana sadəcə siyasi inkişaf yox, həm də iqtisadi inkişaf lazım idi. Dahi rəhbərimiz Heydər Əliyev bunu çox yaxşı bilirdi. Ona görə də Heydər Əliyev Azərbaycan iqtisadiyyatını dirçəltməyə kömək edən bir sıra müqavilələr imzaladı. «Əsrin müqaviləsi» buna ən parlaq nümunə ola bilər.

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən yararlanmağın yolunu «Əsrin müqaviləsi»ndə görürdü. Əsrin əvvələrində hamıya reallaşması qeyri-mümkün görünən bu müqavilə Heydər Əliyevin şəxsi nüfuzu, onun uzaqgörən siyasəti nəticəsində reallaşdı. Heydər Əliyev qısa bir müddətdə Azərbaycanı dünya arenasında tanıtmağa nil oldu. Bu gün artıq Azərbaycan dövləti beynəlxalq qurumlarda hörmətlə təmsil olunur. Bunun üçün biz sönməyən günəşimizə – Heydər Əliyevə minnətdarıq.

Yalnız daxili siyasətinə deyil, xarici düşmənlərə qarşı mübarizəsində də uzaqgörənlik ona hakim idi. Xalqımıza qarşı törədilmiş heç bir vəhşiliyə o, laqeyd yanaşa bilmirdi. Şəhid qanları tökülməsin, uşaqlar valideynsiz, anaların gözü yaşlı qalmasın deyə atəşkəsə nail oldu. Lakin həmişə onun qəlbində işğal olunan torpaqlarımızı qaytarmaq istəyi olmuşdur. Ömrü onun bu istəyinin həyata keçməsində maneçilik törətmişdir. İndi Heydər Əliyevin bu siyasətini onun layiqli davamçısı həyata keçirməyə çalışır.

Heydər Əliyev həmişə xalqın həyat səviyyəsini qaldırmağa, onun rifahını yaxşılaşdırmağa çalışmışdır. Bunun üçün o, əlillərə, kimsəsizlərə, qocalara sosial müavinət ayırmışdır. Əsrin əvvəllərində qaçqın düşmüşlər üçün çadır şəhərcikləri saldırmışdır.

Əvvəllər mövcudluğuna şübhə ilə yanaşılan Azərbaycan, sonralar bir sıra mənbələrdə ən etibarlı tərfdaşa çevrilən bir ölkə olmuşdur.

«Əsrin böyük siyasət düzgünlükdür» məhz Heydər Əliyev də bu prinsipə əsaslanaraq öz siyasətini qurdu. Əsl siyasətçi üçün uzaqgörən olmaq və düzgün fikirlərdən nəticə çıxarmağı bacarmaqla yanaşı, həm də rəvan nitqə, danışıq qabiliyyətinə də malik olmaq lazımdır. Heydər Əliyev məhz bu xüsusiyyətinə görə də dünyanın öndə gedən siyasətçilərindən biri oldu. O, xalq qarşısında çıxış edərkən gözəl nitqi və mənalı danışığı ilə hamını heyran qoymuşdur. Buna görə də Heydər Əliyevi natiq adlandırmaq olar. Azərbaycan xalqının arxasında dayanan böyük bir qüvvə hesab edirdi.

Heydər Əliyev xalqla bir qüvvə təşkil etmişdir. Heydər Əliyevi xalqsız, xalqı Heydər Əliyevsiz təsəvvür etmək qeyri-mümkün idi. Sanki bu böyük insan xalqdan qüvvət alırdı. O, həmişə sadə xalqla təmasda olurdu.

Mən əminəm ki, onun həyat və fəaliyyətindən, uzaqgörən siyasətindən bəhrələnən gənc siyasətçilər yetişəcəkdir.

Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanın mavi səmalarına doğan bir günəş idi. Bu günəş daimidir. Heç vaxt sönməyəcək. Həmişə bizim ruhumuzda, qəlbimizdə parlayacaq. Bu Dahi Rəhbər bütün cəhətlərinə görə həmişə zirvədə qalacaq bir şəxsiyyətdir.





***Babayeva Yeksarə Rahib qızı***
***Saatlı rayonu, Əhmədbəyli kənd***
***tam orta məktəbin XI sinif şagirdi***

*Könüllər yaşadır gur nəfəsini.*
*Sənsiz hər bir anın öz qüssəsi var.*
*Müqəddəs səsinin xatirəsini*
*Anlada bilərmi çağlayan çaylar?*

**Leyla Əliyeva**

Dünyanın əşrəfi adlandırdığımız insan mübarizə üçün yaranır, həyatı qovğalarda keçir və özündən sonra bütöv bir tarix qoyub gedir.

Bu tarixi səhifələr onun yaradıcısının zəkasından, mübarizə əzmindən asılı olaraq müxtəlif boyalarda olur.

Bu mənada ümummilli lider Heydər Əlirza oğlu Əliyevin yaratdığı həyat tarixi parlaq səhifələrlə zəngindir. Xalqının taleyini yaşayan insanın, bacarıqlı dövlət xadiminin həyatı başqa cür ola da bilməzdi.

İnsan doğulanda ömrünə bir qismət yazılır. Bəli, ümummilli liderimiz Heydər Əliyevin də qismətinə övladı olduğu millət üçün, Azərbaycan xalqı üçün şam kimi yaşamaq taleyi taleyi düşmüşdü.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da qədim Naxçıvanda fəhlə ailəsində dünyaya göz açmışdır. Heydər Əliyev Naxçıvanda Pedoqoji texnikumu bitirmiş, 16 yaşında Bakıya gələrək Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdur. Böyük Vətən müharibəsinin başlaması onun təhsilini yarımçıq qoymuşdur.

Heydər Əliyev işləməklə yanaşı, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini də bitirmişdir. O, 1944-cü ildə Naxçıvan Muxtar Respublikasında işə başladığı dövrdən Azərbaycan Dövlət Təhlükəsizlik orqanlarına işə keçdiyi ilə kimi gərgin və zəhmətli həyat yolu keçmişdir. 1964-cü ildə

Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildə sədri təyin edilmişdir. Bu təyinatın bütün azərbaycanlılar üçün mühüm tarixi əhəmiyyəti vardı. Yəni bu təyinata qədər bu idarəyə azərbaycanı başçılıq etməmişdir.

Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçilir. Bu vəzifədə təxminən 14 il çalışır. Bu illər ərzində Azərbaycanın iqtisadiyyatında, sənaye və kənd təsərrüfatında böyük dirçəliş və irəliləyiş əldə olunmuşdur.

Ümummilli Liderimizin rəhbərlik etdiyi illərdə xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait qoyulmuşdur ki, bu da əvvəlki 50 ildəkindən 1,5 dəfə çox idi. 250 iri zavod, fabrik, sex, istehsal sahəsi tikilmişdir. 2 milyondan çox adam öz mənzil şəraitini yaxşılaşdırmış, demək olar ki, həmin dövrdə Bakı şəhərinin yaşayış fondu həcmində yeni şəhər salınmışdır.

Heydər Əliyevin rəhbərliyi dövründə yeni, müasir maşınqayırma-elektronika, radio sənayesi, yüngül və yeyinti sənayesi və s. sahələr inşa olunmuşdur. Azərbaycan tarixində ilk dəfə Bakının neft emalı qurğularının yenidən qurulması aparılmış, təkrar neft emalı qurğuları işə salınmışdı.

Heydər Əliyevin rəhbərliyi dövründə ali təhsil müəssisələri sürətlə inkişaf etdikdə iqtisadiyyatın tələbləri təkmilləşdirildi. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1982-ci ildə keçmiş SSRİ-nin 170 şəhərinin qabaqcıl ali təhsil müəssisələrində Azərbaycandan gəlmiş 3500 nəfərdən çox gənc təhsil alırdı. Hər il Azərbaycandan kənarda oxumağa azı 800 nəfərin göndərilməsi xüsusi bir ənənəyə çevrilmişdi. Gənclərin ali hərbi təhsil müəssisələrinə göndərilməsinə Heydər Əliyev tərəfindən xüsusi diqqət yetirildi.

Heydər Əliyev tərəfindən yüksək ixtisaslı kadr hazırlığına diqqət çox böyük idi. Onun 14 illiyi rəhbərlik dövründə görülmüş işləri sadalamaq, onları əhatəli şəkildə sizə çatdırmaq çox çətindir. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası MK-nin siyasi bürosu üzvlərindən biri olmaqla, hökumət nümayəndə heyətlərinə başçılıq etmişdir. Sovet İttifaqının rəhbərlərindən biri seçildikdən sonra Almaniya, İtaliya və digər ölkələrə səfər edən SSRİ nümayəndə heyətlərinə başçılıq etmışdır.

Bütün bu müvəffəqiyyətlərin əldə edilməsi nəticə etibarilə Heydər Əliyevin 1976-cı ildə Siyasi Büro üzvlüyünə namizəd seçilməsinə gətirib çıxarmışdır.

Heydər Əliyevin Sovet İKP.MK-nın siyasi Büro üzvlüyünə namizəd seçilməsi Azərbaycan xalqı üçün çox önəmli hadisə idi.

Heydər Əliyev Sovet İttifaqının beynəlxalq əlaqələrinin inkişafında fəal iştirak etmişdir. Sovet İttifaqının Heydər Əliyev fenomeni sayəsində görünməmiş səviyyəyə qaldırılması Azərbaycana hörmət qazandırmış və baş ucalığı gətirmişdir.



Məlum olduğu kimi 1982-ci ilin dekabrında Heydər Əliyevin Siyasi Büro üzvü seçilməsi və Nazirlər Soveti sədrinin müavini təyin edilməsi ilə əlaqədar Azərbaycandan Moskvaya gedişi onun həyatında böyük bir mərhələni əhatə edir.

Bəli! M.S.Qorbaçovun yenidənqurması bir çox görkəmli şəxsiyyətlər, eləcə də Heydər Əliyev kimi dahi şəxsiyyətə kölgə salmağa çalışdı. Elə şərait yaradıldı ki, Heydər Əliyev ev dustağı, vətənində «siyasi sürgün» vəziyyətində yaşamağa məcbur oldu. O vaxt Heydər Əliyev blokada vəziyyətində olan Naxçıvana getmək məcburiyyətində qaldı. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali məclisinə sədr seçildikdən sonra Naxçıvanla birlikdə bütün Azərbaycanı ictimai-siyasi böhrandan çıxara bilmək ən başlıca şərtlərdən biri idi.

1988–1993-cü illərdə Azərbaycan rəhbərlərinin səriştəsizliyi, xalqı bu böhrandan heç cür çıxara bilməmələri ağır olan vəziyyəti daha da iflic səviyyəsinə gətirib çıxarmışdır. Ermənilər tərəfindən ərazilərimizin 20%-i zəbt edilmiş, bir milyondan artıq insan qaçqın və məcburi köçkün şəraitində yaşamağa məcbur olmuşdur. Respublikanın ağır dərdi dərk edənləri ciddi düşündürür və bunun üçün bir yol müəyyən etməyi fikirləşirdilər.

Heydər Əliyev Azərbaycanın qorunması üçün əlindən gələn heç bir şeyi əsirgəməmişdir. O, mövcud qanunların qəbulu məsələlərinin müəllifi olmuşdur.

Respublikanın ziyalılarının və xalqın yekdil fikri, nəticə etibarilə Azərbaycanı bu böhrandan çıxara biləcək dahi bir şəxsiyyət olan möhtərəm Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsinə kömək oldu. Bu gəlişi ilə Heydər Əliyev 1988-ci ildən Ermənistanla gedən müharibədə atəşkəsə nail olmuş, qeyri-qanuni saxlanılan silahlı dəstələrin, siyasi hərc-mərcliyin qarşısını almışdır.

Onu düşündürən ən ümdə məsələ Ermənistanın işğal etdiyi torpaqlarımızın geri alınması, qaçqınların öz yerlərinə qayıtması, ölkəmizin əmin-amanlıq şəraitində yaşaması olmuşdur. Heydər Əliyev həmişə xalqı üçün yanan, onun ağrılarını daim duyan bir insan olub. Xalq həmişə Heydər Əliyevi çox sevib.

Biz inanırıq ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyev torpaqlarımızı geri qaytaracaq, qaçqınlar öz yurd-yuvalarına qayıdacaqdır. Ölkəmiz mədəni, iqtisadi, siyasi baxımdan daha da çiçəklənərək dünya dövlətləri arasında öz layiqli yerini tutmaqla davam edəcəkdir.



**_Qasımova Leyla Məhərəm qızı_**
**_Göygöl şəhəri, İlqar Novruzov adına 4 nömrəli tam orta məktəbin X sinif şagirdi_**

Həyatda hər şeyi zövqə və imkan görə dəyişmək olur, bircə vətəndən və anadan başqa. Bunların hər ikisi tale töhfəsidir, alın yazısıdır. Vətəni və ananı seçmirlər. Yer üzünün bütün xalqları «Vətən» sözünün müqəddəsliyinə uyğun epitet axtaranda «Ana» kəlməsinin üstündə dayanıblar. «Ana Vətən» deyiblər. Onlar qoynunda yaşadıqları torpağa «Ana vətən» deyəndə elə bil ki, düşünüb-daşınıblar. Başqa cür ola da bilməz. Çünki Vətən bəşər övladının şan-şöhrəti, namusu və qeyrətidir.

Bu gün dünyada elə xalq tapmaq çətindir ki, hansısa mürəkkəb bir mərhələdə onun taleyində müstəsna rol oynamış, sabit və davamlı dövlətçilik ənənələri formalaşdırmış şəxsiyyətləri olmasın. Belə seçilmiş liderlərin zəngin və mənalı həyat səhifələrini vərəqləyərkən onların mənsub olduğu xalqların dövlətçilik ənənələri və tarixi inkişaf səviyyəsi barədə də aydın təsəvvür yaranır. Bu nöqteyi-nəzərdən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yüksək idarəçilik keyfiyyətlərinə malik yaradıcı və qurucu şəxsiyyət olduğu tam təsdiqini tapır. Heydər Əliyevin dediyi kimi: «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının, xoşbəxtliyinin qorunması naminə həyatını verən insanlardır».

Ulu Öndər xalqın ən çətin sınaqlarla üz-üzə qaldığı zamanda onun milli kimliyinin ən ali müqəddəs rəmzi olan dövlətçilik ənənələrini hər cür qəsdlərdən qorumaqla, vətəndaş sülhünü, həmrəyliyini bərpa etməklə, ictimai-siyasi sabitliyin, tərəqqi və inkişafının qarantına çevrilməklə bizlərə Azərbaycan adlı qüdrətli bir əsər bəxş etdi və bununla da çağdaş tariximizdə əbədiyaşarlıq hüququ qazandı.

*Heydər baba, vicdanında namus, din*
*Dosta hörmət, düşmənlərə qəzəb, kin,*



*Atillanın, Teymur xanın, Babəkin,*
*Qeyrətidir damarında çağlayan*
*Səni xalqa, xalqı sənə bağlayan.*

Bütün dünyada tanınmış böyük siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev haqqında inşa yazmaq o qədər də asan deyil. Bu gün nə qədər ağır olsa da, nəsillərə nümunə olan Dahi bir Şəxsiyyət haqqında keçmiş zamanda danışmaq məcburiyyətindəyik.

Ulu öndər Heydər Əliyev hamının nümunə götürə biləcəyi, əlçatmaz bir şəxsiyyət idi. Bu əlçatmaz şəxsiyyət barəsində bir çox siyasətçilər öz fikirlərini bildirmişlər.

*«Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan milli müstəqilliyi yolunda böyük nailiyyətlər qazanmışdır».*

**Bill Klinton**
**ABŞ prezidenti.**

Bu dahi şəxsiyyətin zəngin həyat yolu, coşğun siyasi və dövlətçilik fəaliyyəti barədə görkəmli siyasətçilərin dediklərinə nəsə əlavə etmək çox çətin və məsuliyyətli olduğu qədər də çox şərəflidir. İnanıram ki, Heydər Əliyev haqqında nə qədər yazılsa da, azdır.

Heydər Əliyev dünya miqyaslı siyasət adamı, dövlət xadimi idi. O, həmişə öz sözü, öz nüfuzu, öz sanbalı ilə seçilirdi. Ən çətin anlarda, ən qəliz problemlərin həllində belə üzündən təbəssümü,nikbinliyi əskik etmirdi.

*Sən elə bir qüvvəsən*
*Küləklər neyləyəcək?!*
*Nə qədər Azərbaycan*
*Nə qədər bu millət var,*
*Heydər: «xalqım!», – deyəcək,*
*Xalq: «Heydər!», – söyləyəcək.*

Bütün dünyada tanınmış siyasət adamı, Qafqazın ən əsas şəxsiyyəti olmağı, bir xalqın sevgisini, inamını qazanmağı hər kəs bacara bilmir. Bir dövləti dağılmaqdan qurtarmağa, törədilmiş qırğınları bütün çılpaqlığı ilə dünyaya göstərməyə heç kəs cəsarət edə bilmirdi. Ancaq Heydər Əliyev uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycan xalqının rifahı naminə qarşısına qoyduğu bütün ali məqsədlərə nail oldu. Uzun illər boyu azadlıq arzusuyla yaşayan bir xalqa xəyal kimi görünən müstəqilliyi bəxş etdi.

Heydər Əliyev bu dünyaya qalib gəldi, qalib də getdi. Sanki Heydər Əliyev «Müstəqil Odlar Yurdu» adlı vətənpərvərlik, ölməzlik dastanının qəhrəmanına çevrildi. Bu qəhrəman bütün çətinliklərə rəğmən, vətəninin, xalqının xoşbəxtliyi, parlaq gələcəyi uğrunda qarşısındakı bütün aşılmaz sədləri aşdı, keçilməz yolları keçdi.

Heydər Əliyev təhsilə də xüsusi diqqət göstərirdi. O, uşaqlara kiçik yaşlarından vətənə məhəbbət hissi aşılayır, onların bu ruhda tərbiyə almasını arzulayırdı. O həm müəllimin, həkimin, sənətkarın, həm də qocanın, uşağın, böyüyün, kiçiyin dostu idi. Çünki o, hər bir azərbaycanlının rəhbəri idi.

Həyatın ən çətin sınaqları qarşısında dik durmağı bizə Sən öyrətdin. Amala çatmaq üçün çarpışmağı, vuruşmağı bizə Sən öyrətdin. Səndən öyrəndik biz müdrikliyi, səbirliliyi, haqqı, doğrunu.

*Sən xalqı səfalətdən*
*Düşmənlərin şərindən,*
*Çox haqsız zərbələrdən*
*Qurtaran rəhbər oldun.*

Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən ümmana bənzətmək olar. Hətta Heydər Əliyev bəşəriyyət kitabının sərlövhəsi olan Bakı–Tbilisi–Ceyhan əsərini yaratdı və onunla da sübut etdi ki, «Vətənin, millətin taleyi hər bir insanın taleyinə çevrilməlidir. Öz xalqı üçün yaşayan insan, əlbəttə, xoşbəxtdir».

Azərbaycan tarixinin, dilinin, milli mədəniyyətinin bilicisi olan Heydər Əliyev öz nüfuzu, qüdrəti sayəsində xalqın milli birliyinə nail oldu. «Milli mədəniyyəti, dəyəri olmayan millət həqiqi milət, həqiqi xalq ola bilməz» fikri tək Azərbaycanda deyil, bütün türk dünyasında milli birliyə çağırış kimi qiymətləndirildi. Müdrik dövlət xadimi olan Heydər Əliyev bununla da bütün türk dünyasına, çoxəsrlik tariximizə, həqiqətən də, əbədiləşmək üçün gəldiyini sübut etdi.

Heydər Əliyev siyasi fəlsəfəsinin əsas qayəsi olan müstəqil Azərbaycan quruculuğu onu bütün ömrü boyu düşündürən əsas amal olub. «Mən azərbaycanlı olmağımla fəxr edirəm», – deyən bu böyük Azərbaycanlının parlaq düşüncələri Azərbaycan dövlətçiliyi üçün daim məşəl kimi yanacaq və hər bir azərbaycanlının qürur yeri, iftixar mənbəyi olacaqdır. Bu gün Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz parlaq gələcəyinə doğru inamla addımlayır. Azərbaycan xalqının tarixinə və taleyinə parlaq və silinməz iz qoyan, müdrik bir rəhbər olan Heydər Əliyev qeyri-adi zəka, fitri istedad sahibi idi.



Böyük siyasətçi Heydər Əliyev XX əsr Azərbaycan tarixinə Azərbaycanın simvolu olaraq düşmüşdür. Çünki o, özünün Müstəqil Azərbaycan ideyasını əfsanədən reallığa çevirməyi bacardı. Vaxtilə memar olmaq istəyən insan ən böyük memorial bir əsər yaratdı – «Müstəqil Azərbaycan» əsəri. Belə bir əsər yaratmaqla o, ölümü öldürdü. Azərbaycanın məhv olmaq üzrə olan zəngin mədəniyyət xəzinəsinə can verdi.

İlham Əliyevin dediyi kimi «Müasir Azərbaycan» Heydər Əliyevin şah əsəridir.

Heydər Əliyev şəxsiyyəti hələ axıradək öyrənilməmişdir. Azərbaycanın dahi oğlu Heydər Əliyev zirvələrdə duran bir şəxsiyyətdir, o, həmişə Azərbaycanın dahi oğlu olaraq da qalacaqdır. Çünki dahilər ölmürlər. Nə qədər bəşəriyyət var, Heydər Əliyev də olacaq! Heydər Əliyev uca bir dağa bənzəyir, haradan baxsaq, biz onu görürük.

Tarixi yaradanlar unudulmaz, ölməzdir. İlham Əliyev Heydər yolunda əbədidir, dönməzdir. Onun tutduğu yol qırx milyonluq azərinin şanlı yoludur, əməlləri yaşadan canlı yoludur.

Bu nadir dühanın zəngin və mənalı həyat yolu nəinki mənim kimi bir şagirdin bir neçə səhifəlik inşasına, heç böyük kitablara belə sığan deyil. Gecə-gündüz səndən yazsam, bəs deyil. Bəs deməərəm, ay baba. Sən hələ də bizimləsən, ölkəmizi idarə edirsən, Rəhbərim. Bu gün mən sevinirəm, çünki səndən yazıram, sənə olan sevgilərimi dəftərə köçürürəm. Əziz babam, əmin ol ki, əmanətin etibarlı əllərdədir. Əziz babam, əmin ol ki, bu gün Müstəqil Azərbaycan İlhamla sabaha doğru inamla addımlayır. Yaşasın Azərbaycan dövlətçiliyinin qoşa qanadı – Heydər Əliyev və İlham Əliyev.

Ulu öndər Heydər Əliyev nəsillərə nümunə olan dahi bir şəxsiyyət, Azərbaycanın heç vaxt sönməyən parlaq günəşidir.



## Hümmətzadə Gülyaz Namiq qızı

*Şəki rayonu, Bideyiz kənd tam orta məktəbin VIII sinif şagirdi*

*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı*

**M.Araz**

Dünyanın hər hansı bir məkanında doğulmağı biz insanlar seçə bilmirik. Allah – uca Yaradan bunu özü seçir.Böyüyüb, boya-başa çatdığımız torpaq bizə vətən olur, müqəddəsləşir, toxunulmazlıq qazanır. Kiçiklikdə ilk addımlarımızı atdığımız bu torpaq böyüdükcə bizim and yerimizə çevrilir, əcdadlarımızın bir ovuc torpağa dönüb müqəddəsləşdiyi bu məkana – vətən deyirik.

Vətənim Azərbaycan, bəlkə də, dünyanın ən cənnətməkan bir guşəsidir. Bu gün hər birimiz: – «mən azərbaycanlıyam!», – deyərək sanki heç kəsin belə qürurla söyləyə bilməyəcəyi bir kəlməni deyirik.

Bu fəxr ediləcək kəlmə ulu öndər, ümummilli lider, xilaskar, dahi şəxsiyyət olan Heydər Əliyev cənablarının zəngin leksikonunda daha möhtəşəm səsləndi: «Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, azərbaycanlıyam».

Heydər Əliyev – ulu Tanrının Azərbaycana bəxşiş kimi göndərdiyi bir dahi idi.

Bu yaxınlarda tarix kitabının səhifələrindəki bir həqiqət diqqətimi cəlb etdi.

Türk dünyasının iki dahi şəxsiyyəti, milləti bir, dövləti iki, məmləkətlərimizin xilaskarı olan liderlərin bənzərlikləri məni heyran etdi.

1881-ci il Türkiyənin mərkəzindən xeyli uzaqda Saloniki şəhərində Əlirza əfəndinin evində sarışın, mavi gözlü uşaq dünyaya göz açdı. O körpəyə son peyğəmbərimiz Məhəmməd–Əl – Mustafanın ismini – Mustafa adını qoydular.



Bəlkə də, tale özü seçmişdi bu adı. Ona görə ki, Türkü bu adla qoruyub, bu böyük torpaqların atası adını versin. Mustafa paşa, Atatürk idi, bu böyük şəxsiyyət.

1923-cü il, Azərbaycanın mərkəzindən xeyli uzaqda, Naxçıvan adlı bölgədə Əlirza adlı kişinin evində də sarışın, mavi gözlü bir uşaq gəldi dünyaya. O uşağa valideynləri Həzrəti Əlinin ismini – Heydər adını verdilər. O göndərilmişdir ki, Azərbaycan adlı bir məmləkəti faciələrdən qorusun.

Bu əvəzolunmaz insan vətəninə, elinə bağlı bir övlad, yurdu, yuvası ilə fəxr edən bir vətənpərvər idi. Məhz onun yaradıcılığı sayəsində Azərbaycan xalqı öz tarixi səhifələrinə əvəzolunmaz, qızıl hərflərlə yazılacaq səhifələr əlavə etdi.

Azərbaycan hələ sovetlər birliyində olarkən başlanan siyasi yol müstəqillik qazandıqdan sonra elə bir səviyyədə inkişaf etdi ki, bu yolu belə keçmək və bu zirvəyə yüksəlmək məhz Heydər Əliyev kimi bir savadlı insana məxsus ola bilərdi.

Vətənimizin çox ağır bir dönəmində bir xilaskar kimi xalqın imdadına çatdı. Yeni-yeni addımlarını atmaq istəyən Azərbaycan Respublikası iqtisadi, siyasi cəhətdən hələ möhkəmlənməmişdi. Bu dövləti əsl «dövlətçilik qurmaq» baxımından məhz belə bir dühа qaldıra bilərdi.

Ermənistanın zorla sürüklədiyi bu ədalətsiz müharibədə əldə edilmiş atəşkəs, hələ ordusu tam formalaşmamış Azərbaycan xalqı üçün o zaman çox vacib şərtlərdən idi.

Dünyanın bir çox mötəbər qurumları – ATƏT, Avropa Şurası və s. Dağlıq Qarabağ Muxtar Vilayətində gedən müharibəyə öz münasibətini bildirdi və problemin həllində bu təşkilatların müəyyən rol oynaması da Ulu Öndərin düzgün siyasəti nəticəsində idi.

Məhz onun hakimiyyətdə olduğu illərdə Azərbaycanda gedən geniş iqtisadi dəyişikliklər, islahatlar bazar iqtisadiyyatı prinsipinə əsas başlanğıc oldu.

Azərbaycan sənayesi surətlə inkişaf yoluna qədəm qoydu.

Neft-qaz islahatları, «Əsrin müqaviləsi» olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilişi uğurla nəticələndi.

Bu bir-birinin ardınca gələn uğurlar, təbii ki, böyük siyasətçinin sayəsində idi.

Azərbaycan paytaxtı, şəhərlər, kəndlər inkişaf mərhələsi keçdi. Yenilik hər yerdəözünü göstərirdi.

Ulu Öndərə: «sizin haqqınızda hamı vətənpərvər olduğunuzu söyləyir», – deyə müraciət etdikdə o da: «hesab edirəm, mən böyük vətənpərvərəm», – cavabını söyləmişdi.

Bu fikir heç bir mübahisəsiz bir həqiqətdir. Çünki o, xalqına olan sonsuz sevgisini həyatı boyu dəfələrlə sübuta yetirib.

Onun sayəsində Ana dilimizin dövlət dili kimi tətbiqi genişlənib, ordumuz formalaşıb, milli, mədəni dəyərlərimiz UNESCO səviyyəsində qeyd olunub və s.

Mən Ulu Öndərin misilsiz natiqliyinə heyran idim. Onun hər kəslə öz anlayacağı dildə ünsiyyət qurması məni heyran edirdi. Çünki o, uşaqlarla mehriban bir baba münasibəti quraraq bütün kiçiklərin sevgisini qazanmışdı.

Bu gün onun qoymuş olduğu yolun çox ləyaqətli davamçısı var. Mənim fikrimcə, bizim hər birimizin ondan öyrənəcəyi çox şey var. Elə vətəni necə sevməyi, onun vətəndaşı olmağı necə bacarmağı biz ondan öyrənməliyik.

Çox müdrik bir kəlam var «Dahilər üçün bu dünyanın bir qapısı var. Onlar dünyaya gəlir və heç zaman dünyadan getmirlər». Bizim Heydər babamız da belə dahilərdəndir. Sən bizim qəlbimizdə, Azərbaycan tarixində əbədi olaraq yaşayacaqsan, Böyük Xilaskar!

*Qəbrin nurla dolsun ey dahi insan,*
*Alimsən, şairsən, gözəl memarsan.*
*Səni unudarmı can Azərbaycan?*
*Biz harda varıqsa, sən orda varsan!*





## *Quliyeva Mehri Mehrəli qızı*

***Bakı Sənaye-Pedaqoji Kollecinin I kurs tələbəsi***

Bu tarixi həqiqət danılmazdır. Keçid dövründə qələbə qazanmaq üçün mütləq qüdrətli şəxsiyyət lazımdır. Hazırda tərəqqi dövrünü yaşayan bütün xalqları, ölkələri, millətləri keçid dövrünün kəşməkəşlərindən Atatürklər, Vaşinqtonlar, Bismarklar və b. çıxarmışlar. Bizim ölkəmizdə isə bu böyük tarixi missiya şərəfi uzunmüddətli müstəqilliyimizin azadlığın, demokratiyanın nə demək olduğunu, aşılayan, əsarət altında yaşamamaq, ən əsası, öz dilimizdə təhsil almaq kimi hüquqları bizə verən Heydər Əliyev şəxsiyyətinə nəsib olmuşdur.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Valideynlərinin ona verdiyi ad sanki onun gələcəyini müəyyənləşdirirdi. Qədim mənbələrdə «Heydər» sözü igid, qabaqda gedən, öndə çapan atlı mənasını verir.

Heydər Əliyev orta məktəbi qızıl medalla bitirmişdir. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almış, 1944-cü ildə Dövlət Təhlükəsizliyi Orqanlarında işə göndərilmişdir. O, 1964-cü ildə SSRİ Nazirlər Soveti Sədrinin yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini, 1967-ci ildən isə komitənin sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakultəsini bitirmişdir. O, 1969-cu ilin iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir.

Heydər Əliyev hələ Moskvada olarkən qəlbi daim doğma Azərbaycanla döyünmüşdü. O, 1990-ci ilin 20 Yanvarında Sovet qoşunlarının Bakıda törətdikləri qanlı faciə ilə əlaqədar çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətin təşkilatçılarının cəzalandırılmasını tələb etmişdir.

1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsinin başlanması təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev xalqın iradəsi və təkidi ilə Bakıya gəldi. Bu, müstəqilliyimizin xilası idi. Çünki Böyük Xilaskar qayıtmışdı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

*Başını əymədi düşmənə, yada,*
*O xidmət eylədi təmiz, pak ada.*
*Vətən göylərini bulud alanda,*
*Səmada günəştək parladı Heydər!*

Ulu öndər Heydər Əliyevin həyat yolunu sadalamaqda məqsədim onun necə böyük həyat təcrübəsinə malik olduğunu göstərməkdir. Məhz belə şərəfli, enişli-yoxuşlu, çətin və məsuliyyət həyat yolu keçmiş şəxslər ölkəyə rəhbərlik edib xalqı çətin vəziyyətdən çıxara bilərdi.

Heydər Əliyev hakimiyyətə gəldiyi 1993-cü ildən azərbaycançılığı həyatının mənasına çevirmişdi. Heydər Əliyev hakimiyyətə gəldiyi gündən hər şeyə sıfırdan başlamalı oldu. İlk növbədə, müharibəni dayandırdı, atəşkəs rejimi yaratdı. Ordunu gücləndirmək və formalaşdırmaq üçün vaxt əldə etdi. Onun rəhbərliyi və göstərişi ilə bir milyon qaçqın rayon və şəhərlərdə yerbəyer edildi, onlara lazımi şərait yaradıldı. İnflyasiyanın qarşısını aldı. Elmin, təhsilin, mədəniyyətin inkişafını gücləndirdi. Oğlu İlham Əliyevlə birlikdə idmanın inkişafına diqqəti artırdı. İdmançılarımız yeni-yeni qələbələr qazanıb, Azərbaycanı dünya miqyasında tanıtdılar.

Heydər Əliyevin hakimiyyəti illərində daim gənclərlə iş üzrə məsələlər ön planda olub. O böyüməkdə olan gənc nəslə qayğı göstərdi. Bunun əyani sübutu 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması idi. Hakimiyyətə gəldiyi gündən «Mən ömrümün qalan hissəsini ancaq öz xalqıma həsr edəcəyəm» şüarını rəhbər tutan böyük insan xarici ölkələrlə əlaqələri yaxşılaşdırmağa başladı. Türkiyə, Fransa, ABŞ, Çin və başqa ölkələrə səfər edərək tezliklə Azərbaycanı dünyanın bir çox ölkələrinə tanıtdı. Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı işinin gərgin olmasına baxmayaraq, orada yaşayan azərbaycanlılarla görüşüb onların problemləri ilə maraqlanır və onları bir olmağa çağırırdı. Hakimiyyətə gəlməsi ilə bir neçə ciddi layihələrə imza atdı. 1994-cü ilin 20 sentyabrında imzalanan «Əsrin müqaviləsi» neft kontraktının müəllifi oldu. Böyük çətinlikləri dəf edərək «Bakı–Tbilisi–Ceyhan» kəmərini xalqımıza töhfə etdi.



Kiçik bir zamanda böyük və qüdrətli dövlət qurmaq hər başçıya nəsib olmur və hər başçının işi deyil. Heydər Əliyev xalqımızın nicatı, rifahı, xoşgələcəyi və həyat səviyyəsinin yüksəldilməsi yolunda gecə-gündüz çalışırdı. Heydər Əliyevin göstərdiyi səylər Atatürkün göstərdiyi səylərlə üst-üstə düşür. Çünki onlar ikisi də eyni amala xidmət edirdi. İndi bu iki dövlətin qurucusu deyəndə iki böyük şəxsiyyət – Heydər və Atatürk yada düşür.

*Adları gələndə səksənir düşmən*
*Onlara arxadır bu böyük Vətən.*
*Şöhrət qazandılar zəfər çalarkən,*
*Millət ataları Heydər, Atatürk.*

Böyük şəxsiyyətlər tarixdə az-az yetişir. Ola bilər ki, çətin bir zirvəni fəth edib qəhrəman olasan, amma şəxsiyyət kimi yetişmək üçün çətin və məsuliyyəti həyat yolu keçməli, xalqa arxalanmalı və öz ağlının gücündən istifadə etməlisən. Bax, bütün bu keyfiyyətlərin hamısı Heydər Əliyevdə cəmlənmişdi.

Əlbəttə, Heydər Əliyev haqqında danışarkən onun Azərbaycan xalqı üçün gördüyü nəhəng işləri kiçik bir yazıda işıqlandırmaq çətindir. Onun həyatı cild-cild kitaba sığmaz. Heydər Əliyevin siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Onun ən böyük gücü dərin və universal biliyində, tükənməyən səbrində, uzaqgörənliyində, müdrikliyində və mahir diplomat olmasında idi. Biz bu gün dünya xəritəsində Azərbaycan adlı dövlətin mövcud olmasında bir şəxsə borcluyuq, o da Heydər Əliyevdir. Heydər Əliyev Azərbaycan tarixinin daim qızıl hərflərlə yazılan siması olacaq.

İnsan həyatını elə yaşamalıdır ki, sonradan ömür kitabını vərəqləyəndə qəlbində ancaq fərəh hissi baş qaldırsın.

Heydər Əliyev demişdir: «Həyatın mənası az və yaxud çox yaşamaqdan ibarət deyil, həyatın əsl mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək bə başqaları üçün nümunə olmaqdır».

Heydər Əliyev təkcə qüdrətli dövlət qurmaqla kifayətlənmədi, o həmçinin bu dövlətin gücünün əsrlərlə qorunmasını təmin edəcək ənənələr qoyub getdi.

«Təəccüblə doğuluruq, ümidlə yaşayırıq və həsrətlə ölürük» fəlsəfəsi ilə yaşayanlar üçün tale ömür payı qədər olur. Əcəldən macal tapanlar isə verilmiş ömür fürsətində min ömürlük iş görürlər. Məhz Ümummilli liderimiz Heydər Əliyev kimi.

2003-cü ilin 12 dekabrından bizi 10 il ayırır. Lakin Heydər Əliyev dühası, onun ruhu isə hələ bizi tərk etməyib. Xalqımız müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin xatirəsini daim dərin məhəbbətlə anırlar.

*Həmişə qartala qibtə etmişəm*
*Öz zəfər himnini çalar zirvədə.*
*Nə qədər düşsə də ucalığından,*
*Enəndə yenə də qalır zirvədə.*

Bu gün Heydər Əliyevin başladığı işləri, əsasını qoyduğu daxili və xarici siyasəti hörmətli prezidentimiz cənab İlham Əliyev uğurla davam etdirir. Xalqımız İlham Əliyevin ölkəmizə uğur və şöhrət qazandıran xarici siyasətini yüksək qiymətləndirir.

İlham Əliyev demişdir: «Müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir».

Ölkəmizdə Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün şəhər və rayonlarımızın ən gözəl küçələri onun adını daşıyır, məktəblər, muzeylər, idman kompleksləri və parklar fəaliyyət göstərir.

Bu gün artıq demək olar ki, Heydər Əliyevin bütün arzuları reallaşıb. Lakin onun bir arzusu da torpaqlarımızın düşmən tapdağından azad edilməsi idi. İlham əliyev atasının siyasətini davam etdirərək Qarabağ probleminin çözülməsi istiqamətində ciddi fəaliyyət göstərir. Mən inanıram ki, biz tezliklə həmin qələbə sevincini də yaşayacağıq.

Ölkəmiz gündən-günə çiçəklənir, yeni məktəb binaları inşa edilir, təhsilə qayğı artır. Bunun müqabilində gərək biz də yaxşı oxuyaq və ölkəmizin layiqli vətəndaşı olaq.

Bütün bu işlərin görülməsində, ölkə həyatında və onun hüdudlarından kənarda fəal çalışan, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın fəaliyyəti də təqdirəlayiqdir.

Mən ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümü ərəfəsində yazdığım bu inşanı yekunlaşdıraraq, bir daha vurğulamaq istərdim ki, xalqımız Ulu öndər, böyük insan, millət atası Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünü bu dahi şəxsiyyətə layiq şəkildə böyük diqqət və məhəbbətlə anır.

Səməd Vurğun yaxşı demişdir:



*Ölüm sevinməsin qoy, ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Əgər məndən soruşsalar ki, sən ulu öndər Heydər Əliyevi necə təsvir edərdin? Mən deyərdim ki, onun əzəməti vüqarlı dağa bənzəyir. O vüqarlı dağa ki, həmişə başı qarlı olur. Onun möhkəmliyi əyilməz polad kimidir, səbri okeanların suyu qədər. Gözlərindəki alovlu işıq cəsarətin rəmzidir. Hakimiyyəti isə aslanın cəngəllikdəki hakimiyyətinə bənzəyir. Yəni bir aslan nə qədər qüdrətli və ədalətlidirsə, Heydər Əliyev də elə bir başçı idi.

İllər keçəcək, nəsillər bir-birini əvəz edəcək və Heydər Əliyevin qurduğu Azərbaycan adlı bağçanın heç bir çiçəyi xəzan görməyəcək. Ruhun şad olsun, Azərbaycanın sönməz Günəşi!



**Nəbiyev Mikayıl Akif oğlu**
*Bakı şəhəri, S.C.Pişəvəri adına*
*Humanitar Fənlər Gimnaziyasının*
*X sinif şagirdi*

Dünyaya sayı-hesabı bilinməyən igidlər yetirmiş qoca Azərbaycan – Odlar Yurdu iyirminci yüzillikdə də sayılan, seçilən, həm daxili, həm xarici görünüşü bir-birini tamamlayan bir insan bəxş etdi bəşər tarixinə. Bu insan adı yaddaşımıza əbədi həkk olan, vücüdü gözümüzün önündən heç zaman getməyən Heydər Əlirza oğlu Əliyev idi.

Həyatda az insan tapılar ki, təkcə özünü yox, mənsub olduğu xalqı düşünsün. Həyatda az insan tapılar ki, təkcə öz ailəsinin yox, başqa ailələrin problemlərini çözməyə can atsın. Həyatda az insan tapılar ki, öz sağlamlığının yox, başqalarının sağlamlığının keşiyində dursun. Həyatda az adam tapılar ki, təkcə öz xalqının dərdi ilə yansın, səhər də, axşam da öz xalqını düşünsün. Məhz belə xarakterik düşüncəyə malik fenomen bir şəxs olub bizim ulu öndər Heydər Əliyev.

Mən həmişə xəyallarımda ucaltmışam Onun möhtəşəm abidəsini. Xəyallarımda dərdləşmişəm Onunla. İnanmamışam dünyasını dəyişməsinə. Elə bilmişəm yenə siyasi danışıqlar aparır, Azərbaycanın problemlərini həll edir.

Hər yerdə, hər zaman onun izlərini görürəm. Yeni televiziya kanallarında, tikilən yeni binalarda, abadlaşdırılan parklarda, salınan körpülərdə Onun izini görürəm, təkcə Onun. Xarici ölkələrlə aparılan diplomatik danışıqlarda, Yerin orbitinə buraxılan kosmik peykdə, «Avroviziya» musiqi yarışında, daha nələrdə, nələrdə Onu görürəm. Onun ruhunu hiss edirəm.

Böyüklərimdən, xüsusən babamdan eşitmişəm ki, yetmişinci illərdə Heydər Əliyev hakimiyyəti zamanı müəllimlər, həkimlər, inşaatçılar, elm xadimləri, incəsənət ustaları üçün binalar tikilir, istifadəyə verilirdi. Özü də hədiyyə olaraq. Elə indi də həmin binalar akademiya işçiləri binası, aktyorlar binası və s. adlanır. Həm yeniləşən Azərbaycan, həm də yetmiş-səksəninci illərdəki Azərbaycan Heydər Əliyevin memarlıq sənətinin əsl möhtəşəm və nəhəng abidəsidir.



Mən Heydər Əliyevin tərcümeyi-halını yazmaq istəmirəm, çünki onun keçdiyi həyat yolunu hər kəs yaxşı bilir.

O, dünyada sülhün və əmin-amanlığın tərəfdarı idi. Ölkəmizdə baş verən hadisələr: 20 Yanvar, Xocalı faciəsi, Dağlıq Qarabağ problemi, əsir torpaqlarımızın ağrı-acısı, qaçqınların taleyi Onun ömrünə müsibətli günlər, illər bəxş etsə də, rahatlığını, dincliyini əlindən alsa da, O, müharibənin, qan axıdılmasının tərəfdarı deyildi.

Ulu Öndər müstəqil Azərbaycanı daha xoşbəxt, insanları daha firavan görmək istəyirdi. Ümummilli Lider dəfələrlə xatırladırdı: «İnsan üçün hər şeydən əvvəl onun Vətənidir, torpağıdır. Həmişə Azərbaycanımızın müstəqilliyini, azadlığını arzulamışıq. İndi biz buna nail olmuşuq və bunu əziz tutmalıyıq».

Bu sözlər Azərbaycanın dövlətçilik tarixinə yeni və unudulmaz bir səhifə yazan ölməz rəhbər – Heydər Əliyevin biz nəsillərə tövsiyəsi kimi səslənir. Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də, tarix əbədidir. Bu dünyada yeni bir tarix yaradan Heydər Əliyev də ölməzdir, əbədidir.

Çox mükafatlar alıb Ulu Öndər. İstər Sovetlər dönəmində, istərsə də müstəqillik illərində aldığı mükafatların sayı-hesabı yoxdur. Amma onun ən böyük mükafatı xalqının ona olan inamı etibarı, sevgisi və Yaradanın Ona bəxş etdiyi övladlarıdır.

Ən ali tədris ocağından – Heydər Əliyev dühasından dərs almış prezidentimiz İlham Əliyev qurub-yaratmaq eşqi ilə yaşayır. Bu eşqdə, bu alovda da Heydər Əliyevi görürəm. İdman olimpiadalarındakı qələbələrimizdə, göylərə ucalan üçrəngli, ay-ulduzlu bayraqda, hamını ayağa qaldırıb dinləməyə məcbur edən himnimizin səsində də Onu axtarıram. Onu tapıram.

Respublikamızda Heydər Əliyevin adını daşıyan fond fəaliyyət göstərir. Bu Fonda Əliyevlər ailəsinin üzvü Mehriban xanım Əliyeva rəhbərlik edir. Bu fond nələrə qadir deyil?! Onun xətti ilə milli musiqimiz dünyaya çatdırılır. Nə qədər erməni təcavüzünə məruz qalsa da, Qarabağ musiqisi, Azərbaycan xalq mahnıları yaşayır, öz saflığını qoruyur. Bu fondun vasitəsilə muğam müsabiqəsi, xalq mahnıları müsabiqəsi keçirilir. Sağlamlığını itirmiş nə qədər adam sağlam həyata qayıdır. Gözünü itirmiş nə qədər adamın gözünə nur gəlir. Əlini, ayağını itirmiş nə qədər adam qurur, yaradır bu fondun köməyi ilə. Çünki bu fond əziz rəhbərimiz, bütün həyatı

boyu humanizmin, xeyirxahlığın simvoluna çevrilmiş babamızın adını daşıyır.

Bəs Ramil Səfərovun Vətənə qayıdışı?! Ermənilərə siyasi qələbə çalmaq deyilmi, onları yerindəcə susdurmaq deyilmi bu iş, bu əməl?! Onun izlərini görürəm, nəfəsini duyuram. Nə yaxşı ki, Heydər Əliyev dühası, nə yaxşı ki, bu dühadan yaranmış İlham Əliyev var... Nə qədər ki, bu belədir, biz qalib gələcəyik, alacağıq itirilmiş torpaqlarımızı xain qonşulardan! Meydan oxuyacağıq onların havadarlarına!

İndi O, cismən aramızda olmasa da, hər bir azərbaycanlı ilə birgə yaşayır, birgə nəfəs alır, birgə sevinir, birgə qəmlənir. Nə qədər bəşəriyyət var, nə qədər Azərbaycan, azərbaycançılıq var, nə qədər müdrik insanlara qiymət verənlər var Heydər Əliyev yaşayır və yaşayacaq.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var.*
*Heydər: «Xalqım» – deyəcək!*
*Xalq: «Heydər» – söyləyəcək!*

İnşamın sonunda dahi Azərbaycan şairi Səməd Vurğunun yazdığı misralar yadıma düşür:

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Mən öz inşamı Heydər Əliyevin ən çox işlətdiyi bir fikirlə bitirmək istəyirəm: «Hər bir insanın milli mənsubiyyəti, onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən Azərbaycanlıyam!»





## *Hüseynova Sevinc Rövşən qızı*

***Qəbələ rayonu, Şahin Məmmədov adına Məlikli kənd tam orta məktəbin X sinif şagirdi***

*Tarixdə liderlərin rolu və əhəmiyyəti onun xalq qarşısındakı xidmətləri ilə ölçülür. Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir.*

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Dahi insanların adı hər zaman dillərdə əzbər olur. O da dahi idi və mən inanıram ki, bütün dövrlərin dahisi olaraq da qalacaq. Bu dahi insan haqqında söz demək çətin olduğu qədər də şərəflidir. Biz hər zaman Heydər Əliyev fenomenindən qürurla danışırıq, onun bənzərsizliyindən söhbət açırıq. Bu dahi şəxsiyyət canından da çox sevdiyi xalqı, vətəni üçün elə böyük işlər görmüşdür ki, bunları ifadə etməkdə qələmimiz belə acizdir. Ümummilli liderə sevgim o qədər sonsuzdur ki, haradan başlayacağımı belə bilmirəm. Mən Azərbaycanı onun qədər sevə biləcək başqa bir adam tanımıram.

Ümummilli lider Heydər Əliyev müdrikliyi, uzaqgörənliyi ilə dünyanın say-seçmə siyasətçiləri ilə bir sırada özünə əbədi yer alan ən böyük azərbaycanlı idi. Onun adı nəinki Azərbaycanın, bütün türk dünyasının tarixinə qızıl hərflərlə yazılmışdır. Çağdaş Azərbaycanda iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin dirçəlişi və inkişafı, qısa zaman kəsiyində respublikamızın beynəlxalq aləmdə böyük nüfuz qazanması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Mənə belə gəlir ki, «Heydər Əliyev» kəlməsi «Azərbaycan» kəlməsinin sinonimidir. Çünki Azərbaycan deyəndə mənim gözlərim önündə Heydər Əliyevin o nurlu siması canlanır, çünki o bir günəşdir.

90 il əvvəl qədim Naxçıvan torpağında bir günəş doğdu. Öz ziyası ilə kainatı işıqlandıra biləcək bir günəş. O, elə bir işıqdır ki, milyonların yoluna bu gün də işıq saçır. O bir Ümummilli liderdir. Milyonları arxasınca aparacaq müdrik bir lider. O, XX əsrdə Ulu Tanrının Azərbaycana bəxş etdiyi bir səadət payı idi. Bitib-tükənməyən bir səadət payı.

Heydər Əliyev hamı kimi doğuldu, hamı kimi böyüdü, lakin hamı kimi yaşamadı. Əslində yaşaya bilmədi. O, milyonlarla soydaşının taleyinə biganə qalanlardan ola bilmədi. O, öz ürəyini məşələ çevirərək xalqının yoluna işıq saçdı. O, qaranlıqları parçalayıb nurlu sabaha çevirməyi bacardı. Çünki qəlbi, ürəyi vətənə sonsuz sevgiylə döyünürdü. Heydər Əliyevin təmənnasız xidmətləri xalqda ona qarşı böyük bir hörmət və sevgi hissi yaratdı. Arxaya dönüb baxarkən çağdaş Azərbaycanda Heydər Əliyevin rolu və mövqeyi daha aydın görünür.

Ulu öndər Heydər Əliyev bir rəhbər kimi müdrik və uzaqgörən idi. O, vətəndaş kimi qeyrətli, sərkərdə kimi qətiyyətli idi. O, ata kimi məsuliyyətli və qürurlu, baba kimi cəfakeş idi. O, bir ocağın deyil, minlərin, milyonların pənahı idi. O, xalqının sevincinə sevinc qatardı, dərdini öz qəlbinin süzgəcindən keçirər və hər dərdin dərmanını tapmağa çalışardı. Bir sözlə, o əsl vətənpərvər bir insan idi. Heydər Əliyevin gördüyü bu işlər heç də asan başa gəlmirdi.

Heydər Əliyev 1923-cü il may ayının 10-da Naxçıvanda fəhlə ailəsində anadan olmuşdur. Təhsil aldıqdan sonra 1941-ci ildən siyasi fəaliyyətə başlamışdır. Heydər Əliyev hər zaman mərkəzin diqqətini özünə cəlb etməyi bacarmışdı. Heydər Əliyev arzusunun işığında yol gedirdi. Onun ən böyük arzusu isə müstəqil Azərbaycan dövləti yaratmaq idi.

1993-cü ildə Azərbaycanda vəziyyət çox gərgin idi. Azərbaycan parçalanmaq, hətta müstəqilliyini itirmək təhlükəsi ilə üzbəüz qalmışdı. Təbii ki, bu vəziyyətə Heydər Əliyev laqeyd qala bilməzdi. 1993-cü ildə Heydər Əliyev vətənə qayıtdı. Heydər Əliyevin Azərbaycan Respublikasının Ali Sovetinə sədri seçildiyi gün – 1993-cü il 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Heydər Əliyevin hakimiyyətə qayıtması ilə zorakılığın qarşısı alında, hakimiyyəti zorla ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu. Azərbaycan çiçəklənir və inkişafa doğru addım atırdı.

1993-cü il oktyabr ayının üçündə Azərbaycan xalqı alternativ əsasla səs çoxluğu ilə Heydər Əliyevi Azərbaycan Respublikasının prezidenti seçdilər. Heydər Əliyev andiçmə mərasimindəki nitqində dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və tam suverenliyini qorumağa and içdi. Əlbəttə, bunları yerinə yetirmək ilk növbədə təhsilin, mədəniyyətin inkişafından, ordunun möhkəmləndirilməsindən başladı.



Heydər Əliyev televiziya və radio vasitəsilə xalqa müraciət etdi. Onları düşmənə qarşı birgə mübarizəyə səslədi. Təbii ki, xalq da bu müraciəti cavabsız qoymadı, taborlar yaradıldı və orduya göndərildi. Orduya xalq və dövlət yardımı genişləndi. Prezident Heydər Əliyev şəxsən döyüş bölgələrində olub ordunun döyüş qabiliyyəti ilə maraqlanırdı.

Ümummilli lider təhsil sahəsində də çox böyük işlər görmüşdü. Heydər Əliyev böyük şəxsiyyətlərin yubileylərini çox təmtəraqlı keçirməyi lazımlı bilirdi. 2000-ci ildə «Dədə Qorqud» dastanının 1300 illiyinin keçirilməsi buna misaldır.

Heydər Əliyevin arzusu memar olmaq idi. O, peşəkar memar ola bilmədi, siyasi memar oldu. Onun şah əsəri isə müstəqil Azərbaycan oldu. Qüdrətli Azərbaycan.

Heydər Əliyev Azərbaycanı qorumaq üçün bütün gücünü, fitri istedadını Azərbaycanın yolunda fəda etdi. Ancaq o, heç vaxt bundan peşman olduğunu demədi. Əksinə, həmişə deyərdi ki, «Mən fəxr etmişəm ki, mən Azərbaycanlıyam».

Bəli, biz hər zaman Heydər Əliyevi ən uca zirvələrlə müqayisə etmişik. Onun bənzərsizliyindən söhbət açmışıq.

Heydər Əliyevin hakimiyyəti dövründə 250-dən çox zavod, fabrik, istehsal sexləri yaradıldı, yeni iş yerləri açıldı. Bakı, Sumqayıt, Gəncə kimi şəhərlər böyüdüldü, yeni yaşayış massivləri salındı. 1975-ci ildə Bakıda Məişət Kondisionerləri istehsal edən zavod işə salındı. Bütün bu işlər Heydər Əliyev tərəfindən həyata keçirildi. Ancaq 2003-cü il Heydər Əliyev üçün çox da uğurlu olmadı, eləcə də Azərbaycan xalqı üçün. Çünki ulu Öndərimiz xəstələndi və müalicə olmaq üçün Amerikaya getdi. Ulu öndərimiz vətəndən çox-çox uzaqlarda Amerikanın Klivlend şəhərində əbədiyyətə qovuşdu. Umummilli liderimiz Heydər Əliyevin ölüm xəbəri bütün dünya azərbaycanlılarını kədərləndirdi. 2005-ci ildə 10 mayda Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün onun əzəmətli heykəlinin açılışı oldu. Amma biz bilirik ki, Heydər Əliyev cismən ölsə də, ancaq o, hər zaman Azərbaycan xalqının ürəyində yaşayacaq. Nə qədər müstəqil Azərbaycan dövləti var, Heydər Əliyev yaşayacaq. Bir şeirdə deyildiyi kimi:

*Nə qədər Azərbaycan, –*
*Nə qədər bu millət var.*
*Heydər «xalqım», – deyəcək*
*Xalq «Heydər», – söyləyəcək!*



## *Şərifova Həlimə Bəxtiyar qızı*

***Bərdə rayonu, akademik Zərifə Əliyeva adına Texniki Fənlər Təmayüllü liseyin IX sinif şagirdi***

*Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.*

**Heydər Əliyev**

Bu inşanı yazarkən tarixi vərəqləməyə, tarixi araşdırmağa çox böyük bir zərurət duydum.

Tomris anamızın – qeyrət, namus və hünər mücəssəməsi olan bu qadının vaxtından bu günə qədərki tarixə nəzər saldıqda saysız-hesabsız bəlalar qarşısında məhv olmayan, varlığını, milli-mənəvi dəyərlərini qoruyub saxlayan Azərbaycanımla qürur duydum. Gözlərim önündə xalqımızın böyüklüyünü gördüm. Xalqımızın bu böyüklüyü ilə fəxr etməmək mümkün deyil.

Elə mövzular var ki, ondan nə qədər yazılsa da, yenə azdır. Bu, Azərbaycanın tarixində müstəsna rol oynamış və bu tarixin şəriksiz müəllifi olan milli müstəqilliyin saxlanılmasında, ölkəmizin tərəqqisində, sözün həqiqi mənasında, misilsiz xidmətlər göstərmiş və hazırda bütün ictimaiyyət tərəfindən daim yad edilən Heydər Əliyev mövzusudur.

Zəngin və olduqca çətin bir həyat yolu keçmiş, fitri istedadı, müasirlərini həmişə heyran qoyan möhkəm hafizəsi, dəmir iradəsi sayəsində sovet sistemi kimi totalitar bir cəmiyyətdə ən yüksək fəzifələrdə işləmiş bu böyük şəxsiyyətin fəaliyyəti öz xalqının tarixinin təxminən 35 illik bir hissəsini əhatə edir. Bu illərə nəzər saldıqda Dahi Öndərin nələr etdiyinin şahidi olduq. Azərbaycanın mədəni, iqtisadi, siyasi sahələrindəki nailiyyətləri onun yuxusuz gecələrinin bəhrəsinə çevrilmişdi. Bir fikir ona daima yol



yoldaşlığı edirdi. Görəsən, xalqım nə vaxt öz müstəqilliyini qazanacaq? Nə vaxt buna nail olacaq? Milli dəyərləri hər şeydən üstün tutan Heydər Əliyev 70-ci illərdə artıq buna nail olmuşdu. Əsrlər boyu ayrı salınmış Quzeylə Güney arasında ilk ədəbi-mədəni əlaqələr 1970-ci illərdə canlanmışdı. Məhəmmədhüseyn Şəhriyarın ana dilində yazdığı inqilabi ruhlu əsərləri, Şimali Azərbaycanda ilk dəfə bu dövrlərdə çap olunmuşdu. Radioda, televiziyada milli ruhlu verilişlərə geniş yer verilmişdi. Milli kino tariximizin dəyərli kinoları – «Nəsimi», «Babək», «Dədə Qorqud», «Nizami», «Dəli Kür» məhz elə bu dövrlərdə yaranmışdı.

Təkcə ədəbi-mədəni sahələrdə deyil, elm, təhsil, iqtisadiyyat və digər sahələrdə aparılmış məqsədyönlü siyasət xalqımızın gələcək müstəqilliyindən xəbər verirdi. Bu, müstəqilliyə qovuşacağımıza inanan müdrik bir şəxsiyyətin – Heydər Əliyevin atdığı tarixi addımlar idi.

Fəqət tarixən buraxılmış səhvlər yenidən təkrar olunmağa başlandı. Yenə hakimiyyət uğrunda mübarizə, yenə vəzifə hərislərinin didişməsi xalqı çətin vəziyyətlərə salırdı. Torpaqlar işğal olunur, Qarabağ təhlükə altına alınır, kəndlər, səhərlər yandırılır, dağıdılır, soydaşlarımız öz yurdlarından qovulur, didərgin salınır, Vətənim Azərbaycan ən çətin, ən ağır günlərini yaşayırdı, Amma vəzifə, hakimiyyət hərisləri buna heç bir əhəmiyyət vermirdi.

Bəli, Azərbaycan olum-ölümlə üz-üzə qalmışdı. Lakin xalq ümidsizliyə, inamsızlığa qapılmadı. Xalq ayağa qalxıb: «Gəl Heydər!» – dedi. «Bu xalqa, bu yurda ol rəhbər!» – dedi.

*O gəldi: özünə qayıtdı millət,*
*O gəldi: yüksəldi üçrəngli bayraq.*
*Gəzdi ölkə-ölkə şöhrəti, şanı,*
*Dünyaya tanıtdı Azərbaycanı.*

Bəli xalq onun dövlətçilik qabiliyyətinə, idarəetmə istedadına, bilik, bacarıq və təcrübəsinə, başlıcası isə, xalqına, vətəninə, millətinə olan sevgisinə inanırdı. O, özü də xalqa, xalqın sevgisinə, inamına güvənirdi. O inanırdı ki, xalqla bir yerdə ağır vəziyyətə düşmüş vətəni xilas etmək olar.

Tarix sübut etdi ki, xalq yanılmamışdır. Düşünülmüş, müdrik bir qərar qəbul etmişdir. Bu düşünməyə cavab olaraq o, xalqın hay-harayına səs verdi. Ömrünün ahıl çağlarında yenidən çətinə düşmüş bu xalqın harayına çatdı. Xalqın haray deyib uzanan əllərindən tutub xilas yoluna çıxardı.

*Vətəni tanıtdın bütün dünyaya,*
*Bizləri ucaltdın günəşə, aya,*
*Sülh deyib son qoydun şivənə, vaya,*
*Daha yaş tökməyir göz, Heydər baba,*
*Məlhəmdir dediyin söz, Heydər baba.*

1988–1993-cü illərdə olan qarmaqarışıqlıq və çətin vəziyyət 1970-ci illərdə yüksək səviyyədə yaranmış iqtisadiyyat mexanizmini darmadağın etdi. Əhalinin vəziyyəti ağırlaşdı. Ən başlıcası isə Qarabağ savaşı, vətənimizin qeyrətli oğul və qızlarının şəhid olması, torpaqlarımızın işğal edilməsi ölkə başçısını çox böyük problemlərlə qarşılaşdırdı. Bu problemlər onun siyasətinin yanında heç nə idi. O, ağıllı siyasəti ilə bəzi zərərli amilləri zərərsizləşdirdi. 1994-cü ilin mayında Ermənistanla atəşkəs imzalamağa nail oldu. Eyni zamanda həm daxili, həm xarici siyasətdə atılan addımların ən yaxşısı, ən alisi dünyanın ən böyük neft şirkətləri ilə imzalanan «Əsrin müqaviləsi»dir.

Bir sözü axtardım, tapdım. Daha mükəmməl, daha dolğun, ürəklərə sevinc, gələcəyə inam gətirən bir söz: «Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram», – deyərək əsl vətən sevgisinin nə olduğunu sübut etdi. Üzünü xalqa tutub dedi: «Bizim hamımızın bir vətəni var. Bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq öz azərbaycanlılığını, dilini, dinini milli ənənələrini unutmamalıdır».

O, bütün dünyaya sübut etdi ki, xalqın hədsiz dərəcədə çox sevən, xalq naminə yaşayan insanlar var. O, xalqı üçün hər şeyi etdi, buna baxmayaraq, məncə, heç vaxt ürəkdən gülmürdü. Mən onun gözlərinə baxdıqda həm sevinc, həm də kədər görürəm. Bu sevinc, bu təbəssüm xalqın inkişafı, xalqın rifah halının yüksəlişi, bu qəm, kədər isə xalqın həsrəti, hal-hazırda da gündəmimizdə aktual mövzulardan biri olan Dağlıq Qarabağ problemi idi.

«Mən sizə arxalanıram. Həmişə də arxalanacağam.Çünki mənim xalqın xoşbəxtliyindən, xalqın firavanlığından böyük heç bir arzum yoxdur». Bu ifadələri Azadlıq meydanında milyonlarla azərbaycanlılar alqışladılar. Bu, xalqın həqiqi birliyi idi. Xalqın bu birliyini görən yadelli düşmənlər Vətənim Azərbaycanla hesablaşmaq məcburiyyətində qaldılar.

Dahi şəxsiyyət Azərbaycanı bütün dünyaya tanıtmaq üçün əlindən gələn hər şeyi etdi. Buna bir neçə nümunə göstərmək olar. Beynəlxalq İpək yolunun bərpası, Bakı–Supsa neft kəmərinin çəkilməsi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Trans Xəzər Qaz kəmərinin çəkilməsi onun əməyinin bəhrələri idi.



*Ceyhana yollanır neftimiz bol-bol*
*Açılır ürəkdən ürəklərə yol,*
*Sevinc çələnginə bürünür aləm.*
*Gedir yer üzündən kədər və ələm.*

Saydıqlarımın hamısı onun öz doğma vətəninin inkişafı üçün etdikləri idi.

Tanrı bu dahi insanı sevərək yaratdı, qorudu, yaşatdı, ucaltdı, o da xalqını, vətənini, el-obasını sevdi, qorudu, ucaltdı.

Günəş kimi öz həyatverici şüalarının istiliyini, hərarətini Azərbaycan xalqının, Azərbaycan adlı məmləkətin inkişafı, əbədiliyi və xoş gələcəyi naminə sərf etdi. Onun sinəsində bir insanın yox, milyonlarla azərbaycanlının ürəyi döyünürdü. 2003-cü ilin dekabrın 12-də bu ürək bir daha vurmadı. Həmin gün bütün Azərbaycan kədər və qəm içərisində idi.

*O ölməmiş,*
*Ölə bilməz vətən üçün,*
*Millət üçün doğulanlar.*
*Arzusuyla, əməliylə, zəkasıyla*
*Vətənini ucaldanlar.*
*Millətinin gözlərinə nur olanlar*
*Ölə bilməz!*

O, xalqına ən böyük əmanəti-müstəqillik əmanətini yadigar qoydu. Bu yadigarı isə İlham Heydər oğlu Əliyevə etibar edildi.

Bu gün Azərbaycanın dünyanın ən qüdrətli dövlətlərindən biridir.

Bu dövləti, bu qüdrəti yaradan Heydər Əliyev ideyalarına, İlham Əliyev əqidəsinə, idrakına, inamına, gücünə eşq olsun!!!



## Hüseynova Gülab Tofiq qızı

**Goranboy rayonu, Hüseyn Abdıyev adına Nadirkənd tam orta məktəbin XI sinif şagirdi**

Vətən! Bu kəlmə təmiz ürəklər qədər pakdır, müqəddəsdir, şəffafdır. Aydan arı, sudan durudur. Bu söz ana südü kimi şirindir, ana qucağı qədər əziz, ona nəfəsitək istidir.

Vətən! Bu söz ilk dəfə kimin dilindən qopub, kimin dodaqlarından çıxıb?!

Ana–Vətən! Azərbaycan! Odlar yurdu! Odlar ölkəsi. Ürəyi alovlu, sinəsi guşəli doğma vətənim! Bütün qəlbimlə sevdiyim diyarım mənim.

Heydər Əliyev istedadı, əməksevərliyi ilə ucu tutulan şəxsiyyət idi.

*Qüvvətim, zorum torpaq,*
*Ocağım, qorum torpaq.*
*Səndə bir iz qoymasam.*
*Alışsın gorum, torpaq.*

Tarixin ağır yükünü yalnız böyük şəxsiyyətlər çiynində daşıya bilər. Plexanovun təbirincə desək: «Böyük işlər görən şəxsiyyət əslində tarixin yaradıcısıdır». Elə buna görədir ki, zaman-zaman insanlar beləsini unutmur, onu daim yaddaşlarda saxlayırlar.

Bəzən tarix elə şəxsiyyətlər yetişdirir ki, onları əvəz edəcək digərini təsəvvür etmək mümkün deyil. Belələrindən biri özünün dediyi kimi, ömrünün qalan hissəsini xalqına həsr edən Heydər Əlirza oğlu Əliyev olmuşdur. O, XX əsrin böyük və yenilməz dövlət xadimi, siyasətçisi, mütəfəkkiri və görkəmli diplomatıdır.

Heydər Əliyev sayca Respublikamızın ikinci, parlaq həyat fəaliyyətinə görə isə, müstəqil azad Azərbaycanımızın əvəzolunmaz yeganə başçısı, vahid Ümummilli lideridir.



Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə Naxçıvanda anadan olmuşdur.

Heydər Əliyev Naxçıvan pedaqoji Texnikumunu bitirdikdən sonra, 1939–1941-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda oxumuşdur. 1941-ci ildən Naxçıvan MSSR Xalq Komissarları sovetində şöbə müdiri işləmişdir. 1944-cü ilin mayında Heydər Əliyev Naxçıvan vilayətində PK-i tərəfindən Dövlət Təhlükəsizliyi orqanlarına işə göndərilmiş və burada 1969-cu ilə qədər məsul vəzifələrdə çalışmışdır.

Ozamankı Sovet İKP MK-nın Plenumu (1976, mart) Heydər Əliyevi Sovet İKP MK siyasi Bürosu üzvlüyünə namizəd seçmişdir. Hansı vəzifədə çalışmasına baxmayaraq, rəhbər və təşkilatçı kimi Heydər Əliyev istedad və bacarığı parlaq surətdə təzahür edir. O, Azərbaycan KP MK-nın I katibi vəzifəsində 1969–1982-cş illərdə işləyərkən bütün zəhmətkeşlərin əmək, ictimai-siyasi fəallığının artırılmasına nail olmuşdur. Respublikada sağlam mənəvi-siyasi şərait bərqərar olmuş, iqtisadiyyatın uzun müddət davam edən geriliyini o, aradan qaldırmışdır. Həmin illər dövlət planları ardıcıl olaraq yerinə yetirilir, xalq təsərrüfatının inkişafında rekord göstəricilər əldə edilirdi. Azərbaycan 10 dəfə (1970–1979) Ümumittifaq sosializm yarışında qalib çıxmış və Keçici Qırmızı Bayraq ilə təltif olunmuşdu.

Bəli, bütün bunlar Heydər Əliyev əleyhdarlarını, o xümlədən çörəyimizi yeyib bərəkətli torpaqlarımızda məskunlaşmış erməni qonşularımızı çox narahat edirdi. Axı Moskvada, Kremldə Nəriman Nərimanovdan (1870– 1925) sonra vəzifədə olan 2-ci azəri oğlu məhz Heydər Əlirza oğlu Əliyev idi.

Amerika Birləşmiş Ştatının keçmiş Prezidenti Bill Klinton son illər Azərbaycanın bir dövlət kimi möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və kəskin artımın əldə olunmasında Prezident Heydər Əliyevin nailiyyətlərini yüksək qiymətləndirirdi: «Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan müstəqillik yolunda üzləşdiyi çətinlikləri dəf etməkdə əhəmiyyətli irəliləyiş əldə edibdir».

NATO-nun baş katibi Xavyer Solana dövlətimizin başçısı Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, ölkədə demokratik proseslərin, iqtisadi islahatların uğurla həyata keçirilməsi sayəsində görülən işləri müsbət qiymətləndirmiş və bütün bunların beynəlxalq təşkilatlar, o cümlədən NATO tərəfindən dəstəkləndiyini vurğulamışdır.

Heydər Əliyev 1990-cı ilin 19 avqustunda Moskvadan Naxçıvana, 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəlmişdir. Bu adi qayıdış de-

yildi, qurtuluş idi. Bu barədə hər hansı fikir söyləmək üçün öncə Heydər Əliyev şəxsiyyətini dərk etmək lazımdır. Bu gün milyonlarla insanın ümüd çırağı olan, millətin tərbiyəçisi, müəllimi və rəhbəri kimi nadir keyfiyyətlərə malik Heydər Əliyev bir də ona görə zamanın yaddaşında əbədilik hüququ qazanmışdır ki, o, tükənməz istedadını, zəngin təcrübəsini azad, müstəqil, yaxın gələcəkdə dünya sivilizasiyasına qarışacaq bir dövlət qurmağa sərf etmiş, xalqının xilaskarı olmuşdur. Onun özünəməxsus xarakteri olub. Keçənləri və gələcəyi təhlil etmək bacarığı hər hansı problemin həlli zamanı onlarla variantı saf-çürük edərək düzgün nəticə çıxarması sayəsində xalqımız sonu görünməyən bəlalardan xilas olmuşdur.

*Adın-sanın yenilməz bir ordudu,*
*İndi odlar diyarının özüsən…*
*Azərbaycan Heydərlərin yurdudu,*
*Gələcəyə baxanların gözüsən.*

Xalq öz dahi oğluna layiq olduğu qiyməti verib. Lazımi yüksəklikdə böyük heykəlini ucaldıbdır və Azərbaycan güclü bir dövlətə sevrilibdir. Bütün bunlar üçün yalnız indiki nəsil yox, gələcək nəsillər də möhtərəm Heydər Əliyev cənablarına minnətdar olacaqlar.

Xalqımız möhtərəm Ümummilli Liderinə həmişə inanmış, onun yeritdiyi daxili və xarici siyasi xəttini ürəkdən bəyənmiş, qəlbən müdafiə etmişdir. Heydər Əliyev demişdir ki, Vətənə, xalqıma, millətimə məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur.

«Mən 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçiləndə də oktyabrın 10-da Qurana, Azərbaycan Respublikasının Konstitusiyasına əl basaraq xalqımıza and içəndə də demişəm ki, mənim indi bir vəzifəm var: xalqa xidmət etmək, ömrümün bundan sonrakı hissəsini ancaq və ancaq xalqın bu vəziyyətindən çıxmasına həsr etmək, özüm üçün bundan şərəfli vəzifə bilmirəm. Mən verdiyim bu sözə sadiqəm və bunu axıradək həyata keçirəcəyəm. Odur ki, heç kəs bu andımı həyata keçirməyə mane da bilməyəcəkdir.»

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət dünya iqtisadi siyasətinin tərkib hissəsi olan bir proqramdır.

Təkcə «Əsrin müqaviləsi»ni göstərmək kifayətdir.

Heydər Əliyev beynəlxalq aləmdə Azəbaycanın nüfuzunu qaldırmış, haqq səsimizi dünyaya yaymışdı.



Ümummilli Liderin ən mühüm tarixi xidmətlərindən biri də dilimizi xilas etməsidir.

«Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir» (Heydər Əliyev).

Zamənamizin böyük Azərbaycanlısı Heydər Əliyev.

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!» (Heydər Əliyev).



## Həbibova Aidə Akif qızı

**Bakı Dövlət Universitetinin nəzdində «Gənc istedadlar» liseyinin IX sinif şagirdi**

Deyirlər, həyat yaradılışla ölüm, beşiklə məzar arasında olan bir yoldur. Hər kəs yolda fərqli addımlayır. Kimi öz vətənini, elini, obasını, xalqını düşünüb onların yükünü öz çiyninə alıb yaşayır, kimi də əksinə, xalqına, millətinə yük olub yaşayır. Nəticədə hər ikisi də insanların həyat yollarıdır.

Bir deyim də var: «Min qəddi əyən mənəvi yük bir çiyinə düşəndə dahilik yaranır».

Mən bu gün burada yazdığım bu sətirlərdə xalqımın ən ağır günlərində yanında olan, neçə-neçə düşmənlər görüb, amma yenə də dimdik duran xalqımın qeyrətli oğlu ümummilli liderimiz Heydər Əliyevdən bəhs edəcəm.

Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə baharın gülşən çağında qədim Naxçıvan şəhərində bir fəhlə ailəsində dünyaya göz açmışdır. Hələ onda heç kim bilmirdi ki, Əlirza kişinin ocağında dünyaya gələn bu balaca, sarışın oğlan gün gələcək vətənin, dövlətin, Azərbaycanın ən tanınmış şəxsiyyətlərindən biri və bir xilaskar olacaq.

Böyüklərimin söhbətlərindən, baxdığım televiziya proqramlarından, oxuduğum kitablardan, dinlədiyim radio verilişlərindən Heydər Əliyevi daha yaxşı tanıyır, dərk edirəm. Onun haqqında cüzi bir şey eşidəndə belə dövlətimə, xalqıma olan sevgim, inamım və ən əsası, Ulu Öndərimə duyduğum hörmət daha da artır.

Sovetlər dönəmində Azərbaycanda vəziyyət çox gərgin idi. O zamanlar Moskva şəhərində yeganə azərbaycanlı, hətta demək olar ki, yeganə türk idi ki, yüksək vəzifədə çalışırdı. Lakin azğın düşmənlərimiz indi olduğu kimi onda da paxıllıq, kin, nifrət azarlarına düçar oldular. Nə yolla olursa olsun, Heydər Əliyevi hakimiyyətdən salmaq qərarına gəldilər.



Xalq Heydər Əliyevi öz xilaskarı bilirdi. Mən isə onu daha doğma insan – Heydər baba kimi tanıyıram. Çünki o, mənim kimi minlərlə gənclərin atasıdır, babasıdır.

1990-cı il 20 Yanvar hadisələri zamanı xalqın ilk etiraz səsini bu dahi şəxsiyyət dilə gətirdi. Zamandan, siyasi və iqtisadi vəziyyətlərdən asılı olmayaraq, Heydər Əliyev hər zaman olduğu kimi millətinə arxa durdu. İnsanları azadlığa səslədi. Xalqına dostlarını və düşmənlərini yaxşı tanımağı tövsiyə edirdi. O zamanlar azərbaycanlılar da onun səsinə hay verdi. Artıq Sovet İmperiyasının Vətənimizdə hökmranlıq etməsini nə xalqımız, nə də Ulu Öndərimiz istəmirdi.

1990–1993-cü illər arasında Azərbaycanın müxtəlif rayonları düşmənlərimiz tərəfindən yavaş-yavaş işğal olunmağa başladı. Həmin vaxtlar Heydər baba qorxmadan, çəkinmədən cəsarət və hünərlə ölkəmizə gəldi. Torpaqlarımızın iyirmi faizinin işğal altında olduğu dövrdə Heydər Əliyev vətənimizi müstəqilliyini itirməkdən qorudu.

Uıu Öndərimiz yüksək hafizəsi, dərin zəkası, güclü siyasəti ilə hamını valeh edirdi. O, çox gözəl bilirdi ki, onsuz da vətənimiz bir gün işğaldan qurtulacaq. Ancaq o günə qədər ölkəni həm siyasi, həm iqtisadi cəhətdən önə çəkmək lazım idi. Buna görə də Ulu Öndərimiz ağıllı bir siyasət yeridərək, ilk öncə, səhiyyəni, təhsili ordunu nizama, qaydaya salmaq qərarına gəldi.

Hal-hazırda yüksək səviyyədə inkişaf etmiş təhsilimiz üçün də biz Heydər Əliyevə borcluyuq. Neçə-neçə şagird və tələbəni xaricdəki adlı-sanlı universitetlərə göndərən Ümummilli Liderimiz gözəl bilirdi ki, həmin insanlar vətənimizə, dövlətimizə qayıdanda yüksək vəzifələrdə çalışıb, millət üçün faydalı övladlar olacaqlar.

Heydər Əliyev Azərbaycanın həm rayonlarındakı, həm də şəhərlərindəki məktəbləri, universitetləri, kitabxanaları əsaslı təmir etdirdi, təhsil amilinin yüksək inkişafına şərait yaratdı.

«Əsrin müqaviləsi» Heydər Əliyevin ən uğurlu işlərindən biridir. O, bu müqaviləni imzalamaqla xalqımızı yoxsulluq və səfalətdən, aclıqdan qorudu.

Azərbaycanın qədimdən bəri neft ölkəsi olduğunu bütün dünya ölkələri yaxşı bilirdi. Ulu Öndərimizin neftimizi ölkəmizdən ixrac etməklə bağlı müqaviləsi hələ də özünü qüvvədə saxlayır və bu, bir çox illərdə də öz mənafeyini qoruyub saxlayacaqdır. Bəlkə də, elə düşmənlərimizin həmişə torpaqlarımızda gözləri olmasının səbəblərindən biri də ölkəmizin neftidir.

Ümummilli liderimiz incəsənətə, ədəbiyyata, musiqiyə çox böyük önəm verirdi. O, Azərbaycanın dahi bəstəkarlarının bəstələdiyi və məşhur müğənnilərimizin ifa etdiyi mahnılara məftun idi. Heydər Əliyev sanki təbiətdəki hər daşın, gülün, çiçəyin, şəlalə şırıltısının, çayın gur suyunun axın səsinin dilini bilirdi. O, təbiətin gözəlliklərini ürəkdən sevərdi.

Televiziya ekranlarına baxdığım zaman diqqət edirəm: Heydər baba sənət adamları arasındadır. Onların mahnılarına qulaq asır, onlarla şux zarafatlar edir, sənətdən və incəsənətin gözəlliklərindən danışır. Heydər Əliyev körpələr və şagirdlər arasındadır. Gözlərindən uşaqlara olan məhəbbəti və sevgisi aydın görünür. Uşaqlara müxtəlif hədiyyələr ərmağan edir, onları sevindirməyi, onlarla gülüb-danışmağı da gözəl bacarırdı. Axı onun da təxminən həmin uşaqlarla yaşıd olan kiçik və şirin nəvələri vardı. Xüsusilə də onun öz adı və öz soyadını daşıyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizin birinci xanımı olan Mehriban Əliyevanın o zamanlar kiçik olan, lakin indi böyüyüb boya-başa çatıb öz babasının gəncliyini xatırladan kiçik Heydər.

Bəzən kanalları çevirəndə Heydər babamı ordumuzdakı əsgərlər arasında görürəm. Məğrur bir sərkərdə kimi qorxmaz və igidcəsinə cəbhə bölgəmizə yola düşüb, orada igid əsgərlərimizlə birlikdə düşmən sərhədlərində kəşfiyyata çıxmış bir sima görürəm ekranlarda. Heç zaman qorxmayan, çəkinməyən bir sima.

Heydər Əliyev həm də çox yaxşı bir natiq idi. O, istənilən auditoriyanı ələ almağa yaxşı bacarırdı. Hər kəsi öz dilində danışdırmağı sevir, dünya dillərinin hər birindən məlumatlanmağa çalışırdı.

Mən Heydər Əliyev hakimiyyətdə olduğu dönəmlərdə hələ çox balaca idim. Dövlətin, siyasətin, rəhbərliyin nə demək olduğunu tam dərindən dərk edə bilmirdim. Ancaq xatırladığım tək bir şey var; o zamanlar hər kəsin üzündəki gülüşlər və söylənilən bu cümlələr: «Nə yaxşı ki, Heydər Əliyev hakimiyyətə gəldi. O gəldiyindən bəri hamının həyatı yoluna düşüb və hər kəs firavan həyat sürür». Mən bu cümlələri hələ beş yaşım olanda böyüklərimin dilindən eşitdim. Eşitdim və sadəcə o zamanlar kiçicik bir qutu kimi görünən televiziyada bəzən həlim və mülayim, bəzən də odlu-alovlu xalqın yükünü daşıyan insanla fəxr etdim. Fəxr etdim ki, xalqımın, millətimin, müstəqil Azərbaycanımın belə bir övladı var! Var! – deyirəm. Çünki nə qədər mən varam, nə qədər mənim xalqım var, Heydər Əliyev də var olacaq! Sadəcə bədəninin bizim yanımızda ola bilməməsi bir şeyi dəyişməz. Onun ruhu həmişə bizimlə yaşayıb, yaşayacaq da!



Heydər Əliyevin Azərbaycan tarixində gördüyü daha önəmli bir işdən söz açmaq istəyirəm. 1950-ci ildən türk-müsəlman ölkələri üçün «mürtəce abidə» kimi hesab olunan «Kitabi-Dədə Qorqud» eposunun 1300 illik yubileyinin 2000-ci ildə təntənəli surətdə qeyd olunması da Ümummilli Liderimizin təşəbbüsü ilə olmuşdur. Bu tədbirin Azərbaycanda təntənəli keçirilməsinin əsas səbəbləri bu eposun ən qədimdən bəri xalqımıza məxsus olması, bu dastanda milli adət-ənənələrimizdən söz açılması, buradakı ailə birliyi məsələləri, ağsaqqallara olan hörmət və s.dir. Keçmişini bilməyən gələcəyini nə qıra bilər, nə də yaşaya bilər. Buna görə də Heydər Əliyev bu eposa bu qədər dəyər verib, belə bir tədbir keçirməyi qərara aldı.

Heydər Əliyevin həyatına, keçmişinə, həyat və yaradıcılığına həsr olunmuş çox kitablar oxumuşam. Elə bir şairimiz yoxdur ki, onun şərəfinə şeir yazmasın, ya da elə bir müğənnimiz yoxdur ki, onun xatirəsinə həsr olunmuş nəğmə ifa etməsin.

Əslində hamı kimi Heydər babam da sadə bir vətəndaş idi. Lakin o xalqı üçün lazım olsa, canını verməyə hazır olan, xalqı yolunda öz həyatını şam kimi əridən bir şəxsiyyət olmuşdur.

Dünya arenasındakı siyasətçilərə baxıram. Mənim və mənimlə bərabər bütün gənclərin babası olan Heydər babamın yanında çox cılız görünürlər.

Ümummilli Liderimizin hər zaman dediyi bir söz var idi: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Heydər Əliyev kimi mən də belə fikirləşirəm. Mən də azərbaycanlı olduğum üçün fəxr edirəm. Fəxr edirəm ki, belə gözəlliklərə sahib olan, belə igid, qorxmaz övladlar yetişdirən bir məmləkətdə yaşayıram. Fəxr edirəm ki, Heydər babam var! Fəxr edirəm ki, onu həmişə qəlbimdə bu inşada öz beynimdə qələmim vasitəsilə axıb tökülən gerçək həqiqətləri ilə yaşadacağam.

Mən Ulu Öndərimizin 90 illiyinə həsr etdiyim inşamda qəlbimdən gələn bütün sözlərimi yazıb-tamamladım. Ancaq əgər Ulu Öndərimiz yaşasa idi, ona belə bir sözüm də olardı! Fəxr et, Heydər baba! Fəxr et, ona görə ki, keçmişini əks etdirən bir oğulu – İlham Əliyevi Azərbaycana, Azərbaycan xalqına bəxş etmisən!



### *Həsənli Zöhrə Bahadur qızı*
***Füzuli rayonu, Allahyar Əliyev adına 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

*Böyük şəxsiyyətlər yaranır az-az,*
*Hər yerdə, hər zaman inci tapılmaz*

**N.Gəncəvi**

*Təhsil aldığım məktəbin,*
*Lap yuxarı girişindən,*
*Bir portret asılıbdır.*
*Keçirəm hər gün yanından,*
*Baş əyirəm deyirəm ki,*
*Ey türkün bənzərsiz oğlu,*
*Salam olsun sənə, salam!*
*Salam, əziz Heydər babam!*

10 may 1923-cü il. O gecə ulduzlar daha parlaq işıq saçır, sayrışırdı. Bir-birinə əl edir, göz vurur, sanki sevinclərini bölüşürdülər. Müdrikləşən ay bir qədər də böyüdü, bədirləndi. Buludlar arasından çıxıb nəzərlərini Naxçıvan şəhərində sadə bir ailənin evinə yönəltdi. Evin pəncərələrindən süzülüb içəriyə boylandı. Üzündə müdriklərə məxsus nurlu bir təbəssüm oyandı. Tanrı türk dünyasına bənzərsiz bir oğul əta etmişdi. Elə bir oğul ki, bütün türk dünyası onun gəlişindən məmnun oldu. Elə bir oğul ki, əbədiyaşarlıq qazandı.

Azərbaycanda Heydər Əliyev erası, iqtisadi, siyasi və ictimai həyatda Heydər Əliyev fenomeni yaratdı.

Onun uca boyunu, şux qamətini, ciddi görkəmi ilə düşmən bağrı yaran şəxsiyyətini, iclas salonlarını lərzəyə salan kəskin çıxışlarını, qartal baxışlarını, bütün nəsillərə nümunə olan natiqlik məharətini hansı sözlərlə vəsf edim ki, real obrazını yarada bilim. Azərbaycan dili böyük fikirləri ifadə etmək üçün ən zəngin dillərdən biri olsa da, mən bu parlaq dühanın qeyri-adi varlıq olduğunu yazmaq üçün, onun özünə layiq, dəyərli sözlər tapa bilmirəm. Söz acizdir, kölgədə qalır. Heydər Əliyev şəxsiyyəti isə ucalıq mücəssəməsidir. Vaxt, zaman ötdükcə daha da yüksəlir, əlçatmaz olur. Şair əbəs yerə demir ki:



*Sən elə bir zirvəsən,*
*Küləklər neyləyəcək.*
*Dünənim, bu günümsən,*
*Səninlədir gələcək.*

Hansı rəhbər 34 il bir xalqı, bir dövləti idarə edə bilib? Bu az müddət deyil, şanlı bir eradır. Həm də necə? Hər kəsi öz dilində danışdırmağı bacaran, uşaqla uşaq, böyüklə böyük bir insan kimi. Ümumxalq məhəbbəti qazanaraq ürəklərə, könüllərə yol tapdı, kimsəsizlərə əl tutdu, işsizləri işlə təmin etdi, insanları əməksevər olmağa ruhlandırdı. Böyük şairimiz N.Gəncəvi demişdir:

*Yaşa bu həyatı yaşatmaq üçün,*
*Yaşama kiməsə daş atmaq üçün.*

1969-cu ilin yayında SSRİ məkanında geridə qalmış bir respublika olan Azərbaycan Heydər Əliyevin rəhbərliyə gəlişi ilə dirçəlməyə başladı. Keçici bayraqlar bir-birinin ardınca Azərbaycana gətirildi.

Sadə zəhmət adamları əmək meydanlarına gələr və Heydər Əliyevlə görüşərdilər. Heydər Əliyev onların dərd-səri ilə maraqlanar, təcili tədbir görərdi. Pambıq tarlalarında, üzüm plantasiyalarında, zavod və fabriklərdə zəhmətkeşlərlə görüşü toy-bayrama çevrilərdi. İnsanların işlərinə dəyər verər, mükafatlandırardı. Xalqının həyatı firavanlaşdıqca Heydər Əliyevin ətrafında daha da sıx birləşdi.

O, sadəcə rəhbər deyildi. Alimlərin, ədəbiyyat və incəsənət xadimlərinin, rəssam və heykəltəraşların ən yaxın dostu və himayədarı idi. Gəncləri, uşaqları böyük məhəbbətlə sevər və qayğı göstərərdi. «Gənclər bizim gələcəyimizdir», – deyərdi.

Ana dilimizə böyük dəyər verdi Heydər Əliyev. Elm, təhsil Azərbaycanda öz intibahını – çiçəklənmə dövrünü yaşayırdı. Gənclər ali təhsil ocaqlarına axışır, xarici ölkələrin universitetlərində oxumağa yollanırdılar. Zəhmətsevər və çevik ağıla malik olması, təşkilatçılıq və idarəçilik bacarığı Moskvanı da cəlb edirdi. Onu SSRİ-də yüksək vəzifəyə irəli çəkdilər. Bütün işlərin öhdəsindən bacarıqla gəldi. Lakin Azərbaycanı da unutmadı. Dövrə-

sində paxıl adamlar peyda oldular. Ermənipərəst M.Qorbaçov jurnalistlərə etiraf edir ki, Heydər Əliyevdən çəkinir, ona qibtə edirdi. M.Qorbaçov kimi adamlar çox təəssüf ki, arzularına çatırlar. Heydər Əliyev səhhəti ilə əlaqədar işdən uzaqlaşır. Bundan istifadə edən ermənilər fəallaşır.

Azərbaycan xalqı düşdüyü ağır vəziyyətin xilasını Heydər Əliyevin hakimiyyətə geri gəlişində görür. 1993-cü ildə xalqın təkidi və tələbi ilə O, Azərbaycanı yenidən dirçəldir. Daha yüksək layihələrə imza atılır.

*Qurtuluş bayramdır, qərarımızdır.*
*Böyük Heydərimiz vüqarımızdır.*
*Yaşasın vətənə qayıdış günü,*
*İyunun 15-i «Qurtuluş günü».*

Konstitusiyamızın qəbul edilməsi, atəşkəsə nail olmaq ipək yolunun bərpası, neft kontraktları abadlıq və quruculuq işləri və s. saymaqla qurtarmaz. Onu demək yerinə düşər ki, Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının əzəli və əbədi memarıdır.

Dünya xəritəsində kiçik bir ölkə olan Azərbaycanı Heydər Əliyev bütün dünyada tanıtmışdır. 53 ölkədə Qarabağ həqiqətlərini ortaya qoymuşdur.

*Yer üzündə türk xalqları,*
*«Dədə» – deyir, «Ata» – deyir,*
*Uşaqları fəxarətlə,*
*Şərafətlə «Baba» – deyir.*
*Xeyirxah bir mələk kimi,*
*Göydən yerə enən kimdir?*
*Xalqı üçün bütövlükdə*
*Bir məşələ dönən kimdir?*
*İstedadlı uşaqların,*
*Əməksevər insanların,*
*Qiymətini verən kimdir?*
*Cismi Fəxri xiyabanda*
*Özü xalqın qəlbindədir*
*Bildinizmi bəs o kimdir?*
*O, Heydərdir, o, Heydərdir!*

Ey Ulu Öndərimiz! Ailələrin tez-tez dağıldığı müasir dünyada ən nümunəvi ailə başçısı olmaq, hər kəsə örnək ola biləcək tərbiyəli, yüksək intellektə malik övladları böyütmək, cəmiyyət qarşısında duran ən vacib borcu ödəmək, mükəmməlliyin ən bariz nümunəsidir.



Hər sahədə sizin yolunuzun davamçısı İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi öz gücünü, qüvvəsini, xalqın rifahı naminə sərf edir. ISESCO və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanımın səyi nəticəsində bir çox dəyərli layihələr həyata keçirilir.

Artıq Leyla xanım da kifayət qədər tanınmışdır.

Fevralın 8-də üçrəngli Azərbaycan bayrağı həkk edilmiş ilk milli süni peykimiz orbitə çıxarıldı. Azərbaycan sayca 11-ci yerdə idi.

365 gündən ibarət olan 12 ayın bir ayı daha gözəl olur. May. Gül gülə, çiçək çiçəyə qovuşur. Yal-yamaclar allı-güllü xalıya bürünür, elə bil. Ən qəddar insanın belə qəlbinə bir məhəbbət işığı dolur.

Böyüklərin qürur yeri, uşaqların əziz babası, Tanrının ən cox sevdiyi bəndə! Nə gözəl gündə dünyaya gəlmişsiniz. Hər dəfə may ayının 10-da siz yenidən doğulursunuz. Təbiət sevinir. Xoş ətir saçır hər yerdə. İnsanlar bu ətri ciyər dolusu udur, xoşhal olurlar.

90 yaşın mübarək, ey bütün türk dünyasının əbədi fəxri!

*O, Gül deyil, vaxtsız sola,*
*O, zər deyil, hər fiqura,*
*Zərgər onu əyib sala.*
*Kitab deyil, gah oxuna,*
*Gah da rəfdə uzun zaman,*
*Oxunmaya, unudula.*
*O, ay deyil, gah görünə,*
*Gah da yerə kölgə sala.*
*O, günəşdir, zərrin Günəş!*
*Öz xalqının, millətinin*
*Taleyinə doğan günəş!*
*Bildinizmi bu şəxs kimdir?*
*Ulu öndərdir, Heydərdir!*



***Mirzəyev Şövkət Mustafa oğlu***
***Qazax şəhəri, Səlim Əfəndiyev adına***
***1 nömrəli tam orta məktəbin***
***IX sinif şagirdi***

*«Nə qədər ki Azərbaycan var, Mən varam.*
*Mən isə Azərbaycanda əbədi olacağam».*
**Heydər Əliyev**

Aqillərdən biri söyləmişdir ki, bir xalqın böyüklüyü onun sayca çoxluğunda deyil, əsrlər boyu bəşəriyyət tarixində yetirmiş olduğu böyük şəxsiyyətləri, qüdrətli övladları və onların gördüyü işlərlə ölçülür. Xalqımın da məhz belə böyük – bütün şüurlu və qaynar həyatının hər bir anını xalqın taleyi ilə bağlamış şəxsiyyətləri olmuşdur.

Azərbaycanın bənzərsiz oğullarından biri də iti zehnə, möhkəm iradəyə, nadir fitri istedada malik olmuş Heydər Əliyev idi. Bu insan sonsuz bir həvəslə bütün maneələri dəf etmiş, zamanın çətin və sərt sınaqlarından varlığı qədər sevdiyi Azərbaycanı məharətlə çıxartmışdır. Rəhbərliyi dövründə xalqına namus və şərəflə xidmət etmişdir.

Ulu Öndərin keçdiyi tarixi yola nəzər salsaq görərik ki, keçmiş SSRİ-nin geridə qalmış əyalətlərindən biri sayılan Azərbaycanın tarixində 1969-cu il isti iyul günləri qızıl hərflərlə tarixin səhifəsinə yazıldı. Xalqımız yeni rəhbəri – millətin tarixində, taleyində parlaq izlər qoyacaq dahi şəxsiyyəti, müdrik təfəkkür və nurlu düşüncə sahibini böyük ümidlərlə qarşıladı. Onun rəhbərliyi altında respublikamız heyrətamiz sıçrayışla iqtisadi tərəqqiyə nail oldu. Azərbaycan keçmiş ittifaqın ən qabaqcıl və inkişaf etmiş respublikalarından birinə, Bakı isə ölkənin ən böyük sənaye, elm və mədəniyyət mərkəzinə çevrildi.

Uzaqgörənliyi, təşkilatçılığı sayəsində işıqlı dühə sahibi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi.



Moskvada da öz dəsti-xətti ilə işlədi. Moskvada işləsə də, daim Azərbaycanla, Azərbaycanın taleyi ilə maraqlanırdı. O dövrdə SSRİ dövlət başçıları tez-tez dəyişirdi. Qabiliyyətsiz bir adam – M.Qorbaçov hakimiyyətə gəldi. Türk dünyasının zirehli sipəri olan Heydər Əliyevi 1987-ci ilin payızında işdən uzaqlaşdırdı. Onun istefası düşmənləri daha da sevindirdi. Onların əlqol açmasına imkan verdi. «Dağlıq Qarabağ» problemini daha da gərginləşdirdi. Eyni zamanda, xalqımızın yeni tarixdə yaşadığı fəlakətlərin əsasını qoydu, qara günlər başlandı. Neçə-neçə faciələr, terrorlar bir-birini əvəz etdi.

1990-cı illər Heydər Əliyevin həm şərəfli, həm də çətin Naxçıvan dövrü başlandı. Üç il gərgin şəraitdə, blokada vəziyyətində olan Naxçıvanı qoruyub, amansız erməni hücumlarından müdafiəsini təşkil etdi. Azərbaycanın üçrəngli bayrağını dövlətimizin bayrağı elan etdi.

1993-cü ilin yayı gəldi. Azərbaycanın başı üzərini yeni təhlükə aldı. Azərbaycan torpaqları işğal edilir, günahsız insanlar məhv olurdu. Hər cəhətdən ağır vəziyyətə düşmüş xalq öz xilaskarını axtarırdı. Yalnız Heydər Əliyev öz çiyinlərini bu ölçüyəgəlməz yükün altına verdi. Belə bir şəraitdə xalqın tələbi ilə Bakıya dəvət olundu. Çox böyük zəhmət bahasına vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Xalqımız qarşısında and içdi: «Mən Azərbaycanın müstəqilliyini xalqımız üçün böyük nailiyyət hesab edirəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra da ömrümün qalan hissəsini müstəqilliyimizin möhkəmləndirilməsinə və inkişaf etməsinə sərf edəcəyəm».

Əgər bu dahi qurucu müstəqilliyimizin ilk günlərində Azərbaycan rəhbərliyində olsa idi, dövlətimizin, xalqımızın başına bu fəlakətlər gəlməzdi.

1993-cü ilin oktyabrın 3-də prezident seçilən Heydər Əliyev öz andına sadiq qalaraq müstəqilliyimizin qorunub möhkəmləndirilməsinə yönəldilən inamlı addımlar atdı. Ölkəni cinayətkar qruplardan təmizlədi. 1994-cü il oktyabr, 1995-ci il mart hadisələrinin qarşısı xüsusi bacarıqla alındı, ölkədə siyasi sabitlik yarandı.

1998-ci ildə keçirilən seçkilərdə Heydər Əliyev qələbə çalaraq yenidən beş il müddətinə dövlətimizin prezidenti seçildi.

Ulu Öndər xarici ölkələrə səfəri zamanı Azərbaycanın haqq işini dünyaya bəyan etmiş, səfərlərdən zəfərlə qayıtmış, Azərbaycanın ərazi bütövlüyünün, toxunulmazlığının sona qədər olduğunu Lissabon zirvə toplantısında bir daha təsdiq etmişdir.

20 sentyabr 1994-cü ilə təkcə Azərbaycan üçün deyil, bir sıra ölkələr üçün tarixi hadisəyə çevrilən «Əsrin müqaviləsi» imzalandı. Xəyal kimi

görünən Bakı–Tiblisi–Ceyhan neft boru kəməri Heydər Əliyevin uğurlu fəaliyyəti nəticəsində reallaşdı. Bu müqavilə müstəqilliyimizi təmin etdi.

Müstəqilliyimizi əbədiləşdirən Lider xalqın həyatında baş verən faciəli günləri xalqımızın yaddaşına hopdurmaq üçün bir sıra sərəncamlar imzaladı. Nizami ordu quruculuğuna başlandı.

*Sən bu çətin zamanda,*
*Gücümüz, qüdrətimiz.*
*Sən bizim bu dünyada,*
*Ən böyük sərvətimiz*
*Millətin imzası var*
*İmzaların arasında*
*Sənə haləldır, halal*
*Ülvi məhəbbətimiz.*

Ulu Öndər Azərbaycan elminin və təhsilinin inkişafına da böyük qayğı ilə yanaşmış, tələbələrin xaricdə təhsil almasına xüsusi qayğı göstərmişdir. Xüsusilə dilimizlə bağlı sərəncamlar, fərmanlar və qanun qəbul etmişdir. Tarixi yaddaşımıza daha yaxın olan latın qrafikalı əlifbaya keçidi sürətləndirmişdir.

O, söz, sənət adamlarının ən yaxın dostu idi. Onların əməyinin qiymətləndirilməsi, yubileylərinin keçirilməsi, ev muzeylərinin açılması diqqətindən yayınmazdı. Xalqımızın ən böyük sənət abidəsi olan «Dədə Qorqud» dastanının 1300 illik yubileyinin geniş miqyasda keçirilməsi bu böyük insanın adı ilə bağlıdır.

30 illik hakimiyyəti dövründə xalqımızın mənəvi atası Heydər Əliyev zəkasının şah əsəri olan Azərbaycan bu gün dünyanın sayılıb-seçilən ölkələrindən birinə, azərbaycanlıların isə qürur mənbəyinə çevrilmişdir.

Dəmir iradəli insan mümkün olan nə varsa, onu millətindən əsirgəməmişdir. Ömrünün son anlarına qədər xalqın gələcəyini düşündü və bunu da etdi. Heydər Əliyev varlığı qədər sevdiyi şah əsərini – Azərbaycanın hər bir nöqtəsini dərin məhəbbətlə sevirdi. Onun ən böyük arzusu, istəyi, amalı ölkəmizin hərtərəfli inkişaf etməsi və çiçəklənməsi idi. Ulu Öndər Azərbaycanın qərb qapısı sayılan şeir, sənət və görkəmli şəxsiyyətlər diyarı olan Qazaxı da çox sevirdi. Mən fəxrlə deyə bilərəm ki, Ulu Öndər 3 dəfə rayonumuzda olmuşdur. O, həmyerlilərimiz tərəfindən sonsuz hörmətlə qarşılanmışdır.

Ulu öndərin Qazax torpağına, qazaxlılara bəslədiyi hörmət və ehtiramını əks etdirən müdrik fikrini xatırlayıram: «Siz, əziz qazaxlılar! Burada



həm öz torpağınızı, həm də Azərbaycanı qoruyursunuz. Siz bütün azərbaycanlıların dayağısınız».

Ürəklərdə əbədiləşən insanın şərəfinə rayonumuzda «Heydər parkı» salınmış, əzəmətli heykəli ucaldılmış, «Heydər Əliyev» mərkəzi yaradılmışdır.

Bu yerlər biz gənclərin, məktəblilərin, ümumiyyətlə, qazaxlıların ziyarətgahına çevrilmişdir. Biz yaşamağı, vətənə layiqincə xidmət etməyi, sevməyi Ulu Öndərdən öyrənməliyik.

Dahi şəxsiyyətin dəfn günü bütün azərbaycanlıların ürəyində həsrət və kədər vardı.

Azərbaycanı gülüstna, taləzara döndərən bu insanın indi məzarı hər gün gül-çiçəyə bürünür. Abidəsi ziyarət edilir. Onun adı doğma Azərbaycanımızla qoşa çəkilir.

Ulu Öndər cismən bizdən ayrılsa da, onun yaratdığı dövlət əbədidir. O, təkcə dünənin, bu günün yox, həm də sabahın lideridir. İllər keçəcək, nəsillər dəyişəcək, lakin Heydər Əliyev heç vaxt unudulmayacaqdır.

Bu gün dövlətimizin sükanı arxasında dayanan prezident cənab İlham Əliyev Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsi, layiqli davamçısıdır. İndi onun müdrik siyasəti İlham Əliyev və onun xanımı Heydər Əliyev fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəfindən uğurla həyata keçirilir. Onlar xalqla birlikdə daha böyük və yeni uğurlara imza atacaqlar. Fəxrlə deyə bilərik ki, Azərbaycan babaların əmanəti, İlham Əliyev isə Azərbaycan adlı əmanətin etibarlı dayağıdır.

Xalqı, milləti üçün yaşayanların ömrü əbədiyyət qədər olur. Bu gün mən məktəbliyəm, sabah sevdiyim hər hansı sənətin sahibi olacağam, amma həyatımın bütün məqamlarında dövlətimizin bayrağını yüksəkliklərə qaldıracaq, onun sevgisi ilə yaşayacağam.

Mən bunu Ulu Öndərdən öyrəndim. Onun həyatının və fəaliyyətinin bütün mərhələləri həyat məktəbi idi. Bu məktəbdən keçən xalqa, millətə tarixin kəşməkəşli yollarında əbədi yaşıl işıq yanacağına kimsədə zərrə qədər şübhə yoxdur.



## Hacızadə Rufanə Vaqif qızı

*Lənkəran Dövlət Humanitar Kollecinin IV kurs tələbəsi*

Böyük insanlar dünyaya böyük işlər görmək üçün gəlir – deyimi xalqımızın qəhrəman oğlu ümummilli liderimiz Heydər Əliyevin timsalında öz təsdiqini bir daha tapmışdır XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk Türkiyəni xilas etdiyi kimi, əsrin sonlarında da dahi Heydər Əliyev Azərbaycanı məhv olmaqdan, iflasdan xilas etdi.

Heydər Əliyev uzaqgörən, müdrik şəxsiyyətdir. O, bir sıra mürəkkəb problemləri dəmir məntiqi, uzaqgörənliyi sayəsində qısa müddət ərzində həll etmişdir.

Heydər Əliyev 1969-cu ildən sonra hakimiyyətdə olduğu illər ərzində çox nailiyyətlərə imza atmışdır. Həmin müddətdə Heydər Əliyev Lənkərana gündəlik qayğı göstərmişdir Lənkəranda təyyarə limanı, çay evi, ziyalılar evi, Mərkəzi xəstəxanalar, məktəblər, universamın inşası onun səyi nəticəsində olmuşdur. Bir sıra tikililərin açılışında Heydər Əliyev şəxsən özü iştirak etmişdir. 30 mart 1973-cü il, 15-16 yanvar 1974-cü il, 1976-cı il, 1979-cu il və 1982-ci illərdə Heydər Əliyev Lənkərana səfər etmişdir. Həmin illər lənkəranlıların yaddaşında silinməz iz qoymuşdur. Lənkəranlılar o illəri heç zaman unutmayacaqlar.

Heydər Əliyev yalnız Lənkəranda deyil, digər şəhər və rayonlarda, bölgələrdə də yeni yaşayış massivləri, təhsil müəssisələrinin inşası üçün sərəncam imzaladı. Heydər Əliyev öz vədinə sadiq olub, Azərbaycanın inkişafına nail olmuşdur. O, yaxşı bilirdi ki, xalqın inkişafı üçün hərbi məktəblərin yaradılması şərtdir. Beləliklə, Heydər Əliyev hərbi məktəblər açdırdı və savadlı kadrların yetişməsinə dəstək oldu.

Heydər Əliyev dosta sədaqətli dost, düşmənə qarşı isə barışmazdır. O, Azərbaycan xalqının inkişafına sevinən, ona dəstək olanlarla dost omuşdur. Lakin xudbin, qəsbkar ermənilərə və erməni tərəfdaşlarına qarşı isə barışmaz mövqeyində olmuşdur.



Heydər Əliyev səbirli dövlət başçısı idi. Onun tükənməz səbri sayəsində mürəkkəb problemlərin həllinə nail olunmuşdur.

Heydər Əliyev mahir təşkilatçıdır. O, digər inkişaf etmiş xalqların prezidentləri və nümayəndə heyəti ilə görüşlər təyin etmişdir. Heydər Əliyevin Azərbaycanın inkişafı üçün irəli sürdüyü qətiyyətli addımların nəticəsidir ki, bu gün Azərbaycanın adı inkişaf eləmiş bir çox digər xalqların adı ilə eyni sırada hallanır (BMT, Avropa Şurası, GUAM və s.)

Heydər Əliyev gözəl natiqdir. Söz insanın həyatında mühüm rol oynayır. Sözün dəyəri onun atalar sözü kimi qiymətli və zaman keçdikcə özünə daha da qiymət qazanması ilə ölçülür. Heydər Əliyevin ifadə etdiyi bütün cümlələr atalar sözü səviyyəsinə qalxmış hikmətli kəlamlardır.

«Mən özümdən sonrakı nəsillərə iqtisadi, mədəni cəhətdən inkişaf etmiş Azərbaycan qoyub getmək istəyirəm». Doğrudan da, Heydər Əliyev iqtisadçıdır. O, inkişaf etmiş xalqlarla iqtisadi əlaqələr saxlamışdır. Bu məqsədyönümlü əlaqələrin nəticəsidir ki, hal-hazırda Azərbaycanı bütün dünya xalqları yaxşı tanıyır.

Heydər Əliyev mədəniyyətə xüsusi diqqət ayırmışdır. Azərbaycan muğamlarının, rəqslərinin dünyada tanınmasında əvəzolunmaz xidmətləri olmuşdur.

«Təhsil millətin gələcəyidir», – deyən Heydər Əliyev təhsilə xüsusi qayğı göstərmişdir. Hakimiyyətdə olduğu illərdən etibarən, yüzlərlə tələbənin xaricdə təhsil almaları üçün köməklik göstərmişdir. Təhsilsiz insan üçün həyatın mənasız və sönük göründüyünü qeyd edərək, təhsilə verdiyi önəmi, diqqəti bir daha təsdiqləmişdir.

Heydər Əliyev valideyn himayəsindən məhrum olan uşaqları heç zaman unutmamışdır. Onları ziyarət edib, daim xüsusi qayğı və sevgi göstərmişdir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev sıramızdan ayrılmasına baxmayaraq, o, bizim qəlbimizdə,düşüncəmizdə daim yaşayıb və yaşayacaqdır. Heydər Əliyevin iki ömrü var. Birinci ömrü Allahın ona bəxş etdiyi ömürdür. İkinci ömrü isə Azərbaycana bərabər olan ömürdür. Azərbaycan varsa, deməli, Heydər Əliyev də var onunla birlikdə yaşayır.

Heydər Əliyev övladları tərəfindən atılan valideynləri diqqət mərkəzində saxlamış, onlar üçün evlər tikdirmişdir.

Heydər Əliyev yanımızda olmamasına baxmayaraq, onun layiqli davamçısı cənab İlham Əliyev qurduğu strategiyanı davam etdirir. Azərbaycanlılar İlham Əliyevi çox sevir. Çünki İlham Əliyev Azərbaycan üçün, azərbaycanlılar üçün Qarabağ probleminin həlli yolunda qətiyyətini, müba-

rizə əzmini daim göstərir. Azərbaycanın işıqlı gələcəyi, inkişafı üçün Heydər Əliyevin qoyduğu yolla irəliləyir. Bu yol şərəfli, bir qədər çətin, mübarizələrlə əhatələnmiş yol olsa da, İlham Əliyev qətiyyətli, uzaqgörənliyi ilə bütün çətinliklərin öhdəsindən üzüağ çıxacaq.

Məncə, Heydər Əliyev yolu əbədi yol, Heydər Əliyev şəxsiyyəti isə ölümsüz şəxsiyyətdir. Ulu öndər Heydər Əliyev nəsillərə nümunə olan dahi şəxsiyyətdir. Onun yolunu, uğurlarını özünə nümunə bilən şəxs qələbələrlə dolu aləmə sahib olacaq.

İnanıram ki, cənab İlham Əliyev azərbaycanlılar üçün ən böyük qələbə olan Qarabağ torpağını erməni qəsbkarlarından xilas edəcək.





***Cəfərova Əminə Şahin qızı***
***Qusar şəhəri, Bəhruz Ağaverdiyev adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi***

*«Nə qədər Azərbaycan var, mən varam. Mən isə Azərbaycanda əbədi olacağam».*

**Heydər Əliyev**

Bu gün sizə babamdan yazacağam. Dünyalar qədər sevdiyim, bütün Azərbaycanın babası – Heydər babamdan.

Çox həyəcanlıyam, əllərim titrəyir... Fikirlərim dolaşıqdır. Bilmirəm sənə olan məhəbbətimi, minnətdarlığımı hansı sözlərlə ifadə edim?! Çünki sənin xeyinxahlığını, dahiliyini bir şagtrd yazısına sığdırmaq çətindir.

Biz – bütün Azərbaycan xalqı Allahın sevimli quluyuq, çünki Tanrı sizi bizə bəxş edib. Siz çətin anlarda xalqın köməyinə gələn, nur kimi işıq saçan, bir qəhrəmansınız. Siz idealsınız, Siz uğur gətirənsiniz, Siz Böyük Xilaskarsınız.

Bir yaz günü Tanrı sizi bizə bəxş etdi. Əziz babam, sənin bir arzun vardı. Gənclikdə ən böyük arzun memar olmaq idi. Sən bu arzunu gerçəkləşdirdin. Dünyanın ən böyük memarlarını heyrətdə qoyan bir əsər yaratdın – Müstəqil Azərbaycanı yaratdın. Sən sözünün üstündə durdun. Azərbaycanı dünyanın qabaqcıl ölkələrindən birinə çevirdin.

Sən hər bir sahəyə, diqqətlə yanaşdın: təhsilə, mədəniyyətə, tarix və incəsənətə. Təhsilə göstərdiyin qayğı nəticəsində minlərlə, yüzlərlə şagird xaricdə pulsuz təhsil aldı. Sən müəllimləri ən şərəfli peşə sahibləri adlandırmışdın. Sən özün bu xalqın ən böyük müəllimi idin, bizə yol göstərdin: doğru yolu göstərdin.

«Mən Azərbaycan dövlətini və xalqını bütün bəlalardan xilas edəcəyəm» – dedin və vədinə əməl etdin. Sən prezident seçiləndən sonra bir

qarış torpağımız belə işğal olunmadı. Sən Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan qurtardın, Baba. Sən əsl dahi idin. Bunu bir daha sübut etdin: Atəşkəsə nail oldun; ana-bacılarının naləsinə son qoydun. Bu isə əsl dahiyə yaraşan hərəkət idi. Cavid demişkən:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur, yer üzünü.*

Müstəqil Azərbaycanın üçrəngli bayrağı bu gün ən mötəbər qurumların: Avropa Şurasının, Birləşmiş Millətlər Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin və s. qarşısında dalğalanır. Bunu yalnız sən bacara bilərdin, bacardın da. Sənin ölkə qarşısında böyük məsuliyyət hissin vardı: ölkəni hərc-mərclikdən çıxarmaq, qayda-qanun yaratmaq, bütün vətəndaşlar üçün təhlükəsiz həyat təmin etmək. Azərbaycanın 30 ildən artıq bir dövrü səninlə, sənin fəaliyyətinlə birbaşa əlaqəlidir, Babam. Sənin haqqında yalnız danışmaq yetərli deyil, səni öyrənmək və təbliğ etmək gərəkdir. Mən gələcəkdə yazıçı olmaq və sənin haqqında bir kitab yazmaq istəyirəm. Arzu edirəm ki, yazacağım kitab dünyanın bütün dillərində nəşr olunsun. Qoy bütün cahan oxusun və bilsin ki, mənim Heydər babam əsl qəhrəmandır, əsl dahidir. Qoy bütün dünya sənin şəxsiyyətin qarşısında baş əysin, mənim Babam.

Ölüm!.. O həmişə gözlənilməz gəlir, amansız gəlir. Qara duman kimi insanın başının üstünü alır. İnsanları sevdiklərindən ayrı salır. Amma səni ayıra bilmədi bizdən, çünki səni sevənlər səni yaşatdı, yaşadır da.

O gün hər kəs kimi mənim də xatirimdədir. Mənim o zaman cəmi yeddi yaşım vardı, hələ ağlım kəsmirdi insan ölümünü. İlk dəfə o gün hiss etdim ölümün acısını.

Bəli, sən ölməmisən. Axı həyatını xalqına həsr edən bir insan necə ola bilər?! Sən bir ağac əkdin, adı: «Müstəqil Azərbaycan». İndi oğlun – İlham, gəlinin – Mehriban, nəvən – Leyla böyüdür bu ağacı. Göz bəbəkləri kimi qoruyurlar əmanətini. Əkdiyin ağac indi çiçək açıb, artıq bar verir. Azərbaycan böyüyür, gözəlləşir, inkişaf edir.

Prezidentimiz İlham Əliyev sənin yolunla uğurla addımlayır. Azərbaycan bütün xəyallarına qovuşur. Keçən il ölkəmizdə Avropanın və dünyanın mötəbər yarışması «Avroviziya» mahnı müsabiqəsi keçirildi, idmançılarımız Olimpiya yarışlarından medallarla qayıtdı. Bunlar bizim üçün bir xəyal idi, gerçək oldu.

Sən uşaqları çox sevərdin, hər birimiz sənin nəvələrindik. İndi sənin bu irsini gəlinin Mehriban xanım davam etdirir. O da bizi övladları qədər



çox sevir, bizə qayğı göstərir. Hər il yüzlərlə yeni məktəb istifadəyə verilir, uşaqlar yüksək təhsil alır. Mehriban xanım xeyirxahlıq və gözəllik pərimizdir. O, sənin adına layiq gəlindir. Nahaq deməyiblər: «Gəlin ocağa çəkər».

Mənim əziz, nur üzlü, babam. Sənin 90 yaşın tamam olur, təbrik edirəm! Biz sənə bu gün gözəl hədiyyə hazırlamışıq. Biz sənə çiçəklənən Azərbaycanı ərmağan edirik, Baba. Görüb sevin bu hədiyyəni. Ruhun şad olsun. Biz sənin yolunla gedirik, Baba, sənin yolunla – etibarlı yolla, gedirik, daima irəli gedirik! Daima irəli!

*Heydər Əliyev adı həmişə nur olacaq,*
*Azərbaycan xalqının ürəyinə dolacaq.*
*Əzbər olub adın, milyon-milyon insanın*
*Sənsən birlik nəğməsi, Vahid Azərbaycanın!*



**Şabanova Nəzrin Nəzir qızı**
*Zaqatala şəhəri, 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi*

Xalqının tarixini qalın-qalın kitablardan oxudum. Neçə-neçə sərkərdənin, neçə-neçə qəhrəmanın, dövlət xadiminin ömür yolunu, əməlini arayıb axtardım, Heydər Əlirza oğluna bənzərini, ona tay ola biləni tapa bilmədim. Bir böyük həqiqət də var. Təbiət Azərbaycanı yaradanda onu min bir nemətlə, min bir gözəllik və məna ilə bəzəmişdi. Zaman-zaman onda Nizamilər, Xaqanilər, Nəsimilər, Sabirlər, Səməd Vurğunlar, Füzulilər, Babəklər, Qaçaq Nəbilər, Şah İsmayıl Xətailər, Koroğlular, Həzi Aslanovlar yetişib. Dünyaya min bir şahənşah gəlib. Onlardan biri qılınc çəkib ölkələr fəth eləyib, biri ölkədən ölkəyə qoşun çəkib. Biri vətən haqqında şeirlər, kitablar yazıb, onun uğrunda vuruşmayıb. Biri taxt-tac üstündən boylanıb vətən çöllərinə baxıb, əslində vətəndə vətəndən uzaq olub. Lakin Heydər Əliyev hər an, hər zaman, hər yerdə, hər məclisdə vətəndə nəfəs alıb, vətəndə yaşayıb, vətəndə ucalıb. Onun məğrur adı ilə yanaşı Azərbaycan tərəqqi tapıb, ucalıb, harada Azərbaycan Dövlət bayrağı ucalırsa, orada Heydər Əliyevin əzəməti, qüdrəti, qeyrəti ucalır.

Heydər babamız kimi dahilər üçün dünya bir qapıdır. Onlar bu dünyaya gəlir, ancaq getmirlər. Belə dahilər daim qəlbimizdə yaşayırlar. Babamızın ətrafına şəfəq çiləyən sadəliyi, sözlərindəki müdrikliyi, sərrast danışmağı hamının diqqətini cəlb edirdi. Şair demişkən:

*Adam var ki, saf su kimi*
*Büllur kimi,*
*Çoxlarına gərək olur*
*Bir nur kimi.*
*Heydər Əliyev Azərbaycanın nuru idi.*



Bu böyük vətən oğlunun ömür kitabı başdan-başa bugünkü və gələcək nəsillər üçün əvəzsiz örnəkdir. Heydər Əliyev yalnız Azərbaycanın deyil, bütövlükdə bütün bəşəriyyətin dühası, müstəsna bir şəxsiyyət idi.Onda xalqımızın soyuna xas olan ən gözəl xüsusiyyətlərin hamısı: bilik, ağıl, vicdan, şərəf, uzaqgörənlik öz təcəssümünü tapmışdı. Bir şərq aforizmində deyilmişdi: «İnsanın bəzəyi müdriklik, müdrikliyin bəzəyi səbir, səbrin bəzəyi cəsarətdir».

Təbii ki, sabahın tələbəsi bugünkü uşaqlardı. Bilikli, hazırlıqlı tələbənin yetişməsi üçün uşaqlara qayğı göstərmək lazımdı. Dahi babamızın böyüklüyü onda idi ki, uşaqları böyük məhəbbətlə sevib, onların bütövlükdə qayğı ilə əhatə olunmasına diqqət yetirib, nailiyyətlərinə qəlbən sevinib. Kiçicik bir istedad görən kimi qəlbi dağa dönüb, onun inkişaf etməsinə, böyüməsinə ümid bəsləyib, imkan və şərait yaratmışdı.

Fenomenal yaddaşın sahibi olan babamız uşaqlarla uşaq kimi, ədəbiyyatçı ilə ədəbiyyatçı kimi, tarixçi ilə tarixçi kimi, fiziklə fizik kimi danışırdı. Heydər Əliyev başqalarına qarşı olduğu kimi, özünə qarşı da çox tələbkar idi. Azərbaycan torpağının yetirib bəşəriyyətə bəxş etdiyi Heydər Əliyev qüdrəti qarşısında bütün cahan baş əyir, böyük dövlət başçıları hörmətlə yanaşırdılar. O, tarixin çətin imtahanından cəsarətlə, qalib əsgər, qalib sərkərdə kimi çıxdı. Vətən dərdini öz dərdi bilən bu böyük insan vaxt olub, qürbətin soyuqluğunu, bəzən isə bəzilərin laqeydliyini dadıb. Çətin ayaqda, sınaq günündə Simurq quşu kimi vətəni yanğından xilas etmək üçün öz polad sinəsini od-alova verib.

Danılmaz həqiqətdir ki, Qarabağ müharibəsi böyük faciə, çətin sınaqdır. Onun odunu söndürmək, alovunun qarşısını almaq hər rəhbərin işi deyildi. Buna yalnız Heydər Əliyev iradəsi, cəsarəti, siyasəti qalib gələ bildi. O, bu istiqamətdə neçə-neçə uğurlu addım atdı: Atəşkəs minlərlə ailəni ölümdən, ölüm xəbərindən xilas etdi: Lissabon sammitində yüzlərlə dövlət Azərbaycanın haqq səsini təstiq etdi, işğalçının kimliyi, Dağlıq Qarabağın Azərbaycan torpağı olduğu yekdilliklə təsdiq olundu. Lakin o, bütün bunlarla arxayınlaşmadı. Vətənin, vətən sərhədinin pozulmaz sipərini də qurdu. Bu sipər – Azərbaycanın milli ordusudur.

Bəli Heydər Əliyev elə bir zirvəni fəth etdi ki, bu zirvə çoxları üçün əlçatmaz olmuşdu.

*Xətainin nəvəsi,*
*O, Heydər Əliyevdir!*
*Zirvələrin, zirvəsi*
*O, Heydər Əliyevdir!*

Heydər Əliyev dilimizə yüksək dəyər verərək demişdi: «Dilimiz çox zəngin və ahəngdar dildir, dərin kökləri vardır, şəxsən mən öz ana dilimizi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm».

*Vətənim, obam, elim*
*O, Heydər Əliyevdir!*
*Sevimli ana dilim*
*O, Heydər Əliyevdir!*

Ulu Öndərimizin fəaliyyəti yalnız dövləti idarə etməklə məhdudlaşmayıb. O, Azərbaycanın iqtisadiyyatını, incəsənətini dünyaya tanıtmışdı. Əbəs yerə deməyiblər ki, Azərbaycanı dünyada üç şey tanıdıb: Heydər Əliyev, Azərbaycanın milli sərvəti və milli adət-ənənələrimiz.

Azərbaycan iqtisadiyyatının dünyada tanınmasında «Əsrin müqaviləsi» adı altında imzalanmış neft müqaviləsinin böyük rolu olmuşdu. Neçə-neçə quruculuq işləri, mütərəqqi islahatlar – bunların hamısı Heydər babamızın çətin, şərəfli, məqsədə uyğun fəaliyyətlərinin nəticəsi olmuşdu.

Bu gün bu dahi şəxsiyyət aramızda yoxdu. Biz buna kədərlənsək də, onun başladığı işlərin davam etməsindən, daxili və xarici siyasətin irəliləməsindən qürur duyuruq. Heydər Əliyevin dövlətçilik prinsiplərinin layiqli varisi olav İlham Əliyevin ağıllı, iradəsi, zəkası sayəsində Azərbaycanın ağ günlərə çatacağına inanırıq.

Mən fəxr edirəm ki, azərbaycanlıyam və fəxr edirəm ki, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan Dövlətində yaşayıram. Söz verirəm ki, yaşadığım müddətdə Heydər Əliyevin ideallarını davam etdirəcək və Vətənim üçün əlimdən gələni əsirgəməyəcəyəm.









## *Tayirova Lamiyyə Vüqar qızı*

***7 nömrəli Bakı Peşə Liseyinin II kurs şagirdi***

*Ən böyük şəxslər özündən çox mənsub olduğu xalqı düşünən,onun xoşbəxtliyi və qorunması yolunda həyatını verən insanlardır.*

**Mustafa Kamal Atatürk**

Həyatın qəribə qanunları var. Bir gün doğulan, bir gün də həyata əlvida deyir. Ancaq bu həyatda öz işləri, əməlləri, yüksək əxlaqi-mənəvi keyfiyyətləri ilə seçilənlər heç zaman unudulmur, ürəklərdə əbədi məskən salırlar.

Belə şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. Tarix böyük siyasi xadimləri tək-tək yetişdirir. Türk dünyası bəşəriyyətə iki böyük siyasi xadim bəxş edib: Mustafa Kamal Atatürk və Heydər Əliyev.

Ola bilər, kimsə çətin zirvəni fəth edib qəhrəman olsun, amma şəxsiyyəttək yetişmək üçün o, Babək, Nəsimi, Atatürk kimi çətin, mürəkkəb həyat yolu keçməli, bu yolda həmişə öz xalqına arxalanmalı, öz ağlının gücündən istifadə etməyi bacarmalıdır. Heydər Əliyev XX əsrin belə şəxsiyyətlərindən idi.

Qədim bir dua var: İnsan Tanrıdan üç şey diləyir: güc, səbir və müdriklik. Gücü ona görə istəyir ki, dünyada dəyişə biləcəklərini dəyişməyə qüvvəsi çatsın. İnsan Tanrıdan səbri ona görə istəyir ki, dəyişməyə gücü çatmayacaq şeylərə dözə bilsin. Müdrikliyi ona görə istəyir ki, birinci ilə ikincini dəyişik salmasın, onları ayırıb seçə bilsin. Göründüyü kimi, Tanrı bu üç mühüm keyfiyyəti Heydər Əliyevə vermişdi. Onda olan güc, səbir və müdriklik onu bütöv bir insan – şəxsiyyət səviyyəsinə qaldırdı.

Əsrlər keçsə də, Heydər Əliyevin bir şəxsiyyət kimi Azərbaycanımızın çiçəklənməsi və suveren bir dövlət kimi formalaşmasında apardığı məqsədyönlü işlər, qəhrəmanlıqlar xalqımızın yaddaşından çıxmayacaqdır.

*Bəhmən Vətənoğlunun dediyi kimi:*
*Düşmənin də gəlsə hakimiyyətə,*
*Silə bilməyəcək tarixdən səni.*

Bəli, bu, bir həqiqətdir! Axı Xocalı oda qalananda, Ağdamda tonqal çatılanda, Kəlbəcərə vay düşəndə, ağbirçək, ağsaqqal yatağında, körpələr beşiyində güllələnəndə, gəlin və qızlarımız düşmən əlində əsir gedəndə sinəsi dağlı analar Heydər Əliyevi köməyə harayladılar. Məhz onu – Koroğlu nərəli, Babək qeyrətli, Nəbi hünərli, Cavanşir siyasətli oğlunu:

*Heydər! Oğul! Tanrı sənə yar olsun,*
*Üzün gülsün, düşmənlərin xar olsun.*
*Bir əncam qıla ona yurdun halına,*
*Bəlkə, bir gün zəfər himni çalına!*

Xalqın az qala kölə vəziyyətinə salınması təhlükəsi yarandığı bir vaxtda Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə qayıtdı. Bu qayıdış təsadüfi qayıdış deyildi, Bu qayıdış, sözün əsl mənasında, Azərbaycan xalqının özünə qayıdışı idi.

Danılmaz həqiqətdir ki, yenidən hakimiyyətə gələn Heydər Əliyev ilk gündən dinclik, rahatlıq bilmədi. Gecə-gündüz sərkərdə kimi, Vətən keşikçisi kimi ayıq-sayıq oldu. O, bütün həyatını, dincliyini, səadətini Vətəninə qurban verməkdən zövq aldı. Çalışdı ki, Vətəni Azərbaycan bütün dünyada ən qüdrətli və ecazkar bir dövlət olsun. Xalqı ən xoşbəxt bir xalq olsun.

*Memarı olduğun Azərbaycanın,*
*Nə qədər adı var, yaşayacaqsan*
*İnsana nur verən ulu Tanrının,*
*Sönməz günəştək parlayacaqsan.*

Heydər Əliyev xilaskardır. Bunu inkar etmək günəşin varlığını inkar etməyə bərabərdir.

«Mən həyatda yalnız üç şeyə inanmışam: yaradanıma, zəhmətimə, bir də xalqıma», – deyən Heydər Əliyev bütün fəaliyyətində məhz bu amala sadiq qaldı. Onun uzaqgörənliyi, gərgin zəhməti sayəsində dünyanın nəzərləri Azərbaycana yönəldi.



Böyük şairimiz Balaş Azəroğlu yazır:

«Heydər Əliyev təkcə dövlət başçısı deyil, o, bütün Azərbaycan xalqının böyük rəhbəridir».

Fikrət Qoca deyir:

«O, bizə Müstəqil Azərbaycanı yaratdı və verdi. Gələcəyini müəyyənləşdirdi. İndi bizim müstəqil Respublikamız, bayrağımız, gerbimiz, himnimiz və Heydər Əliyevimiz var.»

«Heydər Əliyev Azərbaycan reallığına bir epoxadır.» Bunu isə Qəzənfər Paşayev deyib.

*Xalqını dünyaya tanıtmaq üçün,*
*Səsi qanadlandı altı qitədə.*
*Bu gün diqqəti var bütün dünyanın*
*Azərbaycan adlı bir xəritədə.*

Heydər Əlirza oğlu deyəndə, biz bütöv Azərbaycanı düşünürük. İnanırıq ki, neçə ki, yer üzündə insanlıq var, əbədiyyət, ölməzlik var, Heydər Əlirza oğlu bu xalqın qəlbində, ruhunda, varlığında, mənliyində, torpağında yaşayacaqdır. Sual oluna bilər: niyə yaşayacaq? Çünki xalqla xalqın dilində danışdı. Şairlə şeirin, rəssamla fırçanın, heykəltəraşla heykəlin, memarla binanın dilində danışdı. Torpaq adamı ilə sünbülün dilində danışdı. Allahla peyğəmbər dilində danışdı.

Xalq seçilən insanlara hər zaman abidələr yüksəldib. Daşdan, mərmərdən, qranitdən. Amma vaxtın sınağına daha dözümlü, daha etibarlı abidələr sözdən yaranıb.

Daşdan, mərmərdən, qranitdən yaranmış abidələr zaman fırtınalarının gərdişi ilə zavala uğraya bilər. Sözdən yaranmış heykəllərin isə zamandan qorxusu yoxdur. Çünki bu abidələrin pyedestalı könüllərdir, yaddaşlardır.

Hər zaman sözlə baş-başa olmuş, sözlə qoşa addımlamış Heydər Əliyev özü kimi uca söz abidəsinə layiqdir.

Şərəfinə uşağın da, aşığın da, ustad şairin də, alimin də, sadə insanın da şeirlər qoşduğu, dastanlar düzdüyü, nəğmələr bəstələdiyi bu dahi insan haqqında mən də söz demək istədim. Bacardımmı? Deyə bilmərəm. Onun haqqında yazmaq çox çətindir. Bəlkə də, çox şeylər təkrar oldu. Amma ürəyim yenə də doludur.

Heydər Əliyev bu gün cismən bizimlə olmasa da, ideyası, ziyası, ruhu daim xalqımızla – Azərbaycanımızladır.

Heydər Əliyev adı qurduğu Azərbaycanın adı kimi əbədidir. Min ildə bir dəfə doğulan kəs tarixdə əbədi qalacaqdır.

*Heydər Əliyev adı əbədi nur olacaq.*
*Azərbaycan xalqının ürəyinə dolacaq.*
*Adın olub ümidi milyon-milyon insanın,*
*Sənsən birlik nəğməsi vahid Azərbaycanın.*





## Əlizadə Günay Əşrəf qızı

***Ağdam rayonu, 27 nömrəli köçkün tam orta məktəbin X sinif şagirdi***

*«Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam!»*

**Heydər Əliyev**

Ümummilli lider, dünyaşöhrətli bir siyasətçidən, dahi şəxsiyyətdən söhbət açmaq, onunla bağlı düşüncələrimi yazmaq mənimçün həm çətin, həm də şərəflidir.

İnsanı yaşadan onun həyat eşqidir.

Yəni yaşadığın dünyanın hər bir gözəlliyini görmək, həyatdan zövq almaq, onu azad, rahat, xoşbəxt yaşamaq hər birimizin məqsədidir. Amma bütün arzuların rahat həyata keçməsi bütöv bir ömrü durmadan, yorulmadan çalışmaq, saç ağartmaq, bəzən gəncliyini, bəzən səhhətini, bəzən də hər ikisini hədər vermək bahasına başa gəlir.

Əvəzolunmaz insan, dünya azərbaycanlılarının lideri, məktəblilərin sevimlisi əziz babamız Heydər Əliyev də belə bir ömür yaşamışdır.

Mən daim haqqında verilən filmlərə baxır, haqqında oxuyur və öyrənirəm.

Televiziyada haqqında verilən verilişlərə baxmışam, daim xalqın arasında xalqın dərd-səri, toy mərasimi ilə maraqlandığını görmüşəm. Hətta qohumlarımdan birinin 1998-ci ilin martında çadır şəhərciyində toy mərasimində iştirak etdiyi və onlara xeyir-dua verdiyi məclisin çəkilişinə də baxmışam. O, bir nəvazişi ilə onlara xeyir-dua verir və qol qaldırıb rəqs edirdi.

Hər bir yaradıcı insanın əsəri kitabda, yaxud jurnalda öz əksini tapır. Sevindirici haldır ki, Heydər Əliyevin min bir əziyyətlə, bir cəngavər kimi sinə gərərək yaratdığı «əsəri» doqquz milyonluq xalqın qarşısında, eləcə də

dünya ictimaiyyətinin gözləri qarşısında real, danılmaz həyatda öz əksini tapır.

*Heç bir insan vətənsiz, dağsız, daşsız olmasın!*
*Heç bir inci dəyərsiz, üzük qaşsız olmasın!*
*Heç bir ocaq ulusuz, millət başsız olmasın!*
*Hər bir evdə el-obaya ağıllı rəhbər gərək!*
*Bizim xalqa xilaskar Babamız Heydər gərək!*

1918-ci ildə yaranmış Azərbaycan Demokratik Cümhuriyyəti cəmi 23 ay ömür sürdü. Müsəlman şərqində yaranmış cümhuriyyət daxili və xarici düşmənlərin gözünə ox kimi batırdı. Buna görə də min cür ixtişaşlar, fitnə-fəsad törədənlər bu cümhuriyyətin süqutuna şərait yaratdılar.

Buna oxşar bir vəziyyət 1991-ci ilin oktyabrında yaranmış müstəqil Azərbaycan Respublikası üçün də təkrar olundu.

Hakimiyyətin başında duran təcrübəsiz, məsləksiz bəylərin maymaqlığı ölkədə xaosa, hərc-mərcliyə, qardaş qanının tökülməsinə qədər gətirib çıxartdı. Lakin millətin içində düşmən dəyirmanına su tökən nankorlarla yanaşı, vətənini, xalqını qəlbən sevən, onu bu çətin vəziyyətdən çıxarmaq üçün yollar axtaran əsl vətənpərvər insanlar da az deyildi. Onlar bütün Azərbaycan xalqının inandığı yeganə şəxsiyyətə – Heydər Əliyevə müraciət edərək onu Bakıya dəvət etdilər.

Belə bir kəlamı xatırlasaq, yerinə düşmüş olar: «Hər bir işin nəticəsi onun fövqündə duran şəxsiyyətdən asılıdır».

«Mən bütün həyatımı xalqıma həsr etmişəm. Başqa yolum yoxdur. Vətənimə, millətimə, xalqıma məhəbbət, Azərbaycan Respublikasına, Azərbaycan dövlətinə məhəbbət həyatımın mənasıdır», – deyən Heydər Əliyev göz bəbəyi kimi sevdiyi xalqının təklifini qəbul etdi, hakimiyyətsizliyə son qoydu, qardaş qanının tökülməsinin qarşısını həyat təcrübəsi, parlaq zəkası, dərin səbri, mətinliyi ilə bir Ata kimi məharətlə aldı.

Xalqımızın filosof şairi Hüseyn Cavid necə də gözəl demişdir: «Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü!»

Bəli, Allahın Azərbaycan xalqına ərmağan etdiyi uca şəxsiyyət Heydər Əliyev sözün həqiqi mənasında D A H İ D İ R!!!

Xalqın ağır güzəranını görən Heydər Əliyev 20 sentyabr 1994-cü ildə «Neft kontraktının» bağlanmasına nail oldu. Nəticədə xalqın sosial vəziyyəti yaxşılaşdı.

1994-cü ilin yaddaqalan uğurlarından biri də Ulu Öndərin Ermənistanla Azərbaycan arasında imzaladığı «Atəşkəs» rejiminin pozulmaması haqqında



saziş oldu. Azərbaycan ordusunun bir ordu kimi formalaşmasında Ali Baş Komandan – Heydər Əliyevin xidmətləri danılmazdır. «Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daim yaşayacaqdır. Onların şəhidliyi, qəhrəmanlığı Azərbaycan ordusunun əsgərləri üçün böyük örnək olacaqdır!» Bu sözlərin də müəllifi Heydər Əliyevdir.

Heydər Əliyevin həyatı və çoxşaxəli fəaliyyəti onu deməyə əsas verir ki, o, millətini, xalqını sevməkdə nümunə olmağa layiq bir şəxsiyyət idi.

«Mən həmişə fəxr etmişəm,indi də fəxr edirəm ki, mən azərbaycanlıyam!» Əziz babamızın bu müdrik fikri milli qürur, milli iftixar haqqında deyilmiş çox fikirləri kölgədə qoyur.

Azərbaycan bütün qitələrdən görünür. Dünyanın hansı qitəsində yaşamasından asılı olmayaraq, bu kəlam hər kəsi sehrləyir, öz cazibə qüvvəsi ilə daha dərindən düşünməyə sövq edir, bu millətin adını ucaldan ecazkar bir simfoniyaya çevrilir.

Bizə əmin-amanlığı Ulu Heydər vermişdi.

Onun ən sevimli mahnısı Müslüm Maqomayevin ifa etdiyi «Azərbaycan» mahnısı idi. Deyilənə görə, «Gecə gözətçisi», «Böyük Vals» filmlərinə maraqla baxırmış.

O, musiqini, kinonu, teatrı elə izah edirdi ki, sanki musiqişünas, teatrşünas idi.

Son vaxtlar Azərbaycan həm mədəniyyət, həm də siyasət mərkəzinə çevrilib.

Genində, nəcabətində ziyalılıq rüşeymi olan Heydər Əliyev respublikamızın mənzil-məişət, mədəni-intellektual həyatını yaxşılaşdırmaq üçün imzaladığı çoxsaylı fərmanlar ilə nümunə olmağa layiq bir şəxsiyyət kimi yaddaşlara həkk olunub.

*Sən xalqını səfalətdən,*
*Düşmənlərin şərindən*
*Çox haqsız zərbələrdən*
*Qurtaran rəhbər oldun.*
*İlhamına bir arxayıq,*
*Əmanətinə sadiqik.*
*Biz müstəqil yaşayırıq,*
*Yaradan ki sən oldun.*

Hamımız bu dünyada müvəqqəti yaşayırıq. Bir gün bu dünyaya gələn, bir gün də bu dünyadan gedir. Amma dahilər üçün bu dünyanın bir qapısı

var. Onlar dünyaya gəlirlər, amma heç vaxt getmirlər. Cismən bu dünyadan getsələr də, ruhən həmişə xalqla olurlar. Mənim Heydər babam kimi!

2003-cü ilin soyuq, şaxtalı dekabrında Azərbaycan xalqına qara xəbər gəldi. Xalqımız inanmadı...

Xalqımız öz atası ilə vidalaşdı.

Fəxri Xiyabanda onun məzarı xalqımızın ziyarətgahına çevrilib.

Əziz babam, dünən birbaşa məzarını ziyarət etməyə getdim və baş əyərək söz verdim:

– Hər bir azəri övladı kimi mən də Sizin yarımçıq qalmış ideyalarınızı öz savadımla, Vətənə olan məhəbbətimlə həyata keçirib, Sizin davamçılarınızdan biri olmağa çalışacağam. Mən də Azərbaycan xalqı üçün yaxşı nə varsa, onu etməyə hazıram.

Dövlətimizin başçısı, hörmətli prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanımın qayğısı sayəsində respublikamızın müxtəlif rayon və şəhərlərində yeni məktəb binaları inşa edilmiş və ya əsaslı təmir edilərək böyüməkdə olan gənc nəslin istifadəsinə verilmişdir. İndi şəhərlə kənd arasında fərq çox azalıb.

Təkcə Bakı şəhəri deyil, hər bir şəhər və rayon mərkəzi, yeni salınmış yollar və körpülər təkcə respublika əhalisini deyil, gələn qonaqları da öz gözəlliyi ilə heyran edir.

Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tiblisi–Ərzurum qaz kəməri və digər kəmərlərin inşası, informasiya–kommunikasiya texnologiyasının tətbiqi və digər ürəkaçan layihələrin reallaşması Heydər Əliyevin humanist, düşünülmüş ideyalarının canlı təntənəsidir.

Hətta keçən il – 2012-ci ildə «Avraviziya – 2012 mahnı müsabiqəsi»nin Azərbaycanda keçirilməsi ölkəmizin ən böyük uğurlarından biridir. Yəqin ki, ölkəmizin bu müsabiqədə uğuru Heydər Əliyevin Azərbaycanla bağlı ən böyük arzularından biri olardı. Belə uğurlar xalqımızı daim gözləyir. Çünki xalqımızın inkişafı, taleyi uğurlu əllərdədir.

Məlum Qarabağ hadisələri ilə əlaqədar olaraq doğma yurdlarından qaçqın düşmüş bir milyondan artıq soydaşlarımızın problemləri və çətin həyatı Heydər Əliyevin və onun layiqli davamçısı – İlham Əliyevin daim diqqət mərkəzində olmuşdur. Məcburi köçkünlərə qaz, işıq, su, telefon və digər xidmətlərin istifadəsi üçün dövlət büdcəsindən vəsait ayrılmışdır.

Dövlətimizin başçısı çalışır ki, torpaqlarımızın azadlığı sülh yolu ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalət prinsipləri əsasında həll edilsin.



Mehriban xanım uşaqlara, xüsusilə talasemiya xəstəliyi olan uşaqlara qayğı göstərir və onların müalicəsi üçün əlindən gələni əsirgəmir. Şəhid ailələrinə xüsusi diqqət və qayğı göstərilir.

Şəhid ailələri üçün yeni yaşayış binaları tikilmiş və istifadəyə verilmişdir. Azərbaycan muğamının sədaları təkcə ölkəmizdə deyil, xarici ölkələrdə də öz əksini tapır.

İnşallah, müdrik Babamızın arzularını həyata keçirən hörmətli cənab prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət yaxın zamanlarda öz bəhrəsini verəcək, məcburi köçkünlər və qaçqınlar doğma yurdlarına qayıdacaqlar.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var*
*Heydər: «Xalqım!» – deyəcək*
*Xalq: «Heydər!» – söyləyəcək.*

Siz tək mənim yox, minlərlə mənim kimi məktəblilərin həyat idealısınız, əziz babam!



***Əhmədova Aişə Xanağa qızı***
***Ağdaş Dölət Humanitar Kollecinin***
***III kurs tələbəsi***

*«Azərbaycanlı kimi dünyaya gəldiyimə,*
*Azərbaycan dilində danışdığıma,*
*Azərbaycan kimi Vətənim olduğuna,*
*Azərbaycanı təmsil etdiyimə görə*
*Özümü həmişə xoşbəxt saymışam.»*

**Heydər Əliyev**

Bütün həyatını xalqının işıqlı gələcəyini müstəqilliyinə və bu müstəqilliyin möhkəmləndirilməsinə həsr edən, vətəninə sadiq qalaraq layiqli Vətən oğlu olan Heydər Əliyev haqqında fikir söyləmək çətin və məsuliyyətlidir. Çünki biz gözümüzü açan gündən onun səsini eşitmişik, onun nəfəsini duymuşuq.

Bəşər tarixində elə şəxsiyyətlər olub ki, onları öz taleyi ilə bərabər bütün dünya düşündürüb. Həmişə xalqına xidmət etməyi, onu çətin vəziyyətdən çıxarmağı, nicat yolu axtarmağı özlərinə borc biliblər.

Heydər Əliyev də bu cür tarixi şəxsiyyətlərdən olub.

Dəmiryolçu Əlirza kişinin ailəsində də minlər, milyonlar kimi 1923-cü il 10 may tarixində Naxçıvan şəhərində körpə bir oğlan uşağı dünyaya göz açdı. Hamı kimi isti ana qucağında həzin-həzin laylalarla, dəmir beşiyin asta-asta yırğalanması ilə həyata izlərini qoydu. Həyat ona «hələ yat» deyərək qulağına pıçıldadı, çünki böyük bir Azərbaycan dövləti gözləyirdi öz qayğıları ilə, yuxusuz gecələri, aydın səhərləri ilə... «Hələ yat, çünki sən bu Azərbaycana çox lazımsan.

*Dəmir beşik asta-asta yırğalandı.*
*Neçə payız, neçə bahar yola saldı,*



*Neçə soyuq, şaxtalı gün,*
*Neçə qızmar gün calandı.*
*Dəmi beşik asta-asta yırğalandı.*

Həyatını xalqına, millətinə həsr edən Heydər Əliyev həmişə Azərbaycanın müstəqilliyinə, onun təhsilinin inkişafına xüsusi diqqət ayırmışdı. Onun həmişə diqqət mərkəzində gənclər dururdu. Çünki özü dediyi kimi «Müstəqil Azərbaycanın gələcəyi üçün gənclərin bu gün aldıqları bilik, təhsil, tərbiyə güclü rol oynayır.

Gənclər, həmçinin xalqımızın milli ənənələri, milli mənəvi dəyərləri əsasında tərbiyə olunmalı, eyni zamanda onların təhsil almasında ümumbəşəri dəyərdən istifadə olunmalıdır. Gənclər arasında iş bu istiqamətdə aparılmalıdır».

«Azərbaycan dövlətinin gələcəyi gənclərdir ki, bu dövləti onlara etibar edirik».

Heydər Əliyev güclü siyasətçi idi.

Heydər Əliyev tarixi yazmırdı, onun ağır yükünü öz çiyinlərində gəzdirirdi.

Memarlıqdan danışmırdı, memarlığı yaradırdı.

34 illik hakimiyyəti illərində o yalnız Azərbaycan dövlətinin müstəqilliyi üçün çalışırdı. İki əsirin və iki minilliyin qovşağında axır ki, nail oldu güclü, yenilməz müstəqil Azərbaycan dövləti qurmağa.

Torpaqlarımızın 20%-dən çoxunun düşmən tapdağı altında olmasının ağırlığını yenə də özündə çox böyük itkinlik bilsə də, var gücü ilə bu torpağı yağılardan təmizləməyə çalışırdı. Ona görə də o, hər birr qaranlıqlardan nicat yolu axtarırdı ki, işıqlandırsın ki, gənclərimizə örnək olsun. vətənpərvər böyümələrinə bir yol açsın gənclərimizin. Heydər Əliyev deyirdi ki, vətənpərvərlik hissi körpəlikdən başlayaraq hər bir gəncin həyat prinsipi, həyat qanunu, nizamnaməsi olmalıdır.

Müəllimlər müəlimi idi Heydər Əliyev. O, hər şeyi görə bilirdi sanki. Allah ona hər şey vermişdir. Gözəl sima, səlis nitq, ağıl, zəka onu hamıdan fərqləndirirdi.

Heydər Əliyev BDU-nun tarix fakültəsini bitirmişdi. O, digər ixtisaslar üzrə də təhsil almışdı. BDU haqqında Heydər Əliyev belə demişdir:«BDU Azərbaycanın tarixi bir sənət əsəridir». O çox savadlı, dərrakəli bir şəxsiyyət idi.

Heydər Əliyevin həyatı, fəaliyyəti haqqında çox yazmaq olar. Onun haqqında yazılanları toplaşaq, bir kitabxana yaranar.

Hamının tanıdığı Heydər Əliyev əslində heç kəsin tanımadığı bir möcüzə idi. Sirli, sehrli bir aləm idi Heydər Əliyev.

Mən bəzən bu şəxsiyyəti palıd ağacına bənzədirəm ki, qollu-budaqlıdır. Palıd yarpaqları budaqlarını bəzədiyi kimi, ağlı, zəkası, möhkəmliyi də Heydər Əliyevi bəzəyirdi. O, qollarını gərmişdi Azərbaycan xalqının üzərinə ki, onu qada-bəlalardan qorusun.

Azərbaycan şah əsəri idi, Heydər Əliyevin.

Heydər Əliyev qayğıkeş ata, həyat yoldaşı idi. Hamı ona «El atası» ləqəbini vermişdi. Eyni zamanda o, gözəl baba idi. Örnək idi balaca Heydərinə. Gözəl insan idi Heydər Əliyev. Nur yağırdı üzündən, qəlblərə süzülürdü.

Bütün dünyanı qarış-qarış addımlasa da, vətəninə, elinə çox bağlı idi Ulu Öndər.

*Əzizim Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı,*
*Gəzməyə qərib ölkə,*
*Ölməyə vətən yaxşı.*

Ona doğma elində ölmək nəsib olmasa da, öz elinin torpağına qarışdı Heydər Əliyev. O, cismən ölsə də, qəlblərə köçdü nuru, ruhu ilə. Əslində o ölməmişdi. Çünki o, əbədiyaşardı xalqın yaddaşında.

Heydərlə nəfəs alırdı bu millət, bu xalq. Onu fəaliyyəti, yaradıcılığı, həyat tərzi, təmiz ürəyi alın yazısı olaraq başqalarından fərqləndirsə də, ölümü bir zərbə oldu xalqına. Allahdan pay idi bu 80 illik ömür ki, o da öz xalqına, millətinə pay verdi.

Ulu Öndər yanımızda olmasa da, onun yolunu layiqincə gedən, onun qurduğu bir dövlətin təhsilində də, quruculuğun da axsatmalar, büdrəmələr etmədən davam etdirir prezidentimiz cənab İlham Əliyev və onun xanımı Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyeva

*Rahat uyu, Ulu Öndər, rahat yat.*
*Öz yerində oğul qoyub getmisən,*
*İlhamla başlayır bu yerdə həyat,*
*Sən bu xalqa dövlət qoyub getmisən.*

Mənimçün ağırdır o dahi şəxsiyyətin, müdrik həyatını, fəaliyyətini kiçik dəftərə üç-dörd cümlə ilə sığdırmaq.



Onun haqqında yazılacaq əsərlər, bəstələnəcək mahnılar belə azdır...

Mən də gələcəkdə müəllim olanda öz şagirdlərimə Heydər Əliyevin necə müdrik, necə təmiz qəlbli bir insan olmağından danışacağam. Biz gənclər onun sayəsində sevmişik bu yolu, bu peşəni. Heydər Əliyev demişdir: «Mən müəllimlikdən yüksək bir peşə tanımıram».

Heydər Əliyevin bütün bu həyat yolunu izləyərək bizə yalnız ondan örnək götürüb vətənini sevən, vətənə layiq övlad olmaq prinsipi altında böyümək qalır. Çünki bizik bu vətənin gələcəyi, açılan qapıları.

Allah Heydər Əliyevə qəni-qəni rəhmət etsin. Məkanını cənnət etsin!



**_Yaqubova Nüşabə İsmayıl qızı_**
**_Neftçala rayonu, Rafiq Gözəlov adına Xıllı qəsəbəsi 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi_**

Fenomen bir şəxsiyyət haqqında – uzun illər Azərbaycan Respublikasına rəhbərlik edən bir insan haqqında inşa yazmaq həm məsuliyyətli, həm də şərəflidir.

90 il bundan əvvəl – 1923-cü ilin mayın 10-da Naxçıvan şəhərində bir körpə dünyaya göz açdı. Onun ilk qığıltısı, ilk təbəssümü gələcək taleyindən xəbər verirdi. Onun ilk addımları Azərbaycan xalqının gələcəyinə, xoş günlərinə doğru irəliləyirdi.

«Ana», «Vətən» kəlmələri ilə dil açdı. Nənəsinin danışdığı nağıllarda Məlikməmməd, Ağ atlı oğlan oldu. Xalqa zülm edən divləri öldürdü. Zümrüd quşu kimi qanad açıb dara düşənlərə yardım etdi.Müəllimləri ona vətəni sevməyi öyrətdilər. «Vətən», «Azərbaycan» kəlmələri dilinin əzbəri oldu. Tarixi daha çox sevirdi. Bu sevgi ilə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirdi. Müxtəlif vəzifələrdə işlədi. Ən böyük vəzifəsi Azərbaycanı işıqlı gələcəyə aparmaq oldu.

Əsrin milli mənsubiyyət tanımayan xəstəliyi xərçəngdir, milli mənsubiyyət zəminində bəlaya cevrilmiş xəstəliyi isə manqurtluqdur. Böyük Atatürk demişdir: «Milli mənliyi olmayan millətlər başqa millətlərin ovudur».

1990-cı il hadisələri Heydər Əliyevin həyatında tarixi iz qoydu. Qanlı yanvar günlərində Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etdi. Etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi.

O, çıxışlarının birində demişdir: «Doğma Vətən torpağıma heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq Respublikanın ağır günlərində xalqın dərdinə şərik çıxmağa, öz vətəndaşlıq borcumu yerinə



yerirməyə gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüququmdan heç kim məhrum edə bilməz!»

Dövlət rəhbəri olmaq vəzifədir, lider olmaq isə taledir. Heydər Əliyev Azərbaycan xalqının lideri oldu. XX əsrdə Azərbaycan xalqının tarixini yaratmaq Heydər Əliyevə nəsib oldu.

*Qayıtdın yurduna, çəkildi duman,*
*Düşmən ocaqları közərdi, söndü.*
*Səni lap vaxtında yetirdi zaman*
*Sənin qayıdışın tarixə döndü.*

Heydər Əliyev Prezident olduğu üçün dahi deyildi. O, dahi olduğu üçün Prezident idi.

O çalışırdı ki, azərbaycanlı Azərbaycanı özünün doğma vətəni hesab etsin. O, dünya azərbaycanlılarına müraciətlə deyirdi: «Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan, yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən».

Dövlət və cəmiyyət qanunlarla yaşayır.1995-ci il 12 noyabrda Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Ana Qanunumuzun ölkənin ağır günlərində qəbul olunduğunu nəzərə alaraq deyə bilərik ki, bu aksiyada şüurlu şəkildə iştirakın özü də xalqın azadlığa və müstəqilliyə inamının təzahürü idi.

Heydər Əliyev 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

*Heydər baba, ölkə-ölkə gəzəcəm,*
*Şöhrətini dastanlara düzəcəm,*
*Qarabağın xilas günün görəcəm,*
*Mənim yolum istiqlalın yoludur.*
*Yurd sevgisi ürəyimdə doludur.*

O, qlobal xarici siyasətində iki istiqaməti əsas götürürdü: 1. MDB və 2. Qərb və digər dünya dövlətləri ilə qarşılıqlı əlaqələr. Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün kanallardan və imkanlardan maksimum istifadə edirdi. Ən azı son iki yüz ildə analoqu olmayan hadisə baş verdi: Heydər Əlirza oğlu özü üçün əskiklik saymayaraq sıravi bir muzey bələdçisi kimi ölkənin xəritəsini özü açıb xarici dövlət və siyasi xadimlərinə, jurnalistlərə Qarabağ həqiqətlərini şərh elədi.

Heydər Əliyev həm də gözəl natiq idi. O, Azərbaycan dilində danışdığına görə fəxr edirdi və başa düşürdü ki, dil millətin mənəvi sərvətidir. Məşhur pedaqoq Uşinski demişdir: «Bir millətin malını, dövlətini əlindən alsan, o millət ölməz, həmin millətin dilini alsan, o millət məhv olub gedər».

Ana dilimiz zamanın sınaqlarından döyüşə-döyüşə bu günə gəlib çatmışdır.

Ulu Şəhriyar demişdir:

*Türkün dilitək sevgili, istəkli dil olmaz*
*Ayrı dilə qatsan, bu əsl dil əsl olmaz.*

Yeni əsrin astanasında Heydər Əliyev Azərbaycan xalqına gözəl töhfələr bəxş etmişdir. 2001-ci il avqustun 1-də Azərbaycanda latın qrafikalı əlifbaya keçilməsi, mətbuatın, təhsilin, rəsmi yazışmaların və çıxışların Azərbaycan dilində olması barədə fərman verdi.

Heydər Əliyev deyirdi: «Bizim çox gözəl, zəngin və cazibədar bir dilimiz var. Biz, bəlkə də, bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini, gözəlliyini dərk edə bilmirik. Bilin ki, bu, həqiqətdir.

Hamı ana dilini – Azərbaycan dilini gərək mükəmməl bilsin. Gənclərə tövsiyəm budur ki, kiminsə bu barədə çatışmazlığı varsa, çalışın aradan qaldırın. Xarici ölkələrdən təhsil alarkən, həmin ölkənin dilini öyrənərkən öz dilinizi unutmayın! Bilin ki, bir millətin, xalqın, insanın öz dilindən şirin heç nə ola bilməz.

Bu qiymətli sözlər öz təsdiqini tapdı. 2001-ci il 9 avqust tarixində Azərbaycan dili, Azərbaycan əlifbası gününün təsis edilməsi haqqında fərman imzalandı.

Heydər Əliyev təhsilə, məktəbə, müəllimə çox böyük qiymət verirdi. O, deyirdi: «Ancaq indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini, ədəbiyyatını gərək mükəmməl bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz».

Heydər Əliyev çox gözəl başa düşürdü ki, elmi, təhsili olmayan millətlər başqa millətlərin ovuna çevrilir. O, var qüvvəsini elmin, mədəniyyətin inkişafına sərf edirdi. 2000-ci ilin aprelində möhtəşəm ədəbi-tarixi abidənin – «Dədə Qorqud» dastanının 1300 illik yubileyi buna sübutdur. 1966-cı ildə qəzəl ustadı, ölməz şairimiz Fizulinin 500 illik yubileyinə dünyanın hər yerindən yazıçılar gəlmişdir. M.Müşfiq, B.Vahabzadə, S.Vurğun, Aşıq Ələs-



gər, Əliağa Vahid, Məhəmmədhüseyn Şəhriyar və yazıçı Mir Cəlalın yubileyləri qeyd olundu. C.Məmmədquluzadə və Hüseyn Cavidin Bakıda və Naxçıvanda ev-muzeyləri yaradıldı.

1997-ci ildə universitet və institutlarda «Heydər Əliyev məktəbləri» təşkil olunmuşdur. Bu məktəblərdə onun siyasət sənətinin incəlikləri dinləyicilərə öyrədilir.

Ötən yüzlliyin zirvəsində – 26 dekabr 2000-ci ildə Azərbaycan Prezidenti XXI əsrin, III minilliyin qarşılanması ilə bağlı tədbirlərin həyata keçirilməsi haqqında sərəncamını imzaladı. Lakin amansız ölüm bu tədbirləri həyata keçirməyə imkan vermədi. Heydər Əliyev uzun sürən xəstəlikdən sonra 2003-cü ilin 12 dekabrında vəfat etdi.

*Əziziyəm Heydərim,*
*Düşünürəm hey dərin.*
*Dilim necə söyləsin*
*Artıq yoxdur Heydərim?!*

O gün Azərbaycan qara geyindi. Xalq öz oğlunu son mənzilə yola saldı.

Heydər Əliyevin həyat yolu bir epopeyadır. Bu epopeyanın mərkəzində Heydər Əliyev və Azərbaycan xalqı durur. Xalqa söykənən ölməzdir, əbədidir. Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin, o cümlədən «Fatih» universitetinin fəxri doktoru adına layiq görülmüşdür. O, bir çox orden və medallarla təltif olunmuşdur. Onun ən böyük mükafatı xalqın məhəbbəti, Azərbaycanın bütövlüyü və torpaqlarımızın azad olunması idi.

Bu gün Azərbaycan milli müstəqillik və suverenlik yolundadır. Bu gün azad və müstəqil Azərbaycan xalqı 45 milyonluq bir millətin pənahına çevrilməkdədir. Bu 45 milyon bir araya gələrək Azərbaycan dövlətçiliyi uğrunda səfərbər olmalıdır. Bunu bizdən qoca tarix və milli taleyimiz tələb edir.



***Mustafayeva Aytac Yunis qızı***
***Ağcabədi Pedaqoji Kollecinin***
***III kurs tələbəsi***

Müşfiqin, görkəmli yazıçı Mir Cəlalın ev muzeyləri yaradıldı. Qəlbi daim vətənlə döyünən, öz qələmini istər tarixi mövzuda, istərsə də digər mövzularda sınayan, lakin ruhu vətənində, nəşi vətənindən kənarda olan bu yazıçının – Hüseyn Cavidin nəşi Heydər Əliyevin sayəsində öz doğma vətəni Naxçıvana gətirildi. Onun ardınca ev-muzeyi yaradıldı, heykəli qoyuldu. O, ədəbiyyata böyük qiymət verərək demişdir: «Ədəbiyyat hər bir xalqın sərvətidir».

İdman sahəsində gördüyü işlərin, bəlkə də, sayı-hesabı yoxdur. İlk dəfə Olimpiya İdman Komplekslərinin tikilməsi barədə imzalanan fərman dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlı olmuşdur. İdmanın bir çox növləri inkişaf etdirilmişdir. Hətta ucqar dağ rayonlarında belə idman Olimpiya Kompleksləri inşa edilib gənclərin istifadəsinə verilmişdir. Azərbaycan idmançıları dünya səviyyəli idman yarışlarından, dünya çempionatlarından qalib qismində vətənə dönmüşlər. Yaxın zamanlarda isə Azərbaycan bütün dünyanın idmançılarının bir araya gələcəyi mərkəz olacaq, dünya səviyyəli idman yarışlarına ev sahibliyi edəcək. Əlbəttə ki, bütün bunlar Heydər Əliyevin başladığı işlərin davamıdır.

Fenomen şəxsiyyətin gördüyü işlər təkcə bunlarla kifayətlənmir. Onun əbədi irsinin davamıdır ki, bu gün Azərbaycan xalq musiqiləri dünya musiqiləri sırasında səslənir. Bəlkə də, Heydər Əliyevin verdiyi sərəncam və fərmanlar olmasaydı, musiqimiz, milli mədəniyyətimiz, adət-ənənələrimiz bu gün öz aktuallıq dərəcəsində olmazdı. Milli mədəniyyətdən, adət-ənənədən danışarkən Heydər Əliyevin «Kitabi-Dədə Qorqud» dastanına verdiyi qiymətdən də söz açmaq istərdim. Ümumiyyətlə, «Kitabi-Dədə Qorqud» dastanı bir söz abidəsidir. Belə bir oğuz yadigarı, ozan yadigarı,



İslam ideologiyasını özündə əks etdirən, milli-adət ənənələrimizi yaşadan abibənin mürtəce abidə elan olunaraq oxunmasına qadağa qoyulması, ancaq şəxsiyyətə pərəstiş dövründən sonra oxunmasına icazə verilməsi dahi şəxsiyyətin ürəyində dərin iz açmışdır.

Nəhayət, 2000-ci ildə möhtəşəm əsərin, söz abidəsinin 1300 illik yubileyinin keçirilməsi barədə fərman verilmişdir. Təkcə bu dastan deyil, digər əsərlər də işıq üzü görmüşdür.

Bütün bunlar Heydər Əliyevin rəhbərliyi ilə həyata keçmişdir.

Təəssüf ki, Azərbaycanın bir hissəsi hal-hazırda işğal altındadır. Azərbaycan xalqının dahi şəxsiyyətləri, siyasətçiləri heç bir xalqın torpağına göz dikməyib, göz dikmək niyyətində də deyil. Lakin buna baxmayaraq, Azərbaycanın zəngin sərvəti mənfur düşmənlərin gözündə böyük görünmüş, onların hədəfinə tuş gəlmişdir. Qoy onlar nə edirlər etsinlər, ancaq unutmasınlar ki, müstəqil Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin, onun əbədi irsinin davamçısı cənab İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan xalqı öz haqq səsini bütün dünyada ucaldıb, ucaldacaq da.

Xocalı faciəsi! Bu faciə bizim ən ağrılı faciəmizdir. Bunu yalnız soyqırım adlandırmaq olar. Bu soyqırım bu gün bütün dünyada tanınır. Bütün dünya dövlətləri bu faciəyə siyasi qiymət verir. Bunlar, əlbəttə ki, mahir siyasətçilərin yeritdikləri siyasət nəticəsində baş tutmuşdur. Mən inanıram ki, Azərbaycanın dilbər guşələrinin, əbədi-əzəli torpaqlarının işğaldan azad olunacağına çox az qalıb. Xalq sülh yolu ilə torpaqlarımızı işğaldan azad edəcək, əgər belə olmazsa, silaha sarılıb vətənimiz naminə döyüşəcəyik. Biz Heydər Əliyevin qurduğu Müstəqil Azərbaycanın övladlarıyıq və buna görə də Liderimizin siyasətini davam etdirməliyik. Çünki Heydər Əliyev aşağıdakı kəlamında demişdir: «Biz sülhsevər xalqıq». Elə buna görə də sülhə, əmin-amanlığa hər zaman qadir olmalıyıq. Torpaqlarımızın işğaldan azad etmək Heydər Əliyevə nəsib olmadı. Ancaq bu missiyanı İlham Əliyev cənabları layiqincə yerinə yetirəcək.

Mənim yazdığım dahi şəxsiyyət Heydər Əliyevin etdiklərinin, bəlkə də, bir faizi deyil. O, yalnız vətəni, xalqı üçün yaşayıb yaradıb. Ömrünü xalqına həsr edib. Bunu özü də çox gözəl ifadə etmişdir: «Mən xalqıma arxalanıram, ömrümün qalan hissəsini də xalqıma bağışlayıram».

Heydər Əliyev həm də siyasi natiq olmuşdur. O, saatlarla, dayanmadan hansı mövzu olursa olsun, o barədə nitq söyləyb, fikir ifadə edə bilirdi. Heydər Əliyevin natiqlik məharətini bütün dünya siyasətçiləri yüksək qiymətləndirirdi.

V.Vimmer Heydər Əliyev haqqında yazırdı: «Azərbaycan II dünya müharibəsindən çıxmış Almaniyaya, Heydər Əliyev isə Adeannerə bərabər şəxsiyyətdir».

Mən inşamı sona yetirirəm və sonda onu qeyd etmək istəyirəm ki, bu gün Azərbaycanın çiçəklənməsi, qüdrətli dövlət kimi bütün dünyada öz sözünü deməsi Heydər Əliyevin mahir siyasəti nəticəsində olmuşdur. Heydər Əliyev şəxsiyyəti tarixin yaddaşına qızıl hərflərlə yazılmışdır. Gələcək nəsillər üçün örnək olmuşdur. Müstəqil Azərbaycanı gələcək nəsillərə əmanət qoymuşdur.

O, 2003-cü ildə vəfat etməsinə baxmayaraq, ürəklərdə, qəlblərdə, dahilərin sənət əsərlərində yaşayır. O, bizim üçün hələ də yaşayır, yaradır.

*Azərbaycan Odlar yurdudur!*
*Heydər Əliyev Odlar yurdunun od*
*oğludur!*
*Odu Allah sanmışam.*
*Anam torpaq, atam od,*
*Mən oddan yaranmışam.*





**_İsmiyeva Nuranə Ədalət qızı_**
***Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin IV kurs tələbəsi***

Bahar həmişə öz gəlişi ilə təbiətə gözəllik, insanlara isə ruh yüksəkliyi gətirir. «Bu keyfiyyətlərin məcmusu bəşəri nurdur», deyirlər. Bu nurdan yarananlar bəşəriyyət üçün parlayan günəş olur. Aqillər həmişə ona «Allahın qismətidir», – deyirlər. Hər xalqa qismət olmayan belə bir bəşəri nur 10 may günündə Azərbaycan xalqına qismət olmuş Heydər Əliyev dühasıdır.

Qalın-qalın kitabların vərəqlərində, hər bir abzasında, sətirlərində, on minlərlə nəşri olan qəzetlərin, jurnalların səhifələrində, yüzlərlə jurnalistin, ədibin, siyasətçinin məqalələrində, yazarların əsərlərində, şairlərin şeirlərində, poemalarında, bəstəkarların lirik mahnılarında, bir-birindən maraqlı televiziya filmlərinin kadrlarında gördüyü işlərlə, yorulmaz əməyi, zəngin fəaliyyəti yaşadı.

Xatirələrdə yaşadı, ömürlərdə yaşadı unudulmaz Heydər Əliyev.

O, xalqın ümid çırağını yandıran idi. Xalqın təkid və istəyini qəbul edib, xalqın həyatı, qanı və canı bahasına qazandığı dövlət müstəqilliyini qorudu və nəsillərə nümunə oldu.

Nurdan yaranan günəştək parlayan bu böyük insan qorudu, itirilmə təhlükəsilə hər an, hər saat üz-üzə qalan dövlət müstəqilliyimizi varlığı ilə qorudu. Qorudu, öz həyatını təhlükə qarşısına qoyaraq qorudu. Ömrünün son gününə, son saatına, son saniyəsinə, son anınadək. Qorudu xətadan elləri, döndərdi cənnətə Azərbaycanı. Əbədiləşdirdi xalqın müstəqilliyini.

XX əsrin əvvəllərində Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və onlarla digər vətənpərvərlərin Azərbaycan xalqının əsrlər boyu arzu etdiyi, vuruşduğu, mübarizə apardığı, xalqının azadlığı və istiqlaliyyət uğurunda

mübarizəsini davam etdirdi Heydər Əliyev. Yaşatdı XX yüzilliyin son illərində xalqın azadlığını, istiqlaliyyətini. Yaşatdı əsrin əvvəllərində 23 ay mövcud olmuş Türk–İslam dünyasında ilk demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycan Demokratik Respublikasının varisi kimi yaranan Azərbaycan Respublikasını. Əbədiləşdirdi Azərbaycan Demokratik Respublikasının istiqlaliyyətini, ilk növbədə xalqın milli birliyini. Milli birliyi möhkəmləndirərək qaldırdı aradan vətəndaş qarşıdurmasını. Zəngin təcrübəsinə, dərin biliyə, kamil zəkasına söykənərək yaşatdı milli birliyi. Əsrlərin o tayından axıb gələn yüz illərlə, min illərlə yaşamış mənəvi və əxlaqi dəyərləri. Yaratdı hüquqi dövləti, bazar iqtisadiyyatına əsaslanan hüquqi, demokratik bir Azərbyacanı. «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir», – deyərək dövlətimizin strategiyasını aydın formada izah etdi. Bu müdrik tövsiyəsində Ulu Öndər inkişaf etdirdi elmini, incəsənətini, mədəniyyətini, ədəbiyyatını, teatrını, kinosunu, rəngkarlığını, rəssamlığını xalqının.

Sevdi şerini, musiqisini xalqının. Sevdi əzizdən də əziz hesab etdiyi xalqını. 80 yaşında həyatının ən müdrik ayrılıq həsrətli çağında belə işıq arzu etdi, nurlu sabah arzuladı xalqına.

34 il çıxış etdi xalqının qarşısında kamil, məşhur natiq kimi, mərd diplomat, görkəmli siyasətçi, müdrik dövlət başçısı, cəsur sərkərdə, dönməz Ali Baş Komandan kimi. Kövrəlmədi, qəhərlənmədi, səsi titrəmədi heç bir məqamda.

Amma həyatının ən müdrik bir vaxtında amansız ayrılıqlar astanasında Səməd Vurğunun «Azərbaycan» şerini mavi Xəzərin sahillərində söyləyərkən kövrəldi, qəhərləndi, səsi titrədi, doldu gözləri, duyaraq ayrılığı doldu gözləri.

Bir də insanlar duydu, gördü onun kövrəldiyini «Tut ağacı» mahnısını dinləyərkən. Bu həzin melodiyanı dinləyəndə kövrəldiyin duydu, gördü insanlar. Bəlkə də, müğənni Aygün Hümbətovanın şirin, məlahətli, həzin səsi aparmışdı onu xatirələr dünyasına.

*Tut ağacı! Tut ağacı!*
*Aman yerim, güman yerim.*
*Xatirələr qanadında*
*Yaşatdığım pənah yerim.*

Xatırladı xanımlar xanımı Zərifə xanımı. Xatirələr həssas qəlbini sıxdı, kövrəldi və axdı yanaqlarından iki damla göz yaşı. Müğənni bunları hiss etmədən oxuyurdu. Oxuyurdu həssas qəlbləri sızladaraq.



*Bir gün şirin xatirələr sorağında*
*Səni gözləyəcəyimi bilməmişəm...*

Vurğunu idi Azərbaycan musiqisinin. İlk dəfə televiziya ekranlarının birində öz mənzilində kiçik bir mərasimdə oxuyan görəndə təəccüb etdik, çox təəccüb etdik hər birimiz. Gözəl musiqi duyumlu ömür-gün yoldaşı, yüzlərlə, minlərlə insanların gözünə nur bəxş edən, həssas xanım, gözəl ana, əvəzolunmaz həkim kimi xalqımızın yaddaşında qalan Zərifə xanım müşayiət edirdi pianoda onu. Oxuyurdu ən çox sevdiyi nəğməsini, Tofiq Quliyevin «Sənə də qalmaz» nəğməsini.

*Söylə nədir bu ədalar?*
*Bu işvə, bu naz.*
*Gedər bir gün bu gözəllik*
*Sənə də qalmaz.*

Dünyanın yazılmayan, ancaq əbədi olan fəlsəfi hikməti belədi əzəldən. Bəstəkar Tofiq Quliyevin bu mahnısını ifa etmiş müğənnilərdən bütün professional sənətkarlardan daha çox Ulu Öndər Heydər Əliyev bu mahnını ifa etmişdir. Bütün müğənnilərə, hər bir sənətçiyə, hər bir dinləyiciyə, tamaşaçıya daha çox ləzzət etdi bu ifa. Çünki o, nurdan yaranan, günəştək parlayan bir insanın ifası idi. Unudulmaz, nəsillərə nümunə olan bir insanın ifası idi.



**Hüseynova Ruhanə Teyyub qızı**
*Şəki Pedaqoji Kollecinin*
*I kurs tələbəsi*

Bu gün mən tarixin yaddaşında, xalqımın qəlbində əbədi heykəlləşən zəmanəmizin ən görkəmli şəxsiyyəti haqqında inşa yazıram. Elə bir insandan, elə bir şəxsiyyətdən söz açacağam ki, o qurub-yaratdığı Azərbaycan kimi əbədidir. Başa düşürəm ki, bu həm çətin, həm də məsuliyyətlidir. Heydər Əliyev Azərbaycan xalqının bəxtinə doğan bir günəşdir. Heydər Əliyev şəxsiyyəti Azərbaycan xalqına nümunə olan bir insandır.

İndi bahardır, həmin şəxsiyyəti bizə bəxş edən bahar. Mən bu fəsli çox sevirəm, çünki bu fəsildə Heydər Əliyev dünyaya göz açmışdır. Heydər Əliyev varlığı bahara bənzəyir.

Mən özümü çox şanslı hiss edirəm, çünki mənə o böyük şəxsiyyəti, o dahi insanı görmək, onu canlı-canlı dinləmək qismət olub. Mən o dahi şəxsiyyəti gördüyüm günü bu gün kimi xatırlayıram və qəhərdən kövrəlirəm. O gün mənim qəlbimdə o şəxsiyyətə qarşı böyük istək, sevgi yarandı. Heydər Əliyev şəxsiyyəti mənim idealıma çevrildi. Mən hələ də radioda, televizorda onun çıxışlarına qulaq asıram. O qədər aydın, səlis danışır ki, mən ona qulaq asmaqdan doymur və təkrar-təkrar izləyirəm.

Heydər Əliyev gənclərə xüsusi qayğı ilə yanaşırdı. Onların yaxşı təhsil alması, vətənə layiqli bir vətəndaş kimi formalaşmasına çalışırdı. Azərbaycan gənclərini istər təhsildə, istərsə də idman sahəsində həmişə irəli getmələrini arzulayar və bunun üçün də səylə çalışardı.

Mənim fikrimcə, Heydər Əliyev şəxsiyyəti olmasaydı, bəlkə də Azərbaycan adlı bir dövlət də olmazdı. Heydər Əliyev Azərbaycan xalqı üçün o qədər böyük işlər görmüşdür ki, onu min illərlə saysaq qurtara bilmərik. Azərbaycanın şəhərləri, xüsusilə də paytaxt Bakı o qədər inkişaf edib ki, sanki nağıllar həqiqətə çevirilib. Bu gün də Heydər Əliyevin davamçısı



möhtərəm prezidentimiz cənab İlham Əliyev Ulu Öndərimizin işlərini layiqincə yerinə yetirir və Azərbaycan günü-gündən gözəlləşərək inkişaf edir.

Heydər Əliyev Azərbaycanın dünənidir, bugünüdür, sabahıdır. Mən hələ də onun aramızdan getdiyinə inana bilmirəm, xalqı onsuz, onu da xalqsız təsəvvür edə bilmirəm. Onun kimi şəxsiyyətlər az-az doğulurlar. Mən onun yenidən dünyaya gəlməsini, xalqının, millətinin yanında olmasını o qədər arzulayıram ki, bilirəm bu mümkün deyil. Amma bunun üçün hər şeydən, öz canımdan belə keçməyə hazıram.

*Qəm-qüssədən azad olub qəlbimiz,*
*Sənsən sevincimiz, sənsən fəxrimiz.*
*Müstəqil yaşayır indi ölkəmiz,*
*Səni unutmarıq ay Heydər baba.*

Heydər Əliyev cismani aramızdan getsə də, o, daim bizim qəlbimizdə yaşayır və yaşayacaqdır.

2003-cü il dekabrın 12-də mən onun artıq aramızda olmadığını, yanımızdan əbədi getdiyini öyrəndim. Həmin gün sanki, zaman donmuşdu, hər kəs sükut içində idi. Heç kəs onun ölümünə inanmırdı, bəlkə də, inanmaq istəmirdi. Çünki belə bir şəxsiyyəti itirmək Azərbaycan və Azərbaycan xalqı üçün gözlənilməz idi. Kim itirmək istəyərdi ki, belə bir şəxsiyyəti. Həmin gün sanki qərənfillər də boynunu bükərək, başlarını aşağı sallayaraq qan ağlayırdılar.

Heydər Əliyev ömrünü, gününü Azərbaycana həsr etmişdi. Həmişə Azərbaycanın irəli getməsini istəmiş və bunun üçün əlindən gələni etmişdir. Azərbaycan bu gün inkişaf edirsə, bu yalnız Heydər Əliyevin əməyi nəticəsindədir. Ölüm onu bizim aramızdan tez apardı. Mən onu görəndə çox balaca idim. İndi düşünürəm ki, kaş o vaxtı bir az böyük olardım, onunla bir kəlmə söz danışardım, bunun üçün əlimdən gələni edərdim. Bəlkə də qismətim deyilmiş. Kaş ki, o gün yenidən qayıdaydı, Onu bir daha görə biləydim.

Hərdən oxuduğum məktəbin dəhlizindəki fotoşəkillərə baxıram və görürəm ki, hansı şəkil olursa olsun həmişə xalqın içində çəkilmiş fotoşəkillərdir. Fikirləşirəm ki, insan xalqını bu qədərmi sevər, bu qədərmi xalqına bağlı olar? Xalqın, millətin gələcəyi üçün çalışıb – Heydər Əliyev. Ömrünü, gününü azərbaycanlılara həsr edib – Heydər Əliyev.

Heydər Əliyevin ölümündən on il keçsə də xalq onu unutmur. Onun adı daim uca tutulur. Mən və yaşıdlarım bəzən bir yerə toplaşaraq onun gördüyü işlərdən söhbət açır, bilmədiklərimizi isə müəllimlərimizdən, valideynlərimizdən, babalarımızdan öyrənirik.

*Zaman bizi imtahana çəksə də,*
*Heydərsizlik qəlblərə yer etsə də,*
*Ayrılıqdan xalq göz yaşı töksə də,*
*Heydər oğlu İlhamımız var indi.*

Həqiqətən də, cənab İlham Əliyev atasının yolunu uğurla davam etdirir. İndi də onun səyi nəticəsində Azərbaycan daim irəliləyir, sürətlə inkişaf edir. Bilirik ki, Azərbaycanın ən böyük problemi Dağlıq Qarabağ problemidir. İlham Əliyev cənabları bu sahədə səylə çalışır və mən əminəm ki, tezliklə bu problem də aradan qaldırılacaqdır.

Əziz Heydər Əliyev, vaxt gələr mən böyüyərəm, Azərbaycanın mərd oğul və qızlarıyla birlikdə böyük uğurlar qazanaram. Sizə və Azərbaycana layiq bir vətəndaş olaram, ruhunuzu şad edərəm.





## Nağıyeva Nəzifə Vüqar qızı

***İlyas Əfəndiyev adına «Elitar» gimnaziyanın X sinif şagirdi***

*«Tarixdə liderlərin rolu və əhəmiyyəti onun xalq qarşısındakı xidmətləri ilə ölçülür. Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən sürətli inkişaf edən dövlətlərindən birinə çevrilmişdir».*

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bir oğul göstərin*
*Heydər babaya bənzər.*

İçimdən gələn bir hiss məni Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı keçirilən «Heydər Əliyev – 90» inşa müsabiqəsində iştirak etməyə səslədi. Mən bu inşamda dahi liderdən, elmin bütün sahələrindən xəbərdar olan insandan ürək dolusu söhbət açacağam.

Dünya şöhrətli, böyük şəxsiyyət, uşaqların, gənclərin, biz şagirdlərin sevimli babası-ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü ərəfəsindəyik.

Mən dahi şəxsiyyət Heydə Əliyevi heç kəslə müqayisə etmədim, çünki o, müqayisə olunmazdır.

*Vətəndə sevildi Heydər babamız*
*Çünki o oldu xalqına layiq.*

Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz. Fikrin müxtəlifliyi təbii hadisədir.

Heydər Əliyev fenomeni hələ 70-ci illərdə dünya ictimai-siyasi fikrinin diqqət mərkəzində olmuşdur. Xüsusi natiqlik istedadına, iti məntiqə, dərin zəkaya, uzaqgörənliyə malik olan Heydər Əliyev iki dəfə hakimiyyətə gəldi. İlk dəfə 1969-cu ildə bir rəhbər kimi vəzifəyə gəldi.

1993-cü ildə Azərbaycanda siyasi qarışıqlıq baş verir. Hökumət pərən-pərən düşür. Azərbaycanın belə bir ağır vaxtında Heydər Əliyev ikinci dəfə sanki xilaskar mələk kimi göydən yerə endi.

Kimdir dahi liderlər? Ən uzağı görən, hamıdan yaxşı duyan, hamıdan tez və doğru qərar verəndir.

İnsanlığın və liderliyin yüksək zirvəsinə çatan Heydər Əliyev onu dünyaya bəxş edən millətini də ucaltdı, Azərbaycan dövlətinə ölməzlik bəxş etdi, ölkəni dünya ölkələri arasında ucalanlar sırasına qaldırdı.

Heydər Əliyev! Azərbaycanın keçmişi, indisi, gələcəyidir.

Əgər insan təsir etmək qabiliyyətinə malik deyilsə, başqalarını öz ardınca apara bilməz. Azərbaycana 30 ildən çox müddətdə rəhbərlik edən, onu yüksək inkişaf zirvəsinə çatdıran Ümummilli lider Heydər Əliyevin dünya liderləri arasında xüsusi yeri var. Onun dünyaya və cəmiyyətə təsiri çox güclü idi.

İnsanlar heç vaxt digərlərinin ardınca təsadüfən getmirlər. Yalnız liderliyinə hörmət etdikləri şəxslərin ardınca gedirlər.

Öz uzaqgörənliyi ilə tökülən qanların qarşısını alan Heydər Əliyev yüzlərlə ana və bacılarımızın göz yaşlarını qurutdu. Bu yerdə Hüseyn Cavidin müdrik kəlamı yada düşür.

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Müdriklik, şərəf, şöhrət sözlərini tam mənası ilə Heydər Əliyevə aid etmək olar. Çünki Ulu Öndər Heydər Əliyev nəsillərə nümunə olan dahi şəxsiyyətdir.

Heydər Əliyev İlham Əliyevin simasında özünə layiqli varis, onun qurub-yaratmaq, xalqını, dövlətini ucaltmaq işini davam etdirən ləyaqətli, ağıllı, zamanında və doğru qərarlar verən bir lider yetişdirdi.

Çünki yalnız liderlər lider yetişdirə bilər.

Heydər Əliyev liderlik «məktəbinin» iki layiqli varisi var. Bu gün bütün xalqın sevimlisinə çevrilən, təhsilə, mədəniyyətə, səhiyyəyə böyük qayğı və diqqət göstərən, dünyada böyük nüfuz qazanmış ölkənin birinci xanımı Mehriban Əliyeva da Heydər Əliyev liderlik «məktəbinin » layiqli varisidir.



İlham Əliyev və Mehriban xanım Əliyeva bu gün bu böyük siyasətdə birgə addımlayır, Heydər Əliyev siyasətini layiqincə davam etdirirlər.

Deyirlər ki, tanrı insanı çəkə bilməyəcəyi yüklə sınamaz. Çoxəsrlik işğal və talanlardan sonra tanrı Azərbaycan xalqına onun dərdlərinə dərman olan bir oğul bəxş etdi. Elə bir dahi ki, Azərbaycan xalqının gələcəyinə «doğan günəş» oldu.

Bu sözlər öz sevgisi ilə qəlbimizdə yuva salan Azərbaycanın böyük oğlu, xalqını, millətini sonsuz məhəbbətlə sevən Heydər Əliyev haqqındadır.

O, əlçatmaz uca zirvədir. Heydər Əliyev ucalmaq, yaddaşlarda qalmaq istəyən hər bir insan üçün çox böyük örnəkdir.



## *Vəliyeva Elnaz Əlövsət qızı*

*«Ankara məktəbi» məktəb-liseyinin*
*IX sinif şagirdi*

Heydər Əliyev! Azərbaycanın günəşi, xalqımızın şərəf-şan zirvəsi, millət fədaisi, dahi insan, əvəzolunmaz tarixi şəxsiyyət və bununla bitməyən digər gözəl sözlər...

Heydər Əliyev! Bu iki kəlmənin qüdrətindən yer də, göy də silkələnir. Bu adı eşidəndə təsəvvürümüzdə Ulu öndər, dahi şəxsiyyət, əzəmətli sima canlanır. Mən bu adın qarşısında baş əyirəm. Fəxr edirəm ki, «Heydər Əliyev» erasında yaşayıram. Fəxr edirəm ki, Heydər Əliyevin «Şah əsəri» olan müstəqil Azərbaycanın vətəndaşıyam.

Heydər baba! Sən uca bir zirvəsən! Əlçatmaz zirvə! Sənin haqqında yazmaq mənim üçün böyük bir şərəfdir. Sənin haqqında düşünərkən, yazarkən qəlbim çırpınır, dolur. Dünyanın ən gözəl sözləri, ən gözəl kəlamları belə səni ifadə etməyə yetmir. Heydər baba! Sən günəşə bənzəyirsən. Günəş bir qarşılıq istəmədən hər tərəfə, hər kəsə işıq, nur saçdığı kimi sən də öz parlaq şüalarınla ölkəmizə nur saçdın, həyatımızı işıqlandırdın. Heydər baba! Sən «Millətimin ürəyində nəsildən-nəslə göyərən ilk məhəbbətsən, sən əfsanəyə, nağıla çevrilmiş bir həqiqətsən».

Heydər Əliyev dahi siyasətçi, uzaqgörən şəxs, bacarıqlı bir diplomat idi. O, siyasətçi olduğu qədər müdrik el ağsaqqalı idi. Hər zaman faydalı məsləhətlər verər, təsirli nitqlər söyləyərdi. Onun gözləri arxasında daim mənalı baxışlar vardı. O, Vətən üçün doğuldu, Vətən üçün yaşadı. Bu insan parlaq günəş kimi Azərbaycana işıq, nur saçdı. Təhlükədə olan Vətənimizi xilas etdi. Xalqın ən çətin vəziyyətində ona əl uzatdı. Onun bir məqsədi var idi: ölkəmizin inkişafını, xalqımızın gələcəyini təmin etmək. O, öz uzaqgörənliyi ilə bu məqsədinə nail oldu. «Təhsil millətin gələcəyidir» – deyən ulu öndərimiz bu sahədə çox çalışmışdır. Onun sayəsində ölkəmizdə təhsil



yüksək səviyyəyə gəlib çatdı. Təhsilə xüsusi diqqət ayrıldı. Məktəblərin sayı çoxaldı. Bu gün bizim üçün məktəbdə və məktəbdənkənar yerlərdə geniş imkanlar yaradılıb. Bu gün istədiyim kimi təhsil alıram. Gələcəkdə də təhsillə bağlı bir sıra planlarım var. Nəinki mənim, sinif yoldaşlarımın, biz məktəblilərin belə planları var. Bu gün biz sərbəst addımlar atmağı öyrənirik, müstəqil fikir söyləyə bilirik. Gələcəyə inamla baxırıq. Kimin sayəsində? Əlbəttə ki, ulu öndərimiz Heydər Əliyevin sayəsində.

Heydər baba! Sənin sayəndə ölkəmiz yaraşıqlı binalarla, yollarla, mədəniyyət sarayları, məktəblərlə gözəlləşdi. Sənin sayəndə ölkəmizdə təhsil, səhiyyə, mədəniyyət, iqtisadiyyat, sənaye inkişaf etdi. «Əsrin müqaviləsi» ilə də öz sözünü dedin. Bununla təbii sərvətlərimiz tanındı. Ölkəmiz tanınmağa, sayılıb-seçilməyə başladı. Digər ölkələr Azərbaycanla əlaqə yaratmağa çalışdılar 1995-ci il 12 noyabr tarixində sənin rəhbərliyin ilə hazırlanmış Konstitusiya layihəsi də ölkəmiz üçün atılan böyük addımlaran biri oldu.

*Əbədi rəhbərsən Azərbaycana*
*Ona həyat verdin, sən həyan durdun.*
*Ölkəni tanıtdın bütün cahana.*
*Onu sən yaratdın, onu sən qurdun.*

Mən tez tez onun bədii-sənədli filmlərinə baxıram. O, xalqla çox səmimi və mehriban rəftar edirdi. Onun xalqla etdiyi söhbətləri, zarafatları da adama xoş gəlirdi. Yurdumuzun bölgələrini qarış-qarış gəzər, dərdi, çətinliyi olan insanlarla yaxından maraqlanar, onlara köməklik göstərərdi. O, uşaqlara da böyük qayğı ilə yanaşırdı. Bütün bunlarla da bu gözəl insan Vətəninə, xalqına bağlı biri olduğunu bir daha sübut edirdi.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var.*
*Heydər xalqım – deyəcək,*
*Xalq Heydər söyləyəcək.*

Heydər Əliyevə hansı tərəfdən baxsan, hansı tərəfdən yanaşsan, onda bir qüsur tapa bilməzsən. Onun hər bir əməli, hərəkəti bizim üçün bir nümunədir və nümunə olaraq da qalacaq. Onun əməlləri, ölkəmiz üçün etdiyi xidmətləri barədə nə qədər yazsaq da, danışsaq da, kifayət eləməz. Bir sözlə demək olar ki, o, Azərbaycanın memarı və əbdi rəmzidir. O, xalqın atası, Ümummilli liderimizdir.

Hər il 10 may tarixində Ulu öndərimizin doğum gününü və «Gül bayramını» böyük sevinclə qeyd edirik. Hər il onun şərəfinə bölgələrimizdə

tədbirlər, inşa müsabiqələri keçirilir. Bu cümləni yazanda Qarabağ yadıma düşdü. Heydər Əliyev torpaqlarımızın sülh yolu ilə geri qayıtarılması üçün ciddi səy göstərir, tədbirlər görürdü. Bu cümləni yazmaqla demək istəyirdim ki, torpaqlarımız geri qaytarılacaq, ulu öndərimizin bu arzusu gerçəkləşəcək. Mən buna səmimi qəlblə inanıram və ümid edirəm ki, onun şərəfinə keçirilən müsabiqələrimiz, tədbirlərimiz nəinki Bakıda və digər bölgələrimizdə, o cümlədən Qarabağda keçiriləcək. İnanıram ki, o günə az qalıb.

Heydər baba! Sən hər zaman bizim qəlbimizdə yaşayır və yaşayacaqsan. Sən heç vaxt unudulmayacaqsan. Başqa cür də ola bilməz. Çünki sənin kimi dahi bir şəxsiyyəti, nümunəvi bir insanı unutmaq olarmı? Heydər baba! Sən indi cismən bizimlə deyilsən amma ruhən bizimləsən. Sənin əmanətin olan Azərbaycan isə ən etibarlı əllərdədir. Buna görə də inanırıq ki, doğma yurdumuz Azərbaycan daha da inkişaf edəcək və daha da irəlilərə gedəcəkdir!





**Əhədova Nərgiz Azər qızı**
***Şamaxı şəhəri, Avropa Liseyinin XI sinif şagirdi***

*Əhsən kamalına, əqlinə əhsən!*
*Bir xalqın oğlusan, demirəm təksən,*
*Sən xalqa endikcə, yüksələcəksən*
*Adi xidmət deyil, xidmətin sənin.*

Deyirlər ki, «tarix böyük ustadın rəsm əsəridir». Azərbaycan tarixində yüzlərcə parlaq şəxsiyyətlər olmuşdur.

Azərbaycan xalqı zaman-zaman böyük dahilər, dünya miqyasında şöhrət tapan fatehlər, şairlər, bəstəkarlar, rəssamlar yetişdirmişdir.

Bu şəxsiyyətlər məmləkətimizin adını tarixin şanlı səhifələrinə yazmışdır.

XX əsr Azərbaycan tarixinin səhifələrini vərəqlədikcə gözümün önündə bir parlaq sima canlanır. O, Azərbaycanın ən müqəddəs varlığı, Azərbaycanın alimi, filosofu, fenomen şəxsiyyəti Heydər Əliyevdir.

Heydər Əliyev haqqında inşa yazmaq mənim üçün həm çətindir, həm də asan.

Çətindir ona görə ki, Ulu Öndərin vətən qarşısında gördüyü işləri kiçik bir inşa yazısına sığışdırmaq mümkün deyil. Asandır ona görə ki, bu dahi şəxsiyyət haqqında yazdığım hər bir kəlmə qəlbimdən axıb gəlir.

Nağıla dönmüş həyat məktəbi, tükənməz bir xəzinə...

Onun haqqında danışmaq çiçəklənən Azərbaycan haqqında danışmaqdır.

Ulu Öndərin Azərbaycan Komminist Partiyasına gəlişi xalqımızın tarixində əsl dönüş nöqtəsi oldu.

*Sənin gəlişinə güldü ürəklər*
*Dindi susdurulan kamanım, tarım*
*Dil açdı qəlblərdə arzu, diləklər*
*Gül-çiçək bitirdi Azərbaycanım!*

Heydər Əliyev Azərbaycanın gələcəyinin təməlini qoyub. Bu təməlin bir sütunu azərbaycançılıq ideyasıdır, digər bir sütunu ölkənin potensialının güclənməsidir. Başqa bir sütunu isə Azərbaycanı dünya iqtisadiyyatına bağlayan Bakı–Tiblisi–Ceyhan neft boru ixrac kəməridir. Bu, Azərbaycanın gələcəyi, firavanlığı, gələcək sabitliyidir.

Heydər Əliyev yeni, müstəqil, dövlətlər içərisində öz dəst-xətti olan Azərbaycan Respublikasını yaratdı. Güclü və qüdrətli vahid ordu yaratdı. Onun sayəsində «Əsrin müqaviləsi» imzalandı. 33 dövləti ətrafına birləşdirən «İpək yolu»nun çəkilməsinə nail oldu. Dünya mədəniyyətində böyük rol oynayan latın qrafikalı əlifbaya keçidi mərhələ-mərhələ başa çatdırdı.

İnamla deyə bilərəm ki, XX əsrin sınaqlarından zəfərlə çıxmış Heydər Əliyev Azərbaycan dövlətçiliyinin dünəni, bu günü, sabahıdır.

Mən hər gün məktəbə gələndə sinif otağından asılmış Ulu Öndərin nurani siması ilə qarşılaşıram. Divardan boylanan tablo sanki nənə deyir: «Öz ana dilini bilməyən insanlar şikəst insanlardır», «Azərbaycanın müstəqilliyi daimidir, əbədidir və dönməzdir».

Bu gün Ulu Öndər cismən aramızda yoxdur. Lakin onun işləri, əməlləri həmişə bizimlədir. Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev dahi rəhbərin yarımçıq qoyduğu işləri şərəflə, vicdanla yerinə yetirir. Bu gün Azərbaycan torpağı bir cənnət guşəsini xatırladır. Bütün şəhərlər, kəndlər abadlaşır. Azərbaycan bir çox tarixi hadisələrin canlı şahidi olur. Bakı bir ev sahibi kimi qapısını gələn qonaqlara açır. Bu sətirləri yazarkən sevimli şairimiz Səməd Vurğunun şeirindən misralar yadıma düşür:

*Bir dön bizim Bakıya bax,*
*İşıqları çıraq-çıraq.*
*Buruqları hayqıraraq*
*Nərə çəkin boz çöllərə,*
*İşıqlanır hər dağ-dərə.*

Bu gün Azərbaycanın üçrəngli bayrağı zirvələrdən dalğalanır. Ölkəmiz gündən-günə inkişaf edir. Cənubi Qafqazın ən güclü dövlətlərindən birinə çevrilən Azərbaycan inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərə əsaslanan bir dövlət olur.

Öz qanunları, himni, bayrağı olan müstəqil Azərbaycanı İlham Əliyev layiqincə inkişaf etdirir. Artıq mədəniyyətimiz, incəsənətimiz dünyada tanınır.

Heydər Əliyev kimi İlham Əliyevin də geniş qəlbində hamıya: görkəmli mədəniyyət, elm xadimlərindən tutmuş, cəmiyyətin ən aşağı zümrələrinin nümayəndələrinədək yer var.



İnşa yazımı yazarkən Zəlimxan Yaqubun Heydər Əliyevə həsr edilmiş «Böyük ömrün dastanı» poemasını vərəqləyirəm. Bir daha əmin oluram ki, Ulu Öndər milyonların nur umduğu göz, kainata sığmayan günəş, gecəsini gündüzünə qata-qata polad iradəsi ilə dəmir sərhədləri aşaraq xalqını sabaha aparan bir rəhbəri, güvənc yeri idi.

Məhz buna görə də söz sənətkarları onu vəsf etməkdən doymurdu və doymurlar da.

*Azərbaycan başdan-başa açılanda çiçək-çiçək,*
*Dünya dadlı, dünya gözəl, dünya şirin görünəcək.*
*Sənin yerin görünəcək!*
*Sənin yerin görünəcək!*

Qarşıdan prezident seçkiləri gəlir. Mən bütün gəncləri Heydər Əliyevin davamçısı İlham Əliyevə səs verməyə, onun ətrafında birləşməyə səsləyirəm.

*Belə olsaq, biz birləşsək,*
*Can deyənə desək can,*
*O vaxt bütöv olacaqdır,*
*Vətənimiz Azərbaycan!*

Bəli, bizim tək bir yolumuz var ki, o da Heydər Əliyev yoludur. Mən inanıram ki, bu yolla irəliləyən Azərbaycan xalqını işıqlı gələcək, xoşbəxt həyat gözləyir.

İnanıram ki, yolumuz tezliklə Şuşa, Kəlbəcər, Ağdam, Qubadlı kimi işğal olunmuş torpaqlara düşəcək.

O, zaman mən Fəxri xiyabana gəlib Heydər Əliyevin məzarını ziyarət edib deyəcəyəm: «Rahat yat, Ulu Öndər».



**_Muxtarova Günel Mustafa qızı_**
*Qax şəhəri, Namiq Allahverdiyev adına 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

9 ildir ki, Azərbaycan Heydər Əliyevsiz onun yolu ilə gedir. Bu yol memar dəqiqliyi ilə Ustad tərəfindən çəkilmişdir. Bu yol bizi, dövlətimizi gələcəyə aparır. Getdiyimiz yol Şuşadan, Laçından, Kəlbəcərdən, Xankəndindən keçir. Bu yol elə bir yoldur ki, bütün Azərbaycanı birləşdirəcək.

9 il əvvəl Bakı onu ağuşuna almışdı. Çox izdihamlar görmüş şəhər yenə də qərənfil yağışına qərq olmuşdu. Vətən öz oğlunu yola salırdı. O, özünün dahi oğlu üçün göz yaşı tökürdü. Bir millət üçün görülən iş, edilən xidmətlər bəşəriyyətə töhvədir. Millətin qəlbində sevgi taxtı quran kəs yalnız o millətin yox, bütün bəşəriyyətindir.

Kiçik məktəbli ömrümdəki uğurlar həyatımın ən sevincli anlarındandır. Doqquzuncu sinifdə oxuyarkən Ətraf Mühitin Mühafizəsi V Beynəlxalq olimpiadasının qalibi oldum. Hər bir uğur qarşımda yeni səhifə açdığı kimi, bu nailiyyət də mənim üçün dəyərli təcrübə oldu. Bizi Bakının görməli yerləri ilə, eləcə də Fəxri xiyabanla tanış etdilər.

Xiyabanla addımlayır və qəlbimin döyüntüsünü hiss edirəm. Qəlbim bu duyğuların çarpışmaları ilə vurur və mən o məzarın qarşısında dururam.

Mən – Azərbaycanın gənc vətəndaşı hələ gələcəyə dair planlar quran, qəlbi millətinə xidmət etmək üçün vuran kiçik bir insan.

O dahi şəxsiyyət, görkəmli dövlət xadimi. Vətəndaşı olduğum müstəqil Azərbaycanın qurucusu.

*Gözlərim görün, dodaqlarım isə pıçıldayırdı.*
*Qoca Şərqdə şərə qarşı duran insan ölərmi?*
*Qəlbi elm ürəyi ilə vuran insan ölərmi?*
*Ürəyini məşəl edib xalqın yolunda,*
*Yeni, gözəl Azərbaycan quran insan ölərmi?*



Onun gözləri isə bizim başımızın üstündən keçib bütün Azərbaycana baxır. Azərbaycan onun canı idi, ayrılamaz parçası idi. Torpağın kiçicik parçasında uyusa da, o bütünlüklə Azərbaycanlıdır.

Mən çox mövzuda inşa yazmışam. Ancaq indi çaşıb qalmışam. Qorxuram ki, yazdıqlarım (onlara qəlbimin atəşini qatsam belə) bu böyük həyat dastanının yanında kiçik görünsün. Qorxuram ki, sözlərim yetməz bu böyük insanı vəsf etməyə.

Hansından başlayım, hansını deyim bilmirəm. Böyük cəsarətini, tükənməz enerjisini, ona can verən həyat eşqindənmi yazım? Nurlu simasını, nüfuzedici baxışlarını, şücaətli təbəssümünü təsvir edim? Böyük bir şəxsiyyət kimi formalaşdıran xarakterik cizgilərdənmi başlayım, bəlkə? Zəngin söz ehtiyatından, dərin zəkasından, mədəniyyətimizə, ədəbiyyatımıza vurğunluğundanmı söhbət açım? Bir insan ömrünə sığmayacaq qədər çox tərəfli fəaliyyət göstərmək üçün gücü hardan tapdığına heyran olduğumumu bildirim?

Axı bunlar mənim onun haqqında hər dəfə sevə-sevə yazarkən ən gözəl sözləri seçib bəzək vurduğum, ilhamıma qanad taxıb böyük söz mülkündə axtarışlar aparıb gözlərimin önündə canlandırdığım sevimli qəhrəmanımla söhbətim üçün yetərli olmaz. Qulaqlarda səslənməli onun hekayəsi...

Mən özümü dərk etdiyim andan anamı – Azərbaycanı sevmişəm. Bu sevgi ilə yaşadım, ondan ayrı olduğum zamanlarda belə, qəlbim onunla oldu. Azərbaycana rəhbərlik etdiyim sovet dönəmində xalqımın rifahı, millətimin tərəqqisi fəaliyyətimin əsas qayəsi oldu. SSRİ-nin rəhbərlərinin biri kimi mühim dövlət vəzifəsinə irəli çəkildim, lakin bir an belə xalqımı yarı yolda qoymadım. Vəzifəmi itirmək qorxusu, təhdidlər heç nə məni bu yoldan döndərə bilmədi. Xalqımı heç zaman satmadım.

Əzmimi, iradəmi, hiss edənlər məni vəzifəmdə uzaqlaşdırıb, doğulduğum torpaqlara göndərdilər. Çətin tarixi dövrdə, mürəkkəb zamanda, siyasət oyunlarının baş alıb getdiyi dövrdə xalqımın yanında oldum. Yenidən Azərbaycana rəhbərlik etdiyim zaman amalım Azərbaycanı işıqlı yola çıxarmaq oldu. 1990-cı il 20 Yanvar hadisələri qəlbimi göynətdi. Nifrətim, qəzəbim dağa döndü. Və mən söz verdim ki, xalqıma qarşı bu soyqırımı törədənlərlə, bu cinayətə ortaq olanlara heç vaxt barışmayacağam. Barışmadım da. Üzlərdən kədəri, qəlblərdəki ağrıları sildim. Şəhid olmuş övladına ağı deyən anaların qəlblərinə məlhəm oldum. «Əsrin müqaviləsi»ni imzalamaqla iqtisadiyyatımıza təkan verdim. İpək yolunu bərpa etdirərək ölkəmin əvvəlki şöhrətini gətirməyə çalışdım. Nə etdimsə xalqım üçün etdim. Onlara güvəndim, onlara arxalandım. Hər zaman nəbzim vətənimin nəbzi ilə vurdu...

Əslində bu bir hekayə deyil ki. Bu romanlara belə sığışmayacaq qədər böyük mətləblərdən xəbər verən nəhəng həyat tarixçəsidir.

Əsrimiz mərd və fədakar insanların əsridir. Söhbət bütün ərzin yükünü öz çiyinlərində daşıyan insandan gedir. Dahi şəxsiyyətlər çox zaman sadə ailələrdə dünyaya göz açırlar. Doğulduğu andan etibarən onların öz yolu olur və onlar bu yolu getməyə bilməzlər. Dəniz bir qum dənəciyindən mirvari yaratdığı kimi, zaman da həmin insanları cilalayır və vaxtı gəldikdə zühur edənlərə nəticədə dünya öz dahisinə qovuşur. Dahilərin ömrü olması onların öz yolu olur. Onlar əbədiyyət üçün yaranırlar. Nəhəng insanlar bəşəriyyət üçün qoyub getdikləri üçün belə deyirlər:

*Özüntək diri bil məni cahanda*
*Mən də canlanaram, sən canlananda.*

Dahiləri bizdən ayıran tarixin hər dəqiqəsi, hər saniyəsi ilə əbədiyyətə qovuşurlar. Heç vaxt unudulmaz, hər zaman xatırlanacaqlar. Çünki insan yaxşıları etdikləri yaxşılıqlarla xatırlayır.

Heydər babamız dünyadan köçərkən Azərbaycanın hər tərəfindən əllər Bakıya uzadılmış, üzlər Bakıya çevrilmişdi. Müstəqil Azərbaycanın qurucusu yeni doğulmuş bu körpə dövləti əmin əllərə tapşıraraq getdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti atasından əxz etdiyi bu dahi keyfiyyətləri təkmiləşdirərək dövrümüzə uyğun tələblərə cavab verəcək kimi dövlət işlərində tətbiq edir.

Bu gün bu gözəl diyarın inkişaf edən hər bir bölgəsində – Yaşa babamız, – deyirik!

Xalqımıza qarşı törədilən milli qırğınları dünyaya tanıtdırdıqca, haqq səsimizə dəstək aldıqca, – Arzuların çin olacaq, – söyləyirik!

Bu millət səni xatırladıqca, sənin yolunda, sənin işığınla gedirsə, – Sən yaşayırsan, – deyə hayqırırıq dünyaya.

Məzarının önündə bütün bu fikirləri düşünüb, xiyabanı seyr edirəm. Bir az aralıda bir məzar görünür. Gözəl qadın, mehriban ana, görkəmli oftolmoloq, akademik Zərifə Əliyevanın məzarı. Bu əbədi yolda da ömür-gün yoldaşını yalnız qoymamış. Hər ikisinin 90 yaşı tamam olur, hər ikisi burada birgə uyuyur.

Babamızın – Heydər Əliyevin sözləri hər zaman bizə dayaq olmuşdur:

– Təhsil millətin gələcəyidir, – dedin oxuyub, savadlı olmaq üçün əlimizdən gələni edirik.



– İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir, – dedin, yaxşı oxuyub, mükəmməl təhsil alıb işləyərək iqtisadiyyatımızı təkmilləşdirmək üçün çalışmalıyıq.

– İstiqlaliyyətin qazanılması nə qədər çətin olsa da, onu qorumaq da əbədi olmalıdır, – demisən.

Sən bu diyarı hər zaman gülüstan kimi görmək istəmisən. Biz də hər il gül fəslində səni güllərlə görməyə gəlirik. Azərbaycanın hər bir guşəsində, ölkənin hüdudlarından kənarda belə səni güllə xatırlayırlar.

Bizdən sonrakı nəsillər də səni yad edəcək. Hər bir problem də üzünü dahi insanlara çevirib, onların təcrübəsindən faydalanacaq. Ümummilli liderimiz, Ulu Öndərimiz tarixin, türk dünyasının nəhəng şəxsiyyətləri sırasında öndədir.



## İsgəndərli Xeyransa Nurlan qızı

**Bakı şəhəri, 264 nömrəli**
**tam orta məktəbin**
**IX sinif şagirdi**

Amalı, məsləki, əqidəsi, ürəyi, canı, qəlbi daim Vətən sevgisi, Vətən eşqi ilə dolu olan bir insandan, şəxsiyyətdən – Heydər Əliyevdən söz açmaq istərdim. Bu böyük şəxsiyyətin həyat və fəaliyyətini qələmə almaq insandan böyük hünər, cəsarət tələb edir. Təbii ki, bu dahinin həyat tarixi cild-cild kitablara sığmaz, lakin mənim də Heydər Əliyevə olan sonsuz hörmət və ehtiramım onun haqqında ürək sözlərimi deməyə imkan verir. Əgər bu ümmandan bir damla götürə bilsəm, özümü xoşbəxt hesab edərəm.

Xalqımızın böyük oğlu, dövrünün böyük və yenilməz lideri, nadir zəka sahibi – Heydər Əliyev. Xalqımızın memarı, müstəqil Azərbaycanın qurucusu, yaradıcısı haqqında şagird ürəyindən gələn kəlamları kağıza köçürmək böyük şərəfdir.

Mənim ümummilli liderim – Heydər Əliyev. Mənim və doqquz milyonluq Azərbaycanın qürur duyduğu – Heydər Əliyev. Adını tarixə qızıl xətlə həkk edən – Heydər Əliyev. Etiraf etməliyəm ki, bu böyük şəsiyyətin 90 illiyinə xatirə olaraq yazı yazmaq şagird qələminin qüdrətinə tab gətirəcək, bilmirəm?

Mən bu gün də deyirəm, hər zaman da qürur hissi ilə deyəcəm ki, Heydər Əliyev kimi oğlu olan bir xalqın övladıyam. Mən qürur duyuram ki, şanlı tarixə malik, həyatı qəhrəmanlıqlarla dolu olan bir xalqın övladıyam. Mən qürur duyuram ki, Dədəmiz Qorqudun bizə əmanət qoyduğu bir torpaqda dünyaya göz açmışam.

Azərbaycan və Heydər Əliyev adı. Bu adlar yalnız və yalnız qoşa çəkilməlidir desəm, yanılmaram. Bu adlar əsrlər ötsə də, tarixdə yaşayacaq desəm, yanılmaram. Bu adlar hər bir azərbaycanlının dilinin əzbəridir desəm, əsla yanılmaram!



*Dəmir işlədikcə par-par parıldar,*
*Palçıq ocaq üstə bişir, daşlaşır.*
*Kimin ki, qəlbində Vətən eşqi var,*
*Vətən torpağında vətəndaşlaşır!*

Şair gözəl demişdir. Qəlbində vətən eşqi olan kəslər vətəndaşlaşır. O böyük şəxsiyyət də Vətənini sevdi, özü də canından artıq sevdi, əzizlədi, özü də balasıtək əzizlədi, qorudu, nəhayət, bütün dünyaya tanıtdı, beynəlxalq arenalarda Azərbaycan adlı bir məmləkətin yeri olduğunu cahana bəyan etdi.

Deyirlər ki, zəkalar tarixdə az-az nəzərə çarpır, seçilir, sevilir. Çox şükürlər tanrıma ki, belə xoşbəxtlik bizlərə nəsib olub. Belə zəkalardan bir də XX əsrdə zamanın Azərbaycana bəxş etdiyi böyük düha siyasət aləminə öz dəst-xəttini həkk edən, ölkəmizi işıqlı, nurlu sabaha aparan ümummilli liderimiz Heydər Əliyev olmuşdu. Mənim Heydər babam Azərbaycan xalqının taleyinə yazılan alın yazısı, bəxt ulduzu olmuşdu.

Ümummilli liderimiz Heydər Əliyevin Vətənimiz Azərbaycana olan sonsuz xidmətləri, Vətənə olan eşqi haqqında yazmaq, sözün düzü, məni ruhlandırır, həyəcanlandırır. Hələ sağlığında dünya azərbaycanlılarına müraciətində bildirmişdir: «Keçmişinlə qürur duy, bu gününlə öyün, gələcəyinlə fəxr et! Hər işini Azərbaycan adı ilə başla!» Bəli, müdrik rəhbərimiz, sözlərinizə qoşularaq deyərdim, keçmişimlə qürur duyuram, bu günümlə öyünürəm, gələcəyimlə fəxr edirəm, edəcəyəm də. Başqa cür ola bilməz! Çünki bu ibrətamiz sözlər məhz sizin dilinizdən səslənibdir.

Heydər Əliyev həmişə milli dəyərlərimizə böyük qiymət vermiş, onu qorumağı gələcək nəsillərə tövsiyə etmişdir. Vətənin hər bir parçasını, dilini, dinini, milli kimliyini qorumağı, yaşatmağı hər bir azərbaycanlının borcu olduğunu bildirmişdir.

Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin Vətən sevgisi, milli təəssübkeşlik, həyat yaradıcılığı haqqında kiçicik söhbət açdımsa, aça bildimsə, özümü əsl azərbaycanlı adlandırıram.

Sonda, əziz həmyaşıdlarım, Vətənimiz Azərbaycanla fəxr edək, qürur, şərəf duyaq, başımızı dik tutaq. Azərbaycan və Heydər Əliyev adlarını qoşa çəkək, dəyərləndirək hər zaman. Səksəkəli, narahat, başıbəlalı Qarabağımızın qulluğunda müsəlləh əsgərtək dayanaq.

Mən fəxr edirəm ki, Azərbaycan adlı bi məmləkətdə yaşayıram və Ulu Öndər Heydər Əliyev kimi dahisi olan bir xalqın övladıyam.



**Novruzova Maya Eldar qızı**
**Bakı şəhəri, 160 nömrəli tam orta məktəbin IX sinif şagirdi**

Если сегодня пройтись по улицам Баку, то можно увидеть хороший контраст между зелеными парками, прохладными скверами, обширной набережной и большими высотными зданиями, можно увидеть, как по всем с детства знакомым местам беспечно прогуливаются дружелюбные, счастливые люди. Если прислушаться к их разговорам, то можно услышать, как кто-то обсуждает планы на жизнь, кто-то делится новым рецептом пирога, кто-то рассказывает про свой университет, а кто-то делится новыми идеями. Разговоры идут на разные темы, но главное то, что все они идут на родном азербайджанском языке. Странно даже представить, что когда-то наше настоящее было лишь заоблачной мечтой каждого азербайджанца. Когда-то все уголки Азербайджана отзывались горькими призывами о помощи. Люди не имели возможности получить работу или образование. В некоторых районах Азербайджана вместо домов жили в землянках. Матери и отцы отпускали своих сыновей, которых война уводила в безызвестном направлении. Люди не боролись за счастье, а боролись за свое существование.

Народу нужен был человек, который защитил бы их, который перевернул бы их жизнь, рассеяв этот страшный кошмар раз и навсегда. И такой человек пришёл. Этим человеком был Гейдар Алиев.

*Когда-то в том далеком 90-м*
*Не побоялся он сказать врагам,*
*Что никому на свете не позволит*
*Унизить свой родной Азербайджан!*



Гейдар Алиев своими пламенными и патриотическими высказываниями вернул всему Азербайджану надежду на то, что страна с поэтической красотой природы, страна, богатая природными ресурсами, может подняться на один уровень с мировыми державами.

Люди получили работу. Своими доходами они обеспечивали свою семью, своим трудом они обеспечивали весь Азербайджан. Гейдар Алиев вернул доблестных сынов своим родителям.

Гейдар Алиев с Милли Меджлисом создали условия для безопасной и достойной жизни азербайджанских граждан. Чувство незащищенности, страха, ненужности исчезло, теперь каждый человек ощущал себя нужным, важным для своей страны.

Гейдар Алиев затронул гендерные проблемы в Азербайджане. Теперь азербайджанские женщины не только на словах, но и в действительности обрели равные с мужчинами права. Именно Гейдар Алиев заложил основу съездов азербайджанских женщин.

Гейдар Алиев понимал всю нерушимую, неподдельную мощь знаний, и поэтому он добился того, что светлые умы Азербайджана получили возможность на достойное образование как на Родине, так и за рубежом. Впоследствии эти светлые умы заставили Азербайджан засиять ярким звездным светом.

В тяжелые времена народ оставил свою культуру. В итоге великие деятели азербайджанской культуры и искусства зачахли в предвзятой и жесткой критике. Талантам не удавалось пробиться сквозь стену непонимания. Но Гейдар Алиев всегда был готов протянуть им руку помощи. Многие известные художники и писатели получили известность благодаря Гейдару Алиеву. Он, будучи национальным героем, был примером для каждого. Народ, видя его заинтересованность в искусстве, тоже попытался найти его для себя.

Вскоре об Азербайджане за рубежом стали говорить как о стране с процветающей экономикой, развивающейся наукой и неповторимым искусством, пропитанным культом азербайджанского народа.

Но не всем быть вечными победителями, и в один день сердце, источавшее столько любви к своему народу, к своей стране, остановилось. У всех в мыслях был страх за свое будущее, ибо умер не просто Президент, а настоящий лидер.

Но смотря на Азербайджан сегодня, оценивая здешний уровень жизни, невольно задумываешься над тем, что в тот день Гейдар Алиев

нас не покинул, что он все еще правит Азербайджанской Республикой, что все еще одаряет свой народ любовью, но только теперь уже в лице Ильхама Алиева!

*Традиции былые продолжая,*
*Верны мы дружбе будем до конца,*
*Ведь нашею страною управляет*
*Достойный сын великого отца!*





## Təhməzli Aytac Arazxan qızı

**Qubadlı rayonu, Rəfael Əlirzayev adına**
**Xocahan kənd tam orta məktəbin**
**IX sinif şagirdi**

İnsan həyatı bir kitaba bənzəyir. Kitabın əsl mətləbi onun qalınlığından, cildindən asılı deyil, bilavasitə onun məzmunundan asılıdır. O insan əsl kamil insandır ki, onun həyatı baş qalarına nümunə ola bilsin, başqa insanlar onun həyatından bəhrələnsinlər.

Mən bu yazımda bir şəxsiyyətin ömür kitabını vərəqləməyə çalışıram. Bu, ulu öndər Heydər Əliyev cənablarıdır.

Dahilər haqqında yazmaq ox çətindir. Xüsusilə, elə bir dahi haqqında ki, onun etdiklərini heç nəyə bənzətmək olmur.

Tanrı onu yaradanda elə bil, Azərbaycana yeni bir günəş parlatdı, elə bir günəş ki, onun hərarəti ilə qalın buzlar əridi, onun işığı ilə qaranlıqlar yox oldu.

*Bir günəşsən – tükənməzdir şəfəqin,*
*İnsanların ürəyini isidir.*
*Bir kitabsan – hər bölümün, vərəqin,*
*Yeni-yeni möcüzələr kəşf edir.*

İllər keçdi... Bu insan adi insanlar kimi yaşamadı. O, xalqının taleyinə, Vətəninin gələcəyinə yana-yana yaşadı. Onun səsi təkcə doğulduğu Naxçıvandan deyil, bütün dünyadan gəldi. Bu səs azadlıq, əməkdaşlıq, müstəqillik səsi idi. Bu səs ümummilli lider, müdrik rəhbər Heydər Əliyevin səsi idi. Kimdir Heydər Əliyev?

*Haqqın, ədalətin carçısıdır o,*
*Xalq ona həyan, o, xalqa həyan.*
*Necə öyünməsin adı ilə Vətən?*
*Odur haq sözünü dünyaya yayan.*

Amal uğrunda ölmək əbədi yaşamaqdır. Vətənin qədrini o kəslər bilər ki, Vətənlə bir yerdə ağlasın, bir yerdə gülsün.

*Vətənçün yaşayan, vətənçün ölən,*
*Səmimi bir insan nə bəxtiyardır!*

Heydər Əliyev də məhz belə şəxsiyyət idi. O, sağlığında xalqın sevimlisi idi, vəfatından sonra isə adı tarixin bəzəyi oldu.

Ulu Öndər hər zaman xalqının azadlığını, müstəqilliyini düşünür və deyirdi: «Öz xalqı üçün yaşayan adam xoşbəxtdir».

Bir tarixi həqiqət danılmazdır. Keçid dövrünü yaşayan dövrlərdə qüvvətli şəxsiyyətə ehtiyac vardır. Hazırda tərəqqi dövrünü yaşayan ölkələri, xalqları, millətləri bu kəşməkəşlərdən Vaşinqtonlar, de Qollar, Bismarklar, Atatürklər çıxarmışlar. Ölkəmizdə bu tarixi missiya Heydər Əliyevə nəsib olmuşdur. Ona görə də bu dahi insan xalqın yaddaşında xilaskar və qurucu dövlət xadimi kimi qalmışdır. O, Vətənin gələcəyini düşünərək deyirdi: «Tanrının mənə bəxş etdiyi bütün əqli və fiziki potensialımı, firti qabiliyyətimi ana yurdum Azərbaycana həsr edəcəyəm».

Ümummilli lider H.Əliyevin ölkəmizə rəhbərlik etdiyi 30 ildən artıq dövrə nəzər yetirsək bunu aydın sezə bilərik.

Vətənimizin başı üstünü qara buludlar aldığı çətin vaxtlarda o, xalqın köməyinə çatdı. Elə buna görə də, bütün xalqımız, dünya azərbaycanlıları ona ümid çırağı, arxa, güvənc yeri kimi baxırdı. Bu sözləri yazarkən yadıma qanlı 20 Yanvar faciəsi düşdü. Mənfur düşmən xalqımızı qanına qəltan etdiyi bir vaxtda, Heydər Əliyev ona qarşı olan təzyiqlərə, təqiblərə baxmayaraq, etiraz səsini ucaltdı. Xalqımız üçün bu, qəhrəmanlığa bərabər bir addım idi. Onun hakimiyyətə yenidən gəlişi, tariximizə «Qurtuluş günü» kimi həkk oldu. O, «Əsrin müqaviləsi»ni imzaladı, atəşkəs əldə olundu...

Bu dahi şəxsiyyətdən danışarkən gözlərimizin önündə müstəqil Azərbaycan canlanır və bir zirvəyə bənzəyir. O zirvənin başında da Heydər Əliyev dayanır.

*Dünyaya gəldiyin uğurlu gündə,*
*Hamını güldürüb, ağlayırdın sən.*
*Elə et, dünyadan bir gün köçəndə,*
*Hamını ağladıb, özün güləsən.*
*Heydər Əliyev və Azərbaycan!*

Bu iki adda olan mənanı dərk etmək üçün, onun böyüklüyünü görmək üçün gərək elə bir zirvədə dayanasan ki, oradan Azərbaycan bütöv görünsün.



Azərbaycan bizə babaların əmanəti, Heydər Əliyev isə bu əmanətin dayağıdır.

Azərbaycan – Odlar yurdudur.

Heydər Əliyev od yurdunun od oğludur.

Böyük rəhbər hər zaman deyirdi: «Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam.»

Hər zaman özümüzdən soruşmalıyıq – biz Vətən üçün nə etmişik? Əgər Heydər Əliyev bu sualı özünə vermişsə, cavabını tarix və xalqımız vermişdi: «Müstəqil Azərbaycanın mövcudluğu üçün Heydər Əliyevə borcluyuq.»

Heydər Əliyev dühası bütün Azərbaycanı işıqlandırırdı. Bu dühanın siyasət aləmini, bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. O, öz inkişaf strategiyasını yaratdı və bu strateji kursu davam etdirməyə layiq davamçın yetişdirdi.

Belə ki, Heydər Əliyev gələcək nəsillərə nümunə ola biləcək bir ömür yaşadı.

Azərbaycan bu gün rəssam fırçasından çıxmış gözəl bir əsərə bənzəyir. Biz çox pərişanıq ki, bu tarixi əsərin müəllifi bizimlə cismən bir sırada dayanmır. Amma onun ideyaları xalqımıza yol göstərən mayak olacaqdır.

*Eylədi xalqına xeyir-duasın,*
*Azad vətən oldu axır nidası.*
*Ağ günlər bəxş edib ulu millətə,*
*Cismən köç eylədi əbədiyyətə...*

Biz çox şadıq ki, bizim də Heydər Əliyev kimi dünyada tanınan, sayılıb-seçilən bir dövlət xadimimiz vardır. O, tarixi yazan və yaradan, onu yönəltməyi bacaran bir şəxsiyyət idi. O, siyasi liderliklə milli liderlik keyfiyyətlərini bir qütbdə birləşdirmişdi. «Liderlərin lideri» adlandırılan bu şəxs hər iki keyfiyyəti ehtiva etməklə bərabər, özünü başqa sahələrdə də lider kimi təsdiq etmişdi.

Bu gün biz Heydər Əliyevin gördüyü işlərlə fəxr edir və onlardan faydalanırıq.

*Heydər baba, vicdanında namus, din,*
*Dosta hörmət, düşməninə qəzəb, kin.*
*Atillanın, Teymur xanın, Babəkin...*
*Qeyrətidir damarında çağlayan,*
*Səni xalqa, xalqı sənə bağlayan.*



## *Xankişiyeva Aynur Mətləb qızı*

***3 nömrəli Bakı Peşə Liseyinin***
***III kurs şagirdi***

*«... Müstəqil yaşamaq taleyinin sahibi olmaq, öz dövlətini qurmaq hər bir xalqın arzusudur...»*

**Heydər Əliyev**

Bu gün Azərbaycan yalnız bir insanın sayəsində inkişafdadır. Həmin insan ki, bugünkü Azərbaycanın qurucusu, memarı, banisi olan Heydər Əliyev.

Heydər Əliyev elə bir dahidir ki, onun yaratdığı, qurduğu dövlət heç vaxt dağılmayacaq. Əgər bir binanın bünövrəsi möhkəm qoyularsa, bu bina heç vaxt dağılmaz, uçmaz. Elə Azərbaycan dövləti kimi. Ulu Öndərimiz Azərbaycanın bünövrəsini elə möhkəm poladdan qoyub ki, bu dövləti dağıtmağa, yıxmağa heç kimin gücü çatmaz. Bir dahinin yaratdığını yıxmaq üçün gərək həmin insanın özü də bir dahi ola. Elə birisi isə yoxdur və heç vaxt da olmayacaq.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Azərbaycanın qədim şəhəri olan Naxçıvanda fəhlə ailəsində anadan olub. O, 1939-cu ildə orta təhsilini bitirdikdən sonra, Naxçıvan Pedoqoji Texnikumuna daxil olur. Buranı bitirdikdən sonra isə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsinə daxil olur. Lakin həmin dövrdə baş verən müharibə hər bir kəsə olduğu kimi, ona da böyük təsir göstərir. Bu səbəbdən də Heydər Əliyev təhsilini tamamlaya bilmir. Bütün bunlara baxmayaraq o, elmli, savadlı, intellektual bur insana çevrilir.

Heydər Əliyev fəhlə ailəsində böyüməsinə rəğmən, dövlət işlərində yüksək vəzifələrə qalxır. Uzaqgörənliyi, qətiyyəti, savadı sayəsində hətta general-mayor rütbəsinə qədər yüksəlir.



Ulu Öndər Azərbaycanda lazımi qədər təhsil almasına baxmayaraq, o, təhsilini davam etdirmək üçün Leninqrada, indiki Sankt-Peterburqa gedir.

Heydər Əliyev xalqdan ilham alırdı və daima xalqın rifahının yüksəldilməsi üçün çalışırdı. O, vəzifə uğrunda deyil, yalnız və yalnız xalqımız, vətənimiz uğrunda mübarizə aparırdı.

Artıq SSRİ rəhbərlərindən biri olmasına baxmayaraq, onun üçün bu vəzifənin əlində qalması deyil, xalqın həyatı və gələcəyi önəmli idi.

Onun xalqımız üçün gördüyü işlər, Heydər Əliyevi xalqın gözündə daha da yüksəyə qaldırmış və artıq o, xalqın qəlbində dərin kök salmışdı.

Heydər Əliyev 1990-cı il yanvar ayının 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə, vəhşiliklərlə əlaqədar olaraq, ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış etmişdi. Bu zaman Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətkarlığın təşkilatçılarını və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, SSRİ-nin yeritdiyi ikiüzlü siyasətə etiraz əlaməti olaraq Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etmişdir. Bununla da Heydər Əliyev vətənə qayıdır. Lakin ilk əvvəl olaraq Naxçıvana deyil, Bakıya gəlir. Daha sonra isə Naxçıvana yaşamağa gedir. Həmin ildə Azərbaycan Respublikası Ali Sovetinə deputat seçilir.

1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirdiyi təsis qurultayında partiyanın sədri seçilir. O, bu vəzifədə çalışarkən də yalnız və yalnız xalqın rifahının yüksəldilməsi üçün çalışırdı.

Bakıda baş verən proseslər xalqımızın səbir kasasını doldurmuşdu. Bu səbəbdən də xalq Heydər Əliyevin Bakıya çağırılmasını tələb edirdi. Lakin həmin dövrdəki dövlət başçıları Heydər Əliyevin Bakıya çağırılmasından ehtiyat edirdilər və onu Bakıya dəvət etmək istəmirdilər. Bütün bunlara baxmayaraq, Heydər Əliyevin Bakıya çağırılması xalqın inadlı təkidi ilə baş tutur. Xalqımız onun gəlişinə çox sevinirdi. Heydər Əliyev Bakıda Milli Məclisin sədri, az sonra isə prezident səlahiyyətlərinin icrasına başladı.

1993-cü il oktyabr ayının 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Prezidentlik etdiyi dövrdə o, bir çox məsələlərin həllinə çalışdı. 1994-cü ildə Heydər Əliyevin qətiyyəti, uzaqgörənliyi, əzmkarlığı nəticəsində Ermənistanla atəşkəs haqqında razılaşma əldə olundu və beş ildən artıq davam edən hərbi əməliyyatlar dayandırıldı. Bu zaman Ermənistanla Azərbaycan arasında gedən münaqişənin sülh yolu ilə həll edilməsinə çalışan Heydər Əliyev buna ilkin şərait yarada bildi.

Heydər Əliyevin gərgin fəaliyyəti dövründə ATƏT-in Minsk qrupu ilə sülh danışıqları aparıldı. Xüsusilə 1996-cı il ATƏT-in Lissabon zirvə görüşü zamanı Heydər Əliyev buna müvəffəq oldu.

1994-cü il sentyabr ayının 20-də imzalanmış «Əsrin müqaviləsi» elə dövrə təsadüf edir di ki, həmin dövrdə Azərbaycan iqtisadi, siyasi, informasiya blokadası şəraitində yaşayırdı. Bu dövrdə Azərbaycan haqqında dünyada təsəvvür ya yox idi, ya da respublikamız, dövlətimiz haqqında mənfi rəy, düşüncə formalaşmışdı.

Heydər Əliyev dünyanın yeddi inkişaf etmiş dövlətini təmsil edən 11 neft şirkəti ilə «Əsrin müqaviləsi»ni imzalamağa müvəffəq oldu. Bu müqavilə Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi. Çünki bu müqailə sayəsində respublikamız daxilində sabitlik bərqərar olundu.

1995-ci il noyabr ayının 12-də Azərbaycan Respublikasının ilk konstitusuyası ümumxalq səsverməsi ilə qəbul olundu. Həmin ildə ilk parlament seçkiləri keçirildi. Xalqın yüksək fəallığı ilə keçən seçkilərdə 76,1% səs toplayaraq Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyev təkcə xalqımız tərəfindən deyil, digər dövlətlərin xalqları, dövlət başçıları tərəfindən də sevilirdi.

Azərbaycanın üçüncü prezidenti olan Heydər Əliyev, 2003-cü ildə keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürməsinə baxmayaraq, səhhətində yaranan problemlərə görə namizədliyini geri götürür.

Azərbaycanın görkəmli şəxsiyyəti, ictimai xadimi, dövlət başçısı olan Heydər Əliyev 2003-cü il dekabr ayının 12-də Amerika Birləşmiş Ştatlarının Klivlend klinikasında vəfat etmişdir.

*Əklillər yasa batdı, tər çiçəklər ağladı,*
*Üzüldü kimsəsizlər, sındı təklər ağladı.*
*Baxdı bu günə sarı, gələcəklər ağladı.*
*Ağsaqqalllar sızladı, ağbirçəklər ağladı.*
*«Heydər köçdü» deyəndə.*

Ulu Öndərin ölüm xəbəri xalqı dərindən sarsıtdı. Digər ölkələrin dövlət başçıları Azərbaycan xalqına bu qara xəbərə görə başsağlığı, səbir dilədilər.

Corc Buş, Vladimir Putin kimi dövlət başçıları Heydər Əliyevin qəlbi təmiz, ürəyiaçıq, xalqına bağlı bir insan, ən əsası da qüdrətli dövlət başçısı olduğunu qeyd etdilər.

Heydər Əliyevin həyatda olmamasına baxmayraq, onun seçdiyi siyasi, iqtisadi, tərəqqi yolunu İlham Heydər oğlu Əliyev davam etdirir.



Heydər Əliyev hakimiyyəti dövründə xalqımız üçün gördüyü işlər, onu daha da yüksəltdi. Buna görə də xalqımız onu çox sevir, ona ümid bəsləyir və çox inanırdı. Bu səbəblərə görə xalq onun doğum gününü hər il «Gül Bayramı» kimi qeyd edir.

Heydər Əliyevin yarımçıq qalan işlərini prezidentimiz İlham Əliyev böyük məharətlə, uğurla davam etdirir.

Heydər Əlirza oğlu Əliyev daima bizim qəlbimizdə yaşayıb və yaşayacaqdır. Həqiqətən də, o, bir düha idi. Çətin ki, bəşəriyyət onun kimi bir dahi bəxş edə bilə. Ağsaqqal, fenomen, uzaqgörən, şəxsiyyət, dahi Heydər Əliyev, sənin yerin görünür və görünəcək.

*Tariximin kökündə də, zatında da, əslində də,*
*Bu dünyaya təzə gələn neçə-neçə nəsildə də,*
*Hər yüz ilin başında da, hər ilin 4 fəslində də,*
*Hər il sənin ad günündə, may günündə,*
*Sənin bizə ulu nemət, İlhamının pay günündə,*
*Azərbaycan başdan-başa, açılanda çiçək-çiçək,*
*Dünya dadlı, dünya gözəl, dünya şirin görünəcək.*
*Sənin yerin görünəcək!*



## Əzizova Aytac Rafael qızı

***Salyan şəhəri, Nizami Gəncəvi adına 2 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

Heydər Əliyev! Bu ad hamını düşündürdüyü kimi, məni də düşündürməyə vadar edir. Məni düşündürməyə vadar edən ailədə və oxuduğum məktəbdə bu insana qarşı böyük məhəbbətin olması idi. Mən dəfələrlə Heydər Əliyev haqqında inşalar yazmışam. Rayon üzrə yazdığım inşalarda II və III yerləri tutmuşam. İndi də qürur hissi keçirirəm ki, dahi bir insan, Ulu Öndər Heydər Əliyevin ömür yolu haqqında inşa yazıram. Bu insan dünyaya sığmayan dahi bir şəxsiyyətdir. Sözlərin ən yaxşısını, dəqiqini və dəyərlisini seçib yazmalıyam. Çünki Heydər Əliyev Azərbaycan xalqının dəyərlisidir.Ulu Öndərin gördüyü işləri təkcə bir inşaya sığdırmaq yetməz. Onun haqqında nə qədər yazsaq, azdır. Ona olan məhəbbətimi, hörmət və ehtiramımı, sevgimi necə ifadə edəcəyimi bilmirəm. Onun haqqında yazmaq həm çətin, həm də şərəflidir.

Heydər Əliyevin dövlət müstəqilliyinin inkişafı, möhkəmlənməsi yolunda gördüyü işlər əvəzedilməzdir. Azərbaycan deyiləndə bir an gözümüzün önünə məhz bu şəxsiyyət gəlir. Ona görə ki, 1990-cı il İyirmi yanvar hadisələrində Azərbaycanın haqq səsini məhz Heydər Əliyev bütün dünyaya çatdırmışdır.

Heydər Əliyev ilk dəfə 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlmişdir. Vəzifədə olarkən xalqın sevgisini qazanır.

1991-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 31 dekabr Dünya azərbaycanlılarının Həmrəyliyi Günü kimi, Naxçıvanda təsbit olunmuşdur. Xalq hər il bu günü təntənəli şəkildə qeyd edir.

1993-cü il iyun ayının 15-də Ümummilli lider Azərbaycan xalqının təkidi ilə ikinci dəfə Azərbaycan Respublikasında hakimiyyətə qayıtdı. Bu qayıdışın nəticəsidir ki, biz hər il Milli Qurtuluş Gününü qeyd edirik.



1993-cü il iyun ayının 24-də Heydər Əliyevə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri verildi. Ümummilli Lider müxtəlif silahlı dəstələrlə mübarizə apararaq Azərbaycanı parçalanmağa qoymayıb, dünya xəritəsindən silmək istəyən qüvvələrin qarşısını qətiyyətlə ala bilmişdi.

1993-cü il oktyabrın 3-də Heydər Əliyev xalqın səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyev vətənimizin ən dəyərli sərvəti olan bütün dünyada «Qara qızıl» adı ilə tanınan neft sahəsində mühüm işlər həyata keçirmişdi. Buna nümunə olaraq «Əsrin müqaviləsi» 1994-cü ildə imzalanmışdı. Bu müqavilə Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynayırdı.

*Azərbaycan oğluyam,*
*Odu Allah sanmışam.*

Heydər Əliyev təhsilə qayğı ilə yanaşıb. Bu gün təhsilimizdə çox nəzərə çarpan irəliləyişlər var. Ulu Öndərin sayəsində bu gün bütün şagirdlər məktəblərdəki pulsuz dərsliklərlə təhsil alırlar. Məktəblər müasir tələblərə cavab verir. Bütün bunlar Heydər Əliyevin təhsilə olan qayğısından, hörmət və ehtiramından irəli gəlir.

Bu gün hər bir Azərbaycan gənci tarixi keçmişimizə hörmət, gələcəyə inam ruhunda tərbiyə alır və böyüyür. Bunların hamısı Heydər Əliyevin rəhbər bir şəxsiyyət kimi gördüyü işlərin bəhrəsidir.

Heydər Əliyev bütün danyada dahi bir şəxsiyyət kimi tanınır. Hətta Moskvanın Ostankino televiziyasının məşhur «Pole çudes» verlişində oyunun final mərhələsində finala çıxmış qadına aparıcı sual verir ki, «Dünyanın ən məşhur siyasətçisi kimdir?» O da heç düşünmədən cavab verdi ki, «Əlbəttə ki, Heydər Əliyev!» Qadının verdiyi cavab düz idi. Mən qürur hissi keçirdim ki, Heydər Əliyev nəinki Azərbaycanda, hətta bütün dünyada dahi bir şəxsiyyət kimi tanınır.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var.*
*Heydər: «Xalqım» – deyəcək,*
*Xalq: «Heydər» – söyləyəcək.*

Bütün dünya Heydər Əliyevin gördüyü işlərin nə qədər xalqı üçün faydalı olduğunu başa düşür. Heydər Əliyevi heç kəslə müqayisə etmək, heç kəsə bənzətmək olmaz. Çünki o, yeganə şəxsiyyətdir ki, Azərbaycanı parçalanıb yox olmaqdan qurtardı. İndi də onun davamçısı İlham Heydər oğlu Əliyevdir. O da atası kimi böyük nailiyyətlər əldə edib.

Mən istərdim ki, Heydər babam bu gün də bizimlə bu dövrdə yaşasın və Azərbaycanın get-gedə dünya ölkələrinin birincisinə çevrilməsini görsün.

Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişdi. Mən hələ balaca idim. I sinifdə oxuyurdum. Televizorda Heydər Əliyevin vəfat etdiyini söylədilər. Bir an qəlbimi kədər hissi bürüdü. Mən hələ də buna inana bilmirdim. Çünki həmişə ən böyük arzum olmuşdu ki, nə vaxsa Heydər Əliyev ilə görüşüm. Bu görüş mənim üçün ən şərəfli bir hadisə olardı. Mən inanıram ki, Ulu öndər gördüyü işlərə, qocalara, körpələrə, uşaqlara, qadınlara, imkansızlara etdiyi yardımlara görə yeri həmişə cənnətdir.

Heydər Əliyev xalqın, mənim, ailəmin, ətrafımdakı insanların, məktəbimizdəki müəllim və şagird kollektivinin qəlbində yaşayır və həmişə də yaşayacaq. Biz hər il məktəbimizdə Ulu Öndərin ad gününü müxtəlif tədbirlərlə qeyd edirik. Anım günündə sinfə daxil olan şəxs kimi dərs zəngi vurulanda bir dəqiqə sükut ilə onu anırıq. Sonra isə Salyan rayonunda Heydər Əliyev adına parkda ucaldılmış abidənin önünə gül dəstələri qoyuruq. Mən bilirəm ki, öncə Heydər Əliyev, sonra isə onun davamçısı İlham Əliyev olmasaydı, müstəqil Azərbaycan Respublikası olmazdı.

Biz düşmən əsarəti altında olan torpaqlarımızı geri alacağıq. Lazım olsa, vətən, torpaq, xalq üçün canımızdan keçməyə hazırıq.

Heydər Əliyev hamımızın yaddaşında silinməz bir iz buraxıb. Hətta onun sözləri belə dərin məna kəsb edir. «Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Bu gün biz bu sözləri eşitdikdə və ya dedikdə gözümüzün önünə Ulu Öndər gəlir. O, həmişə vətənini canından çox sevib. Mən bu gün 10-cu sinifdə oxuyuram. Lakin Heydər Əliyevə qarşı olan məhəbbətim, hörmət və ehtiramım bitib tükənmir. Heydər Əliyev vətən yolunda ürəyini şamtək əritmişdir.

Heydər Əliyevin bir gün televiziyada dediyi söz mənə çox təsir etmişdi. O, bu sözləri demişdi: «Həyatda şəxsi rifahla ictimai borcu, şərəflə şərəfsizliyi hər kəs özü seçir». Heydər Əliyev öz şərəfli yolunu seçib. Mən bu sözdən nəticə çıxarıb öz şərəfli yolumu seçmişəm. Mən oxuyub müəllimə olmaq istəyirəm. Axı Heydər Əliyev özü də müəllimləri uca tutub.

Əziz babam, sənin göz bəbəyim kimi qoruduğun Azərbaycan Respublikasında yaşayıram. Mən həmişə qürur hissi keçirirəm ki, Azərbaycan vətəndaşıyam. Sənin gördüyün hər bir işlər bu gün bizim rahat həyat tərzi keçirməyimizə səbəb olub. Heydər Əliyevin sayəsində biz bu gün də bütün dünyada tanınırıq.



Heydər Əliyev qürurlu, sərbəst nitqə sahib bir şəxsiyyətdir. Mən hər dəfə Heydər Əliyevin ömür yolunu izləyəndə ona qarşı olan məhəbbətim getdikcə artır.

Mən sənin haqqında inşa yazdığıma görə çox sevinirəm, əziz babam. Sənin haqqında çox sözlər, çox fikirlər yazmaq istərdim. Amma sənin haqqında nə qədər irihəcmli inşa yazsaq bəs etməz.

Nə yaxşı ki, sənin yaşadığın vətəndə yaşayıram.

Nə yaxşı ki, sənin qurub yaratdığın Azərbaycanda yaşayıram.

Mən səninlə fəxr edirəm, əziz babam. Həmişə də fəxr edəcəyəm.

Yaşasın Azərbaycan xalqının Heydər Əliyevi və İlham Əliyevi! Yaşasın Azərbaycan!..

*Heydər dahi, Heydər rəhbər,*
*İlham onun sərkərdəsi.*
*İndi onda təcəssümdür,*
*Onun sözü, onun səsi.*
*Heydər bizim əsrimizin,*
*Ən sonuncu möcüzəsi.*



### *Novruzlu Qəndab Nizaməddin qızı*

*Ağdaş şəhəri, Səməd Vurğun adına I nömrəli tam orta məktəbin XI sinif şagirdi*

Hər il olduğu kimi, xalqımız bu il də may ayında Ümummilli lider Heydər Əliyevin ad gününü qeyd etməyə hazırlaşır. Lakin builki yubiley əvvəlkilərdən tamamilə fərqlənir. Çünki bu il onun anadan olmasının 90-cı ildönümü keçiriləcək.

Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə hələ Ulu Öndərin sağlığında ad günü münasibətilə təşkil edilən «Gül bayramı» sonrakı illərdə ənənə halını alaraq xalqımızın Ulu Öndərə olan sevgisinin göstəricisinə çevrilmişdir. Heydər Əliyevin 90 illiyi ilə əlaqədar keçiriləcək tədbirlər planında, şübhəsiz ki, «Gül bayramı» önəmli yerlərdən birini tutur. Axı Bakımızın gül-çiçəyə bürünən park və xiyabanları doğma Azərbaycanı gülüstana çevirmək istəyən, arzusu ilə yaşayan Ulu Öndərin arzularının gerçəkləşməsindən xəbər verir...

Bu günlərdə ürəyində vətən sevgisi olan hər bir Azərbaycan vətəndaşı «Vətənçün yaşayan, Vətənçün ölən, xalqıyla ağlayan, xalqıyla gülən. (M.Müşfiq)» bu böyük şəxsiyyətin – Heydər Əliyevin 90 illik yubileyinə öz töhfəsini verməyə çalışır. Mən də bir on birinci sinif şagirdi kimi bu yubileyə əliboş gəlmək istəmirəm. Heydər Əliyev həyatının müxtəlif səhifələrini dilimizin ən gözəl sözləri ilə qələmə alaraq bir söz çələngi düzəltmək və bu çələngi Ulu Öndərə ərmağan etmək istəyirəm.

Yəqin ki, «Heydər Əliyev kimdir?» sualına çoxları onun tərcümeyi-halının müxtəlif məqamlarını sadalamaqla kifayətlənəcək, DTK-nın sədr müavini, sədri, Azərbaycan KPMK-nın I katibi, SSRİ Nazirlər Soveti Sədrinin I müavini və Azərbaycan Respublikasının Prezidenti olduğunu söyləyəcəklər.

Mənim xəyallarımın isə öz Heydər Əliyevi var. Qəlbimdə öz yeri olan Heydər babam var. O Heydər baba ki, qaməti qüdrətdən səngərli, qalalı dağlara bənzər.



Gözlərini Xəzərə bənzədirəm. Bəzən coşqun, dalğalı, fırtınalı qəzəbli, bəzən həlim, sakit Xəzərə. O gözlər haqsızlığı, düşməni boğmağa hazır, dostu isə öz qoynuna alıb uyudan, dincəldən Xəzərdir sanki.

Səsində dağ çaylarının gurultusu, ürək açan şırıltısı var. Mənim Heydər babam Azərbaycanın bir parçası, yeriyən Azərbaycan idi.

Mənim Heydər babam azadlığı əlindən alınaraq bağlı qapılar arxasında saçlarından asılmış Azərbaycan adlı gözəli xilas edərək azadlığa qovuşduran Ağ Atlı Oğlandır. Ağ Atlı Oğlanın xilas etdiyi gözəlim Azərbaycan 10 il Heydər Əliyevlə keçirdiyi ayları, illəri yada salaq, Heydər Əliyevsiz olan son 10 ilə nəzər salaq:

1923-cü ilin çiçəkli bir may günündə ayın 10-da qədim Naxçıvanda dünyaya göz açdı. O gün Əlirza kişiyə gözaydınlığı verənlər bilmirdilər ki, beşiyində mışıl-mışıl yatan körpə təkcə atasının, anasının deyil, bütün xalqın, Azərbaycanın ümid yeri olacaq, təkcə bir ailənin yox, böyük bi xalqın odunu-ocağını qoruyaraq sönməyə qoymayacaq. 1923-cü ildə doğulan Heydər Əliyev 1993-cü ildə müstəqil Azərbaycanın sayca 3-cü prezidenti seçiləndə 70 yaşı vardı.

Axı bir çox şərq xalqlarında olduğu kimi, Azərbaycanda da «3» və «7» rəqəmləri müqəddəs sayılır. Xeyirin şərə qalib gəldiyi nağıllarımızda göydən üç almanın düşməsilə bitir. Bir də «Atalar üçdən deyib» məsəli var dilimizdə.

Heydər Əliyevin hakimiyyətə 2-ci gəlişi əvvəlkindən fərqli idi. 1969-cu ildə o vaxtkı Sovet İttifaqı rəhbərləri Heydər Əliyevi Azərbaycan KPMK-nın I katibi vəzifəsinə təyin edəndə onu tanıyanları, necə deyərlər, barmaqla saymaq mümkün idi.

1993-cü ildə isə artıq onu az qala bütün dünya tanıyırdı və bu dəfə o, vəzifəyə təyin edilməmişdi, xalqın istək və tələbiylə Naxçıvandan Bakıya gəlmiş, ölkəyə rəhbərlik etmək missiyasını boynuna götürmüşdü.

O günlərdə Azərbaycan ölüm yatağında həyatla ölüm arasında çırpınan, ancaq yaşamaq ümidini itirməyib ölümə məhkum xəstəni xatırladırdı. Mənfur qonşularımızla döyüşlərdə Şuşanı, Kəlbəcəri, Laçını itirən, Xocalı faciəsini yaşayan, 1 milyondan artıq qaçqın və köçkünü olan Azərbaycanı daxildəki separatçı qüvvələr də parçalamaq istəyirdi. Ölkədə bir xaos yaşanır, anarxiya baş alıb gedirdi. Həmişə xalqa arxalanan, güvənən Heydər Əliyev qısa bir müddətdə daxildəki çəkişmələrə son qoydu, seperatçı qüvvələri zərərsizləşdirdi. Yeni yaranan Milli Orduda bir sıra islahatlar apararaq xalqın dövlətə, orduya olan inamını özünə qaytardı, işğal olunmuş ərazilərimizin bir hissəsi azad olundu. 1994-cü ildə atəşkəs elan olundu. Bu

atəşkəs ölkənin, demək olar ki, tamamilə dağılmış, məhv edilmiş sənayesinin yenidən dirçəlməsinə zəmin yaratdı.

BMT-nin, ATƏT-in mötəbər kürsülərində çıxış edən Heydər Əliyev Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırdı.

Apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycanı informasiya blokadasından çıxartdı.

Sənayenin dirçəlməsi, iqtisadi böhranın aradan qalxması üçün ilk növbədə təbii resurslardan istifadə etməyin vacib olduğunu bildiyi üçün 1994-cü ildə bir sıra xarici ölkələrin neft şirkətləri ilə «Əsrin müqaviləsi»ni imzalamağa nail oldu. Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün «Bakı–Novorosiysk» və «Bakı–Supsa» neft kəmərləri işə salındı. «Bakı–Tbilisi–Ceyhan» neft kəmərinin inşasına başlandı.

1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi.

Bütün bu uğurlar asan başa gəlmirdi. Hər bir müqavilə, hər bir layihə, hər bir uğur onlarla yuxusuz gecənin, gərgin əməyin məhsulu idi. Qəzetlərin birində oxumuşdum ki , 1993-cü ildən 1998-ci il prezident seçkisinə qədər Heydər Əliyev bir gün də olsun istirahət etməyib. Görəsən, yaşı 70-i keçmiş bir adamda bu bitməz-tükənməz enerji haradan idi. Ona bu gücü, qüvvəni verən hansı mənbə, hansı qaynaq idi? Cavabı isə düşündüyümüzdən də sadədir. Heydər Əliyev bu gücü xalqından alırdı, ona bu enerjini verən vətənə olan sevgisidir.

Son nəfəsinə qədər xalqa xidmət edən Heydər Əliyev 10 il ərzində yeni bir Azərbaycan yaratmağa nail oldu. Son damla qanı qalana qədər döyüşən, səngəri tərk etməyən, ordusunu döyüşə səsləyən bir komandan, bir sərkərdə kimi şəhid oldu.

Dünyanın siyasət okeanında batmaqda olan «Azərbaycan» adlı gəmini sualtı qayalıqlardan, görünən və görünməyən xətalardan qoruyaraq sahilə sağ-salamat çıxara bildi.

Artıq on ildir ki, bu böyük insan aramızda yoxdur. Lakin bizə müstəqilliyi əbədi, daimi olan bir Azərbaycanı miras qoyub getdi. Canından da artıq sevdiyi Azərbaycanı etibarlı əllərə tapşırıb gözlərini əbədi olaraq yumdu.

Artıq on ildir ki, Azərbaycanı Heydər Əliyev məktəbinin layiqli davamçısı, Heydər Əliyev siyasətini uğurla davam etdirən möhtərəm prezidentimiz İlham Əliyev cənabları idarə edir. Son on ildə Azərbaycan günbəgün inkişaf edərək qabaqcıl ölkələrdən birinə çevrilib. Son on ildə gündən-günə gözəlləşən Bakımız bir çox mötəbər yarış və müsabiqələrə, beynəlxalq simpozium və konfranslara ev sahibliyi edib. Heydər Əliyev siyasətini uğurla



davam etdirən İlham Əliyev cənabları Azərbaycanı regionda ən sabit bir dövlət kimi tanıda bilib. Apardığı işğalçı siyasətə görə regionun bütün beynəlxalq layihələrindən Ermənistanı kənarlaşdırmağı bacaran İlham Əliyev Azərbaycanı regionun qabaqcıl dövləti kimi tanıdıb.

2010-cu ildən başlayaraq «Bakı–Tbilisi–Ərzurum» qaz kəmərinin vasitəsilə Azəbaycan qardaş Türkiyəni təbii qazla təmin edir. «Nabuko» və «TANAP» qaz kəmərləri layihələri üzrə danışıqlar uğurla davam etdirilir.

«Bakı–Tbilisi–Qars» dəmiryol xəttinin istifadəyə verilməsinə isə az qalıb.

Ölkənin daxilindəki vəziyyəti də göz qabağındadır. Əhalinin maddi-rifah halını yüksəltmək üçün aparılan işlər öz bəhrəsini verməyə başlayıb. Yeni açılan iş yerləri, sahibkarlara verilən kreditlər həm xalq, həm də kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına səbəb olur. Əhalinin Sovet dövründən banklarda qalan əmanətlərinin qaytarılması ölkənin iqtisadi cəhətdən nə qədər güclənməsindən xəbər verir.

«Regionların inkişafı üzrə Dövlət Proqramı»na əsasən bölgələrdə bu gün də quruculuq, abadlıq işləri davam etdirilir və Azərbaycan tanınmaz dərəcədə müsbətə doğru dəyişir.

*Bəzənib başdan-başa şəhərləri, kəndləri,*
*Cənnət görmək istəyən Azərbaycana gəlsin!*

S.Rüstəm

Bütün bunlara görə hamımız bir nəfərə borcluyuq. Anadan olmasının 90 illiyinə hazırlaşdığımız, Böyük şəxsiyyət, Ulu Öndər, Ümummilli Lider Heydər Əliyevə!



## *Əkbərli Nigar İlham qızı*

***Yardımlı şəhəri, Mirzə Fətəli Axundov adına 1 nömrəli tam orta məktəbin X sinif şagirdi***

İnsan bəşəriyyətin ən böyük möcüzəsidir. Allah bütün gözəl xüsusiyyətləri insanda yaratmışdır. Yaratdığı hər bir şeyi biz insanların ixtiyarına vermişdir. Bütün bunları qorumaq isə bizim yaxşı və pis əməllərimizdən asılıdır. Əməli saleh olan insanlar həmişə fərqlənir, seçilir, həm də sevilir. Yaxşılıq heç vaxt ölmür. İnsan dünyadan köçsə belə, onun etdiyi yaxşılıqlar heç vaxt unudulmur. Yəni yaxşılıqlar dünyadan köçmür. Yaxşılıqları unudulmayan insanlar bizimlə olmasa da, qəlbimizdə elə bir yerdə dayanır, elə bir yerdə taxt qurur ki, bu taxtdan heç vaxt enmirlər. Heydər babam da bizim qəlbimizdədir. Ölümü ilə ölümsüzlüyə ucaldı. Qəlbimizdə yaşadı.Babamın şərəfli ömür yoluna gəlin birlikdə nəzər salaq. Nəzər saldığımız adi ömür yolu deyil. Keşməkeşliyi, çətinliyi ilə bu ömür yolu digərlərindən fərqlənir. Bəhs etdiyim, «babam» deyə müraciət etdiyim o şəxs kimdir? Kimdir O? O, Heydərdir – Heydər Əliyev. Kimdir Heydər Əliyev? Mən onu necə tanıyıram? Mən onun Ulu Öndər deyəndə ululuğunu, ölməz Lider deyəndə, həqiqətən, ölməzliyini anladım. Anladım ki, tarixin silinməz şəxsiyyətidir. Ulu Öndərə qarşı hər kəsin məhəbbəti var idi. İndi də var. Olacaq da. O, Azərbaycanı sonsuz məhəbbətlə sevirdi. Bir zamanlar qara buludların dövrəsində olan Azərbaycanı aydınlığa çıxardı. O təkcə bizi yox, dünyanı özünə heyran qoydu. Müasir Azərbaycanın memarı! O, bir əsər yazdı – adı «Azərbaycan». O səsləyəndə səsimizi duyan, əlimizi uzatdıqda tutan, güldüyümüzə gülən, ağladığımıza bizimlə birlikdə ağlayan, dərdimizə ortaq, sevincimizə şərik olan bir şəxs idi. Azərbaycanı dünyaya, dünyanı Azərbaycana gətirən Lider! Parladıqca al şəfəqləri yayılan, böyüdükcə böyüyən, heç vaxt sönməyən Azərbaycanın yenilməz oğlu! Fəth edilə bilinməyən bir zirvə olan Azərbaycanın – gözəl vətənimizin əbədi Lideri. Bax elə O Şəxs vətəni böyük məhəbbətlə sevirdi.



1923-cü il 10 may. Adi günlərdən biri. Lakin bizim üçün adi olan bu gündə Naxçıvanda bir ailənin sevinci hədsiz idi. Çünki bir övlad dünyaya gəlmişdi. Adını Heydər qoydular. Axı kim bilə bilərdi ki, bir gün gələcək bu Şəxs tarixdə tarix yazacaq. Tozlu səhifələri silib-süpürüb yeni bir tarix yazacaq. Yazdığı bu tarix onunla birlikdə yaşadı və yaşayacaq da!

*Ən kəsərli silah insan yumruğudur,*
*Ən şəfalı dərman insan ülfətidir.*
*Ən əbədi bulud insan möhnətidir.*
*Ən qüdrətli muzey insan məzarıdır.*
*Ən əbədi sevinc insan sevigisidir.*

1993-cü il! Heydər Əliyevin Azərbaycan hakimiyyətinə ikinci dəfə gəlişi. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra yenə də yağlı bir tikə kimi düşmənin gözünə batmağa başladı. Səbəbi vətənimizin əlverişli iqlim şəraitinə, hər cür sərvətə, naz-nemətə sahib olmasıdır. Sözsüz ki, bu düşmənlərimizi narahat etməyə bilməzdi.

Heydər Əliyev hakimiyyətə gəldiyi gündən Azərbaycan tarixində bir işıq yandı. Bu işıq Heydərlə böyüdü, müstəqil Azərbaycan yarandı. Mən özümü çox xoşbəxt hiss edirəm, çünki azərbaycanlıyam. Həqiqətən, azərbaycanlı olduğumuz üçün fəxr etməyə dəyər. Mən Azərbaycanda yaşayıram. Yaşadığım bu vətən sanki cənnətdən bir parçadır. Çox gözəl bir yerdir. Bu gözəlliyin bünövrəsini Heydər Əliyev qoyub. Biz isə prezidentimizin İlham Əliyevlə bu bünövrənin birlikdə davamçılarıyıq. Davam etdidiyimiz, addımladığımız bu yol – Heydər yoludur. Tarixin silinməz Şəxsiyyəti hər zaman hər kəsin sevimlisi olaraq qalacaq. Çünki O da sonsuz məhəbbətlə sevirdi cənnət guşəsi olan Azərbaycanı. Onun sevgisi Azərbaycan xalqının qəlbində dərin iz buraxmışdır.

Bir zamanlar xəstəliyə tutulmuş Azərbaycanın şəfası Heydər Əliyevin əllərində idi. Bu şəfalı əllər Azərbaycan xalqının dərdinin dərmanı oldu. Ona görə də xalqımızın fədakar oğlu ilə – Heydər Əliyevlə fəxr edirik!

Heydər Əliyev həm uşaqların, həm də böyüklərin sevimlisi idi. Onu təkcə Azərbaycanda yox, bütün dünyada tanıdılar. Unutmayaq ki, Azərbaycan bir zaman babalarımızın at belində qılınc çaldığı igidlər oylağıdır. İgidlik vətənimə yaraşır. Necə ki Heydər Əliyevə yaraşdığı kimi.

Əziz Baba! Azərbaycanı – sənin qoyduğun əmanətini sənin kimi qorumaq üçün əlimizdən gələni edəcəyik. Bunun üçün bizə arxa, dayaq olan İlhamımız var. Keçmişi sənlə qurduq. Gələcəyə İlhamla gedirik.

Memarı olduğu bu vətənin övladlarıyıq biz. O, hər zaman qəlblərdə yaşayacaqdır. Bizimlə birlikdə olacaqdır. Ölüm Onu bizdən ayırdı, amma sevgisi daim qəlbimizdədir. Bu müstəqilliyi biz Onunla qazandıq. Canımızın bahasına olsa belə, qoruyub gələcək nəsillərə verəcəyik. Biz axı «Heydər sözü » vermişik.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər: «Xalqım!» – deyəcək,*
*Xalq: «Heydər!» – söyləyəcək.*

Bəli, inşamın əvvəlində qeyd etdiyim kimi: «Ən əbədi sevgi insan sevgisidir!» Hədsiz insan sevgisi ilə silahlanan Heydər babam insanlara sevinc bəxş etməkdən zövq alırdı. Onun zəkası hər insanın ziyasını aydınlatmağa kömək edirdi. Mən xoşbəxtəm! Çünki Azərbaycanda doğulmuşam və azərbaycanlıyam. Mən xoşbəxtəm! Çünki Heydər Əliyevin memarı olduğu Azərbaycanda yaşayıram. Mən onun kimi ulu və əzəmətli bir insanı tanıdığım üçün xoşbəxtəm. Ölməz Lider gül çələngli Azərbaycan bəxş etdi bizlərə. Mən xoşbəxtəm ki, o çələngin çiçəklərindən ətir, təravət və zövq alıram. O çiçəklərin solmaması üçün mən də səy və bacarığımdan istifadə edəcəyimə söz verirəm.

Əziz babam! Qəbrin nurla dolsun. Nə qədər ki, düşmən tapdağı altında inləyən Şuşa, Laçın, Xocalı, Kəlbəcər... var, sənin də ruhun rahat olmayacaq. Əlimizdən zorla alınmış torpaqların geri qaytarılmasında lazım gələrsə, canımdan da keçməyə hazıram. Lakin sənin ruhun qarşısında söz verirəm ki, oxumaqla bir azərbaycanlı kimi çiçəklənən Azərbaycan naminə addımlayacağam!









### *Talıbzadə Azər Əlinaz oğlu*

*Masallı rayonu, «Dəfinə» məktəb-liseyin*
*IX sinif şagirdi*

2003-cü ilin yazı idi. Onda cəmi beş yaşım olsa da, valideynlərimlə birlikdə televiziya ekranlarından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin hərbi məktəbin kursantları qarşısında çıxışına qulaq asırdım. Tam dərinliyi ilə dərk etməsəm də, o müdrik insanın dilindən eşitdiyim ilahi kəlmələr məni ovsunlamışdı. Birdən hər şey nağıllardakı kimi oldu. Çox güclü ağrılar Prezidentin çıxışını davam etdirməsinə imkan verməsə də, o, yenidən tribunaya qayıtdı və vətəninin gələcək qoruyucularına, gənclərə, bütün Azərbaycanlılara sonuncu mərdlik, iradə və qeyrət dərsini tamamladı. Mən o anda hiss etdim və anladım ki, şahidi olduğum o anlar ilk və heç vaxt unuda bilməyəcəyim həyat dərsim, vətən sevgi, mərdlik və mətanət impulsum olacaqdır. Mən Prezidentin hərəkətlərindən anladım ki, vətən və dövlət uğrunda həyatını belə qurban vermək şərəf imiş.

...Mən ilk dərsimi xalqımızın Ümummilli Liderindən aldım... Ona görə inanıram ki, bütün zamanların ən böyük fenomenal şəxsiyyəti, XX əsri tarixə çiyinlərində aparmış bir insan haqqında fikirlərimi uğurla sıralaya biləcəyəm və onun özü kimi də müqəddəs ruhu pasibanım olacaq və məni düzgün yoldan sapındırmayacaqdır.

...Hər elmin isbatsız qəbul olunan ilkin anlayışları var, bu elmin «onurğa sütunu» rolunu oynayan və tərifə ehtiyacı olmayan aksioması var.

Heydər Əliyev «İnsanşünaslıq» adlanan elmin ilkin və əsas anlayışlarına, onun əməlləri, arzuları, ideyaları vətənimizin təntənəsi naminə, tarixin möhkəm sütunlarına çevrilmişdir.

Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, o, tərif adlanan dar və məhdud çərçivələrə sığışmaz. Bu dahi şəxsiyyətə etalon ancaq özü ola

bilər. Onun əməlləri, həyata keçirdiyi ideyaları əsl uzaqgörənlik mücəssəməsidir. Bunları başa düşmək hər bir bəşər övladına, özü də qısa bir zaman kəsiyində nəsib ola biləcək iş deyil.

Kitablardan oxumuşam ki, bu cəsarətli insan hələ cavan yaşlarından «ağı ağdan» belə ayırmağı bacarırmış. Dövlət Təhlükəsizlik orqanlarında işləyərkən də, vətəni, xalqı, milləti üçün bir çox işlər görmüş, bu orqanlara milli kadrların cəlb edilməsinə, milli ruhun nüfuz etməsinə nail olmuşdur.

Polad iradəli bir insan olan Prezidentimiz Heydər Əliyev həm də elinə, obasına, milli adət-ənənələrimizə, valideynlərinə bağlı olan bir övlad olmuşdur. Ömür-gün yoldaşı, həqiqi ana, fədakar qadın Zərifə xanımla qurduğu ailə əsl məhəbbət simvolu kimi Azərbaycan gəncliyinə nümunə ola bilər.

Ümummilli Liderin Azərbaycanımızın qədim tarixinə, dini etiqadlara, müqəddəs yerlərə həqiqi münasibəti ağsaqqala, ağbirçəyə hörməti əvəzolunmaz tərbiyə məktəbidir. Heydər Əliyev rəhbərlik etdiyi illər ərzində gördüyü nəhəng layihələr onun uzaqgörənliyindən xəbər verir. Azərbaycan təhsili inkişaf etdi. Ali məktəblərin sayı artırıldı. Bu gün də bizə hava və su kimi lazım olan hərbi məktəblər təsis edildi, minlərlə Azərbaycanlı gənci təhsil almaq üçün xarici dövlətlərə göndərildi. Bu cür istedad, bacarıq, tükənməz enerji qarşısında Kreml sarayının darvazaları, taybatay açıldı. Heydər Əliyevi rəhbərlər arasında parlaq ulduz kimi görürdülər.

... «Ötən əsrin doxsanıncı illərinin əvvəlləri, yenicə müstəqillik qazanmış Azərbaycan, ölkəni idarə edə bilməyən «vəzifə eşqbazlığına» çıxan başıpozuq bəylərin anarxiya meydanına çevirdiyi məmləkət.

Xarici təcavüzün və daxili irticanın caynaqlarında inləyən məmləkət. Xanlıqlara, əyalətlərə bölünmək, hətta dünyanın siyasi xəritəsindən silinmək qorxusu...

... Nə yaxşı ki, tanrı payımız, möhtərəm prezidentimiz Heydər Əliyev gəldi və bizi həlli mümkünsüz görünən fəlakətlərdən qurtardı. Ölkədə sabitlik yarandı. Atəşkəş əldə edildi və ölkənin ən böyük neft kontraktı imzalandı. Sayıldıq, seçildik, yerimiz möhkəmləndi. İndi isə dünyanın istehsal səviyyəsinə görə aparıcı dövlətlər arasında ön sıralarda olduğumuza görə qazandığımız zəfərlərə görə biz bu müqəddəs insana borcluyuq.

Biz Heydər Əliyevə borcluyuq ki, sakit, xoşbəxt, firavan yaşayırıq.

Biz Heydər Əliyevə borcluyuq, çünki hər cür infrastruktura malik olan, gözəl təlim, tədris vəsaitləri ilə həmin olunan yeni, yaraşıqlı məktəblərdə təhsil alırıq.



Biz Heydər Əliyevə borcluyuq, çünki gələcəyimiz var. Qurub yaratmaq, kamil mütəxəssislər kimi yetişmək üçün hər cür imkanlarımız var.

Biz Heydər Əliyevə borcluyuq, çünki sabaha inamlı addımlayırıq. Möhkəm, mətin, inamlı ölkəmiz var.

Biz Heydər Əliyevə borcluyuq, çünki özünün yaratdığı şah əsərinə – Azərbaycana layiqli davamçı, özünün layiqli varisi olan İlham Əliyev cənablarını yetişdirdi.

... Mən hər dəfə atamla Bakıya gələndə bu dahi şəxsiyyətin məzarını ziyarət edirəm, ruhuna dualar oxuyuram. İlk müəllimim kimi ona behiştin gözəlliklərini arzu edirəm. Həm də əmin edirəm ki, Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həyata pərvazlanacaq biz gənclər vətənimizə, xalqımıza və Heydər Əliyev ənənələrinə sahib çıxacağıq. Və bu amallara sədaqətimizi əsirgəməyəcəyik. Allah Heydər Əliyevə rəhmət eləsin.



## *Musayeva Jalə Firdovsi qızı*

***Xızı şəhəri, Bəhruz Ağaverdiyev adına 7 nömrəli tam orta məktəbin X sinif şagirdi***

Mən X sinif şagirdiyəm. Azərbaycanlıyam. Ümummilli lider Heydər Əliyevin nəsillərə nümunə olan həyat və fəaliyyəti haqqında yazmaq istədiyim fikirlərim var. Düşünürəm. Nədən başlayım?

Tədbirlərin birində sevə-sevə əzbərlədiyim hərarətli çıxışım yadıma düşdü. Heç unudarammı? İştirakçılar məni ayaq üstə, qürur hissi ilə alqışlamışdılar.

Bu çıxış müdrik babam Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında dediyi sözlərdən ibarət idi:

«Biz azərbaycanlıyıq. Hamımızın vətəni Azərbaycandır. Bizi bir xalq, bir millət, bir insan olaraq bu torpaq ərsəyə gətirmişdir. Buna görə də bizim hər birimizin canında azərbaycançılıq ruhu yaşayır. Bizi bir-birimizə bağlayan, daha sıx birləşməyə sövq edən də azərbaycançılıq ruhu, azərbaycançılıq ideyası olmalıdır. Hər bir dövlətin milli ideologiyası olur. Müstəqil Azərbaycan Respublikasının milli ideologiyası da azərbaycançılıq ideologiyasıdır».

Bəli, mən inşamı yazmağa hazıram. Oxuyub-öyrəndiklərimin, eşidib-gördüklərimin, dərk etdiklərimin hamısı beynimdən süzülür, mirvari kimi sapa düzülür. Bütün gələcək həyatımı bəzəyəcək qiymətli inci, mirvari kimi.

Babamız Heydər Əliyevin keşməkeşli həyatı zəngin bioqrafiyası bütöv bir salnamədir. Bu salnamənin 33 illik bir dövrü əhatə edən səhifələri onun şərəfli və mənalı ömrünün unudulmaz anlarıdır.

Erkən gənclik çağları müharibə illərinə və müharibədən sonrakı bərpa dövrünə təsadüf edən Heydər Əliyev mətin, iradəli, qətiyyətli və qanunsevər insan kimi formalaşmışdır. Sonralar olduqca ciddi dövlət orqanlarındakı fəaliyyəti, bu orqanlarda hökm sürən ciddi qayda-qanunlar onun xarakterində elə cizgilər yaratmışdır ki, bunlarsız dövlət sükanını idarə etmək qeyri-mümkün idi.



Yenicə Azərbaycan KP MK-ya I katib seçilmiş Heydər Əliyev 1969-cu il avqust plenumunda məruzə edir. Bu məruzə onun bütün xarakterik cizgilərini – qətiyyət və prinsipiallığını üzə çıxarır. Onun rəhbərlik metodu qısa zamanda öz qiymətini alır və nəhəng sovetlər birliyini idarə edən yüksək vəzifəli rəhbərlərdən biri olur.

1991–1993-cü illər olduqca ağır və ziddiyyətli idi. 1988-ci ildən davam edən Qarabağ müharibəsindəki uğursuzluqlar, həmçinin dövlət strukturlarının iflic vəziyyətə düşməsi ictimai həyata öz mənfi təsirini göstərmişdir. Əhalidə gələcəyə inamsızlıq yaranmışdı. Azərbaycan tufanlı dənizdə azmış gəmini xatırladırdı.

Onu bu bəladan xalqın müdrik oğlu Heydər Əliyev xilas edə bilərdi. Bu hökmün arxasında ağır sınaqlardan çıxmış inam dururdu. Bununla da, tarixin yeni bir mərhələsi başlandı.

Hadisələr müsbət istiqamətə doğru yönəldi. Vətəndaş müharibəsi təhlükəsi aradan qalxdı. Əhalidə xoşbəxt gələcəyə inam yarandı.

1994-cü il minlərlə insan həyatını məhv edən qanlı müharibədə atəşkəs elan olundu. Ölkədə siyasi sabitlik yarandı, iqtisadi yüksəliş, ordu quruculuğu ön plana çəkildi. Əvvəlki hakimiyyətdə qətiyyən hiss olunmayan xarici siyasət yeni mərhələyə qədəm qoydu.

Azərbaycanın Heydər Əliyev dövrü tariximizin ən şanlı səhifəsidir. SSRİ-ni sarsıdan azadlıq hərəkatımız ona görə qüdrətli idi ki, onun Heydər Əliyev uzaqgörənliyi ilə əsası qoyulmuş özünəqayıdış bünövrəsi var idi.

Daxili düşmənlər əzildikdən və xarici düşmənlərin arzusu gözündə qaldıqdan sonra Heydər Əliyev sonrakı fəaliyyətini müstəqilliyimizin qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, cəmiyyətdə demokratiya və insan hüquqlarının bərqərar olunmasına sərf etdi.

Azərbaycanda rəhbər vəzifədə işlədiyi illərdə, hətta Kremldə yüksək vəzifə tutduğu dövrlərdə belə Heydər Əliyev öz məramına xilaf çıxmadı. Bütün təcrübəsini, bilik və bacarığını vətəni Azərbaycanı dünyaya tanıtmaq üçün sərf etdi. Tanıtdı da.

1994-cü ilin mayında Azərbaycan təhsil sahəsinin qarşısında yeni üfüqlər açıldı. Təhsil sistemi yenilənməyə başladı. Müstəqil düşüncə qabiliyyətinə malik, milli, mənəvi, əxlaqı dəyərləri özündə birləşdirən, əsl vətənpərvərlər yetişdirmək təhsil sisteminin əsas qayəsinə çevrildi. Azərbaycan prezidentinin sərəncam və göstərişinə uyğun olaraq «Təhsil Sahəsində İslahatın Dövlət Proqramı» hazırlandı.

Müəllifi Heydər Əliyev olan əsas qanunumuz – Azərbaycan Respublikasının Konstitusiyası hər bir vətəndaşa icbari orta təhsil hüququ verib. İstedadlı uşaqların aşkara çıxarılması və onlara dövlət qayğısının göstərilməsi təsbit edilmiş hüquqlarımızdandır.

«Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında» prezidentin fərmanı, gənc istedadların «Qızıl Kitabı»nın yaradılması, prezidentin xüsusi təqaüdünün təsis edilməsi təhsilimizin sabahına verilən çox böyük qiymətdir.

Müstəqil Azərbaycan Respublikasının hər bir gənci öz xalqının tarixini yaxşı bilməlidir. Tariximizlə yanaşı, həm də zəngin ədəbiyyatımız var. Hər bir azərbaycanlı öz ədəbiyyatı, öz dili ilə fəxr etməlidir. Çünki dil millətin milliliyinin əsasıdır. Buna görə də hər bir gənc öz doğma dilini, Azərbaycan dilini bilməli və bu dili sevdirməyi bacarmalıdır.

Müdrik dövlət xadimi, qayğıkeş ata Heydər Əliyevin keçdiyi həyat yoluna nəzər saldıqda bunların bir insan ömrünə sığdığına şübhə edirsən. Bunların hamısı onun fenomen iş qabiliyyəti, enerjisi, məsuliyyəti, tələbkarlığı və ən əsası öz vətəninə olan sonsuz məhəbbəti ilə izah olunur.

Respublikamızın bugünki səviyyəsi göstərir ki, Heydər Əliyev ölkənin gələcək perspektivlərini müəyyən edərkən qətiyyən yanılmayıb. Əksinə, zaman onun gəldiyi qənaətin doğru olduğunu saatbasaat, dəqiqəbədəqiqə təsdiqləyir.

*Nə tarix unudur, nə də ki, bəşər,*
*Həqiqət qələbə çalır dünyada*
*El-oba qayğısı çəkirsə əyər,*
*Atalar əbədi qalır dünyada.*





## Əmiraslanova Ulduz Hüseyn qızı

**Gəncə şəhəri, 17 nömrəli tam orta məktəbin X sinif şagirdi**

Azərbaycan! Adı «Odlar yurdu» olub, özü əsrlərlə qatı zülmətdə ömür sürən diyarım. Sən mənim odumsan-atəşimsən! Əsrlər boyu düşmənləri yandırıb-yaxan, dünyanı ziyası ilə işıqlandıran Günəşimsən! Sənə nə deyim, axı mənim deyəcəyim sözlərdən qat-qat yüksəklərdə dayanırsan. Çıraq götürüb keçmişinə nəzər salsaq, çox işıqlar bizə dərin tarixindən xəbər verər. Tarixindən öyrənirik ki, adın da özün kimi başıbəlalı olub. Manna, Albaniya, Atropatena, Aderbayqan və ən nəhayət, Azərbaycan formasında formalaşan, təşəkkül tapan ölkəm mənim. Damarlarında türk qanı axan hər bir kəs səni dərin məhəbbətlə sevib qorumalıdır.

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən.*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan?*
*Azərbaycan! Azərbaycan!*

Təbiət də səndən öz qüdrətini əsirgəməyib. Belə bir rəvayət dolaşmaqdadır ki, bir gün Allah yer kürəsini millətlər arasında bölüşdürür. Hər bir millət tələskənlik edib öz ərazilərini alır. Əvvəllər də, indinin özündə də səbirli və təmkinli olan xalqımız gecdən-gec Böyük Yaradanın hüzuruna gedir və yaşamaq üçün məskən istəyir. Azərbaycan xalqının səbrini, dözümlülüyünü və qılığını xoşlayan Pərvərdigar yanına gələn elçiyə buyurur ki, mən özüm üçün bir cənnət guşə saxlamışam, sizin milləti xoşladığım üçün onun bir hissəsini sizə halal edirəm, gedin orada yaşayın, ora sizin olsun.

Allahın bizə bəxş etdiyi cənnət guşə Azərbaycandır!

Qarabağın Topxanası, Göygölün füsunkar gözəlliyi, Naxçıvanın göz yaşı kimi dumduru bulaqları, misin, qızılın, yeraltı, yerüstü sərvətlərin sənə həm ucalıq, həm şöhrət, həm də düşmən qazandırıb. Qanı, canı namus, qeyrət dolu Cavanşirlərimiz, Qoç Koroğlularımız qəsbkarlara qarşı mübarizə aparmış, doğma yurdunu, xalqını qorumuşdur.

*Can qurban etməyin vaxtı çatıbsa,*
*Səndən hansı namərd əsirgəyər can?*
*Qoyuram başımı, ayaqlarına*
*Ey ana torpağım! Ey Azərbaycan!*

Azərbaycanımızın bir neçə məşhur dövlət xadimləri olmuşdur. Bunlar VII yüzillikdə Alban dövlətinin hökmdarı babamız Cavanşiri, XII yüzillikdə Atabəylər dövlətinin hökmdarı Şəmsəddin Eldəgizi, Azərbaycanda öz dövlətini yaratmış, Şərqdə və Qərbdə böyük nüfuza malik olan Uzun Həsəni, Azərbaycanın yaradıcısı olan Şah İsmayıl Xətayini, Səfəvilər dövlətini qüdrətləndirən və qırx iki il hakimiyyətdə olan Şah Abbası, XX əsrin görkəmli dövlət xadimi, ağsaqqalı, ümummilli liderimiz Heydər Əliyevi onun layiqli davamçısı prezidentimiz İlham Əliyevi misal göstərə bilərik.

«Gülüstan», «Türkmənçay» müqavilələrinin imzalanması nəticəsində iki yerə bölünən, doğma diyarım, səni Şimali, Cənubi Azərbaycana böldülər. Bu, təkcə torpağın yarıya bölünməsi deyil, həm də bir ürəyin iki yerə parçalanmasıdır. Bu iki dövlətdən biri öz müstəqilliyini, azdalığını bərpa etsə də, o biri hissəsi hələ də qəfəsdə quş kimi çırpınır, öz azadlığını, qəlbindəki acını, niskili yox etmək üçün çalışır.

Naxçıvan...1923-cü il...10 may...Bu gün günəş şüalarının ətrafa daha çox yayıldığı bahar nəfəsinin, bahar təravətinin daha çox hiss olunduğu bir gün idi. Bu gün Naxçıvanda Azərbaycanın azadlığını bərpa edəcək, dünyada tanıdacaq bir körpənin dünyaya göz açdığı gündür. Bu körpə bizə tanrı payı idi.

Biz Heydər Əliyevin mövqeyini Türk Cümhuriyyətinin yaradıcısı olan Mustafa Kamal Atatürk ilə müqayisə edə bilərik. Əsrimizin əvvəllərində Türkiyədə baş verən böhran zamanı Mustafa Kamal Atatürk xalqının imdadına çatdı. Azərbaycanda isə baş verə biləcək vətəndaş müharibələrinin, siyasi-sosial problemlərin qarşısını məhz Heydər Əliyev aldı.

1993-cü il 23 oktyabr. Tarixdə yeni səhifə açılmışdı. Heydər Əliyev hakimiyyət başına gəlmişdi. O öz andiçmə nitqində belə demişdir: «Mən bu məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, ilk növbədə, Azərbaycan xalqının qüdrətinə, zəkasına inanıram, güvənirəm. Sizləri əmin edirəm ki, mənə bağlı olan ümidlərinizi boşa çıxarmayacam. And içirəm ki, bu vəzifədən ali məqsədlər, uğurlu gələcək üçün istifadə edəcəyəm. Söz verirəm ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək, uğurlara imza atacağam».



Deyirlər ki, insana adı Allah verir. Bu, doğrudan da, belədir. Bunun ən bariz nümunəsi isə Heydər Əliyevdir. Heydər sözü birinci mənada «aslan, şir», ikinci mənada «igid, cəsur» deməkdir.

Heydər Əliyevin ən böyük uğurlarından biri də Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. O, bu qurultay sayəsində dünyanın müxtəlif yerlərində yaşayan 50 milyona qədər azərbaycanlını bir yerə toplamağa müvəffəq olmuşdur.

«Qurani-Kərim» – də də yazılmışdır ki, təmənnasız, qarşılıqsız yaxşılıq etmək savab işdir. Heydər Əliyev də belə insan idi. Hər zaman xalqını düşünər, xalqına heç bir qarşılıq gözləmədən əlindən gələni edərdi.

2003-cü il 12 dekabr... Soyuq bir qış gecəsi idi. Qara xəbər yayılmışdı ətrafa. Buludlar göyün üzündə sipər olmuşdu. Elə bil ki, heç bir zaman günəş görünməyəcəkdi. Səsli-küylü Bakı küçələri insan selinə tab gətirmirdi. Bu gün Azərbaycan üçün acı bir gün idi. Xalqını, millətini sevən, onlara can yandıran Dahi Şəxsiyyət – Heydər Əliyev artıq dünyasını dəyişmişdi.

Onun ölüm xəbəri bütün Azərbaycanı sarsıtdı. İnsanların ürəyinə çalın-çarpaz dağ çəkdi, ürəkləri yaraladı. Ürəklərdə olan ümidləri, arzuları özü ilə apardı.

Üzərindən neçə illər keçməsinə baxmayaraq, o, hələ də bizim qəlbimizdə yaşayır. Onun adı həmişə uca tutulur. İndi isə onun o şərəfli, məsuliyyətli vəzifəsini oğlu İlham Əliyev icra edir. Xalq ona güvənir, siyasətini bəyənir və həyata keçməsində hər cür köməklik göstərir.

*Sən Heydər atanın sadiq oğlusan*
*Odur ki, millətə möhkəm bağlısan.*
*Daim ədalətli, daim haqlısan*
*Tərəqqi, inkişaf dayağı İlham!*

*Zaman bizi imtahana çəksə də.*
*Heydərsizlik qəlblərə yer etsə də.*
*Ayrılıqdan xalq göz yaşı töksə də*
*Heydər oğlu İlhamımız var indi.*

Bu gün Azərbaycanın sinəsində ulu «Heydər dağı» ucalır.

*Ulu Heydər dağıdır ucalır, göy üzünə*
*Nə bir şimşək, nə tufan yıxa bilməz o dağı*
*Hər zaman inanmışdır o dediyi sözünə*
*Demişdir: «Ucalacaq Azərbaycan torpağı!»*



## Hacızadə Rafət Mərasim oğlu

*Astara rayonu, Nail Həsənov adına*
*Kijəbə qəsəbə tam orta məktəbin*
*IX sinif şagirdi*

*Xalqa arxalanan xalqsevərlərin,*
*Özü də xalq üçün arxaya döndü.*
*Xalqa arxasını çevirənlərin,*
*Arxası həmişə yerdə göründü.*

B.Vahabzadə

Dünyada sərkərdələr, siyasi liderlər çox olub, lakin onlar haqqında söylənən fikirlər heç də həmişə birmənalı olmayıb. Öz dövründə və özündən sonra bu və ya digər güclü və zəif xüsusiyyətlərinə görə müzakirə olunub və ya onların böyük əksəriyyəti inqilablarla, çevrilişlərlə, qan tökməklə hakimiyyətə yiyələniblər. Mənim qəhrəmanım isə tam əksinə. Həm sağlığında dünya siyasi elitasını heyrətdə qoydu, həm ölümündən sonra. Planetimizin görkəmli siyasi liderləri onun dühasını qısqanclıqla da olsa etiraf etməyə məcbur oldular. Həmin siyasi liderlərindən fərqli olaraq, hakimiyyətə gəlişi ilə qan tökülməsinə son qoydu. Xalqın tələbi ilə hakimiyyətə gəldi. Bu qəhrəman mənim müdrik Azərbaycan xalqımın dahi, xilaskar oğlu Heydər Əliyevdir. Şair yaxşı deyib:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

90 illik yubileyinə hazırlaşırıq əziz babamızın. Mübariz, qəlbi vətən sevgisi, azadlıq eşqi ilə 80 il döyünmüş Ulu Öndərin ən böyük amalı milli birliyə, əbədi azadlığa nail olmaq idi. Tanrı bu xoş məramı, müqəddəs əməli qiymətləndirərək onu arzusuna çatdırdı.



Azərbaycanın azadlığına, həqiqi müstəqilliyinə nail oldu. Onun əbədi olacağına inandı. Bizi də buna inandırdı. Onun içindəki böyük azadlıq eşqini görən Henri Kissencer demişdir: «Mən görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik zəkasına inanıram, bilirəm ki, onun rəhbərliyi ilə Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirəcək, əbədi edəcəkdir».

Bəli, böyük qürur hissi ilə deyə bilərik ki, bu, belədir. Bütün sahələrdə qazanılan uğurlar – siyasi, iqtisadi, mədəni həyatımızdakı nailiyyətlərimiz buna bariz nümunədir.

Mən bəzən xəyalımda Heydər Əliyevi müxtəlif peşə, sənət sahibləri ilə müqayisə edirəm. Ona görə xəyalımda deyirəm ki, o, hər kəlməsi min kitaba sığmayan ən böyük yazıçı, «Azərbaycan» adlı bir əsəri olan ən böyük rəssam, xalqına yol göstərən, öndə gedən, nəsillərə nümunə olan ən böyük müəllimdir. Mən deyərdim ki, bugünkü gənc nəslin bütün sahələrdə istinad nöqtəsi məhz Heydər Əliyevdir. Çünki o, həmişə öz ana dilimizi, milli ənənələrimizi, doğma vətənimizi qorumağı bizə tövsiyə edirdi. Heydər Əliyev dühasının işığı, həmişə ona qısqanclıqla baxan xain gözləri qamaşdırmış, kor etmişdir. Vaxtilə «Əsrin müqaviləsi»ni, Bakı-Tbilis-Ceyhan və bunun kimi bir neçə layihəni şübhə altına salmaq istəyənlər, bu gün artıq çiçəklənən, gündən-günə inkişaf edən, dünyanın iqtisadi yüksəlişinə görə lider dövlətlərindən birinə çevrilmiş Azərbaycanımızın uğurlarını gördükdə vicdan əzabı çəkmirlərmi? Nə yaxşı ki, Azərbaycan xalqı yaxşını pisdən, düzü əyridən ayıra bilir. Yaxşı bir deyim var: «xalq təmənnasız dostdur». Bəli, təmənnasız dost olan, qədirbilən Azərbaycan xalqı onu dünyaya tanıdan doğma övladını zirvələrə ucaltdı. Bu qarşılıqlı sədaqət sonralar «Xalq Heydər», «Heydər, Xalq» vəhdətinə çevrildi. Artıq dünyada «Azərbaycan», – dedikdə Heydər Əliyev, «Heydər Əliyev» – dedikdə Azərbaycan başa düşülür.

Ömrünün qalan hissəsini də xalqa bağışlayan, Azərbaycanın dünyaya bir günəş kimi doğacağına varlığı kimi inanan dahi rəhbər onun gələcəyini görür və etibarlı əllərdə daha da çiçəklənəcəyinə inanırdı. Bu gün sevimli prezidentimiz İlham Əliyevlə qazanılan hər bir uğurumuzda Onun əməyi var.

Deyirlər ki, əgər insandan sonra yaxşı əməl qalırsa və kimsə bu əməldən faydalanırsa, deməli, həmin insan sağdır. Bu baxımdan mən Heydər Əliyevi xoşbəxt insanlardan sayıram. Çünki adını daşıyan fond – Heydər Əliyev Fondu dünyada çoxsaylı humanitar layihələr həyata keçirir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyevin həmişəyaşarlığı təmin edilir.

Tanrının ona bəxş etdiyi ömrü özü üçün deyil, özündən çox istədiyi xalqı üçün yaşadı. Sinəsini hər an yolunda sipər etməyə hazır idi. Əgər belə olmasaydı, daxili və xarici düşmənlərin at oynatdığı bir dövrdə xalqın

önündə getməzdi. Həyatı üçün mövcud olan real təhlükəyə baxmayaraq, mübarizədən usanmadı. Azərbaycanın yeni, parlaq, şərəfli səhifələrini yazdı. Bir sözlə, tarix içində tarix yaratdı. Milli Qurtuluş, Dövlət bayrağı, Dünya Azərbaycanlılarının Həmrəylik günləri müasir tariximizin Ulu Öndər tərəfindən yazılmış qızıl səhifələrdir.

Mən özüm şəxsən Ulu Öndəri görməmişəm, lakin onun bir neçə dəfə qəsəbəmizdə olmasını, əhali ilə səmimi söhbət etməsini valideynlərimdən eşitmişdim. Həmişə də onlara xoşbəxt insan kimi baxardım. Gün gəldi bu xoşbəxtlik mənə də nəsib oldu. 2012-ci ildə sevimli prezidentimiz İlham Əliyev də dahi rəhbərin şanlı ənənəsinə sadiq qalaraq qəsəbəmizə gəldi. Onu uzaqdan belə olsa görmək sevincini mən də yaşadım. Həmin gün mənim yaddaşımda əbədi olaraq qaldı.

Bu gün qəsəbəmizdə Ulu Öndərin adını daşıyacaq gözəl bir park inşa olunur. Səbirsizliklə parkın və orada Ulu Öndərin ucaldılacaq abidəsinin açılışını gözləyirəm. Bu abidə hələ neçə-neçə məktəblinin ilham mənbəyi olacaq. Onun şux qaməti, alovlu baxışları insanda cəsarət, özünəinam hissi oyadır. Böyüklüyə bax özündən sonra abidəsi ilə belə mübarizlik, qəhrəmanlıq nümunəsi kimi ürəkləri fəth edir.

Şimal sərhədimizdə Ulu Öndərin adını daşıyan bir zirvə var. Bu zirvənin ucalığı vətənimi yad, soyuq küləklərdən qoruyur. Bu mənada Ulu Öndərin abidəsini əli silahlı, daim keşikdə sayıq dayanan, vətənini qorumaq üçün gözünü belə qırpmayan bir əsgərə bənzədirəm.

*Dağların başında durur bu zirvə,*
*Yurdumun qaşında durur bu zirvə,*
*Dünyanın başında durur bu zirvə,*
*Zəfər zirvəsidir, hünər zirvəsi!*
*Dünyanın ən ali Heydər zirvəsi!*

Eşq olsun sənə, Ümummilli Liderimiz!

Azərbaycan var olduqca sən də yaşayacaqsan!

İnanıram ki, nümunə olduğun Azərbaycanın müasir gəncliyi sevimli prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı azad edəcək, narahat ruhunu sevindirəcəkdir. Ulu Öndərim, əmin ola bilərsən!

*Memarı olduğun Azərbaycanın,*
*Nə qədər adı var, yaşayacaqsan.*
*İnsana nur verən Ulu Tanrının,*
*Sönməz günəşitək parlayacaqsan.*





## *İbrahimli Ləman Əhliman qızı*

***Ucar şəhəri, 5 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

Mən hər gün məktəbə gedəndə məktəbin dəhlizində Ulu Öndərin möhtəşəm portreti ilə qarşılaşıram. Bir an gözlərim qarşısında onun uca dağı xatırladan duruşu canlanır. Qulaqlarımda hökmlü, lakin həzin musiqini xatırladan səsi cingildəyir və mən böyük qürur hissi duyuram. Nə yaxşı ki, mən də azərbaycanlıyam və mənim Vətənim Ulu Öndərimizin Vətəni olan Odlar yurdu – günəşli Azərbaycandır.

Hər bir insan Allahın ona verdiyi ömrü mənalı yaşamalı və çalışmalıdır ki, özündən sonra xatırlanacaq bir iz qoysun.

Özündən sonra əbədiyaşar xatirələr və iz qoyub gedən tarixi şəxsiyyətlərdən biri də Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevdir. Heydər Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın füsünkar guşələrindən biri olan Naxçıvanda dünyaya göz açmışdır. Bu vətənpərvər insanın Azərbaycanın müstəqil bir dövlət kimi formalaşmasında çox mühüm rolu olmuşdur.

İndiki yaşlı, orta və gənc nəsil onu uzun illərdir dövlətin əvəzsiz rəhbəri və xalqın lideri kimi tanıyır. Qüdrətli, şəxsiyyəti ilə seçilən, qeyri-adi istedada malik olan Ulu Öndəri xalqına bağışlayan tellər olduqca möhkəm idi. Ona dərin hörmət bəsləyən, xidmətlərinin dəyərini anlayan hər bir azərbaycanlı gənc ümummilli lider Heydər Əliyevi öz ailəsində, həyatında görür, hiss edir və yoxluğunu dərk edir.

Böyük insan müstəqilliyimiz dövründə hələ çox gənc olan və kifayət qədər tanınmamış dövlətimizi misilsiz xidmətlərilə beynəlxalq aləmdə öz sözünü deyə bilən bir dövlət kimi tanıtdı.

İmperiya müstəmləkəsindən yenicə qurtulmuş, 1993-cü ilə qədər səriştəsiz, təsadüfi adamların rəhbərliyi nəticəsində möhkəmlənə bilməyən

Azərbaycanın vəziyyəti bu ölkədə geostrateji maraqları olan, həm də Qafqazın bu regionuna yağlı tikə kimi baxan dövlətlərin istəklərinə tam uyğun idi. Ölkənin əlverişli coğrafi məkanda yerləşməsi, zəngin sərvətlərə malik olması dünyanın inkişaf etmiş dövlətlərinin siyasi, iqtisadi maraqlarını bu dövlətə yönəltdi.

Azərbaycan xalqı o dövrdə ölkədə baş verən prosesləri müşahidə edən beynəlxalq ictimaiyyət də belə güclü bir siyasətçinin hakimiyyətə gəlməsini gənc, suveren dövlətin qurtuluşu kimi qiymətləndirirdi. Bunun da səbəbi var idi. Sovet dövlətinin güclü rəhbərlərindən biri olan Heydər Əliyevin siyasi gücünə və nüfuzuna ölkələrdə hər kəs yaxşı bələd idi. O böyük insanı Şərq ölkələrində də SSRİ-nin güclü rəhbərlərindən biri kimi tanıyır, ona dərin hörmət bəsləyirdilər. Heydər Əliyev istər Avropada, istərsə də Amerikada sovet dövlətinin güclü rəhbərlərindən biri, bəşəri duyğulu, görkəmli şəxsiyyət və istedadlı insan kimi tanınır, yüksək qiymətləndirilirdi.

Hələ sovet dövründə yüksək dövlət idarəçiliyində olan rəhbərlər, eləcə də müxtəlif millətlərdən olan sovet vətəndaşları Heydər Əliyevin siyasi gücünə, ensiklopedik biliyinə, potensial istedadına, qeyri-adi yaddaşına, idarəetmə qabiliyyətinə və yüksək mədəniyyətinə heyran qaldıqlarını açıq etiraf edirdilər.

Ulu Öndər ölkəyə rəhbərlik etdiyi vaxtlarda Azərbaycan sovet respublikaları arasında sürətli inkişafı ilə fərqlənərək yüksəliş dövrünü yaşamağa başlayırdı.

70-ci illərdən sonra SSRİ-nin yüksək ali məktəblərinə müasir peşə və ixtisas üzrə təhsil almağa göndərilən tələbə-gənclər ordusu Heydər Əliyevə güvənirdi. Belə ki, Ulu Öndər hakimiyyətə gəldiyi birinci ili ölkədən kənarda təhsil alanların sayı 50 rəqəmini aşa bilməzdi. Lakin 1980-ci illərdə onun inadlı səyləri nəticəsində 50 rəqəmi 1300 rəqəmi ilə əvəzləndi.

Bu böyük insan öz görüşləri, təbliğatı nəticəsində gəncliyi Azərbaycanda olmayan ixtisaslara yönəltdi. Çünki o, təhsilə həddindən artıq yüksək qiymət verirdi və deyirdi:

«Təhsil mürəkkəb bir sahədir. Təhsil nə sənaye, nə kənd təsərrüfatı, nə də ticarətdir. Təhsil cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən bir sahədir. Təhsil millətin gələcəyidir».

Hər bir xalq dili, tarixi ənənələri, əxlaqı və mədəniyyəti ilə tanınır. Bunlardan məhrum olmaq milli dəyərlərdən məhrum olmaq deməkdir. Ulu Öndər xalqımızı bu dəyərləri qorumağa, yaşatmağa çağırır və təlim-tərbiyə işində bunu bir vəzifə kimi önə çəkirdi. O, tövsiyə edirdi ki, hər bir azərbaycanlı gənc öz milli, tarixi köklərinə bağlı olmalı və öz dilində səlis



danışmağı bacarmalıdır. Ulu Öndərimizin saatlarla ayaq üstə durub heç bir mənbədən istifadə etmədən etdiyi çıxışlar dilimizin nə qədər zəngin, musiqili bir dil olduğuna və onun bu dilin bütün incəliklərinə qədər təmiz bilməsinə sübutdur. Həyatın elə bir sahəsi yoxdur ki, bu böyük insan ora nüfuz etməmiş olsun. Əbəs yerə deyilməyib: «Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir».

Ulu öndər Heydər Əliyev neft sahəsində əldə edilən uğurlarla Azərbaycanı dünyaya tanıtdı. Belə ki, 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin rəhbərliyi altında Bakıda təntənəli şəraitdə Dövlət Neft şirkəti ilə dünyanın 8 ölkəsinin 11 iri neft şirkəti arasında sonradan «Əsrin müqaviləsi» adlandırılan «Azəri», «Çıraq», «Günəşli» yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı.

«Əsrin müqaviləsi»nin imzalanması dünyanın aparıcı dövlət və sirkətlərinin Azərbaycanı müstəqil bir dövlət və etibarlı tərəfdaş kimi qəbul etməsi demək idi.

«Əsrin müqaviləsi» beynəlxalq arenada qəbul edilən bir hadisə oldu. Bu tarixi hadisə Azərbaycan neftinin şöhrətini özünə qaytardı. Doğrudan da, hər şey gözlənildiyi kimi uğurlu alındı. «Əsrin müqaviləsi»ndə irəli sürülmüş «Bakı–Tbilisi–Ceyhan» kəməri Azərbaycan neftinin dünya bazarlarına çıxarılması ilə yanaşı, tarixi «İpək yolu»nun keçdiyi dövlətlər üçün də əsas magistral rolunu oynayır.

Heydər Əliyevin sayəsində Azərbaycan bu uğurlarla dünyanın inkişaf etmiş dövlətləri arasında öz yerini tapdı.

Qəribə səslənsə də, dünyanın siyasət nəhənglərindən olan, gözlərinə baxmağa hər kəsin cəsarəti çatmayan Heydər Əliyev xalqla münasibətində son dərəcə sadə və səmimi idi. Xalqla fikrini bölüşməyi sevən, qəlbindəki Vətən sevgisini bütün azərbaycanlılarda görmək istəyi ilə yaşayan və bunu bütün azərbaycanlılara təlqin edən Heydər Əliyev deyirdi:

«Mən həyatımın çox böyük bir hissəsini bu işə sərf etmişəm və bundan sonra da mənim həyatım üçün Azərbaycan xalqının qarşısında xidmətlərim sahəsində bundan vacib bir vəzifə yoxdur. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni daha şərəflə yerinə yetirməyə çalışacağam...»

Ulu Öndər həyatı boyu milli mənliyi ilə fəxr edərək «azərbaycanlı» kəlməsini böyük iftixarla, fərəh və qürur hissi ilə deyirdi. Nüfuzu ilə seçilib tanınan böyük və qüdrətli dövlət xadimi dövrümüzün ən odlu vətənpərvəri, ən böyük azərbaycanlısı kimi hər birimiz üçün əsl örnək mənbəyidir.

Bu gün tariximizə çevrilən Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi vaxtlarda Azərbaycanı dünyaya tanıtdı. Heydər Əliyev ən ağır günlərdə,

xüsusilə 1993-cü ildə xalqına və milli birliyə güvənmişdi. Böyük Tarixi Şəxsiyyət çıxışlarının birində bu məsələnin vacib olduğunu önə çəkərək deyirdi:

«Mən inanıram ki, Azərbaycan milli birlik, milli həmrəylik səviyyəsinə çataraq, özünün böyük iqtisadi potensialından, çox əhəmiyyətli coğrafi-strateji vəziyyətindən səmərəli istifadə edəcəkdir». Bu ifadədə böyük dövlət xadiminin Azərbaycan xalqının gücünə, istedadına və əsl Şərqliyə xas olan müdrikliyinə inamı açıq-aşkar ifadə olunur.

Ulu Öndərin dövlət rəhbəri olmazdan əvvəl öz içindəki azərbaycançılıq ideyalarını həyata keçirməyi planlaşdırdığını bu gün xatirələr, bir-birinin ardınca açılan faktlar təsdiq edir. Hələ bundan sonra eşidəcəklərimiz bizə onun mənalı ömür yolunu səhifələyib öyrənməyə yeni imkanlar açacaqdır.

Xalqın xilaskarı kimi yaşayıb, əvəzsiz lideri kimi dünyadan köçən Heydər Əliyev bu xalqa nəyin nə zaman və nə qədər lazım olduğunu xəstəyə məlhəm verən həkim qədər bilir, xalqın hansı məqamda nə istədiyini dəqiq başa düşürdü. Tarixdə Azərbaycan xalqının psixologiyasını onun qədər bilən ikinci bir insan olmayıb.

Ulu Öndərin xalqın sevdiyi, qiymətləndirdiyi ən ali, insani keyfiyyətlərindən biri də dosta-dost, düşmənə-düşmən mövqeyindən çıxış etməsidir.

Dosta-dost, düşmənə-düşmən olmaq kişilikdəndir. Belə kişiləri dostlar da, düşmənlər də yaxşı bəyənirlər.

Mən də fəxr edirəm ki, dostun da, düşmənin də bəyəndiyi bu kişi azərbaycanlıdır. Doğma yurdumuzun oğludur. Əlbəttə, bununla tək azərbaycanlılar deyil, bütün türk dünyası fəxr edir.

Dünyanın tanınmış siyasətçiləri və dövlət xadimləri Heydər Əliyev barədə ürək sözlərini söyləmişlər. Belə ki, Türkiyənin böyük dövlət xadimi Bülent Ecevit Heydər Əliyevin tək Azərbaycanın deyil, bütün türk dünyası qarşısında xidmətlərini belə dəyərləndirmişdir:

«Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu isə min ildən bir yetişən dahilərdəndir».

Təəssüf hissi ilə qeyd etməliyəm ki, Ulu Öndər 2003-cü ildə dünyasını dəyişdi. Xalqımızın tarixinə yazılan ən ağır günlərindən biri də Liderimizin dünyasını dəyişdiyi gün oldu. O, bu gün həyatda yaşamasa da xalqımızın qəlbində daim yaşayır və yaşayacaqdır.

Ulu Öndərin 2003-cü ildə «Mən İlham Əliyevə özüm qədər inanıram və onun gələcəyinə ümidlər bəsləyirəm», – deməsi Azərbaycanın gələcəyinə doğru atılmış yeni bir addım idi. Son illərin saysız-hesabsız uğurları göstərir ki, Azərbaycan yenə də etibarlı əllərdədir.



Bu gün müstəqil dövlətimiz regionda ən aparıcı dövlətlərdən biridir. Torpaqlarımızın iyirmi faizinin düşmən tapdağı altında olmasına baxmayaraq, Azərbaycan günü-gündən uğurlar qazanır, regionlarımız abadlaşdırılır, xalqımızın həyat səviyyəsi isə daha da yaxşılaşır.

Ən başlıcası budur ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə siyasi, iqtisadi əlaqələr qurmuş və regional layihələrdə onlarla əməkdaşlıq edir. 2013-cü il fevral ayının 8-də «Azər Space-1» Azərbaycanın ilk peykinin kosmosa buraxılmasını dövlətimizin ən böyük uğurlarından biri hesab etmək olar. Üçrəngli bayraq fonunda kosmosa göndərilən peykimiz Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində dövlətimizin ən böyük töhfəsidir. Biz inanırıq ki, nə qədər ki, Azərbaycan xalqı yaşayacaq, Ulu Öndərin xatirəsi Azərbaycan və türk dünyası xalqlarının qəlbində əbədi yaşayacaqdır.

Mən gənc bir Azərbaycan vətəndaşı olaraq and içirəm ki, Ulu Öndərimizin biz gənclərə vəsiyyətlərini həmişə həyatda rəhbər tutacaq, onun ideyalarına sadiq qalacaq və vətənimin uğur qazanması üçün bütün biliyimi, güc və bacarığımı sərf edəcəyəm.

Ulu Öndərin ruhu qarşısında baş əyir və ona «Qəbrin daim nurla dolu olsun!» – deyirəm.



## Zaidov Elnur İzzət oğlu

***Lerik rayonu, Valeh İbrahimov adına İnternat məktəbin XI sinif şagirdi***

Bilirsiniz, lalənin bağrı niyə yanıqdır? Əğyar onu sevgilisindən ayırdığı üçün. Mənim Azərbaycanım da lalə qədər gözəl, lalə kimi sevimli idi. Əğyarlar onu da sevgilisindən ayırdılar. Sinəsinə «Gülüstan» dağı çəkdilər. Bununla kifayətlənməyib Vətənimizin canından ürəyini qoparmaq fikrinə düşdülər. Vətənimizin döyünən ürəyi, dahilər beşiyi, ulular məzarı olan Şuşamızı sinəsindən qopardılar.

Gözəl Qar abağımızı işğal altına aldılar.

Xain əğyarlar olmasaydı, vətənimə bu dağlar çəkilə bilməzdi. Çünki Vətənim möhkəm idi palıd kimi, vüqarlı idi çinar kimi, Qoşqar, Savalan, Babadağ kimi keçilməz dağları vardır. Kürü, Arazı vardır.

Deyirlər, gözəllik başa bəladır. Mənim Azərbaycanımın da gözəlliyi, zənginliyi başına çox bəla gətirdi. Ərəb, fars, monqol, rus işğalına məruz qaldı. Azadlığını, müstəqilliyini əlindən zorla alıb, əsarət altına saldılar.

Amma Tanrı həmişə Azərbaycana kömək olub, dar gündə ona yol göstərib. Bunun üçün də uzaq Naxçıvan torpağında bir uşaq dünyaya gətirdi. Bu uşaq da hamı kimi dünyaya gəldi. Amma hamı kimi böyümədi. Tanrı ona Cavanşır qeyrəti, Babək cəsarəti, Xətai dərrakəsini vermişdir. Duymaq, düşünmək, gələcəyi görməyi, qurub-yaratmağı Tanrı onun ruhuna Vətən torpağında içdiyi su, udduğu hava ilə axıtmışdı.

Günlər, aylar, illər keçdi. Həmin uşaq böyüyüb, Vətəninə, xalqına xidmət etməyə hazır bir vətəndaş oldu. Haqqında söhbət gedən bu varlıq XXI əsr Azərbaycanımızın xilaskarı, müstəqil Azərbaycanımızın qurucusu, bizim və gələcək nəsillərin yaddaşlarında unudulmaz şəxsiyyətə çevrilən Heydər Əliyev idi.



Qanlı-qadalı 1988-ci ilin qışı! Ermənistanda yaşayan azərbaycanlıları deportasiya etdilər. Torpağımızda erməni işğalı, ölkədaxili çəkişmələr Azərbaycanı məhv olmaq təhlükəsi ilə üzləşdirdi. Azərbaycanımızın üstünü qara buludlar almışdı.

Tanrı öz payını belə vaxtda bizə göndərirdi. Heydər dühası, Heydər müdrikliyi, təcrübəli, uzaqgörən, qurub-yaradan bu şəxsiyyət Vətənimizi bu bəladan qurtardı.

Əvvəlcə ölkəmizdə sabitlik yaradaraq, Gəncədə qardaş qırğınının qarşısını aldı. Cəbhədə atəşkəs əldə etdi. Azərbaycanımızın gələcək təminatı üçün «Əsrin müqaviləsi» kimi böyük layihəyə imza atdı. Dövlətimizin müstəqilliyi və ərazi bütövlüyünün təşkilatçısı olan orduda quruculuq işlərinə başladı. Öz adını dünyada məşhur siyasətçilərin sırasına yazdı.

Dövlət şöhrətli ulu öndər Heydər Əliyev həm də ağıllı ailə başçısı və mehriban baba idi. Heydər Əliyev tapşırıqla axmayan bulaq idi. O, həmişə qaynayırdı. O, dərinlikləri möcüzələrlə zəngin bir dərya idi. O, bir qranit parçası idi, onu atəş yandırmırdı. O, bir işıq idi gecənin qənimi.

Heydər Əliyevin siyasəti bu gün də ölkəmizdə davam etdirilir. Hazırda ölkəmiz dünyada inkişaf etmiş ölkələr sırasındadır. Ölkəmizin hər bir yerində quruculuq, abadlıq işləri aparılır.

Mən Azərbaycanın ən ucqar rayonu olan Lerik rayonunun Livədirqə kəndində yaşayıram. Rayonumuz dağlıq rayondur. Son illər ərzində rayonumuzda aparılan abadlıq işləri, tikilmiş yeni binalar, çəkilmiş yollar, salınmış parklar rayonumuzu çox gözəlləşdirilib. Biz məktəblilər də ölkəmizin qayğımıza qaldığını hər an hiss edirik. Mən rayonumuzun V.İbrahimov adına tam orta internat məktəbində oxuyuram. Məktəbimiz dövlət tərəfindən çox gözəl təmir olunub. Bizim üçün hər bir şərait yaradılıb. Buna görə də mən ölkə rəhbərimizə minnətdarlığımı bildirirəm. Mən bu ölkənin vətəndaşı olmağımla fəxr edirəm.



## Müslümova Aytən Eldar qızı

*Mingəçevir şəhəri, Rəşad Mirabov adına 7 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

*«Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan Vətəndaşıdır».*

**Heydər Əliyev**

Mən bu yazımda böyük bir şəxsiyyətin həyatına öz şagird baxışlarımla nəzər salmaq istəyirəm.

Sokrat demişdir: «Dahilər müzakirə olunmur, öyrənilir». Bütün şüurlu həyatını xalqının azadlığına, Vətəninin müstəqilliyinə həsr edənləri tarix əbədi yaşadır. Heydər Əliyev şəxsiyyət kimi tarixi hadisə idi. Tarix şəxsiyyəti yaradır, bu cür şəxsiyyətlər isə tarixi. Tarix yaradan şəxsiyyətlərdən biri də Azərbaycan xalqına xilaskar kimi Tanrı tərəfindən göndərilmiş ulu öndərimiz Heydər Əliyevdir. Heydər Əliyev elə bir günəşdir ki, bu günəşin şəfəqləri hələ uzun müddət xalqımızın yolunu şəfəqləndirəcək, nurlandıracaqdır.

20-ci yüzillikdə şəxsiyyət böyüklüyünə və əzəmətinin zirvəsinə yüksələnlər sırasında Heydər Əliyevin öz yeri var. Bu siyasi xadimin həyat yolu, əməlləri tarixin yaddaşına ona görə əbədi həkk olunub ki, Vətən özünün ağır problemlərini ona həvalə edib.

Heydər Əliyev ümidsizlik bataqlığına atılmış, varlığına, müstəqilliyinə, dövlətçiliyinə ölüm hökmü oxunmuş xalqımızın çağırışına vaxtında səs verdi. Milli azadlıq hərəkatı tarixinə şanlı səhifə yazdı.

Heydər Əliyev dahi, fenomen, nadir şəxsiyyətdir. Azərbaycan xalqı Ulu Öndərimizi həqiqətən dərin məhəbbətlə sevir və Heydər Əliyevi hakimiyyətə gətirməklə çox düzgün hərəkət etmişdir. Heydər Əliyev Azərbaycanın nurlu gələcəyinə nail olmaqdan ötrü lazım olan addımları atmış və Azərbaycanın müstəqilliyinə nail olmuşdur.



1993-cü ildə hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanı dağılmaqdan xilas etdi. Dövlətçiliyimiz bərpa olundu. 1994-cü ilin may ayında atəşkəs imzalandı.

*Xalqının düşdüyü ağır günlərdə,*
*Yaradan yetirdi Sizi köməyə.*
*İnam eşidildi hər bir sözündə,*
*Qoymadı nahaqdan qan tökülməyə.*

Müasir azərbaycanımızın və Ulu Öndərimizin həyat və fəaliyyətinə bələd olan bir şəxs kimi söylədiklərimə əlavə olaraq qeyd etmək istərdim ki, 1993-cü ildən bu günə qədər olan dövrü 2-ci dövr deyil, Qızıl dövr kimi adlandırmaq daha düzgün olardı.

1969-cu ildə Azərbaycan rəhbərliyinə gələn Heydər Əliyev yığılıb qalmış problemləri mərhələ-mərhələ həll etməyə başladı.

1993-cü ildən etibarən Azərbaycanda geniş vüsət almış azadlıq hərəkatının üzvü olan Heydər Əliyev xalqımızın azadlığını, ucalığını fikirləşərək böyük addımları atdı.

1993-cü ilin may-iyununda hakimiyyət böhranı, vətəndaş müharibəsinin hökm sürməsi, müstəqilliyimizə zərbə vurulmasının qarşısını alan Heydər Əliyev 15 iyunu Milli Qurtuluş Günü kimi qeyd olunmasını təsdiqlədi.

Ordumuzun formalaşması, nizamlı silahlı qüvvələrin yaradılması ilə təxirə salınmaz tədbirlərin həyata keçirilməsi məhz həmin dövrə təsadüf edir. Heydər Əliyev deyirdi ki, müstəqilliyin qorunub saxlanılması, onun əldə edilməsi çətin və məsuliyyətli işdir. Buna baxmayaraq, Heydər Əliyevin müstəqilliyimizin bu günə qədər və gələcəyə doğru irəliləməsində gördüyü tədbirlər göz qabağındadır.

Heydər Əliyev biz şagirdlərə örnəkdir. Hər birimiz Heydər Əliyevi özümüzün idealı hesab edirik. Çünki o, müqəddəs şəxsiyyətdir. Dünəni yaxşı bilən Heydər Əliyev, gələcəyi də hər kəsdən yaxşı görürdü. Xalqın demokratiyaya doğru inkişaf etməsini, müasir, sanballı təhsil sisteminin olması, dövlətimizin inkişaf etməsi, yəni müstəqil Azərbaycanımızın gələcəyi Heydər Əliyevin atdığı əbədi addımlarla bağlıdır. Azərbaycanın müstəqilliyini əbədi dayaqlar üzərində qurdu Heydər Əliyev.

*Qəlbimizdə qalacaqsan əbədi,*
*Şölə saçan bir ocaqsan əbədi.*
*Sənin qəbrin qibləgahdı, Kəbədi,*
*Heydər baba, əbədisən, əbədi!*

Paklıq, saflıq məktəbidir Heydər Əliyevin həyatı. Şagird olaraq söyləmək istərdim ki, Heydər Əliyev əlçatmaz zirvədir. Çünki hər bir insan bu zirvəyə yüksəlmir. Layiq olan şəxsiyyətlər,vətənini uca tutanlar, xalqın mənafeyini üstün bilənlər bu zirvəni fəth edə bilərlər. Mənim Xalqım, Torpağım, Vətənim, Bayrağım, Himnimiz. İnsan fəxr edir, bunları söyləyəndə. Çünki Heydər Əliyev bu sevgini xalqımıza bəxş etdi. Heydər Əliyev heç vaxt inanmadığına tabe olmayıb. İnandığı bir şey var: «Müstəqil Azərbaycan».

Xalqın sevgisini qazanan Heydər Əliyev daim qəlbimizdə yaşayacaq. Çünki xalq Heydər Əliyev üçün, Heydər Əliyev isə xalq üçün yaranıb. Ulu Öndər deyirdi: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, Mən Azərbaycanlıyam».

*Canım babam, Heydər babam,*
*Bu yerlərin özüsən Sən.*
*Vətənimin, Torpağımın,*
*Böyük şəxsiyyətisən Sən!*

Heydər Əliyevdən nə qədər danışsam, azdır. Gördüyü uğurlu tədbirlər, xalqımızın gələcəyə doğru addımlamasında apardığı əməlləri saymaqla bitirmək olmur.1990-cı il 20 Yanvar faciəsinə bütün dünya ictimaiyyətinin diqqətini cəlb etdi.

*Bir oğul böyüdü Azərbaycanda*
*Xalqına azadlıq yolunu seçdi.*
*Vaxtı qabaqladı, zamanı keçdi*
*Xalqına azadlıq yolunu seçdi!*

Bəli, bu gün Azərbaycan böyük vüsətlə inkişaf edir. İnanırıq ki, vaxt gələcək, işğal olunmuş torpaqlarımız azad olunacaq. Azərbaycan xalqı hər şeyə qadirdir. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan xalqı öz gücü ilə, silahla deyil, Ulu Öndərimiz kimi danışıqlarla torpağımızı – Qarabağı geri almağa nail olacaq. Çünki biz Azərbaycan xalqıyıq. Heydər Əliyevin davamçılarıyıq. Müstəqil Azərbaycanın övladlarıyıq. İlk öncə bacarıqlı, savadlı olmalıyıq. Heydər Əliyev kimi heç nədən qorxmamalıyıq. Şagird olaraq mən də cəsarətli olacağam, xalqıma sadiq qalacağam. Heydər Əliyevin zirvəsinə çatmaq hər birimizin ən böyük arzusudur.

Heydər Əliyev məntiqli, dünyagörüşlü, istədiyini tez başa çatdıran şəxs, bir sözlə, şəksiz Liderdir.





***Məmmədzadə Nərmin Müşfiq qızı***
***Bakı şəhəri, 158 nömrəli tam orta məktəbin VIII sinif şagirdi***

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərinin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimləri, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu olmuşdur. Çünki dövlət adamlarından ancaq bu dahi şəxsiyyət milli lider səviyyəsinə yüksəlmişdir.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında xilaskar və qurucu dövlət xadimi, milli lider, xalq məhəbbətini qazanan ulu öndər kimi qalmışdır. Xalqımızın taleyində, mənəvi, iqtisadi, siyasi həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlı idi. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti həmkarlarına nisbətən daha güclü idi. Təsadüfi deyildi ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü, obyektivliyi ilə seçilmiş və hər cəhətdən ölçülüb-biçildiyindən ətrafdakıları heyrətləndirmişdir.

Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Heydər Əliyev bu

iki keyfiyəti ehtiva etməklə yanaşı, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Heydər Əliyevin həm də çox gözəl natiqlik məharəti var idi. Peşəkar mütəxəssislər belə onun nitqinin səlisliyinə, aydınlığına, əlvanlığına təəccüblənirdilər. Heydər Əliyevin Azərbaycan və rus dillərinin incəliklərinə, hətta məhəlli xüsusiyyətlərinə bu qədər dərindən bələd olması kamilliyin nəticəsi idi.

Heydər Əliyevin bütün dünyada görkəmli siyasi xadim kimi tanınması xalqda ona dərin inam yaratmışdı. O, hələ Azərbaycan Respublikasının Prezidenti seçilməmişdən qabaq ölkə vətəndaş müharibəsi ərəfəsində idi. Müstəqilliyin təzəcə bərpa etmiş Azərbaycan Respublikası çox böyük çətinliklər içində idi. Xalq respublikanın bu ağır günündə ancaq xilaskar kimi Heydər Əliyevi görürdü. Bunu nəzərə alan Heydər Əliyev respublikaya rəhbərliyə ikinci dəfə gəlməsini qərara aldı.

Heydər Əliyev Azərbaycana rəhbər vəzifəyə ikinci dəfə 1993-cü ilin yayında qayıtdı. Az bir vaxtda onun ciddi səyi nəticəsində ölkədəki bütün problemlər aradan qaldırıldı. Xalqımız hər il 15 iyun tarixini Milli Qurtuluş Günü kimi qeyd edir. Heydər Əliyevin lider kimi cəmiyyətə və dünyaya təsiri olduqca güclü idi. Ümummilli lider ilk növbədə respublikada qanunçuluğun, asayişin, əmin-amanlığın bərqərar olmasına nail odu. Azərbaycanda böyük iqtisadi və sosial islahatlar keçirildi, hüquqi, dünyəvi dövlət yaradılması sahəsində ciddi uğurlar qazanıldı.

Heydər Əliyev Azərbaycanın bərpa olunmuş müstəqilliyini qoruyub saxladı və inkişaf etdirdi. O, müstəqil dövlətin əsaslarını möhkəm və əbədi dayaqlar üzərində qurdu, xalqımızı demokratik inkişaf yoluna istiqamətləndirdi, ürəyinin odunu və işığını uğrunda vuruşduğu və canından artıq sevdiyi Vətəninə həsr etdi. Azərbaycan Respublikasını dünyada əhəmiyyətli dərəcədə tanıtdı və Azərbaycan dünya dövlətləri birliyinə daxil oldu.

Prezident kimi atəşkəsə nail olması, respublika iqtisadiyyatının yüksəldilməsi manatın məzənnəsinin sabitləşməsi, respublikada, xüsusilə də onun paytaxtı Bakı şəhərində sabitliyin yaranması, ölkədə yaşayan ayrı-ayrı millət və xalqlara hörmətlə yanaşılması, Xəzərin Azərbaycan sektorunda dünyanın aparıcı dövlətləri ilə neft müqavilələrinin bağlanması və s. bu kimi məsələlərin həlli sahəsində yorulmadan fəaliyyət göstərmişdir.

Heydər Əliyev Azərbaycanın bugünkü və gələcək inkişaf yolunu müəyyən etdi. Onun iqtisadi və siyasi müstəqilliyinin əsasını qoydu, bu müstəqilliyin möhkəm və əbədi bünövrəsini yaratdı. Son dərəcə demokratik xa-



rakterə malik olan Heydər Əliyev ən mürəkkəb vəziyyətlərdə yalnız xalqa arxalanırdı, uğurlarını onun adı ilə bağlayırdı.

Siyasətdə olduğu müddətdə Heydər Əliyev müasir dövrün ən böyük şəxsiyyəti kimi bütün dünyada tanınmışdır. Dünyanın ən görkəmli siyasət və dövlət xadimləri onunla görüşdüklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı «liderlərin lideri» adlandırırdılar. Vaxtilə Fransa prezidenti olmuş Jak Şirak onun haqqında belə demişdir: «Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə də Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, qətiyyətini və müdrikliyini çox yüksək qiymətləndirdim». BMT-nin Baş katibi onu belə qiymətləndirirdi: «Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır».

Heydər Əliyevin öz çıxışlarında söylədiyi ifadələr bu gün gənc nəsil üçün çox əhəmiyyətlidir. Məsələn, «Kim biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur», «Ağıl olan yerdə zora ehtiyac yoxdur», «Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz», «Ana dilini bilməmək, onu düzgün qiymətləndirməmək, şübhəsiz, xalq qarşısında böyük qəbahətdir» və s.

Heydər Əliyevin siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən nadir, ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolunu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergi idi.

Heydər Əliyev Azərbaycan xalqının istər iqtsadi, istər siyasi, istərsə də mədəni dirçəlişində mühüm rol oynadı. O, milli dövlətçiliyin banisi, insan hüquqlarının etibarlı təminatını yaratmış lideri idi. Heydər Əliyev Azərbaycanın davamlı inkişaf strategiyasını qurdu və bu strateji kursu davam etdirməyə layiq davamçısını yetişdirdi.

Xalqımız məhz onun xidmətləri sayəsində azad və firavan yaşayır. Məhz onun uzaqgörən siyasətinin nəticəsidir ki, respublikamız sayılıb-seçilir, gündən-günə tərəqqi edir. Təməli mərhum liderimiz tərəfindən qoyulmuş və bu gün onun layiqli davamçısı İlham Əliyevin davam və inkişaf etdirdiyi siyasətin nəticəsidir ki, beynəlxalq aləmdə uğurlu addımlar atırıq. Bütün ömrünü xalqına, onun xoşbəxtliyinə həsr edən Ulu Öndərimizin parlaq xatirəsi həmişə qəlbimizdə yaşayır və yaşayacaq. Onun işıqlı arzuları, parlaq xatirəsi həmişə bizimlədir. Bu yerdə aşağıdakı alovlu misralar yadıma düşür:

*Dünyadan dünyaya köçüb gedir o,*
*Ruhuyla göylərə uçub gedir o,*
*Cənnəti bir məkan seçib gedir o,*
*Müqəddəs insandır, nurdur, ocaqdır,*
*Xalq onu qəlbində yaşadacaqdır.*

Heydər Əliyev yaradıcı insan idi. Güclü hafizəyə, heyrətamiz yaddaşa malik olan bu adam doğma dilimizin qayğısına qalır, gənc nəslin, uşaqların gələcək taleyi ilə dərindn maraqlanırdı. Qeyd edirdi ki, uşaqlar bizim gələcəyimizdir. Dəfələrlə söyləyirdi:

«Övladını sağlam, bilikli və tərbiyəli böyütmək ailənin və dövlətin birinci dərəcəli işidir».

Mən bu gün özümü çox xoşbəxt hesab edirəm. Ona görə ki, mərhum liderimizin bizlərə əmanət qoyduğu, qurub-yaratdığı, memarı olduğu Müstəqil Azərbaycan Respublikasında yaşayıram.

Heydər Əliyev həmişə azərbaycanlı olduğu ilə fəxr edir və bunu deməkdir həzz alırdı: «Mən fəxr edirəm ki, azərbaycanlıyam.»

Qarşıdan Ulu Öndərimizin anadan olmasının 90 illiyi gəlir. Biz şagirdlər bu yubileyə yaxşı oxumaqla, elmin dərin sirlərinə əzmlə yiyələnməklə, Müstəqil Azərbaycanımızı sevməklə öz töhfəmizi verməliyik. Ona görə ki Heydər Əliyev də məhz bu vəzifələri bizə vəsiyyət etmişdir.









## *Mirzəyeva Aysel Əbülfət qızı*
### *Xocavənd rayonu, 2 nömrəli tam orta məktəbin IX sinif şagirdi*

Tarix heç vaxt yaratdığı və yaşatdığı dahi şəxsiyyətləri öz qızıl səhifələrindən silmir. İllər keçdikcə, zaman ötdükcə onlar bizim yaddaşımıza əbədi həkk olunur. Həyatda insana verilən ömür yolunu mənalı yaşamaq hər kəsin arzusudur. Bu həyat yolunu, ömür səhifələrini unudulmaz bir tarixlə başa vuran şəxsiyyətlərin sayı-hesabı yoxdur. Onları unutmağa heç kəsin haqqı da yoxdur.

Doğma xalqımız da dünyaya dahi, əvəzolunmaz şəxsiyyətlər bəxş edib. Onlar öz şöhrətləri ilə bütün aləmə səs salıb. Heydər Əlirza oğlu Əliyev də belə şəxsiyyətlərdəndir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində sadə bir azərbaycanlı ailəsində dünyaya göz açmışdır. Atası Əlirza kişi başda olmaqla hər kəs çox sevinirdi. Amma o bilmirdi ki, övladı Heydər vaxt gələcək, Azərbaycan xalqını uğurla irəliyə –gələcəyə aparacaq.

Heydər Əlirza oğlu Əliyev! Mən bu adın qarşısında baş əyirəm. Bu iki kəlmə elə qürurla, əzəmətlə səslənir ki, sanki hər şey – yer, göy, sıldırımlı qayalar, uca dağlar lərzəyə gəlir.

Heydər baba, eşit, dinlə məni. Sənə məhəbbətim sonsuzdur! Səni əbədi bir eşqlə sevirəm. Sənə olan sevgimin toxumları hələ kiçik yaşlarımdan səpilib. Bu toxumlar illərin süzgəcindən süzülən sevinc göz yaşları ilə qidalanıb, boy atıb, inkişaf edib. Heydər baba, indi sənin haqqında yazıram. Səni dünyanın ən gözəl, əvəzolunmaz sözləri ilə bəzəməyə çalışıram. Çünki sən bütün bunlara layiqsən!

Əziz babam, inşamı sənə həsr edirəm! Biz şagirdlər sənə «baba» deyə müraciət edirik. Çünki sən tək uşaqların deyil, bütün türk dünyasının babasısan. Bu sözdə milyonlarla fikirlər, dərin baxışlar, incə və həzin duyğular

ifadə olunub. «Uşaqlar bizim gələcəyimizdir», sözləriniz ilə bütün dünyadakı uşaqların incə ruhlu qəlbinə yol tapmısan.

Hər kəslə mehriban, qayğılı söhbət edən, xalqın fikrini, arzusunu dinləyib tez bir zamanda həyata keçirən, əvəzolunmaz bir şəxsiyyət idin! Heydər baba, sən alınmaz qalasan! Sən əlçatmayan zirvəsən! Mən səni sonsuz eşqlə sevirəm. Heydər Əliyev qəhrəman Azəri oğlu, türk balasıdır! Əziz baba, izin ver, tarixçəni vərəqləyim:

Heydər Əliyevi xalqa sevdirən bir çox xüsusiyyətləri var idi. Gələcəyə addım atanda, ilk növbədə, xalqını düşünür, onun aqibəti barədə fikirləşirdi. Buna görə də xalqda ona dərin məhəbbət hissi, hörmət əlaməti duyulurdu. İndi məndən soruşanda ki, azad müstəqil, dayağı, təməli möhkəm, əbədi olan Azərbaycan dövlətinin qurucusu kimdir? Onda mən fərəhlə, ürəkdən, böyük qürur və iftixar hissi ilə ucadan bəyan edirəm:

– Müstəqil, firavan, yenilməz, əvəzolunmaz, azad Azərbaycan Respublikasının təməli əbədi, möhkəm dayaqlar üzərində qurulub. Vətənim Azərbaycanın qurucusu xalqını sevən, hər zaman Vətəninə, doğma torpağına bağlı olan Heydər Əlirza oğlu Əliyevdir!!!

Mən də hər addım atanda onu – Heydər babamı düşünürəm. Fikirləşirəm ki, görəsən, bu vəziyyətdə o, nə edərdi? Suallarıma cavab olaraq onun əməllərini xatırlayıram. Heydər baba, səninlə fəxr edirəm!!!...

Heydər Əlirza oğlu Əliyevi xalqa sevdirən daha bir xüsusiyyəti ana dilini dərindən sevməsi və hamıya sevdirməsi idi. Elə bu məqamda Bəxtiyar Vahabzadənin bu şeiri fikrimi əsaslandırmağa kömək edəcək:

*Ey öz doğma dilində danışmağı ar bilən,*
*Fasonlu ədəbazlar,*
*Kökünüzə oxşamır? qoşmalar, telli sazlar,*
*Bunlar qoy mənim olsun,*
*Ancaq Vətən torpağı sizlərə qənim olsun!*

Dahi liderimiz Heydər Əliyev Azərbaycan dilində elə sərbəst danışır, cümlələri elə ardıcıl və mənalı qururdu ki, hər kəs ona heyran qalırdı. «Qobusnamə»də yazılır ki, sənətlər içərisində ən gözəl sənət danışmağı bacarmaqdır. Platon isə deyib: «Nitqin gücü az sözlə çox şeyi ifadə etmək bacarığındadır».

Heydər Əliyev də az sözlə xalqımızın taleyüklü məsələlərinə aydınlıq gətirir, problemlərimizi həll etməyə çalışırdı. Kiçikdən böyüyə kimi hər kəs ona inanır, etimad göstərirdi. Ulu öndər Heydər Əliyev gələcək nəsillərə nümunə olan dahi şəxsiyyətdir.



Heydər Əliyev siyasi fəaliyyətinə aşağıdakı dövrlərdə başlamış və yavaş-yavaş liderlik zirvəsinə yüksəlmişdir:

I XX əsrin 60-cı və 70-ci illərindən sonra

II XX əsrin 70-ci və 80-ci illərindən sonra

III XX əsrin 90-cı illərindən sonra

Birinci mərhələ Heydər Əliyev üçün çox təhlükəli idi. Onun həm ailəsi, həm də özü nəzarətdə idi. O, vaxt tapır, xalqı ilə görüşürdü. Başı bəlalar çəkmiş, dərdli, ağır həyat tərzi sürən ağsaçlı analarımız, atalarımız ona inanırdı. Bu inam isə onu iki dəfə – 1993 və 1998-ci illərdə prezident vəzifəsinə qaldırdı. Bu xalqımızın, millətimizin qələbəsi idi.

Heydər Əliyev demişdir:

– Təhsil millətin gələcəyidir.

– Uşaqlar bizim gələcəyimizdir.

– Yaşasın elm, yaşasın mədəniyyət, yaşasın təhsil!

Onun bu sözlərində böyük həqiqət vardır. Bu doğrudur ki, savadsız millətin gələcəyi də bərbaddır. Hər nə varsa, oxumaqda var. Elmi, mədəniyyəti, təhsili olmayan ölkə inkişaf edə bilməz.

«Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram», – deyən Dahi şəxsiyyət xalqın xoş, firavan, azad yaşaması üçün əlindən gələni əsirgəmədi. Millətin, xalqın azad sabahı, işıqlı gələcəyi üçün çalışırdı. Sözün əsl mənasında, ömrünü xalqına bağışladı.

Heydər baba, mənim babam yoxdur. Heç kəsə doyunca «baba» – deyə bilməmişəm. Səni doğma babam kimi sevirəm. Xatirəni əziz tutur, göz bəbəyim kimi qoruyuram, qoruyacağam da!

Öz dahi Liderini sonsuz məhəbbətlə sevən xalq heç ağlına gətirmirdi ki, vaxt gələcək müdrik fikirli dahi şəxsiyyətin mənalı sözlərini eşitməyəcək, qumlu, lal sahilləri yuyan dalğalı dənizək mavi, gülərüz gözləri görməyəcək, qırışlarla örtülmüş bu nurani simanı süzə bilməyəcək. 2003-cü 12 dekabr tarixində ulu öndərimiz Heydər Əliyevin vəfatı, bütün türk dünyasına ağır zərbə oldu. Amma xalqımız sınmadı. Bunu məhz Heydər Əliyevdən öyrənmişdir.

Heydər Əliyevin layiqli davamçısı onun oğlu İlham Əliyevdir. O da atasının yeritdiyi siyasəti davam etdirir. İlham Heydər oğlu Əliyev biz şagirdlərin təhsilinə və iqtisadiyyatımızın güclənməsinə, eləcə də, xalqımızın maddi rifahının yüksəlməsinə diqqət yetirir. İlham Əliyev – Avropa Şurası Parlament Assambleyasının sədr müavini, AŞRA-nın Böro üzvü və Respublikamızın Prezidentidir. O, daim xalqın arasındadır, sadə insanları dinləyərək problemlərini həll edir. Bu işdə ona Heydər Əliyev

Fondunun rəhbəri, Milli Məclisin deputatı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, ölkəmizin birinci xanımı, mehriban, səmimi və xalqa bağlı olan Mehriban xanım Əliyeva yaxından dəstək olur. Heydər Əliyev Fondunun Rusiyadakı rəhbərliyinin nümayəndəsi Leyla xanım Əliyevadır. Onun da bütün bu işlərdə böyük rolu vardır. Biz hər şeyə görə onlara borcluyuq. İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmiz sürətlə inkişaf edir.

*Zaman bizi imtahana çəksə də,*
*Heydərsizlik qəlblərdə yer etsə də,*
*Ayrılıqdan xalq göz yaşı töksə də,*
*Heydər oğlu İlhamımız var indi.*

Heydər Əliyevin bizə qoyub getdiyi Azərbaycan dövləti bütün dünyada məşhurdur. Mən də bu dövlətin azad vətəndaşıyam. Hər an Vətənim üçün əlimə silah almağa hazıram. Ulu Öndərimizin qeyd etdiyi kimi biz şagirdlərin də silahı elm, təhsildir. Heydər Əlirza oğlu Əliyev təcrübəli bir kapitan kimi Azərbaycan gəmisini tarix okeanının tufanlarından, qasırğalarından sağ-salamat keçirib uğurla irəliyə – işıqlı gələcəyə aparmış Lider idi. O, Vətənimizin qurtuluş çırağı, ümid nəzərləri idi:

*Min bir müsibət görmüş Azərbaycan torpağı,*
*Azadlığa qovuşdu o dahinin əliylə.*
*O, ucaltdı ilk dəfə bizim üçrəng bayrağı*
*Yenilməz iradəsi, arzusu, əməliylə.*

Mən azad xalqın, millətin, Respublikanın vətəndaşı olmağımla fəxr edirəm. Üzümü Allahıma tutub deyirəm...

– Ey Allahım, xalqımı bütün bəlalardan hifz et, onu heç vaxt gözüyaşlı qoyma! Amin!!!...





**_Verdiyeva Nuranə Rövşən qızı_**
**_Bakı şəhəri, Elxan İsmayılov adına_**
**_253 nömrəli tam orta məktəbin_**
**_XI sinif şagirdi_**

13 may 2012-ci il... Bu tarix yaddaşıma o qədər yaxşı həkk olunub ki! Əlimdə bir dəstə qızılgüllə, döyünən qəlbimlə düşüncələrimdə, xəyallarımda Sizi ziyarət etmək duyğusu... və gəldim. Fəxri xiyabandayam. O möhtəşəm abidənizin qarşısında dayanmışam. Gözlərim qəm yaşları ilə dolub. Yanımda isə mənə sizin haqqınızda daha da dərindən məlumat verən müəlliməm...

Heydər Əliyev! Sizə olan sevgimi, hörmət və ehtiramımı ürək çırpıntısı ilə ifadə etməyimə bu keçiriləcək müsabiqə bir daha şərait yaratdı. İnşamı Sizə həsr edirəm, əziz babam! Necə bir məsuliyyət tələb edildiyini anlayıram. Sevinirəm, ancaq tərəddüd də edirəm. Mən ulu öndər Heydər Əliyevi necə vəsf edim ki, fikirlərimi dolğunluqla çatdıra bilim? Əziz babam, buna yetərmi bu ağ səhifələr, kəlmələr? Yəni bu vərəqlərə sənin mənalı ömrünü sığdıra bilərəmmi? Sığmaz, sözüm yetməz, cümlələr aciz qalar bir nöqtədə tükənər.

Kədərlənirəm. Qüssələnirəm. Əslində ən böyük arzularımdan birinin artıq reallaşmayacağını bilirəm. Təhsildə uğur qazanaraq, Sizə doğru olan pillələri addımlayaraq ətrafınızdakı xoşbəxt uşaqlardan biri olmaq istəyirdim. Sizinlə ünsiyyətdə olmaq, o dəyərli fikirləri dinləmək qarşınızda olub, varlığınızı hiss etmək... Amma olmadı. Vaxtsız ölüm Sizi bizdən tez aldı. Mənim arzularımı aldı məndən.

Amma mən yenə də çalışıram ki, daha yaxşı oxuyum. İndi həyatda əsas amalım budur. Hikmətli sözlərdən seçilmiş, bir incitək yalnız Sizə məxsus sadə və mənalı düşüncələrin əks olunduğu o ifadələri özümə həyatda deviz seçmişəm.

Bunlardan biri də altıncı sinif dərsliyində verilmişdir. Hər bir məktəbli üçün itirilməyəcək, yaddaşlarda daha da yaxşı həkk olunacaq o ifadələri qeyd etməyi özümə borc bilirəm: «Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz». Yeni nəslə istiqamətləndirilən bu ifadələr hər bir Vətən övladı üçün bir kəlama çevrilməlidir.

Məhz təhsilimizin inkişaf dövrü Sizin rəhbərlik etdiyiniz illərdən başladı. Ana dilimizi bilməyənlərə dilimizi mənimsətdiniz. Dilimizi dövlət dili elan etdiniz. «Təhsil millətin gələcəyidir», – deyib təhsilimizin inkişafına diqqət yetirdiniz.

Vətənə bu qədər bağlı olub onunla və onun inkişafı ilə yaşamaq, onun uğurlarında özünü tapıb sevinmək yalnız Sizə xas cəhətdir, əziz babam! Sonsuz sevgi və qayğı ilə yanaşdığınız bu torpaqlarda hər şey Sizi xatırladır. Hər şey Sizə aid və Sizə məxsusdur, babam.

«Gərək nəbzin Vətənin nəbzi ilə vursun.» Bu ifadə yaddaşımda o qədər dərin izlər buraxıb ki! Özümü dərk edəndən yalnız Vətənin rifahı üçün çalışmaq, onun azadlığını, yüksəldiyini düşünən oldu bu beynim...

12 dekabr 2003-cü il tarixi... O zaman yeddi yaşım vardı. Öncə anlamamışdım. Gördüm ki, hər kəs qəm dəryasına qərq olub. Sonra Sizi itirdiyimizi mənə izah etdilər. Çox yaxşı anlamasam da, mənə cənnətə getdiyinizi dedilər. Amma içimdə bu acı həqiqəti qəbul edə bilmirdim. O kiçik, kövrək qəlbim bu həyatdan getdiyinizə görə elə döyünürdü ki!

Heç də sevinməsin ölüm! Almadı Sizi bizdən, babam! Yalnız cisminiz yoxdur yanımızda. Tarix yaratdığı və yaşatdığı şəxsiyyətləri heç vaxt öz səhifəsindən silməz. Hətta zaman keçdikcə yaddaşlarda daha da yaxşı həkk olunmasına sövq edər.

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

«Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycan kimi vətənim olduğuna və Azərbaycanı təmsil etdiyimə görə özümü həmişə xoşbəxt saymışam.» Bəli, bu dərin, mənalı düşüncələrdən ibarət olan, Sizi ifadə edən fikirlər, kəlmələr mənim üçün çox qiymətlidir. Kimisi savadıyla, kimisi gördüyü işlərlə, kimisi zamanla apardığı mübarizədə qalib gəlməsi ilə fəxr edər. Özünü daha da yenilməz sanar. Mənsə Vətənimlə, onun yetişdirdiyi Sizin kimi dahi şəxsiyyətlə qürur duyur, fərəhlənirəm. Bu müstəqil dövlətdə xoşbəxt, düşüncəli insanların əhatəsində yaşadığıma görə özümü xoşbəxt sayıram.



Dahi şəxsiyyətin – Heydər babanın çıxışlarına qulaq asarkən hər kəs onun natiqliyinə heyran qalardı. Məktəbli olmağıma baxmayaraq, bildirməliyəm ki, Heydər Əliyev məhz gözəl natiq idi. Öz gözəl natiqliyi ilə böyük şəxsiyyətləri valeh edirdi. Özbəkistan Respublikasının prezidenti İslam Kərimov çıxışlarının birində bu müdrik insanın – Heydər babanın əsl natiq olduğunu vurğulamışdır. Hətta İslam Kərimov onun ensiklopedik yaddaşa malik olduğunu bildirmiş və Heydər Əliyevlə yarışa bilməyəcəyini ifadə etmişdir. Tarix, fəlsəfə, ədəbiyyat və dilin müxtəlif istiqamətləri ilə bağlı adları yaxşı yadında saxladığına görə ona qibtə ilə yanaşdığını öz nitqində qeyd etmişdir.

«Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlı olmağı hər bir kəs özü seçir», – deyərdi Heydər baba. O, öz xalqına yardım edib, onu işıqlı gələcəyə aparan şərəfli yolu seçdi.

Xalqın çağırışına səs verib onun yardımına yetişən Ümummilli Liderimiz Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra güntək bu xalqın qaranlıq dünyasına doğdu.

Heydər baba, ən ümdə arzunuz məhz torpaqlarımızın azad olunmağını görmək istəyi idi. Hər bir çıxışınızda bunu xüsusi vurğuladığınızın şahidi olmuşam. Təbiəti, sərvəti, gözoxşayan gözəllikləri, füsunkarlığı ilə hər kəsi riqqətə gətirən bu torpaqlar hələ də düşmən tapdağı altındadır. Amma inanıram ki, əzəli və əbədi torpaqlarımız yenidən bizə qaytarılacaq. Hal-hazırda davamçınız İlham Əliyev cənabları ölkəmizin inkişafı, çiçəklənməsi, torpaqlarımızın sülh yolu ilə geri qaytarılmasıyla bağlı addımlar ataraq, Sizin yolla gedib, yaratdığınız inkişaf strategiyasını davam etdirir.

«Müstəqillik yolu qədər çətin yol yoxdur», –deyibsiniz. Amma Siz də məhz bu yolla gedərək Azərbaycanın alovundan, odundan ilham ala-ala, milyonlarla azərbaycanlını bir araya gətirib müstəqillik məşəlini yandırdınız.

Biz Ulu Öndərin – babamız Heydərin davamçılarıyıq. Çiynimizdə ağır bir yük olduğunu bilirik bə bu yükü lazımi səviyyədə daşıyırıq.

Heydər baba, hal-hazırda davamçınız olan İlham Əliyev cənabları bu yükü öz çiyinlərində uğurlu gələcəyimiz üçün yorulmadan daşıyır. O, heç vaxt biz gənclərdən öz diqqət və qayğısını əskik etmir.

Bizi döyüşə, qələbəyə, ülvi, saf Vətən məhəbbətinə səsləyən Sizsiniz, babam!

Sizin sayənizdə 31 dekabr tarixi gün olaraq Azərbaycanlıların Həmrəylik Günü kimi tariximizdə yeni səhifə yaratdı. 1994-cü ildə ən əhəmiyyətli hadisə olan «Əsrin müqaviləsi» imzalandı. Bu, gələcəyə işıqlı yolun açılması idi. 2001-ci ildə artıq ölkəmiz Avropa Şurasının tam hüquqlu üzvü seçildi. Xalqımızın rifahı naminə etdiyin əməlləri sadalamaqla bitərmi? Məncə, yox! Mən ona görə qürur duyuram ki, yaşadığımız bu həyatı, hüzuru bizə bəxş edən babamdan yazıram. Əvəzedilməz, qəlbitəmiz, dürüst olan babamızdan yazıram. Bu qədər önəmli insan haqqında inşa yazdığıma görə çox həyəcanlıyam. Qələm tutan əlim titrəyir.

İnşanı yazarkən nurani çöhrənizi gözlərimin qarşısında canlandırdım. Vətən yanğısını, Qarabağ həsrətini ifadə edən gözlərinizi xatırladım. Gözlərinizdəki bir nisgili gördüm. Qarabağ həsrətini ifadə edən nisgil... Amma söz veririk ki, torpaqlarımıza ayaq basıb Azərbaycanın bayrağını yenidən ora sancacağıq. O gün çox yaxındır. Həsrətini duyacağımız qədər yaxın.

İnşamı heç bitirmək istəmirəm. Elə istəyirəm ki, siyasətdən, hikmət xəzinənizdən söz açım. Sevgi dolu hisslərimi aşılayım. Bircə bunu demək istəyirəm ki, xalqın Sizə olan sevgisi sonsuzdur.

*Nə qədər Azərbaycan,*
*Nə qədər bu millət var,*
*Heydər «Xalqım» – deyəcək,*
*Xalq «Heydər» – söyləyəcək.*
*Sən elə bir zirvəsən,*
*Baxmağa gözlər aciz*
*Səni mədh eləməyə.*
*Qələmlər, sözlər aciz.*

Səhifələrə sığmayan düşüncələrimin bir hissəsini ifadə edə bildimsə, özümü xoşbəxt hesab edirəm.





**_Ramizli Səmrəxanım Vasif qızı_**
**_Zərdab rayonu, Rəsul Rza adına_**
**_Əlibəyli kənd tam orta məktəbin_**
**_XI sinif şagirdi_**

Heydər Əliyev demişdir: «Nə qədər ki, Azərbaycan var – Mən varam. Mən isə Azərbaycanda əbədi qalacağam».

Tarix gözəl şəxsiyyətlər yaradır, dahi insanlar yetişdirir. Heydər Əliyev iki əsrin və iki minilliyin qovşağında milli siyasi zəkası ilə müstəqil Azərbaycan yaradaraq üçüncü minilliyə gətirib çıxarmışdır. Qərinələrin yaddaşında olan tariximizin səhifələrini vərəqləyərkən ömrün nə qədər qısa olduğunu düşünürsən. Lakin mənalı ömrün keçdiyini xatırlayanda insanlara lazım olduğunu bilirsən. Hər bir dahi insanlar, gözəl şəxsiyyətlər dövlətin özünün sərvəti hesab olunur. Heydər Əliyev öz adını Azərbaycanın tarixinə qızıl hərflərlə yazmış şəxsiyyətlərdəndir. Ulu öndər, siyasətçi, gözəl natiq daha nələr-nələr deməklə söz bitməz.

Heydər Əliyev 1923-cü ilin 10 mayında Naxçıvan Muxtar Respublikasında fəhlə ailəsində anadan olmuşdur. 1969–1982-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi işləyərkən böyük uğurlara imza atdı. Heydər Əliyev 250-dən çox fabrik, zavod inşa etdirdi, 630 minə yaxın işsiz işlə təmin olundu. Rüşvətxorluğa və korrupsiyaya qarşı bir çox tədbirlərə imza atdı. O, hakimiyyətdə olmadığı vaxtlarda da Azərbaycanın taleyi ilə maraqlanmış, sevinci ilə sevinmiş, kədəri ilə kədərlənmiş, ağrıları ilə ağrımışdır. Çünki o əsl azərbaycanlı idi. Heydər Əliyev dahi şəxsiyyətdir. 1990-cı il hadisələrindən sonra Heydər Əliyev Moskvada qalmaq istəməmiş və Azərbaycana – vətəninə gəlmək istəmişdir. 1991-ci ildə, nəhayət, Azərbaycana qayıtmış və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilmişdir. O hətta prezidentliyə namizədliyini irəli sürmüşdür. Lakin Ayaz Mütəllibov prezidentliyə yaş senzini əlavə etdi. Heydər Əliyev bundan sonra daha yaxından Azərbaycanın daxili və xarici işləri ilə maraqlanmağa

başladı. 1992-ci ildə 91 nəfər ziyalı Heydər Əliyevə müraciət etdi və Yeni Azərbaycan Partiyasına sədr olmağı xahiş etdilər. 1993-cü ildə Heydər Əliyev 15 iyun tarixində Ali Sovetin Sədri seçildi. Həmin gün tarixə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. 1993-cü ilin oktyabrın 3-də isə prezident seçildi. Bu vaxt ölkədə vəziyyət gərgin idi. Ölkə müharibə şəraitində idi. Heydər Əliyev hətta həmin vaxtda müharibə gedən zaman cəbhəyə gedir, əsgərlərinin vəziyyəti ilə maraqlanır, yaralıların halının necə olmasını soruşurdu. Bəzi qüvvələr 1992–1995-ci illər arasında Azərbaycanı parçalamağa çalışırdılar. Amma Heydər Əliyev buna imkan vermədi və dövləti parçalanmağa qoymadı. Hər bir kəs – Heydər Əliyevlə tanış olan insan, onun necə yaxşı insan olmasından danışır və həmişə də danışılacaqdır. Heydər Əliyev ciddi insan olmasına baxmayaraq, həm də səmimi insan olmuşdur. Onun amalı bir, əqidəsi dəyişməz olmuşdur: tutduğu yoldan dönməmək. O, öz vəzifəsini uğurla başa vuran insan olmuşdur. «Mən Azərbaycan xalqına xidmət edirəm və bundan sonra da vəzifəmi şərəflə yerinə yetirəcəyimə söz verirəm». Heydər Əliyev barədə müxtəlif əsərlər, şeirlər, yazılır və burada onun dahi şəxsiyyət olmasından söz açılır. Gözəl şairlərimizdən biri olan Mübariz Səfiyaroğlu Heydər Əliyevi öz şeirində tərənnüm etmişdir.

*Milli iftixarından,*
*Xidmət açdı bu ellər.*
*Ey xalqın xilaskarı*
*Xalqın atası Heydər.*

Doğrudan da, Heydər Əliyev xalqın atası olmuşdur. Həmişə xalqının yaxşı yaşaması üçün çalışmışdır. Heydər Əliyev 1994-cü ilin 20 sentyabrında ən böyük müqavilələrdən biri olan, «Əsrin müqaviləsi»ni imzaladı. O, 1995-ci ilin 12 noyabrında yeni konstitusiya qəbul etdi. Heydər Əliyev hakimiyyətdə olduğu illərdə Azərbaycanın müxtəlif təşkilatlara daxil olmasını təmin etdi.

Heydər Əliyev həmişə müəllim adını uca tutmuş və müəllimlərə hörmət bəsləmişdir. Müəllimi ən ali varlıqdan da uca tutmuşdur. O, son on ildə vəzifədə olan zaman xalqın necə vəziyyətdə yaşaması ilə tanış olmuş, şəhər və rayonlara getmiş, xalqla maraqlanmışdır. O, həmişə insanları oxumağa, təhsil almağa, kamil insan olmağa, cəmiyyətimizə fayda verməyə çağırmışdır. Heydər Əliyev həmişə deyirdi ki, oxumaq insanların ən vacib məsələlərindən biridir. 1998-ci ildə xalq yenidən Heydər Əliyevi prezident seçdi və o xalq qarşısında ömrünün sonuna qədər Azərbaycan xalqına şərəflə xidmət edəcəyinə and içdi. Həmin il Heydər Əliyev uğurlara imza atdı. 1998-ci ildə senzuranın ləğvi, ölüm hökmünün ləğvi, insan hüquqlarının qorunması haqqında qərar verdi. Bu qərardan sonra Ombudsman qurumu yaradıldı. Heydər Əliyev görkəmli siyasi xadim olmaqla yanaşı, böyük siyasətçi olmuşdur. Həmişə hər bir məsələni sülh yolu ilə həll etməyə çalışmışdır. Heydər Əliyev xarici səfərlərə gedən zamanlarda da özü vətəndə olmasa da, ürəyi vətəndə olmuşdur. Heç vaxt xalqının pis güzəranda olmasını istəməmiş, xalqının yaxşı vəziyyətdə olmasına çalışmışdır. Onunla tanış olan insanlar Heydər Əliyevlə olan xatirələrindən danışır və onu yad edirlər. Respublikamızın müstəqil olmasında Heydər Əliyevin çox böyük xidməti vardır. Heydər Əliyev siyasi xadim olmaqla yanaşı, həm də general olmuşdur. Həmişə dahi insanların adı çəkilən zaman onun adı da həmin dahi insanların adı ilə bir çəkilmişdir. Heydər Əliyev öz sözünü demiş şəxsiyyətlərdəndir. Həmişə hamını bərabərliyə səsləyən Heydər Əliyev demişdir: «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Heydər Əliyev verdiyi sözə əməl etdi və Azərbaycanı bütün dünyaya tanıtdı. Düz deyirlər ki, bu gün «Müstəqil Azərbaycan Respublikası» Heydər Əliyevin adı ilə bağlıdır, onun şah əsəridir. Heydər Əliyev əgər olmasaydı, onda Azərbaycan Respublikası olmazdı. Tarix bizə Heydər Əliyevi verməklə, böyük bir uğur qazandığımızı anladıq. Heydər Əliyev savadlı, ağıllı, düşüncəsi və intelektual potensialı ilə ana yurdumuz olan Azərbaycanımızı xilas etdi. Heydər Əliyev 2003-cü il 12 dekabrda vəfat etdi. Bu xalq üçün ən ağır hadisələrdən biri idi. Heydər Əliyev bu dünyadan rahat köçdü. Cavan, qoca, uşaq – hamı onun qəbri üstünə gedir, qərənfil qoyurlar. Min illər keçsə də, Heydər Əliyev heç vaxt unudulmayacaq, o, özündən sonra müstəqil Azərbaycanı bir əmanət kimi qoyub getdi. Heydər Əliyevin qurduğu dövlət indi də müstəqildir. Onun böyük davamçısı İlham Heydər oğlu Əliyevdir. İlham Əliyev də öz atasının siyasətini davam etdirir. Heydər Əliyev özü 1993–2003-cü illər arası işğalda olan torpaqlarımızı qaytarmağa çalışmış, bir çox xarici səfərlər etmiş, sülh yolu ilə torpaqlarımızın qayıtmasını istəmişdir. Xalqımız həmişə Heydər Əliyevə dualar etmiş, onu ana yurdumuzun üstündən çəkilməməsini istəmişdir. İlham Əliyev də Heydər Əliyev kimi müxtəlif yerlərə, yəni ölkələrə, şəhərlərə səfər edir, torpaqlarımızın mənfur düşmənlərdən alınmasını danışır, həll etməyə çalışır. Bu gün dövlətimiz artıq müstəqildir, azaddır. Heydər Əliyev nəsillərə nümunə olan ən böyük şəxsiyyətdir. Heydər Əliyevin sayəsində indi bütün dünya bizi tanıyır. Biz bu gün Heydər Əliyevə minnətdar olmalıyıq ki, bu cür böyük dövlət yaratmışdır. İndiki dövrdə İlham Əliyevin nailiyyət-

ləri nəticəsində Azərbaycan Respublikası daha da inkişaf edir, çiçəklənir. Ölkəmizdə yeni iş yerləri, müxtəlif zavod və fabrikləri saymaqla qurtarmaz. İndi bizim dövlət 200-ə yaxın təşkilatla əlaqə saxlayır və həmin təşkilatlara üzv olur. Heydər Əliyev – o böyük siyasətçi, dahi şəxsiyyət, Azərbaycanın qurucusu həmişə yaddaşlarda qalacaq. İlham Əliyev də öz növbəsində Heydər Əliyev kimi öz siyasətini davam etdirir. İlham Əliyev çalışır ki, Heydər Əliyevin qurduğu dövləti daha da inkişaf etdirsin. İlham Əliyev demişdir; «Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var». Ordumuz ilə işğalda olan torpaqlarımızı tezliklə azad edəcək. Heydər Əliyevin də ruhu şad olacaq.

Heydər Əliyev ölsə də, onun qurduğu Azərbaycan Respublikası həmişəlik, əbədi olaraq yaşayacaq. Onun ruhu həmişə Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq.





***Məhərrəmzadə Fidan Eynur qızı***
***Şəmkir rayonu, Düyərli kənd***
***1 nömrəli tam orta məktəbin***
***IX sinif şagirdi***

*Böyük şəxsiyyətlər tək-tək yetişir*
*Hər sözün, hər anın öz məqamında*
*İllər ötüşdükcə zaman dəyişir,*
*Şəxsiyyət dayanır öz məkanında*

Ökəslər tarixi şəxsiyyətə çevrilirlər ki, onlar tarixi yaratmağı bacarırlar. Qədim çinlilərin yaxşı bir aforizmi vardır: «Əsl şəxsiyyət xalqını zülmətdən çıxaran, onu işıqlı və xoşbəxt gələcəyə aparan bir şəxsdir». Tanrı həmişə belə insanları qoruyur və hifz edir. Belə şəxsiyyətlərdən biri də ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevdir.

Mən bu böyük şəxsiyyət haqqında inşa yazdığıma görə çox sevinirəm. Qəlbim qürur hissi ilə doludur.

XX əsr tarixə neçə-neçə böyük şəxsiyyətlər bəxş edib. Heydər Əliyev də həmin əsrin böyük şəxsiyyətlərindəndir. O, bütün həyatını vətəninə, xalqına bəxş edən bir insandır. O, günəş ucalığındadır, vətənin sevimli oğludur, unudulmazdır, ölməzdir. O, müstəqil Azərbaycan dövlətinin qurucusudur.

Bağışla məni, əziz babam! İnan ki, ürəyimdə sənə qarşı çox böyük, çox dərin hislər var. Amma bunu lazımınca deyə bilmirəm. Qəlbimdəki hisləri nədənsə misralara tökə bilmirəm. Ürəyim bərk döyünür, əllərim titrəyir, qorxuram ki, sənə həsr etdiyim sözlər yadımdan çıxa. Bir yandan sevinirəm ki, səndən – əziz babamdan yazıram.

Heydər Əliyev Azerbaycanın daim yanan və heç zaman sönməyəcək çırağıdır. O, həmişə çətin günlərdə xalqının, millətinin yanında oldu, ona arxa durdu.

Ulu öndər Heydər Əliyev və Azərbaycan! Bu iki kəlmənin vəhdəti olduqca böyükdür. Yəni Heydər Əliyev Azərbaycansız, Azərbaycan isə Heydər

Əliyevsiz ola bilməz. Ulu Öndər güclü bir dövlət yaratdı. Bunun səbəbi isə xalqın ona dayaq olması idi. Xalq onu sevirdi, hələ də sevir və sevəcək də.

Heydər babam! Sənin, həqiqətən də, qüdrətin çox böyükdür. Sənin qüdrətini vəsf etməyə yalnız dahi söz ustalarının gücü çatar. Ancaq onlar sənin böyüklüyündən söz aça bilər.

Azərbaycan bir zirvədir, Heydər Əliyev bu zirvənin fatehidir. Millətimizə bir anda doğan bir günəşdir. (O olmasaydı biz də olmazdıq!Əldə etdiyimiz bütün uğurlar da olmazdı.) Xəlil Rza Ulutürk çox yaxşı demişdir.

*Vətəndaş olmasa, boş şeydir vətən*
*Beş günlük, on günlük güney qarıdır.*
*Vətən məfhumunun arxasındakı*
*Vətənin vüqarlı oğullarıdır.*

Deyirlər ki, insanın doğulduğu fəsil, tarix onun həyatına təsir edir. Həqiqətən də, bu, belədir. Ulu öndər Heydər Əliyev 1923-cü ildə 10 mayda Nəqşi–Cahanda – dilbər guşələrimizdən olan Naxçıvanda anadan olmuşdur. Atası Əlirza kişi dəmiryolçu olmuşdur. Əlirza kişi və İzzət xanımın ailəsində balaca Heydər, Həsən, Hüseyn və Surədən sonra Aqil, Cəlal, Şəfiqə və Rəfiqə dünyaya gəlmişdir. Heydər Əliyev uşaqlıq illərini Naxçıvanda keçirmişdir. Hələ uşaqlıqdan vətənpərvər olmuşdur.

O, 1939-cu ildə Naxçıvan Pedoqoji Texnikumunu, 1957-ci ildə isə BDU-nun tarix fakültəsini bitirir. Ümummilli lider uşaq ikən tarixi dərindən öyrənir. Vətən tarixi ilə yaxından tanış olur. Azərbaycanımızın 34 illik çiçəklənmə dövrü onun adı ilə bağlıdır. O deyirdi: «Mən xalqıma həmişə güvənmişəm. Uzun illər dövlət işlərində çalışmışam. Mən fəxr edirəm ki, azərbaycanlıyam!..»

*Verdin ürəyini, verdin qəlbini,*
*Verdin ilham dolu məhəbbətini.*
*Millətin yolunda gündüz – gecəni*
*Nurunla boyadın, ey ulu Heydər!*

Heydər Əliyev 1993-cü il iyunun 15-də Milli Məclisin sədri seçilib. 1993-cü il iyunun 24də xalqın istəyi və Milli Məclisin qərarı ilə Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini qəbul edib.

Xalq o ağır günlərdə mübarizəyə qalxdı. Heydər Əliyev o günlərdə də xalqının yanında oldu.



*Xalq ayağa qalxdı, gəl, Heydər, – dedi*
*Bu xalqa, bu yurda ol rəhbər dedi*
*O gəldi, özünə qayıtdı millət*
*O gəldi yüksəldi üçrəngli bayraq*
*Gəzdi ölkə-ölkə şöhrəti şanı*
*Dünyaya tanıtdı Azərbaycanı.*

O, bizim xilaskarımız oldu. Gəlişi ilə abadlıq işləri gördürdü, sərhədlərimizin təhlükəsizliyini bərpa etdi, atəşkəs yaratdırdı «ipək yolu»nu bərpa etdi, bayrağımızı dünya bayraqları arasında dalğalandırdı, bir sözlə, Azərbaycanı bütün dünyaya tanıtdı.

*Xalqını dünyaya tanıtmaq üçün*
*Səsi qanadlandı altı qitədə*
*İndi diqqəti var bütün dünyanın*
*Azərbaycan adlı bir xəritədə.*

Heydər Əliyev bənzərsiz bir insan idi. Onun tayı-bərabəri yoxdur. Onun etdiklərini heç bir insan etməyib, etməyəcək də! Bu şeir sanki onun sözləri idi.

*Azərbaycan oğluyam*
*Odu allah sanmısan*
*Anam torpaq, atam od*
*Mən oddan yaranmışam.*

Mənim əziz babam, məncə, sən çox bəxtəvər insansan, çünki xalqın səni cox sevir, səni ehtiramla yad edir. Sağlığında xalqın səni çox sevib. Özözümə sual verirəm ki, həqiqətən də, belə vətənpərvər insan ola bilər?! Mən bu sualın cavabını səninlə tapdım və inandım ki, həqiqətən də, dünyada belə insanlar var.

İnsanlar deyir ki, əsl lider danışanda insanlar ona diqqət kəsilir. Heydər Əliyevi dinləyənlər təsdiq edirlər ki, o danışanda hamı ona diqqətlə qulaq asırdı. Plutarx deyib: «Nitq bacarığı əslində çox şeyi az sözlə ifadə etməkdir». Bu isə Platonun fikridi:

«Ən gözəl sənət danışmağı bacarmaqdır». Heydər Əliyev səlis danışığı, duruşu, görünüşü ilə də hamını heyran edirdi.

*Ulu tanrım yaradanda,*
*Əl gəzdirib camalına,*
*Şölə tutub kamalına*
*Bənzərsiz yaradıb səni*
*Heydər ata! Heydər ata!*

Ulu öndər Heydər Əliyev türk dünyasının ikinci Atatürküdür. Vaxtilə Atatürk Türkyədə necə bir dönüş yaratmışdısa, Heydər Əliyev də bu dövləti yenidən yaratdı.

*Sən dünəndən bu günə,*
*Bu günündən sabaha,*
*Yol göstərən mayaksan*
*Sən bizim qəlbimizdə*
*Daim yaşayacaqsan.*

Heydər Əliyev cismən aramızda olmasa da, ruhən, qəlbən aramızdadır. Çox təəssüflər olsun ki, o, 2003-cü il 12 dekabrda əbədiyyətə qovuşdu. Bütün türk dünyasına ağır itki üz verdi. Xalqımız yasa büründü. Ümummilli lider adına layiq şəkildə yola salındı. O, Bakımızın ən gözəl guşəsində Fəxri xiyabanda dəfn olundu. Xalqımız onu göz yaşları ilə yola saldı. Amma yenə də o ölməyib, o, biizm qəlbimizdə yaşayır və həmişə yaşayacaq! Tarix və xalq Heydər Əliyevi heç vaxt unutmayacaq!

*O ölməmiş.. ölə bilməz*
*Vətən üçün, millət üçün doğulanlar*
*Arzusuyla, əməliylə, zəkasıyla*
*Millətinin gözlərinə nur olanlar*
*Ölə bilməz! Millətinin sevinciylə, kədərini*
*Ürəyində gəzdirən kəs, böyüdən kəs.*

Var olsun belə oğul yetişdirən torpaq! Var olsun belə uşaq böyüdən ataana! Var olsun onu yaradan Uca Tanrı! Gözlərə nur, ürəklərə məlhəm olan, 2 prezidentdən birinin həyat yoldaşı, həmdəmi, o birisinin anası Zərifə Əliyeva! Yerin behişt olsun! Yaşa, çox yaşa bir evin həm qızı, həm gəlini İlham Əliyevin həyat yoldaşı Mehriban Əliyeva! Sağ ol cənab prezidentimiz İlham Əliyev!

Mən özümə söz vermişəm ki, Heydər babam kimi Azərbaycanımızın tarixini dərindən öyrənəcəyəm! Vətənə, millətə layiqli övlad olacam! Bunun üçün də çox oxuyub çox çalışacağam!

Ən böyük arzum budur ki, işğal altında olan torpaqlarımız, gözəl Qarabağımız geri qaytarılsın. Əsirlikdə olan «Xarı Bülbül»ümüz qurtulsun! Top-tüfəng səsindən hürkmüş durnalar geri qayıtsın. Qarabağın ən əzəmətli bir yerində heykəlin ucaldılsın, Heydər babam!

*Qalxacaq Öndərim, bir gün heykəli*
*Bizim Qarabağın Cıdır düzündə*



*Heydər canlanacaq onun üzündə*
*Bir azadlıq heykəli görür.*
*Gözlərim mənim.*
*O, sənin heykəlindir, o, sənin heykəlin.*

Biz sənin heykəlinlə söhbət edək və sən bizə deyəsən:

*Dayanın! Dinləyin! Sizə sözüm var*
*Siz ey gələcəyə gedən yolçular*
*Heydər dastanından ilham alanda*
*Vətən tarixinə nəzər salanda*
*Xalqımı xoş görüb, sevinəndə siz*
*Məni aranızda hesab edərsiz.*

Biz hamımız Heydər Əliyevin getdiyi yol ilə addımlamalıyıq, ona səcdə etməliyik. Heydər Əliyev çox şanslıdır ki, onun İlham Əliyev kimi davamçısı var.

*İşıqlı, nurlu sabah*
*O, Heydər Əliyevdir.*
*Gələcəyə İlhamla bax*
*O, Heydər Əliyevdir.*

Heydər Əliyev «Əsrin müqaviləsi»ni imzaladı. Bununla da Azərbaycanın neft strategiyası gerçəkləşdi. Bakı–Tbilisi–Ceyhan əsas İxrac Boru Kəmərinin tikilişində Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Bunu qiymətləndirərək boru kəmərinə və Ceyhan terminalına onun adı verilmişdir. Ürəyimdən bu misralar keçir.

*Nə qədər Azərbaycan*
*Nə qədər bu millət var.*
*Heydər «Xalqım» deyəcək*
*Xalq «Heydər» söyləyəcək*

*Başı qarlı zirvəsən*
*Baxmağa gözlər aciz*
*Səni mədh eləməyə*
*Qələmlər, sözlər aciz*

Qarşıdan gələn 90 illiyin – 10 may günün – ən xoş günün mübarək olsun, əziz babam!

Biz hər il məktəbimizdə Heydər Əliyevin doğum gününə həsr olunmuş tədbir keçiririk.

Qarşıdan gələn prezident seçkilərində İlham Əliyevə uğurlar arzulayıram. Gəlin hamımız ona dəstək olaq.

Mən bütün yaşıdlarımı və insanları mübarizəyə səsləyirəm.

*Gəl bacım, gəl qardaşım,*
*Bir olaq, birlik olaq.*
*Sinəsi dağlanmasın,*
*Bölünməsin bu torpaq.*

Yaşa mənim xalqım, min yaşa! Mən inşamı bu misralarla bitirmək istəyirəm.

*Zirvədən enən deyilik!*
*Yanmışıq sönən deyilik!*
*Bu yoldan dönən deyilik!*
*Yolumuz Heydər yoludur!*

*Yolumuz zirvəyə, günəşə, aya*
*Heydər zirvəsindən baxaq dünyaya!*





## *Kərimova Aysel Azim qızı*

***Beyləqan şəhəri, 7 nömrəli təbiət və humanitar fənlər təmayüllü liseyin IX sinif şagirdi***

*«Anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib...»*

**Heydər Əliyev**

Biz, bütün gənclik Heydər Əlirza oğlu Əliyevin irsini öyrəndikdə, onun söylədiyi fikirlərin zaman-zaman özünü isbat etdiyini və Azərbaycanın varlığı ilə bahəm səsləndiyini müşahidə edirik. Heydər Əliyev bütün hakimiyyəti dövründə Azərbaycanın inkişafına, müstəqilliyinə çalışmışdır. Mən Heydər Əliyevə həsr olunan mənbələrdən onun haqqında oxuduqda, sanki böyük bir dəryanın içinə düşdüm. Mən, bir 9-cu sinif şagirdinin bir inşa daxilində Heydər Əliyev haqqında, onun Azərbaycan üçün gördüyü işlər haqqında fikir bildirməsini mümkünsüz saysam da, böyük həyəcan və həyəcan hissindən daha çox, məsuliyyət hissi ilə qarşı-qarşıya dayandım.

Heydər Əliyev haqqında çəkilən fraqmentləri izlədikcə onun Azərbaycana olan sevgisini açıq-aşkar gördüm.

Heydər Əliyev dedikdə Azərbaycan, Azərbaycan dedikdə isə Heydər Əliyev yada düşür. Heydər Əliyevin istər 1969–1982-ci illər, istərsə də 1993–2003-cü illər hakimiyyət dövrü Azərbaycanın inkişafına həsr olunmuşdur.

Heydər Əliyevin irsini öyrəndikdə onun bu dünyaya bir missiya ilə gəldiyini şahidi oluruq. Bu missiya, Azərbaycanı tanıtmaq, imzamızın dünya imzaları arasında həkk olunmasına nail olmaqdır.

Azərbaycan xalqının xoşbəxtliyi onda idi ki, xalq əsl liderini tapmış və onu təkidli tələbləri ilə hakimiyyətə gətirmişdi. Tarixi mənbələrdən bizə

məlum olduğu kimi, 90-cı illərdə Azərbaycanın başı üstündə qara buludlar yığılmışdı. Həmin dövrdə Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorumaq üçün bir sıra işlərə imza atdı. 1990-cı ildə Bakıda baş vermiş qanlı hadisələrə məhz Heydər Əliyevin təşəbbüsü ilə siyası qiymət verildi.

Heydər Əliyev hələ 1991-ci ildə Naxçıvan Ali Məclisinin sədri olarkən, 31 Dekabr tarixini dünya azərbaycanlılarının həmrəylik günü elan etdi.

Heydər Əliyevin təşəbbüsü ilə M.S.Qorbaçov ilk dəfə olaraq açıq şəkildə «cinayətkar» adlandırıldı.

2011-ci ildə Bakıda keçirilən Dünya azərbaycanlıların I qurultayında Ümummilli lider Heyər Əliyevin söylədiyi fikir indi bütün azərbaycanlıların şüarına çevrilib. O deyirdi: «Əgər azərbaycanlısansa, bilməlisən, dünya azərbaycanlılarının bir dövləti var – Azərbaycan, azərbaycanlıların bir tarixi Vətəni var – Azərbaycan».

Heydər Əliyev Azərbaycan fəlsəfəsinin tarixində yeni bir səhifə açdı. O, azərbaycançılıq fəlsəfəsinin əsasını qoymuşdur. Mən Heydər Əliyev haqqında yazılan kitabları vərəqlədikcə, onun öz Vətəninə necə vurğun olduğunu gördüm. Bu gün Heydər Əliyev haqqında inşa yazmaq mənim üçün böyük qürur mənbəyidir.

Heydər Əliyev yer üzərinə səpələnmiş 50 milyon azərbaycanlını birləşdirmək üçün bir çox işlər görmüşdür. Heydər Əliyev bu barədə deyir: «Dünya azərbaycanlılarının Azırbaycana bağlanması, Azərbaycanla yaşaması üçün vacib olan bir ideya var, bu azərbaycançılıq ideyasıdır. Bu ideyanı biz – azərbaycanlılar yaratmışıq, biz də yaşatmalıyıq, inkişaf etdirməliyik və onun əsasında da birləşməliyik».

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdə Azərbaycanın müstəqilliyini qorudu. Bu dövrdə Heydər Əliyev azərbaycanlıların milli qürurunu özünə qaytardı. «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam». Bu sözlər Heydər Əliyevin Azərbaycanı nə qədər çox sevdiyini göstərir. Məhz bu sözlər bütün dünya azərbaycanlılarının şüarına çevrilmiş və onlarda Azərbaycana qarşı olan məhəbbəti artırmışdı. Bu gün dünyada yaşayan bütün azərbaycanlılar qürur hissi ilə «Azərbaycan mənim ana Vətənimdir», deyir. Bu da Heydər Əliyevin azərbaycançılıq siyasətinin nəticəsidir.

Mən 9-cu sinif şagirdi olaraq Heydər Əliyevin uşaqlara göstərdiyi qayğını, uşaqlara qarşı olan sevgisini gördükdə, onun bir dövlət başçısı olduğunu unutdum, sanki o, hər bir uşağın babası imiş kimi onlara qarşı səmimi davranır və hətta onlarla mahnı oxuyurdu. Bu da məndə Heydər Əliyevə qarşı olan sevgini daha da artırdı.



Heydər Əliyevin irsinin, dünyaya baxışının, vətəninə olan sevgisinin qaynağında Azərbaycana qarşı böyük məhəbbətin dayandığını görür, hiss edirik. Onun S.Vurğunun «Azərbaycan» şeirini söyləyərkən necə kövrəldiyini, yəqin ki, hər birimiz görmüşük. Bu, Heydər Əliyevin Azərbayacana olan sonsuz sevgisini, bağlılığını ifadə edir.

Mən Azərbaycanı bu qədər sevən, ona bu qədər bağlı olan bir şəxsiyyət haqqında inşa yazmağımla qürur hissi keçirirəm. Bu, mənim üçün böyük şərəfdir.

Heydər Əliyev hər bir azərbaycanlıya vətəni məhz onun kimi sevməyi, qorumağı öyrətdi. Azərbaycanın bugünkü inkişafı, yüksəlişi Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin siyasətini bu gün onun oğlu İlham Əliyev davam etdirir. Bunun nəticəsində Azərbayacan xarici ölkələrlə siyasi və iqtisadi əlaqələr qurmuşdur.

Bu gün Azərbaycan Heydər Əliyevin azərbaycançılıq siyasətinin nəticəsində, müasir, müstəqil və güclü bir dövlətdir.

Doğrudan da, Heydər Əliyev bütün ömrünü Azərbaycanın müstəqilliyinə və inkişafına həsr etmişdir. Bəli, Heydər Əliyev dünən olduğu kimi, bu gün də xalqımızın qəhrəmanlıq simvolu olaraq qalmaqdadır.

Biz Heydər Əliyev kimi böyük sərkərdənin xalqımızın taleyinə bəxş edilməsi və tarixi varlığı ilə fəxr edirik.

Bütün azərbaycanlılar kimi mən də, «azərbaycanlıyam» sözünü qürur hissi ilə deyirəm.

Müasir Azərbaycanın qurucusu olan Heydər Əliyev hər zaman azərbaycanlıların ürəyində yaşayacaq.



**_Əsgərova Həmidə Valeh qızı_**
**_Şabran şəhəri, 5 nömrəli tam orta məktəbin XI sinif şagirdi_**

Azərbaycan xalqının tarixində müstəsna rolu olan, xalq məhəbbəti qazanan ümummilli lider Heydər Əliyev biz gənclərə böyük örnəkdir. Heydər Əliyev dünyada müdrikliyi ilə şöhrətlənən, müstəqillik ideyalarını müdafiə edən bir liderdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Bu dahi şəxsiyyət 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş və Azərbaycan Sənaye İnstitutunda təhsil almışdır. Başlanan müharibə ona təhsilini bitirməyə imkan verməmişdir. Müharibə başa çatdıqdan bir müddət sonra, ümummilli lider Heydər Əliyev Leninqrad şəhərində xüsusi ali təhsil almış və Azərbaycan Dövlət Univeritetinin tarix fakültəsini bitirmişdir. Ulu Öndərin təhsildə əzmlə pillə-pillə yüksəlməsi, təhsilə yüksək önəm verməsi gənc nəslə örnəkdir. Heydər Əliyevin təhsilə yüksək qiymət verməsinin nəticəsidir ki, indi Azərbaycanda savadlı, istedadlı gənc mütəxəssislərin sayı çoxdur və gündən-günə artmaqdadır.

Ulu Öndərin Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan gənclərinə sevgisi sonsuz idi, onun ürəyi Azərbaycan kimi geniş, Odlar yurdu kimi hərarətli idi. Heydər Əliyev xalqına, vətəninə xidmət üçün doğuldu. Doğma yurdumuzun, Azərbaycanımızın inkişafı, istiqlalı uğrunda ömrünü şam kimi əritsə də, millətinin qəlbində özünə əbədi heykəl ucaltdı, özündən sonra biz gənclər üçün Müstəqil Azərbaycan Respublikası adlı mükəmməl bir dövlət qoyub getdi.

Heydər Əliyev irsinin gənc nəslin tərbiyəsində rolu əvəzolunmazdır. Ulu Öndərin həyat yolu biz gənclər üçün bir mayakdır. Heydər Əliyev qayğıkeş ata, mehriban baba və bütün gənclərə nümunə ola biləcək bir ailə



başçısı idi. Heydər Əliyev deyirdi ki, bizim gərək gənc kadrlarımız üzə çıxsın və XXI əsrdə gördüyümüz işlər, yaratdığımız bünövrənin, təməlin üzərində qalxan, ucalan və böyük bir dövlətə çevrilən Azərbaycanı irəliyə aparsın. Heydər Əliyevin bu sözləri gənc nəslin dilində atalar sözünə çevrilmişdi. Biz ondan öyrəndik azərbaycançılığı, ondan öyrəndik əsl vətəndaşlığı.

*Oyan, Heydər baba, indi bizə bax*
*Hər gün gözəlləşən yurdumuza bax.*
*Sevinir bu günü görən xalqımız*
*Ruhuna dualar oxuyuruq biz.*

Ulu öndər Heydər Əliyevin sözlərinə nəzər salaq: «Torpaqlarımızı, vətənimizi, Azərbaycanımızın suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni yerinə yetirmək hər bir Azərbaycan vətəndaşının borcudur.» Biz bu şərəfli vəzifəni layiqincə yerinə yetirəcəyik. İşğal altında olan torpaqlarımızı gündən-günə güclənən elmimizin, ordumuzun köməyi ilə azad edəcəyik. İnanırıq ki, ümummilli lider Heydər Əliyevin əzəmətli heykəli Azərbaycanın dilbər guşələrində – Xankəndində, Şuşada ucaldılacaq.

Heydər Əliyev Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycan gənclərinin sağlamlığını da düşünmüşdü. Ümummilli lider Heydər Əliyevin səhiyyə üçün etdikləri əvəzolunmazdır. Heydər Əliyevin Azərbaycan səhiyyəsinin beynəlxalq standartlara uyğunlaşmasında da rolu çox böyükdür. Bu dahi şəxsiyyət təmənnasız olaraq öz xalqı üçün çalışdı. Heydər Əliyevin səhiyyəyə yüksək qiymət verməsinin nəticəsidir ki, bu gün Azərbaycan xalqı, Azərbaycan əsgəri sağlam həyat yaşayaır, Azərbaycanın gənc nəsli sağlam dünyaya gəlir və sağlam həyat şəraiti yaşayır. Bunun nəticəsidir ki, bu gün Azərbaycan Mübariz kimi oğullar böyüdüb, orduya xidmət üçün göndərir. Belə oğulları olan dövlət yaşayacaq və yüksələcək.

Heydər Əliyev incəsənətə də böyük önəm vermişdir. Həmin önəmin nəticəsidir ki, Azərbaycan bir çox musiqi yarışmalarında birinci yerə layiq olmuşdur.

Azərbaycan idmanında da bu dahi şəxsiyyətin imzası var. Hər il Azərbaycanın bayrağı birinci yerə, ən yüksəyə qalxır idman yarışlarında. Azərbaycanın idmanı gündən-günə güclənir, zirvəyə ucalır.

Azərbaycanı qurdu, yaratdı. Buna görə də mən ümummilli lider Heydər Əliyevi bir memara bənzətsəm, yanılmaram. Heydər Əliyev Azərbaycanın dünənini, bu gününü deyil, sabahını da düşünürdü. Əsl dövlət başçısı belə

olmalıdır. Biz onu bir dövlət başçısı kimi, bir siyasətçi kimi çox bəyənirik. Heydər Əliyev beynəlxalq aləmdə tanınmış siyasətçidir. Heydər Əliyev elə bir zirvədir ki, biz həmin zirvəyə onun ətəyindən boylanırıq:

*Heydər baba, sən xalqının gözüsən,*
*Ürəyisən, nəfəsisən, sözüsən,*
*Xalqın sənsən, sən də xalqın özüsən,*
*Tariximiz qocadan da qocadır,*
*Heydər adı ucadan da ucadır.*

Min bir Azərbaycan gənci kimi Heydər Əliyevin sabaha açdığı azadlıq yolunu çox bəyənirəm. Hər bir Azərbaycan gənci, Azərbaycan vətəndaşı kimi bu şərəfli yolla büdrəmədən irəliləmək istəyirəm. Heydər Əliyev deyirdi ki, əsl vətənpərvər insan torpağını sevməlidir, yurdunu sevməlidir, dilini sevməlidir. Heydər Əliyev məhz belə vətəndaş idi.

Qoy ruhu şad olsun!





## Zeynalzadə Nigar Habil qızı

**Tərtər rayonu, Sabir Paşayev adına Umudlu kənd tam orta məktəbin IX sinif şagirdi**

Dünyaya gəlmək təbii qanundur, bəşəri qismətdir. Yaşamağı dərk edərək yaşayanlar, şəxsi müstəqilliyini yaradıcılıqla tənzimləyənlər, xüsusən mənalı ömür sahibləri ölmür, sadəcə yeri dəyişdirilir. Kimisi qəbir evinə qoyulur, bir maddədən başqa bir maddəyə çevrilir. Üzərində çox dəbdəbəli abidələr qoyulsa da, az zaman kəsiyində unudulur. Bax bu həm cismani, həm də mənəvi ölməkdir.

Fəqət istər qısa, istərsə də yaş, il baxımından, lap 100–150 il yaşayan hər kəs ömrü müddətində xalqın, vətənin, bəşəriyyətin, cəmiyyətin, ictimaiyyətinin diqqətini cəlb edən şəxsiyyətə çevrilə bilər. Belə insanlar tarixləşir, səmərəli əməyi ilə şöhrətlənir, cismani ölümü yeni əbədiyaşar ömrə başlayır və adı tarixin səhifələrinə qızıl hərflərlə yazılaraq yaddaşlardan-yaddaşlara töhfə olunur.

Dahi şəxsiyyətlər sırasında möhtəşəm mövqeyə malik, əbədi liderimiz Heydər Əlirza oğlu Əliyev haqqında heç bir mübaliğəyə yol vermədən belə bunları deməyi özümə borc bilirəm.

Hər bir azərbaycanlı kimi mənim də qəlbimdə uca, möhtəşəm bir məhəbbət yaşayır – Heydər Əliyev məhəbbəti. Odur ki, qadir Allahdan bir diləyim var, mənə qüdrət versin. Elə bir qüdrət ki, tariximin qızıl səhifələrini yazmış ümummilli liderimiz Heydər Əliyevə olan sevgi və məhəbbətimi ifadə edə bilim. Təbii ki, adi bir məktəbli üçün ürəyinin dərinlərində coşub-çağlayan duyğulardan söz açmaq olduqca çətin və məsuliyyətlidir. Onun həyatı, Rəsul Rza demiş, cild-cild kitaba sığmaz. Bu, ümmandan damla götürməkdir. Əgər bu şərəfə nail olsam, özümü nəinki Azərbaycanın, hətta dünyanın ən xoşbəxt bəndəsi hesab edərəm.

*Xalqı zirvəyə qaldırmaq üçün,*
*Sevgi şahlğının taxtına çıxdın.*
*Oğul xalq üçündür, zirvə dağ üçün.*

Bəli, bu həqiqətdir Heydər Əliyev Azərbaycanın, milli-mənəvi sərvəti, bəxtinə düşmüş Tanrı payıdır. Nadir, təkrarsız şəxsiyyət, müstəqil, gündən-günə qüdrətlənən, çağdaş Azərbaycanın memarı, yeni tarixinin qurucusudur. Bu dahi şəxsiyyət tarixi yaradan idi, tarixin özü idi.

Tarix isə yalnız böyük dühaların parlaq əməlləri sayəsində gələcək nəsillərə əmanət qoyulur. Azərbaycan xalqı dünyanın tarix kitabına Cavanşir, Koroğlu, Babək, Qızıl Arslan, Şah İsmayıl Xətai kimi şəxsiyyətlərin adını qızıl hərflərlə yazmışdır.

Şah İsmayıl Xətai XV əsrdə parçalanmaq üzrə olan Azərbaycanı birləşdirib, mərkəzləşdirilmiş dövlət yaratdı. Azərbaycan dilini dövlət dili elan edərək, dünya səviyyəsinə çıxarmışdır.

XX əsrin sonlarında isə Heydər Əliyev, Ş.İ.Xətai kimi ölkəmizi müstəqil eti. Qərbə, Şərqə işıq saçan müstəqil Azərbaycan yaratdı.

Müasir tariximizə nəzər salsaq, görərik ki, XX əsrdə Heydər Əliyev Azərbaycana rəhbər təyin olunana qədər respublikamıza qarşı ögey münasibət bəslənilirdi. Təbii ki, SSRİ rəhbərliyinin xalqımıza qarşı bu cür münasibət bəsləməsinə tarixi düşmənimiz olan ermənilərin fitnəkarlığı təsir edirdi. Milli dəyərlərimizə, adət-ənənələrimizə, bir sözlə, xalqımızın mənsub olduğu bütün xüsusiyyətlərə təcavüz edilirdi. Hətta bir çox hallarda öz doğma dilində danışmaq xalqımıza yasaq edilirdi.

Heydər Əliyevin Azərbaycana rəhbər təyin olunması ilə xalqımızın üzləşdiyi bütün çətinliklər, təqib və təzyiqlər aradan qaldırıldı.

Bundan sonra xalqımız bir daha sərt imtahanla üzləşdi. Tale xalqımızı növbəti dəfə ağır sınağa çəkdi. Bu dəfə «olum və ya ölüm» seçimi idi. Qardaş-qardaşa düşmən kəsilmişdi. Respublikamızda qarşıdurma gündən-günə güclənirdi. Nizaminin əbədi uyuduğu Gəncə dağılmaq üzrə idi və daha nələr.

Belə bir vaxtda Azərbaycanı cəsarətlə idarə edə biləcək oğul lazım idi. Bu cəsarət və qüdrət sahibi Heydər Əliyev ola bilərdi. Zamanın bu şir ürəkli oğlu sayəsində Azərbaycan çox uğurlara imza atmış, düşmənlərimizin məkrli siyasətindən və bunun ağır nəticələrindən xilas ola bilmişdi. Xalqımızın Heydər Əliyevi xilaskar kimi görməyə mənəvi haqqı çatırdı. Çünki bu dövlət, məhz onun ömrünün ən mənalı anları hesabına qurulmuşdur.



«Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram», – deyən Ümummilli Lider bunu sonrakı səyləri sayəsində bir daha sübut etdi. Təbii ki, əməlləri ilə.

Dahi şəxsiyyət həmişə gəncləri də düşünmüş, onların gələcək həyatı daima diqqət mərkəzində olmuşdur. O, gənclər qarşısında çıxış edərkən demişdir: «Gənclər xalqımızın milli, mənəvi dəyərləri əsasında tərbiyələnmişdir. Gənclərin tərbiyə edilməsində, təhsillənməsində, ümumbəşəri dəyərlərdən geniş istifadə olunmalıdır. Gənclər arasında iş bu istiqamətdə aparılmalıdır. Beləliklə, Ulu Öndərimiz gəncləri yaddan çıxarmır, onların milli zəmində tərbiyə olunmasını istəyir və tələb edirdi. Bu dünyaşöhrətli insanın ömür yolu biz gənclərin həyatında, dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayır. Məhz bu qeyri-adi şəxsiyyət Azərbaycanı öz cahanşümul uğurları ilə çiçəklənmə yoluna gətirib çıxardı.

Zirvələr fatehi bu insan «Əsrin müqaviləsi»ni imzaladı. Ətrafında minlərlə vətənpərvəri birləşdirən Yeni Azərbaycan Partiyasının yaradıcısı oldu. Azərbaycan xalq Cümhuriyyətinin üçrəngli bayrağı başımızın üstündə yenidən dalğalandı.

Canım babam, sən həmişə azərbaycanlı olmağınla fəxr etmisən. Sənin xalqın da dünyaya sənin kimi dahi bəxş etdiyi üçün qürurlanır. Heç bir lider xalqını, millətini sənin qədər sevməyib. Səndən bizə çox yadigar qalıb. Ən dəyərlisi «Yol»-dur. Böyük heydər Əliyev yolu. Bu yolun yolçuları vətənə sədaqəti, sevgini, məhəbbəti məhz səndən öyrənirlər.

Həyatın acı qanunları da varmış. Əcəl bir dahini sevdiyi xalqından ayırdı. Bir ölkənin memarı və qurucusu olan dühanın böyük arzularla döyünən ürəyi əbədi susdu. Milyonları kimi mən də onun yoxluğuna inana bilmirəm.

Xalqımın müəllimi, sərkərdəsi olan bir dahi ölərmi? Əsla yox!

Mən Ulu Öndərimi itirmişəm. Amma inamımı, ümidimi itirməmişəm. Çünki Heydər Əliyev ocağının qılınc kimi kəsərli sözü, əməli olan İlham Əliyev kimi varisi var. 10 ildən artıqdır ki, İiham Əliyev Azərbaycanı uğurla idarə edir. Heydər Əliyev «Mən İlham Əliyevə özüm qədər güvənirəm və onun gələcəyinə böyük ümidlər bəsləyirəm», – deyəndə sanki bu günümüzü görürmüş.

Mən sabaha inanıram və böyük ümidlər bəsləyirəm. Bilirəm ki, sabahım bu günümdən də gözəl olacaq. Ali məktəbə qəbul olub, müəllim olmaq arzusundayam. Əgər bu peşəyə nail olsam, ilk dərsim təbii ki, «Heydər Əliyev» olacaqdır.

Ulu Öndərimin abidəsi çiçəklənən ölkəmin hər guşəsində ucaldılır. Onun ən böyük abidəsi isə xalqımızın ürəyindədir...

*Millətimin and yeri , ibadət məbədidir,*
*Əməli, abidəsi, ölməzdir, əbədidir.*
*Heydər bir millətin yox, Turanın Heydəridir.*
*Yaşayacaq bizimlə, yaşadıqca Millətim!*
*Ucalacaq bizimlə, ucaldıqca Millətim!*





**Feyzullayeva Gültəkin Namiq qızı**
**Biləsuvar şəhəri, Nəriman Nərimanov adına 6 nömrəli tam orta məktəbin IX sinif şagirdi**

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

Səməd Vurğun

Azərbaycan tarixi boyunca adına, şərəfinə layiq dahilər yurdu olmuşdur. Dahilik xalqın taleyüklü məsələlərini öz çiynində şərəflə daşımaqdır. Dahilik özü üçün deyil, əksinə, özünü, öz taleyini unudaraq xalqın problemlərini həyatının ayrılmaz tərkib hissəsi hesab etməkdir. Belə olub dahilər həmişə. Fövqəlinsan olmuşlar dahilər. Dünya yarananadan yalnız ən çətin məqamlarda Tanrı yer kürəsinə dahilər göndərmişdir. Onlar insanların yol tapa bilmədiyi vaxtlarda düzgün yol göstərmişlər.

Bəli, Azərbaycan 71 il nəhəng Sovet imperiyasının işğalı altında olmuşdur. Lakin xalqımızın gələcəyə doğru uzanan ümidləri bu imperiyanın sonunu yaxınlaşdırırdı.

Hələ 60-cı illərdən başlayan azadlıq, suverenlik uğrunda mübarizə sonunda öz nəticəsini verdi. Azərbaycan 1991-ci ildə ikinci dəfə müstəqil oldu. Bu müstəqillik sükanının arxasında dahi fenomen şəxsiyyət, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev dayanırdı. Buna görə də sükanın istiqaməti gələcəyə doğru uğura yönəldi.

Heydər Əliyev – xalqımızın illərlə arzuladığı, fenomen şəxsiyyət!

Heydər Əliyev – Azərbaycan şeirlərinin, nəğmələrinin lirik qəhrəmanı.

10 May 1923-cü il. Bu tarix xalqımızın yaddaşında müqəddəs bir gün kimi qeyd olunur. Ona görə yox ki, həmin gün dünyaya insan gəlib. Ona görə ki, həmin gün qədim yurdumuz Azərbaycanı öz əməlləri ilə yaşadacaq,

onu dünya dövlətləri içərisində tanıdacaq bir insan gəlib dünyaya. Azərbaycan dünyaya belə bir insan yetişdirdiyi üçün möhtəşəm diyardır:

*Vərəq-vərəq dastanlara*
*Sığışmayır sənin adın.*
*Sən şöhrətin zirvəsinə*
*Asan yolla ucalmadın!*
*Yana-yana yaşayaraq*
*Zinət verdin bu həyata*
*Bu dünyada hər şey, hər kəs*
*Qocalsa da, qocalmadın!*
*Bir abidə ucaltdın ki,*
*O, əbədi zaman-zaman*
*Tarixlərə sinə gərdi*
*Qədim, yeni Azərbaycan!*

Əziz babam, doğrudur ki, mən şair deyiləm. Ancaq sənin abidən, Azərbaycanı dolaşan ruhun qarşısında baş əyərkən ürəyimdəki sözlərimi dodaqlarım pıçıldadı. Səni vəsf etməyə qüdrətim olsaydı, bacarıqlı əməllərini tanıtmaq üçün dastan yazardım. Təəssüf ki, buna qüdrətim çatmır.

Uşaqlıq illərini doğma Naxçıvan torpağında keçirərək, oxumaq üçün Bakıya gəlmişdir. Sonra isə tarix, sənaye fakültələrini bitirərərk Azərbaycanın gələcəyi üçün çalışmağa başlamışdır:

*Günlər var ki, tarixlərdən gəlib keçər,*
*Bir izi yox, ləpir salmaz sal daşlarda*
*Gün də var ki, gəlişiylə bir eraya yönüm biçər,*
*Əbədiyyət qazanacaq, həkk olunar yaddaşlarda!*

Bəli, Heydər Əliyevin gəlişi bir eraya yönüm biçən bir gün oldu.

O, Azərbaycanın təhlükəsizlik orqanlarında çalışdığı vaxtlarda Moskvaya dəvət edilmişdir. Heydər Əliyev Moskvada olmasına baxmayaraq, həmişə xalqını düşünmüş və Azərbaycanı layiqincə təmsil etmişdir. Heydər Əliyevin gördüyü bacarıqlı işlər sayəsində Azərbaycan dünyada tanınmışdır.

1993-cü illərdə bağlanan «Əsrin müqaviləsi» Azərbaycanı bir daha dünyaya tanıtdı. Bu müqavilə nəticəsində Ermənistan – Azərbaycan münaqişəsində şəhid qanları tökülmədi. Bu isə ordumuzun daha da güclənməsinə şərait yaratdı. İndi Azərbaycan ordusu regionun ən güclü ordusu sayılır.

Heydər Əliyev Azəraycanı ATƏT, BMT kimi nüfuzlu təşkilatlarda tanıtmışdır.



«Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətin bir işdir» – deyən dahi Öndərimiz Azərbaycanın uğurlu gələcəyi üçün əlindən gələni əsirgəmirdi. Bunun nəticəsində ölkəmizdə təhsil, sənaye surətlə inkişaf etmiş və hələ də inkişaf etməkdədir.

«Biz bir millət, iki dövlətik», – deyən Heydər Əliyev Türkiyənin dövlətimizə dayaq olmasını istəmiş və buna tam nail olmuşdur.

Hal-hazırda elə bir məsələ yoxdur ki, regionumuzda Azərbaycanın rəyi olmadan həyata keçirilsin.

Mən düşünürəm ki, Heydər Əliyev bizdən cismən ayrılıb, ruhən ayrılmayıb. Dahi Öndərimiz bir parlayan günəş kimi öz şəfəqlərini Azərbaycana saçır. Biz bu gün də həmin şəfəqlərdən bəhrələnirik. O ölsə də, daim bizim qəlbimizdə yaşayacaq və əbədi olaraq qalacaqdır:

*Ölüm var ki, adı yalnız ölümdür,*
*Ölüm var ki, zirvəliyə dönümdür,*
*Ölüm var ki, əlli olar, yüz olar,*
*Ölüm var ki, zirvəliyə yazılar!*

Əziz babam, bu il 90 illik yubileyini qədirbilən xalqımız qeyd edir. Sən bu gün həyatda yaşamasan da, sənin tutduğun uğurlu yolu cənab İlham Əliyev davam etdirir. Biz ən azından sənə ona görə minnətdarıq ki, bizə Azərbaycan kimi müstəqil dövlət, İlham Əliyev kimi prezident bəxş etmisən.

Bu gün bizimlə birlikdə olmasan da, sənin sevgin qəlbimizdə dərin iz buraxmışdır.



**Müslümova Arzu Murtuz qızı**
*Bakı şəhəri, Həbibulla Hüseynov adına 83 nömrəli tam orta məktəbin X sinif şagirdi*

Bəzən elə olur ki, xalqın, millətin köməyə, yardıma ehtiyacı olur. Bu zaman Tanrı yer üzünə yardım edəcək bir şəxsiyyət göndərir. XX əsrdə də məhz Azərbaycan xalqının yardıma ehtiyacı vardı. Bu zaman Ulu Tanrı ümummmilli lider Heydər Əliyevi bizim xalqımıza bir xilaskar kimi bəxş etdi. Ulu Öndər dövlətimizi bütün dünyaya tanıtdı.

«Mən yalnız xalqıma arxalanıram. Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» kəlməsi ilə Heydər Əliyev xalqına olan sevgisini bir daha bəyan etdi.

Doğma yurda qayıdışı ilə təklənmiş Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. Azərbaycan rəhbərliyinə dönüşü ilə dövlətimizi vətəndaş müharibəsindən, 1994–1995-ci illərdə isə dövlət çevrilişindən xilas etdi.

Onun rəhbərliyi ilə ilə 1995-ci il noyabrın 12-də ilk dəfə Konstitusiyamızı qəbul etdik.

«Mən yalnız xalqımın gücünə arxalanıram», – deyən Heydər Əliyev həmişə yalnız xalqına arxalandı, xalqından güc-qüvvət aldı və xalqı öz arxasınca apardı. Azərbaycanın müstəqilliyi, dirçəlişi, mədəniyyətinin inki - şafı uğrunda dayanmadan çalışan ümummilli lider Heydər Əliyev xalqımızı, dövlətimizi bütün dünyada tanıtdı.

Ulu öndər Heydər Əliyev vətənimizi düşmənlərdən və «sapı özümüzdən olan baltalardan» qoruyub saxlamışdır. «Qara donlu kafirlər» dinimizi, birliyimizi parçalaya bilmədilər. Düşmənlərin arzusu gözlərində qaldı. Vətənimiz gündən-günə gücləndi, möhkəmləndi. İndi biz qələbədən-qələbəyə qovuşuruq.

Heydər Əliyev vətənini, xalqını canından çox sevərdi. Xalqa müraciə - tində vətənimizi sevməyə çağırardı. Hər çıxışında Heydər Əliyev fəxrlə de - yərdi: «Mən fəxr edirəm ki, azərbaycanlıyam».



Xalqımızın azadlığımız uğrunda apardığı mübarizədə Heydər Əliyev daim öndə getmiş və həmişə xalqına kömək olmuşdur. Həmin dövrdə dövlətimizin dirçəlişi Naxçıvanda daha sürətlə gedirdi. O zaman Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlanırdı. Naxçıvanda gedən yenidənqurma işlərinə ulu öndər Heydər Əliyev başçılıq edirdi. Xalqımızın birinci düşməni M.Qarbaçov və onun əlaltıları tərəfindən təqib olunan Heydər Əliyev Qanlı Yanvar hadisəsindən sonra dara düşmüş xalqına kömək etmək üçün Bakıya gəlir. Qarbaçovun əlaltısı olan və Moskvanın dediyi ilə oturub-duran Ayaz Mütəllibov və əlaltıları dahi Heydər Əliyevi Bakıda qalmağa qoymadılar, onun zəngin təcrübəsi və zəkasından istifadə etmədilər. Vətənin qeyrətli oğlu Heydər Əliyev xalqına kömək olmaqdan məhrum edildi və doğulduğu Naxçıvan diyarına qayıtmalı oldu.

Ancaq daha sonra xalqın təkidi, tələbi ilə Heydər Əliyev yenidən rəhbərliyə qayıtdı. Bu hadisə 1993-cü ilin iyun ayının 15-də baş verdi. Bu zaman Heydər Əliyev Azərbaycan Parlamentinin sədri seçildi. Bir neçə aydan sonra isə Heydər Əliyev ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti oldu.

Heydər Əliyevin rəhbərliyə qayıdışı xalqımızın azadlıq mübarizəsində böyük bir hadisə idi. Bununla, əslində istiqlaliyyət mübarizəmizdə böyük bir çevriliş oldu. Düşmənlərin oxu daşa dəydi, arzuları ürəklərində qaldı.

Heydər Əliyev bizim qaranlıq yolda işığımız, keçilməz çayda körpümüz oldu. Ulu Öndərimiz həmişə xalqına yardım əlini uzatdı, bundan heç zaman boyun qaçırmadı və ən əsası da bununla fəxr etdi. Ümummilli lider Heydər Əliyev xalqla güldü, xalqla ağladı, xalqla kədərləndi, xaqla sevindi. Xalqın kədərini öz kədəri bildi.

Bu dahi şəxsiyyətin – Heydər Əliyevin gözləri sanki gələcəyi görürdü. O, həmişə Azərbaycanın azad, müstəqil, güclü dövlət olacağını söyləyirdi. Azərbaycan müstəqil olduqdan sonra isə gənclərə, xalqa müraciət edərək deyərdi: «Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır və Azərbaycanın bügünki gənc nəsli onu daha ucalara qaldıra - caqdır».

Heydər Əliyev bizim yol ayrıcında yol göstərənimiz oldu. Onun dünyagörüşü, düzgün xarici siyasəti və ən əsası da xalqına olan sevgisi bizi düşmənlərdən qorudu və xilas etdi.

Heydər Əliyevin sayəsində «sapı özümüzdən olan baltalar» yəni, düş - mənlərə arxalanan içimizdəki xainlər ifşa olundu. Xalqımızda milli mənlik, şüur, cəsarət duyğusu baş qaldırdı.

Heydər Əliyev dövlətimizi dünyada tanıtdı, dövlətimizin adını dünyanın ən önəmli səhifələrinə yazdırdı. O, təkcə bizə müstəqil dövlət bəxş etmədi, həm də bu müstəqilliyi qorumağın yollarını öyrətdi.

Xalqla Heydər Əliyevin birliyi dirçəlişimizin əsas təməli oldu.

Bizim mübarizəmiz böyük mübarizə idi və bu mübarizədə qalib gəlməyimizin ən əsas səbəbi içimizdəki azadlıq sevgisi və Heydər Əliyevin daim yanımızda olması idi.

Dünyanın dahi, tanınmış şəxsiyyətləri arasında özünəməxsus yer tutan Heydər Əliyev daim qəlbimizdədir. Yüz illər ötüb keçsə də, onu unutmayacağıq. Ümummilli lider Heydər Əliyevin adı qızıl hərflərlə həm qəlbimizə, həm də yaddaşımıza həkk olunmuşdur.



## MÜNDƏRİCAT

Heydər Əliyevin milli təhsil quruculuğu strategiyası davamlı inkişaf mərhələsində *(Mikayıl Cabbarov)* . . . . . . . . . . . . . . . 5
Respublika müsabiqəsi qaliblərinin inşa yazıları . . . . . . . . . 13
Respublika müsabiqəsi iştirakçılarının inşa yazıları . . . . . . 155

| | |
|---|---|
| Buraxılışa məsul | ***Faiq Şahbazlı*** |
| Kitabı nəşrə hazırlayanlar | ***Rafiq Süleymanlı, Sədaqət Məmmədova, Vətənə Zeynalova*** |
| Bədii və texniki redaktoru | ***Abdulla Ələkbərov*** |
| Kompyuter tərtibatçıları | ***Səbinə Məmmədova, Təhmasib Mehdiyev*** |

HEYDƏR ƏLİYEV
MƏKTƏBLİLƏRİN GÖZÜ İLƏ

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121A

10m

Arf -277693